AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 2

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2021

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Nizami Xudiyev, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Sevil Mehdiyeva, filologiya elmləri doktoru, prof. Buludxan Xəlilov, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2021, №2

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2021

www. filologiyameseleleri.com

DİLÇİLİK

NADİR MƏMMƏDLİ
Filolofiya elmləri doktoru, professor
AMİU-nun Azərbaycan dili və pedaqogika kafedrası
E-mail: elmvetehsilnesriyyati@gmail.com
Ünvan: Bakı, A.Sultanova küç.

ONLAYN İŞGÜZAR KOMMUNİKASİYA VƏ KOMPÜTER-İNTERNET DİSKURSU

Xülasə

Elektron təyinatına görə kompüter işgüzar kommunikasiyasının əsas baza əlamətidir. İnternet bir-birilə bağlı kompüter şəbəkələrinin qlobal sistemidir, müasir dünyada cəmiyyətin və insanın gündəlik həyat tərzində və fəaliyyətində ən mühüm faktora çevrilməklə, bəşəriyyətin vahid cəmiyyət modelini formalaşdırmaqdadır. Bu texnologiya təhsildə də faydalıdır, tələbələr dünyanın müxtəlif yerlərindəki həmkarları ilə əməkdaşlıq, fikir mübadiləsi apara, müxtəlif mədəniyyətlər haqqında məlumat əldə edə bilirlər. Məsafə artıq maneə deyil, əməkdaşlarla internet vasitəsilə səmərəli ünsiyyət qurmaq və məsələləri diqqətlə müzakirə etmək mümkündür.

Kommunikasiya platformaları yalnız biznes üçün deyil, həm də əməkdaşlığın artırılmasına kömək edir, bu da mükəmməl performansın yaxşılaşdırılmasına gətirib çıxarır. İşgüzar ünsiyyətdə internetin bəzi xidmətləri az rentabellidir. Məsələn, mesajların ötürülmə sürəti faydalıdır, lakin dərhal göndərilən mesajda strateji bir səhvin qarşısını almaq qeyri-mümkündür – bu, yazılı formadır, səhvlərin olması, lakin düzəldilə bilməməsi məqbuldur. E-poçtda spam problemləri anlaşılmazlıq, vaxt, pul və resursların itkisinə səbəb olan kiçik və böyük münaqişələr yarada bilir.

Kommunikasiya informasiya mübadiləsinə əsaslanır, prosesin özü göndərənin və alanın texnologiyası, xüsusiyyətləri mədəniyyət amilləri, işgüzar ünsiyyət protokolları ilə müşayiət edilir, mahiyyət yalnız sosial, peşəkar qarşılıqlı münasibətlər və ya kommunikasiyanın baş verdiyi məqsədyönlü fəaliyyət kontekstində anlaşılır. Elmdə bu yeni obyektin analizinin adekvat metodlarının empirik axtarışı aparılır. *Virtual diskurs, elektron diskurs* və *diskurs* anlayışlarının tədqiqatlarına əsaslansaq, *kompüter-diskursu* və *kompüter-internet diskursu* məfhumlarını eyniləşdmək olmaz. Virtuallıq, elektron rabitənin kompüter-internet

diskursun əsas diferensial əlamətlərindən biri olması şübhə doğurmur. Ünsiyyət, dil fəaliyyəti prosesi, danışıq yolu – diskurs müasir dilçilikdə mənaca *mətn* anlayışına yaxındır, lakin ünsiyyət daha dinamikdir, zamana uyğunlaşır, bunun əksi – mətn əsasən statik obyektdir, dil fəaliyyətinin nəticəsi kimi başa düşülür.

İnternet ünsiyyətinin əsasında anonimlik dayanır, heç kəs burada olduğu qədər sərbəst deyil – özünə istədiyi qədər vaxt ayıra bilir, hətta tanınmağını istəmədiyi halda başqa bir şəkil paylaşır, uydurma personaj rolu oynayır, həyatda utancaq, hətta qorxaq olan insan burada öz qabiliyyətlərini, bacarıqlarını göstərir və s. Virtual kommunikasiya yeni bir dil deyil, elektron mesajların yazılma prinsipləri fərqlidir; təqdimat tərzi istifadəçinin və onun alıcısının yaşından, əxlaqından, düşüncə tərzindən asılıdır.

İşgüzar ünsiyyət, internet necə istifadə olunmasından asılı olaraq, münaqişəyə də səbəb ola bilər. İşgüzar kommunikasiyada istifadə olunan şəbəkə etiketi adi nəzakət qaydasının elektron aspektlərini təşkil edir. Bu qaydalar işgüzar mühitdə kommunikasiyanın müxtəlif janrları üçün unifikasiya olunurlar.

Açar sözlər: işgüzar kommunikasiya, veb-sayt, kompüter-internet diskurs, şifahi və yazılı diskurs, mətn, elektron poçt, virtual, kompüter jarqon terminləri.

İnternet bir-birilə bağlı kompüter şəbəkələrinin qlobal sistemidir, müasir dünyada cəmiyyətin və insanın gündəlik həyat tərzində və fəaliyyətində ən mühüm faktora çevrilməklə, bəşəriyyətin vahid cəmiyyət modelini formalaşdırmaqdadır. İstənilən işgüzar kommunikasiyanın effektiv inkişafı əhəmiyyətli dərəcədə ondan asılıdır. İnternet yeni texnologiyalar və tamamilə fərqli həyat tərzi yaratdı. Əslində dəyişikliklər o qədər geniş, qlobaldır ki, internetdən sonra dünyaya gələnlər üçün keçmiş günləri, həyatı başa düşmək, demək olar ki, mümkün deyil.

Elektron təyinatına görə kompüter işgüzar kommunikasiyasının əsas baza əlamətidir, onun xüsusiyyətlərinin daha ətraflı nəzərdən keçirilməsi kontekstində internet ünsiyyətinin polifonik xarakterini göstərmək xüsusi əhəmiyyət kəsb edir. Bu ünsiyyət növü məsafədən məlumat-baza xarakterinə malikdir: internet bir-birindən uzaq olan insanları məkan və zaman baxımından qovuşdurur, onların arasında bir sıra texniki vasitələrlə qarşılıqlı əlaqə həyata keçirir. Yaxın zamanlaradək elektron rabitənin funksiyasını telefon yerinə yetirirdi, ünsiyyət mürəkkəb məsələ idi, bahalı telefon zəngləri və ya uzun səfərlər tələb olunurdu, internet zənglərin dəyərini, birmənalı, azaltdı, hətta sıfıra endirdi. İnternetin yayıldığı vaxtdan işgüzar kommunikasiya – insanların bir-biri ilə əlaqə qurması, faylların mübadiləsi əməkdaşlığı tamamilə dəyişdi, kommunikantlar indi səfər xərcləri olmadan videokonfrans ünsiyyəti qura bilirlər.

Bütün məsələ effektiv komanda işində və yaxşı əməkdaşlıqdadır, internetin inteqrasiyası sayəsində dünyanın müxtəlif yerlərindən daha yaxşı işgüzar ünsiyyət

qurmaq mümkündür. Bu texnologiya təhsildə də faydalıdır, tələbələr dünyanın müxtəlif yerlərindəki həmkarları ilə əməkdaşlıq, fikir mübadiləsi apara, müxtəlif mədəniyyətlər haqqında məlumat əldə edə bilirlər. Məsafə artıq maneə deyil, əməkdaşlarla internet vasitəsilə səmərəli ünsiyyət qurmaq və məsələləri diqqətlə müzakirə etmək mümkündür. Fakt budur ki, sürətli və etibarlı internet bağlantısı təşkilat, xüsusilə də qlobal auditoriyaya istiqamətlənmiş işgüzar kommunikasiya üçün vacib bir aktivdir.

İnternet kommunikasiyası lazım olduqda daha sürətli və səmərəli platformaların köməyi ilə müxtəlif layihələrdə asanlıqla əməkdaşlıq etməyə imkan yaradır, onların həyata keçirilməsinin müddətini azaldır və ən vacibi – vəsaitə qənaət olunur. Bu da layihələrin keyfiyyətinə və ümumi səmərəliliyinə müsbət təsir göstərir və işgüzar ünsiyyət, əməkdaşlıqda yaxşı nəticələr əldə edilir.

İnternetin dəyərini digər mövcud rabitə vasitələri ilə müqayisə etsək, qiymətin əhəmiyyətli dərəcədə az olduğunu görürük – onlayn kommunikasiya daha qənaətlidir və səmərəli qarşılıqlı əlaqə yaratmağa imkan verir. Təcrübə göstərdi ki, internet hətta pandemiya şəraitində, insanların təhlükəsizlik məqsədləri üçün karantinə riayət etməsi zamanında lazım olan vəziyyətdən çıxmağı asanlaşdırdı. Bütün bunlar səmərəli işgüzar ünsiyyətdə internetin mühüm rolunu aydın şəkildə göstərir. Şübhə yoxdur ki, rəsmi sayt, elektron marketinq, onlayn kommunikasiya biznesinin uğur qazanmasında və artmasında həlledici rol oynayır. Kommunikasiya platformaları yalnız biznes üçün deyil, həm də əməkdaşlığın artırılmasına kömək edir, bu da mükəmməl performansın yaxşılaşdırılmasına gətirib çıxarır. İşgüzar ünsiyyət, internet necə istifadə olunmasından asılı olaraq, münaqişəyə də səbəb ola bilər.

Elektron poçt işgüzar ünsiyyətdə internetin ən populyar tətbiqlərindən biridir, həm daxili, həm də xarici kommunikasiyada geniş istifadə olunur: e-poçt istifadəçilərə hər zaman və müxtəlif şəraitlərdə ünsiyyətə imkan verir, bu da sorğu, söhbət və digər mühüm məlumatların izlənilməsində effektiv bir yoldur. İşgüzar kommunikasiyada internetin ən əhəmiyyətli daxili istifadə növlərindən biri yalnız müəyyən bir təşkilatın üzvləri üçün mövcud olan veb-saytdır; icma bülleteni və işçilər üçün zəruri, faydalı olan forma, məlumat və digər resurslara daxil olmaq üçün bir mənbə kimi xidmət edir. Müasir dövrümüzdə, demək olar ki, hər sahədə asılı olduğumuz və həyatımızı onsuz təsəvvür edə bilmədiyimiz bir vaxtda internet işgüzar kommunikasiya və marketinq strategiyalarına güclü təsir göstərir. Veb-sayta daxil olanlar təkcə əlaqə saxlamır, tövsiyələr əldə edə bilirlər, bu hər hansı bir narahatlığın və yubanmanın qarşısını alır. Sürətli qarşılıqlı əlaqə və ani reaksiya biznesdə həlledici rol oynayır, işə davamlılıq inam və müştəri məmnuniyyətini qazandırır. Veb-sayt yaratmaq və işgüzar fəaliyyətə başlamaq üçün investisiya yox, yalnız etibarlı bir internet bağlantısı lazımdır. İnternet saytlarının əksəriyyəti parolla qorunur və bəziləri hətta yalnız müəyyən işçi qrupları üçün mövcud olan bölmələrə

malikdirlər. Veb-sayt işgüzar ünsiyyətdə satış, resurs və ya biznesin aparılmasında mühüm metod sayılır.

İşgüzar ünsiyyətdə internetin bəzi xidmətləri az rentabellidir. Məsələn, mesajların ötürülmə sürəti faydalıdır, lakin dərhal göndərilən mesajda strateji bir səhvin qarşısını almaq qeyri-mümkündür – bu, yazılı formadır, səhvlərin olması, lakin düzəldilə bilməməsi məqbuldur. E-poçtda spam problemləri anlaşılmazlıq, vaxt, pul və resursların itkisinə səbəb olan kiçik və böyük münaqişələr yarada bilir.

Kommunikasiya informasiya mübadiləsinə əsaslanır, prosesin özü göndərənin və alanın texnologiyası, xüsusiyyətləri mədəniyyət amilləri, işgüzar ünsiyyət protokolları ilə müşayiət edilir, mahiyyət yalnız sosial, peşəkar qarşılıqlı münasibətlər və ya kommunikasiyanın baş verdiyi məqsədyönlü fəaliyyət kontekstində anlaşılır. İnternet şəbəkəsi meydana gələndən ünsiyyətiin forma və modelləri də dəyişmişdir, ilkin mərhələdə qlobal şəbəkələrdə kommunikasiya subyektləri tərəfindən bilinməyən göndərən və məlumat alıcıları var idi, indi kommunikasiya kütləvi ünsiyyət kimi müəyyən edilir. Şəxslərarası ünsiyyətdən fərqli olaraq, kütləvi kommunikasiya interaktiv və bir istiqamətli ola bilər. Şəbəkələrdəki kütləvi ünsiyyət (YouTube, bloq), ənənənin əksi – bir istiqamətli, eləcə də potensial olaraq böyük bir auditoriya üçün qurula bilər. Müasir şəbəkələrdə kommunikasiyanın üç növü mövcuddur: şəxslərarası, kütləvi və birgəyaşayış; onlar bir-birini tamamlasalar da, əvəz etmirlər.

Müasir informasiya – korporativ və qlobal şəbəkələr cəmiyyətin idarəetmə mexanizmini dəyişdirdi – informasiyanın açıqlığı və şəbəkədə avtonom kommunikasiyanın mövcudluğu bir tərəfdən müxtəlif maraqları olan kiçik qruplar üçün yeni imkanlar yaradır, digər tərəfdən isə yeni mədəni, sosial və s. xüsusiyyətlər gətirir, cəmiyyətdə idarəetməni yeniləyir (1).

Müasir informasiya cəmiyyətində zaman və məkan kimi baza anlayışları da transformasiya olunur. Texnologiyaların inkişafı bəzi prosesləri təşkil etməyə, birgə iş, kommunikasiya və s. üçün virtual məkan qurmağa imkan verir. Elektron kommunikasiya özündə müxtəlif diskurs tiplərini birləşdirən internet-ünsiyyətdə mühüm rol oynayır. İnformasiya cəmiyyəti təkcə genişlənməkdə olan məlumat yığımının və emalının imkanlarını deyil, həm də yeni kommunikasiya formalarını fərqləndirir. Şəbəkə istifadəçiləri arasında ünsiyyət təbii dil vasitələri ilə həyata keçirilir, internetlə bu sırada əlavə funksiyalar əldə edilir. Elektron diskurs kommunikasiyanın, sözün əsl mənasında, yeni və keyfiyyətli bir formasıdır.

Bu gün internetin kommunikativ mühitdə dilin və bütövlükdə şəxsiyyətin özünəməxsus transformasiyasının olduğu haqqında danışmaq olar. Əslində, hər bir şəxs bu və ya başqa bir şəkildə yalnız danışıq-mətn vasitəsilə özünü tanıdır. Bu, verbal kommunikasiya ilə bağlıdır, elektron mühitdə kommunikantların təqdimatı spesifik diskurs çərçivəsində həyata keçir. Elektron diskurs üçün distantlıq və vasitəçilik səciyyəvidir, lakin bu kommunikasiya prosesini həm asanlaşdırır, həm də çətinləşdirir. İnternetdə kommunikasiyaya xidmət edən şifahi və yazılı nitq fikirlərin

ardıcıllığı, janr-üslub normaları kommunikativ strategiya və taktika səviyyəsində transformasiyaya məruz qalır, internet-ünsiyyət üslubunun spesifik xüsusiyyətləri, hətta dillə bağlı dərin refleksiyaya meyilli olmayan adi internet istifadəçilərinin də diqqətini çəkir. Bunlardan ən zərərlisi ümumiişlək-danışıq leksikasına və işgüzar diskurslara keçən kompüter jarqonlarıdır. Dilimizə kompüter terminologiyası fəal şəkildə daxil olur, lakin qeyri-peşəkarlar və fəal istifadəçilər arasında kompüter jarqonu geniş yayılır. Məsələn:

vint – vinçester

qama – kompüter oyunu

yuzat – şübhəli istifadəçi

haker – şəbəkədə və ya başqa bir yerdə tapılan digər mənbələrdən və fikirlərdən istifadə edərək virusları yazan lamerlər; müxtəlif şəbəkə təhlükəsizliyi xidmətləri; dar ixtisaslaşmaya malik olan, proqram təminatı lisenziya proqramının alınması üçün vəsaiti olmayan adi istifadəçilər üçün fayda verən

pros – prosessor, kompüterin dəmir ətrafı

kuler – ventilyator (adətən prosessorda yerləşir)

materinka – ana plata

flop – disk yeri

ram – operativ yaddaş

mış – siçana oxşar əl manipulyatoru

vinçester – sabit disk

virus – "xeyirxah" insanlar tərəfindən yaradılan, kompüterə ziyan vuran pulsuz bir proqram

antivirus – "xeyirxah" insanların yaratdığı zərərverici əməllərə qarşı əks-proqram

çat – adətən insanlar arasında faydasız virtual əyləncə, ünsiyyət

spam – təmizlik içində zibil (adətən aqressiv-reklam xarakteri daşıyır)

kilo – kilobayt.

meqa – meqabayt

Nəticədə, kommunikasiya terminologiyasında müxtəlif dünyagörüşləri təmsil edən müəyyən mədəni-nitq şəbəkə etiketləri və üslubi modellər tənzimləyici rol oynayır. Milli mentaliteti və ifadə-diskurs xüsusiyyətlərini nəzərə almaqla, işgüzar ünsiyyətin emosional komponenti şəbəkədə kommunikasiya növləri və üsullarını, bir qayda olaraq, müxtəlif mədəniyyətlərin nümayəndələri üçün unifikasiya etməyə meyillidir. Aydındır ki, sosial gerçəkliyin qavranılmasında diferensial modellərdən istifadə edilir və bu hiperkommunikasiya sistemində dil konstruksiyasının istifadəsində özünü göstərir. Müvafiq olaraq, işgüzar kommunikasiyaya koqnitiv, sosial-psixoloji, fəlsəfi və mədəni tərkibləri nəzərə alaraq yanaşmaq, təhlil etmək optimal olardı. Müxtəlif linqvokulturoloji sahənin nümayəndəsi kimi kommunikantların şüurunda dil və koqnitiv tərkib hissələri birbaşa elektron diskursun xüsusiyyətlərini müəyyənləşdirir.

Kompüter-internet diskurs son illər həyata keçirilən çoxlu sayda tədqiqatın obyektidir. Bu mövzunun yeniliyi və işlənməməsi bir çox məsələlərin həllində fərqli yanaşmalara gətirib çıxarır, uyğunsuzluq hətta tədqiq olunan obyektin nominasiyası səviyyəsində özünü göstərir. Belə ki, bir çox müəlliflər təkcə *kommunikasiya*, *ünsiyyət* və *diskurs* deyil, *elektron, virtual, kompüter* və ya *internet* anlayışlarını qarışdırır, eyni obyekt üçün müxtəlif nominasiyalardan istifadə edirlər. Aydınlığın olmaması razılaşdırılmamış yanaşmaların və kompüter-internet diskursunda əlamət və xüsusiyyətlərin müəyyən edilməməsinə səbəb olur. Elektron diskurs internet saytlarında yazılı ünsiyyətdir, interaktiv xarakter daşıyır, real vaxt rejimində şifahi şəkildə həyata keçirilir.

Elmdə bu yeni obyektin analizi üçün adekvat metodlarının empirik axtarışı aparılır. *Virtual diskurs, elektron diskurs* və *diskurs* anlayışlarının tədqiqatlarına əsaslansaq, *kompüter-diskursu* və *kompüter-internet diskursu* məfhumlarını eyniləşdmək olmaz. Virtuallıq, elektron rabitənin kompüter-internet diskursunda əsas diferensial əlamətlərindən biri olması şübhə doğurmur. Ünsiyyət, dil fəaliyyəti prosesi, danışıq yolu – diskurs müasir dilçilikdə mənaca *mətn* anlayışına yaxındır, lakin ünsiyyət daha dinamikdir, zamana uyğunlaşır, bunun əksi – mətn əsasən statik obyektdir, dil fəaliyyətinin nəticəsi kimi başa düşülür. "Dil əlaqələri əsasında təşkil olunan sintaktik vahidin məzmunlu birləşməsi bütövlükdə mətn adlanır. Mətn dilin varlığında ilk əlamətdir. Forma və məzmun əlamətindən məzmunlu forma faktı və məzmunun təşkili, hər şeydən əvvəl onu tələb edir ki, üslubi təhlil "məzmunun tərtibi" xarakterində olur. Bu da mətnin üzə çıxması deməkdir" (2, 24). *Diskurs* həm dil fəaliyyətinin dinamik prosesi, həm də onun nəticəsidir (yəni mətn). "Diskurs, bir qayda olaraq, yaxın (üz-üzə) təmas bazasında, yəni, aktiv və passiv kommunikantın vizual və vokal təmas məsafəsində olduğu zaman reallaşan ünsiyyət prosesində yaranır. Diskursiv ünsiyyətə real həyatda əyani şəkildə yaşanan ünsiyyət də demək mümkündür. Bu ünsiyyət üçün aktiv və passiv kommunikant faktoru nə qədər vacibdirsə, həmin ünsiyyətin cərəyan etdiyi real zaman, şərait və situasiyanın özü də bir o qədər vacibdir. Danışan və dinləyən şəxslərin üz-üzə dayandığı, bir-birini həm görmək, həm də eşitmək imkanına malik olduğu təbii şəraitdə baş verən dialoq, söhbət, mübahisə və s. diskursun ən bariz nümunəsi hesab oluna bilər. Burada qeyd edilən "təbii şərait" ifadəsi çox vacib faktorlardan və ya şərtlərdən biridir, çünki, təbii şəkildə baş verməyən dialoq, söhbət, mübahisə və s. diskurs deyil, nitq mahiyyəti daşıyır" (3, 260). Diskurs, istənilən kommunikativ akt kimi, *dialoq* anlayışına çox yaxındır: fundamental rollar danışan (müəllif) və ünvan sahibidir. Bu zaman diskurs iştirakçıları arasında – müəllif və ünvan sahibinin rolu növbə ilə yenidən bölüşdürülə bilər, bu – dialoqdur. Əgər diskurs (və ya diskursın əhəmiyyətli hissəsi) ərzində danışanın rolu eyni şəxs üçün nəzərdə tutulubsa, bu – monoloqdur. Monoloqda yeganə iştirakçı olduğu üçün mübahisə haqqında düşünmək olmaz.

Dünya kompüter şəbəkəsinin inkişafı elə bir səviyyəyə çatıb ki, bu reallıq *virtual* adı alıb və çox sürətlə yayıldığına görə onu nəinki proqnozlaşdırmaq, hətta

əhəmiyyətini, sosial, koqnitiv, texnoloji və etik aspektlərini təsvir etmək mümkün deyil, bu fenomenin elmi ictimaiyyətin, işgüzar ünsiyyət iştirakçılarının diqqətindən kənar olduğunu söyləmək olmaz. Virtual ünsiyyət elə bir üsuldur ki, insanlar arasında kommunikasiyada internet şəbəkələri vasitəçidir – bütün qarşılıqlı əlaqələr virtual reallıq məkanında həyata keçirilir (4, 289-290). Bir çox insanlar üçün virtual kommunikasiya həyat tərzinin bir hissəsidir, o, daha çox tələsik yazılı ünsiyyətdir və teleqraf sintaksisinə uyğun, son dərəcə sadədir – bəzən böyük hərflərdən, durğu işarələrindən imtina edilir, qənaət prinsipi ilə hazır cavablara və ixtisarlara müraciət olunur. Virtual prosesdə danışanlar bu ünsiyyətin məqsədləri üçün ən rasional dil vasitələrini seçirlər, leksik və qrafik ixtisarların bolluğu bununla izah olunur (5, 11). İnternet ünsiyyətinin əsasında anonimlik dayanır, heç kəs burada olduğu qədər sərbəst deyil – özünə istədiyi qədər vaxt ayıra bilir, hətta tanınmağını istəmədiyi halda başqa bir şəkil paylaşır, uydurma personaj rolu oynayır, həyatda utancaq, hətta qorxaq olan insan burada öz qabiliyyətlərini, bacarığını göstərir və s. Virtual kommunikasiya yeni bir dil deyil, elektron mesajların yazılma prinsipləri fərqlidir; təqdimat tərzi istifadəçinin və onun alıcısının yaşından, əxlaqından, düşüncə tərzindən asılıdır. Bu dil çox sürətlə inkişaf edir və dəyişir. Vahid bir norma yoxdur və hər bir istifadəçi yeni sözlərdən, ixtisar variantlarından istifadə etməklə onun təkamülünə təsir göstərə bilər.

Elektron diskursun janr diferensiasiyası daha çox işgüzar kommunikasiyanın spesifikliyi ilə bağlıdır. İşgüzar əlaqələrin elektron janrları – məktublar, videokonfrans və müzakirələr sosial şəbəkələrdə ünsiyyəti təmsil edirlər. Sinxron və asinxron rabitə elektron işgüzar diskursun xüsusiyyətləridir; janrların bəzisi yazılı nitqə (statik), digəri söhbətə – şifahi nitqə meyillənən diskurslara malikdirlər, bəzi janrlarda bu amillərin üst-üstə düşməsi də baş verir, söhbətin spesifikliyi *şifahi və yazılı diskursun birləşməsindədir*. Əgər elektron məktublardan danışsaq, epistolyar janr transformasiyaya uğrayır, diskret sintaksis, ixtisarlar, punktuasiya qanunları önə keçir. İşgüzar elektron diskursda şəxsi və statuslu ünsiyyət arasındakı sərhəd silinir: bir tərəfdən dəqiqlik və aydınlıq, digər tərəfdən isə danışıq tərzinə xas olan sintaksis. "Real kommunikasiyada əhəmiyyət kəsb edən bəzi şəxsi parametrlər sadəcə tənzimlənə bilər. İnternet istifadəçiləri, daha çox şəxsi maraqları baxımından reqlamentə, subordinasiyaya əməl etmədən fikirləri ilə birbaşa təsir etməyi xoşlayırlar" (6).

Virtual kommunikasiya prosesində yaranan maneələrin səbəbi kommunikantların koqnitiv məkanlarının bir-birinə uyğun gəlməməsi və gerçəkliyin müxtəlif modellərinin qəbul edilməsidir – bu da təsirini elektron diskursda göstərir. Kommunikativ maneələrin aradan qaldırılmasının əsasında çeviklik, digər mədəniyyətlərin maksimal dəqiq başa düşülməsinin, xüsusiyyətlərinin və kontekstinin nəzərə alınmasının motivasiyası dayanır. Adaptasiya, bir qayda olaraq, tərəfdaşın linqvokulturoloji spesifikliyinə uyğun qurulması və müvafiq kommunikativ addımların atılması ilə həyata keçirilir.

Əksər tədqiqatçılar, qeyd etdirdiyimiz kimi, kompüter-internet diskursunu interaktiv (həmsöhbətin mesaja reaksiyası) janrlara bölürlər: söhbət, məşvərət, forum, konfrans, bloq, elektron poçt və s. Ümumiyyətlə, kompüter-internet diskursunun janrları haqqında fikirləri tamamilə yekun hesab etmirik. Bu təqdimatda internetin kompüter vasitəsilə insanlar arasında yalnız ünsiyyətə xidmət etməsi anlaşılır. Lakin kompüter-internet diskursu təkcə ünsiyyət iştirakçıları arasında deyil, internet məkanında da mövcuddur. Axtarış, ödəniş sistemləri, reklam və digər xidmətlər kompüter-internet diskursu haqqında daha geniş təsəvvür formalaşdırır. Çoxsaylı internet xidmətlərinin tam təsvirini vermədən kompüter-internet diskursunun əsas əlamətlərini və funksiyalarını düzgün müəyyənləşdirmək, geniş təsəvvür yaratmaq olmaz.

Kompüter-internet diskursu çoxşaxəlidir, internet xidmətlərinin (və ya sahələrinin) xüsusiyyətlərini nəzərə alsaq, onun tərkib hissələrini və lazımi məlumatları əldə etmək mümkündür; internet məkanı istifadəçilərinə bir çox fəaliyyət növlərini həyata keçirmək imkanı verir. Hal-hazırda kompüter-internet diskursu aşağıdakı sahələrə bölünür: a)əsas xidmətlər – dünya şəbəkəsi (e-poçt), b)axtarış sistemləri - mesajlaşma, c)oyunlar, ç)onlayn-xəbər. Bu əsas sahələr digər xidmətlərin köməyi olmadan bilavasitə istifadə oluna biləcək müstəqil internet məkanıdır, əsas xüsusiyyəti şifahinin yazılı diskursa qarşı qoyulmasıdır. Fərq informasiyanın ötürülməsi ilə bağlıdır: şifahi diskurs akustik, yazılı diskurs vizualdır; qarşıdurma: dilin şifahi və yazılı formaları diskursla mətn arasındakı fərqə bərabərdir (7, 118-119).

Elektron işgüzar diskurslara şəxsi və rəsmi diskursların kombinasiyası kimi baxmaq olar. İşgüzar kommunikasiyada istifadə olunan şəbəkə etiketi adi nəzakət qaydasının elektron aspektlərini təşkil edir. Bu qaydalar işgüzar mühitdə kommunikasiyanın müxtəlif janrları üçün unifikasiya olunurlar. Təbii ki, bu cür diskursa nail olmağa yönəlmiş davranışın stereotipləşdirilməsi sabit kommunikasiya alqoritmləri, qaydaları, spesifik işarələr eyni nitq kodu üçün səciyyəvidir.

Ədəbiyyat

1.Ətraflı bax: https://studme.org/64406/menedzhment/spetsifika_onlayn-kommunikatsii_diskursivnye_osobennosti
2. Ətraflı bax: Q.Bəyzadə. Mətn dilçiliyi.Bakı, “Qorqud”, 1997.
3. Mayıl Əsgərov. Diskurs, nitq və mətnin linqvo-psixoloji mahiyyəti və qarşılıqlı transformasiya potensialı // AMEA Nəsimi adına Dilçilik İnstitutunun əsərləri. №1, Bakı, “Elm və təhsil”, 2018.
4. Кристал Д. Язык и Интернет. М., 2001.
5.Н.Петрова. Русский Интернет как открытое фольклорное сообщество. Интернет-публикация(https://www.visualtech.ru/vculture/folklor/Folklor.html), 1998.

6.Вах: Жохова Н.Н.Влияние интернет-коммуникаций на социальное поведение // Материалы научно-практической конференции с международным участием: Актуальные проблемы современного образования: опыт и инновации. Отв. редактор А.Ю. Нагорнова. Тольятти, 27-28 ноября 2014 г. Издательство: SIMJET (Ульяновск), 2014, с.370 – 375; Жохова Л.А., Жохова Н.Н. Тенденции развития интернет-коммуникаций в российском обществе // Известия МГТУ «МАМИ». Экономика и управление. Социально-гуманитарные науки. Научный рецензируемый журнал. М., МГТУ «МАМИ», № 3 (21), 2014, т. 5. с.125 – 130; Жохова Л.А., Жохова Н.Н.Влияние социальных сетей на современное общество // Теоретические и практические вопросы психологии и педагогики: сборник статей Международной научно-практической конференции (10.12.2015, г. Челябинск), в 2 ч., ч.1., Уфа: АЭСТЕРНА, 2015. с.177 – 180; Кастельс М. Информационная эпоха: экономика, общество и культура. М.: ГУ ВШЭ, 2010, с.464.
7. Кубрякова Е.С. Эволюция лингвистических идей во второй половине XX века // Язык и наука конца X века. М.: Институт языкознания РАН, 1995.

Надир Мамедли
Доктор филологических наук, профессор

ОНЛАЙН ДЕЛОВАЯ КОММУНИКАЦИЯ И КОМПЬЮТЕР-ИНТЕРНЕТ ДИСКУРС

Резюме

Ключевые слова: деловая коммуникация, веб-сайт, интернет-клмпютер дискур, устный и письменный дискурс, текст, электронная почта, виртуал, компьютерные жаргонные термины.

По своему электронному обозначению компьютер является основным базовым признаком делового общения. Интернет будучи глобальной системой взаимосвязанных компьютерных сетей, став важнейшим фактором повседневной жизни и деятельности общества и человека в современном мире, формирует целостную модель человеческого общества. Эта технология также полезна в образовании, студенты могут сотрудничать, обмениваться идеями, узнавать о различных культурах от своих коллегами из разных уголков мира. Расстояние больше не является препятствием, с сотрудниками можно эффективно общаться через интернет и тщательно обсуждать вопросы.

Коммуникационные платформы не только полезны для бизнеса, но и помогают расширить сотрудничество, что приводит к повышению производительности. Некоторые услуги интернета в деловом общении менее выгодны. Например, скорость передачи сообщений полезна, но избежать стратегической ошибки в послании, отправляемом сразу, невозможно – это

письменная форма, допустимые ошибки не могут быть исправлены. Проблемы со спамом в электронной почте могут создавать мелкие и большие конфликты, которые приводят к недоразумениям, потере времени, денег и ресурсов.

Коммуникация основана на обмене информацией, сам процесс сопровождается технологией отправителя и получателя, его особенностями, факторами культуры, протоколами делового общения, сущность которых понимается только в контексте социального, профессионального взаимодействия или целенаправленной деятельности, в которой происходит общение. В науке ведется эмпирический поиск адекватных методов анализа этого нового объекта. Опираясь на исследования понятий виртуального дискурса, электронного дискурса и дискурса, нельзя отождествлять понятия компьютер-дискурс и компьютер-интернет-дискурс. Виртуальность не оставляет сомнений в том, что электронная коммуникация является одним из основных дифференциальных признаков компьютерно-интернет-дискурса. Общение, процесс языковой деятельности, речевой путь – дискурс в современном языкознании близки по смыслу к понятию текста, но общение более динамично, приспосабливается ко времени, наоборот – текст преимущественно статический объект, понимаемый как результат языковой деятельности.

В основе интернет-общения лежит анонимность, здесь каждый свободен – он может уделять себе столько времени, сколько ему хочется, делиться другой картиной, даже если он не хочет, чтобы его узнали, играть роль вымышленного персонажа, в жизни застенчивый, даже трусливый человек показывает здесь свои способности, умения и т.д. Виртуальная коммуникация – это не новый язык, принципы написания электронных сообщений различны, стиль изложения зависит от возраста, нравственности, мышления пользователя и его получателя.

Деловое общение, в зависимости от того, как используется интернет, также может привести к конфликту. Сетевой этикет, используемый в деловом общении, представляет собой электронные аспекты обычной вежливости. Эти правила унифицированы для различных жанров общения в деловой среде.

Nadir Mammadli
Doctor of Philological Sciences, Professor

ONLINE BUSINESS COMMUNICATION AND COMPUTER-INTERNET DISCURSE

Key words: business communication, website, computer-internet discourse, oral and written discourse, text, e-mail, virtual, computer jargon terms

Summary

According to the electronic purpose, the computer is the main feature of business communication. The Internet is a global system of interconnected computer networks, becoming the most important factor in the daily life and activities of society and man in the modern world, forming a unified model of society. This technology is also useful in education, students can collaborate with colleagues around the world, exchange ideas, learn about different cultures. Distance is no longer an obstacle, it is possible to communicate effectively with employees via the Internet and discuss issues carefully.

Communication platforms help to increase collaboration not only for business, but also to improve excellent performance. Some Internet services are less profitable in business communication. For example, the speed of message transmission is useful, but it is impossible to avoid a strategic error in an instant message - it is a written form, it is acceptable that there are errors, but can not be corrected. Spam problems in e-mail can create small and large conflicts that lead to misunderstandings, loss of time, money and resources.

Communication is based on the exchange of information, the process itself is accompanied by the technology, characteristics of the sender and recipient, cultural factors, business communication protocols, the essence of which is understood only in the context of social, professional relationships or purposeful communication. Science is conducting an empirical search for adequate methods of analysis of this new object. Based on the study of the concepts of virtual discourse, electronic discourse and discourse, the concepts of computer discourse and computer-internet discourse cannot be equated. There is no doubt that virtuality and electronic communication are one of the main differential features of computer-internet discourse. Communication, the process of language activity, the way of speech - discourse in modern linguistics, the meaning is close to the concept of text, but communication is more dynamic, adapts to time, on the contrary - the text is mainly a static object, understood as a result of language activity.

Internet communication is based on anonymity, no one is as free as he is here - he can spend as much time as he wants, even if he doesn't want to be recognized, he shares another picture, plays the role of a fictional character, a shy or even cowardly

person shows his abilities here . Virtual communication is not a new language, the principles of writing electronic messages are different; The style of presentation depends on the age, morals and way of thinking of the user and his recipient.

Business communication can also lead to conflict, depending on how the Internet is used. Network etiquette used in business communication is an electronic aspect of ordinary courtesy. These rules are unified for different genres of communication in the business environment.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: akademik Rafael Hüseynov
tərəfindən çapa tövsiyə olunmuşdur

VÜQAR QARADAĞLI
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti
Zahid Xəlilov küçəsi – 23

HƏFS İLƏ VƏRŞ RƏVAYƏTLƏRİ ARASINDA LEKSİK-QRAMMATİK SƏCİYYƏLİ FƏRQLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ (II HİSSƏ)

XÜLASƏ

Müəllifin məqsədi məqalədə Asim qiraətindən edilən Həfs rəvayəti (bundan sonra – AH) [4, 15, 118-119] ilə Nafe qiraətindən edilən Vərş rəvayəti (bundan sonra – NV) [4, 43, 63] arasında feillərdəki leksik-qrammatik səciyyəli fərqlərin müqayisəli təhlilini aparmaqdır. Başqa sözlə, qarşımıza qoyduğumuz məqsəd rəvayətlər arasında feillərdəki leksik-qrammatik səciyyəli fərqlərin bu və ya digər şəkildə mənaya təsir edən, morfoloji, sintaktik, leksik fərqlərin hamısını nəzərdən keçirməkdir. Feillərdə rəvayətlərarası leksik-qrammatik səciyyəli fərqlər feil və kök samiti, bab, kateqoriya, bab və kateqoriya, babdaxili, babdaxili və kateqoriya, həmçinin xüsusi halları əhatə edir. Kateqoriya fərqləri dedikdə, bura növ, cins, şəxs, kəmiyyət, şəkil, şəxs, şəkil və zaman, növ və şəxs, növ, cins və şəxs, növ, şəxs və kəmiyyət, növ və şəkil, şəxs və kəmiyyət, şəxs, kəmiyyət və şəkil kateqoriyalar üzrə fərqlər daxildir.

Qurani-Kərim ilahi Kitab olmaqla təkcə dini səciyyə kəsb etmir, o, müasir ərəb ədəbi dilinin qaynağı, ümumilikdə ərəb dilinin ən möhtəşəm abidəsidir. İllər uzunu Azərbaycanda qadağa altında olan Qurani-Kərim bu aspektdən öyrənilməmiş tədqiqat obyekti kimi aktuallığını saxlayır. Qurani-Kərimin nəinki az işlənən, hətta dünyada ən geniş yayılmış rəvayətləri belə Azərbaycanda müqayisəli şəkildə tədqiqat obyekti olmamışdır. Odur ki, sözügedən iki rəvayətdə feillərdəki fərqlərin müqayisəli təhlili müasir ərəb dilində baş verən oxşar hallara fərqli bucaqdan yanaşmaqla bu sahədə aparılacaq tədqiqatlara kömək edəcək. Material təlim-tədris prosesinə xidmət edəcək, doğru təsəvvürün formalaşmasına kömək edəcəkdir ki, bu da mövzunun aktuallığını üzə çıxaran amil kımi çıxış edir. Bu baxımdan, mövzu öz yeniliyi, müəllifin hasil etdiyi yeni qənaətlər isə özəlliyi ilə seçilir.

Açar sözlər: *Qurani-Kərim, Asim qiraəti, Həfs rəvayəti, Nafe qiraəti, Vərş rəvayəti*.

Tədqiqat üzərində çalışarkən bir çox mövcud transkripsiya sistemlərinə (GAL Supplement, Revue des Etudes Islamiques (Paris), Arabica (Paris), İslam Ansiklopedisi, The Encyclopedia of Islam, Encyclopedie l'Islam, Şarkiyat Mecmuası (İstanbul), Türk İlmi Transkripsiyon Sistemi, İlahiyat Fakültesi Dergisi (Ankara), DİA [4, 41, 308] müraciət etdiyimizə baxmayaraq onlardan heç birinin Quran səslərinin ifadəsi yetərincə tələblərinə cavab vermədiyi problemi ilə üzləşdik. Qurani-Kərimin əhatə etdiyi səsləri latın əlifbası ilə tam və dolğun şəkildə ifadəsinin qeyri-mümkün olduğunu qəbul etsək də, ən azı latın qrafikasının imkanı daxilində Quran səslərinin daha dolğun ifadəsi üçün yeni fonetik transkripsiya sisteminin tərtibinə ehtiyac duyduq. Tədqiqatda tətbiq edilən xüsusi transkripsiya sisteminin – ***TT-HAFS/ASIM*** (*Təcvid Transkripsiyası, Həfs/Asim, Bakı*) tərəfimizdən işlənib hazırlanmışdır.

TT-HAFS/ASIM

(*Təcvid Transkripsiyası, Həfs/Asim, Bakı*)

’ – *həmzə*	ẓẓ – qoşa *za*
̲’ – zəifləmiş *həmzə*	ẓ-ẓ – sözlərin kəsişməsində *zəl*-dən sonrakı mövqedə qoşa səslənən *za*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *za*
b – saitöncə mövqedə *bə*	‘ – *ayn*
bb – saitöncə mövqedə qoşa *bə*	‘‘ – qoşa *ayn*
b-b – sözlərin kəsişməsində qoşa *bə*; sözlərin kəsişməsində *bə*-dən sonrakı mövqedə qoşa səslənən saitöncə *bə*	‘-‘ – sözlərin kəsişməsində *ayn*-dan sonrakı mövqedə qoşa *ayn*
b̌ – *bə* və ya *mim*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *bə*	ğ – *ğayn*
b̌ – üzərində vəqf icra olunduğu halda *bə*	f – ***fə***
bb̌ – *vəqf* icra olunduğu halda qoşa *bə*	ff – qoşa *fə*
t – *tə*; *vəqf* icra olunmadığı halda *tə-mərbutə*	f-f – sözlərin kəsişməsində *fə*-dən sonrakı mövqedə qoşa *fə*
tt – qoşa *tə*; *dəl*-dən sonrakı mövqedə qoşa səslənən *tə*	ḳ – saitöncə mövqedə *qaf*
t-t – sözlərin kəsişməsində qoşa *tə*; sözlərin kəsişməsində *dəl*-dən sonrakı mövqedə qoşa səslənən *tə*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *tə*	ḳḳ – saitöncə mövqedə qoşa *qaf*
s̲ – *sə*	ḳ̌ – *qaf* və ya *kəf*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə

	qaf
s̲s̲ – qoşa *sə*	q̌ – *vəqf* icra olunduğu halda *qaf*
s̲-s̲ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sə*	q̌q̌ – *vəqf* icra olunduğu halda qoşa *qaf*
c – saitöncə mövqedə *cim*	k – ***kəf***
cc – saitöncə mövqedə *qoşa cim*	kk – qoşa *kəf*; *qaf*-dan sonrakı mövqedə qoşa səslənən *kəf*
č – *cim*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *cim*	l – incə ***ləm***
č̌ – *vəqf* icra olunduğu halda *cim*	ll – qoşa incə *ləm*
cč̌ – *vəqf* icra olunduğu halda qoşa *cim*	l-l – sözlərin kəsişməsində *ləm*-dən sonrakı mövqedə qoşa incə *ləm*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa səslənən incə *ləm*; *Allah* kəlməsində *kəsrə*-dən sonrakı mövqedə qoşa incə *ləm*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən incə *ləm*
ḥ – *ha*	ḷ-ḷ – *Allah* kəlməsində *dəmmə* və ya *fəthə*-dən sonrakı mövqedə qoşa orta (qalın) *ləm*
ḥḥ – qoşa *ha*	m – saitöncə mövqedə *mim*
x – *xa*	m̃ – *mim* və ya *bə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *mim*; *vəqf* icra olunduğu halda *mim*
xx – qoşa *xa*	m̃̃ – *bə*-dən öncəki mövqedə *mim*; *bə*-dən öncəki mövqedə nazal *mim*-ə çevrilmiş nazal *nun* və ya *tənvin*
d – saitöncə mövqedə *dəl*	m̃m̃ – qoşa nazal *mim*
dd – saitöncə mövqedə qoşa *dəl*	m̃-m̃ – sözlərin kəsişməsində *mim*-dən sonrakı mövqedə qoşa nazal *mim*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *mim*
d-d – sözlərin kəsişməsində qoşa *dəl*; sözlərin kəsişməsində *tə*-dən sonrakı mövqedə qoşa səslənən *dəl*; sözlərin kəsişməsində *dəl*-dən sonrakı mövqedə qoşa səslənən saitöncə *dəl*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *dəl*	n – saitöncə mövqedə *nun* və ya *tənvin*

ď – *dəl* və ya *tə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *dəl*	ñ – *həmzə*, *ha*, *xa*, *ayn*, *ğayn* və ya *hə*-dən öncəki mövqedə *nun* və ya *tənvin*; *vəqf* icra olunduğu halda *nun*: *tənha*; قِنْوَانٌ, صِنْوَانٌ, صِنْوَانٍ, يسٓ ١ وَٱلْقُرْءَانِ, نٓ ۚ وَٱلْقَلَمِ, ٱلدُّنْيَا, بُنْيَٰنٌ, بُنْيَٰنًا, بُنْيَٰنَهُمْ, بُنْيَٰنُهُمْ, بُنْيَٰنَهُ sözlərindəki *nun*; *vəqf* icra olunduğu halda *nun*
ḍ̌ – *vəqf* icra olunduğu halda *dəl*	ñ̃ – *tə*, *sə*, *cim*, *dəl*, *zəl*, *zəy*, *sin*, *şin*, *fə* və ya *kəf*-dən öncəki mövqedə *nun* və ya *tənvinin* bildirdiyi incə nazal səs
dḍ̌ – *vəqf* icra olunduğu halda qoşa *dəl*	ñ̃ – *sad*, *dad*, *ta*, *za* və ya *qaf*-dan öncəki mövqedə *nun* və ya *tənvinin* bildirdiyi qalın səs
z̲ – *zəl*	ññ – qoşa nazal *nun*
z̲z̲ – qoşa *zəl*	ñ-ñ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *nun*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən nazal *nun*
z̲-z̲ – sözlərin kəsişməsində *zəl*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*; sözlərin kəsişməsində *sə*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*	h – ***hə***; *vəqf* icra olunduğu halda *tə-mərbutə*
r – incə *ra*	hh – qoşa *hə*
rr – qoşa incə *ra*	h-h – sözlərin kəsişməsində *hə*-dən sonrakı mövqedə qoşa *hə*
r-r – sözlərin kəsişməsində *ra*-dan sonrakı mövqedə qoşa incə *ra*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa səslənən incə *ra*; [’əl-] artiklindəki *ləm*-dən qoşa səslənən incə *ra*	ṵ – saitöncə mövqedə ***vav***
ṛ – qalın (orta) *ra*	ṵṵ – qoşa *vav*
ṛṛ – qoşa (qalın) *ra*	ṵ-ṵ – sözlərin kəsişməsində *vav*-dan sonrakı mövqedə qoşa ***vav***
ṛ-ṛ – sözlərin kəsişməsində *ra*-dan sonrakı mövqedə qoşa orta (qalın) *ra*; sözlərin kəsişməsində *ləm*-dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-	ṵ̃-ṵ̃ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *vav*

dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*	
z – *zəy*	y – saitöncə mövqedə ***yə***
zz – qoşa *zəy*	yy – qoşa ***yə***
z-z – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *zəy*	ỹ-ỹ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *yə*
s – *sin*	â – *sad*, *dad, ta*, *za*, *xa*, ğayn və *qaf*-dan sonrakı mövqedə *fəthə*
ss – qoşa *sin*	a – *ha*, *ra* (ṛ), *ayn*, *ləm* (ḷ), *vav* və qoşa nazal *vav*-dan sonrakı mövqedə *fəthə*
s-s – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sin*	ä – *həmzə*, *bə*, *tə*, *s̱ə*, *cim*, *dəl*, *ẕəl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və *sad*, *dad, ta*, *za*, *xa*, ğayn, *qaf*, *ha*, *ra* (ṛ), *ayn*, *ləm* (ḷ), *vav* və qoşa nazal *vav*-dan öncəki mövqedə *fəthə*
ş – *şin*	ə – *həmzə*, *bə*, *tə*, *s̱ə*, *cim*, *dəl*, *ẕəl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və *həmzə*, *bə*, *tə*, *s̱ə*, *cim*, *dəl*, *ẕəl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*-dən öncəki mövqedə *fəthə*
şş – qoşa *şin*	e – *həmzə*, *bə*, *tə*, *s̱ə*, *cim*, *dəl*, *ẕəl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və *yə*-dən əvvəl gələn *fəthə*
ş-ş – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *şin*	i – *kəsrə*
ṣ – *sad*	u – *dəmmə*
ṣṣ – qoşa *sad*	ā̆, ā, ā̆, ə; ī; ū – iki qısa sait ölçüsündə uzun sait
ṣ-ṣ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sad*	ā̆ā̆, āā, ā̆ā̆, əə; īī; ūū – dörd qısa sait ölçüsündə uzun sait
ḍ – *dad*	ā̆ā̆â, āāa, ā̆ā̆ä, əəə; īīu; ūūu – beş qısa sait ölçüsündə uzun sait
ḍḍ – qoşa *dad*	ā̆ā̆ā̆, āāā, ā̆ā̆ā̆, əəə; īīī; ūūū – altı qısa sait ölçüsündə uzun sait
ḍ-ḍ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *dad*	ñ̃ñ – تَأْمَنَّا (12:1) sözündəki [ññ] səs birləşməsinin tələffüz edilən vaxt ərzində

	dodaqların (sanki [u] səsini tələffüz edərək) qabağa uzadılması (*işmam*)
ṭ – saitöncə mövqedə *ta*	$_{u}$ – [u] saitinin örtülü (ötəri) tələffüzü (تَأْمَنَّا (12:1) sözündə *təşdid* işarəli *nun* hərfinin bildirdiyi qoşa səsin arasına [u] qısa saiti daxil edib onun örtülü (ötəri) şəkildə tələffüzü; *ixtilas*)
ṭṭ – saitöncə mövqedə qoşa *ta*	âu, au, äu; ây, ay, əy, ey – iki qısa sait ölçüsündə diftonq
ṭ-ṭ – sözlərin kəsişməsində *tə*-dən sonrakı mövqedə qoşa səslənən *ta*, qoşa samit; sözlərin kəsişməsində *ta*-dan sonrakı mövqedə qoşa səslənən saitöncə *ta*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *ta*	âuū, auū, äuū; âyȳ, ayȳ, əyȳ, eyȳ – dörd qısa sait ölçüsündə diftonq
ṭt – *tə*-dən öncəki mövqedə *ta*-nın süzgün *tə*-yə keçməsi (*qəlqələsiz*)	âuūū, auūū, äuūū; âyȳȳ, ayȳȳ, əyȳȳ, eyȳȳ – altı qısa sait ölçüsündə diftonq
ṭ̌ – *ta* və ya *tə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *ta*	´ – vurğu işarəsi (á, á, ä́, ə́, é, í, ú, ā́, ā́, ā̈́, ə̄́, ḗ)
ṭ̌ – *vəqf* icra olunduğu *ta*	‖ – vəqf
ṭṭ̌ – *vəqf* icra olunduğu halda qoşa *ta*	(1), (2), (3)... ...(286) – ayəsonu vəqf
ẓ – *za*	‖ – səktə

Qurani-Kərimdən olan istinadlar iki nöqtə ilə aralanan sol tərəfdə surənin sıra sayı və sağ tərəfdə müvafiq surə daxilində ayənin sıra sayı verilir, məsələn, əl-Fatihə surəsinin 4-cü ayəsi: 1:4, yaxud Yasin surəsinin 79-cu ayəsi: 36:79.

Feillərdə rəvayətlərarası leksik-qrammatik səciyyəli fərqlər

AH ilə NV arasındakı feillərlə bağlı fərqlərin öyrənilməsi feillərin rəvayətlərarası eyni kök samitli, lakin fərqli feillərin, kök samiti [51, 56], bab, kateqoriya, bab və kateqoriya, babdaxili, babdaxili və kateqoriya fərqlərinin [21], həmçinin feillərlə bağlı xüsusi halların müqayisəli təhlilini nəzərdə tutur. Feillərin kateqoriyalar üzrə fərqləri onların növ, cins, şəxs, kəmiyyət, şəkil, həmçinin zaman, şəxs və şəkil, növ, cin və şəxs, növ, şəxs və kəmiyyət, növ və şəkil, şəxs, kəmiyyət və şəkil kateqoriyalar üzrə fərqləri; feillərin babdaxili fərqləri onların I babda model və tipik sait fərqlərini; feillərin babdaxili və kateqoriya fərqləri feilin bir rəvayətdə II şəxs və təkidi əmr şəklində, digərində III şəxs və təsviri əmr şəklində işlənməsi hallarını əhatə edir.

Feil və kök samiti fərqləri. Feil fərqi. 12:12-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində əmrin təsviri şəklində يَرْتَعْ [yä́ṛtä‘] feili NV-də VIII bab إِفْتَعَلَ

[’iftə‘alə] modelində işlənir: يَرْتَعِ [yäṛtä‘i]. Müshəf fərqi yoxdur (يرتع). Feillər zahiri görünüşdən eyni feilin fərqli formalarına bənzəsə də, əslində fərqli kök samitlərindən əmələ gəlmiş fərqli feillərdir. Belə ki, AH-də يَرْتَعْ [yäṛtä‘] feilinin kök samitləri رتع olub I bab رَتَعَ feili, NV-də يَرْتَعِ [yäṛtä‘i] feilinin kök samitləri رعى olub VIII bab ٱرْتَعَىٰ [’irtäʿā] feili çıxış edir. Burada təkcə feil fərqi deyil, həm də bab fərqi müşahidə edilir. Fərqli bablarda işlənən fərqli feillərin mənaları üst-üstə düşür: «gözü-könlü açılmaq». «Sabah onu bizimlə birlikdə göndər gözü-könlü açılsın, oynasın» cümləsi AH-də أَرْسِلْهُ مَعَنَا غَدًا يَرْتَعْ وَيَلْعَبْ [’äṛsílhu mäʿanā̃ ğäḍəỹ-ỹäṛtä‘ ỵayə́l‘ab̆], NV-də أَرْسِلْهُ مَعَنَا غَدًا يَرْتَعِ وَيَلْعَبْ [’äṛsílhu mäʿanā̃ ğäḍəỹ-ỹäṛtä‘i ỵayə́l‘ab̆] kimi qiraət edilir.

43:57-də III şəxsin cəmində, kişi cinsində AH-də يَصِدُّونَ [yäṣiddū́nə] əvəzinə NV-də يَصُدُّونَ [yäṣuddū́nə] feili işlənir. Müşahidə olunan fərq feilin tipik sait, yaxud ləhcə fərqi deyil, leksik fərqdir, mənaları bir-birinə yaxın fərqli feillərin işlənməsi fərqidir. Müshəf fərqi yoxdur (يصدون). Belə ki, AH-dəki indiki-gələcək zaman üçün tipik saiti [i] olan صَدَّ [ṣäddə] feilinin burada daşıdığı məna «səs-küy salmaq; gurultu qoparmaq», NV-dəki indiki-gələcək zaman üçün tipik saiti [u] olan صَدَّ [ṣäddə] feili isə «çəkinmək; üz döndərmək; imtina etmək» anlamındadır [44, 2, 323]. AH-də وَلَمَّا ضُرِبَ ٱبْنُ مَرْيَمَ مَثَلًا إِذَا قَوْمُكَ مِنْهُ يَصِدُّونَ ٥٧ [ỵalə́mm̃ā ḍúribə́-b̆nu mäṛyəmə mə́s̱ələñ ’íẓā qäumukə míñhu yäṣiddūūñ‖ (yäṣiddū́nə)] «Məryəm oğlu misal çəkilincə sənin qövmün ondan hay-küy qopardı» NV-də وَلَمَّا ضُرِبَ ٱبْنُ مَرْيَمَ مَثَلًا إِذَا قَوْمُكَ مِنْهُ يَصُدُّونَ ٥٧ [ỵalə́mm̃ā ḍúribə́-b̆nu mäṛyəmə mə́s̱ələní-ẕā qäumukə míñhu yäṣuddūūñ‖ (yäṣuddū́nə)] (burada [’] səsinin düşümü müşahidə edilir) «Məryəm oğlu misal çəkilincə sənin qövmün ondan üz döndərdi» [39, 477].

Kök samiti fərqləri. AH ilə NV arasında feillərdə müşahidə edilən kök samitləri ilə bağlı fərqlər II və III kök samitləri, II kök samiti, III kök samiti fərqləri hallarını əhatə edir.

II və III kök samitləri fərqi. II kök samiti. 3:120-də II şəxsin cəmində, kişi cinsində bitişən əvəzliyi ilə işlənən III şəxsin təkində, şərt şəklində AH-də يَضُرُّكُمْ [yäḍúṛṛukum̃] feilinin əvəzinə NV-də يَضِرْكُمْ [yäḍírkum̃] (burada *r* samitinin incələşməsi müşahidə edilir) işlənir [26, 2, 280]. Müshəf fərqi yoxdur (يضركم). Belə ki, «Əgər səbr edib özünüzü qorusanız, onların hiyləsi sizə heç bir zərər yetirməz» cümləsi AH-də وَإِن تَصْبِرُواْ وَتَتَّقُواْ لَا يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْـًٔا [ỵa’íñ-tä́ṣbiṛū ỵatəttä́qū lə yäḍúṛṛukum̃ kéy-duhum̃ şéy’ə‖], NV-də isə وَإِن تَصْبِرُواْ وَتَتَّقُواْ لَا يَضِرْكُمْ كَيْدُهُمْ شَيْـًٔا [ỵa’íñ-tä́ṣbirū ỵatəttä́qū lə yäḍírkum̃ kéyduhum̃ şéyȳȳ’ə‖] (burada *r* samitinin incələşməsi, *məddi-lini-məhmuz* müşahidə olunur) kimi qiraət edilir. Feillərdə II kök samiti fərqli olsa da (ضرر/ضير), burada sinonimiya müşahidə edilir və həm AH-dəki ضَرَّ (ضرر), həm də NV-dəki ضَارَ (ضير) feilləri «zərər yetirmək» anlamındadır.

III kök samiti fərqi. III şəxsin təkində, qadın cinsində bitişən əvəzliyi ilə işlənən I şəxsin cəmində AH-də نُنشِزُهَا [nuñ̃şízuhā] (2:259) feilinin əvəzinə NV-də نُنشِرُهَا [nuñ̃şíruhā] (2:258; burada *r* samitinin incələşməsi müşahidə edilir) işlənir [13, 5, 530; 17, 116; 19, 78; 53, 136-137]. Müshəf fərqi yoxdur (ننسرها). Belə ki, AH-də وَٱنظُرْ إِلَى ٱلْعِظَامِ كَيْفَ نُنشِزُهَا ثُمَّ نَكْسُوهَا لَحْمًا [ỵä-ñ̃ẓuṛ ’íləl-‘iẓä̃mi kéyfə nuñ̃şízuhā s̱úm̃mə

nəksū̆hə lā̆ḥmə‖] «İndi sümüklərinə bax, gör necə onları bir-birinin üstünə quraşdırırıq, sonra da onların üzərini ətlə örtürük?» cümləsi NV-də وَٱنظُرۡ إِلَى ٱلۡعِظَامِ كَيۡفَ نُنشِرُهَا ثُمَّ نَكۡسُوهَا لَحۡمٗا [ṿá-ẖẓurí-ləl-‘iẓā́mi kéyfə nuẖṣíruhə s̱úm̃mə nəksū̆hə lā̆ḥmə‖] (burada [’] səsinin düşümü, sayəsində *r* samitinin incələşməsi müşahidə edilir) «İndi sümüklərinə bax, gör necə onları yenidən dirildirik, sonra da onların üzərini ətlə örtürük?» kimi qiraət edilir. AH-də işlənən أَنشَزَ [’ə́nşəzə] feilinin mənası «quraşdırmaq», NV-dəki أَنشر [’ə́nşäṛa] feilinin isə «yenidən diriltmək»dir. Sözügedən fərqi nöqtə (ر/ز) fərqi kimi təsnif etmək mümkündür. III kök (نشر/نشز) samiti fərqi leksik fərq əmələ gətirir.

9:30-cu ayəsində III şəxsin cəmində, kişi cinsində AH-də يُضَٰهِـُٔونَ [yuḍā̆hi’ū̆nə] feilinin əvəzinə NV-də يُضَٰهُونَ [yuḍā̆hū̆nə] (burada *məddi-bədəl* üçün şərt yoxdur) işlənir [12, 2, 484; 27, 2410-2411]. Müshəf fərqi yoxdur (يضهون). Belə ki, «Bu, ağızlarında gəzən sözlərdir; (onları) daha öncədən küfr edənlərin söylədiklərinə bənzədirlər» cümləsi AH-də ذَٰلِكَ قَوۡلُهُم بِأَفۡوَٰهِهِمۡۖ يُضَٰهِـُٔونَ قَوۡلَ ٱلَّذِينَ كَفَرُواْ مِن قَبۡلُۚ [ẕā́likä qā́luluhum̃-bi’əfṿā́hihim̃ ´ yuḍā̆hi’ū̆nä qā́uləl-ləẕī́nə kə́fäṛū miẖ̃-qā̆bl‖], NV-də isə ذَٰلِكَ قَوۡلُهُم بِأَفۡوَٰهِهِمۡۖ يُضَٰهُونَ قَوۡلَ ٱلَّذِينَ كَفَرُواْ مِن قَبۡلُۚ [ẕā́likä qā́luluhum̃-bi’əfṿā́hihim̃ ´ yuḍā̆hū̆nä qā́uləl-ləẕī́nə kə́fäṛū miẖ̃-qā̆bl‖] kimi qiraət edilir. III kök (ضهء/ضهي) samiti fərqli olsa da, burada sinonimiya müşahidə edilir və həm AH-dəki ضَاهَأَ [ḍā̆hə’ə] (ضهء), həm də NV-dəki ضَاهَى [ḍā̆hā̆] (ضهي) feilləri «bənzətmək» anlamındadır.

Bab fərqləri. AH ilə NV arasında feillərdə müşahidə edilən bab fərqləri feilin bir rəvayətdə bir babda, digərində həmin feilin başqa babda işlənməsi fərqlərini əhatə edir.

I bab/II bab: فَعَلَ [fə‘alə]/فَعَّلَ [fə‘‘alə]. I baba nisbətən II bab feili mənaca hərəkətin, ekspressiyanın güclənməsi, şiddətləndirilməsi ilə səciyyələnir. AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, qadın cinsində, məchul növdə فُتِحَتۡ [fútiḥat] feili NV-də II bab فَعَّلَ [fə‘‘alə] modelində məchul növdə işlənir: فُتِّحَتۡ [fúttiḥat] [16, 385]. Müshəf fərqi yoxdur: (فتح). I bab فَتَحَ [fə́täḥa] feili «açmaq» (məchul növdə: «açılmaq»), II bab فَتَّحَ [fə́ttäḥa] feili «taybatay açmaq» (məchul növdə: «taybatay açılmaq») mənasındadır. AH-də حَتَّىٰٓ إِذَا جَآءُوهَا فُتِحَتۡ أَبۡوَٰبُهَا [ḥáttəə̄ ’íẓə cəə̄’ū̆hə fútiḥat ’əb̆ṿā́buhə] «Nəhayət, ora çatınca onun qapıları açılacaq» (39:71, 73), وَفُتِحَتِ ٱلسَّمَآءُ فَكَانَتۡ أَبۡوَٰبٗا ١٩ [ṿafútiḥatis-səmə́ə̄’u fəkā́nət ’əb̆ṿā́bə‖] «göy qapı-qapı açılacaqdır» (78:19) NV-də حَتَّىٰٓ إِذَا جَآءُوهَا فُتَّحَتۡ أَبۡوَٰبُهَا [ḥáttə�ə̄ ’íẓə cəə̄ə̄’ū̆hə fútiḥatə-b̆ṿā́buhə] (burada *məddi-münfəsil*, *məddi-müttəsil*, *məddi-bədəlin* kəmiyyət fərqləri, [’] səsinin düşümü müşahidə edilir) «Nəhayət, ora çatınca onun qapıları taybatay açılacaq» (39:68, 70), وَفُتِّحَتِ ٱلسَّمَآءُ فَكَانَتۡ أَبۡوَٰبٗا ١٩ [ṿafútiḥatis-səmə́ə̄ə̄’u fəkā́nətə-b̆ṿā́bə‖] (burada *məddi-müttəsilin* kəmiyyət fərqi, [’] səsinin düşümü müşahidə edilir) «göy qapı-qapı taybatay açılacaqdır» (78:19) [25, 1623; 55, 4, 163].

AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin cəmində, kişi cinsində يَكۡذِبُونَ [yəkẕibū́nə] (2:10) feili NV-də II bab فَعَّلَ [fə‘‘alə] modelində işlənir: يُكَذِّبُونَ

[yukəẓẓibū̃nə] (2:9). I bab كَذَبَ [kə́ẕəbə] feili «yalan danışmaq», II bab كَذَّبَ [kə́ẓẓəbə] feili «yalan hesab etmək» mənasındadır [37, 1858]. Müshəf fərqi yoxdur (ـكـدـوں). Feillər arasında müşahidə edilən leksik fərq ayədəki cümlənin mənasına ümumi kontekst baxımından təsir etmir. Belə ki, «Yalan hesab etdikləri üçün onlar şiddətli bir əzaba düçar olacaqlar!» cümləsi AH-də وَلَهُمْ عَذَابٌ أَلِيمٌ بِمَا كَانُواْ يَكْذِبُونَ ١٠ [ṵaləhum̃ ‘aẕə̃buñ ’əlī́mum̃-bímə kə̃nū yə́kẕibūūñ‖ (yəkẕibū̃nə)] «Yalan dedikləri üçün onlar şiddətli bir əzaba düçar olacaqlar!», NV-də: وَلَهُمْ عَذَابٌ أَلِيمٌ بِمَا كَانُواْ يُكَذِّبُونَ ٩ [ṵaləhum̃ ‘aẕə̃bunə-lī́mum̃-bímə kə̃nū yúkəẓẓibūūñ‖ (yukəẓẓibū̃nə)] (burada [’] səsinin düşümü də müşahidə olunur) kimi qiraət edilir.

AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin cəmində, kişi cinsində خَرَقُواْ [xə́ṛaqū] (6:100) feili NV-də II bab فَعَّلَ [fə‘‘alə] modelində işlənir: خَرَّقُواْ [xə́ṛṛaqū] (6:101). I bab خَرَقَ [xâṛaqâ] feili «uydurmaq», II bab خَرَّقَ [xâṛṛaqâ] feili «uydurub qondarmaq» mənasındadır [52, 2, 303]. Müshəf fərqi yoxdur (حـرـفـوا). Göründüyü kimi, leksik fərq mövcuddur və o özünü hərəkətin NV-də daha şiddətli, ekspressiyanın daha güclü olması ilə özünü göstərir. Belə ki, AH-də وَخَرَقُواْ لَهُۥ بَنِينَ وَبَنَٰتِۭ بِغَيْرِ عِلْمٍۚ [ṵaxə́ṛaqū ləhū bənī́nä ṵabənə̃tim̃-biğə́yri ‘ilm̃‖] «Onlar bilmədən Onun üçün oğullar və qızlar uydurdular» cümləsi NV-də وَخَرَّقُواْ لَهُۥ بَنِينَ وَبَنَٰتِۭ بِغَيْرِ عِلْمٍۚ [ṵaxə́ṛṛaqū ləhū bənī́nä ṵabənə̃tim̃-biğə́yri ‘ilm̃‖] «Onlar bilmədən Onun üçün oğullar və qızlar uydurub qondardılar» kimi qiraət edilir.

12:110-da AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin cəmində, kişi cinsində, məchul növdə كُذِبُواْ [kúẕibū] feili NV-də II bab فَعَّلَ [fə‘‘alə] modelində işlənir: كُذِّبُواْ [kúẓẓibū]. I bab كَذَبَ feili «yalan danışmaq; aldatmaq» (məchul növdə: «yalanlanmaq; aldadılmaq») [33, 248], II bab كَذَّبَ feili isə «yalan hesab etmək» (məchul növdə: «yalan hesab edilmək») mənasındadır. Müshəf fərqi yoxdur (كـدـب). Leksik fərq ayədəki cümlənin ümumi kontekst baxımından mənasına təsir etmir. Belə ki, AH-də حَتَّىٰٓ إِذَا ٱسْتَيْـَٔسَ ٱلرُّسُلُ وَظَنُّوٓاْ أَنَّهُمْ قَدْ كُذِبُواْ جَآءَهُمْ نَصْرُنَا [ḥáttəə ’íẕə-stə́y’əsäṛ-ṛúsulu ṵaẓə́ññūū ’əññəhum̃ qâd̆ kúẕibū cə́ə’əhum̃ nə́ṣṛunə] «Nəhayət, peyğəmbərlər ümidsizliyə qapıldıqda və özlərinin aldadıqlarını gördükdə köməyimiz onlara yetdi» cümləsi NV-də حَتَّىٰٓ إِذَا ٱسْتَيْـَٔسَ ٱلرُّسُلُ وَظَنُّوٓاْ أَنَّهُمْ قَدْ كُذِّبُواْ جَآءَهُمْ نَصْرُنَا [ḥáttə�ə ’íẕə-stə́yȳ’əsäṛ-ṛúsulu ṵaẓə́ññūūū ’əññəhum̃ qâd̆ kúẓẓibū cə́əə’əhum̃ nə́ṣṛunə] (burada *məddi-münfəsil* (iki yerdə), *məddi-müttəsilin* kəmiyyət fərqləri, *məddi-lini-məhmuz* müşahidə edilir) «Nəhayət, peyğəmbərlər ümidsizliyə qapıldıqda və özlərinin yalançı hesab edildiklərini gördükdə köməyimiz onlara yetdi» kimi qiraət edilir.

17:90-də AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, qadın cinsində, arzu şəklində تَفْجُرَ [təfcuṛa] feili NV-də II bab فَعَّلَ [fə‘‘alə] modelində işlənir: تُفَجِّرَ [tufəccirə] (burada *r* samitinin incələşməsi baş verir) [8, 440]. I bab فَجَرَ feili «(su) çıxarmaq», II bab فَجَّرَ feili «(su) qaynadıb çıxarmaq» mənasındadır. Müshəf fərqi yoxdur (ـفـحـر). AH-də وَقَالُواْ لَن نُّؤْمِنَ لَكَ حَتَّىٰ تَفْجُرَ لَنَا مِنَ ٱلْأَرْضِ يَنۢبُوعًا ٩٠ [ṵaqə̃ālū ləñ-ñú’minə ləkä ḥáttə təfcuṛa lənə mínəl-’ə́ṛḍi yəm̃bū́‘ā‖] «Belə dedilər: "Sən bizim üçün yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik» cümləsi NV-də وَقَالُواْ لَن نُّؤْمِنَ لَكَ حَتَّىٰ تُفَجِّرَ لَنَا مِنَ ٱلْأَرْضِ يَنۢبُوعًا ٩٠ [ṵaqə̃ālū ləñ-ñū́minə ləkä ḥáttə

tufəccirə lənə mínəlǎ-ṛḍi yəm̃bū‘ā‖] «Belə dedilər: "Sən bizim üçün yerdən bir bulaq qaynadıb çıxarmayınca sənə iman gətirməyəcəyik» (burada [’] səsinin [ỵ] ilə əvəzlənməsi, düşümü müşahidə olunur) kimi qiraət edilir.

18:18-də AH-də لَـ ədatı ilə işlənən I bab فَعَلَ [fə‘alə] modelində məchul növdə II şəxsin təkində, kişi cinsində لَمُلِئْتَ [ləmulí’tə] feili NV-də II bab فَعَّلَ [fə‘‘alə] modelində məchul növdə işlənir: لَمُلِّئْتَ [ləmullí’tə] [20, 688]. I bab مَلَأَ [mə́lə’ə] feili «bürümək; dolmaq» (məchul növdə: «bürülmək; doldurulmaq»), II bab مَلَّأَ [mə́llə’ə] feili «bürüm-bürüm bürümək; dolum-dolum dolmaq» (məchul növdə: «bürüm-bürüm bürülmək; dolum-dolum doldurulmaq») mənasındadır. Müshəf fərqi yoxdur (لـمـلـئـت). NV-dəki II bab feili hərəkətin daha intensiv, daha kəskin şəkildə baş verməsini bildirir. «Əgər sən onları görsəydin, yəqin ki, dönüb qaçar, dəhşətlə dolum-dolum doldurulardın» cümləsi AH-də لَوِ ٱطَّلَعْتَ عَلَيْهِمْ لَوَلَّيْتَ مِنْهُمْ فِرَارًا وَلَمُلِئْتَ مِنْهُمْ رُعْبًا ١٨ [lǎỵi-ṭṭâlǎ‘tä ‘aléyhim̃ läỵalléytə míñhum̃ fiṛǎṛaỹ-ỹáləmulí’tə míñhum̃ ṛú‘bə‖] «Əgər sən onları görsəydin, yəqin ki, dönüb qaçar, dəhşətlə doldurulardın», NV-də isə لَوِ ٱطَّلَعْتَ عَلَيْهِمْ لَوَلَّيْتَ مِنْهُمْ فِرَارًا وَلَمُلِّئْتَ مِنْهُمْ رُعْبًا ١٨ [lǎỵi-ṭṭâḷǎ‘tä ‘aléyhim̃ läỵalléytə míñhum̃ fiṛǎṛaỹ-ỹáləmullí’tə míñhum̃ ṛú‘bə‖] (burada *l* samitinin qalınlaşması müşahidə olunur) kimi qiraət edilir.

77:23-də AH-də فَـ bağlayıcısı ilə işlənən I bab فَعَلَ [fə‘alə] modelində I şəxsin cəmində فَقَدَرْنَا [fäqâdǎṛnə̄] feili NV-də II bab فَعَّلَ [fə‘‘alə] modelində işlənir: فَقَدَّرْنَا [fäqâddǎṛnə̄]. I bab قَدَرَ [qǎdäṛa] feili «qadir olmaq», II bab قَدَّرَ [qǎddäṛa] feili isə «qədər müəyyən etmək» mənasındadır. Müshəf fərqi yoxdur (فـقـدرنـا). AH-də فَقَدَرْنَا [fäqâdǎṛnə̄] «Və Biz qadir olduq» NV-də فَقَدَّرْنَا [fäqâddǎṛnə̄] «Və Biz qədərini müəyyən etdik» kimi qiraət edilir.

82:7-də AH-də فَـ bağlayıcısı, II şəxsin təkində, kişi cinsində bitişən əvəzliklə işlənən I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, kişi cinsində فَعَدَلَكَ [fä‘adə́ləkə] feili NV-də II bab فَعَّلَ [fə‘‘alə] modelində işlənir: فَعَدَّلَكَ [fä‘addə́ləkə]. I bab عَدَلَ [‘ádələ] feili «mütənasib etmək», II bab عَدَّلَ [‘áddələ] feili isə «mükkəmməl taraz vermək» mənasındadır. Müshəf fərqi yoxdur (فـعـدلـك). AH-də ٧ ٱلَّذِى خَلَقَكَ فَسَوَّىٰكَ فَعَدَلَكَ [’əl-lə́ẕī xâlǎqâkə fəsäỵỵǎ̃kə fä‘ádələk‖ (fä‘adə́ləkə)] «Səni yaradan, mütənasib qılan (Rəbbin)» NV-də ٧ ٱلَّذِى خَلَقَكَ فَسَوَّىٰكَ فَعَدَّلَكَ [’əl-lə́ẕī xâlǎqâkə fəsäỵỵǎ̃kə/fəsäỵỵǎ̃̆kə fä-‘áddələk‖ (fä‘addə́ləkə)] (burada alternativli zəif saiti infleksiya müşahidə edilir) «Səni yaradan, mükəmməl taraz verən (Rəbbin)» kimi qiraət edilir.

AH-də سَـ ədatı ilə işlənən II bab فَعَّلَ [fə‘‘alə] modelində I şəxsin cəmində سَنُقَتِّلُ [sənuqǎ̃ttilu] (7:127), II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin cəmində, kişi cinsində يُقَتِّلُونَ [yuqǎ̃ttilũnə] (7:141) feilləri NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: سَنَقْتُلُ [sənǎ̃q̆tulu] (7:126), يَقْتُلُونَ [yäq̆tulũnə] (7:141). II bab قَتَّلَ [qǎ̃ttələ] feili «qırğın törətmək; qırmaq», I bab قَتَلَ [qǎ̃tələ] «öldürmək» anlamındadır. Müshəf fərqi yoxdur (يـقـتـلـون, سـنـقـتـل). Leksik fərq əməlin AH-də daha şiddətli, kəskinləşməsini əmələ gətirməklə ayənin məna tutumuna xüsusi təsir göstərmir. Belə ki, AH-də قَالَ سَنُقَتِّلُ أَبْنَآءَهُمْ وَنَسْتَحْيِۦ نِسَآءَهُمْ [qǎ̃lə sənuqǎ̃ttilu ’əb̆nǎ̃ə̄’əhum̃ ỵanəstǎ̃ḥỵī nisǎ̃ə̄’əhum̃] «Dedi: "Biz onların oğullarını qıracaq, qadınlarını isə diri saxlayacağıq», يُقَتِّلُونَ أَبْنَآءَكُمْ وَيَسْتَحْيُونَ

نِسَآءَكُمْ [yuqâttilū́nə ’əb̆nə̄ə̄’əkum̃ ỵayəstäḥyū́nə nisə̄ə̄’əkum̃‖] «Oğullarınızı qırır, qadınlarınızı isə diri saxlayırıq» cümlələri NV-də قَالَ سَنَقْتُلُ أَبْنَآءَهُمْ وَنَسْتَحْيِۦ نِسَآءَهُمْ [qā́lə sənā́q̆tulu ’əb̆nə̄ə̄’əhum̃ ỵanəstā́ḥyī nisə̄ə̄’əhum̃] «Dedi: "Biz onların oğullarını öldürəcək, qadınlarını isə diri saxlayacağıq», يُقَتِّلُونَ أَبْنَآءَكُمْ وَيَسْتَحْيُونَ نِسَآءَكُمْ [yuqâttilū́nə ’əb̆nə̄ə̄’əkum̃ ỵayəstäḥyū́nə nisə̄ə̄’əkum̃‖] «Oğullarınızı öldürür, qadınlarınızı isə diri saxlayırıq» kimi qiraət edilir.

3:37-də AH-də III şəxs təkində, qadın cinsində bitişən əvəzliklə işlənən II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin təkində, kişi cinsində كَفَّلَهَا [kəffələhə̄] feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: كَفَلَهَا [kəfələhə̄]. II bab كَفَّلَ [kə́ffələ] «tapşırmaq; himayəçiliyə vermək; məsuliyyət altına vermək», I bab كَفَلَ [kə́fələ] feili isə «himayəçilik etmək; məsuliyyət altına götürmək» mənasındadır. Müshəf fərqi yoxdur (كفلها). Feillər arasında müşahidə edilən leksik fərq ayədəki cümlədə icraçı subyektlərin dəyişilməsinə gətirib çıxarır. AH-də فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنۢبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا [fətäqâbbələhā̃ ṛábbuhə̄ biqâbū́liñ ḥásəniỹ-ỹa’əm̃bə́təhə̄ nəbə̄́təñ ḥásənäỹ-ỹakəffələhə̄ zəkəríyyə̄] «Belə olduqda, Rəbbi onu yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və onu (Allah-taala) Zəkəriyyaya tapşırdı» NV-də فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنۢبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَلَهَا زَكَرِيَّآءُ [fətäqâbbələhā̃ ṛábbuhə̄ biqâbū́liñ ḥásəniỹ-ỹa’əm̃bə́təhə̄ nəbə̄́təñ ḥásənäỹ-ỹakəfələhə̄ zəkəríyyə̄ə̄’u] (burada *məddi-müttəsilin* kəmiyyət fərqi müşahidə edilir) «Belə olduqda, Rəbbi onu yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyya ona himayəçilik etdi» kimi qiraət edilir. Göründüyü kimi, AH-də «Allah-taala Zəkəriyyaya tapşırdı», NV-də isə «Zəkəriyya himayəçilik etdi», yəni AH-də Zəkəriyya təsirlik halda tamamlıq, NV-də isə adlıq halda mübtədadır. AH-də زَكَرِيَّا xüsusi isminin hal əlaməti olmadığı üçün onun təsirlik halda olması nəzərə çarpmır, NV-də isə model fərqi sayəsində adlıq hal əlaməti yerindədir: زَكَرِيَّآءُ.

AH-də II bab فَعَّلَ [fə‘‘alə] modelində II şəxsin cəmində, kişi cinsində تُعَلِّمُونَ [tu‘allimū́nə] (3:79) feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: تَعْلَمُونَ [tä‘ləmū́nə] (3:78). II bab عَلَّمَ [‘alləmə] feilinin mənası «öyrətmək», I bab عَلِمَ [‘alimə] feili «bilmək» mənasındadır. Müshəf fərqi yoxdur (تعلمون). Feillər arasında müşahidə edilən leksik fərq ayədəki cümlənin mənasına ümumi kontekst baxımından xüsusi təsir etmir. Belə ki, AH-də وَلَٰكِن كُونُواْ رَبَّٰنِيِّـۧنَ بِمَا كُنتُمْ تُعَلِّمُونَ ٱلْكِتَٰبَ وَبِمَا كُنتُمْ تَدْرُسُونَ ٧٩ [ỵalə́kiñ̃-kū́nū ṛabbānniyyī́nə bímə kúñ̃tum̃ tu‘allimū́nəl-kitə́bä ỵabímə kúñ̃tum̃ tə́d̆ṛusūūñ‖] «Əksinə, "Öyrətdiyiniz kitabın və öyrəndiyiniz şeyin sayəsində rəbbani olun!" (– deyər)» cümləsi NV-də وَلَٰكِن كُونُواْ رَبَّٰنِيِّـۧنَ بِمَا كُنتُمْ تَعْلَمُونَ ٱلْكِتَٰبَ وَبِمَا كُنتُمْ تَدْرُسُونَ ٧٨ [ỵalə́kiñ̃-kū́nū ṛabbānniyyī́nə bímə kúñ̃tum̃ tä‘ləmū́nəl-kitə́bä ỵabímə kúñ̃tum̃ tə́d̆ṛusūūñ‖] «Əksinə, "Bildiyiniz kitabın və öyrəndiyiniz şeyin sayəsində rəbbani olun!" (– deyər)» kimi qiraət edilir.

AH-də لَـ ədatı ilə işlənən II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin təkində, qadın cinsində, məchul növdə لَّهُدِّمَتْ [ləhúddimət] (22:40) feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində məchul növdə işlənir: لَّهُدِمَتْ [ləhúdimət] (22:38). Müshəf fərqi yoxdur (لهدمت). II bab هَدَّمَ [hə́ddəmə] feili «məhv etmək, darmadağın etmək; dağıtmaq; sökmək» (məchul növdə: «məhv edilmək, darmadağın edilmək; da-

ğıdılmaq; sökülmək»), I bab هَدَمَ [hədəmə] feili isə «dağıtmaq; sındırmaq; sökmək» (məchul növdə: «dağıdılmaq; sındırılmaq; sökülmək») mənasındadır. AH-də وَلَوْلَا دَفْعُ ٱللَّهِ ٱلنَّاسَ بَعْضَهُم بِبَعْضٍ لَّهُدِّمَتْ صَوَٰمِعُ وَبِيَعٌ وَصَلَوَٰتٌ وَمَسَٰجِدُ يُذْكَرُ فِيهَا ٱسْمُ ٱللَّهِ كَثِيرًا [ṵalā́u lə dəf‘uḷ-ḷā́hiñ-ñə́sə bā́‘ḍâhum̃-bibā́‘ḍil-ləhúddimət ṣâṵā́mi‘u ṵabíyä‘uṽ-ṽaṣâläṵā́tuṽ-ṽaməsə́cidu yúẕkäṛu fī́hə-smuḷ-ḷā́hi kəs̱īṛā‖] «Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr, kilsələr, mə’bədlər və məscidlər darmadağın edilərdi» cümləsi NV-də وَلَوْلَا دِفَٰعُ ٱللَّهِ ٱلنَّاسَ بَعْضَهُم بِبَعْضٍ لَّهُدِمَتْ صَوَٰمِعُ وَبِيَعٌ وَصَلَوَٰتٌ وَمَسَٰجِدُ يُذْكَرُ فِيهَا ٱسْمُ ٱللَّهِ كَثِيرًا [ṵalā́u lə difā́‘uḷ-ḷā́hiñ-ñə́sə bā́‘ḍâhum̃-bibā́‘ḍil-ləhúdimət ṣâṵā́mi‘u ṵabíyä‘uṽ-ṽaṣâḷaṵā́tuṽ-ṽaməsə́cidu yúẕkäṛu fī́hə-smuḷ-ḷā́hi kəs̱īṛə‖] (burada model fərqi, *l* samitinin qalınlaşması, *r* samitinin incələşməsi müşahidə edilir) «Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr, kilsələr, mə’bədlər və məscidlər dağıdılardı» kimi qiraət edilir.

34:20-də AH-də II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin təkində, kişi cinsində صَدَّقَ [ṣā́ddäqâ] feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: صَدَقَ [ṣā́däqâ]. Müshəf fərqi yoxdur (صدق). II bab صَدَّقَ [ṣā́ddäqâ] feili «doğru hesab etmək; inanmaq; təsdiq etmək», I bab صَدَقَ [ṣā́däqâ] feili isə «doğru söyləmək; doğru (səmimi) olmaq» mənasındadır. Feillər arasında müşahidə edilən leksik fərq ayədəki cümlənin mənasına ümumi kontekst baxımından xüsusi təsir etmir. AH-də وَلَقَدْ صَدَّقَ عَلَيْهِمْ إِبْلِيسُ ظَنَّهُۥ [ṵalā́qâd̆ ṣā́ddäqâ ‘aléyhim̃ ’ib̆lī́su ẓā́ññəhu] «And olsun ki, İblis onlar haqqındakı öz zənnini təsdiq etdi» NV-də وَلَقَدْ صَدَقَ عَلَيْهِمْ إِبْلِيسُ ظَنَّهُۥ [ṵalā́qâd̆ ṣā́däqâ ‘aléyhim̃ ’ib̆lī́su ẓā́ññəhu] (burada *məddi-sıleyi-mimi-cəm* müşahidə edilir) «And olsun ki, İblis onlar haqqındakı öz zənnində doğru oldu» kimi qiraət edilir.

AH-də III şəxsin təkində, kişi cinsində bitişən əvəzliklə işlənən II bab فَعَّلَ [fə‘‘alə] modelində I şəxsin cəmində, şərt şəklində نُنَكِّسْهُ [nunəkkíshu] (36:68) feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: نَنكُسْهُ [nəñkúshu] (36:67). Müshəf fərqi yoxdur (ـنـكـسـه). II bab نَكَّسَ [nə́kkəsə] «tərsinə çevirmək; alt-üst etmək; aşırtmaq; aşağı salmaq», I bab نَكَسَ [nə́kəsə] feili isə «tərsinə çevirmək; alt-üst etmək; aşırtmaq; əymək; aşağı salmaq; əks ardıcıllıqla etmək» mənasındadır. II bab feillərin I babdakı feillərdən leksik fərqi hərəkətin II babda daha intensiv, şiddətli şəkildə baş verməsini bildirməkdədir. Belə ki, AH-də وَمَن نُّعَمِّرْهُ نُنَكِّسْهُ فِى ٱلْخَلْقِ [ṵamə́ñ-ñu‘am̃m̃írhu nunəkkíshu fil-xā́lqi] «Kimin ömrünü uzatdıqsa, onu yaradılış etibarilə (xilqətcə) tam tərsinə çevirərik» cümləsi NV-də وَمَن نُّعَمِّرْهُ نَنكُسْهُ فِى ٱلْخَلْقِ [ṵamə́ñ-ñu‘am̃m̃írhu nəñkúshu fil-xā́lqi] «Kimin ömrünü uzatdıqsa, onu yaradılış etibarilə (xilqətcə) tərsinə çevirərik» kimi qiraət edilir. Zənnimizcə, II babda II kök samitinin qoşa səslənməsi səs effekti kimi də hərəkətin şiddətli (yazıda qoşalaşmanı bildirmək üçün qoyulan işarənin «şiddət»dən qaynaqlanan adları da burada təsadüfi görünmür: «şəddə; təşdid») olduğunu bildirir. Qeyd olunmalıdır ki, AH-də iki II bab feilinin bir-birinin ardınca gələrək səslənməsi üslubi, ahəng baxımından daha zəngin, daha uyğun təəssürat bağışlayır: نُّعَمِّرْهُ نُنَكِّسْهُ [nu‘am̃m̃írhu nunəkkíshu]. NV-də isə II bab feilinin ardı ilə I bab feilinin işlənməsi onların bir-birinə qarşı qoyulduğu – نُّعَمِّرْهُ نَنكُسْهُ

[nu‘am̃m̃írhu nəñkúshu], tərcüməsi fərqli görünə bilər: «Ömrünü uzatdıqca, tərsinə çevirərik».

63:5-də AH-də II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin cəmində, kişi cinsində لَوَّوْاْ (لوى) [lắỵỵau] feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: لَوَوْاْ [lắỵau] (لوى). Müshəf fərqi yoxdur (لـووا). II bab لَوَّى [lắỵỵā] feili «bərk əymək, burmaq; çevirmək», I bab لَوَى [lắỵā] feili isə «burmaq; bükmək; toxumaq; əymək; dönmək; üz döndərmək; üz çevirmək; üz tutmaq; çevirmək» mənasındadır. Feillərdəki uyğun gələn mənaları arasında yaxınlıq olsa da, II bab feilinin daşıdığı mənada hərəkətin intensivliyi rəvayətlərarası məna fərqini əmələ gətirir. AH-də وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ يَسْتَغْفِرْ لَكُمْ رَسُولُ ٱللَّهِ لَوَّوْاْ رُءُوسَهُمْ وَرَأَيْتَهُمْ يَصُدُّونَ وَهُم مُّسْتَكْبِرُونَ ٥ [ỵa’íẓā qīlə láhum̃ tä‘äläu yəstáğfir láku̇m̃ ṛasū́luḷ-ḷā́hi lắỵỵau ṛu’ū́səhum̃ ỵaṛa’əytəhum̃ yäṣuddū́nä ỵahúm̃-m̃ustə́kbiṛūūñ‖] «Onlara: "Gəlin Allahın Peyğəmbəri sizin bağışlanmağınızı diləsin!" – deyildiyi zaman başlarını dönə-dönə bulayar və sən onların təkəbbürlə üz çevirdiklərini görərsən» cümləsi NV-də وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ يَسْتَغْفِرْ لَكُمْ رَسُولُ ٱللَّهِ لَوَوْاْ رُءُوسَهُمْ وَرَأَيْتَهُمْ يَصُدُّونَ وَهُم مُّسْتَكْبِرُونَ ٥ [ỵa’íẓā qīlə láhum̃ tä‘äläu yəstáğfir láku̇m̃ ṛasū́luḷ-ḷā́hi lắỵau ṛu’ū́ūsəhum̃ ỵaṛa’əytəhum̃ yäṣuddū́nä ỵahúm̃-m̃ustə́kbirūūñ‖] (burada *məddi-bədəlin* kəmiyyət fərqi, *r* samitinin incələşməsi müşahidə edilir) «Onlara: "Gəlin Allahın Peyğəmbəri sizin bağışlanmağınızı diləsin!" – deyildiyi zaman başlarını bulayar və sən onların təkəbbürlə üz çevirdiklərini görərsən» kimi qiraət edilir.

I bab/III bab: فَعَلَ [fə‘alə]/فَاعَلَ [fə̄‘alə]. III bab feili əsasən hərəkətin qarşı şəxsə, yaxud məqsədə yönlənməsi ilə səciyyələnir. AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin cəmində, kişi cinsində يَخْدَعُونَ [yäxdä‘ū́nə] (2:9) feili NV-də III bab فَاعَلَ [fə̄‘alə] modelində işlənir: يُخَٰدِعُونَ [yuxā̃di‘ū́nə] (2:8). Müshəf fərqi yoxdur (يـخدعون). I bab خَدَعَ [xâdä‘a] feili «aldatmaq», خَادَعَ [xā̃dä‘a] feili isə «aldatmağa çalışmaq; badalaq qurmaq» anlamındadır. AH-də sözügedən ayədə I bab يَخْدَعُونَ [yäxdä‘ū́nə] feili ilə yanaşı III bab يُخَٰدِعُونَ [yuxā̃di‘ū́nə] feili də işlənir: يُخَٰدِعُونَ ٱللَّهَ وَٱلَّذِينَ ءَامَنُواْ وَمَا يَخْدَعُونَ إِلَّآ أَنفُسَهُمْ وَمَا يَشْعُرُونَ ٩ [yuxā̃di‘ū́näḷ-ḷā́hä ỵal-ləẓī́nə ’ə̄mənū ỵamā́ yäxdä‘ū́nə ’íllə̄ə̄ ’əñfúsəhum̃ ỵamā́ yə́ṣ‘uṛūūñ‖] «Onlar Allahı və möminləri aldatmağa çalışırlar, daha bilmirlər ki, özlərindən başqa heç kimi aldatmırlar!». NV-də isə həmin ayədə iki yerin ikisində də III bab يُخَٰدِعُونَ [yuxā̃di‘ū́nə] feili işlənir: يُخَٰدِعُونَ ٱللَّهَ وَٱلَّذِينَ ءَامَنُواْ وَمَا يُخَٰدِعُونَ إِلَّآ أَنفُسَهُمْ وَمَا يَشْعُرُونَ ٨ [yuxā̃di‘ū́näḷ-ḷā́hä ỵal-ləẓī́nə ’ə̄ə̄-mənū ỵamā́ yuxā̃di‘ū́nə ’íllə̄ə̄ ’əñfúsəhum̃ ỵamā́ yə́ṣ‘uṛūūñ‖] (burada *məddi-bədəl*, *məddi-münfəsilin* kəmiyyət fərqləri müşahidə edilir) «Onlar Allahı və möminləri aldatmağa çalışırlar, daha bilmirlər ki, özlərindən başqa heç kimə badalaq qurmurlar!». Birinci işlənmə yerində «aldatmaq» feili ehtimal, ikinci işlənmə yerində isə qənaət çalarları kəsb edir. Maraqlıdır ki, həm AH-də bir ayədə يُخَٰدِعُونَ [yuxādi‘ū́nə]/يَخْدَعُونَ [yäxdä‘ū́nə] feillərinin, həm də NV-də يُخَٰدِعُونَ [yuxādi‘ū́nə] feilinin iki yerdə işlənməsi ayədə üslub və səslənmə baxımından hər rəvayətdə özünəməxsus ahəng yaradır.

4:33-də AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, qadın cinsində عَقَدَتْ [‘áqâdət] feili NV-də III bab modelində فَاعَلَ [fə̄‘alə] işlənir: عَٰقَدَتْ [‘ā́qâdət].

Müshəf fərqi yoxdur (عـقـدب). Həm I bab عَقَدَ [‘aqâdə], həm də III bab عَاقَدَ [‘āqâdə] feili «(müqavilə, anlaşma, əhd-peyman) bağlamaq» anlamındadır. «And içib, əhd-peyman bağladığınız şəxslərin də paylarını özlərinə verin!» cümləsi AH-də وَٱلَّذِينَ عَقَدَتۡ أَيۡمَٰنُكُمۡ فَـَٔاتُوهُمۡ نَصِيبَهُمۡۚ [yal-ləẕīnä ‘áqâdət ’əymā̆nukuñ fə’ātū̆huñ näṣībəhuñ‖], NV-də isə وَٱلَّذِينَ عَـٰقَدَتۡ اَيۡمَٰنُكُمۡ فَـَٔاتُوهُمۡ نَصِيبَهُمۡۚ [yal-ləẕīnä ‘āqâdətə-ymā̆nukuñ fə’āātū̆huñ näṣībəhuñ‖] (burada həmçinin [’] səsinin düşümü, *məddi-bədəlin* kəmiyyət fərqi müşahidə olunur) kimi qiraət edilir.

AH-də III şəxsin təkində, kişi cinsində bitişən əvəzliklə işlənən I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin cəmində, kişi cinsində أَتَوۡهُ [’ətā̆uhu] (27:87) feili NV-də III bab فَاعَلَ [fā‘alə] modelində işlənir: ءَاتُوهُ [’āātū̆hu] (27:89; burada *məddi-bədəl* baş verir). Müshəf fərqi yoxdur (اتـوه). I bab أَتَى [’ātə] feili «gəlmək», III bab آتَى [’ā̆tə] feili «uyğun olmaq» mənasındadır. Feillər arasında müşahidə edilən leksik fərq ayədəki cümlənin mənasına ümumi kontekst baxımından xüsusi təsir etmir. AH-də وَكُلٌّ أَتَوۡهُ دَٰخِرِينَ ٨٧ [yakúlluñ ’ətā̆uhu dā̆xirīīñ‖] «Onların hamısı Onun hüzuruna müti (zəlil) vəziyyətdə gələr» cümləsi NV-də وَكُلٌّ اَتُوهُ دَٰخِرِينَ ٨٩ [yakúllunāā-tū̆hu dā̆xirīīñ‖] (burada [’] səsinin düşümü müşahidə edilir) «Onların hamısı Onun hüzurunda müti (zəlil) olar (mütiyə, zəlilə uyğun olar)» kimi qiraət edilir.

I bab/IV bab: فَعَلَ [fə‘alə]/أَفۡعَلَ [’əf‘alə]. IV bab feili əsasən kauzativliyi ilə (hərəkətdə təhrik, təsirləndirmə, məcburiyyət bildirməklə) səciyyələnir. AH-də təsviri əmr şəklində II şəxsin təkində, kişi cinsində bitişən əvəzliyi ilə işlənən I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, kişi cinsində يَحۡزُنكَ [yäḥzúñkə] (3:176; 5:41; 10:65; 31:23; 36:76), لَـ ədatı və II şəxsin təkində, kişi cinsində bitişən əvəzliklə işlənən I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, kişi cinsində لَيَحۡزُنُكَ [ləyäḥzú-nukə] (6:33),لَـ ədatı və I şəxsin təkində bitişən əvəzliklə işlənən I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, kişi cinsində لَيَحۡزُنُنِى [ləyäḥzúnunī] (12:13), لِـ ədatı ilə işlənən I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, kişi cinsində, arzu şəklində لِيَحۡزُنَ [liyä̆ḥzunə] (58:10) feilləri NV-də IV bab أَفۡعَلَ [’əf‘alə] modelində işlənir: يُحۡزِنكَ [yuḥzíñkə] (3:176; 5:43; 10:65; 31:22; 36:75), لَيُحۡزِنُكَ [ləyuḥzínukə] (6:34), لَيُحۡزِنُنِىَ [ləyuḥzinúniyə] (12:13; burada I şəxs bitişən əvəzliyinin qiraəti fərqi də müşahidə olunur), لِيُحۡزِنَ [liyúḥzinə] (58:10). Müshəf fərqi yoxdur (لـيـحـزنـك, لـيـحـزنـك, لـيـحـزنـى, لـيـحـزن). Həm I bab حَزَنَ [ḥazənə], yaxud حَزُنَ [ḥazunə], həm də IV bab أَحۡزَنَ [’äḥzənə] feili eyni anlamdadır: «kədərləndirmək, qüssələndirmək, qəmləndirmək».

7:202-də AH-də III şəxsin cəmində, kişi cinsində bitişən əvəzliyi ilə işlənən I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin cəmində, kişi cinsində يَمُدُّونَهُمۡ [yəmuddū̆nəhuñ] feili NV-də IV bab أَفۡعَلَ [’əf‘alə] modelində işlənir: يُمِدُّونَهُمۡ [yumiddū̆nəhuñ]. Müshəf fərqi yoxdur (يـمـدونـهـم). I bab مَدَّ [məddə] feili «uzatmaq; çəkmək; kömək etmək; dəstək olmaq», IV bab أَمَدَّ [’əməddə] feili isə «dəstək vermək, kömək etmək; təmin etmək; uzatmaq; irin vermək» anlamındadır. Bablararası fərq leksik fərq əmələ gətirsə də, bu, mənaya təsir etmir. Belə ki, həm AH-də وَإِخۡوَٰنُهُمۡ يَمُدُّونَهُمۡ فِى ٱلۡغَىِّ [ya’ixvā̆nuhuñ yəmuddū̆nəhuñ fil-ğâyyi], həm də NV-də وَإِخۡوَٰنُهُمۡ يُمِدُّونَهُمۡ فِى ٱلۡغَىِّ

[ỵa’ixỵ̄̃nuhum̃ yumiddū̃nəhum̃ fil-ğā̃yyi] cümlə eyni məna kəsb edir: «Öz qardaşlarını azğınlığa çəkərlər».

AH-də I bab فَعَلَ [fə‘alə] modelində II şəxsin cəmində, kişi cinsində تَهْجُرُونَ [təhcuṛū̃nə] (23:67) feili NV-də IV bab أَفْعَلَ [’əf‘alə] modelində işlənir: تُهْجِرُونَ [tuhcirū̃nə] (23:68) (burada *r* samitinin incələşməsi baş verir). Müshəf fərqi yoxdur (ـهـجـروں). I bab هَجَرَ [həcäṛa] feili «üz döndərmək», IV bab أَهْجَرَ [’əhcäṛa] feili isə «boş-boş (ağzına gələni) danışmaq» mənasındadır. Feillər arasında müşahidə edilən leksik fərq ayənin mənasına ümumi kontekst baxımından xüsusi təsir etmir. AH-də مُسْتَكْبِرِينَ بِهِۦ سَٰمِرًا تَهْجُرُونَ ٦٧ [mustəkbirī́nə bíhī sə̄miṛaħ̃-təhcuṛūūñ ‖ (təhcuṛū̃nə)] cümləsi «Onu özünüzə sığışdırmayıb gecələr toplanaraq üz döndərirdiniz» anlamı, NV-də مُسْتَكْبِرِينَ بِهِۦ سَٰمِرًا تُهْجِرُونَ ٦٨ [mustəkbirī́nə bíhī sə̄mirəħ̃-túhcirūūñ ‖ (tuhcirū́nə)] (burada daha bir *r* samitinin incələşməsi müşahidə edilir) «Onu özünüzə sığışdırmayıb gecələr toplanaraq ağzınıza gələni danışırdınız» məna kəsb edir.

25:67-də AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin cəmində, kişi cinsində, şərt şəklində يَقْتُرُواْ [yǟq̆tuṛū] (لَمْ يَقْتُرُواْ [ləm̃ yǟq̆tuṛū]) feili NV-də IV bab أَفْعَلَ [’əf‘alə] modelində işlənir: يُقْتِرُوا [yúq̆tirū] (burada *r* samitinin incələşməsi baş verir). Müshəf fərqi yoxdur (ـفـقـروں). I bab قَتَرَ [qǟtäṛa] feili «xəsislik etmək», IV bab أَقْتَرَ feili [’ǟq̆täṛa] «kasıblaşmaq» mənasındadır. Feillər arasında müşahidə edilən leksik fərk ayədəki cümlənin mənasına ümumi kontekst baxımından xüsusi təsir etmir. AH-də وَٱلَّذِينَ إِذَآ أَنفَقُواْ لَمْ يُسْرِفُواْ وَلَمْ يَقْتُرُواْ [ỵal-ləẕī́nə ’íẕə̄ə̄ ’ə̄ħ̃fäqū ləm̃ yúsrifū ỵaləm̃ yǟq̆tuṛū] «Onlar xərclədikdə nə israfçılıq, nə də xəsislik edərlər» cümləsi NV-də وَٱلَّذِينَ إِذَآ أَنفَقُواْ لَمْ يُسْرِفُواْ وَلَمْ يُقْتِرُواْ [ỵal-ləẕī́nə ’íẕə̄ə̄ə̄ ’ə̄ħ̃fäqū ləm̃ yúsrifū ỵaləm̃ yúq̆tirū] (burada *məddi-münfəsilin* kəmiyyət fərqi müşahidə edilir) «Onlar xərclədikdə nə israfçılıq edərlər, nə də kasıblaşarlar» kimi qiraət edilir.

AH-də فَ bağlayıcısı ilə işlənən IV bab أَفْعَلَ [’əf‘alə] modelində əmr şəklinin təkində, kişi cinsində فَأَسْرِ [fə’ə́sri], أَسْرِ [’ə́sri] feilləri NV-də I bab فَعَّلَ [fə‘‘alə] modelində işlənir: فَأَسْرِ [fə́-sri] (فَ أَسْرِ [fə ’ísri]), أَسْرِ [’ísri]. Müshəf fərqi yoxdur (ـفـاسـر, اسـر). IV bab أَسْرَى [’əsrǟ] və I bab سَرَى [särǟ] feillərinin mənaları üst-üstə düşür: «gecə getmək». AH-də فَأَسْرِ بِأَهْلِكَ بِقِطْعٍ مِّنَ ٱلَّيْلِ [fə’ə́sri bi’əhlikə biqíṭ‘im̃-m̃ínəl-léyli] (11:81; 15:65), فَأَسْرِ بِعِبَادِى [fə’ə́sri bi‘ibə̄dī] (44:23), أَسْرِ بِعِبَادِى [’ə́sri bi‘ibə̄dī] (20:77; 26:52) və NV-də فَأَسْرِ بِأَهْلِكَ بِقِطْعٍ مِّنَ ٱلَّيْلِ [fə́-sri bi’əhlikə biqíṭ‘im̃-m̃ínəl-léyli] (11:80; 15:65), فَأَسْرِ بِعِبَادِى [fə́-sri bi‘ibə̄dī] (44:22), أَسْرِ بِعِبَادِى [’ísri bi‘ibə̄dī] (20:76; 26:52) cümlələri eyni məna kəsb edir: «Gecənin bir vaxtında ailənlə birlikdə çıx get», «Və gecə ikən çıx get», «Gecə ikən çıx get».

16:66, 23:21-da AH-də II şəxsin cəmində, kişi cinsində bitişən əvəzliklə işlənən IV bab أَفْعَلَ [’əf‘alə] modelində I şəxsin cəmində نُّسْقِيكُمْ [nusqī́kum̃] feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: نَّسْقِيكُمْ [nəsqī́kum̃]. Müshəf fərqi yoxdur (ـنـسـقـيـكـم). IV bab أَسْقَى [’əsqǟ] feilinin mənası ilə I bab سَقَى [säqǟ] feilinin mənası üst-üstə düşür: «içirtmək». «Biz onların qarınlarındakını sizə içirdirik» cümləsi AH-də نُّسْقِيكُم مِّمَّا فِى بُطُونِهِۦ [nusqī́kum̃-m̃im̃-m̃ə fī buṭū́nihi], نُّسْقِيكُم مِّمَّا فِى بُطُونِهَا [nusqī́kum̃-m̃im̃-

mə̃ fī buṭū̃nihā] NV-də نَّسۡقِيكُم مِّمَّا فِى بُطُونِهَا [nəsqī́kum̃-mim̃-mə̃ fī buṭū̃nihi], نَّسۡقِيكُم مِّمَّا فِى بُطُونِهَا [nəsqī́kum̃-mim̃-mə̃ fī buṭū̃nihā] kimi qiraət edilir.

AH-də لَـ ədatı ilə işlənən IV bab أَفۡعَلَ [’əf‘alə] modelində III şəxsin cəmində, kişi cinsində لَّيُضِلُّونَ [ləyuḍillū́nə] (6:119) feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: لَّيَضِلُّونَ [ləyäḍillū́nə] (6:120). Müshəf fərqi yoxdur (لـيـضـلـون). IV bab أَضَلَّ [’äḍâllə] feili «yoldan çıxarmaq; azdırmaq», I bab ضَلَّ [ḍâllə] «yanılmaq; sapmaq» anlamındadır. AH-də «çoxları»nın (كَثِيرًا) digərlərini düz yoldan «çıxarılırdığından» (أَضَلَّ) söhbət getdiyi halda, NV-də «çoxları»nın özlərinin düz yoldan sapdıqlarından (ضَلَّ) gedir. AH-də وَإِنَّ كَثِيرًا لَّيُضِلُّونَ بِأَهۡوَآئِهِم بِغَيۡرِ عِلۡمٍ [ṵa’íññə kəs̱ī́rəl-ləyuḍillū́nə bi’əhṵā́ā’ihim̃-biǧā́yri ‘ilm̃‖] «Şübhəsiz ki, çoxları (şəriəti) bilmədiklərindən nəfslərinin istəklərinə uyaraq (xalqı) düz yoldan azdırarlar» cümləsi NV-də وَإِنَّ كَثِيرًا لَّيُضِلُّونَ بِأَهۡوَآئِهِم بِغَيۡرِ عِلۡمٍ [ṵa’íññə kəs̱ī́rəl-ləyäḍillū́nə bi’əhṵā́ā’ihim̃-biǧā́yri ‘ilm̃‖] (burada *r* samitinin incələşməsi, *məddi-müttəsilin* kəmiyyət fərqi müşahidə edilir) «Şübhəsiz ki, çoxları (şəriəti) bilmədiklərindən nəfslərinin istəklərinə uyaraq düz yoldan saparlar» kimi qiraət edilir.

10:88-də AH-də لِـ ədatı ilə işlənən IV bab أَفۡعَلَ [’əf‘alə] modelində III şəxsin cəmində, kişi cinsində, arzu şəklində لِيُضِلُّواْ [liyuḍíllū] feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: لِيَضِلُّواْ [liyäḍíllū]. Müshəf fərqi yoxdur (لـيـضـلـوا). IV bab أَضَلَّ [’äḍâllə] feili «azdırmaq», I bab ضَلَّ [ḍâllə] feili «azmaq» mənasındadır. Feillər arasında müşahidə edilən leksik fərq ayədəki cümlənin mənasına ümumi kontekst baxımından xüsusi təsir etmir. AH-də رَبَّنَا لِيُضِلُّواْ عَن سَبِيلِكَ [ṛábbənə liyuḍíllū ‘añ-səbī́likə] «Ey Rəbbimiz! (İsrail oğullarının insanları) Sənin yolundan azdırmaları üçün?» cümləsi NV-də رَبَّنَا لِيَضِلُّواْ عَن سَبِيلِكَ [ṛábbənə liyäḍíllū ‘añ-səbī́likə] «Ey Rəbbimiz! Sənin yolundan (İsrail oğullarının) azmaları üçün?» kimi qiraət edilir.

AH-də فَـ bağlayıcısı, II şəxsin cəmində, kişi cinsində bitişən əvəzliklə işlənən IV bab أَفۡعَلَ [’əf‘alə] modelində III şəxsin təkində, kişi cinsində, səbəbiyyət fə-dən (فاء السببية) sonrakı arzu şəklində فَيُسۡحِتَكُمۡ [fəyusḥítəkum̃] feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: فَيَسۡحَتَكُمۡ [fəyəsḥátəkum̃]. Müshəf fərqi yoxdur (فـيـسـحـتـكـم). IV bab أَسۡحَتَ [’əsḥatə] feili ilə I bab سَحَتَ [säḥatə] feilinin mənaları üst-üstə düşür: «məhv etmək». «Yoxsa O sizi əzabla məhv edər» cümləsi AH-də فَيُسۡحِتَكُم بِعَذَابٍۖ [fəyus-ḥítəkum̃-bi‘aẕə́biñ] (20:61), NV-də فَيَسۡحَتَكُم بِعَذَابٍۖ [fəyəsḥátəkum̃-bi‘aẕə́biñ] (20:60) kimi qiraət edilir.

33:14-də AH-də لَـ ədatı, III şəxsin təkində, qadın cinsində bitişən əvəzliklə işlənən IV bab أَفۡعَلَ [’əf‘alə] modelində III şəxsin cəmində, kişi cinsində, təkid şəklində لَأَتَوۡهَا [lə’ətáuhə] feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: لَأَتَوۡهَا [lə’ətáuhə] (burada *məddi-bədəl* baş vermir). Müshəf fərqi yoxdur (لاتـوهـا). IV bab ءَاتَى [’ə́tə] feili «vermək», I bab أَتَى [’ə́tə] feili isə «gəlmək», «etmək» mənasındadır. Feillər arasında müşahidə edilən leksik fərq ayədəki cümlənin mənasına ümumi kontekst baxımından xüsusi təsir etmir. AH-də وَلَوۡ دُخِلَتۡ عَلَيۡهِم مِّنۡ أَقۡطَارِهَا ثُمَّ سُئِلُواْ ٱلۡفِتۡنَةَ لَأَتَوۡهَا وَمَا تَلَبَّثُواْ بِهَآ إِلَّا يَسِيرًا ١٤ [ṵalā́u dúxilət ‘aléyhim̃-mīñ ’äqṭā́rihə s̱úm̃mə sú’ilul-fītnətə lə’ətáuhā̃ ṵámə tələ́bbəs̱ū bíhəə ’íllə yəsī́ṛā‖] «Əgər hər tərəfindən üstlərinə

yüyürülüb onlardan fitnə törətmək istənilsəydi, sözsüz ki, dərhal onu verərlər (istəyi yerinə yetirərlər) və bunda azacıq da olsa yubanmazdılar» cümləsi NV-də وَلَوۡ دُخِلَتۡ عَلَيۡهِم مِّنۡ أَقۡطَارِهَا ثُمَّ سُئِلُواْ ٱلۡفِتۡنَةَ لَأَتَوۡهَا وَمَا تَلَبَّثُواْ بِهَآ إِلَّا يَسِيرٗا ١٤ [ỵalấu dúxilət ‘aléyhim̃-m̃iñ ’äq̆-ṭấrihə ṣúm̃m̃ə sú’ilul-fítnətə lə’ətấuhấ ỵámə tələbbəṣū bíhəə ’íllə yəsí̆ṛā‖] (burada zəif saiti infleksiya, *məddi-münfəsilin* kəmiyyət fərqi, *r* samitinin incələşməsi müşahidə edilir) «Əgər hər tərəfindən üstlərinə yüyürülüb onlardan fitnə törətmək istənilsəydi, sözsüz ki, dərhal onu gəlib edərlər və bunda azacıq da olsa yubanmazdılar» kimi qiraət edilir.

68:51-də AH-də لَـ ədatı və II şəxsin təkində, kişi cinsində bitişən əvəzliklə işlənən IV bab أَفۡعَلَ [’əf‘alə] modelində III şəxsin cəmində, kişi cinsində لَيُزۡلِقُونَكَ [ləyuzliqū̃nəkə] feili NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: لَيَزۡلِقُونَكَ [ləyəzliqū̃nəkə]. Müshəf fərqi yoxdur (لـيـزلـقـونـكـ). IV bab أَزۡلَقَ [’əzläqâ] feilinin mənası ilə I bab زَلِقَ [zəliqâ] (yaxud زَلَقَ [zəläqâ]) feilinin mənası arasında kontekst baxımından fərq yoxdur: «(göz ilə) süzmək (gözləri zilləmək)». «Həqiqətən, kafirlər Qur’anı eşitdikləri zaman az qala səni gözləri ilə yeyələr» cümləsi AH-də وَإِن يَكَادُ ٱلَّذِينَ كَفَرُواْ لَيُزۡلِقُونَكَ بِأَبۡصَٰرِهِمۡ لَمَّا سَمِعُواْ ٱلذِّكۡرَ [ỵa’íỹ-ỹəkấdul-ləẓī́nə kə́fäṛū ləyuzliqū̃nəkə bi’əb̆ṣấrihiñ lə́m̃m̃ə sə́mi‘uẓ-ẓíkṛa], NV-də وَإِن يَكَادُ ٱلَّذِينَ كَفَرُواْ لَيَزۡلِقُونَكَ بِأَبۡصَٰرِهِمۡ لَمَّا سَمِعُواْ ٱلذِّكۡرَ [ỵa’íỹ-ỹəkấdul-ləẓī́nə kə́fäṛū ləyəzliqū̃nəkə bi’əb̆ṣấrihiñ lə́m̃m̃ə sə́mi‘uẓ-ẓíkrə] (burada zəif saiti infleksiya, sayəsində *r* samitinin incələşməsi müşahidə olunur) kimi qiraət edilir.

I bab/V bab: فَعَلَ [fə‘alə]/تَفَعَّلَ [təfə‘‘alə]. V bab feili əsasən II bab feilinin bildirdiyi hərəkətin qayıdışını göstərir. AH-də I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, qadın cinsində, xəbər şəklində تَلۡقَفُ [tə́lqâfu] (7:117; 26:45), I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, qadın cinsində, şərt şəklində تَلۡقَفۡ [tə́lqâf] (20:69) feilləri NV-də V bab تَفَعَّلَ [təfə‘‘alə] modelində işlənir: تَلَقَّفُ [tələ̆qqâfu] (7:116; 26:44), تَلَقَّفۡ [tələ̆qqâf] (20:68). Müshəf fərqi yoxdur (تـلـقـف). Qeyd olunmalıdır ki, burada V bab (ikinci [tə]) تَـ [-tə-] prefiksinin (تَتَلَقَّفُ [tətələ̆qqâfu] → تَلَقَّفُ [tələ̆qqâfu]) metateza nəticəsində düşümü ilə xəbər şəklində تَلَقَّفُ [tələ̆qqâfu], şərt şəklində تَلَقَّفۡ [tələ̆qqâf] formalarında qiraət edilir. I bab لَقِفَ [läqifə] feili «tutmaq», V bab تَلَقَّفَ [tələ̆qqâfə] «tutmaq; udmaq» anlamındadır. Leksik fərq kifayət qədər böyük görsənsə də, ayənin məna tutumuna xüsusi təsir göstərmir. Belə ki, AH-də فَإِذَا هِيَ تَلۡقَفُ مَا يَأۡفِكُونَ [fə’íẓə híyə tə́lqâfu mə yə́’fikūūñ‖] «Bir də (baxıb gördülər ki, əsa) onların uydurub düzəltdiklərini tutur» və تَلۡقَفۡ مَا صَنَعُوٓاْ [tə́lqâf mā ṣấnä‘ū] «onların uydurub düzəltdiklərini tutsun» NV-də فَإِذَا هِيَ تَلَقَّفُ مَا يَافِكُونَ [fə’íẓə híyə tələ̆qqâfu mə yə́fikūūñ‖] (burada [’] səsinin [ə] ilə əvəzlənməsi müşahidə edilir) «Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdiklərini udur» və تَلۡقَفۡ مَا صَنَعُوٓاْ [tə́lqâf mā̃ ṣấnä‘ū] «onların uydurub düzəltdiklərini udsun» kimi qiraət edilir.

AH-də فَـ bağlayıcısı, III şəxsin təkində, kişi cinsində bitişən əvəzliklə işlənən I bab فَعَلَ [fə‘alə] modelində III şəxsin təkində, qadın cinsində فَتَخۡطَفُهُ [fətäxtấfuhu] (22:31) feili NV-də V bab تَفَعَّلَ [təfə‘‘alə] modelində işlənir: فَتَخَطَّفُهُ [fətäxâṭṭấfuhu] (22:29). Müshəf fərqi yoxdur (فـتـخـطـفـه). Qeyd olunmalıdır ki, burada V bab (ikinci

[tə]) تَـ [-tə-] prefiksinin (تَتَخَطَّفُ [tətäxâṭṭâfu] → تَخَطَّفُ [täxâṭṭâfu]) metateza nəticəsində düşümü ilə فَتَخَطَّفُهُ [fətäxâṭṭâfuhu] formasında qiraət edilir. I bab خَطَفَ [xâ-ṭâfə] (خَطِفَ [xâṭifə]) feili «tutub aparmaq», V bab تَخَطَّفَ [täxâṭṭâfə] feili «altdan tutmaq; qaldırılmaq» mənasındadır. Feillər arasında müşahidə edilən leksik fərq cümlənin mənasına ümumi kontekst baxımından təsir etmir. AH-də وَمَن يُشْرِكْ بِٱللَّهِ فَكَأَنَّمَا خَرَّ مِنَ ٱلسَّمَآءِ فَتَخْطَفُهُ ٱلطَّيْرُ أَوْ تَهْوِى بِهِ ٱلرِّيحُ فِى مَكَانٍ سَحِيقٍ ٣١ [ỵamə́ỹ-ỹúşrik bil-lə́hi fə́kə’ə́ññəmā́ xə́ṛṛa mínəs-səmə́ə’i fətäxṭâfuhuṭ-ṭâyru ’ə́u tə́hỵī bíhir-rī́ḥu fī məkə́niñ-sə́ḥīīğ ‖] «Allaha şərik qoşan kimsə göydən düşən, quşların onu sür’ətlə (caynaqları ilə) tutub apardığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə bənzər» cümləsi NV-də وَمَن يُشْرِكْ بِٱللَّهِ فَكَأَنَّمَا خَرَّ مِنَ ٱلسَّمَآءِ فَتَخَطَّفُهُ ٱلطَّيْرُ أَوْ تَهْوِى بِهِ ٱلرِّيحُ فِى مَكَانٍ سَحِيقٍ ٣١ [ỵamə́ỹ-ỹúşrik bil-lə́hi fə́kə’ə́ññəmā́ xə́ṛṛa mínəs-səmə́ə́ə’i fətäxâṭṭâfuhuṭ-ṭâyru ’ə́u tə́hỵī bíhir-rī́ḥu fī məkə́niñ-sə́ḥīīğ ‖] (burada *məddi-müttəsilin* kəmiyyət fərqi, *r* samitinin incələşməsi müşahidə edilir) «Allaha şərik qoşan kimsə göydən düşən, quşların onu sür’ətlə (caynaqları ilə) tutub qaldırdığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə bənzər» kimi qiraət edilir.

I bab/VIII bab: فَعَلَ [fə‘alə]/ٱفْتَعَلَ [’iftə‘alə]. VIII bab feili əsasən I bab feilinin bildirdiyi hərəkətin qayıdışını göstərir. AH-də I bab فَعَلَ [fə‘alə] modelində II şəxsin cəmində, kişi cinsiində, əmr (inkar) şəklində تَعْدُواْ [tä‘dū] (4:154) feili NV-də VIII bab ٱفْتَعَلَ [’iftə‘alə] modelində işlənir: تَعَدُّواْ [tä‘ddū] (4:153). Müshəf fərqi yoxdur (تعدوا). Qeyd olunmalıdır ki, burada karlıq-cingiltililik əlaməti üzrə reqressiv assimilyasiya hadisəsi ([tä‘tədū] → [tä‘dədū]) nəticəsində metateza baş verir, sait səs assimilyasiya olunmuş qoşa səsin önünə keçir ([tä‘dədū] → [tä‘ddū]). Məhz bu hadisələrin baş verməsi sayəsində إِعْتَدَى [’i‘tədə] feilinin indiki-gələcək zamanda يَعْتَدِى [yä‘tədī] forması nəticədə يَعَدِّى [yä‘addī] şəklinə düşür və II şəxsin cəmində, kişi cinsiində, əmr (inkar) şəklində تَعَدُّواْ [tä‘ddū] kimi qiraət edilir. I bab عَدَا (عدو) [’adə] feili «həddi aşmaq, həddi keçmək», VIII bab إِعْتَدَى [’i‘tədə] isə «qəsd etmək; təcavüz etmək» mənasındadır. Müşahidə edilən leksik fərq ayənin ümumi mənasına xüsusi təsir göstərmir. AH-də وَقُلْنَا لَهُمْ لَا تَعْدُواْ فِى ٱلسَّبْتِ [ỵaqúlnə́ lə́hum̃ lə́ tä‘dū fis-sə́ğti] «"Şənbə günü (sərhədlərini) aşmayın (şənbə günü qayda-qanununu pozmayın)!" - dedik» NV-də وَقُلْنَا لَهُمْ لَا تَعَدُّواْ فِى ٱلسَّبْتِ [ỵaqúlnə́ lə́hum̃ lə́ tä‘addū fis-sə́ğti] «"Şənbə günü (sərhədlərinə) qəsd etməyin (şənbə günü qayda-qanununu pozmayın)!" - dedik». Sezmək olur ki, NV-də «həddi aşmaq» məsələsi daha qabarıq, daha kəskin şəkildə qoyulur.

AH-də II şəxsin cəmində, kişi cinsində bitişən əvəzliyi ilə işlənən VIII bab إِفْتَعَلَ [’iftə‘alə] modelində III şəxsin cəmində, kişi cinsində يَتَّبِعُوكُمْ [yəttəbi‘ū́kum̃] (7:193), III şəxsin cəmində, kişi cinsində bitişən əvəzliyi ilə işlənən III şəxsin təkində, kişi cinsində يَتَّبِعُهُمْ [yəttəbí‘uhum̃] (26:224) feilləri NV-də I bab فَعَلَ [fə‘alə] modelində işlənir: يَتْبَعُوكُمْ [yətbä‘ū́kum̃] (7:193), يَتْبَعُهُمْ [yətbä‘uhum̃] (26:223). Müshəf fərqi yoxdur (يتبعوكم, يتبعهم). VIII bab إِتَّبَعَ [’ittəbä‘a] feili «ardı ilə getmək; rəhbər tutmaq, riayət etmək; izləmək», I bab تَبِعَ [təbi‘a] feili isə «ardı ilə getmək; tabe olmaq; addım-addım izləmək» anlamındadır. Leksik fərqin əmələ gətirdiyi məna

fərqi ümumi kontekstə xüsusi təsir göstərmir. Belə ki, AH-də وَإِن تَدۡعُوهُمۡ إِلَى ٱلۡهُدَىٰ لَا يَتَّبِعُوكُمۡۗ [ỵa’íñ-tədˇ‘ū́humũ ’íləl-húdə lə yəttəbi‘ū́kum̃‖] «Siz onları doğru yola dəvət etsəniz, ardınızla getməzlər», ٢٢٤ وَٱلشُّعَرَآءُ يَتَّبِعُهُمُ ٱلۡغَاوُۥٓنَ [ỵaş-şu‘aṛā́ā’u yəttəbí‘uhumul-ğā́ỵūūñ‖] «(Müşrik və kafir) şairlərə gəlincə, onların ardı ilə azğınlar gedər» NV-də وَإِن تَدۡعُوهُمۡ إِلَى ٱلۡهُدَىٰ لَا يَتَّبِعُوكُمۡۗ [ỵa’íñ-tədˇ‘ū́humūūū ’íləl-húdə/’íləl-húdæ lə yətbä‘ū́kum̃‖] (burada *məddi-sıleyi-mimi cəm*, alternativli zəif saiti infleksiya müşahidə edilir) «Siz onları doğru yola dəvət etsəniz, sizin ardınızla gedib tabe olmazlar», وَٱلشُّعَرَآءُ يَتَّبِعُهُمُ ٢٢٣ ٱلۡغَاوُۥٓنَ [ỵaş-şu‘aṛā́ā’u yətbā́‘uhumul-ğā́ỵūūñ‖] (burada *məddi-müttəsilin* kəmiyyət fərqi müşahidə edilir) «(Müşrik və kafir) şairlərə gəlincə, onların ardı ilə azğınlar gedib tabe olarlar» kimi qiraət edilir [57, 2, 333].

II bab/III bab: فَعَّلَ [fə‘‘alə]/فَاعَلَ [fə̄‘alə]. AH-də II bab فَعَّلَ [fə‘‘alə] modelində II şəxsin təkində, kişi cinsində, əmr (inkar) şəklində تُصَعِّرۡ [tuṣā́‘‘ir] (31:18) feili NV-də III bab فَاعَلَ [fə̄‘alə] modelində işlənir: تُصَٰعِرۡ [tuṣā́‘ir] (31:17). Müshəf fərqi yoxdur (ـصـعـر). II bab صَعَّرَ [ṣā́‘‘aṛa] feili ilə IV bab أَصۡعَرَ [’ā́ṣ‘aṛa] feilinin mənaları üst-üstə düşür: «üz çevirmək». «Adamlardan təkəbbürlə üz çevirmə!» cümləsi AH-də وَلَا تُصَعِّرۡ خَدَّكَ لِلنَّاسِ [ỵalā́ tuṣā́‘‘ir xā́ddəkə liñ-ñə̄si], NV-də وَلَا تُصَٰعِرۡ خَدَّكَ لِلنَّاسِ [ỵalā́ tuṣā́‘ir xā́ddəkə liñ-ñə̄si] kimi qiraət edilir. Fərqin model səciyyəli olduğu qənaətimizlə ər-Racihi də həmfikir olsa da, o, Əbu Əli əl-Farisinin söylədiyi ləhcə fərqi fikri ilə şərik çıxdığını da dilə gətirir. Qeyd olunur ki, NV-də işlənilən III bab feil Hicaz əhlinin, AH-dəki II bab feil isə Bəni Təmim ləhcələrində eyni məna kəsb edir [38, 177; 54, 4, 160].

II bab/IV bab: فَعَّلَ [fə‘‘alə]/أَفۡعَلَ [’əf‘alə]. AH-də II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin təkində, kişi cinsində وَصَّىٰ [ỵáṣṣā̄] (2:132) feili NV-də IV bab أَفۡعَلَ [’əf‘alə] modelində işlənir: أَوۡصَىٰ [’ā́uṣā̄/’ā́uṣǣ] (2:131). NV-də sözügedən feildə alternativli zəif saiti infleksiya baş verir. Müshəf fərqi var (اوصى/وصى). وَصَّىٰ [ỵáṣṣā̄] feili «təlimat vermək, tövsiyə etmək, sifariş etmək; vəsiyyət yazmaq; vəsiyyət etmək», أَوۡصَىٰ [’ā́uṣā̄] feili isə «vəsiyyət etmək; əmr etmək; tapşırıq vermək; qəyyum təyin etmək» anlamındadır. AH-də وَوَصَّىٰ بِهَآ إِبۡرَٰهِـۧمُ بَنِيهِ وَيَعۡقُوبُ [ỵaỵáṣṣā̄ bíhə̄ə̄ ’ibṛāhī́mu bənī́hi ỵayä‘qū́bu] «İbrahim və Yəqub bunu öz oğlanlarına tapşırdı» cümləsi NV-də وَأَوۡصَىٰ بِهَآ إِبۡرَٰهِيمُ بَنِيهِ وَيَعۡقُوبُ [ỵa’ā́uṣā̄/ỵa’ā́uṣǣ bíhə̄ə̄ə̄ ’ibṛāhī́mu bənī́hi ỵayä‘qū́bu] (burada alternativli zəif saiti infleksiya, *məddi-münfəsilin* kəmiyyət fərqi müşahidə edilir): «İbrahim və Yəqub bunu öz oğlanlarına vəsiyyət etdi». Bu feillərlə bağlı ət-Təbərinin fikri ilə razılaşmamaq çətindir. O, leksik fərqin olduğunu göstərərək وَصَّى feilinin "عهد إليهم عهدًا بعد عهد" «dönə-dönə tapşırdı», أَوۡصَى feilinin isə "أوصى وصية بعد وصية" «dönə-dönə vəsiyyət etdi» mənalarında işlənməsini bildirir [48, 2, 582-584].

II şəxsin təkində, kişi cinsində bitişən əvəzliklə işlənən II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin cəmində, kişi cinsində يُكَذِّبُونَكَ [yukəẓẓibū́nəkə] (6:33) feili NV-də IV bab أَفۡعَلَ [’əf‘alə] modelində işlənir: يُكۡذِبُونَكَ [yukẕibū́nəkə] (6:34). Müshəf fərqi yoxdur (ـكـذبـونـك). II bab كَذَّبَ [kəẓẓəbə] feili «yalan hesab etmək; təkzib etmək», IV bab أَكۡذَبَ [’əkẕəbə] feili isə «yalan danışmağa məcbur etmək; yalanı ifşa etmək, yalanı üzə çıxarmaq; təkzib etmək» mənasındadır. Leksik fərq ayənin ümumi məna-

sına xüsusi təsir göstərmir. Belə ki, AH-də قَدْ نَعْلَمُ إِنَّهُ لَيَحْزُنُكَ ٱلَّذِى يَقُولُونَ ۖ فَإِنَّهُمْ لَا يُكَذِّبُونَكَ [qâd nấ‘ləmu ’íññəhū ləyäḥzúnukəl-lə́z̲ī yäqūlū́nə ´ fə’íññəhum̃ lə̄ yukəz̲z̲ibū́nəkə] «Bilirik ki, onların (Quran barəsində) dedikləri söz səni çox kədərləndirir. Həqiqətdə isə onlar səni yalançı hesab etmirlər» cümləsi NV-də قَدْ نَعْلَمُ إِنَّهُۥ لَيَحْزُنُكَ ٱلَّذِى يَقُولُونَ ۖ فَإِنَّهُمْ لَا يُكَذِّبُونَكَ [qâd nấ‘ləmu ’íññəhū ləyuḥzínukəl-lə́z̲ī yäqūlū́nə ´ fə’íññəhum̃ lə̄ yukz̲ibū́nəkə] (burada daha bir feilin bab fərqi müşahidə edilir) «Bilirik ki, onların (Quran barəsində) dedikləri söz səni çox kədərləndirir. Həqiqətdə isə onlar səni yalanlamırlar» kimi qiraət edilir.

AH-də 6:64-də II şəxsin cəmində, kişi cinsində bitişən əvəzliklə işlənən II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin təkində, kişi cinsində يُنَجِّيكُمْ [yunəccī́kum̃] feili NV-də IV bab أَفْعَلَ [’əf‘alə] modelində işlənir: يُنجِيكُمْ [yu~ncī́kum̃] (6:65). NV-də sözügedən feildə dəyişiklik sayəsində gizlətmə (*ixfa*) hadisəsi baş verir [2, 134-139]. Müshəf fərqi yoxdur (ـنـحـكـم). Həm II bab نَجَّىٰ [nəccə̄] (نجو) feili, həm də IV bab أَنْجَىٰ [’əncə̄] feili «xilas etmək» mənasındadır. Leksik fərq mənə fərqinə gətirib çıxarmır. Belə ki, AH-də قُلِ ٱللَّهُ يُنَجِّيكُم مِّنْهَا وَمِن كُلِّ كَرْبٍ [qúlil-lə́hu yunəccī́kum̃-mīíñhā̃ ṿámiñ-kúlli kấṛbiñ] cümləsi NV-də قُلِ ٱللَّهُ يُنجِيكُم مِّنْهَا وَمِن كُلِّ كَرْبٍ [qúlil-lə́hu yu~ncī́kum̃-mīíñhā̃ ṿámiñ-kúlli kấṛbiñ] «De: "Sizi ondan xilas edən və hər bir qəmdən qurtaran Allahdır» kimi qiraət edilir.

8:11-də AH-də II bab فَعَّلَ [fə‘‘alə] modelində III şəxsin cəmində, kişi cinsində bitişən əvəzliyi ilə işlənən III şəxsin təkində يُغَشِّيكُمْ [yuğâşşī́kum̃] feili NV-də IV bab أَفْعَلَ [’əf‘alə] modelində işlənir: يُغْشِيكُمْ [yuğşī́kum̃]. Müshəf fərqi yoxdur (ـغـسـكـم). II bab غَشَّىٰ [ğaşşə̄] feili «örtmək; bürümək; daldırmaq», IV bab أَغْشَىٰ [’ äğşə̄] feili isə «qaranlıq olmaq; örtmək; qaranlığa qərq etmək» anlamındadır. Leksik fərqin əmələ gətirdiyi mənə fərqi minimaldır. AH-də إِذْ يُغَشِّيكُمُ ٱلنُّعَاسَ أَمَنَةً مِّنْهُ [’iz̲ yuğâşşī́kumuñ-ñu‘ấsə ’əmə́nətəm̃-mīíñhu] «O vaxt Öz tərəfindən arxayınlıq əlaməti olaraq, O sizi xəfif bir uyğuya daldırmışdı» cümləsi NV-də إِذْ يُغْشِيكُمُ ٱلنُّعَاسَ أَمَنَةً مِّنْهُ [’iz̲ yuğşī́kumuñ-ñu‘ấsə ’əmə́nətəm̃-mīíñhu] «O vaxt Öz tərəfindən arxayınlıq əlaməti olaraq, O sizi xəfif bir uyğuya salmışdı» kimi qiraət edilir.

III bab/V bab: فَاعَلَ [fə̄‘alə]/تَفَعَّلَ [təfə́‘‘alə]. AH-də III bab فَاعَلَ [fə̄‘alə] modelində II şəxsin cəmində, kişi cinsində تُظَٰهِرُونَ [tuẓâhiṛū́nə], III şəxsin cəmində, kişi cinsində يُظَٰهِرُونَ [yuẓâhiṛū́nə] feilləri NV-də V bab تَفَعَّلَ [təfə́‘‘alə] modelində işlənir: تَظَّهَّرُونَ [täẓẓâhhäṛū́nə], يَظَّهَّرُونَ [yäẓẓâhhäṛū́nə]. Müshəf fərqi yoxdur (ـتـظـهـروں). Qeyd olunmalıdır ki, V bab feilində [ẓ] səsi kontaktsız təsiri ilə özündən əvvəl gələn açıq hecanın samitini əmələ gəlmə yerinə görə distant assimilyasiyaya uğradır: تَتَظَهَّرُونَ [tətäẓâhhäṛū́nə], يَتَظَهَّرُونَ [yətäẓâhhäṛū́nə] → تَظَظَهَّرُونَ [täẓâẓâhhäṛū́nə], يَظَظَهَّرُونَ [yäẓâẓâhhäṛū́nə] və aralarındakı sait də düşümə məruz qalır: تَظَّهَّرُونَ [täẓẓâhhäṛū́nə], يَظَّهَّرُونَ [yäẓẓâhhäṛū́nə]. III bab ظَاهَرَ [ẓâhäṛa] və V bab تَظَهَّرَ [täẓâhhäṛa] feilləri «zihar etmək» anlamındadır. «O zihar etdiyiniz zövcələrinizi sizə doğma ana etməmişdir» (33:4), «Sizdən öz qadınları ilə zihar edən...» (58:2), «Qadınları ilə zihar edib…» (58:3) cümlə və ifadələri AH-də وَمَا جَعَلَ أَزْوَٰجَكُمُ ٱلَّٰٓـِٔى تُظَٰهِرُونَ مِنْهُنَّ أُمَّهَٰتِكُمْ ٤ [ṿamấ cấ‘alə ’əzṿấcəkumul-lə̄ə̄’ī tuẓâhiṛū́nə míñhuññə

’um̃m̃əhə̃tikum̃‖], ٱلَّذِينَ يُظَٰهِرُونَ مِنكُم مِّن نِّسَآئِهِم [’əl-ləẕīnə yuẓâhiṛūnə míñkum̃-m̃iñ-ñisə̃ə̃’ihim̃], وَٱلَّذِينَ يُظَٰهِرُونَ مِن نِّسَآئِهِمْ [ẓal-ləẕīnə yuẓâhiṛūnə miñ-ñisə̃ə̃’ihim̃], NV-də وَمَا جَعَلَ أَزْوَٰجَكُمُ ٱلَّٰٓـِٔى تَظَٰهَرُونَ مِنْهُنَّ أُمَّهَٰتِكُمْ [ẓamə̃ cə̃‘alə ’əẓẓə̃cəkumul-lə̃ə̃ə̃ i/’əẓẓə̃cəkumul-lə̃ i täẓẓâhhäṛūnə míñhuññə ’um̃m̃əhə̃tikum̃‖] (burada ٱلَّٰٓـِٔى [’əl-lə̃ə̃’ī] nisbi əvəzliyinin qiraəti fərqi müşahidə edilir), ٱلَّذِينَ يَظَٰهَرُونَ مِنكُم مِّن نِّسَآئِهِم [’əl-ləẕīnə yäẓẓâhhäṛūnə míñkum̃-m̃iñ-ñisə̃ə̃ə̃’ihim̃] (burada *məddi-müttəsilin* kəmiyyət fərqi müşahidə edilir), وَٱلَّذِينَ يَظَٰهَرُونَ مِن نِّسَآئِهِمْ [ẓal-ləẕīnə yäẓẓâhhäṛūnə miñ-ñisə̃ə̃ə̃’ihim̃] (burada *məddi-müttəsilin* kəmiyyət fərqi müşahidə olunur) kimi qiraət edilir.

III bab/VI bab: فَاعَلَ [fə‘alə]/تَفَاعَلَ [təfə‘alə]. AH-də III bab فَاعَلَ [fə‘alə] modelində III şəxsin təkində, qadın cinsində, şərt şəklində تُسَٰقِطْ [tusə̃qiṭ] (19:25) feili NV-də VI bab تَفَاعَلَ [təfə‘alə] modelində işlənir: تَسَّٰقَطْ [təssə̃qâṭ] (19:24). Müshəf fərqi yoxdur (ـسـقـط). Qeyd olunmalıdır ki, burada VI bab feilində [s] səsi kontaktsız təsiri ilə özündən əvvəl gələn açıq hecanın samitini əmələ gəlmə yerinə görə distant assimilyasiyaya uğradır: تَتَسَٰقَطْ [tətəsə̃qâṭ] → تَسَسَٰقَطْ [təsəsə̃qâṭ] və aralarındakı sait düşümə məruz qalır: تَسَّٰقَطْ [təssə̃qâṭ]. III bab سَاقَطَ və VI bab تَسَاقَطَ feilləri arasında məna fərqi yoxdur, ikisi də «bir-birinin ardınca düşmək, tökülmək» anlamındadır. Belə ki, «Xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş xurmalar tökülsün!» cümləsi AH-də وَهُزِّىٓ إِلَيْكِ بِجِذْعِ ٱلنَّخْلَةِ تُسَٰقِطْ عَلَيْكِ رُطَبًا جَنِيًّا ٢٥ [yahúzzīī ’iléyki bicíẕ‘iñ-ñäxləti tusə̃qiṭ ‘aléyki ṛúṭâbəñ-cəníyyə‖], NV-də وَهُزِّىٓ إِلَيْكِ بِجِذْعِ ٱلنَّخْلَةِ تَسَّٰقَطْ عَلَيْكِ رُطَبًا جَنِيًّا ٢٤ [yahúzzīīī ’iléyki bicíẕ‘iñ-ñäxləti təssə̃qâṭ ‘aléyki ṛúṭâbəñ-cəníyyə‖] (burada *məddi-münfəsilin* kəmiyyət fərqi müşahidə olunur) kimi qiraət edilir.

8. ابن الجزري، شمس الدين أبو الخيرمحمد بن محمد بن محمد بن علي بن يوسف الدمشقي. تحبير التيسير في قراءات الأئمة العشرة \ ابن الجزري. – عمان: دار الفرقان، – ٢٠٠٠. – ٦٦٠ ص.
9. ابن الجوزي، أبو الفرج عبد الرحمن بن علي. زاد المسير في علم التفسير \ ابن الجوزي. – بيروت: دار ابن حزم، – ٢٠٠٢. – ١٦٤٨ ص.
10. ابن خالويه، أبو عبيد الله الحسين بن أحمد. الحجة في القراءات السبع تحقيق أحمد فريد حجازي \ ابن خالويه. – بيروت: دار الكتب العلمية، – ١٩٩٩. – ٢٥٤ ص.
11. ابن عاشور، محمد الطاهر. تفسير التحرير والتنوير: [٣٠ مجلدا] \ ابن عاشر. تونس: الدار التونسية للنشر، – ١٩٨٤. ج. ٢٥. – ٣٨٦ ص.
12. ابن العربي، أبو بكر محمد بن عبد الله. أحكام القرآن تحقيق محمد عبد القادر عطا: [٤ مجلدات] \ ابن العربي. – بيروت: دار الكتب العلمية، ٢٠٠٣. ج. ٢. – ٦٢٤ ص.
13. ابن فارس، أبو الحسين أحمد بن فارس بن زكريا. معجم مقاييس اللغة تحقيق عبد السلام محمد هارون: [٦ مجلدات] \ ابن فارس. – دمشق: دار الفكر، – ١٩٧٩. ج. ٥. – ٤٨٦ ص.
14. ابن قتيبة، تفسير غريب القرآن تحقيق السيد أحمد صقر \ ابن قتيبة. – بيروت: دار الكتب العلمية، – ١٩٧٨. – ٥٨٨ ص.
15. ابن منظور، أبو الفضل جمال الدين محمد بن مكرم الإفريقي المصري. لسان العرب: [١٥ مجلدا] \ ابن منظور. – بيروت: دار صادر، – ٢٠١٠. ج. ٢. – ٦٤٦ ص.
16. ابن مهران الأصبهاني، ابو بكر أحمد بن الحسين بن مهران. المبسوط فى القراءات العشر تحقيق سبيع حمزة حمزة حاكمى \ ابن مهران الأصبهاني. – جدة: دار القبلة، – ١٩٨٨. – ٦١٦ ص.
17. أبو شامه المقدسي الدمشقي، عبد الرحمن بن إسماعيل. كتاب المرشد الوجيز الى علوم تتعلق بالكتاب العزيز \ أبو شامه المقدسي. – أنقره: دار وقف الديانة التركي، – ١٩٨٦. – ٢٨٨ ص. و– ٤٠ ص.
18. الأزهري، أبو منصور محمد بن أحمد. معاني القراءات تحقيق ودراسة عيد مصطفى درويش وعوض بن حمد القوزي: [٣ مجلدات] \ الأزهري. – القاهرة: دار الكتب العلمية، – ١٩٩١. ج. ١. – ٤٧٠ ص.
19. إسماعيل، محمد بكر. دراسات في علوم القرآن \ محمد إسماعيل. – القاهرة: دار المنار، – ١٩٩٩. – ٣٧٦ ص.
20. الأنصاري، أبو جعفر أحمد بن علي بن أحمد بن خلف. الإقناع في القراءات السبع تحقيق وتعليق عبد المجيد قطامش \ أبو جعفر الأنصاري. – دمشق: دار فكر، – ١٩٨٣. – ٩٥٩ ص.

21. باسي، بسمة بله. تنوع الصيغ الفعلية في القراءات القرآنية \ بسمة بله باسي. – الوادي: جامعة الشهيد لخضر، – ٢٠١٥. – ١٢٥ ص.
22. بوبقار، عمر. ظاهرة الجنس (التذكير والتأنيث) مقاربة لسانية \\ – ورقلة: جامعة قاصدي مرباح، العدد ١٣، – ٢٠١٢، – ص. ٣-١٣.
23. الثعلبي، الهمام أبو إسحاق أحمد. تفسير الثعلبي كشف البيان تحقيق أبو محمد بن عاشور: [١٠ مجلدات] \ أبو إسحاق الثعلبي. – بيروت: دار إحياء التراث العربي، – ٢٠٠٢. ج. ٩. – ٣٦٤ ص.
24. الجازم، علي أمين مصطفى. النحو الواضح في قواعد اللغة العربية: [مجلدان] \ علي أمين مصطفى الجازم. – القاهرة: دار المعارف، المجلد الـ ٢. – ١٩٩٩. – ١٧٣ ص.
25. جبل، محمد حسن حسن. المعجم الاشتقاقي المؤصل لألفاظ القرآن الكريم \ محمد حسن حسن جبل. – القاهرة: مكتبة الآداب، – ٢٠١٠. ٢٤١٥ ص.
26. الجصاص، أبو بكر أحمد بن علي الرازي. أحكام القرآن تحقيق محمد الصادق قمحاوي: [٥ مجلدات] \ أبو بكر الجصاص. – بيروت: دار إحياء التراث العربي، – ١٩٩٢. ج. ٢. – ٣٧٦ ص.
27. الجوهري، إسماعيل بن حماد. الصحاح تاج اللغة وصحاح العربية تحقيق أحمد عبد الغفورعطار \ إسماعيل بن حماد الجوهري. – بيروت: دار العلم للملايين، – ١٩٧٩. – ٢٥٦٣ ص.
28. حسن خان، أبو الطيب صديق خان بن حسن بن علي ابن لطف الله الحسيني البخاري القنوجي. فتح البيان في مقاصد القرآن تحقيق عبد الله بن إبراهيم الأنصاري: [١٥ مجلدا] \ أبو الطيب حسن خان. – بيروت: المكتبة العصرية، – ١٩٩٢. ج. ٤. – ٤٦٠ ص.
29. الحفيان، أحمد محمود عبد السميع الشافعي. الإجابات الواضحات لسؤالات القراءات العشر المتواترة أصولا وفرشا \ أحمد محمود عبد السميع الحفيان. – بيروت: دار الكتب العلمية، – ٢٠٠٢. – ٤٨٤ ص.
30. الخضيري، محمد بن عبد العزيز. السراج في بيان غريب القرآن \ محمد بن عبد العزيز الخضيري. – الرياض: البيان، – ٢٠٠٨. – ٤٣٦ ص.
31. الخطيب، عبد اللطيف. معجم القراءات: [١١مجلدا] \ عبد اللطيف الخطيب. – القاهرة: دار سعد الدين، – ١٩٩٩. ج. ٣. – ٦٣٥ ص.
32. الداني، أبو عمرو عثمان بن سعيد. جامع البيان في القراءات السبع المشهورة تحقيق محمد صروق الجزائري \ أبو عمرو الداني. – بيروت: دارالكتب العلمية، – ٢٠٠٥. – ٨٠٨ ص.
33. الدباغ، محمد بن عبد القادر. معجم الجذور المجردة لكلمات القرآن الكريم \ محمد الدباغ. – بغداد: كوبيرايت الدباغ، – ٢٠١٥. – ٦٧٩ ص.
34. الدعاس، أحمد عبيد. إعراب القرآن الكريم: [٣ مجلدات] \ أحمد الدعاس، أحمد حميدان، إسماعيل القاسم. – دمشق: دار النمير، – ٢٠٠٤. ج. ٢. – ٤٦٠ ص.
35. دِعْبِس، بشيرأحمد. اختلاف وجوه طرق النشر مع بيان المقدم أداءً \ بشيرأحمد دِعْبِس. – طنطا: دار الصحابة للتراث، – ٢٠٠٩. – ٧١٢ ص.
36. دمشقية، عفيف. أثر القراءات القرآنية في تطور الدرس النحوي \ عفيف دمشقية. – بيروت: معهد الأنماء العربي، – ١٩٧٨. – ٢١٠ ص.
37. دودح، محمود. المعجم الإلكتروني لمفردات القرآن الكريم \ محمود دودح. – مكة المكرمة: رابطة العالم الإسلامي، – ٢٠١٧. – ٢٥٨٩ ص.
38. الراجحي، عبده. اللهجات العربية في القراءات القرآنية \ عبده الراجحي. – الإسكندرية: دار المعرفة الجامعية، – ١٩٩٦. – ٢٧٦ ص.
39. الراغب، الأصبهاني. مفردات ألفاظ القرآن تحقيق صفوان عدنان داوودي \ الراغب الأصبهاني. – دمشق: دار القلم، – ٢٠٠٩. – ١٠٠٨ ص.

40. الرافعي، مصطفى صادق. إعجاز القرآن والبلاغة النبوية \ مصطفى صادق الرافعي. – بيروت: دار الكتاب العربي، – ١٩٧٣. – ٣٥٠ ص.
41. الزجاج، أبو إسحٰق إبراهيم بن السري. معاني القرآن وإعرابه: [٥ مجلدات] \ أبو إسحٰق الزجاج. – بيروت: عالم الكتب، – ١٩٨٨. ج. ٣. – ٤٥٥ ص.
42. سال، حليمة. القراءات: روايتا ورش وحفص دراسة تحليلية مقارنة \ حليمة سال. – دبي: دار الواضح، – ٢٠٠٨. – ٣٨٥ ص.
43. السخاوي، علم الدين أبو الحسن علي بن محمد. جمال القراء و كمال الإقراء \ علم الدين السخاوي. – مكة المكرمة: مكتبة التراث، – ١٩٨٧. – ٧٤٠ ص.
44. السمين الحلبي، أحمد بن يوسف. عمدة الحفاظ في تفسير أشرف الألفاظ – معجم لغوي لألفاظ القرآن الكريم تحقيق محمد باسل عيون السود: [٤ مجلدات] \ السمين الحلبي. – بيروت: دار الكتب العلمية، ١٩٩٦. ج. ٢. – ٤٣٧ ص.
45. السيد صلام، عبد العزيز علي. ظاهرة الإضافة في اللغة وأحكامها في العربية \ صلام السيد. – بيروت: دار الكتب، – ١٩٩٨. – ٢٤٧ ص.
46. الصافي، محمود. الجدول في إعراب القرآن وصرفه وبيانه مع فوائد نحوية هامة: [١٦ مجلدا] \ محمود الصافي. – دمشق-بيروت: دار الرشيد-مؤسسة الإيمان، – ١٩٩٥. ج. ٣. – ٤٣٠ ص.
47. الضباع، علي محمد. إرشاد المريد إلى مقصود القصيد في القراءات السبع \ علي محمد الضباع. – طنطا: دار الصحابة، – ٢٠٠٦. – ٧٥٨ ص.
48. الطبري، أبو جعفر محمد بن جرير. تفسير الطبري جامع البيان عن تأويل آي القرآن تحقيق عبد الله بن عبد المحسن التركي: [٢٦ مجلدا] \ ابن جرير الطبري. – القاهرة: هجر للطباعة والنشر والإعلان، – ٢٠١٢. ج. ٢. – ٧٦٥ ص.، ج. ٤. – ٧٢٢ ص.، ج. ٢٠. – ٦٨٤ ص.، ج. ٢٤. – ٧٦٤ ص.
49. عبد اللطيف، محمد حماسة. النحو الأساسي \ محمد عبد اللطيف، أحمد مختارعمر، مصطفى زهران. – القاهرة: دار الفكر العربي، – ٢٠١٤. – ٤٩٦ ص.
50. عبد الناصر، محمد. التذكير والتأنيث في القرآن الكريم دراسة تطبيقية \ محمد عبد الناصر. – مكة المكرمة: جامعة أم القرى، – ٢٠٠٨. – ٩٧٦ ص.
51. عزيز، عبد الكريم. ألمفردات القرآنية من خلال السياق عند الراغب الاصفهاني دراسة وتحليل \ عبد الكريم عزيز. – المدينة المنورة: جامعة المدينة العالمية، – ٢٠١٢. – ١٨٠ ص.
52. عمر، أحمد مختار. معجم القراءات القرآنية: [٨ مجلدات] \ أحمد مختار عمر، عبد العال سالم مكرم. – الكويت: مكتبة جامعة الكويت، – ١٩٨٨. ج. ٢. – ٤٦٩ ص.
53. غازي، عناية. شبهات حول القرآن وتفنيدها \ عناية غازي. – بيروت: دار ومكتبة الهلال، – ١٩٩٦. – ٤٣٨ ص.
54. الفارسي، أبو علي الحسن بن عبد الغفار. الحجة في علل القراءات السبع تحقيق عادل أحمد عبد الموجود وعلي محمود معوض: [٤ مجلدات] \ أبو علي الفارسي. – بيروت: دار الكتب العلمية، – ١٩٧١. ج. ٤. – ٦٢٠ ص.
55. الفيروزابادي، مجد الدين محمد بن يعقوب. بصائر ذوي التمييز تحقيق محمد علي النجار: [٦ مجلدات] \ مجد الدين الفيروزابادي. – القاهرة: لجنة إحياء التراث الإسلامي، – ١٩٩٦. ج. ٤. – ٥٤٨ ص.
56. القرطبي، أبو عبد الله محمد بن أحمد الأنصاري. الجامع لأحكام القرآن اعتنى به وصححه الشيخ هشام سمير البخاري: [٢١ مجلدا] \ أبو عبد الله القرطبي. – بيروت: دار عالم الكتب، – ٢٠١٠. ج. ٥. – ٤٤٤ ص.، ج. ١٥. – ٣٨٤ ص.

57. إلكيا الهراسي، عماد الدين بن محمد الطبري. أحكام القرآن: [مجلدان] \ إلكيا الهراسي الطبري. – بيروت: المكتبة العلمية، – ١٩٨٣. ج. ٢. – ٥٠٢ ص.
58. النحاس، أبو جعفر أحمد بن محمد بن إسماعيل. إعراب القرآن \ أبو جعفر النحاس. – بيروت: دار المعرفة، – ٢٠٠٨. – ١٣٩٠ ص.
59. الواسطي، عبد الله بن عبد المؤمن ابن الوجيه. الكنز في القراءات العشر \ عبد الله بن الواسطي. – بيروت: دار الكتب العلمية، – ١٩٩٨. – ٢٨٦ ص.
60. يعقوب، إميل بديع. المعجم المفصل في المذكر والمؤنث \ إميل يعقوب. – بيروت: دار الكتب العلمية، – ١٩٩٤. – ٥٦٠ ص.

В.КАРАДАГЛЫ

СРАВНИТЕЛЬНЫЙ ЛЕКСИЧЕСКИЙ И ГРАММАТИЧЕСКИЙ АНАЛИЗ ЧАСТЕЙ РЕЧИ В РАЗНОЧТЕНИЯХ ХАФСА И ВАРША (I ЧАСТЬ)

Резюме

В статье проводится сравнительный лексический и грамматический анализ разночтений, имеющих место в глаголах в различиях между широко распространенными чтениями Корана в мусульманском мире: чтением Асима в передаче Хафса и чтением Нафи‘а в передаче Варша. Другими словами, цель, поставленная перед нами, преследует проведение сравнительного анализа всех случаев разночтений между чтением Асима в передаче Хафса и чтением Нафи‘а в передаче Варша в глаголах. Подразумевается анализ разночтений, имеющих, в той или иной степени, разную смысловую нагрузку, характер лексических, грамматических отличий. Здесь не исследуются разночтения фонетического характера. Лексический и грамматический анализ разночтений, имеющих место в глаголах, проводится по различиям самих глаголов, коренных согласных, пород, категорий. Отдельно представлен анализ различий, собранных в группу особых случаев разночтения. Под категорийными различиями рассматриваются случаи разночтений глаголов в разных залогах, в роде, лице, числе, наклонении, и по совмещенным категориям. Автор, применяя сравнительно-сопоставительный метод анализирует все случаи разночтений указанной части речи в двух передачах. Научная новизна заключается в попытке выйти за рамки застоявшихся обобщительных формулировок и представлений среднековых грамматистов, которым в отдельных случаях все еще придерживаются современные арабские исследователи. Передача Варша вызывает определенный научный интерес, так как, она получила распространение на «мусульманском Западе» и исследуется, в основном, египетскими, марокканскими, алжирскими, тунисскими и др. «западными мусульманами». Передача Варша почти вовсе не знакома или знакома информативно научной аудитории Азербайджана – представительнице «мусульманского Востока».

V.GARADAGHLI

COMPARATIVE LEXICAL AND GRAMMATIC ANALYSIS OF GRAMMATICAL PARTS IN HAFS AND WARSH TRANSMISSIONS (PART I)

Summary

The article provides a comparative lexical and grammatical analysis of the differences that occur in the verbs in the differences between the widespread readings of the Qur'an in the Muslim world: the reading of Asim in the Hafs transmission and the reading of Nafi' in the Warsh transmission. The analysis of discrepancies, having, to one degree or another, different semantic load, the nature of lexical, grammatical differences, is meant. The phonetic variations are not explored here. The lexical and grammatical analysis of the discrepancies occurring in the verbs is carried out according to the differences of the verbs themselves, indigenous consonants, breeds, categories. Separately, an analysis of the differences collected in a group of special cases of misunderstanding is presented. Under categorical differences, cases of different interpretations of verbs in different voice, gender, person, number, mood, and combined categories are considered.

An analysis of the different interpretations of the pronouns is carried out according to the signs of its presence in one and the absence of another transmission, as well as by the difference in the category of number. Analysis regarding the service parts of speech is carried out on the basis of the presence of the service part of speech in one and the absence of another transmission, the use in different transmissions of different categories of service parts of speech, as well as different unions, different particles. The author, using the comparative method, analyzes all cases of differents of the indicated grammatical parts of speech in two transmissions. Scientific novelty consists in an attempt to go beyond the framework of stagnant generalized formulations and representations of Medieval grammarians, which in some cases are still adhered to by modern Arab scholars. The processes taking place in the Warsh transmission evoke a certain scientific interest, since this version has become popular in the "Muslim West" and is studied mainly by Egyptian, Moroccan, Algerian, Tunisian and other "Western Muslim scientists". This transmission of Warsh is almost completely unknown or only known to the informatively scientific audience of Azerbaijan – the representative of the "Muslim East".

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: professor Çimnaz Mirzəzadə tərəfindən çapa tövsiyə olunmuşdur

AFAQ RAMİZ qızı AĞAYEVA
Filologiya elmləri doktoru, professor
e-mail: afag.agayeva 58@ gmail.com
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

VERBAL NİTQ VƏ ONUN PRİNSİPLƏRİ
(Texniki ali məktəblərdə "Azərbaycan dilində ıışgüzar və akademik kommunikasiya" fənni üçün nəzəri material)

XÜLASƏ

Keçmişdə orfoepiya dərsləri yalnız cəmiyyətin kübar təbəqəsinə keçilirdi. Çünki dəblə geyninən varlı adamların səhv tələffüzü onu yüksək cəmiyyətin qarşısında gözdən sala bilərdi. Necə deyərlər: "İnsanı geyiminə görə qarşılayıb, ağlına və biliyinə görə yola salırlar". Bu səbəbdən də, nitq mədəniyyəti müəllimlərinə böyük ehtiyac duyulurdu. Hətta məşhur ingilis yazıçısı, ədəbiyyat üzrə 25-ci Nobel mükafatçısı Bernard Şou " Piqmalion" əsərini orfoepiya üzrə professora həsr etmişdir. Azərbaycan Dillər Universitetinin I kurs tələbələri də əvvəlcə bu əsəri dərs kimi keçirlər. Sonra isə ondan imtahan verirlər ki, orfoepiyanın insanın karyera üçün nə qədər vacib və əhəmiyyətli olması beyinlərinə həkk edilsin. Çünki Azərbaycanda da düzgün tələffüz – cəmiyyətdə insanın nitq mədəniyyətinin, təhsil səviyyəsinin başlıca göstəricisi və meyarı kimi qəbul olunur. Buna görə də, istər televiziya ekranlarından dinlədiyimiz, istərsə də, söhbət etdiyimiz adamdan [də:rin] əvəzinə [dərin], [sə:rin] əvəzinə [sərin] eşidiriksə, onun savadsızlığı haqqında dərhal "hökm" verilik.

Akademik N.Cəfərov Azərbaycan dilinin saitlər sistemini həndəsi cisim olan "kub" əsasında formalaşdırmışdır. O bu sistemin riyazi və linqvistik mükəmməlliyi haqqında maraqlı fikirlər söyləmişdir.

"Sait" ərəb sözüdür, səsli, hay-küylü deməkdir. "Samit" isə ərəb sözüdür, səssiz, sakit, susmuş deməkdir. Müasir dövrdə xarici əlaqələrin sürətlə inkişaf etdiyi bir şəraitdə mühəndislər və inzibati işçilər bilməlidirlər ki, sözlərin, xüsusilə, müsahibinin adının səhv tələffüzü bəzən təhqir kimi qiymətləndirilir. İngilislər üçün isə bu - həmişə təhqirdir.

Daha sonra məqalədə leksik norma və göstəricilər haqda müəyyən məqamlar açıqlanır. Maraqlı faktlar və nümunələr əsasında şərh edilir. Qeyd edilir ki, "leksik lüğət fondu" Amerika psixoloqlarının fikrincə, təxminən insanın 12 aylığından qurulmağa başlayır. Söz ehtiyatı zəngin olan, yaxşı oxuyan I kurs tələbəsinin lüğət fondu isə təxminən 60000 sözdən ibarətdir. Bu, Şekspirin (məşhur ingilis yaziçısı) lüğət fondundan 4 dəfə çoxdur!

Açar sözlər: nitq, sait, samit, leksika, orfoepiya, orfoqrafiya

Əvvəllər orfoepiya dərsləri cəmiyyətin yalnız yüksək təbəqəsinin nümayəndələrinə keçilirdi. Bu da nitq mədəniyyəti müəllimlərinə ciddi tələbat doğururdu. Çünki dəblə geyinən varlı adamın bir səhv tələffüzü onu yüksək cəmiyyətin qarşısında gözdən sala bilərdi. Hətta məşhur ingilis yazıçısı Bernard Şou "Piqmalion" əsərini orfoepiya üzrə professora həsr etmişdir (8). Belə bir maraqlı faktı diqqətinizə çatdırım ki, Azərbaycan Dillər Universitetinin ingilis dili fakültəsində I kurs tələbələri "Piqmalion" əsərini əvvəlcə dərs kimi keçir, sonra da ondan imtahan verirlər ki, orfoepiyanın dil üçün nə qədər vacib olması beyinlərinə həkk edilsin. Məşhur orfoepiya professoru adi gül satıcısına orfoepik normaları mənimsətmək yolu ilə onu yüksək cəmiyyətə qəbul etdirmiş və onunla evlənmişdi. Bu da tələffüzün cəmiyyətdə hörmət qazandığını, həmçinin karyera qurmaq üçün nə qədər əhəmiyyətli və mühüm rol oynadığını göstərir.

Orfoqrafiyaya nisbətən orfoepiya fonetika ilə daha çox bağlıdır. Professor Ə.Dəmirçizadə orfoepiyaya belə tərif verib: "Orfoepiya ədədi dilin şifahi qolunu ümumi normalar əsasında formalaşdıran, yəni fonetik cəhətdən ümumiləşdirici normaları təzahür etdirən tələffüz qayda-qanunlarının "sistemli məcmusudur" (5, s.117). Azərbaycan ədəbi tələffüzü üçün də əsas mənbə mədəni mərkəz olan paytaxt tələffüzüdür. Bu tələffüz isə əlbəttə, yerli bakılı tələffüzü (ləhcəsi) deyil, qurultaylarda, konfranslarda, ali məktəblərdə, idarələrdə və s. yerlərdə ədəbi dili mükəmməl bilənlər tərəfindən işlədilən ümumiləşdirilmiş paytaxt tələffüzüdür.

"Tələffüz" kəlməsi əslində ərəbcə söz mənasında olan "ləfz" (əl-ləfzun) kökündən düzəldilərək, əsasən, "söyləmək" mənasında işlənən bir sözdür. Şifahi nitqin səslərlə ifadəsi heç də onun məzmunundan az əhəmiyyət kəsb etmir. Sözlərin düzgün tələffüzü, vurğunun yerli-yerində olması cəmiyyətdə insanın nitq mədəniyyətinin, təhsil səviyyəsinin əsas göstəricisi və meyarı kimi qəbul edilir. Buna görə də, televiziya ekranlarından çıxış edəndə, ya söhbət edərkən, kiminsə tələffüzündə [äğır] əvəzinə [ağır], [dërin] əvəzinə [dərin], [sërin] əvəzinə [sərin] eşidiriksə, o adamın savadsızlığı haqqında dərhal "hökm" veririk.

Orfoepiyaya nə daxildir? **Saitlər. "Dilçilikdən həndəsəyə".** Akademik N.Cəfərov göstərir ki, Azərbaycan dilinin saitlər sistemi üç ölçülü mükəmməl bir model təşkil edir. (bax: 4)Bu sistem həndəsi fiqur olan kub formasındadır:



"Sait" ərəb sözüdür, səsli, hay-küylü deməkdir. Sözün düzgün tələffüzündə ən başlıca rol saitlərin üzərinə düşür. Nitqin anlaşıqlı olması üçün ilk növbədə, saitləri düzgün və aydın tələffüz etmək lazımdır! İtaliyada musiqi təhsili aldığı üçün italyan dilinin imkanlarına yaxşı bələd olan böyük müğənnimiz Bülbül Azərbaycan dilini dünyanın bu ən musiqili dili ilə müqayisə edir. İtalyancada 6, Azərbaycan dilində 9 saitin olmasını nəzərə alaraq o, Azərbaycan dilinin daha musiqili olduğunu söyləyir. Dilin musiqililiyində saitlərin böyük rol oynadığı məlumdur. Musiqinin mədəniyyət tarixi üçün nə demək olduğunu bilən hər kəs Azərbaycan dilinin Azərbaycan mədəniyyətinin inkişafındakı rolunu aydın təsəvvür edə bilər.

"Səs əvəzlənmələri" "neyrofizioloji", yəni beyinlə əlaqəli proses adlanır. İnsan beyni tələffüzü asanlaşdırmaq üçün səsləri bir-biri ilə əvəz edir. Məsələn, *tələbəyə-tələbiyə*.

Samitlər."Samit"ərəb sözüdür, səssiz, sakit, susmuş deməkdir. ("Sait" və "samit" sözləri insan adları kimi "Azərbaycan dilinin adlar lüğəti"nə daxil edilmişdir.Hətta "Samitə" sözü qadın adını bildirir\yəqin qizlar-qadınlar səsli-küylü olduqları üçün onlara Saitə adi verilmir\).

Vurğu və intonasiya. Tələffüz prosesində düzgün tənəffüs etməyin vacib olması və qaydaları səsin idarə edilməsinin zəruriliyi, danışıq səslərinin aydın tələffüzünün - diksiyanın mühüm şərt olması məlumdur. Bu proses "nitqin texnikası" adlanır. Nitqin texnikasını mənimsəmək oxu və natiqlik prosesində mühüm əhəmiyyətə malikdir. "Ədəbi dilin də əsas prinsipi tələffüzdə ağırlıq törədən, kobud səslənən, dilin ahəngini pozan cəhətlərdən qaçmaq, asanlıqla, sürətlə tələffüz edilən və zərif, incə, gözəl səslənən cəhətləri saxlamaqdan ibarət olmalıdır" (3, s.108).

Orfoepiyanı bilməyən mühəndis işguzar, inzibati nitqlərində səhvlərə yol verəcək. Sözlərin, xüsusilə, müsahibinin adının səhv tələffüzü bəzən təhqir kimi qiymətləndirilir. İngilislər üçün isə bu - həmişə təhqirdir. Orfoqrafiya və orfoepiya **GÜZGÜ VƏ REALLIQDIR**. Müəyyən bir əşya güzgüdə necə əks olunursa, "orfoqrafiya reallığı" da "orfoepiya güzgüsü"ndə müəyyən dəyişikliklərlə, amma

daha aydın əks olunur. Hətta baxdığım bir filmdə müdriklərin sözlərini nümunə gətirmək istəyirəm ki, "güzgüdəki əks daha realdır".Özü də, möhtərəm Prezidentimizin nitq mədəniyyətinə xüsusi önəm verdiyi bir dövrdə gələcək mühəndislər orfoqrafik və orfoepik normalara yiyələnməlidirlər! Mən deyərdim, ziyalılığın birinci göstəricisi düzgün oxuyub-yazmaq, yəni "orfoqrafiya və orfoepiya normaları"na əməl etməkdir. Şahidi olmuşam ki, çox savadlı mühəndislər dissertasiya müdafiələrində nitq söyləmək yaxud öz tələbələrinin işlərinə yazdıqları rəydə səhv buraxmamaq üçün bu qaydaları haradan tapmağı soruşublar. Mən də "Təcili yardım" kimi – "Orfoqrafiya və orfoepiya lüğətlərini" məsləhət bilmişəm.

Leksik norma. Antik dövrün böyük mütəfəkkiri, qüdrətli loğmanı Hippokrat demişdir ki, təbabət üç nəhəngin çiynində dayanır: bitki, bıçaq və söz.Hər bir dilin inkişaf səviyyəsi o dildəki sözlərin sayının, lüğət tərkibinin nə dərəcədə zəngin olub-olmaması ilə təyin edilir.

Nitq mədəniyyəti üzrə görkəmli mütəxəssis hesab edilən B.N.Qolovinə görə, norma "bir çox variantlardan birinin seçilməsinin möhkəm təlimatıdır,dilin özünün ictimai tətbiqinin ədəbi ənənələri ilə verilən təlimatıdır"(7, 157). Odur ki, Leksik normaya görə **əbəs, üzlü, yalan, qorxutmaq, həyat yoldaşı** kimi söz və ifadələrin əvəzinə **boş, sırtıq, gop, ürkütmək, zövcə** kimi sözlərdən xüsusi ehtiyac olmadan istifadə etmək doğru deyil.

Dilçilərin apardıqları tədqiqatlara görə, xalq hər minillikdə öz dilindəki söz köklərinin 19,5%-ni yeniləndirir. Bu proses qaçılmazdır!

Məsələn, məlumdur ki, elmin söz ehtiyatı getdikcə artmaqdadır.Hazırda kimya elminin lüğəti, iki milyon sözdən ibarətdir; elektronikada əlli min xüsusi termin vardır. Bəzi dilçilər isə bu yeniliyi qəbul etmək istəmir, bütün alınma sözlərə qarşı çıxır,"təmizlik" adı ilə dilə daxil olan yeni sözləri sıxışdırıb çıxarmaq istəyirlər. Həmin "canfəşanlığa" "purizm" cərəyanı deyilir. Bunun ən bariz nümunəsini türk dilində görürük. Belə ki, **«özləşmə siyasəti»** adı altında bu dili elə bir vəziyyətə saldılar ki, hal-hazırda həmin ölkədə yaşayan yaşlı nəsillə gənc nəslin dilində olduqca mühüm fərqlər var. Azərbaycanda da həmin cərəyan bu və ya digər dərəcədə mövcuddur.Purizm nə qədər alicənab məqsəd daşısa da, özünü heç vaxt doğrultmamışdır. Mərhum akademik Xudu Məmmədovun rəhbərliyi ilə ümumtürk lüğətinin hazırlanması,təmiz və ancaq öz sözlərimizdən ibarət Azərbaycan dili yaratmaq ideyası ictimaiyyətə məlum idi. Bu proses reallaşmadı. Çünki texniki, psixi, siyasi, filoloji və sosial cəhətdən özünü doğrulda bilmədi. Məsələn, "adapter" sözünün "uygunlaşdırıcı", "kuryer" sözünün "ayaqçı" sözü ilə əvəz edilməsi uğur qazana bilmədi.Dildə belə sözlərə qarşı yox, dili zibilləyən tüfeyli sözlərə qarşı çıxmaq lazımdır.Təəssüf ki, televiziya verilişləri aparıcılarının dilində **deməli, məhz, bu baxımdan, necə deyərlər, hansı ki** və b.ifadələrin işlənməsi hallarına tez-tez rast gəlmək olur.

Professor B Xəlilov dili – "öz-özünü müalicə edən canlı orqanizm" adlandırır (bax: 6). Göstərir ki, dilimizin lüğət tərkibi təbii seçim yolu ilə zərərli ünsürlərdən

(lazımsız sözlərdən) azad olaraq öz-özünü cilalayir. Boduen de Kurtene, məqaləsində bu məsələyə toxunaraq qeyd edirdi ki,“Dillərin bir-birilə qaynayıb-qarışması məsələsinə baxsaq, razılaşmalı olacağıq ki, saf və digər dillərə qarışmayan dil yoxdur və ola da bilməz”(1, s.72). Amma bir məsələni də yaddan çıxarmaq olmaz: bəzən əcnəbi sözlərlə alınma sözləri qarışdırırlar.Dilimizdə yerli-yersiz işlənən "уже”,”каneşna”, “по моуему” və s. -əcnəbi sözlər, varvarizmlərdir.Purizm və digər cərəyanlar varvarizmlərə qarşı çevrilmişdir.Alınma sözlər isəB. de Kurtenenin dediyi kimi, dillərarasındakı labüd və səmərəli əlaqə, “Leksik mübadilədir” (“kompüter” və s. terminlərin dilimizə daxil olması kimi). Dilçilər, xalq, xüsusuilə də, siz tələbələr-gələcəyin ziyalıları həmrəy olmalıdırlar ki, bu “mübadilə”“xarici söz alış-verişi”nə çevrilməsin! Bir faktı da qeyd etmək lazımdır ki, texnikanın bir çox tarixən formalaşmış sahələrində (məs., fizika, riyaziyyat, mexanika, energetika və s.) Azərbaycan dilində terminologiya kifayət qədər formalaşıb. Lakin nisbətən gec yaranan sahələr haqqında bunu demək olmaz. Həmin sahələrə avtomatlaşdırma, informatika, mikroelektronika və s .aiddir.

Bu gün Azərbaycan dili lüğət tərkibinin 15 faizə qədərini alınmalar təşkil edir.Şübhəsiz ki, bu alınmalar dildə öz-özünə birdən peyda olmur.Bunlar da Azərbaycan xalqının tarixən başqa xalqlar və millətlərlə çoxsahəli əlaqələri nəticəsində şifahi və yazılı nitq vasitəsilə dilə gətirilmişdir.

Bütün bunları nəzərə alaraq bir daha qeyd edirik ki,dil öz təzahürünü nitqdə tapır, nitq dili inkişaf etdirib yaşadır.Amerikalı psixoloqların fikrinə görə,körpələrin“leksik lüğət fondu” onların təxminən 12 aylığından qurulmağa başlayır. Söz ehtiyatı zəngin olan, yaxşı oxuyan1 kurs tələbələri dünyaya gəldikləri gündən başlayaraq, gündə 10 yeni söz, ya da hər 90 dəqiqədə 1 söz mənimsəməli idilər. Belə olduğu halda,onların lüğət ehtiyatı 60000 sözdən ibarət ola bilər.Bu, Şekspirin (məşhur ingilis yaziçısı) lüğət fondundan 4 dəfə çoxdur! Son tədqiqatlara görə, hər hansı bir dildə ünsiyyətə qatılmaq üçün 300-400 söz kifayətdir.Bunu çox-çox əvvəllər ingilis filoloq-şərqşünası **Maks Müller** xüsusi vurğulayaraq yazırdı ki, savadsız ingilisin ingiliscə danışması üçün 300 söz tələb olunur. (bax: 2) İndinin özündə isə ali savadlı adamın **6000-9000** sözdən istifadə etdiyi qeydə alınmişdır.Adi insanlar üçün indi **2000** söz də yetərlidir.Lakin insan bu söz ehtiyatından da yerli-yerində istifadə etməyi bacarmalıdır.

Ədəbiyyat:

1. Ağakişiyeva Ş.Ədəbi dil normaları və üslubları. Filologiya üzrə fəl.dok. dissertasiyası. Bakı: 2008, 136 s.
2. Ağayeva A. Müasir Azərbaycan ədəbi dili üslublarının qarşılıqlı əlaqəsi//filol.elmləri üzrə dok. diss. Bakı: 2011, 387 s.
3. Axundov A. Dil və mədəniyyət. Bakı: Yazıçı, 1992, 192 s.

4. Cəfərov N., Mərdanova S., Qəribli A. Azərbaycan nitq mədəniyyəti. Bakı: “Şərq-Qərb” nəşriyyatı, 2018, 304 s.
5. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962, 271 s.
6. Xəlilov B. Azərbaycan dili: milli varlığımız, mənəvi sərvətimiz. Bakı: Çap evi, 2013, 268 s.
7. Головин Б. Н. Основы культуры речи. Учебник для студ. высших учебных зав., обуч. по спец. "Русский язык и литература". Москва: Высшая школа, 1988. 319 с.
8. Шоу Б. Полное собрание пьес. В 6-ти томах. Том 4.Ленинград: Искусство, 1980,654 с.

А. Агаева

ВЕРБАЛЬНАЯ РЕЧЬ И ЕЕ ПРИНЦИПЫ
(Теоретический материал по предмету «Деловая и академическая коммуникация на азербайджанском языке» в технических вузах)

Резюме

Раньше уроки орфоэпии преподавались только аристократии. Потому что неправильное произношение модных богатых людей могло дискредитировать его в глазах высшего общества. Как говорится: «Встречают человека по одежде, а провожают по уму и знаниям». По этой причине возникла большая потребность в учителях культуры речи. Даже известный английский писатель, 25-й лауреат Нобелевской премии по литературе Бернард Шоу посвятил свое известное произведение «Пигмалион» профессору ортоэпии. Студентов первого курса Азербайджанского университета языков знакомят с этим произведением в качестве урока. Затем его проверяют, чтобы увидеть, насколько важна орфоэпия для карьеры человека. Потому что в Азербайджане правильное произношение принято в обществе как главный показатель и критерий речевой культуры и уровня образования человека. Поэтому, если мы слышим [глубоко] или [прохладно] вместо [глубокого] и [холодного] от человека, которого слушаем или говорим по телевидению, немедленно «судим» о его неграмотности.

Академик Н.Джафаров сформировал систему гласных азербайджанского языка на основе геометрического объекта «куб». Он сделал интересные замечания о математическом и лингвистическом совершенстве этой системы.

«Саит» - арабское слово, означающее громкий, шумный. «Самит» - арабское слово, означающее тихий. В сегодняшнем быстро меняющемся мире международных отношений инженеры и администраторы должны знать, что

неправильное произношение слов, особенно имени интервьюера, иногда считается оскорблением. Для англичан это всегда оскорбление.

Затем в статье раскрываются некоторые моменты, касающиеся лексических норм и показателей. Приводится ряд интересных фактов и примеров. Отмечается, что «фонд лексического словаря», по мнению американских психологов, начинает формироваться примерно в 12-месячном возрасте. Словарный запас начитанного первокурсника с богатым словарным запасом составляет около 60 000 слов. Это в 4 раза больше словаря Шекспира (известного английского писателя)!

Ключевые слова: речь, гласная, согласная, лексика, орфоэпия, орфография

A. AGAYEVA

VERBAL SPEECH AND ITS PRINCIPLES
(Theoretical material for the subject "Business and academic communication in the Azerbaijani language" in technical universities)

Summary

In the past, orthoepy classes were taught only to the aristocracy. Because the mispronunciation of wealthy people dressed in fashion could discredit him in the eyes of high society. As they say: "They greet a person according to his clothes and send him away according to his intellect and knowledge." For this reason, there was a great need for speech culture teachers. Even the famous English writer, the 25th Nobel Laureate in Literature, Bernard Shaw, dedicated Pygmalion to a professor of orthoepy. First-year students of the Azerbaijan University of Languages also teach this work as a lesson. Then he is tested to see how important orthoepy is to a person's career. Because in Azerbaijan, the correct pronunciation is accepted in the society as the main indicator and criterion of a person's speech culture and level of education. Therefore, if we hear [deep] or [cool] instead of [deep] or [cool] from the person we are listening to or talking to on television, let us immediately "judge" his illiteracy.

Academician N.Jafarov formed the system of vowels of the Azerbaijani language on the basis of a geometric object "cube". He made interesting remarks about the mathematical and linguistic perfection of this system.

"Sait" is an Arabic word, which means loud, noisy. "Samit" is an Arabic word meaning silent, quiet, silent. In today's fast-paced world of foreign relations, engineers and administrators need to know that the mispronunciation of words, especially the name of the interviewer, is sometimes considered an insult. For the British, it is always an insult.

Then the article reveals certain points about lexical norms and indicators. Interpreted on the basis of interesting facts and examples. According to American psychologists, the "lexical dictionary fund" begins to be formed at about 12 months of age. The vocabulary of a well-read first-year student with a rich vocabulary is about 60,000 words. This is 4 times more than Shakespeare's (famous English writer) dictionary!

Key words: speech, vowel, consonant, lexicon, orthoepy , orthography

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Kamil Bəşirov tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLŞƏN MEHDİYEVA
fil.f.d., dosent
Heydər Əliyev adına Hərbi Akademiya
e.mail: gulshen_isazade@hotmail.com

HƏRBİ MƏZMUNLU MƏTNLƏR MƏTNİN NÖVLƏRİNDƏN BİRİ KİMİ

XÜLASƏ

Müasir dövrdə hərbi mətnlərdən və onları yaradan vasitələrdən çox danışılır. Gündəlik həyatımızda müxtəlif hərbi məfhumlu cümlələrdən istifadə edirik. Hər bir dilin sintaktik və semantik təsvirində hərbi terminli sözlərin olması nəzərə alınmalıdır. Dildə mövcud olan hərbi cümlələr sistemini aşkar etmək bir növ dil sistemini açmaq deməkdir. Hərbi terminli cümlənin diçilikdə nə vaxtdan termin kimi işləndiyini demək çətindir. Maraqlıdır ki, hərbi cümləyə aid yüzlərlə tərifə rast gəlmək mümükündür [1, 233]. Ümumilikdə cümləyə verilən təriflər də dilçilikdə çoxluq təşkil edir. Məsələn, alman alimləri Y.Ris və E. Zaydel hələ ötən əsrin 30-cu illərində elmə cümlənin 80-ə qədər tərifinin məlum olduğunu qeyd edirdilər [1, 233]. O.İ.Musayevin cümləyə tərifi isə bu şəkildədir: "Müəyyən qrammatik quruluşa və intonasiyaya malik olan, modallıq bildirən, nisbətən bitmiş fikir ifadə edən nitq vahidinə cümlə deyilir" [6, 345]. J. Risin cümləyə verdiyi tərifdə biz onun qrammatik cəhətdən formalaşmış olmaqla öz məzmununu gerçəkliyə münasibətdə ifadə edən ən kiçik danışıq vahidi olduğunu görürük [1, 233]. Hərbi mətnlərdə isə əsasən hərbi çağırış xarakterli, hərbi terminlərlə zəngin olan ifadələr çoxluq təşkil edir. Məsələn, ¿Müharibə nə zaman sonlanır? ¿Sən bu müharibə barədə nə fikirləşirsən? və s. bu kimi hərbi münaqişə zamanı işlətdiyimiz terminləri müharibə zamanı işlətdiyimiz yüzlərlə, minlərlə söyləmələri əhatəsi olmadan, mətn olmadan və praqmatik aspekti nəzərə almadan başa düşmək olmaz [1, 234].

Buradan məlum olur ki, hərbi mətnlər müharibə, münaqişə zamanı ünsiyyətin əsas vahidlərindən biri kimi çıxış edir [3].

Açar sözlər: mətn, hərbi, diskurs, müharibə, məzmun, tərz, üslub

Mətn tədqiqatçısı J.Kelemin fikrincə, cümlələrin birliyi öz-özlüyündə mətn yaratmır, daha dəqiq desək, vahid bütöv mətn yaratmır. Burada hökmən hansısa təşkiledici prinsip olmalıdır ki, onun da əsasında mətn son dərəcə özünəməxsus, daha təşkiledici vahidlərə bölünməyən, ancaq öz-özünə bərabər olan bir vahid kimi ortaya çıxsın [7, 184] .

F.Veysəlli mətni cümlənin hərəkətverici qüvvəsi hesab edir. O, göstərir ki, mətndə kommunikativ bitkinlik olmalıdır. Onun qurulması qrammatik qaydalara əsaslanır. Bu, məntiqi şərtlər daxilində morfoloji- sintaktik və fonoloji əlamətlərlə formalaşmış semantik məna ifadə edən strukdurdur. F.Veysəlli yazır ki, mətnin

düzəlməsi əhəmiyyətli dərəcədə cümlədən fərqlənir. Elə hadisələr var ki, onlar ancaq mətndə reallaşa bilər. Dilin cəmiyyətdə yeri baxımından, əlbəttə ki, mətn ilkin və əsas götürülməlidir. Elə danışıq aktı nəzəriyyəsi də bu ideyaya söykənir. Dildə ünsiyyət mətndə və mətn vasitəsilə həyata keçirilir [1, 239].

Mətnin tərifini verməyə çalışanlar arasında L.M.Qranovskayanın adını da qeyd etmək lazımdır. L.M.Qranovskaya mətnin əsas əlamətlərini sadalayır, bu əlamətlərə praqmatikliyi, səmərəliliyi, oxunaqlığı, informatifliyi, yeniliyi və qiymətləndirməni aid edir [1, 240]. Bununla belə bu qün mətnin tipologiyasını aktual hesab etmək olar. Monoloq və dioloqla yanaşı mətni həm də cümlələr toplusu və ya ardıcıllıq kimi dəyərləndirənlər də var.

L.M.Qranovskaya onu ya *fiktiv*, ya da *faktiv* olmaqla iki yerə bölür [9]. Digər tərəfdən də mətnin üç əsas funksiyasını qəbul edib:

a) məlumatın ötürülməsi;
b) yeni fikrin yaranması;
c) yaddaşın mədəniyyəti.

Dildə mətn ictimai hərəkət üçün legitim forma sayılır. Yəni mətn ictimai və fərdi özünüifadənin yeganə göstəricisidir. Mətn bir tərəfdən davranış və hərəkətlərin inkişafıdır, digər tərəfdən isə o məlumatvermə və təsirgöstərmə niyyətlərinin ünsiyyətdə reallaşdığı şəkildir [1, 240]. Müasir mətn dilçiliyinin yaranmasını dörd mərhələdən keçmişdir:

1) transformasional-törəmə qrammatikası;
2) nəql nəzəriyyəsi;
3) üslubiyyat;
4) psixodilçilik [1, 240].

Əlbəttə ki, danışıq məqamınaqədərki şəraiti nəzərə almadan mətni tam aydın müəyyən etmək olmaz. Mətnin quruluşunu təyin edən vasitələr bunlardır:

a) dayaq sözlər (onlar hərəkətin ton və vəziyyətini bildirir, birincisi, ikincisi və.s.);
b) şərh olunanı aydınlaşdırır (məsələn, məhz və s.);
c) ümumuləşdirir (beləliklə, nəticə olaraq və.s.).

Mətndən danışarkən diskursdan yan keçmək olmur. Odur ki, dikursun tarixinə nəzər salmaq yaxşı olardı.

Diskurs hakimiyyətin və dövlətin müxtəlif nəzəriyyələri ilə sıx bağlıdır. Başqa sözlə desək, diskursu müəyyən etmək həqiqətin özünü müəyyən etmək anlamına gətirib çıxarar. Bu eyni zamanda dünyanın böyük mütəfəkirlərinə öz fikirlərini və ideyalarını bizim indi adlandırdığımız kimi ictimai orallığa gətirməyə kömək edir. Diskursun bu cür qəbul olunmasına fransız filosofu M.Fukonun əsərlərində rast gəlmək olar.

Yuxarıda qeyd etdiyimiz kimi, "*diskurs"* termini çoxmənalı xarakter daşıyır. F.Y.Veysəlli *diskur*s anlayışını belə müəyyənləşdirir: "diskurs–alman dilində *Discurs* (m), ingilis dilində–*Discourse*, fransız dilində– *Discourtion*, Azərbaycan dilində isə–

Diskurs kimi müəyyənləşir. (1) mətnin müxtılif aspektlərini bildirən əsas anlayış kimi başa düşülür; (2) danışılmış (söylənilmiş) mətn kimi izah olunur. Bu mənada diskurs formal-qrammatik struktur kimi götürülən mətndən fərqlənir. Diskurs elə bir mətndir ki, danışan onu öz həmsöhbətinə münasibət əsasında qurur. O, sosiomədəni kontekstdə interaktiv proses məhsuludur. (3) fəlsəfi mənada həqiqətin aşkara çıxarılması məqsədilə aparılmış təhlil kimi nəzərdə tutulur. Ötən əsrin 70-ci illərindən başlayaraq sosio-, psixo-, və etnolinqivistikada, koqnitiv elmdə, süni intellektin dil fəlsəfəsində, linqvistik sosiologiyada, ritorika və üslubiyyatda geniş tətbiq olunmuşdur."[2, 234]

V.T.Borbotko diskursun aşağıdakı aspektlərini müəyyənləşdirir:

1. Əlaqəli mətn;
2. Mətnin şifahi-danışıq forması;
3. Dialoq;
4. Öz aralarında mənaca bağlı olan deyimlər qrupu;
5. Yazılı yaxud şifahi formada mövcud olan nitq məhsulu.

Mətn barədə fikirləşərkən ilk əvvəl ağlımıza tam əhatəli, mənası, məzmunu olan bir forma gəlir. Biz hər hansı bir *iş məktubunu, broşürü,qəzet məlumatını*, *hər hansı bir yemək reseptini* və s. mətn kimi nəzərdə tuta bilərik. Bundan başqa, tək bir cümləni, hətta tək bir sözü də mətn kimi qəbul etmək olar. Məna ifadə edən, düşündürücü xarakter daşıyan hər bir söz mətn hesab edilə bilər, onlar da öz növbələrində tam məna ifadə edir, bizi düşünməyə vadar edir. Bu cür kiçik ölçülü mətnlərdən, əsasən ictimai işarələrin nəzərə çatdırılması zamanı istifadə olunur.

Müşahidələrimizi bir qədər də genişləndirib və bu nəticəyə gələ bilərik ki, mətnin mənası o, aktiv manada kontekstin təkibində istifadə olunanda aydınlaşır. Mətnin kontekstlə bu cür aktiv birliyini biz *diskurs* adlandırırıq.Başqa sözlə desək, mətnin bu cür məna ifadə etməsi *oxucunun* (danışıq zamanı *dinləyicinin*), eyni zamanda *yazıçının* (və yaxud *danışanın*) məqsədyönlü məlumatı hesab olunur. Buna görə də onlar *ünsiyyət hərəkəti* (communicative act) və yaxud *diskurs* adlandırılır. Buradan da məlum olur ki, mətn *yazıçının* və yaxud *danışanın* diskursunun nəzərəçarpan məhsuludur. Mətnin nəzərəçarpması isə müxtəlif amillərdən asılı ola bilər. Məsələn, o *yazılı formada*, *səsləndirmə formasında* və yaxud *qeyrisəsləndirmə* formasında (*unrecorded speech*) ola bilər. Hansı formada olmasına baxmayaraq, *oxucu* və yaxud *dinləyici*, yazıçı yaxud danışan diskursunu başa düşmək üçün mətn daxilində lazım olan məna açarını axtarır. Məsələn, bir hərbi əhəmiyyətli mətni nəzərdən keçirək:

MƏTN 1.

Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi,

Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi. Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir. Azərbaycan işğal altında olan torpaqları işğaldan azad edir. Demək olar ki, hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Eyni zamanda, strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib olurlar. Beləliklə, əməliyyat planı tam icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda, döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstünlüyə sahib olubdur.

MƏTN 2.

BBC: Prezident Əliyev, BBC News-da bizimlə söhbət etmək üçün vaxt ayırdığınıza görə sizə təşəkkür edirəm. Dağlıq Qarabağın və ətraf yeddi rayonun hər bir qarışı uğrunda savaşmaq niyyətindəsiniz?

İlham Əliyev: Bizim mövqeyimiz lap əvvəldən çox aydın idi. Biz hazırıq və hələ də Ermənistan tərəfi işğal olunmuş ərazilərin boşaldılmasına dair üzərinə öhdəlik götürəcəyi təqdirdə istənilən vaxt dayanmağa hazırıq. Mən bunu müharibənin əvvəlindən deyirəm, əgər Ermənistanın baş naziri işğal olunmuş əraziləri boşaldacağına dair ictimaiyyət qarşısında üzərinə öhdəlik götürərsə, biz dayanarıq. Lakin bu vaxtadək artıq 40 gün keçib, onun bunu deməsinə dair heç bir əlamət yoxdur.

İlham Əliyev: Ermənistan işğal olunmuş ərazilərdən qoşunların çıxarılması ilə bağlı üzərinə öhdəlik götürməsə biz sona qədər vuruşacağıq. Əgər onlar müqavimət göstərməyə və artıq azad etdiyimiz əraziləri geri almağa davam edəcəklərsə. Hesab edirəm ki, Ermənistan böyük bir səhv edir, çünki lap əvvəldən bizə qulaq assaydılar, müharibə uzun müddət bundan öncə dayanardı və biz artıq danışıqlar masası arxasında olardıq.

BBC: Lakin cənab Prezident, siz bir ultimatum verirsiniz. Siz deyirsiniz ki, onlar bütün bu əraziləri qaytarmağa razılaşmalıdırlar və bu halda danışıqlar baş tuta bilər. Danışıqlar üçün bu, qabaqcadan sürülən böyük bir şərtdir.

MƏTN 3.

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

Prezident İlham Əliyevin xalqa müraciəti

-Əziz həmvətənlər.

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb.

Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir! Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

MƏTN 4.

"Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!"

"Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır".

MƏTN 5.

İndiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir.

Metbuat.az xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində səsləndirib.

İndi Azərbaycanın özünün bu məsələni həll etdiyini bildirən dövlətimizin başçısı deyib: "Mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu". Azərbaycan Prezidenti qeyd edib ki, əgər Paşinyan bizimlə

normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. "Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!", - deyə dövlətimizin başçısı bildirib.

İndi isə bədii ədəbiyyatdan götürülmüş nümunəyə baxaq:

All the loose ends had to be tidied [20, 249].

Bu cümlənin bədii tərcüməsi belədir:

Bütün artıq hissələr səliqəyə salınmalıdır (kəsilib atılmalıdır).

Bu cümləni müxtəlib məqamlarda istifadə edə bilərik. Təsəvvür edək ki, dərzidə paltar tikdiririk və ondan paltarda artıq olan hissələri atmağı xahiş edirik.

Amma bu cümləni götürdüyümüz ədəbiyyat nümunəsində isə o tamam fərqli bir mənada işlədilib. Əgər kitabı diqqətlə oxusaq, əvvəlki hadisələrdən xəbərdar olsaq, başa düşərik ki, burada yazıçı *"All the loose ends had to be tidied*."–cümləsini işlətməklə başqa bir məqama toxunur. Belə ki, söhbət hadisə ilə əlaqədar olan insanların aradan qaldırılmasından gedir. Bu yazıçının istifadə etdiyi mətndaxili texnikalardan biridir.

Mehdiyeva G.

MILITARY TEXTS AS ONE OF THE TYPES OF TEXT
SUMMARY

The article deals with military texts as one of the types of text. Having researched the article, it becomes clear that the author tried to investigate the differences and similarities between the military text and military discourse. Finally, the article presents that a military text can be considered as the material manifestation of a military discourse. Besides, the paper aims to highlight some aspects of military texts, to discuss some misconceptions associated with translation of military and military-related texts, to analyze specific competences a translator of these texts should possess as well as to illustrate potential translation challenges faced by student translators. Translating military and military-related texts, translators should develop not only advanced linguistic, but also comprehensive thematic competence to be able to deal with translation problems. Competence in translation of military-related texts may become a competitive advantage for student translators specializing in various fields of language for special purposes. Military texts have been traditionally seen as a very special type of texts composed, translated and disseminated by professionals among professionals. Nowadays, in view of the

current geopolitical situation, there is a growing public concern about the issues of national and transnational security. Publicity ensured to military events, military education and training and to military missions by mass media, as well as awareness and interest policymakers take in the matters of funding, support, authority sharing and consequences of military operations have conditioned the growth of the volume of military-related discourse. One of the challenges associated with the influx of military terms into the public information space is potential misinterpretation and misuse of these lexical items by non-professionals, which may lead to ambiguity and communication failure.

Key words: text, military, discourse, war, content, aspect, style

Мехтиева Г.

ВОЕННЫЕ ТЕКСТЫ КАК ОДИН ИЗ ВИДОВ ТЕКСТА

РЕЗЮЬМЕ

В статье рассматриваются военные тексты как один из типов текста. Изучив статью, становится ясно, что автор попытался исследовать различия и сходства между военным текстом и военным дискурсом. Наконец, в статье показано, что военный текст можно рассматривать как материальное проявление военного дискурса. Кроме того, цель статьи - осветить некоторые аспекты военных текстов, обсудить некоторые заблуждения, связанные с переводом военных текстов и текстов военной тематики, проанализировать конкретные компетенции, которыми должен обладать переводчик этих текстов, а также проиллюстрировать потенциальные проблемы перевода, с которыми сталкивается студент. переводчики. При переводе текстов военной и военной тематики переводчики должны развивать не только высокие лингвистические, но и всесторонние тематические навыки, чтобы иметь возможность решать проблемы перевода. Компетентность в переводе текстов военной тематики может стать конкурентным преимуществом для студентов-переводчиков, специализирующихся в различных областях языка для специальных целей. Военные тексты традиционно рассматривались как особый тип текстов, составленных, переведенных и распространенных профессионалами среди профессионалов. В настоящее время, учитывая сложившуюся геополитическую ситуацию, растет обеспокоенность общественности вопросами национальной и транснациональной безопасности. Публичность, обеспечиваемая средствами массовой информации военным мероприятиям, военному обучению и обучению и военным миссиям, а также осведомленность и заинтересованность политиков в вопросах финансирования, поддержки, разделения полномочий и последствий военных операций обусловили рост объема военных операций. -связанный дискурс. Одной из проблем, связанных с притоком военных терминов в пространство общественной информации, является возможное неправильное толкование и неправильное использование этих

лексических единиц непрофессионалами, что может привести к двусмысленности и сбоям в коммуникации.

Ключевые слова: текст, военный, дискурс, война, содержание, аспект, стиль.

ƏDƏBİYYAT

1. Veysəlli F.Y. Struktur Dilçiliyin Əsasları. Bakı, Mütərcim, 2009.
2. Veysəlli F.Y. Dilçilik Ensiklopediyası. Bakı, 2006.
3. Qurbanov A. Bədii mətnin linqvistik təhlili. Bakı, 1986.
4. Məmmədov A. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı, Elm, 2001.
5. Novruzova N. Mətn sintaksisi. Bakı, 2001.
6. Musayev O.İ. İngilis dilinin qrammatikası.Bakı, Qismət, 2007.
7. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, Maarif, 1998.
8. Вейсалли Ф.Я. Структура и семантика текста. Баку, Мютарсим, 2008.
According to a number of researchers, the main reason for the abbreviation is the effect of the law of saving speech resources, caused by the desire of people to transmit the maximum amount of information per unit of time. Indeed, abbreviation helps to save speech units, but this is not the only reason. There are a number of other factors that contribute to the formation of abbreviated lexical units. Meanwhile, abbreviation is an important factor in saving speech resources, because our memory is limited in storing and reproducing information. On the other hand, abbreviations which are the product of the process of abbreviation are used to simplify and speed up communication, but on the contrary, they complicate it. The fact is that if a particular abbreviation is unknown to all communicants, then it can create a problem in communication. In addition, each language has abbreviations that are synonymous in their structure, which can be deciphered in different ways. Therefore, in order that abbreviations do not create problems and do not lead to an additional waste of time for deciphering, they should become generally accepted and used without a correlate. Some abbreviations use, but others do not use their original meanings. The motivation of a word is the preservation in its semantic structure of an indissoluble connection of sound and meaning. Because of motivation, the content of a word can be openly expressed in its internal form. The internal form of a word is the semantic and structural motivation of a word by another word, on the basis of which it originated. It should also be noted that this division of abbreviations into

abbreviations-neologisms can be accepted conditionally, since all abbreviations, regardless of the existence / non-existence of their original combination earlier at the time of creation, are neologisms, and over time cease to be such.
Key words: semantics, transcript, original meaning, shortenings

Mahmudova Nilufər Qarabəyovna

KISALTMALARIN LEKSIK-SEMANTIK XÜSUSIYYƏTLƏRI

Xülasə

Bir sıra tədqiqatçıların fikrincə, abbreviaturanın əsas səbəbi insanların maksimum sayda informasiyanın vahid vaxtda ötürülməsi istəyi ilə yaranan nitq resurslarına qənaət qanununun tətbiqidir. Həqiqətən, kısaltma danışma vahidlərini saxlamağa kömək edir, lakin bu, yeganə səbəb deyil. Qısaldılmış leksik vahidlərin yaranmasına səbəb olan bir sıra digər amillər də mövcuddur. Bu arada, kısaltma, yaddaşımız məlumatların saxlanması və reproduksiyası ilə məhdudlaşdığı üçün danışma resurslarına qənaət etmək üçün əhəmiyyətli bir amildir. Digər tərəfdən, kısaltma prosesinin məhsulu olan qısaltmalar kommunikasiyanı asanlaşdırmaq və sürətləndirmək üçün istifadə olunur, lakin əksinə, onu çətinləşdirir. Məsələ ondadır ki, əgər konkret ixtisarlar bütün kommunikantlara məlum deyilsə, o ünsiyyətdə problem yarada bilər. Bundan əlavə, hər bir dildə strukturu ilə sinonim olan qısaltmalar var ki, bu da müxtəlif yollarla şifrələnə bilər. Buna görə də, qısaltmalar problem yaratmır və şifrələməyə vaxt sərf etməsinə gətirib çıxarmır, onlar ümumi qəbul olunmalı və korneletsiz istifadə edilməlidir. Bəzi qısaltmaların orijinal mənaları istifadə olunur, lakin başqaları istifadə olunmur. Sözün motivasiyası onun semantik strukturunda səsin və mənanın ayrılmaz bir əlaqəsinin qorunmasıdır. Motivasiya sayəsində sözün məzmunu açıq şəkildə ifadə edilə bilər. Sözün daxili forması sözün semantik və struktur motivasiyasıdır, bunun əsasında yaranan başqa bir söz**.** Həmçinin qeyd etmək lazımdır ki, Kısaltmaların kısaltmalara bölünməsi-neologizmlər şərti olaraq qəbul edilə bilər, çünki bütün Qısaltmalar yaradılması zamanı əvvəllər onların ilkin birləşməsinin mövcudluğundan asılı olmayaraq / mövcud deyildir, lakin vaxt keçdikcə bu kimi olmaqdan çıxır.
Açar sözlər: semantika, deşifre, ilkin məna, ixtisarlar

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: доцент А.Г. Аббасов
tərəfindən çapa tövsiyə olunmuşdur

АЛИЕВА ИРАДА
АМУ
mail2nara@mail.ru

ОСОБЕННОСТИ ОБУЧЕНИЯ ЧТЕНИЮ СТУДЕНТОВ-ИНОСТРАНЦЕВ НА НАЧАЛЬНОМ ЭТАПЕ

РЕЗЮМЕ

Важнейшей составной частью обучения студентов-иностранцев русскому языку – является чтение. Одной из особенностей процесса чтения является прогнозирование, при котором читающий узнает слово по первым буквам. Невозможно научиться читать и понимать содержание прочитанного, не овладев техникой чтения. Техника чтения – это правильное произнесение текста при чтении вслух или при внутреннем проговаривании. Чтение начинается со зрительного восприятия графических знаков. Для студентов, использующих латинскую графику, трудности могут представлять буквы русского алфавита, которые имеют общее начертание, но различное алфавитное наименование.

Важным моментом при обучении чтению студентов-иностранцев является исправление ошибок. Исправлять ошибки можно по ходу чтения или по окончании предложения или абзаца. Еще одним этапом работы над текстом является проверка понимания его содержания. Это можно сделать с помощью вопросов.

В методике обучения чтению имеются несколько видов обучающего чтения.

Ключевые слова: речевая деятельность, формирование навыков, прогнозирование, техника речи, виды чтения.

Одной из важнейших составных частей обучения студентов-иностранцев русскому языку – является развитие умения читать. Это позволит студентам овладеть и другими видами речевой деятельности, т.к. говорение и письмо зависят от сформированности навыков чтения.

С чтением тесно связано и аудирование, т.к. при чтении про себя, также, как и при аудировании, работает артикуляционный аппарат и осуществляется проговаривание в форме внутренней речи. Студент во время чтения не только проговаривает текст, но и как бы слышит себя со стороны. Поэтому на начальном этапе обучения русскому языку рекомендуется читать все тексты вслух.

При обучении студентов-иностранцев чтению нельзя забывать о необходимости так называемого устного опережения, когда новые слова и грамматические конструкции, встречающиеся в тексте, должны быть объяснены до начала чтения нового материала. В таком случае студент не только видит их написанными на доске и слышит в речи преподавателя, но и сам произносит их при выполнении предтекстовых упражнений.

Одной из особенностей процесса чтения является прогнозирование, при котором читающий узнает слово по первым буквам, по первым словам предложения предвидит его окончание, на основе части текста угадывает дальнейшее развитие сюжета. Для развития навыков прогнозирования студентам можно предложить ряд следующих подготовительных упражнений:

а) прочитайте слова с пропущенными буквами:

сту...ент, у...ок, тет...адь;

б) прочитайте предложение с пропущенными словами:

Мы занимаемся в ... .

Ребята играли в футбол на ... .

в) составьте предложение из данных слов:

Родину, на, поеду, летом, я.

г) найдите в правом столбике окончания предложений, начинающихся в левом столбике:

Я изучаю	в кино.
Он пишет	упражнение.
Мы идем	русский язык.

д) на основне заголовка или первых предложений текста предположите, о чем пойдет речь.

Невозможно научиться читать и понимать содержание прочитанного, не овладев техникой чтения. Техника чтения – это правильное произнесение текста при чтени вслух или при внутреннем проговаривании.

Чтение начинается со зрительного восприятия графических знаков. У студентов, говорящих на арабском, фарсидском и т.п. языках, написание букв русского алфавита вызывает трудности. А для судентов, использующих латинскую графику, трудности могут представлять буквы русского алфавита, которые, с одной стороны, имеют общее начертание, но различное алфавитное наименование, с другой – произношение соответствующих им звуков. Например, для турецких студентов трудность представляют буквы в, р, п, д.

Для развития техники чтения необходимо проводить упражнения, которые направлены на различение и узнавание букв русского алфавита. Например:

а) прочитайте попарно буквы русского алфавита:

и – у	п – н	т – м	р – ч	с – к	в – б	с – ц
б – в	н – п	м – т	ч – р	к – с	у – и	ц – с

б) прочитайте слоги:

ва – ба, ча – ра, ди – ду, па – на, то – мо, ри – ру

в) прочитайте слова:

вот, рот, тот, рис, три, суп, сон, вас, папа, пара, рад, дать, тут, там, том, дом, сад.

Студентам можно предложить записать в тетрадь слоги и слова из предыдущих упражнений. Это поможет отработке восприятия и различения строчных букв в письменном тексте.

После закрепления алфавита можно переходить к чтению слов, словосочетаний и коротких предложений, состоящих из двух – трех слов, а затем и к чтению несложных связанных текстов.

Для выработки и совершенствования техники чтения рекомендуется провести следующие упражнения:

а) прочитайте предложения, в которых постепенно увеличивается число компонентов:

Я читал. Я читал книги. Я читал ваши книги. Я читал ваши книги по истории. Я читал ваши книги по истории Азербайджана.

б) прочитайте предложения с различной интонацией:

Дождь идет. Дождь идет? Дождь идет!

Каждый новый текст вначале должен быть прочитан преподавателем, так как для студентов это является образцом. Если содержание текста понятно студентам, можно переходить к повторному чтению, при котором они вместе с преподавателем проставляют ударения и разбивают на синтагмы каждую фразу. Например:

Днем \Ахмед \работал в библиотеке.

По мере усвоения студентами техники чтения и выработки у них навыка правильного осмысленного восприятия и воспроизведения вслух читаемого текста, необходимость в таких тренировках отпадает.

Важным моментом при обучении чтению студентов-иностранцев является исправление ошибок. Исправлять ошибки можно по ходу чтения или по окончании предложения или абзаца. На начальном этапе целесообразнее поправлять студентов по ходу чтения. Ошибка считается исправленной, если студент после многократного повторения правильно произносит слово, предложение, текст.

На следующем этапе развития навыков чтения преследуются цели непосредственного понимания текста. Это значит, что текст в процессе чтения понимается учащимися сразу и преподавателю нет необходимости давать пояснения.

Непосредственное понимание текста возможно только при условии предварительной отработки языкового материала, содержащегося в тексте. Предтекстовая работа состоит в следующем:

а) объяснение значений новых слов и грамматических конструкций (т.е. снятие лексических и грамматических трудностей);

б) выполнение упражнений, тренирующих употребление в речи новых слов и грамматических конструкций (в этих упражнениях новые слова должны встретиться в разных сочетаниях, а грамматические конструкции – с разным лексическим наполнением).

Новые слова следует давать только в том значении, в котором они употреблены в тексте. Каждое новое слово студенты должны услышать, увидеть написанным на доске или в книге , повторить вслух, а затем записать.

Необходимым этапом работы над текстом является проверка понимания его содержания. Это можно сделать с помощью вопросов, которые должны быть поставлены так, чтобы на них можно было дать короткие и простые ответы.

Для контроля понимания прочитанного рекомендуется проводить следующие упражнения:

а) найдите в тексте предложения, которые являются ответами на вопросы;

б) подтвердите или опровергните утверждение;

в) выберите из серии предложенных ответов или утверждений те, которые соответствуют содержанию текста

г) составьте вопросы к тексту и т.п.

В методике преподавания русского языка студентам-иностранцам используется следующая классификация видов обучающего чтения:

1.Изучающее чтение – «вид чтения про себя, при котором осуществляется полное и точное понимание текста с последующим вопроизведением полученной информации в той или иной форме (пересказ, интерпритация и др)». (128.5).

Во время изучающего чтения студенты должны детально понять, запомнить содержание прочитанного и пересказать его. Такую работу можно проводить на начальном этапе, когда преподаватель добивается точного понимания текста, проверяет это понимание с помощью ответов на поставленные вопросы. К такому уроку рекомендуется выбрать из текста слова и грамматические конструкции, которые студенты еще не знают и составить с ними предтекстовые упражнения.

Языковые упражнения, которые проводятся до чтения текста, помогут снять трудности лингвистического и психологического характера.

Языковые упражнения, снимающие трудности лингвистического характера, формируют следующие умения:

а) определение в тексте незнакомых языковых явлений и разграничение их значений;

б) словообразовательную догадку;

в) смысловую догадку;
г) контекстуальную догадку;
д) опредение и осмысление синонимических и антонимических явлений.

Языковые упражнения, снимающие трудности психологического характера, формируют следующие умения:
а) темп чтения;
б) вероятное прогнозирование;
в) умения анализировать текст, осмысливать его.

2.Ознакомительное чтение – «вид чтения про себя, в котором ставится задача общего охвата содержания текста. Это чтение без специальной установки на последующее воспроизведение полученной информации». (128.5).

Для успешного обучения этому виду чтения важно выработать у учащихся умение ограничивать главное от второстепенного, выделять основные мысли. Для этого рекомендуется выполнять на уроке следующие упражнения:
а) подчеркните в предложении слова, не несущие основной информативной нагрузки, прочитайте предложение без этих слов;
б) подчеркните в тексте предложения и абзацы, которые не несут основной информативной нагрузки, прочитайте текст без них;
в) найдите в тексте главные мысли, ориентируясь на план;
г) составьте план текста (назывной или вопросный).

Упражнения такого типа можно использовать и для проверки понимания прочитанного текста.

Для обучения ознакомительному чтению следует отбирать достаточно легкие тексты, содержащие небольшое количество новых слов. Важным требованием к заданиям на проверку понимания является то, что они должны проверять понимание основного содержания и не касаться деталей. При ознакомительном чтении должно быть понято не менее 75% информации, заключенной в тексте.

3.Просмотровое чтение – «предполагает умение просмотреть книгу, журнал и другую литературу с целью получения самого общего представления о содержании». (87.7). Этот же вид чтения используется для поиска определенных данных (цифр, цитат и т.п.).

К текстам, выбранным для любого вида чтения, предъявляются определенные требования. «Основными принципами отбора текстов для чтения являются их доступность, информативность, занимательность, системность изложения, связь с грамматическим материалом, изучаемым в курсе русского языка». (129.5)

В связи с тем, что со временем текстов для чтения в учебнике оказывается недостаточно, приходится выбирать материал для дополнительного чтения. Чтение этих текстов обычно проводится в аудитории, но может быть предложено и как домашнее задание. Проверить понимание содержания прочитанного можно с помощью заданий:

а) ответьте на вопросы одним словом - «да» или «нет»;

б) найдите в тексте и прочитайте вслух;

- предложение (абзац), где говорится о ...;

- предложения, которые служат ответом на следующие вопросы...;

-отрывок, где подтверждается (или опровергается) следующее утверждение...;

в) найдите в тексте 3-5 предложений, в которых заключаетеся основное содержание текста;

г) озаглавьте текст;

д) разделите текст на части, каждую из них озаглавьте предложением из текста;

е) составьте план текста;

ж) составьте вопросы к тексту и др.

К уровню сформированности навыков чтения любого вида предъявляются определнные требования:

1.Техника чтения: умение прочитать вслух текст объемом 900 знаков со скоростью 300 знаков в минуту с соблюдением правил артикуляции, синтагматического членения и интонирования русской речи.

2.Изучающее чтение: умение прочитать про себя новый текст, понять и вопроизвести его, демонстрируя полноту и точность понимания. Предложенные тексты могут быть в диалогической, диалого-монологической и монологической форме. Объем текстов страноведческого характера, адаптированных произведений художественной литературы и учебных текстов разговорно-бытового стиля речи – 1800 знаков, газетной информации – до 800 знаков. Скорость чтения про себя 400 знаков в минуту.

3.Ознакомительное чтение: умение прочитать про себя новый текст, проанализировать, выделить главные мысли и передать основное содержание. Характер материалов: сюжетные или описательные тексты страноведческого характера, неадаптированные произведения художественной литературы, газетная информация. Объем текстов страноведческого характера, произведения художественной литературы – 5400 знаков, газетной информации – до 800 знаков. Скорость чтения – 500 знаков в минуту.

ЛИТЕРАТУРА:

1.Мишонкова Н.А. Русский язык как иностранный, Минск «Издательство Гревцова», 2012

2.Антонова В.Е., Дорога в Россию, Санкт-Петербург, «Златоуст», 2009
3.Аркадьева Э.В., Живая методика, Москва, «Русский язык. Курсы», 2005
4.Синичкина Н.Е., Практическая методика русского языка, Санкт-Петербург, «Наука», 2005
5.Дергачева Г.И. и др, Методика преподавания русского языка как инстранного на начальном этапе, «Русский язык», Москва, 1989
6.Девятайкина В.С. и др, Пособие преподавания русского языка как иностранного, «Русский язык», Москва, 1984
7.Леонтьева А.А., Королева Т.А., Методика, «Русский язык», Москва, 1977

İradə Əliyeva

Xarici tələbələr üçün ilkin mərhələdə oxu tədrisinin xüsusiyyətləri

XÜLASƏ

Xarici tələbələrə rus dilini öyrətməyin ən vacib hissələrindən biri oxu vərdişləridir. Oxu prosesinin xüsusiyyətlərindən biri də oxucunun sözü ilk hərflərlə tanışlığından proqnozlaşdırılmasıdır. Oxu texnikasını mənimsəmədən oxumaq və oxuduğunun məzmunu anlamaq mümkün deyil. Oxu texnikası mətnin səsli və ya daxili tələffüzlə oxuduqda düzgün tələffüz edilməsidir. Oxu vərdişləri qrafik işarələrin vizual şəkildə qavranılması ilə başlayır. Latın qrafikindən istifadə edən tələbələr üçün çətinliklər ortaq cəhəti olan, lakin fərqli, məsələn türk əlifbası xüsusiyyətinə malik hərflərlə təqdim edilməsidir.

Xarici şagirdlərə oxu vərdişlərinin öyrədilməsinin mühüm bir cəhəti də səhvlərin düzəldilməsidir. Səhvləri mətni oxuyarkən, bir cümlənin və ya abzasın sonunda düzəldə bilərsiniz.

Mətn üzərində işin başqa bir mərhələsi onun məzmununun başa düşülməsini yox. Buna sualların köməkliyi ilə nail olmaq olar.

Oxu tədrisi metodikasında oxu vərdişlərinin bir neçə növü vardır.

Açar sözlər: nitq fəaliyyəti, vərdişlərin formalaşması, proqnozlaşdırma, nitq texnikası, oxu növləri.

İrada Aliyeva

Specific features of the process of teaching the foreign students how to read on initial stages.

RESUME

One of the key parts in teaching Russian to foreign students is reading. One of the features of the reading process is forecasting, which means the students need to recognize the complete word by few initial letters. It is impossible to learn how to read and to understand the context of the text, without acquiring the reading technique first. Reading technique is correct pronunciation while reading a text out loud or while reading to oneself. The process of reading starts with the visual

perception graphic symbols. For the students, who use Latin alphabet, usually face challenges with Russian alphabet, since the letters may look similar, however have different pronunciation, than Turkish letters, for instance.

Important aspect of the process of teaching the foreign students how to read is correction of the mistakes. The mistakes can be corrected while reading or after finishing a sentence or a paragraph.

Another stage in working on a text is checking the understanding of the content. The understanding can be checked using questions.

Methods of teaching the reading consist of different types of reading.

Key words: speech activity, skills formation, forecasting, speech techniques, types of reading.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: f.e.d. Kadiyeva S.
tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYNOVA NILUFƏR MAARIF QIZI
Bakı Slavyan Universitetinin dissertanti

XARICI DILLƏRIN TƏDRISINDƏ TƏTBIQ OLUNAN DIDAKTIK OYUNLARIN MƏQSƏDI VƏ OYUN FƏALIYYƏTLƏRI

XÜLASƏ

Açar sözlər: oyunun elementləri, didaktik tapşırıq, oyun fəaliyyəti, oyun süjeti

Oyun və təlimin arasındakı qarşılıqlı əlaqənin aydınlaşdırılmasına məktəblilərin inkişafı və tərbiyəsində təlimin, onun məzmununun, xarakterinin və rolu haqqında problemin dərindən öyrənilməsi kömək etmişdir. Ümumi təhsil sistemində didaktik oyun sinifdə təlimlə birlikdə müstəqillik qazanır və mövcud olur. Onun yeri didaktik forma və təlim vasitələrinin müxtəlifliyindən istifadə edərək, müəllimin ona verdiyi rolla müəyyən edilir.

Didaktik oyun mürəkkəb bir fenomendir, amma onda struktur, yəni oyunu təlimin forması və oyun fəaliyyəti kimi xarakterizə edən əsas elementlər açıq şəkildə görsənir. Oyunun əsas elementlərindən biri təlim-tərbiyə təsirinin məqsədi ilə təyin olunan didaktik tapşırıqdır.

Didaktik vəzifə və ya bir neçə vəzifənin olması oyunun öyrənmə xarakterini, tədris məzmununun uşaqların bilik fəaliyyəti prosesinə yönəldilməsini vurğulayır. Didaktik tapşırıq müəllim tərəfindən müəyyən edilir və onun tədris fəaliyyətini əks etdirir.

Oyun fəaliyyətləri didaktik oyunun əsasını təşkil edir – onsuz oyunun özü mümkün deyil. Onlar sanki oyun süjetinin rəsminə bənzəyir. Oyun fəaliyyətləri nə qədər rəngarəng və məzmunludursa, oyunun özü şagirdlər üçün daha maraqlıdır və idraki və oyun vəzifələri daha uğurla həll olunur. Oyun hərəkətləri bəzən reallıqla eyni deyildir: onlar real hadisələri və real fəaliyyətləri əks etdirdikdə belə, onların yalnız xarici tərəfini ortaya çıxarır. Uşaqlara oyun fəaliyyətlərini öyrətmək lazımdır. Yalnız bu şəraitdə oyun təlim xarakteri daşıyır və məzmunlu olur.

Didaktik oyunları istifadə məqsədilə bir neçə növə bölmək olar:

1. Nitqi və fonematik eşitmə qabiliyyətinin inkişafı üçün oyunlar;
2. Leksikanın möhkəmləndirilməsi üçün oyunlar;
3. Əlaqəli nitqin inkişafı üçün oyunlar.
4. Qrammatik materialları möhkəmləndirilməsi üçün oyunlar.

5. Tərcümə oyunları.

6. Ədəbi və ölkəşünaslıq tədqiqat materiallarının möhkəmləndirilməsinə kömək edən oyunlar.

Didaktik oyun alman dilinin xarici dil kimi təlim üsullarından biridir və dərsdə nitq vəziyyətini yaratmağa kömək edir; buna görə də oyun şagirdlərin dərsdə fəaliyyətini aktivləşdirmək üçün bir vasitədir.

Didaktik oyunlarını dərsdə istifadə edərkən, oyunun yerini müəyyən etmək, oyunları düzgün seçmək, təşkil etmək və keçirmək lazımdır.

Şagirdlər hər hansı bir materialı minimum mənimsədikdən sonra oyuna başlana bilər. Hər bir oyunda müəyyən məqsədlər var. Oyunu təsvir edərkən, müəllim dəqiq dərk etməlidir ki, bu oyunun köməyi ilə uşaqlarda hansı biliklər möhkəmlənəcək, hansı bacarıq və vərdişlər inkişaf edəcək. Oyun mahiyyəti və məqsədindən asılı olaraq, dərslərin müxtəlif mərhələlərində keçirilə bilər. Sakit oyunlar, məsələn, rollar üzrə oynanılan dialoqlar, söz düzəldici oyunlar, tərcüməçi oyunları dərslərin istənilən mərhələsində mümkündür. Hər hansı bir hərəkətlə əlaqəli canlandırıcı oyunlar, sinifdən aparıcının çıxışı və s. dərsin sonunda çox münasibdir. Belə ki, belə oyun zamanı şagirdlər çox həyəcanlanırlar.

Oyunun seçimi dərsin təlim-tərbiyə məqsədləri ilə müəyyən edilir. İkinci mühüm şərt bu yaşda olan şagirdlər üçün oyunların əlçatanlığı, onların ehtiyacları və maraqlarına uyğunluğudur. Oyun gücü çatan qədər olmalıdır, lakin eyni zamanda diqqətin, yaddaşın gərginliyi, dilin faktlarını təhlil etmək, onların təsnifatı və s. tələb edən bir sıra çətinliklər ehtiva etməlidir.

Bütün didaktik oyunlar bəzən hərəkət, üz ifadələri ilə, əşyaların, şəkillərin, kartoçkaların və s. istifadəsi ilə nitq fəaliyyətini özündə birləşdirir [4, s.192]. Oyunun uğurlu keçirilməsi şagirdlərin hazırlıq səviyyəsindən və təlim mərhələsindən asılıdır.

Oyuna başlamazdan əvvəl müəllim hansı materialdan istifadə ediləcəyi barədə məlumat verir, bəzən mümkün çətinliklər barədə xəbərdar edir, nəzarət sualları vasitəsilə oyunun qurulduğu materialların şagirdlərin necə anlayacaqlarını aydınlaşdırır.

Müəllim tapşırığı elan edir və oyun qaydalarını izah edir, oyun fəaliyyətini necə həyata keçirmək üçün bir nümunə göstərir. Bütün şagirdlərin nə edəcəklərini, onlardan nə tələb olunduğunu başa düşdüklərinə əmin olmadan oyuna başlamaq olmaz. Oyun zamanı müəllim çətinlikdə kömək edir, bəzən suallara gətirib çıxaran tapşırıqların həllini verir, oyunçuların hərəkətlərini yönləndirir [1, s. 222]

Müəllim oyunun qaydalarına riayət etməyə nəzarət edir. Bəzən oyun zamanı, əgər nəzarətçi tələb olunarsa, o, nəzarətçi təyin edir. Bu və ya digər oyunun xüsusiyyətlərini nəzərə alaraq, şagirdlərin arasından oyuna nəzarətçi qismində qatılmasını təmin etmək üçün səy göstərilməlidir. Müəllimin nəzarəti mümkün qədər xüsusilə oyunlarda vasitəli olmalıdır. Bu, aparıcılara müstəqilliyini, təşəbbüsünü, təşkilati bacarıqlarını inkişaf etdirməyə imkan verəcək və oyunçular isə daha çox hərəkət azadlığı hiss edəcək, oyun daha effektiv və məqsədyönlü şəkildə gedəcək.

Oyun zamanı müəllim yersiz iradla uşaqların fəaliyyəti və təşəbbüsünə təsir etməmək üçün, şagirdlərə maksimum diqqət, təmkin və xeyirxahlıq göstərməlidir. İnciyən və həssas uşaqlara xüsusi diqqət yetirilməlidir. Müəllim pozuntulara yol vermədən oyun qaydalarına riayət etməyə nəzarət edir.

Bir çox oyunlar komandaların, qrupların və s. yarışı kimi keçirilir. Bu halda komanda kapitanları seçilir. Kapitanlar cavabların, qərarların düzgünlüyünü yoxlayır, qanun-qayda yaradır, cavabların ardıcıllığını təmin edirlər. Onlar düzgün cavablar üçün balları və ya xalları hesablayırlar. Əvvəlcə müəllim nəzarətçi rolunda özü çıxış edir və komandaların kapitanları ilə birlikdə oyunun nəticələrini yekunlaşdırır. Sonrakı oyunlarda müəllim yalnız kapitanların hərəkətlərinin düzgünlüyünə nəzarət edir.

Şagirdlər növbə ilə komandaların kapitanları olurlar ki, mümkün qədər çox uşaq bu rolda özünü göstərsinlər.

Hər komandaya müxtəlif hazırlıqlı məktəbliləri daxil etmək lazımdır. Çalışmaq lazımdır ki, komandalar bəqabər qüvvələrə sahib olsun. Yaxşı olardı ki, eyni komanda qalib gəlməsin. Uduzan komandaya bir dəfə qalib gəlmək imkanı vermək lazımdır ki, iştirakçılar özlərini qalib hiss etsinlər və oyuna maraq itirməsinlər.

Dərsdə oyuna təxminən beş-səkkiz dəqiqə vaxt ayrılır. Oyunun sonunda onun nəticələri yekunlaşdırılır, qaliblər elan edilir. Müəllim növbəti dəfə qələbə qazanmaq üçün hansı materialın təkrarlamağını lazım olduğunu xatırladır.

Qaliblərin müəyyənləşdirilməsi digər komandalara qarşı heç bir məzəmmət və töhmət olmadan baş verməlidir və bir qədər zarafat tonu ola bilər. Bununla belə, müəllimin komanda və ya bir neçə şagirdin nəyə görə qalib gəldiyini əsaslandırmalıdır.

Bütün sinif oyunu yekunlaşdıranda müəllim ilə birlikdə iştirak edir. Uşaqlar oyunun nəticələrini müzakirə edirlər. Bu, özünü idarə etmək, özünə hörmət

bacarıqlarını inkişaf etdirmək üçün lazımdır. Bəzi oyunlarda nəticələr müəllimlər, kapitan və aparıcılar tərəfindən qiymətləndirilir.

Oyunun istənilən halda istifadəsi yaradıcılıqla əlaqələndirilməlidir: bu oyunda uşaqlar üçün nəyin faydalı olması, onları son dərəcə maraqlandırması həll olunmalıdır. Müəllim həmin sinif şagirdlərinin hazırlığını nəzərə alaraq oyunun şərtlərini dəyişə bilər, tapşırığı asanlaşdıra və ya çətinləşdirə bilər.

Oyunların müəyyən növlərini qarşılaşdırarkən onların müqayisəli təsvirini vermək lazımdır, çünki ümumi və fərqli, bəzən sərbəst oyunların bir-birindən fərqləndirmədən bir növ oyun digər növ oyunla eyniləşir; ümumi əlamətlər, fərqlər silinir, bu və ya növlərə xas olan xüsusiyyətlər fərqlənmir. Oyun tez-tez çalışmalarla, məşğələlərlə əvəz olunur ki, onların əsasında tapşırıqlar və onların yerinə yetirilməsi durur.

Başqalarından daha çox süjet-rollu və didaktik oyunlar eyniləşdirilir. Süjet-rollu oyunlarda, onların idarə olunmasında, bəzən həddindən artıq didaktizm, bəzən də birbaşa rəhbərlik vasitəsilə uşaqlara öyrətmək arzusu təqdim olunur. Uşaqların diqqəti yalnız onların mənimsənilməsi lazım olan şeylərə yönəldilir; oyun fəaliyyətlərinin "bərabərləşməsi" baş verir, oyinda nəzərdə tutulan qaydaların yerinə yetirilməsinə dair tələblər artır, oyunun nəticəsi təhlil edilir: nəyin yerinə yetirilib-yetirilməməsi, uşaqların nəyi mənimsədikləri, öyrəndikləri şeylər

[5, s. 700]

Didaktik oyunda, öz növbəsində, bəzən həddindən artıq süjetlilik və əyləncə tətbiq olunur, didaktik oyunun əsaslarını isə oyun fəaliyyətinin və məlumatların maraqlı mənimsənməsinin qarşılıqlı üzvi birləşməsi təşkil edir. Didaktik oyun uşaqların ətraf mühit haqqında fikirlərini genişləndirmək, dərinləşdirmək, sistemləşdirmək, idraki maraqların tərbiyə etmək, bilik qabiliyyətlərini inkişaf etdirməyi nəzərdə tutan idrak oyunudur.

Süjet-rollu oyununun xüsusiyyətləri ondan ibarətdir ki, burada aydın şəkildə özfəaliyyət xarakter meydana çıxır: uşaqların öz təşəbbüsləri ilə oyun yaradır və orada yaşayırlar.

Uşaqların oyun fəaliyyətinin yaradıcı xarakteri süjet oyununda onunla təzahür olunur ki, uşaq təsvir etdiyi bir kimsəyə çevrilir, öz həyatını yaradır və oyun zamanı həqiqətən sevinir və ya kədərlənir.

Uşaqlar oyundan əvvəl və ya oyun prosesində qaydaları müəyyənləşdirirlər. Bu qaydalar süjetin məzmunu, onun inkişafı ilə şərtlənir, onlar süjetə sabitlik verir, onun pozulmalarını və ya oyunçuların davranış pozuntularının qarşısını alır.

Süjet-rollu oyununun idarə edilməsi müəllimin həyata keçirdiyi ümumi və ya xüsusi tapşırıqlar və oyunda uşaqların həyatı ilə şərtlənir. Lakin süjet-rollu oyun birbaşa rəhbərliyə imkan vermir. Pedaqoqun oyunda nə ilə və necə oynamağı göstərməyi onda olan qiymətli hər şeyi – oyun fəaliyyətinin həvəskar yaradıcılığı məhv edir.

Oyun və təlimin arasındakı qarşılıqlı əlaqənin aydınlaşdırılmasına məktəblilərin inkişafı və tərbiyəsində təlimin, onun məzmununun, xarakterinin və rolu haqqında problemin dərindən öyrənilməsi kömək etmişdir. Ümumi təhsil sistemində didaktik oyun sinifdə təlimlə birlikdə müstəqillik qazanır və mövcud olur. Onun yeri didaktik forma və təlim vasitələrinin müxtəlifliyindən istifadə edərək, müəllimin ona verdiyi rolla müəyyən edilir [3, s. 340].

Didaktik oyun mürəkkəb bir fenomendir, amma onda struktur, yəni oyunu təlimin forması və oyun fəaliyyəti kimi xarakterizə edən əsas elementlər açıq şəkildə görsənir. Oyunun əsas elementlərindən biri təlim-tərbiyə təsirinin məqsədi ilə təyin olunan didaktik tapşırıqdır.

Didaktik vəzifə və ya bir neçə vəzifənin olması oyunun öyrənmə xarakterini, tədris məzmununun uşaqların bilik fəaliyyəti prosesinə yönəldilməsini vurğulayır. Didaktik tapşırıq müəllim tərəfindən müəyyən edilir və onun tədris fəaliyyətini əks etdirir.

Oyunun struktur elementi oyun fəaliyyətində uşaqlar tərəfindən həyata keçirilən oyun vəzifəsidir. İki vəzifə - didaktik və əyləncəli – təlim və oyun arasında əlaqəni əks etdirir. Didaktik oyunda dərslərdə didaktik vəzifənin birbaşa qurulmasından fərqli olaraq o, oyun vəzifəsi ilə həyata keçirilir, oyun fəaliyyətinin müəyyənləşdirir, uşağın vəzifəsinə çevrilir, istəkləri və onu həll etmək tələbatını artırır, oyun fəaliyyətini aktivləşdirir.

Didaktik tapşırıq oyun vəzifəsi, oyun fəaliyyətlərinin həyata keçirilməsi yolu ilə oyun boyunca həyata keçirilir, onun həlli nəticəsi isə finalda açıqlanır. Yalnız bu şəraitdə didaktik oyun təlim funksiyasını yerinə yetirə və eyni zamanda oyun fəaliyyəti kimi inkişaf edə bilər.

Oyun fəaliyyətləri didaktik oyunun əsasını təşkil edir – onsuz oyunun özü mümkün deyil. Onlar sanki oyun süjetinin rəsminə bənzəyir. Oyun fəaliyyətləri nə

qədər rəngarəng və məzmunludursa, oyunun özü şagirdlər üçün daha maraqlıdır və idraki və oyun vəzifələri daha uğurla həll olunur. Oyun hərəkətləri bəzən reallıqla eyni deyildir: onlar real hadisələri və real fəaliyyətləri əks etdirdikdə belə, onların yalnız xarici tərəfini ortaya çıxarır. Uşaqlara oyun fəaliyyətlərini öyrətmək lazımdır. Yalnız bu şəraitdə oyun təlim xarakteri daşıyır və məzmunlu olur.

Oyun fəaliyyətləri heç də həmişə praktiki xarici fəaliyyət deyildir, nəyisə diqqətlə nəzərdən keçirmək, müqayisə etmək, araşdırmaq və s. zəruri olduqda, bu, məqsədyönlü qavrayış, müşahidə, müqayisə, əvvəlcədən mənimsənilmiş xatırlama proseslərində ifadə olunan mürəkkəb idraki fəaliyyətlər – təfəkkür proseslərində ifadə olunan idraki fəaliyyətlərdir. Fərqli oyunlarda oyun fəaliyyətləri onların istiqamətinə və oyunçulara olan münasibətə görə fərqlənir.

Bütün uşaqların iştirak etdikləri və eyni rolları oynadıqları oyunlarda oyun fəaliyyətləri hər kəs üçün eynidır. Oyunda uşaqlar qruplara bölündükdə oyun fəaliyyətləri fərqlidir. Məsələn, mağaza oyununda alıcının oyun fəaliyyətləri satıcıdan fərqlənir; tapmacalar və onların tapılması ilə bağlı oyunlarda tapmacaları deyən və onları tapan uşaqlarda oyun fəaliyyətləri müxtəlifdir.

Oyun fəaliyyətləri hər hansı sistemdə ardıcıllıqla bir-birini mütləq təqib etmir: onlar oyunun inkişafı və idraki məzmunun mənimsənilməsi prosesində fərqli şəkildə bir-biri ilə qarşılıqlı əlaqədə olur, birləşir, bəziləri digərləri tərəfindən dəstəklənir.

Didaktik oyunun tərkib elementlərindən biri oyunun qaydalarıdır. Onların məzmunu və istiqaməti uşağın şəxsiyyəti və uşaqların kollektivinin formalaşdırılması, bilik məzmunu, oyun vəzifələri və oyunun inkişafında və zənginləşməsində onun fəaliyyətləri ilə şərtlənir. Qaydalar uşaqların qarşılıqlı münasibətləri, onların davranış normalarına riayət edilməsi üçün mənəvi tələbləri nəzərdə tutulur. Didaktik oyunda qaydalar verilmiş hesab olunur. Qaydaları istifadə edərək, müəllim oyuna, idraki fəaliyyət prosesləri, uşaqların davranışına nəzarət edir.

Oyunun qaydaları öyrədici, təşkilati, intizamlı xarakter daşıyır və çox halda onlar müxtəlif yollarla birləşdirilir. Oyun zamanı qaydalara riayət edilməsi səyləri göstərmək, oyunda və oyun xaricində ünsiyyət yollarını mənimsəmək və təkcə bilikləri deyil, həm də müxtəlif duyğuları yaratmaq, xoş emosiyaların toplamaq və ənənələri mənimsəməyə ehtiyac duyur.

Oyun qaydalarının hər zaman birbaşa təlimat şəklində təqdim olunmadığını nəzərə almalıyıq: onların bir çoxu oyun fəaliyyətlərinə daxil olur və oyun fəaliyyətinə yönəldilərkən, onların inkişafını istiqamətləndirən tənzimləyici rolu oynaya bilər.

Didaktik oyun uşaqların müxtəlif fəaliyyət kompleksindən ibarətdir: düşüncə, duyğu, həyəcan yaşama, başqasının dərdinə şərik olma, oyun probleminin həlli üçün aktiv yolların axtarışı, oyunun şərtlərinə və vəziyyətinə tabe olma, uşaqların oyuna olan münasibəti. Didaktik oyunun bütün struktur elementləri bir-birinə bağlıdır və onların əsaslarından birinin olmaması oyunu məhv edir. Oyun fəaliyyətlərinin oyun vəzifəsi, oyunu təşkil edən oyun qaydaları olmadan didaktik oyun mümkün deyil. O, öz xüsusiyyətlərini itirir, təhsil və tərbiyə məqsədlərinə çata bilmir.

Kurikulum tələblərini, didaktik oyunun xüsusiyyətlərini bilərək, uşaqların marağını nəzərə alaraq, oyunun idarəetmə məharətinə malik olaraq, müəllim uşaqlara tanış olan oyunların variantlarını inkişaf etdirir və yaradıcı surətdə yeni faydalı və maraqlı oyunlar yaradır [2, s. 38].

Didaktik oyunu oyun fəaliyyətinin xüsusi bir növü və təlim vasitəsi kimi yüksək qiymətləndirilir.

Didaktik oyunların dərslərdə istifadəsi xarici dilinin ünsiyyət vasitəsi olaraq mənimsənilməsinə kömək edir. Didaktik oyun ilkin mərhələdə təlim, elementar bilik ünsiyyəti, müəyyən bacarıq və vərdişlərin təkmilləşdirilməsinin zəruri üsul və formasıdır. Didaktik oyunların köməyi ilə yeni material tədqiq edilir, təkrarlanır və möhkəmlənir, təcrübədə istifadə olunur. Didaktik oyun məktəblilərin diqqəti, müşahidə, yaddaş, düşüncə inkişafı, müstəqilliyin təzahürü, təşəbbüsün formalaşmasına kömək edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Hüseynzadə G. Xarici dillərin tədrisində islahatlarm tətbiqi: Müəllimyönümlü tədrisdən tələbəyönümlü tədrisə keçid / Elm ilinə həsr olunmuş xarici dillərin tədrisinin aktual problemləri II Respublika elmi konfransının materialları. Bakı: ADU nəşriyyatı, 2009, s. 220-226

2. İxtisas və tərcümə fakültələrində alman dilinin şifahi və yazılı nitq praktikası fənni üzrə tədris kurikulumı / B.S.Həsənovun redaktəsi ilə. Bakı, 2005, 38 s.

3. Kazımov N.H. Ali məktəb pedaqogikası. Bakı: Nicat, 1999, 340 s.

4. Qazıyeva M. Xarici dilin tədrisində nitq ünsiyyəti üçün vacib olan psixoloji xüsusiyyətlər / Xarici dillərin tədrisinin aktual problemləri III Respublika elmi konfransının materialları. Bakı: ADU Nəşriyyatı, 2010, s. 191-195.

5. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya (yaş və pedaqoji psixologiya məsələləri). Bakı: Nurlan, 2007, 700 s.

Huseynova Nilufar Maarif gizi

SUMMARY

The purpose of didactic games and game activities used in the teaching of foreign languages.

Keywords: elements of the game, didactic task, game activity, game plot

An in-depth study of the problem of learning, its content, nature and role in the development and education of students helped to clarify the relationship between play and learning. In the general education system, didactic games acquire independence and exist along with classroom instruction. His place is determined by the role given to him by the teacher, who uses a variety of didactic forms and teaching aids.

Didactic play is a complex phenomenon, but it clearly shows the structure, the main elements that characterize the game as a form of learning and game activity. One of the main elements of the game is a didactic task for the purpose of educational effect.

The presence of a didactic task or several tasks emphasizes the learning nature of the game, the orientation of the educational content to the process of children's cognitive activity. The didactic task is determined by the teacher and reflects his teaching activities.

Game activities form the basis of the didactic game - without it the game itself is impossible. They look like a drawing of a game plot. The more colorful and meaningful the game activities, the more interesting the game itself is for the students and the more successfully the cognitive and game tasks are solved. Game actions are sometimes not the same as reality: even when they reflect real events and real activities, they reveal only their outer side. Children must be taught play activities. Only in this case, the game is training and meaningful.

Гусейнова Нилуфар Маариф гызы

РЕЗЮМЕ

ЦЕЛЬ ДИДАКТИЧЕСКИХ ИГР И ИГРОВЫХ ЗАНЯТИЙ ИСПОЛЬЗУЮТСЯ ПРИ ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ.

Углубленное изучение проблемы обучения, ее содержания, характера и роли в развитии и обучении учащихся помогло прояснить взаимосвязь между игрой и обучением. В системе общего образования дидактические игры обретают самостоятельность и существуют наряду с обучением в классе. Его место определяется ролью, учителем, который использует различные дидактические формы и учебные пособия.

Дидактическая игра - сложное явление, но в ней четко видна структура, основные элементы, характеризующие игру как форму обучения и игровой деятельности. Одним из основных элементов игры является дидактическое задание с целью воспитательного воздействия.

Наличие дидактического задания или нескольких заданий подчеркивает обучающий характер игры, направленность учебного содержания на процесс познавательной деятельности детей. Дидактическая задача определяется учителем и отражает его педагогическую деятельность.

Игровые действия составляют основу дидактической игры - без нее невозможна сама игра. Они похожи на рисунок игрового сюжета. Чем красочнее и содержательнее игровые задания, тем интереснее для учащихся сама игра и тем успешнее решаются познавательные и игровые задачи. Игровые действия иногда не совпадают с реальностью: даже когда они отражают реальные события и реальные действия, они раскрывают только их внешнюю сторону. Детей нужно учить игровой деятельности. Только в этом случае игра получается обучающей и содержательной.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Pedaqogika elmləri doktoru, professor **Aida ŞAHBAZOVA**
tərəfindən çapa tövsiyə olunmuşdur

HƏSƏNOVA FİRUZƏ
Lənkəran Dövlət Universiteti
salamlarazercelll@gmail.com

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN X-XI SİNİFLƏRİNİN AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ TƏTBİQİ DİLÇİLİK MƏSƏLƏLƏRİNİN TƏDRİSİ

Xülasə

Tətbiqi dilçiliyin tədrisi orta məktəbdə ən vacib mövzulardan biridir. Çünki tələbələr şagirdlər dilimizin orfoqrafiyasını, orfoepiyasını, yazı mədəniyyətini, ədəbi dilini mükəmməl bilməlidirlər. Buradakı işlərin çoxu müəllimin üzərinə düşür. Bu imkanların yaradılması və inkişaf etdirmək üçün Azərbaycan dilinin imkanları digər fənlərdən daha genişdir. Bunun üçün xüsusi çalışmalardan istifadə edilməlidir. Şagird ədəbi dili bilirsə, leksik, qrammatik, orfoqrafiya, orfoepik normalara əməl edir. Bu işlər tələbələrin tələffüz və yazı mədəniyyətini təsir edir. Eyni zamanda, bu tədqiqatlar yaradıcı düşüncənin formalaşmasında mühüm rol oynayır. Tətbiqi dilçiliyin tədrisində səs və video istifadə olunmalıdır. Bu səs və video, tələbələrin nitq mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Azərbaycan dili dərslərinin əsas vəzifəsi savadlı yazı və düzgün nitqə sahib olmaqdır. Bu istiqamətdə işləyərkən müəllimlərimiz şagirdin yazdığı hər sözə və cümləyə diqqət yetirməlidir. Lazım gələrsə qiymətdən 1 bal çıxılmalıdır. Çünki şagirdlərin təlim və tərbiyəsi, düşüncəsinin inkişafı, şəxsiyyətin formalaşması ana dilini necə öyrənmələrindən asılıdır. Buna görə ana dilinin saflığını qorumaq, körpəlikdən uşaqlara öyrətmək lazımdır. Orta məktəblərdə ana dili təhsilinin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqdır. Bunun üçün əlimizdən gələni etməliyik.

Açar sözlər: yazı, orfoepiya, orfoepiya, ədəbi dil, üslubiyyat

Məlumdur ki, həyatımızda dil çox mühüm rola malikdir. İnsanlar arasında dilin əhəmiyyəti çox böyükdür. Milliyətindən asılı olmayaraq, dil hər bir kəsin mənimsədiyi varlıqdır. Bu baxımdan, son yüzilliklərdə dilçilikdə dilin elmi cəhətdən öyrənilməsinin üsul və metodları daha da genişlənmiş, yeni-yeni istiqamətlər formalaşmışdır.

Ümumtəhsil məktəblərinin X-XI siniflərinin Azərbaycan dili təlimində yazı, orfoqrafiya, orfoepiya, nitq mədəniyyəti kimi tətbiqi dilçilik şöbələrinin tədrisinə xüsusi yer verilir.

Yazı görmə vasitəsilə dərk edilib, fikrin ifadə olunmasında əsas ünsiyyət vasitəsinə - dilə yardımçı olan işarələr sisteminə yazı deyilir. Yazı insanın cəmiyyətdə xüsusisilə bu günə qədər ucalmasında mühüm əhəmiyyət kəsb edir. Yazı şagirdlərin duyğu və düşüncələrin dil normalarına uyğun olaraq nəqli, təsviri mühakimə xarakterli rabitəli mətnlər formasında ifadəsini tapır. Son tədqiqata

əsasən, yazının 4 növü müəyyənləşmişdir: a) şəkli (piktoqrafik) yazı; b) fikri (ideoqrafik) yazı; c) heca (silloqrafik) yazı; ç) səs (fonoqrafik) yazı. [5, 138]

Piktoqrafik yazı şəkillər vasitəsilə ifadə olunur. Piktoqrafik yazıların əhatə dairəsi o qədər də geniş olmamışdır. Əsasən, ov səhnələri, vuruş hadisələri və daha sonra mücərrəd anlayışları ifadə etməyə başlayıblar. Məsələn, müharibə sözü üçün ox şəklini çəkiblər. Nitqdəki sözlərin şəkillərlə deyil, ideoqramlarla əks olunmasına isə ideoqrafik və ya şəkilli yazı deyilir. İdeoqrafik yazı sistemində hər bir işarə bütöv bir sözü, yaxud sözün mənalı hissəsini bildirir. İdeoqrafik yazı şəkli yazı içərisində çox tədricən əmələ gəlmişdir. Bu yazı iki səbəbə görə yaranmışdır. Şəkli yazı inkişaf edərək, artıq əşyaların özünü əks etdirə bilməmişdir, onun ancaq şərti işarələrinə, yəni simvollarına çevrilmişdir. Məsələn, "günəş" anlayışını bildirmək üçün çinlilər piktoqrafik yazıda günəş şəkli çəkdilərsə, sonrakı yazılarında bunun əvəzinə "günəş oxşayan" yazılarında bunun əvəzinə "günəş oxşayan" heroqlif çəkmişlər. İkincisi təfəkkürün inkişaf ilə əlaqədar olaraq bu və ya başqa mücərrəd anlayışı piktoqramlarla vermək olmadığı üçün yazıya işarələr artırılmışdır. Bundan fərqli olaraq, heca (silloqrafik) yazıda şərti işarələr bütöv hecaları göstərirdi ki, bu da elmi ədəbiyyatda heca və yaxud da silloqrafik yazı adlanır. Bu yaz sistemi insanların sözləri hecaya bölməsi bacardıqları dövrdən formalaşmağa başlayıb. Silloqrafik yazı mənşəyinə görə fikri və ideoqrafik yazıdan meydana gəlmişdir. Hal-hazırda heca yazısından Yaponiyada istifadə edilir ki, bu yazı növünün də ən mənfi cəhəti kimi işarələrin çox olması göstərilir. [5, 139] Şərti işarələrlə dilin səslərini əks etdirən yazı növünə isə hərfli, yaxud fonoqrafik yazı deyilir. Yazının başqa tiplərindən fərqli olaraq, hərfli yazıda dilin bu və ya digər səsi, əsasən, qrafiklərlə, yəni hərflərlə əks olunur. Bu yazı sistemində hərflərlə yanaşı, digər işarələrdən, o cümlədən, orfqrafik işarələrdən də istifadə edirlər.

Dilçilikdə yazı tarixinin öyrənilməsi məsələsi də diqqətdən kənarda qalmamış, bu istiqamətdə mütəxəssislər tərəfindən müxtəlif axtarışlar aparılmışdır. Afad Qurbanovun qeyd etdiyi kimi, yazı tarixi məsələsi Azərbaycan dilçiliyinin zəruri problemlərindən biridir. Gözəl xəttə yiyələnmək, orfoqrafiya qaydalarını gözləmək şagirdlərin təlim və tərbiyəsinə təsir göstərir. Gözəl xətti olmayan şagirdin yazısında xeyli orfoqrafik səhvlər olur. Çünki belə şagirdlər təlim prosesində yazıya şüurlu münasibət bəsləyirlər. Yazı üzrə vərdişlərə məktəbdə yiyələnib, vərdişə çevrirlər. Yazı dedikdə, şagirdin üzdən köçürməyi, inşa üzərində köçürməsi, imla yazması nəzərdə tutur. Yazı çətin və mürəkkəb bir prosesdir. Ondan düzgün və dəqiq istifadə üçün şagird ilk növbədə hərflərin qrafik konfiqurasiyasını vermək, ikinci növbədə sözləri orfoqrafik cəhətdən düzgün yazmaq, üçüncü növbədə isə öz fikrini doğru ifadə etməkdir. Əyanilik üçün bir dərs nümunəsinə nəzər salaq:

10-cu sinif

Mövzu: "Arzum jurnalist olmaq idi." Orfoqrafiyanı, yəni düzgün yazılışı müəyyən etmək.

2.2.3. Sözün düzgün yazılışı öyrənilir.

2.1.2 .Kontekstdən çıxış edərək, sözün düzgün yazılışını müəyyənləşdirmək.
1.1.2. Mətndəki əsas standartlara aid sualları cavablandırmaq.
Təlimin məqsədi: Sözün düzgün yazılışını müəyyən etmək.
Dərsin tipi: induktiv (yeni bilik verən dərs)
İş forması: kollektiv və fərdi iş
İş üsulu: beyin həmləsi, müzakirə
İnteqrasiya: Ədəbiyyat
Resurslar: İKT, şəkillər, iş vərəqləri
Dərsin gedişi:

Motivasiya: Motivasiya üçün aşağıdakı cümlədən istifadə edirəm: Tarix elmləri doktoru Fərid Əkbərli son dövrlərdə Vatikan (Məxfi, Məxfi) Arxivində apardığı araşdırmalarla , Azərbaycanın tarixi və mədəniyyəti üçün önəmli olan sənədlərin və əlyazmaların tədqiqi sahəsinndəki tədqiqi ilə diqqət mərkəzindədir.

Tədqiqat sualı: Tədqiqat sualını verilmiş mətnin məzmunundan çıxaraq şagirdlərə təqdim edirəm: "Arzum jurnalist olmaq idi" mətnində sözlərin düzgün yazılışını necə müəyyən etmək olar?

Tədqiqatın aparılması: Dərsin bu mərhələsində hər şagirdə iş vərəqi verirəm və onlar mətndə sözün düzgün yazılışı haqqında yazırlar.

Məlumat mübadiləsi və müzakirəsi: Dərsin bu mərhələsində şagirdlər tapşırıqlarını təqdim edirlər, daha sonra yoxlayıb, şagirdləri qiymətləndirirəm.

Sonra isə kollektivlə işimi davam etdirirəm.

Sözün düzgün yazılışı ilə bağlı çalışmalar verir və müzakirlər aparıram.

Töhvə, yoxsa töhfə

Magistratıra, yoxsa magistratura

Muxbir, yox müxbir.

Nəticə: Sözün düzgün yazılışını müəyyən etmək, hər bir sözün yazılışını dəqiqliklə öyrənmək, bununla bağlı orfoepiyaya lüğətlərdən istifadə etmək.

Ev tapşırığı: Bitişik və ayrı yazılan sözləri seçib yazmaq.

Qiymətləndirilmə: Hər bir şagirdin cavabına uyğun olaraq qiymətləndirməni aparıram.

Məlum olduğu kimi, orfoqrafiya əlifba ilə çox bağlıdır. Ona görə də əlifba dəyişdikcə orfoqrafiyada da müəyyən dəyişikliklər aparılır. Bu baxımdan, ümumtəhsil məktəblərində Azərbaycan dili tədrisi qarşısında duran məsələlərdən birini də orfoqrafiya məsələləri təşkil edir. Orfoqrafiya dövlət standartlarına daxil olan, dövlətin nəzarəti altında olan mühüm qaydalardır. Məktəb təcrübəsinə əsaslanaraq deyə bilərik ki, orfoqrafik səhvlərin yaranmasını həm obyektiv, həm də fərdi-subyektiv amillərlə əlaqələndirmək olar. Ümumi və obyektiv səbəblər kimi son dövrlərdə orfoqrafiya lüğətində bəzi sözlərin orfoqrafik qaydalarında aparılmış dəyişıklikləri (məs.: fel-feil, metafora-metafor və s.), orfoqrafiya qaydalarının həddən artıq çox olması və nəticə etibarı ilə bu qaydaların şagirdlərin yadda saxlanmasına maneyə yaratması və s. Bunnla belə, orfoqrafiya mane olan bəzi fərdi-

subyektiv səbəblər də vardır ki, buraya işin ardıcıl eyni qayda da aparılmaması, vahid metodlardan istifadə edilməməsi, bir sıra psixoloji halların nəzərə alınmaması, orfoqrafiya təlimində işlərin yoruculuğu və s. amilləri daxil etmək olar. [2, 229]

Şagirdlərin dərk etməsinə görə çalışmalar 3 qrupa bölünür: analitik, sintetik, analitik-sintetik. Orfoqrafiya təlimi zamanı müxtəlif növ çalışmalardan istifadə olunur. Məsələn: *Üzdənköçürmə yazılar*. Üzdənköçürmə yazının hamı üçün anlaşılan asan növüdür. Hərfləri tam şəkildə dərk edib, sərbəst formada yazmağı bacaran şagird üzdən köçürməyə hazır olur. *Əzbər* yazı. Bu, şagirdin zehnində köçürülür, yəni şagird öz-özünə mətni diktə etməklə əzbərləyib. Əzbər yazı öncədən şagirdlər tərəfindən oyrənilsə də, müəllim tərəfindən çətin orfoqramların yazılması ilə bağlı xəbərdarlıq edilməlidir. *Seçmə imla*. Müəllim tərəfindən diktə olunur, daha sonra müəllimin seçdiyi sözlər şagird tərəfindən dəftərə yazılır. Müqayisə üçün: müəllim "sifətin azaltma dərəcəsini və ya ümumi isimləri seçib yazın" tapşırığı verməklə mətni diktə edə bilər. *Özümü yoxlayıam*. Bu tipli imlada şagirdlər öz yazılarına diqqət edir, tənqidi yanaşa bilirlər. Bu da şagirdlərin elmi-intellektual təfəkkürünün formalaşmasında mühüm rol oynayır. [2, 254]

Ümumtəhsil məktəblərinin X-XI siniflərində orfoepiya məsələlərinin tədrisinə də mühüm yer verilir. Hər bir ədəbi dil, danışıq dilindən fərqli olaraq, normalaşmış dildir. Müxtəlif normalara malik olmaq ədəbi dili xarakterizə edən başlıca əlamətlərdən hesab olunur. Bu mənada, orfoepiyanın böyük əhəmiyyəti vardır. Orfoepiya eyni sözün müxtəlif formalarda tələffüz olunmasına yol vermir. Düzgün tələffüz olunan dil vasitələri hər zaman fikrin asan və tez anlaşılmasına imkan yaradır. Bunun əsasında da insanlar bir-birini düzgün başa düşür. Şifahi ədəbi dil üçün xarakterik olan əlamətlər, qaydalar çoxdur. Bu sıraya – a) ayrı-ayrı səslərin və səs tərkiblərinin tələffüzü; b) söz və ifadələrin tələffüzü; c) qrammatik formaların tələffüzü aid edilir.

Müəllimi tədris zamanı, sinifdən kənar ünsiyyətdə nitq fasiləsi, intonasiya, cümlələrin ritmik bölgüsünə diqqət etməli, onların şifahi nitqdəki mühüm rolunu unutmamalıdır. Hər bir kəsdən ədəbi dildə, onun bütün qanunlarına riayət olunmaqla danışması tələb olunur. Bunun üçün də, ilk növbədə müəllim, alim, diktor, ümumiyyətlə hər kəs dilimizin tələffüz qaydalarını əsaslı şəkildə bilməlidir. Orfoepik qaydaların heç kəs tərəfindən pozulmasına yol verilmir. Bu qaydalar hamı üçün vahid və məcburidir. Lakin bəzən danışıq zamanı orfoepik normaların pozulması halları müşahidə olunur ki, bu da bir neçə səbəblə izah oluna bilər: 1. Danışanın şivə tələffüzünün təsiri ilə; 2. Klassik ədəbi dilin təsirinin nəticəsi kimi; 3. Orfoqrafiyanın təsiri nəticəsi kimi.

Orfoepiya ilə orfoqrafiya arasında həm fərq, həm də möhkəm əlaqə vardır. Orfoqrafiya sözlərin düzgün yazılışını, orfoepiya isə düzgün tələffüz olunmasını tələb edir. Buna görə də düzgün yazmaq üçün düzgün danışmağı, düzgün tələffüz etməyi bacarmaq lazımdır. Orfoepiya ilə orfoqrafiyanın fərqi ondan ibarətdir ki, dildəki söz və ifadələr heç də həmişə yazıldığı kimi tələffüz olunmur. Bu xüsusda,

həm orfoqrafiya, həm də orfoepiyanın müəyyən normalara əsalanması şagirdlərin diqqətinə çatdırılmalıdır. [5, 120] Qeyd olunmalıdır ki, nitqdə norma tənzimləyici, nizamlayıcı funksiyasını yerinə yetirir, nisbi sabitliyi yaradır. Ədəbi dilin normaları mütləq deyil, dəyişkəndir və müəyyən tarixi şəraitdən asılı olaraq bu və ya digər dərəcədə dəyişikliyə uğrayır bilir. Bu hal özünü dilin orfoqrafik və leksik normalarında daha çox göstərir.

Beləliklə, dilçiliyin nəzəri sahələri yalnız mütəxəssislərin maraq dairəsində olduğu halda, dilin təcrübi məsələlərini bilmək və ona riayət etmək peşəsindən asılı olmayaraq hamı üçün vacibdir. Bu, dil dərslərinin tədrisi zamanı tətbiqi dilçilik problemlərinin öyrədilməsinə xüsusi həssaslıqla yanaşılmasının vacibliyini bir daha təsdiq edir.

Ədəbiyyat:

1.Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2003.
2.Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014.
3.Əkbərov Ə. Müasir Azərbaycan dilinin üslubiyyatı. Bakı,2016.
4.Kərimov Y. Ana dilinin tədrisi metodikası**.** Bakı, 2011.
5.Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I c., Bakı, 2019.
6.Seyidəliyev N. Afad Qurbanov və ümumi dilçilik. Bakı, 2019.

Гасанова Фируза

ОБУЧЕНИЕ ПРИКЛАДНЫМ ЯЗЫКАМ НА АЗЕРБАЙДЖАНСКИХ ЯЗЫКОВЫХ КЛАССАХ X-XI КЛАССОВ СРЕДНЕЙ ШКОЛЫ

РЕЗЮМЕ

Преподавание”Прикладного языковедение считается одним из главных задач в средней школе”Потому, что ученики должны в совершенстве знать орфографию,орфоепию, культуры речи и письменности,в том числе и литературный Азербайджанский язык.В этом большоя ответственность падает на плечи учителья.Так как возможность Азербайджанского языка по сравнению с другими предметами боли обширны.для этого нужно использовать разные упражнения.Если ученики будет знать литературный язык то будут соблюдать орфографические, орфоепические лексические и грамматические нормы.Эти упражнения со стороны учеников влияют на культуру письменности.В том числе эти упражнения играют большую роль в развитии творческого мышления.В изучение, прикладного языковедения используются аудио и видео материалы.Эти аудио и видео материалы играют важную роль в развитии Азербайджанского языка. Это имеет способности грамотно писать и излогать свои мысли.Во время работы в этом направлении

учитель должен следить за каждым словом и приложением ученики, если есть необходимость срезать один балл Потому, что суть процесса воспитания и обучения ученика, развития его творческого мышления и формирование его личности зависит от того как ученик изучает свой радной язык.По этому надо беречь чистоту речи и научить язык.Цель обучения родного языка в общеобразовательных школах состоит в том, чтобы формировать умение владения общей речи.Для этого мы должны сделать все ,что в наших руках.

Ключевые слова: письмо, орфография, орфоепия, литературный язык, стилистика

Hasanova Firuza

TEACHING APPLIED LANGUAGE ISSUES IN AZERBAIJANI LANGUAGE CLASSES OF X-XI GRADES OF SECONDARY SCHOOLS

SUMMARY

Teaching applied linguistics is one of the most important topics in high school. Because students must know the spelling, orthoepy, writing culture, literary language of our language perfectly. Most of the work here falls on the teacher. In order to create and develop these spellings, the possibilities of the Azerbaijani language are wider than in other subjects. Special efforts should be used for this. If the student knows the literary language, he follows the lexical, grammatical, orthographic, orthoepic norms. These studies affect students' pronunciation and writing culture. At the same time, these studies play an important role in the formation of creative thinking. Audio and video should be used in teaching applied linguistics. These audio and video plays an important role in the formation of students' speech culture.The main task of Azerbaijani language lessons is to have literate writing and correct speech. When working in this direction, our teachers must pay attention to every word and sentence written by the student. If necessary, it should be deducted 1 point from the price. Because the essence of training and education of students, the development of thinking, the formation of personality depends on how they learn their native language. Therefore, it is necessary to preserve the purity of the mother tongue, to teach it to children from infancy. The purpose of mother tongue education in secondary schools is to form general speech and language skills. We must do our best for this.

Key words: writing, spelling, orthoepy, literary language, stylistics

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Elman Mirzəyev tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRGİZ RƏCƏBOVA
Bakı Dövlət Universiteti
nargizracabova@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ "HƏYAT" KONSEPTİ VƏ ONUN MİKROKONSEPTLƏRİ

XÜLASƏ

Koqnitiv dilçiliyin əsas anlayışlarından biri də dünyanın dil mənzərəsi anlayışıdır. Hər bir xalqın dünya mənzərəsi özünəməxsus mental modellər şəklində təfəkkürdə formalaşan "dünyanın dil mənzərəsi" anlayışı özündə dil və mədəniyyət amillərini birləşdirsə də, burada psixoloji tərəf də əhəmiyyət kəsb edir. Hər bir xalqın sosial stereotipləri, ədəbiyyatı, folkloru, tarixi təcrübəsi, dini baxışları, etnopsixologiyası, incəsənət və liqvokulturologiyası onan məxsus olan konseptsferi formalaşdırır. Konseptsfer isə vahidləri konseptlərdən ibarət olan koqnitiv dilçiliyə aid əsas anlayışlardan biridir. Koqnitiv dilçilik sərhədlərində "dünyanın dil mənzərəsi" və "konseptsfer" terminləri paralel şəkildə işlənsə də, bunların mahiyyətini eyniləşdirmək olmaz, "dünyanın dil mənzərəsi" hər bir xalqın ümumi dünya haqqında biliklərinin məcmusu, "konseptsfer" isə bu biliklərin siniflər şəklində qruplaşdırılmış konseptlər toplusudur.

Konsept koqnitiv dilçiliyin əsas sahələrindən, dilçiliyin isə müasir, yeni istiqamətlərindən biridir. Konsept modern linqvistikanın aparıcı yönlərindən biridir. Antroposentrik paradiqma əhatəsində formalaşmış bu elmin əsas rolu insan koqnisiya sistemində dilin iştirakını aydınlaşdırmaqdan təşkil olunmuşdur. Konsept nə qədər dildə milli səciyyə daşıyırsa, o qədər də universaldır. Dilçilikdə son zamanlar vacib linqvokoqnitoloji araşdırma obyektlərindən biri də "həyat" konseptidir.

Tədqiqat işində konsept anlayışı və Azərbaycan dilində "həyat" konsepti onun mikrokonseptləri (mənəvi-əxlaqi mikrokonseptual aspekt, fəlsəfi mikrokonseptual aspekt, sosial mikrokonseptual aspekt, psixoloji mikrokonseptual aspekt) araşdırılmışdır. Eyni zamanda, həyat freyminin izahına nəzər yetirilmişdir.

Açar sözlər: həyat konsepti, mikrokonseptlər, koqnitiv dilçilik

Müasir koqnitiv dilçiliyin daha çox öz aktuallığı ilə seçilən vahidi konseptdir. Dilimizdə mövcud olan, insanın dünya haqqındakı milli-mənəvi təsəvvürlərini özündə ehtiva edən əqli mahiyyətlər - konseptlərdir. Müasir linqvokoqnitoloji tədqiqatların mərkəzi məsələlərindən biri də konsept və söz məhfumlarının qarşılıqlı əlaqəsinin əsas xüsusiyyətlərinin müəyyənləşdirilməsilə bağlıdır. A.P.Babuşkin, Q.Q.Slışkin, S.Q.Vorkaçev və bəzi tədqiqatçıların fikrincə, konseptin əsas xüsusiyyətlərindən biri də hər zaman sözlü ifadə tərzinə malik olmasıdır. Əks halda, konseptin varlığından danışmaq olmaz.

Konseptlərin müxtəlif növləri vardır. Bu təsniflərin tərkib müxtəlifliyi konseptlərin xüsusiyyəti ilə bağlıdır. Linqistikada konseptlərin təsnifi məsələsi də olduqca vacibdir. Konseptləri iki böyük qrupa ayırırlar: universal və milli konseptlər. Universal konseptlər ümumbəşəri biliklər əsasında formalaşmış konseptlərdir. Bu konsept tipləri spesifik mədəni xüsusiyyətləri özündə ehtiva etmir. A.Vejbistskayanın fikrincə, düşüncənin bir dildə təsvir olunması kimi, müəyyən hisslər də bir dildə ifadə oluna bilər, lakin fərq burasındadır ki, eyni bir hissin bütün dillərdə ifadəsi mümkün deyil, bir çox millimədəni amillər burada aparıcı rol oynayır. Müəllif konseptləri ümumi və milli bilikləri özündə ehtiva edənlər və universal konseptlər olmaqla iki növə ayırır.

"Konsept" anlayışı məntiqlə, təfəkkürlə bağlıdır. Konseptin məzmununun təsviri eyni zamanda milli dilin dünyagörüşünün təsviridir. Hər bir xalqın dilinin dünyagörüşü dedikdə, milli dəyərlərdən asılı olan hadisə, proseslər, millətin həyat tərzi, mədəniyyəti, xarakterik xüsusiyyətləri nəzərdə tutulur [7, s.267-279].

Mövcud olan ilkin təsəvvürlər dilin konseptual özülünü təşkil edir. Beyində formalaşan ümumi məsələlər insanın ətraf mühitlə əlaqəsi nəticəsində konseptual zəncirlər əmələ gətirir. Hər bir konsept tamın hissələri kimi meydana gəlir. Hissələr isə daha kiçik hissələr şəklində mikrokonseptlər formalaşdırır.

Azərbaycan dilinin dünya mənzərəsində "həyat" freyminin necə əks olunduğuna nəzər yetirək. Azərbaycan dilinin izahlı lüğətində "həyat" sözünün izahı belə verilir:

1. Materiyanın hərəkətinin müəyyən inkişaf mərhələsində əmələ gələn xüsusi forması; varlıq, dirilik.
2. Ömür.
3. Canlı vücudun törədiyi andan yox olana qədərki dövr (bütöv dövr və ya onun bir hissəsi).
4. İnsanda cismani və mənəvi qüvvələrin təzahürü.
5. Hər hansı bir sahədə yaşayış və inkişafı səciyyələndirən hadisələrin məcmusu.
6. Bizi əhatə edən real varlıq.

"Həyat" konsepti linqvokulturoloji konseptlər silsiləsinə daxildir. "Həyat" konseptinin əsas səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

- "həyat" konsepti universal konseptlərə aiddir. Universallığının əsas əlaməti isə hər bir dünya mənzərəsində, milli konseptsferlərdə bu konseptin bu və ya digər elementlərlə təsvir olunmasıdır;
- digər linqvokulturoloji konseptlər kimi "həyat" konsepti də mental xarakter daşıyır və "həyat" məfhumunu səciyyələndirən elementlərin məcmusudur.
- "həyat" konsepti müxtəlif xarakterli dil elementlərində ifadə olunur (söz, söz birləşmələri, frazeoloji ifadələr, metaforik ifadələr və s.)
- verbal və qeyri-verbal düşüncə şəklində ifadə olunur;
- tərkib elementlərini iki qrupa ayrılır: ümumbəşəri dəyərləri əks etdirənlər, milli səciyyəli elementlər;
- universallıq mahiyyətinə baxmayaraq, hər bir dilin dünya mənzərəsində

özünəməxsus ifadələrlə səciyyələndiyi üçün müxtəlif modellərlə təsvir edilir.

Azərbaycan dilində həyat konseptinin mikrokonseptləri olaraq, mənəvi-əxlaqi mikrokonseptual aspekt, sosial səciyyəli mikrokonseptual aspekt, fəlsəfi mikrokonseptual aspekt və psixoloji mikrokonseptual aspekti göstərə bilərik.

İnsanın ümumi biliklərinin formalaşmasının və mövcudluğunun ən mühüm üsulu dildir. İnsan təkcə dünyanı dərk etmir, həm də onda yaşayır ki, onun dilində təkcə obyektiv gerçəklik əks olunmur, həm də dünyanı dərk edən subyekt öz ifadəsini tapır. Fəaliyyəti prosesində obyektiv aləmi əks etdirəndə insan idrakın nəticələrini sözlərdə ifadə edir. Dünyanın dil mənzərəsi insanın dünyaya, yaşadığı cəmiyyətə münasibətini formalaşdırır.

Bir çox dilçilər konsepti düşüncə vahidi kimi müəyyən ediblər. Onlar mikrokonseptləri dünyaya baxışları, fikirləri müəyyənləşdirən, reallığı əks etdirən obyekt kimi təqdim edirdilər. Konsept öz məzmunu, mənası olan hər hansı düşüncə obyekti, mürəkkəb düşüncə obrazı, ünsiyyət prosesində isə müxtəlif danışıq vasitələri ilə qloballaşan düşüncə vahididir. Konseptlər də özlüyündə mikrokonseptləri (milli, qrup və fərdi) cəmləşdirir. “Həyat” konsepti Azərbaycan dilində söz, söz birləşmələri, frazeoloji və metaforik ifadələr kimi müxtəlif xarakterli dil elementlərində ifadə olunur: *həyat keçirmək, həyat vermək, həyat yoldaşı, mənəvi həyat, sosial həyat, həyat eşqi, həyat yolu* və s. “Həyat” konsepti ilə bağlı dilimizdə olan sözlər: ömür, dövr, yaşam, varlıq, yol, can, canlı, yaşamaq, dirilik, enerji, fəaliyyət, ruh və s.

Tədqiqat mövzusunun aktuallığı dil və mədəniyyət arasındakı əlaqələrin problemlərini öyrənməyə marağın artması ilə müəyyən edilir. Bu prizmada mikrokonseptlərin əhəmiyyəti danılmazdır. Mədəni dilçiliyin mərkəzində bir şəxs dayanır, hansı ki, onun humanist mahiyyəti barədə danışmağa imkan verən müəyyən bir mədəniyyətin təmsilçisi kimi təyin edən bilikləri, davranış normaları vardır. Dünya mənzərəsi fikri zehniyyətlə əlaqələndirilir, hansı ki, onların aralarındakı konsepsiya və əlaqələrdən ibarətdir.

Müasir dilçilik elmi hər mətnin arxasında deyilən sözün mikrokonsepti, məzmununun təsviri eyni zamanda milli dilin dünyagörüşünün təsviridir. Dilin dünyagörüşü dedikdə, milli-mənəvi dəyərlərdən asılı olan hadisə və proseslər, millətin tarixi, mədəniyyəti, xarakterik xüsusiyyətləri nəzərdə tutulur. Mikrokonseptlərin milli mentalitet və düşüncələrdən ən mühüm fərqləri bir tərəfdən dildə əks olunur, digər tərəfdən isə dillə müəyyən olunur. Dilçilikdə mikrokonseptə müxtəlif yanaşmaları təhlil edərkən əldə olunan nəticə ondan ibarətdir, onlar dillə ifadə olunan və etnoloji xüsusiyyətlərə malik olan kollektiv dərketmənin təzahürüdü. XXI əsrdə dil yalnız ünsiyyət və idrak vasitəsi kimi deyil, bir millətin mədəni kodu kimi qəbul edən bir istiqamət kimi fəal şəkildə inkişaf etdirilir.

Nəticə

Bir çox tədqiqatçılar konsepti dəyişkən xarakterli hesab edirlər, onun dəyişkənliyi, onun qeyri-ixtiyari işlədilməsi ilə bağlıdır. Belə olan halda ümumi konseptlə fərdi konsept arasındakı fərq silinir. İstənilən konsept emosionallığa malikdir, yəni konsept tək bir insanın ərsəyə gətirdiyi şeylər deyil, həm də fərdi konseptlər, həm də ümumi konseptlərin özülündə insan faktoru durur. Bu bağlılıqla yanaşı, təbiətən onlar fərqlənirlər. Ümumi konseptlərdə emosiya obyektiv xarakter daşıyır və müəyyən struktura malikdir. Həmin quruluş da zamana görə dəyişib inkişaf edə bilər. Fərdi konspet qəbul olunan informasiya əsasında dəyişir, fərdi emosiyanın buna təsiri yan keçmir. Eyni zamanda, fərdin emosiyası assosiasiyalarla da bağlı olur. Ümumi konseptlər müəyyən dövr ərzində formalaşır və onun dəyişilməsi uzun bir dövrü əhatə edir. Fərdi konsept isə nisbətən məhduddur, lakin onun formalaşma konteksti çox genişdir. Fərdi konsept subyektivdir, dəyişkəndir, ümumi konsept isə dəyişməzdir, obyektivdir, tarixi inkişafı nisbətən daha davamlıdır, xalqın həyati təcrübəsi və dili əsasında formalaşır. Amma bunu da unutmaq olmaz ki, ümumi konsept fərdi konsept əsasında meydana gəlir. Həyat konseptləri milli dildə qorunur, dilin mənimsənilməsi ilə fərdin şüuruna daxil olur. Dilimizdə ümumi və xüsusi cəhətləri konseptlər öyrənilərkən hər bir anlayışı bildirən sözlərin etimologiyası, söz birləşmələri strukturunda sinonim və omonimlik, onların işlənmə konteksti, frazeologiyaya xüsusi fikir verilir. Hansısa konseptə əsaslanan fərdi dil konseptin mahiyyəti ilə bağlanır, insan şüurunda onun yerini müəyyən etməyə əsas verir.

Belə bir nəticəyə gəlirik ki, Azərbaycan dilində həyat konsepti universal konseptdir və onun mənəvi-əxlaqi, fəlsəfi, psixoloji və sosyal səciyyəli mikrokonseptləri mövcuddur. Həyat freymi dilimizdə verbal və qeyri-verbal formada söz və söz birləşmələrində, frazeoloji və metaforik ifadələrdə öz əksini tapır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Abdullayev Ə.Ə. Koqnitiv dilçiliyin əsasları. Bakı: Mütərcim, 2008, 20 s.
2. Axundov A. Dil və mədəniyyət. Bakı: Yazıçı, 1992, 192 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: 2006, 4 cilddə
4. Əliyeva Z. Dilçilikdə konsept nəzəriyyəsi, “Ağamusa Axundov və Azərbaycan filologiyası” beynəlxalq elmi konfransın materialları, Bakı, 20007, s.151-156.
5. Niftəliyev A. Linqvokulturologiyaya giriş. Bakı: Mütərcim, 2017, 127 s.
6. Veysəlli F.Y. Dil. Bakı: Təhsil, 2007, 292 s.
7. Асколъдов С.А. (1997), Концептислово. Русская словесность, М.: Academia, с.267-279.
8. Вежбицкая А. Семантические универсалии и описание языков. М.: Языки русской культуры, 1999. стр.780
9. Маслова В. А. Когнитивная лингвистика. М.: Тетра Системс, 2004. 256 с. 32.
10. Маслова В. А. Лингвокультурология. М.: Академия, 2001. 208 с

НАРГИЗ РАДЖАБОВА

КОНЦЕПЦИЯ ЖИЗНИ НА АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ И ЕГО МИКРОКОНЦЕПЦИИ

РЕЗЮМЕ

В статье обсуждается концепция жизни в нашем языке и ее микроконцепции, а также ее передача в нашу жизнь, правила правильной передачи будущим поколениям. Он также дал индивидуальный подход к концепциям жизни, оцененным и проанализированным через фильтр общества. Одно из слов, которые мы часто используем в повседневной жизни, - это слово «современный». Но мы забыли, что каждый период современен для своего времени. Со временем этот процесс улучшается, переходя из одной формы в другую. Хотя понятие жизни в азербайджанском языке неоднозначно и многогранно, его цель - не только адаптироваться к современности, но и опираться на наши исторические корни и национальные ценности. Есть общая концепция жизни, принятая обществом, предназначенная для всех, и есть концепция индивидуальной жизни, которая формируется в призме общей концепции жизни. Прежде всего, процесс самореализации начинается с уважения к ценностям. Эти ценности бывают гуманитарными, национальными и международными. Согласно концепции жизни, осознающий себя человек - гуманист, интеллигентный, справедливый, осознающий свои права, трудолюбивый и постоянно совершенствующийся. Смелость, уверенность в себе, новаторство и уверенность в себе формируются в результате процесса самосознания. Наша страна всегда могла вызывать большой интерес в мире, особенно в последние годы, так как это страна с древней историей, с ее опытом государственности, архитектурными памятниками, культурой, национальными и духовными ценностями наших великих поселений. Причина такого интереса - признание страны сильным и влиятельным государством, способность интегрировать мультикультурные традиции нашей истории и толерантность в мир. Поскольку это основные направления общественной и политической жизни нашей страны, они являются важнейшим проявлением развития традиций нашей государственности в новом контексте и форме. Картина последних лет показывает, что получить такой опыт было непросто, это было достигнуто благодаря патриотическим людям с национальным менталитетом, посвятившим свою жизнь формированию и развитию азербайджанской идеологии в новом смысле. При формулировании концепции жизни этих людей учитывалась пригодность сообщества на фоне индивидуального подхода.

Ключевые слова: концепция жизни, микроконцепции, **когнитивная лингвистика**

NARGIS RAJABOVA

THE CONCEPT OF LIFE IN THE AZERBAIJANI LANGUAGE AND ITS MICROCONCEPTS

SUMMARY

The article discusses the concept of life in our language and its microconcepts, as well as its transmission to our lives. The concept of life in the Azerbaijani language is ambiguous and multifaceted, its purpose is not only to adapt to the present, but also to be based on our historical roots and national values. There is a general concept of life, which is accepted by society, intended for everyone, and there is a concept of individual life, which is formed in the prism of the general concept of life. According to the concept of life, a self-aware person is a humanist, intelligent, fair, aware of his rights, diligent and constantly improving himself. Our country has always been able to attract great interest in the world, especially in recent years, as it is a country with an ancient history with its experience of statehood, architectural monuments, culture, national and spiritual values of our great settlements. The reason for this interest is its recognition as a strong and influential state, its ability to integrate the multicultural traditions of our history and tolerance into the world. As these are the main lines of both public and political life of our country, they are the most important manifestation of the development of our statehood traditions in a new context and form. The picture of recent years shows that gaining such experience has not been easy, it has been achieved thanks to patriotic people with a national mentality who have dedicated their lives to the formation and development of the Azerbaijani ideology in a new sense. In formulating the concept of life of those people, the suitability of the community was taken into account against the background of an individual approach.

Key words: concept of life, microconcepts, **cognitive linguistics**

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: prof. Zemfira Şahbazova
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏMSİ HÜSEYNOV
Lənkəran Dövlət Universiteti
semsi.97.huseynov.97@gmail.com

ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ SİNTAKSİS TƏLİMİNİN TƏDRİSİNƏ DAİR ÜMUMİ MƏSƏLƏLƏR

XÜLASƏ

Orta məktəblərdə tabesizlik tabelilik əlaqələrinin, sintaktik əlaqələrin, cümlələrin tədrisinə mühüm riayət edilir. Azərbaycan dilinin cümlələri quruluşca zəngindir. Bu baxımdan sintaktik əlaqələrin tədrisi prosesi mühüm mərhələdir. Çünki, məhz cümlələr, sözlər arasındakı əlaqələr məsələləri birbaşa sintaksisin tədqiqat obyektidir. Orta məktəblərdə sintaksisin tədrisi zamanı işin böyük hissəsi müəllimin üzərinə düşür. Müəllim bölməni tədris edən zaman müasir iş üsullarından istifadə etməli, və ədəbiyyatla- bədii əsər nümunələri ilə prosesi davam etdirməlidir. Çünki bu şəkildə tədrisin aparılması digər fənlərə görə Azərbaycan dilində daha genişdir. Sintaksisin tədrisi şagirdlərdə bir sıra bacarıqları formalaşdırır. Sintaktik əlaqələrin, sözlərin, söz birləşmələrinin düzgün şəkildə qavranılması nəticəsində şagirdlər düzgün cümlə qurmaq vərdişlərini sahiblənmiş olar. Dilimiz daha mürəkkəb və çoxcəhətli fikirləri ifadə etmək üçün müxtəlif cür cümlələri (sadə, mürəkkəb) müxtəlif şəkildə birləşdirib işlətməyə imkan verir.Müəllim tədris zamanı mürəkkəb söz, mürəkkəb adları da müqayisə müstəvisində saxlamağı unutmamalı, yeri gəldikcə praktik nümunələr əsasında onları söz birləşmələri ilə müqayisə etməlidir. Eyni zamanda sintaksis üzrə veriləcək bilik və vərdişlərin ədəbi dil normalarının mənimsədilməsində rolu böyükdür. Orta məktəblərdə sintaksis təlimi eyni zamanda şagirdlərdə orfoepik, intonasiya, durğu işarələri və qrammatik üslubi normaların tədrisinə zəmin rolunu oynayır. Təlimin yekununda şagirdlər artıq sintaktik əlaqələr nədir ? sualina cavab verir.Həmçinin, sintaktik məfhum anlayışlarını dərk edir.Çünki Sintaksisin lazımı səviyyədə tədrisi sintaktik məfhumların mənimsədilməsilə birbaşa vəhdətdədir. Həmçinin bölmənin tədrisi ilə tabesizlik və tabeli mürəkkəb cümlə anlayışlarını şagirdlər mənimsəyir. Qeyd olunanlar əsasında sintaksis bəhsi üzrə məktəb kursunun məzmunu və təlim vəzifələri şagirdlərə öyrədildikdən sonra mövzu yekunlaşdırıla bilər

Açar sözlər: Sintaksis ,sintaktik əlaqlələr, söz birləşmələri, cümlələr

Annotasiya. Azərbaycan dilinin tədrisi prosesi hər zaman olduğu kimi müasir dövrümüzün də əsas məsələlərindən biridir. Bilik və bacarıqların şagirdlər tərəfindən

mənimsədilməsində kurikulum təliminin əsas konsepsiyaları çərçivəsində müasir texnologiyalar əsasında dərslərin və tədris prosesinin gedişatina nail olmaq lazımdır.Bu məksədlə məqalədə məhz orta məktəblərdə sintaksisin təliminə məxsus olan predmetlərin öyrədilməsinə məxsus əsas müddəalar öz əksini tapmışdır.

Bildiyimiz kimi dilimizin sintaktik quruluşunun təşəkkül tarixi çox qədimdir. Azərbaycan dilinin hazırkı sintaktik quruluşu ilə "Dədə Qorqud"un, daha qədim bayatı və xalq mahnılarımızın dil quruluşu arasında əsaslı fərq yoxdur. Lakin dilimizin sintaktik quruluşunun tədqiqi, öyrənilməsi o qədər də qədim deyildir. Azərbaycan dilinin sintaktik quruluşu uzun müddət məktəb qrammatikası həcmində öyrənilmişdir. Elmi sintaksis kursunun formalaşması bizə yaxın dövrün məhsuludur. XX əsrin 50-ci illərindən başlayaraq meydana çıxan bir sıra dərsliklər, dərs vəsaiti, monoqrafiya və dissertasiyalar sintaktik quruluşun öyrənilməsinə səbəb olmuşdur. Bu sahədə Dəmirçizadə, M. Şirəliyev, M.Hüseynzadə, Ə.Abdullayev, Z.Budaqova, N.Hacıyeva, Y. Seyidov, H.Bayramov, Z.Tağızadə. Ə. Cavadov. N.Abdullayeva, K. Vəliyev, K.Abdullayev kimi görkəmli alimlərinizin böyük xidmətləri vardır.

Sintaksis morfologiyadan sonra tədris edilən ikinci böyük kursdur və bu kursla bütövlükdə qrammatika təliminə yekun vurulur. Azərbaycan dili tədrisi qarşısında duran didaktik vəzifələrin məqsədəuyğun olaraq həyata keçirilməsi sintaksis tədrisinin yüksək səviyyədə təşkilindən çox aslıdır.Azərbaycan dili sintaksisinin elmi-nəzəri və təlimi metodiki tərəfləri daim dilçi və metodistlərimizin tədqiqat predmeti olmuş, onun bütün məsələləri diqqət mərkəzində dayanmışdır. B.Çobanzadə, Dəmirçizadə, J.Cavadov. Abdullayev, M.Hüseynzadə, Y.Seyidov, A.Qurbanov, A.Abdullayev, M.Həsənov, B.Əhmədov, N.Abdullayev, Ə.Əhmədov, V.Qurbanov, K.Kərimov və başqaları sintaksisin problemləri ilə bağlı onlarla sanballı monoqrafiya va məqalələr çap etdirmişlər. Sintaksis tədrisindən ilk sistemlı məlumat A Abdullayevin "Orta məktəbdə Azərbaycan dili tədrisi metodikası" dərsliyində və daha sonra "Orta məktəbdə Azərbaycan dili tədrisi (II hissə)" kitabında verilmişdir. Burada sadə cümlənin tədrisi bölməsini Nazim Əhmədov, mürəkkəb cümlənin tədrisi bölməsini isə dosent Sabir Vahidov yazmışlar. 2002-ci ildə tərtib edilmiş sonuncu proqrama əsasən, sintaksis kursu VIII-IX siniflərdə tədris edilir. Ancaq ibtidai Siniflərdən etibarən sintaksisin ilkin elementlərindən söhbət açılır, dilçiliyin ayrı-ayrı bölmələrinin tədrisi də sintaksisin nəhənk daşı olan cümlələr vasitəsilə mənimsədilir. Sintaksis bəhsi üzrə əsaslı tədqiqat işi aparan Məmməd Həsənov sintaksis haqqında mülahizələrini Əfəndizadənin hələ 1974-cü ildə söylədiyi fikirləri ilə tamamlamaqda çox haqlıdır: «...sintaksis qrammatikanın yekunudur və özündə Azərbaycan dili məktəb kursu demək olar ki, bütün mətləblərini əhatə edir. Biz bilirik ki, dilin bir sıra vəzifələri vardır. Və ən mühüm vəzifələrindən biri şübhəsiz ki " ünsiyyət vasitəsi olmasıdır" (2; səh 323) . Dilin ünsiyyət vasitəsi olması üçün yalnız sözlər kifayət etmir, eyni zamanda sözlər cümlədə bitmiş fikir ifadə etməlidir.

Sintaksis təlimini həyata keçirərkən bu kursun məzmununda bir sıra anlayışlar dayanır. Burada ən başlıcası cümlədə sözlərin əlaqəsi və söz birləşmələri, cümlə, cümlənin məqsəd və intonasiyaya görə növləri, baş və ikinci dərəcəli üzvlər, eyni zamanda həmcins üzvlü cümlələr , ara sözlər, xitablar, mürəkkəb cümlə anlayışları, mürəkkəb cümlənin növləri və yekunda tabesiz mürəkkəb cümlə, tabeli mürəkkəb cümlələr və onların növləri daxildir.Sintaksis tədrisi qarşısında bir sıra vəzifələr vardır.

1. İlk növbədə bu təlimlə bağlı olan anlayışları şüurlu şəkildə şagirdlərə mənimsətmək.
2. Sintaksis təlimi üzrə şagirdlərə lazım olan zəruri bacarıqların aşılanması.
3 .Sintaktik-üslubi normalara aid ən mühüm və vacib olan bacarıqların mənimsədilməsi
4. Sintaksis təlimi üzrə məktəb kurslarında qeyd olunan biliklərin sistemli şəkildə şagirdlərə çatdırılması.

Bildirməliyik ki, sintaksis təlimi məktəblərdə tədris edilən zaman Azərbaycan dili təlimində yer alan digər bölmələrə (Məs- morfologiya) inteqrasiyalı şəkildə aparıla bilər. Çünki bu mövzunun digər bölmələrlə əlaqəsi zəruridir. Bunun səbəbini şagirdlərə "bu əlaqə olmadan nə sintaksis kursunu şüurlu şəkildə anlamaq , nə də digər bölmələrə məxsus verilən məlumatları möhkəmləndirmək mümkün deyildir" cümləsini quraraq izah edə bilərik. Qeyd olunan fikirlə bağlı M.Həsənovun aşağıdakı sözləri vardır. "Morfologiyanın tədrisi prosesində sintaksisə hazırlıq işləri aparmaq, eləcə də sintaktik materialları morfoloji biliklər əsasında izah etmək müəllimin arzusundan asılı deyil. Bu qrammatikanın bərabərhüquqlu hissələri arasındakı təbii əlaqədən, habelə təlimdə müvafiqlik prinsipi ilə bağlı olan əlverişlilik prinsipindən doğan ehtiyacdır" (2 ; səh .328)

Sintaksisin lazımı səviyyədə tədrisi sintaktik məfhumların mənimsədilməsilə birbaşa vəhdətdədir. Şagird burada sintaktik məfhum anlayışını elə dərk etməlidir ki, onların qrammatik formalarını seçməkdə çətinlik çəkməsin.Məsələn, əsas məfhum elə yaradılmalıdır ki, onlar bu məfhumların qrammatik məqsəd şagirdləri cümlədəki üzvləri, buradakı cümlə üzvü olmayan sözlərdən seçdirməkdən ibarət olmalıdır. Əgər şagird cümləni birləşmədən, sadə cümləni mürəkkəb cümlədən, tabesiz mürəkkəb cümləni tabeli mürəkkəb cümlədən, ismi və feli birləşmələrin ayn-ayrı növlərini bir-birindən dəqiq fərqləndirə bilirsə, məfhumun mənimsənildiyinə əmin olmaq olar. Eyni zamanda söz birləşməsi və söz, söz birləşməsi və cümlə münasibətləri aydınlaşdırılmalı, ismi və feli birləşmələrin mahiyyəti, onların arasındakı fərqli cəhətlər dəqiqləşdirilməlidir. İlk növbədə, sabit və sərbəst söz birləşmələri haqqında aşağı siniflərdə öyrədilmiş məlumatlar yada salınmalıdır.

Müəllim tədris zamanı mürəkkəb söz, mürəkkəb adları da müqayisə müstəvisində saxlamağı unutmamalı, yeri gəldikcə praktik nümunələr əsasında onları söz birləşmələri ilə müqayisə etməlidir. Şagirdlər ismi feli birləşmələrin

nələrlə ifadə olunduğunu, onların növlərini dəqiq bilməlidir ki. I nov təyini söz birləşməsinin tərəflərinin ayrı-ayrı sintaktik suala cavab verdiyini, əksər hallarda cümlənin ayrı-ayrı üzvləri ola bildiyini dərk etsin. I növdən fərqli olaraq II, III növ təyini söz birləşmələrinin isə bütövlükdə bir cümlə üzvü kimi vahid sintaktik suala cavab verdiyini praktik olaraq başa düşsün.

Qeyd olunanlar əsasında tədris edəcəyim dərs nümunəsinə nəzər salaq.

Dərs icmalı

Mövzu: Sintaksis haqqında ümumi məlumat
Standart: 4.1.2, 2.1.1
Məqsəd: Şagirdlərin sintaksis haqqında biliklərini daha da inkişaf etdirmək və söz birləşmələri haqqında bilikləri möhkəmləndirmək
Təlim forması: Kiçik qruplarla iş
Təlim üsulları: Əqli hücum,müsahibə,müzakirə
İnteqrasiya : Ədəbiyyat
Təchizat: Azərbaycan dili dərsliyi , iş vərəqləri , əyani vəsait
Dərsin gedişi

Motivasiya. Əvvəlcə, mövzu ilə bağlı dərsin ilk mərhələsi olan motivasiya mərhələsində şeir nümunəsindən istifadə edirəm

Sürmə çəksin gözlərinə, qaşına,
Gündə yüz yol mən **dolanım başına.**
Zakirtək yanmağa **eşq ataşına,**
Cürəti var isə, pərvanə gəlsin !
(4 ; səh 165)

Daha sonra şagirdlərə tədqiqat sualı verirəm:

M:-Şagirdlər,nümunədə fərqləndirdiyim sözlər nə hesab olunur?

Ş:-Nümunədə fərqləndirilmiş sözlər söz birləşmələridir.

M:-Nümunədə 2ci və 3cü misrada fərqləndirilən sözlər hansı söz birləşmələridir?

*Ş:-Bu nümunədə **dolanım başına** 3cü növ təyini söz birləşməsi, **eşq ataşına** isə 2ci növ təyini söz birləşməsidir.*

Tədqiqat sualı verildikdən sonra şagirdlərə sintaktik əlaqələr, eyni zamanda söz birləşmələriylə bağlı bəzi nəzəri məlumatlar verirəm. Xüsusilə də sintaksisdə öyrənilən məsələlər və tabeli, tabesiz mürəkkəb cümlələr haqqında nəzəri məlumatları şagirdlərə bildirir, daha sonra dərslikdə olan nəzəri məlumatları mənimsədirəm.

Tədqiqatın aparılması. Bu mərhələdə şagirdləri sinifdəki saya görə qruplara bölürəm və qrup liderini təyin edirəm. Bundan sonra qruplara əvvəlcədən hazırladığım iş vərəqləri təqdim edirəm və onlar sintaktik əlaqələr və növləri haqqında məlumatları qeyd edirlər.

'*Atlılardan biri Əhmədin yanında qaldı, qalanlar qabağa keçdilər*' cümləsində hansı cümlə üzvləri söz birləşməsi ilə ifadə olunmuşdur?

A) mübtəda, tamamlıq
B) mübtəda, təyin
C) zərflik, xəbər
D) zərflik, tamamlıq
E) mübtəda, zərflik
Hansı birləşmədə yanaşma əlaqəsi var?
A) şəhərdən qayıdanda
B) külək səsi
C) dəniz havası
D) ədəbiyyat kitabı
E) sehrli nağıl
Hansı cümlədə tabesizlik əlaqəsi var?
A) Stəkanı ovcunda sıxıb, kirpiklərini endirib onun burdan getməyini gözləyirdi.
B) Bəlkə, onları tanımadığı üçün gözlərini döyürdü.
C) Səməd onu yaxşı qarşılamadığını görsə də, özünü o yerə qoymadı
D) O, çoxdan çıxıb getmişdi.
E) Vaqif düz dörd aydır ki, bu görüşü gözləyirdi.
' Şübhəsiz ki , Lalə ağıllı və gözəl qızdır' cümləsində hansı söz digər sözlərlə sintaktik əlaqəyə girmir?
A) Lalə
B) gözəl
C) şübhəsiz ki
D) ağıllı
E) qızdır

Məlumatın mübadiləsi və müzakirəsi. Dərsin bu mərhələsində şagirdlər tapşırıqları və iş vərəqlərini təqdim edirlər, daha sonra yoxlayıb qiymətləndiririrəm. Bütün bunlardan sonra şagirdlərə suallarla müraciətlər edirəm və müzakirələr aparırıq .

Sintaktik əlaqə nəyə deyilir?
Sintaktik əlaqənin hansı növləri var?
Söz birləşməsi dedikdə nə başa düşürsünüz?
Sözlər arasındakı qrammatik bağlılıq hansı terminlə ifadə olunur?

Nəticə. Şagirdlər ilkin məlumatları dəqiqləşdirir və nəzəri biliklərlə yanaşı müzakirə apararaq yeni biliklər əldə edirlər.

Ev tapşırıqı. Şagirdlərə mətnlərdən söz birləşmələri nümunələri seçməyi eyni zamanda sintaktik əlaqələrə bağlı bədii əsərlərdən 5 nümunə yazmalarını söyləyirəm.

Qiymətləndirmə. Hər bir şagirdin cavablarına uyğun qiymətləndirmə meyarlarından istifadə edərək qiymətləndiririrəm.

Bildiyimiz kimi, iki və daha artıq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsinə söz birləşməsi deyilir. Müstəqil söz dedikdə əsas nitq hissələri nəzərdə tutulur. Köməkçi nitq hissələri söz birləşməsi yarada bilmir. Köməkçi nitq hissələrindən qoşmalar, bağlayıcılar, ədatlar söz birləşmələrinin tərkibində iştirak edə bilər, amma söz birləşməsinin tərəfi ola bilməz. Köməkçi fellər də (etmak, eləmək, olmaq) söz birləşməsinin müstəqil tərəfi ola bilməz. Söz birləşmələrinə aid nümunələr- həyatın mənası, insan arzusu, daha çox çalışarkən , əlləri qanlı, təbiəti qoruyarkən və s.

Söz birləşmələri və cümlələri yaradan sözlər arasında iki cür əlaqə olur:

1) məna əlaqəsi;
2) sintaktik əlaqa.

Sözlər bir-birinə həm məna, həm də sintaktik əlaqələnmə cəhətdən bağlanır.

Söz birləşməsi və cümlədə sözlər arasındakı qrammatik bağlılıq sintaktik əlaqə adlanır.

Sintaktik əlaqənin 2 növü var:

1) tabesizlik əlaqəsi;
2) tabelilik əlaqəsi.

Göründüyü kimi, sintaksisdə yer alan bir sıra mühüm anlayışların müvəffəqiyyətinə nail olmaq üçün qeyd olunanlar əsasında şagirdlərdə söz birləşməsi və cümlədəki sözlər arasında sintaktik (qrammatik) əlaqələri düzgün müəyyənləşdirməyi və onları növlərə ayırmağı, tabeli və tabesiz mürəkkəb cümlələrin mətnlərdən seçilməsi, onların növlərinim mənimsədilməsi kimi bacarıqlar aşılanmalıdır. Sintaksis təlimi orta məktəblərdə həm məzmun genişliyi baxımından, həm də bir qədər digər mövzulara nisbətən şagirdlər tərəfindən çətin qavranıldığı üçün tədrisin bu istiqamətdə aparılması labüddür.

Ədəbiyyat

1. Ə. Abdullayev. Y.Seyidov. A.Həsənov 'Müasir Azərbaycan dili sintaksis' 3-cü nəşr Bakı 2007

2. H.B. Balıyev. A.H. Balıyev ' Azərbaycan dilinin tədrisi metodikası'

3. Q.Ş. Kazımov. ' Azərbaycan dili sintaksis' 3-cü nəşr Bakı 2007

4. Q.B. Zakir ' Seçilmiş əsərləri ' Bakı 2005

ГУСЕЙНОВ ШАМСИ

РЕЗЮМЕ
ОБЩИЕ ВОПРОСЫ, СВЯЗАННЫЕ С ОБУЧЕНИЕМ СИНТАКСИСУ В СРЕДНИХ ШКОЛАХ

В средней школе важно соблюдение субординации при обучении подчинительным связям, синтаксическим связям, предложениям. Предложения азербайджанского языка богаты структурой. В связи с этим процесс обучения синтаксическим связям является важным этапом. Потому что именно вопросы отношений между предложениями, словами являются объектом непосредственного исследования синтаксиса. При обучении синтаксису в средних школах большая часть работы ложится на учителя. Учитель должен использовать современные методы работы при преподавании раздела, а с литературой - продолжать процесс на примерах художественных произведений. Потому что преподавание таким образом шире на азербайджанском языке, чем по другим предметам. Обучение синтаксису формирует у учащихся ряд умений и навыков. В результате правильного восприятия синтаксических связей, слов, словосочетаний у учащихся могут сформироваться привычки построения правильного предложения. Наш язык позволяет нам по-разному комбинировать и использовать различные типы предложений (простые, сложные) для выражения более сложных и многогранных идей.Учитель не должен забывать в процессе обучения держать в плоскости сравнения и сложное слово, составные имена, а также, кстати, сравнивать их со словосочетаниями на основе практических примеров. При этом велика роль знаний и навыков, которые будут даны по синтаксису, в усвоении норм литературного языка. Обучение синтаксису в общеобразовательных школах одновременно служит основой для обучения учащихся орфоэпическим, интонационным, пунктуационным и грамматическим стилевым нормам. В завершении обучения учащиеся уже задаются вопросом, каковы синтаксические отношения ? он отвечает на свой вопрос.Кроме того, он понимает синтаксические понятия.Потому что обучение синтаксису на должном уровне напрямую связано с усвоением синтаксических понятий. Также с обучением подразделения учащиеся овладевают понятиями придаточное и придаточное сложное предложение. На основании изложенного содержание школьного курса по синтаксису и учебные задачи после обучения студентов теме можно подвести итог

Ключевые слова: синтаксис, синтаксические отношения, словосочетания, придложения

HUSEYNOV SHAMSI

GENERAL ISSUES OF TEACHING SYNTAX IN SECONDARY SCHOOLS

SUMMARY

In secondary schools, the teaching of coordination and subordination, syntactic relations, sentences is important. The sentences of the Azerbaijani language are rich in structure. In this regard, the process of teaching syntactic relations is an important stage. Because the relationship between sentences and words is a matter of direct syntax research. When teaching syntax in secondary schools, most of the work falls on the teacher. The teacher should use modern working methods when teaching the unit, and continue the process with examples of literature and art. Because teaching in this way is more extensive in the Azerbaijani language than in other subjects. Teaching syntax forms a number of skills in students. As a result of correct perception of syntactic connections, words and phrases, students will acquire the skills of correct sentence construction. Our language allows us to combine and use different types of sentences (simple, complex) in different ways to express more complex and multifaceted ideas. The teacher should not forget to keep complex words and compound nouns in the level of comparison during the teaching, and should compare them with word combinations on the basis of practical examples. At the same time, the role of syntax knowledge and skills in the mastering of literary language norms is great. Syntax training in secondary schools also plays a key role in teaching students orthoepic, intonation, punctuation and grammatical stylistic norms. At the end of the training, students already answer the question of what is a syntactic relationship. Also they understand syntactic concepts. Because the teaching of syntax at the required level is directly related to the acquisition of syntactic concepts. Also, with the teaching of the unit, students learn the concepts of coordinate and subordinate compound sentences. Based on the above, the topic can be finalized after the students are taught the content of the school course on syntax discussion and training tasks.

Key words: Syntax, syntactic relationships, word combinations, sentences.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Filologiya elmləri namizədi, dosent Ilahə Seyfullayeva tərəfindən çapa tövsiyə olunmuşdur

VƏFA ABBASOVA
ADNSU
Bakı, Azadlıq 16
vafa.rzayeva.74@mail.ru

"KOMMUNİKASİYA" VƏ "ÜNSİYYƏT" ANLAYIŞLARI

XÜLASƏ

Məqalə "kommunikasiya" və "ünsiyyət" terminlərinin müqayisəli təhlilinə həsr olunub. Ünsiyyət sözü ilə müqayisədə dilimizdə yeni fəallaşan kommunikasiya termininin müxtəlif mənalarda işlənməsi, bəzən ünsiyyətlə eyni, bəzən fərqli mənalar kəsb etməsi məqamlarına toxunulur.

Azərbaycan ali məktəblərində bütün ixtisaslar üzrə tədris olunan "Azərbaycan dili və nitq mədəniyyəti" fənni 2020-2021-ci tədris ilindən "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" adı ilə tədris olunmağa başladı. Dəyişən yalnız fənnin adıdırmı? Təbii ki, xeyr. Fənnin adı ilə bərabər onun mahiyyəti, tədris olunan mövzular, ən başlıcası isə fənnin məqsəd və vəzifələrində də müəyyən yeniliklər özünü göstərir. Biz bu məqalədə yalnız fənnin adındakı "kommunikasiya" terminindən, eləcə də ünsiyyət anlayışından bəhs edəcəyik. Cünki yeni adla bağlı yaranan ilk sual məhz belə oldu: "Niyə işgüzar ünsiyyət yox, işgüzar kommunikasiya?"

Məqalədə bütün bu suallara cavab axtarılır. Azərbaycan və əcnəbi alimlərin elmi fikirlərinə müraciət edilir.

Açar sözlər: ünsiyyət, kommunikasiya, əlaqə, subyektiv, obyektiv, fənn, rabitə, mübadilə

Azərbaycan ali məktəblərində bütün ixtisaslar üzrə tədris olunan "Azərbaycan dili və nitq mədəniyyəti" fənni 2020-2021-ci tədris ilindən "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" adı ilə tədris olunmağa başladı. Dəyişən yalnız fənnin adıdırmı? Təbii ki, xeyr. Fənnin adı ilə bərabər onun mahiyyəti, tədris olunan mövzular, ən başlıcası isə fənnin məqsəd və vəzifələrində də müəyyən yeniliklər özünü göstərir. Biz bu məqalədə yalnız fənnin adındakı "kommunikasiya" terminindən, eləcə də ünsiyyət anlayışından bəhs edəcəyik. Cünki yeni adla bağlı yaranan ilk sual məhz belə oldu: "Niyə işgüzar ünsiyyət yox, işgüzar kommunikasiya?"

"Kommunikasiya" və "ünsiyyət" terminləri sinonimdirmi? Bütün hallarda bir-birini əvəz edə bilirmi? Yaxud "ünsiyyət" və "kommunikasiya" fərqli anlayışlardır? Bu suallara cavab vermək üçün, ilk növbədə bu terminlərin müxtəlif tipli lüğətlərdəki mənalarına diqqət yetirək:

1. Ünsiyyət (ər.) – 1) qarşılıqlı münasibət, əlaqə, yaxınlıq, ülfət;
2) əlaqə, rabitə, qarşılıqlı münasibət;
3) xoş münasibət, yaxınlıq, mehribançılıq (1. s. 428)
2. Ünsiyyət (dilç) - əlaqə, rabitə, kommunikasiya (2. s.234)
3. Ünsiyyət (ing. Socialty) – subyektlərin səciyyəvi qarşılıqlı münasibətlər üsulu, digər insanlarla qarşılıqlı əlaqədə insanın mövcudluq üsulu. Ünsiyyət vasitəsilə insanlar sosiallaşır, həyata bağlanır, dostluqlar qurur. (3. s. 199)

"Kommunikasiya" termininə gəlincə, XX əsrdə çap edilmiş müxtəlif tipli lüğətlərdə ona rast gəlmək çətindir. Hətta AMEA Nəsimi adına Dilçilik İnstitutunun 2011-ci ildə nəşr etdirdiyi dörd cildlik "Azərbaycan dilinin izahlı lüğəti" kimi iri həcmli əsərdə belə "kommunikasiya" sözü yoxdur. Bu termin daha çox internetdə onlayn formatda hazırlanmış lüğətlərdə izah edilir:

1. Kommunikasiya – 1) Əlaqə (nəqliyyat kommunikasiyası) və rabitə vasitələri. 2)İnformasiya mübadiləsi prosesi, rabitə əlaqəsi xətti
2. Dilarası kommunikasiya (ünsiyyət).
3. Nitq kommunikasiyası – 1) Ünsiyyətin şifahi forması. 2) Bu və ya digər üslubun çərçivəsində ünsiyyət. 3) Kütləvi çıxış. (6) (Göründüyü kimi, müxtəlif ədəbiyyatlarımızdan verilən nümunələr belə yuxarıdakı suallarımızı cavablamır.(4.)

"Ünsiyyət" və "Kommunikasiya" terminlərinin ifadə etdiyi mənada eynilik və fərq məsələsi heç də əsassız deyil, çünki latın mənşəli "communication" sözü ingilis dilində bir neçə anlamda işlədilir:

1. Mesaj (fikir, məlumat, xəbər);
2. Yayım, yayılma;
3. Rabitə, əlaqə, kommunikasiya;

Məhz bu baxımdan ümumilikdə kommunikasiya - münasibətlərin, biliklərin, düşüncələrin, hisslərin və davranışların "mənbədən" "hədəfə" köçürülməsi prosesidir. Bu mənbə və hədəflər müxtəlif ola bildiyi kimi, kommunikasiya prosesinin məqsəd və məzmunu da çoxplanlıdır. Məs, kommunikasiya prosesində məlumat bir şəxsdən və ya qrupdan digər şəxsə və ya qrupa ötürülə bilər, hər hansı subyekt və idarəedici orqan arasında kommunikativ mübadilə baş verə bilər və yaxud kommunikasiya prosesində müəyyən düşüncə və biliklərinizlə də bölüşə bilərsiniz. Bütün yuxarıda sadalananlar ünsiyyət prosesi deyilmi? Təbii ki, ünsiyyətdir, lakin professional səviyyədə ünsiyyətdir. Məlum olduğu kimi, cəmiyyət üzvləri arasında davamlı qarşılıqlı əlaqələr iki səviyyədə şərtlənir. Bunlardan biri daha çox cəmiyyət üçün nəzərdə tutulan sosial həyatdır, digəri isə insanın fərdi ehtiyaclarından irəli gələn şəxsi həyat. Sosial səviyyədə qurduğumuz əlaqələr, iştirakçısı olduğumuz ünsiyyət bizim iradəmizdən kənar formalaşır, daha doğrusu, istəyib-istəməməyimizdən asılı olmayaraq müəyyən qarşılıqlı əlaqələrin iştirakçısına çevrilirik. Bu səviyyədə münasibətlər zəminində sosial qaydalar yaradılır və bu qaydaların qorunması təmin edilir. Cəmiyyətin hər bir üzvü həm ishehlakçı, həm də istehsalçı olmaqla mövcud sistemin fəaliyyətinə öz töhfəsini verir. İkinci səviyyə isə

bizim şəxsi həyatımızdır. Burada qərarları biz veririk, məsafəni biz təyin edirik. Bu səviyyədə ünsiyyətin yaranması insanın şəxsi seçimi əsasında müəyyənləşir. Göründüyü kimi, burada 2 fərqli yanaşma mövcuddur: obyektiv və subyektiv. Ünsiyyətin obyektiv sahəsi asılılıq, tabeçilik, əməkdaşlıq kimi real əlaqələrlə, subyektiv sahə isə iştirakçıların bir-biri ilə şəxsi münasibətlərində ifadə olunur. Kommunikasiya məhz obyektiv əlaqələr zamanı mübadilə prosesidir. Və ünsiyyətin digər 2 tərkib hissəsi olan qarşılıqlı əlaqə və qarşılıqlı qavramanı tam mənada reallaşdıra bilmir.

Kommunikasiyanın özünə gəlincə isə formal olaraq kommunikasiya prosesində iki tərəf iştirak edir: mənbə (informasiya ötürən) və alıcı (informasiya qəbul edən). Mənbə zehnində formalaşdırdığı mesajı müəyyən simvollardan (səslər, işarələr, jestlər və s.) istifadə edərək kodlayır və müvafiq kanallar (tellər, efir, kağız, telefon) vasitəsilə ötürür.

Göndərilən mesajın məzmunu mənbə ilə alıcının münasibətindən asılıdır. Əgər mənbə alıcı ilə intellekt və peşəkarlıq, status cəhətdən eyni səviyyədədirsə, mesajı düşüncəsində tərtib etdiyi formada ötürür. Yox, əgər alıcının səviyyəsi fərqlidirsə, mesajın mətni adekvat qavrayış üçün redaktə edilməlidir.

Tədqiqatlar göstərir ki, müsbət, xoş məlumat asanlıqla mesaj şəklində formalaşdırılır və alıcı tərəfindən daha tez və rahatlıqla qəbul edilir. Mənfi məzmunlu məlumatı ötürmək, məzmunu formalaşdırmaq daha çətindir.

İstənilən kommunikasiya prosesində əsas 4 element çıxış edir: mənbə, mesaj,kanal və alıcı.

Yuxarıda da qeyd eydiyimiz kimi, kommunikativ və yaxud rabitə prosesinin baş tutması üçün ən azı iki tərəf olmalıdır: tələb olunan iki tərəfdən biri göndərən, yəni informasiya mənbəyidir, digər tərəf isə qəbuledicidir. Göndərən əvvəlcə fikrində göndərmək istədiyi mesajı yaradır və sonra bu fikri kodlaşdırır; yəni onu sözlərə, rəqəmlərə, və ya bədən dilinə çevirir. Ünsiyyətdə buna "simvollar yaratmaq" deyilir. Rəmzlər müəyyən kodlara çevrilir və rabitə kanalı vasitəsilə qəbulediciyə göndərilir.

Kommunikasiya prosesinin sonunda alıcının mesajları qavraması və qiymətləndirməsi reallaşır . Qavrama, insanın ətrafda baş verənlərin fərqinə varması və onları zəka süzgəcindən keçirərək şərh etməsi prosesidir. Fərdin yaşadıqları, içində var olduğu ictimai və sosial həyatı, malik olduğu əxlaqi-mənəvi dəyərlər onun qavrama qabiliyyətinə təsir edən mühüm amillərdir. Məhz bu səbəblərdən eyni mesaj fərqli insanlar tərəfindən müxtəlif anlamlarda qavranılır.

Qavrama prosesindəki bu fərqlər həm daxili, həm də xarici faktorların təsiri ilə yaranır. Xarici faktorlara kişini digərlərindən fərqləndirən şəxsi keyfiyyətlər, onun məşğulluq dərəcəsi, gündəlik həyatındakı hərəkətlilik, təkrarlar, yeniliklər və s. daxildir. Daxili faktorlar isə şəxsiyyət, ehtiyaclar, məqsədlər, motivasiya, inanclar, dəyərlər və münasibətlər, ümidlər, gözləntilər, arzu və istəklər, keçmiş təcrübə və vərdişlərdən ibarətdir.

Beləliklə, mesajın tam qavranılması mənbənin və alıcının kifayət qədər bilik və bacarığa malik olmalarından çox asılıdır . Göndərən və alıcı simvollara eyni məna vermirsə, rabitə prosesi qüsurlu olacaq. Mesajın dərk olunması, anlaşılması da alıcının mənbəyə münasibətindən qaynaqlanır. Tədqiqatlar göstərir ki, eyni məlumat müxtəlif kateqoriyalarda fərqli formalarda qəbul edilir.

1. Müdir və iş yoldaşı
2. Dost, ya düşmən.
3. Yad, yaxud yaxın adam

Beləliklə, kommunikasiya prosesinin effektivliyi hər iki tərəfin mesajın məzmununa münasibətindən asılıdır.

Kommunikasiyanın ünsiyyətin tərkib hissəsi olması bir çox elmi ədəbiyyatlarda da öz əksini tapmışdır: "Müasir sosial psixologiyada ünsiyyətin üç mühüm tərəfi, aspekti qeyd olunur:

1) Ünsiyyət informasiya mübadiləsi kimi və yaxud ünsiyyətin kommunikativ tərəfi;
2) Ünsiyyət qarşılıqlı təsir prosesi kimi və ya ünsiyyətin interaktiv tərəfi;
3) Ünsiyyətin insanların bir-birini qavraması, anlaması kimi və yaxud ünsiyyətin perseptiv tərəfi". (5 s. 16)

Akademik Mehdi Mehdizadə təlim-tərbiyənin metodlarından danışarkən demişdir: “ Dərs pedaqoji prosesin hücrəsi deyil, onun özəyidir, həlledici hissəsidir. Onda pedaqogikanın xeyli hissəsi deyil,şagirdlərin təlim və tərbiyəsinin məzmunundan, yollarından, prinsip və metodlarından bəhs olunan əsas hissəsi cəmlənir”(6, 98) Bu prinsip və metodlar Azərbaycan dili təliminin məzmununda müasir tələblər səviyyəsində qurulması baxımından müəllimlərin qarşısında bir sıra mühüm vəzifələr qoyur. Fənnin tədrisi zamanı hər bir müəllim təlimin ən mütərəqqi metod və priyomlarından yaradıcı şəkildə istifadə etməklə qarşıya qoyulan məqsədə nail olmağa çalışılmalıdır..Təhsilin inkişafı bilavasitə cəmiyyətin siyasi, iqtisadi və sosial inkişafı ilə bağlıdır.Məhz buna müvafiq olaraq təhsilin inkişafına ilə əlaqədar dövlət və hökumət tərəfindən yeni sərəncamlar verilir və təhsillə bağlı yeni qanunlar qəbul olunur . Müstəqillik illərimizdə təhsilimizin inkişafı naminə yeni təhsil Qanununun və Milli Təhsil Konsepsiyasının qəbulu dediklərimizi bir daha təsdiq edir . Azərbaycan Respublikasının təhsil islahatı proqramında nəzərdə tutulmuş demokratikləşmə, inteqesiya, ümumiləşdirmə və diferensiallaşdırma kimi məsələlər təhsilin inkişafı üçün önəmli və məqsədəmüvafiq sayılır.Belliklə həyatımızda hər şeyin inkişaf və təkamülə doğru getdiyi bir zamanda təhsildə də fənlərin bir-birinə inteqrasiyasına ciddi ehtiyac özünü aydın göstərir. Məlumdur ki, qədim zamanlardan

elmlər bir-biri ilə sıx əlaqədə olmuşdur və bunun nəticəsidir ki onlar arasındakı əlaqə bu gün də öz aktuallığını saxlamaqdadır. Belə ki, ayrı-ayrı elm sahələrində olduğu kimi ümumtəhsil məktəblərində tədris olunan ayrı-ayrı fənlərin də bir-biri ilə bu və ya dərəcədə yaxınlaşması zəminində inteqesiya üçün lazımi şəraiti yaranır.Müasir fənn kurikulumunun ən başlıca prinsiplərindən biri kimi inteqrasiyanın təlimin keyfiyyətinin yüksəldilməsində çox böyük rolu artıq hiss olunmaqdadır. Ümumiləşdirici dərslərdə inteqrasiya təlimə maraq oyadır, axtarıcılıq və yaradıcılıq bacarıqlarına yiyələnməyə sövq etdirir, şagirdlərin müxtəlif fənlər əsasında hər hansı mövzuya dair ətraflı, mükəmməl bilik əldə etməsi üçün əlverişli şərait yaradır. Beləliklə qəti fikrə gəlmək olar ki, hazırkı dövrdə təlim prosesində inreqrasiyadan istifadə etmədən hər hansı bir fənnin tədrisində yüksək uğur əldə etmək mümkün deyildir.

Bir sözlə, müasir dövrdə Azərbaycan dilində təlimində ümumiləşdirici dərsin uğurlu alınması üçün inreqrasiyadan istifadə vacib amillərdəndir. Bütün fənlərin tədrisində olduğu kimi, Azərbaycan dili dərslərində də ümumiləşdirmə zamanı inteqrasiyadan istifadə etmədən istənilən nəticəni əldə etmək mümkün deyil.Bu işi Azərbaycan dili dərslərində V sinifdən başlayaraq bütün siniflərdə davam etdirmək məqsədə müvafiq sayılır.Faktlar sübut edir ki, inteqrasiya təlimdə ən səmərəli vasitələrdən biridir. Məktəb islahatı proqramında da elmlərin nəzəriyə və praktikanın didaktik vəhdəti zəminində şagirdlərə tədrisi və öyrədilməsi bilik və bacarıqların genişləndirilməsində,eyni zamanda bacarıqların möhkəm vərdişlərə çevrilməsində çox vacib və əhəmiyyətli məsələ kimi diqqət mərkəzində saxlanılmışdır.Bu istiqamətində Azərbaycan dili fənninin imkanları daha genişdir.Burada fonetika, leksika və qrammatika bölmələrində mövzuların bir-biri ilə əlaqədarlığı fəndaxili inteqesiya üçün maksimum şərait və imkan yaradır. Xüsusilə, tədris zamanı müəllim ümumiləşdirmə prosesində Azərbaycan dilinin qrammatik-orfoqrafik qaydaları əsasında mahiyyətcə oxşar və fərqli faktları araşdıraraq dəqiqləşdirib ümumiləşdirir. Xüsusiylə, leksik məsələlərin tədrisi prosesində söz və onun leksik-semantik qrupları, o cümlədən tək və çoxmənalılıq, sinonim,omonim,antonim bəhslərinin söz yaradıcılığı ilə əlaqəsi və ona təsiri, terminlərin dilin istifadəsində digər sözlərlə oxşar və fərqli cəhətləri ümumiləşdirici dərsin mərkəzinə çəkilir.Mövzuların belə müqayisələr tədrisi dərsin səmərəliliyini yüksəldir və onun optimal təşkilinə səbəb olur.Belə dərslərdə fəndaxili və fənlərarası inteqrasiya prosesi hətta şagirdlərin cisim və hadisələr əsasında müqayisələr aparılmasına da real təkanlar yaradır. Buna görə də frof.N.Kazımov müqasiyəni, ağlın sönməz mənşəli adlandırmışdır "İnteqesiya təlimin səmərəli keyfiyyətini yüksəldir,öyrədilən mövzunun şüurlu mənimsənilməsinə şərait yaradır…"(4,24)

Müəllimin ən ümdə vəzifəsi ondan ibarətdir ki ,təlimin səmərə və keyfiyyətini yüksəltmək üçün fəndaxili və fənlərarası əlaqələrin qarşılıqlı formasını araşdırsın və ümumiləşdirib şagirdlərin əməli işlərinə yönəltsin. Ümumiləşdirici dərslərdə mövzu və bəhslər arasında olan əlaqənin, habelə bunların digər fənlərlə əlaqəsinin həyata

keçirilməsi məsələləri, müəllim-şagird münasibətlərinin formalaşdırılmasında yeni məzmun kəsb edir. Bu münasibətlər fonunda şagirdlərin şüurluluq və fəallığına xüsusi diqqət yetirilməlidir.Ümumiləşdirici dəstlərdə inteqrativ əlaqələr yaradarkən mövzu və bəhslər, fənlər arasında mövcud olan əlaqə və yaxınlıqlar araşdırılır, oxşar və fərqli cəhətləri təhlil olunub yekunlaşdırılır. Bu bir daha təlim prosesinin səmərəliliyini keyfiyyətini yüksəldir, öyrədilən mövzusun şüurlu mənimsənilməsinə şərait yaradır. Eyni zamanda ayrı-ayrı mövzuların tədrisi prosesində şagirdlərin əşya və hadisələr arasında fərqli cəhətlərini araşdırıb müəyyənləşdirilməsinə imkan yaradır.Ümumiləşdirici dəstələrdə fəndaxili və fənlərarası inteqrasiya əlaqələri olan mövzuların müəyyən dərəcədə müqayisəli tədrisi dərsin səmərəliliyini yüksəldir,onun optimal təşkilinə səbəb olur.

Ümumtəhsil məktəblərinin beşinci sinfinin Azərbaycan dili dərslərində orfoqrafiya, orfoepiya, leksika, söz yaradıcılığı , mürəkkəb sözlərin yazılışı və.s mövzuların tədrisi nəzərdə tutmuşdur.Burada ümumiləşdirici dərs zamanı fəndaxili əlaqə və inteqesiyası üçün kifayət qədər imkanlar vardır. Altıncı sinifdə isə tədris olunan “Feilin təsriflənməyən formaları” bölməsi üzrə ümumiləşdirici dərsdə inteqrasiya əlaqələrindən istifadə təlimin daha maraqlı formada qurulmasına səbəb olur. Dərsə birinci növbədə feil haqqında şagirdlərə ümumi suallar verməklə başlamaq gərəkdir. Bundan sonra feilin təsriflənən və təsriflənməyən formalarının oxşar və fərqli cəhətlərini şagirdlərdən soruşmaq gəlir.Şagirlər birmənalı olaraq söyləyirlər ki, feilin təsriflənməyən formaları şəxsə və kəmiyyətə görə dəyişməsələr də, felin bəzi əsas əlamətlərini (təsdiq – inkar, təsirli – təsirsiz, növ) saxlayır. Bunlarda fel xüsusiyyətləri ilə yanaşı, ikinci bir nitq hissəsinin xüsusiyyəti də olur. Daha sonra felin üç təsriflənməyən forması olan məsdər,feli sifət,feli bağlama haqqında nəzəri məlumatları şagirdlərə xatırladır. Onlara çatdırırlır ki,bu təkcə bizim dilimizdə deyil, başqa dillərdə də, o cümlədən rus dilində də, feilin təsriflənməyəm forması vardır. Dərs elləd qorulur ki, yekunda şagirdlər məsdərlə isimin oxşar əlamətləri haqqında aşağıdakı nəticəyə gəlmiş olurlar.Məsdər də isim kimi hallanır, mənsubiyyətə və isim kimi şəxsə görə dəyişir.Məsələn: Məqsədim yaxşı oxumaqdır. Bundan əlavə III şəxsdə xəbərlik şəkilçisi (-dır4) qəbul edib cümlədə ismi xəbər olur. Məstər qoşmalarla da işlənə bilir. Məsələn: yazmaq üçün, yatmaqdan ötrü, baxmağa görə və s. İsim kimi cümlənin mübtədası, tamamlığı, ismi xəbəri və zərfliyi ola bilir. Məsələn: Çalışmaq baş ucalığıdır. Bu hadisədən sonra yazmağı ona yasaq etdilər. Sənin işin oxumaqdır. Universitetə qəbul olmaq üçün çox çalışır. Şagirdlərin feili sifət haqqında biliklərini ümumiləşdirərkən fəndaxili inteqesiyandan istifadə nəticəsində onlar aşağıdakı nəticəyə gəldiklərini söyləyirlər:

—Sifət əşyanın əlamətini bildiri, Necə? Nə cür? Hansı? Suallarına cavab verir, olduğu ismin əvvəlində gəlir cümlədə təyin vəzifəsində işlənir, xəbərlik şəkilçisi (-dır4) qəbul edərək ismi xəbər olur.

Ardınca feli bağlama ilə zərfin ortaq əlamətlərini şagirdlərə çatdırılır:

—Feili bağlama zərflə hərəkətin tərzini, zamanını, səbəbini və s. bildirir,,zərfin suallarına (necə? Nə zaman? Nəyə görə? və s.) cavab olur.
—Əlaqəyə girdiyi sözlə birlikdə cümlənin zərfliyi olur.

Bununla da Fəndaxili inteqrasiyanın imkanlarından istifadə olunur. Fənlərarası inreqrasiyadan istifadə etməklə ümumiləşdirici dərsin ardını davam etdirilir. Şagirdlərlə nəzəri birliklərini praktikaya tətbiq etməklə məqsədilə Məmməd Arazın "Azərbaycan-Dünyam Mənim" şeiri şagirdlərdən əzbər soruşduqdan sonra şagirdlərə şeirdəki sözlərin nitq hissələri əsasında qruplaşdırılması tapşırılır. Şagirdlər vaxt ərzində tapşırıqları icra edirlər. Nəticədə onlar şeir əsasında nitq hissələrinin qruplaşması və hər bir nitq hissəsinin işlənmə yerini müəyyənləşdirilməsi ilə fənlərarası əlaqənin mövcudluğu yaxından dərk edirlər. Professor Əbdül Əlizadə Təhsil islahatının ilk dövrlərində yazırdı ki, "Müasir dövrdə humanitar fənlərin təbii-elmi fənlərlə inteqrasiyası daha çox vurğulanır. Bu ideya özü-özlüyündə son dərəcə durumludur. Bir tərəfdən elmi-tərəqqi şəraitində məktəb sadəcə olaraq humanitar fənlərin ekstensivləşdirilməsi yolu ilə inkişaf edə bilməz. Digər tərəfdən, fənlərin inteqrasiyasını dövrün sərt məntiqi "təhsil gündəminə" çıxarıb". Respublikamızda bu sahədə ilk addımlar atılıb. "İnsan və cəmiyyət" inteqrativ fəndir. Bu sahədə əldə edilmiş təcrübə elmi-metodik meyarlarla təhlil olunmalıdır. Ən başlıca fənlərin inteqrasiyasının konseptual modeli işlənməlidir. Humanitar fənlərlə təbii-elmi fənlərin inteqrasiya məsələsi də ancaq bu kontekstdə həll oluna bilər.(3,148)

Prof. H.B.Balıyev də "Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası" adlı dərsliyində də bu məsələlər ətraflı şəkildə qeyd edib. "İnteqrativ öyrənmə şagirdlərin ətraf mühitin müəyyən aspektlərini müxtəlif fənlərə aid biliklər vasitəsilə geniş araşdırılmasıdır"(2,76) Keçmiş biliklərin şagirdlərin yaddaşından itməməsi,onların şüurlu və asan dərk olunması üçün inreqrasiya ilə ümumiləşdirmənin aparılması təlimə müsbət təsir göstərir.Ümumiləşdirici dərslərdə həm fəndaxili, həm də fənlərarası əlaqədən geniş İstifadə təlim keyfiyyətinin yüksəldilməsində əsas rolunu oynayır. Hər bir müəllim ümumiləşdirici dərslərdə fəndaxili, fənlərarası əlaqə yaratmağın didaktik əhəmiyyətini real qiymətləndirməli və bilməlidir ki, bu əlaqələrin yaradılması öyrədilən mövzunun əsaslı, şüurlu mənimsənilməsinə səbəb olur və şagird unutqanlığının da qarşısını alır.Müəllim hər bir ümumiləşdirici dərs üçün nəzərdə tutulmuş bölməni yığcam şəkildə şagirdlərə öyrətməklə öz işini bitmiş hesab etməməlidir. Öyrədilən mövzunun əhatəliliyini əvvəlcədən müəyyənləşdirilir, fəndaxili fənlərarası mövzularla əlaqələndirilməsinə, daha geniş kontekstdə yanaşılmalıdır.. "Elm məhz ona görə ayrı-ayrı qollara bölünmüş, inteqrasiya edilmişdir ki, ətraf aləmin sirlərini daha dərindən, daha ətraflı araşdırmaq mümkün olsun. Bununla belə, elmin hər bir qolunun əldə etdiyi nəticələr ümumiləşdirilir və maddi aləm haqqında təsəvvür əldə etmək mümkün olur" (5,224) Prof. N.Kazımov müqayisəni ağlın sönməz məşəli adlandırmışdır.Ümumiləşdirici dərslərdə fəndaxili və fənlərarası inteqrasiya əlaqələrini düzgün təşkil etmək üçün, müəllim

diferensasiya və inteqrasiya həyata keçirməyi bacarmalıdır.Təlim prosesində ümumiləşdirici dərslərdə inteqrasiya şagirdlərin şüurluluğunu , müstəqil düşünmə qabiliyyətini inkişaf etidr Məlumdur ki, şəxsiyyətin hərtərəfli və harmonik inkişafı, milli mənlik şüurunun və yüksək vətəndaşlıq mövqeyinin formalaşdırılması onun doğma ana dilinə nə dərəcədə yiyələnməsindən və ünsiyyətdə ondan necə istifadə etməsindən asılıdır.Bu baxımdan bu şərəfli vəzifələrin həyata keçirilməsi üçün, ana dili müəllimləri də şagirdlərin elmi dünyagörüşünün və linqivistik təfəkkürünün formalaşmasında, yazılı və şifahi nitq bacarıqlarının inkişaf etdirilməsində təlimdə inteqrasiya əlaqələrinin geniş imkanlarından maksimum istifadə edilməsində mühüm rol oynayır. Təlimin keyfiyyətinin yüksəldilməsi, təlimin metodları və vasitələrinin təkmilləşdirilməsi ilə bağlıdır.Təlimdə aparılan bu səmərəli vasitələrdən biri təlimdə inteqrasiyanın yaradılması və genişləndirilməsidir.Bildiyimiz kimi, Orta məktəbdə ümumiləşdirici dərs mühim rola malikdir. Bununla bağlı olaraq, ümumiləşdirici dərs zamanı inteqrasiya əsaslı şəkildə olmalıdır. Burada əsas hissə müəllimin üzərinə düşür. Azərbaycan dili təlimində dərsə verilən müasir tələblərlə bağlı müəllimlərin qarşısında bir sıra mühüm vəzifələr durur. Müəllim fasilitator rolunda olmaqla, Azərbaycan dilini daha dərindən hərtərəfli mənimsənilməsinə xüsusi diqqət yetirməli, təlimin ən mütərəqqli metod və priyomlardan yaradıcı şəkildə istifadə etməlidir. Müasir fənn kurikulumunun ən başlıcası prinsiplərindən biri kimi verilən inteqrasiyanın təlimin keyfiyyətinin yüksəldilməsində çox böyük rolu artıq hiss olunmaqdadır.Müasir zamanda inteqrasiya qlobal dünyanın təhsil aləmində aparıcı yer tutur. Ona görə də informasiyaların genişləndiyi bir dövrdə cəmiyyətin sürətlə və dəyişkən dinamikasını izləmək və ona müvaze olaraq inkişaf etmək üçün birləşmələr, bloklar yaratmaqla ümumiləşdirmələr aparmaq ən səmərəli strategiyalardan biri kimi qəbul edilir. Başqa sözlə, inteqrasiyaya müasir təhsilin sadə epitetlərindən biri kimi, şou xarakterli anlayış kimi yanaşmaq olmaz. “Təhsildə inteqrasiya dəb, növbəti kampaniya deyildir. O, bu gün insan fəaliyyətinin bütün sferasını xarakterizə edən, əks etdirən bir tendensiyadır”.İnteqrasiya təhsilin bütün struktur elementlərinə aid olduğundan son dövrlərdə “inteqrativ təlim”, “inteqrativ dərs”, “inteqrativ fənn” və s. Anlayışlar da işlənir. Eyni zamanda inteqrativ təlimə xüsusi pedaqoji texnologiyalardan biri kimi yanaşılır.Fikrimizi yekunlaşdıraraq dəyə bilərik ki, Ümumiləşdirici dərslərdə həm fəndaxili, həm də fənlərarası əlaqədən geniş istifadə təlim keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Hər bir müəllim ümumiləşdirici dərslərdə fəndaxili, fənlərarası əlaqə yaratmağın didaktik əhəmiyyətini real qiymətləndirməli və bilməlidir ki, bu əlaqələrin yaradılması öyrədilən mövzunun əsaslı, şüurlu mənimsənilməsinin səbəbdir.Hər hansı fənni tədris edərkən mövzudan asılı olmayaraq vətənpərvərlik, əxlaq tərbiyəsinə aid iş aparılmalı, yəni Vətənə, əxlaqi təmizliyə aid fikirlər söylənməlidir, çünki vətənpərvərlik, əxlaq tərbiyəsi bütün tərbiyə işinin mərkəzindən qırmızı xətt kimi keçir. İnteqrasiya təhsil islahatının əsas prinsiplərindən biri olduğu, biliklərin möhkəmləndirilməsinə əlverişli şərait yaratdığı üçün dərs zamanı onun reallaşmasına

həmişə diqqət yetirmək lazımdır. Qəhrəmanlıq və vətənpərvərlik mövzularını keçərkən hərbi mahnı və marşlardan istifadə etmək, uşaqlara qəhrəmanı necə təsəvvür etdiklərini çəkməyi tapşırmaq olar. Bütün fənlərin tədrisində şagirdlərin ana dilində düzgün, aydın danışmalarına diqqət yetirilməli, onların ana dilinin qədrini bilmələri, nitqlərinin təmiz, səlis olması ön plana çəkilməlidir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum). Bakı,2012.
2. Balıyev.H Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası . Bakı,2006.
3. Əlizadə.Ə Yeni pedaqoji təfəkkür, ideallar, prinsiplər, problemlər. Bakı,2001.
4. Əşrəfov.R Azərbaycan dili tədrisində ümumiləşdirici dərslər (Metodik vəsait). Sumqayıt,2005.
5. Əşrəfov.R Azərbaycan dili tədrisinin aktual problemləri. Sumqayıt,2017.
6. Mehdizadə.M Ümumtəhsil məktəblərdə təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi.Bakı,1982
7. Ana dilinin tədrisinin müasir problemləri. Bakı,2005.
8. Paşayev A., Cəfərova E. İnteraktiv təlim Azərbaycan dili və ədəbiyyat dərslərində informatik təlim metodlarının tətbiqi imkanları. Bakı ,2008.

Amid İsmayılov

Xülasə

Dil təlimində ümumiləşdirmədə iteqrasiya mühüm vasitə kimi.

Müasir həyatımızda hər şeyin inkişaf və təkamülə doğru getdiyi bir zamanda təhsildə də fənlərin bir-birinə inteqrasiyasına yaranan ehtiyac özünü aydın göstərir. Ümumiləşdirici dərsin uğurlu alınması üçün də inreqrasiyadan istifadə vacib amillərdəndir. Yuxarıda deyilənlərin həyata keçirilməsində, yəni təlim şəraitində ümumiləşdirmə ilə inreqrasiyanın səmərəli keçirilməsində müəllimin hazırlığı başlıca yer tutur. O,ardıcıl olaraq didaktik prinsipləri (şüurluluq,elmilik, sistematiklik, formal əyanilik, fərdi yanaşma və s.) daima diqqət mərkəzində saxlamalıdır.Aydındır ki, ümumiləşdirici dərsr zamanı müəllim dərsdə əlverişli psixoloji mühit, emosional vəziyyət yaratmalıdır. Yalnız bu halda ümumiləşdirmə zamanı inteqrasiya əlaqələri öz müsbət nəticəsini verə bilər. Bu çox vacib məsələdir.Çünki indi təlim-tədris prosesində qarşıya yeni baxış, yeni müasir yanaşma tələbləri qoyulmuşdur. Bildiyimiz kimi, Orta məktəbdə ümumiləşdirici dərs mühim rola malikdir. Bununla bağlı olaraq, ümumiləşdirici dərs zamanı inteqrasiya əsaslı şəkildə olmalıdır. Burada əsas hissə müəllimin üzərinə düşür. Azərbaycan dili təlimində dərsə verilən müasir tələblərlə bağlı müəllimlərin qarşısında bir sıra mühüm vəzifələr durur. Müəllim fasilitator rolunda olmaqla, Azərbaycan dilini daha dərindən hərtərəfli mənimsənilməsinə xüsusi diqqət yetirməli, təlimin ən mütərəqqli metod və priyomlardan yaradıcı

şəkildə istifadə etməlidir. Müasir fənn kurikulumunun ən başlıcası prinsiplərindən biri kimi verilən inteqrasiyanın təlimin keyfiyyətinin yüksəldilməsində çox böyük rolu artıq hiss olunmaqdadır.Müasir zamanda inteqrasiya qlobal dünyanın təhsil aləmində aparıcı yer tutur. Ona görə də informasiyaların genişləndiyi bir dövrdə cəmiyyətin sürətlə və dəyişkən dinamikasını izləmək və ona müvaze olaraq inkişaf etmək üçün birləşmələr, bloklar yaratmaqla ümumiləşdirmələr aparmaq ən səmərəli strategiyalardan biri kimi qəbul edilir.

İSMAYILOV AMID

SUMMARY

INTEGRATION AS AN IMPORTANT MEANS IN THE PROCESS OF CONSOLIDATION

At a time of development and evolution in our modern life, the need for the integration of disciplines in education is becoming obvious. The use of integration is also an important factor of the successful conductiong of a consolidation lesson. Teacher training plays a key role in the implementation of the above, i.e in the effective conduct of consolidation and integration in the learning environment. The teacher must always bear in mind the didactic principles (consciousness, scientific approach, systematicity, formal visibility, individual approach, etc.). Only in this case, the integration relations can give a positive result during consolidation. This is a very important issue, because now in the educational process, a new vision, a new modern approach is required.As we know, generalization plays an important role in high school. In this respect, the integration during the generalization lesson must be justified. The main role here lies with the teacher. The teachers are faced with a number of important tasks related to modern requirements for teaching the Azerbaijani language. As a facilitator, the teacher should pay special attention to a deeper and more comprehensive mastery of the Azerbaijani language, creatively use the most advanced teaching methods and techniques. Integration, seen as one of the basic principles of a modern subject curriculum, already plays an important role in improving the quality of education. In our time, integration takes a leading position in the world of education. Therefore, in the era of information dissemination, one of the most effective strategies is to keep track of the fast and changing dynamics of society and organize generalizations, creating associations and blocks to develop in parallel with it.

АМИД ИСМАИЛОВ

Резюме

ИНТЕГРАЦИЯ КАК ВАЖНОЕ СРЕДСТВО ПРИ ЗАКРЕПЛЕНИИ МАТЕРИАЛА.

Во время глобального развития и эволюции современной жизни, необходимость интеграции предметов в процессе обучения также очевидна. Использование интеграции также является важным фактором успеха урока обобщения. Подготовка учителей играет ключевую роль в реализации вышеизложенного, то есть в эффективном проведении урока обобщения и интеграции в учебной процессе. Он всегда должен держать во внимании дидактические принципы (сознательность, научный подход, систематичность, формальная наглядность, индивидуальный подход и т. Д.). Понятно, что во время обобщающего урока учитель должен создать благоприятную психологическую среду и эмоциональную ситуацию на уроке. Только в этом случае при обобщении интегральные отношения могут дать положительный результат. Это очень важный вопрос, потому что сейчас в образовательном процессе требуется новое видение, новый современный подход.Как мы знаем, обобщение играет важную роль в средней школе. В этом отношении интеграция во время урока обоб щения должна быть обоснованной. Основная роль здесь ложится на учителя. Перед учителями стоит ряд важных задач, связанных с современными требованиями к преподаванию азербайджанского языка. Как фасилитатор, педагог должен уделять особое внимание более глубокому и всестороннему овладению азербайджанским языком, творчески использовать самые передовые методы и приемы обучения. Интеграция, рассматриваемая как один из основных принципов современной предметной учебной программы, уже играет важную роль в повышении качества образования. В наше время интеграция занимает лидирующие позиции в мире образования. Поэтому в эпоху распространения информации одна из наиболее эффективных стратегий – следить за быстрой и изменяющейся динамикой общества и организовать обобщения, создавая ассоциации и блоки, чтобы развиваться параллельно с ней.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Filologiya elmləri namizədi, dosent Əlirza Əliyev tərəfindən çapa tövsiyə olunmuşdur

:

BUDAQOVA AYNUR MUXTAR QIZI
Filologiya üzrə fəlsəfə doktoru
SƏLİMOVA SEVİNC QİSMƏT QIZI
SABAH qrupları, Azərbaycan Dillər Universiteti
Bakı, Rəşid Behbudov küç.134
aynurbudagova@yahoo.com sevincslimova792@gmail.com

TƏRCÜMƏ PROSESİ, BEYİN VƏ DİL

Xülasə

Məqalə tərcümə prosesindən, tərcümə və beyin arasında əlaqədən və tərcümə prosesində dillərin rolundan bəhs edir. Hər bir fəaliyyət növünün öz xüsusiyyətləri var. Tərcümə ünsiyyət vasitəsi kimi müxtəlif dillərdə danışan insanların bir araya gəldiyi vaxtdan meydana çıxmışdır. Tərcümə nəzəriyyəsi tərcümə prosesində qarşıya çıxan problemlərin çözülməsi zamanı meydana gəlir və formalaşır. Tərcümə, ilk növbədə, anlayışa əsaslanan bir hərəkət olması ilə xarakterizə olunur; metodik olaraq idarə olunan bir proses, yəni müəyyən bir fəaliyyət strategiyasına, müəyyən bir analiz və sintez sisteminə uyğun olaraq həyata keçirilir. Məqalədə tərcümə prosesinin mürəkkəb çoxşaxəli bir proses olduğu vurgulanır, tərcümə nəzəriyyəsinin qarşısında duran əsas vəzifələr sadalanır, tərcümə həm böyük coğrafi məkanda, ölkələr və xalqlar arasında, həm də keçmişlə bu gün arasında əsas ünsiyyət vasitəsi olduğu nəzərə çatdırılır. Müəllif tərcümənin uzun bir tarixə malik olduğunu, tərcümə fəaliyyətinin uğurlu və ya uğursuz olmasının ilk növbədə tərcüməçinin ixtisası və istedadı, xarici və ana dilində nə qədər yaxşı danışması bağlı olduğunu və mətnin nitq fəaliyyətinin məhsulu olduğunu qeyd edir. Müəllif eyni zamanda tərcüməçinin üç məqamı nəzərə almalı olduğunu və tərcümə zamanı tərcüməçinin deyiləni tez qavramalı, nitqini hazırlamalı və informasiyanı tez ötürməli olduğunu da qeyd edir. Məqalədə tərcümə prosesi zamanı beyin yarımkürələrinin fəaliyyəti, tərcümə zamanı yaddaşın vacibliyi və tərcümə zamanı tərcüməçi beyninin bir sıra psixoloji mexanizmlərlə fəal işləməsi qeyd olunur. Məqalədə beynin bizim hərəkətlərimizi, emosiyalarımız idarə etməsi və tərcümə zamanı neyronların aktivləşməyə başladığı da vurğulanır. Müəllif insanlar arasında əsas ünsiyyət vasitəsi olan dilin işarələr sistemindən ibarət olması və ünsiyyət prosesində isə bizim bu işarələrə biganə qalmadığımızı, işarələrlə ifadə olunmuş referentlərə öz subyektiv münasibətimizi bildirdiyimizi nəzərə çatdırmağa çalışır. Bütün bu araşdırmalar sübut edir ki, beyin tərcümə vaxtı daha aktiv olur və bu da beyində yorğunluğa səbəb olur. Tərcümə və beyin daim bir-birilə əlaqədədərdir. Hər şey beyindən asılı olduğu kimi tərcümə də beyindən asılıdır.

Açar sözlər: beyin, tərcümə, neyron, yaddaş, diqqət

Dil ünsiyyət vasitəsidir. Dil ilə bağlı müxtəlif alimlər elmi tədqiqat işləri aparmışlar. Bu məsələ daim diqqət mərkəzində olmuşdur. Dünyada 7000-ə yaxın dil var. Bunlardan 6700-6900 danışıq dili var. Lakin bəzi dillərdən istifadə etmədikdə onlar ölü dilə çevrilir və tez bir zamanda unudulur. Məsələn XVI əsrdə insanlar Latın dilində danışmağa meylli idilərsə, daha sonra bu dildə danışılmadı və tez bir zamanda ölü dilə çevrildi. İnsan anadan olandan ətraf mühitlə münasibət qurur, müəyyən səslər çıxarır. Körpə ətraf aləmi dərk etməyə başlayır və bu səslərdən sonra onda yavaş-yavaş nitq formalaşır. Uşaqların hələ erkən yaşlarında beyin fəaliyyətinin inkişafı və qavrama qabiliyyətinin inkişafı üçün yeni bir dil öyrədilməlidir. Çünki uşaqlar 3 yaşından artıq özlərini dərk edirlər və nəticədə onlar hər şeyi öyrənməyə meyilli olurlar. Bu baxımdan onların dil öyrənmək qabiliyyətini inkişaf etdirməliyik. Onlar dili qrammatika bilmədən belə şüuraltı qavraya bilərlər.

Əlavə ikinci dil öyrənmək insan həyatının ən vacib məsələlərindən biridir. Dil öyrənmək başqa insanlarla ünsiyyət qurmaq imkanı yaradır. Bu dilləri anlamaq üçün tərcümədən istifadə edilir. Tərcümə ünsiyyət vasitəsi kimi müxtəlif dillərdə danışan insanların bir araya gəlib ünsiyyət qurmaq ehtiyacından yaranmış və inkişaf etmişdir.Tərcümə sənəti insanların elmə, digər xalqların həyat tərzinə, mədəniyyətlərinə, ədəbiyyatlarına, dininə və dilinə olan marağı nəticəsində meydana gəlmişdir.Tərcümə sənəti ilk dəfə Qədim Misirdə yaranmışdır. İlk yazılı tərcümə nümunələri tapılmış və bəzi parçaları asiya dillərinə tərcümə edilmişdir. Qədim Romada Qədim Yunanıstandan fərqli olaraq tərcümə fəaliyyəti çox geniş yayılmışdır. Qədim Yunanlılar öz dillərindən daha mükəmməl bir dilin olduğuna inanmırdılar. Bu səbəbdən onlar xarici dillərə o qədər də maraq göstərmir, əsasən, yunan elm və fəlsəfəsini inkişaf etdirməyə çalışırdılar.Romalıların yunan elminə və mədəniyyətinə olan marağı nəticəsində yunan dilindən latın dilinə çoxlu sayda yunan elmi ədəbi və fəlsəfi əsərləri tərcümə edilmişdir.

Tərcümə həm böyük coğrafi məkanda, ölkələr və xalqlar arasında, həm də keçmişlə bu gün arasında əsas ünsiyyət vasitəsidir. Tərcümə bir yerdə və ya bir dövrdə əldə olunmuş məlumatları, elmi-texniki nailiyyətləri, bədii gözəllikləri başqa məkana və başqa dövrə daşıyır. Əbəs yerə Aleksandr Puşkin mütərcimləri "Maarifin poçt atları" adlandırmayıb. Mütəxəssislər tərcümənin bir sənət kimi lap qədimlərdən mövcud olduğunu çoxdan sübut etmişlər. Hələ eramızdan əvvəl III– II əsrlərdə Luçiy Liviy Andronik Homerin məşhur "Odisseya" əsərini latın dilinə tərcümə edərək dünya ədəbiyyatı tarixində bədii tərcümənin bizə məlum nümunəsini yaratmışdır. Mirzə İbrahimov tərcüməyə belə münasibət bildirmişdir: "Tərcümənin xalqlar arasında böyük, yıxılmaz mədəni körpü olduğunu qeyd edib deyirəm ki, o, insanın ruhi aləmini, hissiyat və anlayışlarını zənginləşdirən güclü amillərdəndir. Tərcümə hər xalqın eyni zamanda dilini zənginləşdirə bilər. Bir şərtlə ki, gözəl olsa, səlis olsa, oynaq olsa". Bir çox ölkə, millət var və həmsöhbətləri başa düşmək o qədər vacibdir, çünki bir-birimizlə yanaşı yaşayırıq. Tərcümə insanların ən qədim peşələrindən biridir. Tərcümə tarixi göstərir ki, tərcümə bütün Şərq və Qərb sivilizasiyalarında

inkişaf etmişdir. Tərcümə nəzəriyyəsinin başlanğıcı hərfi və sərbəst tərcümənin əsas prinsiplərini əks etdirən Mark Siseronun adı ilə əlaqələndirilir. O, tərcümə ilə ədəbi yaradıcılığı ayırmaq lazım olduğuna işarə etmədi, "sözlər deyil, düşüncələr tərcümə olunur" tezisini irəli sürdü və itkilərin qaçılmaz olduğunu bildirdi. Müasir dövrdə qədim dünya və orta əsrlər alimlərinin fikirləri tərcümə fəaliyyətinin meyarlarına yanaşmada iki əks meyldə formalaşdı: 1) orijinal dilin hərfi surətdə çoxaldılmasına əsaslanan tərcümə; 2) orijinalın "ruhunu" qorumaq istəyinə əsaslanan tərcümə. Müasir dövrdə tərcümə məsələləri əsasən ədəbi mənbələrin tərcüməsinə tətbiq olunduğu kimi ədəbi mövqelərdən təhlil olunurdu. Bu tip tərcümə fəaliyyətinin mürəkkəbliyini və ümumiyyətlə ədəbiyyatın və mədəniyyətin təkamülündə tərcümənin vacib rolunu nəzərə alsaq, bu təbiidir. Məşhur ingilis şairi və tərcüməçisi J. Drayden üç növ tərcüməni ayırmağı təklif etdi: 1) "metafraz" - hərfi tərcümə; 2) "parafraz" - sərbəst tərcümə (orijinalın "ruhunun" ötürülməsinə əsaslanaraq orijinalın formal xüsusiyyətlərini əks etdirməyən tərcümə); 3) "təqlid" - orijinalın şəklini təqlid edərək yaradılan tərcümə, orijinalın mövzusundakı müxtəlif dəyişikliklər. Son illərdə fəaliyyətin müxtəlif sahələrində beynəlxalq əlaqələrin genişlənməsi və sürətli məlumat mübadiləsinə ehtiyacın yaranması ilə müxtəlif dillər və mədəniyyətlərin danışanları arasında səmərəli ünsiyyəti təmin edən vasitə kimi tərcüməyə maraq artmışdır.

Tərcümə mürəkkəb çoxşaxəli bir fenomendir, bəzi məqamları müxtəlif elmlərdə tədqiqat mövzusu ola bilər. Tərcümə işləri çərçivəsində tərcümə fəaliyyətinin psixoloji, ədəbi, etnoqrafik və digər aspektləri, habelə müəyyən bir ölkədə və ya ölkələrdə tərcümə fəaliyyətinin tarixi öyrənilir. Tədqiqat mövzusundan asılı olaraq tərcümənin psixoloji tərcüməşünaslıq (tərcümə psixologiyası), bədii tərcüməşünaslıq (bədii və ya bədii tərcümə nəzəriyyəsi), etnoqrafik tərcüməşünaslıq, tarixi tərcüməşünaslıq və s.növləri vardır. Müasir tərcüməşünaslıqda aparıcı yer tərcüməni linqvistik bir fenomen kimi tədqiq edən linqvistik tərcümə tədqiqatlarına (tərcümə dilçiliyi) aiddir. Tərcümə nəzəriyyəsi qarşısına aşağıdakı əsas vəzifələri qoyur:

- tərcümənin ümumi linqvistik əsaslarını aşkarlamaq və təsvir etmək, yəni. dil sistemlərinin və dilin işləmə qanunauyğunluqlarının tərcümə prosesinin əsasında dayandığını göstərmək, bu prosesi mümkün etmək və mahiyyətini və sərhədlərini müəyyənləşdirmək;
- tərcüməni linqvistik tədqiqat obyekti kimi müəyyənləşdirmək, digər dil vasitəçiliyi növlərindən fərqini göstərmək;
- tərcümə fəaliyyəti növlərinin təsnifatı üçün əsas hazırlamaq;
- orijinal və tərcümə mətnlərinin kommunikativ ekvivalentliyinin əsası kimi tərcümə ekvivalentliyinin mahiyyətini açmaq;
- müxtəlif dillər birləşməsi üçün xüsusi tərcümə nəzəriyyələrini qurmağın ümumi prinsiplərini və xüsusiyyətlərini inkişaf etdirmək;

- tərcüməçinin orijinal mətnin tərcümə mətninə çevrilməsi üçün etdiyi hərəkətlər kimi tərcümə prosesinin elmi təsviri üçün ümumi prinsiplər hazırlamaq;
- praqmatik və sosiolinqvistik amillərin tərcümə prosesinə təsirini aşkar etmək;
- "tərcümə dərəcəsi" anlayışını müəyyənləşdirmək və tərcümənin keyfiyyətini qiymətləndirmək üçün prinsiplər hazırlamaq. [6, 90]

Tərcümə dilçiliyinə nəzəri bölmələrdən əlavə tərcümənin tədrisi metodikası, müxtəlif məlumat kitabları və lüğətlərin tərtibi və istifadəsi, tərcümələrin qiymətləndirilməsi və redaktə edilməsi metodologiyası, habelə müxtəlif praktik məsələlər ilə bağlı bir sıra tətbiqi aspektlərin inkişafı daxildir və bunların həlli tərcüməçinin funksiyalarının uğurlu yerinə yetirilməsinə kömək edir. Tərcümə, istənilən halda, tərcüməçinin dil və ekstralinqvistik faktorların hamısını nəzərə alaraq, bilik və bacarıqlara, düzgün seçim etmək bacarığına malik olmasını tələb edən yaradıcı düşüncə fəaliyyətidir. Bu amillər, əsasən yaradıcı bir hərəkət nəticəsində intuitiv olaraq nəzərə alınır və ayrı-ayrı tərcüməçilər müxtəlif dərəcələrdə tərcümə prosesini uğurla həyata keçirmə qabiliyyətinə malikdirlər. Bu bacarığın yüksək dərəcəsinə tərcümə sənəti deyilir.

Tərcümə linqvistik proses, yəni dillərarası (interlinguistic) transformasiya (bir dildəki mətni digər dilə çevirmək) olub, məxəz dildəki mətnin hədəf dildə yenidən formalaşdırılmasıdır. Tərcümə prosesinin nəticəsində bir dildə yazılmış mətnin əsasında ikinci bir dildə formaca yeni, məzmunca birinci mətnə yaxın bir mətn meydana gəlir, yəni bu proses özü də bir fəaliyyət kimi tərcümədir. Məlumdur ki, orijinal mətn dəyişməz qalır, ancaq onun əsasında ikinci bir dildə yeni bir mətn yaradılır, yəni tərcümə faktı meydana gəlir. Başqa sözlə, burda transformasiya termini ancaq iki dilin sinxron təsvirinə tətbiq edildikdə bu mənada işlədilə bilər, bu zaman biz iki dil arasında müəyyən əlaqələrlə üzləşirik, bu iki dildən biri məxəz (source), digəri isə tərcümə (target) dili, yaxud hədəf dil adlanır, birincisi orijinalın, ikincisi isə tərcümənin dilidir. Bu dillərin ikisi birlikdə işçi dillər (working languages) adlanır, məxəz dil passiv (passive)y tərcümə dili isə aktiv (active) dil adlanır. Müvafiq olaraq məxəz mətn (source text), tərcümə mətni, hədəf mətn (target text) terminləri meydana gəlir. Məxəz mətn məxəz dildə yazılmış olur, mütərcim müəyyən tərcümə transformasiyalarından istifadə etməklə hədəf dildə yazılmış bir mətn yaradır. Bütün bu linqvistik və interlinqvistik əməliyyatların cəmi linqvistik anlamda tərcümə prosesini təşkil edir. Beləliklə, tərcümə transformasiyanın bir növü, daha dəqiq desək, dillərarası (interlinguistic) transformasiya kimi səciyyələndirilə bilər.[2, 7-8] Tərcümənin iki növü var: yazılı və şifahi tərcümə. Yazılı tərcümə - məzmunun yazılı şəkildə tərcümə edilməsidir. Şifahi tərcümə isə vebinarlar iclaslar keçirilən zaman orada söylənilən nitqlərin tərcüməsidir. Şifahi tərcümə 2 yerə bölünür: ardıcıl və sinxron. Ardıcıl tərcümə - bir abzasın və yaxud nitqin bölünən hissələrinin tərcüməsidir; sinxron tərcümə isə natiqlə tərcüməçinin eyni zamanda işləməsidir. Sinxron tərcümə şifahi tərcümənin ən çətin növüdür. Hər iki növ tərcümə

peşə hazırlığı vərdişlər və qabiliyyətlər tələb edir. Tərcüməçi yazılı tərcümədə materialı təkrar nəzərdən keçirmək imkanına malik olur. Lakin şifahi tərcümədə bu mümkün deyil. Şifahi tərcümədə dəqiqlik 70% gözlənildiyi halda, yazılı tərcümədə isə bu 99% gözlənir. Müxtəlif beynəlxalq təşkilatlarda tərcüməçi kimi fəaliyyət göstərən şotland şairi və yazıçısı C.F.Hendri tərcümənin bu iki növünü müqayisə edərəkən şifahi tərcümə ilə bağlı məsələni belə ümumilləşdirir: "Burada dəqiqlik sürət qədər vacib deyil. Dilmanc səhv edə bilər, bunun üstündən keçmək olar. Amma tərcüməçi heç vaxt səhv edə bilməz".

Tərcümə fəaliyyətinin uğurlu və ya uğursuz olmasının ilk növbədə tərcüməçinin ixtisasına və istedadına, xarici və ana dilində nə qədər yaxşı danışmasına, yəni subyektiv amillərə bağlı olduğuna inanılır. Tərcüməçi informasiyanı qəbul edib, yadda saxlayıb və düzgün şəkildə ötürməlidir. Bildiyimiz kimi, dillərin öyrənilməsi birbaşa beyinlə əlaqədardır. Tərcümə zamanı yaddaşdan istifadə edilir. Yaddaşla bağlı çox araşdırmalar aparılmışdır. Belə araşdırmalardan birini də ilk dəfə 1968-ci ildə Riçard Atkinson və Riçard Şifrin etmişdir. Onlar, yaddaşın 3 növün müəyyənləşdirmişdirlər; qısamüddətli, həssas yaddaş, uzunmüddətli. Qısamüddətli yaddaş - əsas informasiyanın əsas hissəsi beynə yüklənir və beyndə təmizlənir. Məhz bu vəziyyətdə eşitdiklərimiz informasiyaya çevrilir və biz onu çatdırırıq. Sinxron tərcümə zamanı qısamüddətli yaddaşdan istifadə edilir. Şifahi tərcümədə yaddaşın 2 tipi əsas sayılır: görmə və eşitmə Uzunmüddətli yaddaş - məlumatın uzun müddət yaddaşda qalmasıdır. Qəbul edilən informasiyalar həyatı boyu qalır.

Tərcümə sənətdir, ona yiyələnmək üçün dil, məxəz mətnin mövzusu və dünya haqqında bilgidən əlavə, tərcüməçi istedadına, yaxşı yazılı və şifahi nitq qabiliyyətinə, yaradıcı təfəkkürə malik olmaq lazımdır.Tərcümə edən şəxsin diqqəti, yaddaşı, düşünmə qabiliyyəti sürətlə inkişaf edir və beyni gücləndirir. Lakin psixoloji cəhətdən tərcüməçi beyninin yükü tərcümə zamanı bir sıra psixoloji mexanizmlərlə fəallaşır: 1) informasiyanın qəbulu 2) dərk etmə 3) yadda saxlama 4) yeni nitqin yaranması 5) nitqin qurulması 6) informasiyanın ötürülməsi

Hər bir mətn nitq fəaliyyətinin məhsuludur və tərcüməçi üç məqamı nəzərə almalıdır:

1. Mətnin (ünsiyyətin) mövzusu, yəni mətn nədən bəhs edir (subject matter);
2. Ünsiyyətin baş verdiyi situasiya (context, situation);
3. Ünsiyyət prosesinin iştirakçıları (sender and receiver of the message)[2, 10]

Hətta görkəmli alim Nəsrəddin Tusi yaddaşı qiymətləndirmiş və onun elm sahəsində necə rol oynadığını və elmin düşməninin məhz yaddaş zəifliyi olduğunu bildirmişdir.

Dil öyrənildikdə beynin hər iki yarımkürələri qarşılıqlı fəaliyyət göstərir. Beynin yarımkürələri ilə bağlı çoxlu araşdırmalar aparılmışdır. Bu araşdırmalarda Robert Ornstyen, Cef Anderson kimi alimlərin rolu olmuşdur. Araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, sol beyin yarımkürəsinə riyaziyyat məntiq

qrammatika təhlil və yazı aiddir. Sağ tərəfə isə musiqi yaradıcılıq rəng qavrayışı və təxəyyül aiddir. [8]

Beyin bizim mərkəzi orqanımızdır və bizim hərəkətlərimizi, emosiyalarımız idarə edir. Bu sistemin işləməsi həyatımız boyu davam edir. Beynimiz biz fiziki və zehni işlə məşğul olduqda daha da aktivləşir.Əgər biz tərcümə ilə məşğul oluruqsa, bu zaman 2 dəfə artıq aktivləşməyə başlayır.

Tərcümə zamanı neyronlar aktivləşməyə başlayır. 2000-ci ildə Rin və onun həmkarları tərəfindən sinxron tərcümə müddətində ilk öncə sol yarımkürənin neyronları aktivləşib, daha sonra isə sağ yarımkürə fəaliyyətə başlayıb. Araşdırmalar onu göstərir ki, tərcümə zamanı hər iki yarımkürə fəaliyyət göstəriblər. Tərcümə zamanı tərcüməçi tez deyiləni qavramalı, nitqini hazırlamalı və informasiyanı tez ötürməlidir.Tərcümə zamanı sağ və sol yarımkürələr qarşılıqlı fəaliyyət göstərir.Bu aktivlik və gərginlik nəticəsində beyin yorulur.Bu baxımdan tərcüməçilik çox ağır sənətdir.Burada beyin funksiyası güclənir. Lakin davamlı bir neçə saat davamlı tərcümə etdikdə beyin funksiyası zəifləməyə başlayır. Bu da tərcüməçinin yorulmasına səbəb olur. Buna görə də dilmancdan ən azı yarım saat fikrini toplamaq tələb olunur. Məhz dilmancın bu fiziki imkanını nəzərə alaraq sinxron tərcümə kabinəsində dilmanclar 20-30 dəqiqədən bir əvəz oluna bilərlər. Bəzi tərcüməçilərin məsləhətinə görə yaddaş kifayət qədər yükləndikdə dilmanc məruzəçiyə dayanmağı xahiş edə bilər. Bunları nəzərə alaraq tərcümə sənətinin necə ağır, gərgin və məsuliyyətli olduğunun bir daha şahidi oluruq. Tərcüməçi tərcümə etməklə yanaşı tərcümə etdiyi şəxslərin hislərini də düzgün çatdırmalıdı. Bu zaman fikirlər və emosiyalar birləşərək dinləyənlərin diqqətini cəlb edir və tərcümə maraqsız, monoton olmur. Əlbəttə, bu zaman beyin sürətlə işləyir və tez düşünüb cavab verməyə hazır olur. Bütün bu araşdırmalar sübut edir ki, beyin tərcümə vaxtı daha aktiv olur və bu da beyində yorğunluğa səbəb olur. Tərcümə və beyin daim bir-birilə əlaqədədərdir. Hər şey beyindən asılı olduğu kimi tərcümə də beyindən asılıdır.

BUDAGOVA AYNUR

INTERPRETATION PROCESS, BRAIN AND LANGUAGE
SUMMARY

The article deals with the translation process, the relationship between translation and the brain, and the role of languages in the translation process. Each type of activity has its own characteristics. Translation dates back to the time when people who spoke different languages came together as a means of communication. Translation theory arises and is formed during the solution of problems encountered in the translation process. Translation is primarily characterized by being an action based on understanding; a methodologically managed process, ie carried out in

accordance with a certain strategy of action, a certain system of analysis and synthesis. The article emphasizes that the translation process is a complex and multifaceted process, lists the main tasks facing the theory of translation, and emphasizes that translation is the main means of communication both in a large geographical area, between countries and peoples, and between past and present. The author notes that translation has a long history, the success or failure of translation depends primarily on the qualifications and talent of the translator, how well he speaks in a foreign and native language, and that the text is the product of speech activity. The author also notes that the translator must take into account three points and that the translator must be able to quickly grasp what is being said, prepare the speech and convey the information quickly. The article notes the activity of the cerebral hemispheres during the translation process, the importance of memory during translation and the active work of the translator's brain with a number of psychological mechanisms during translation. The article also emphasizes that the brain controls our movements, emotions, and neurons become active during translation. The author tries to emphasize that language, which is the main means of communication between people, consists of a system of signs, and in the process of communication we are not indifferent to these signs, we express our subjective attitude to references expressed by signs. All these studies show that the brain becomes more active during translation, which leads to fatigue in the brain. Translation and the brain are always interconnected. Just as everything depends on the brain, translation also depends on the brain.
Key words: brain, interpretation, neuron, memory, attention

БУДАГОВА АЙНУР

ПРОЦЕСС ПЕРЕВОДА, МОЗГ И ЯЗЫК
РЕЗЮМЕ

В статье обсуждается процесс перевода, взаимосвязь между переводом и мозгом, а также роль языков в процессе перевода. У каждого вида деятельности есть свои особенности. Перевод восходит к тому времени, когда люди, говорящие на разных языках, объединялись в качестве средства общения. Теория перевода возникает и формируется при решении проблем, возникающих в процессе перевода. Перевод в первую очередь характеризуется тем, что является действием, основанным на понимании; методологически управляемый процесс, т. е. осуществляемый в соответствии с определенной стратегией действий, определенной системой анализа и синтеза. В статье подчеркивается, что процесс перевода - сложный и многогранный процесс, перечисляются основные задачи, стоящие перед теорией перевода, и подчеркивается, что перевод является основным средством коммуникации как

на большом географическом пространстве, между странами и народами, так и между прошлым и подарок. Автор отмечает, что перевод имеет долгую историю, успех или неудача перевода зависит в первую очередь от квалификации и таланта переводчика, от того, насколько хорошо он говорит на иностранном и родном языках, и что текст является продуктом речевой деятельности. Автор также отмечает, что переводчик должен учитывать три момента и что переводчик должен уметь быстро понимать, что говорится, готовить речь и быстро передавать информацию. В статье отмечается активность полушарий головного мозга в процессе перевода, важность памяти при переводе и активная работа мозга переводчика с рядом психологических механизмов во время перевода. В статье также подчеркивается, что мозг контролирует наши движения, эмоции и нейроны становятся активными во время перевода. Автор пытается подчеркнуть, что язык, являющийся основным средством общения между людьми, состоит из системы знаков, и в процессе общения мы не безразличны к этим знакам, мы выражаем свое субъективное отношение к выраженным знаками обращениям. Все эти исследования показывают, что во время перевода мозг становится более активным, что приводит к его утомляемости. Перевод и мозг всегда взаимосвязаны.
Ключевые слова: мозг, интерпретация, нейрон, память, внимание

ƏDƏBİYYAT

1. Abdullayeva F. Peşəkar tərcumənin əsasları Bakı, 2010.
2. Bayramov Q.H. Tərcümə sənəti Bakı, 2008.
3. Tərcumə sənəti Məqalələr məcmuəsi Bakı, Elm, 1990.
4. Johnston David Stages of Translation L., 1996.
5. Oxford Advanced Learner’s Dictionary, Oxford University Press, 2007
6. Гарбовский Н.К. Теория перевода. М.: Издат. МГУ, 2007
7. az.wikipedia/org/wiki/Beyin yarıkürələrinin funksiyaları
8. http//education/left-right brain hemisphere brain learning foreign language

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, Cavadova Pərvanə Azər qızı tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYNOVA ÜLKƏR ELMAR
AMEA Nəsimi adına Dilçilik İnstitutu
huseynova.ulker.28@gmail.com

XVI ƏSR TƏRCÜMƏ ABİDƏSİ "ŞÜHƏDANAMƏ"DƏ HƏRBİ TERMİNOLOJİ LEKSİKA

Xülasə

Hər hansı bir sözün yaranması və ya dilə daxil olması zərurət və ehtiyacla bağlı prosesdir. Zaman keçdikcə dilin lüğət tərkibinin bu sözlər hesabına zənginləşməsi müxtəlif sahələrdə olan inkişafın göstəricisidir. Daima dəyişmədə olan belə sahələrdən biri hərbi sahədir. Hərb, döyüş, savaş anlayışı qədim dövrlərə gedib çıxan tarixə malikdir və daima təkmilləşməkdə olan üsullarla həyata keçirilir. Əvvəllər döyüşçülər düşmənlə mübarizə zamanı yay və oxdan istifadə edirdilərsə, sonralar həmin alətləri müxtəlif silahlar əvəz etmişdir. Təbii ki, bəzi leksik vahidlər(ordu və s.) vardır ki, onlar uzun müddət dildə işlənmiş, bu və ya digər fonetik dəyişikliklərə məruz qalmasına baxmayaraq, indi də öz işləkliyini qoruyub saxlamışdır. Bununla belə, müxtəlif əsrlərə aid yazılı abidələrin leksikasını təşkil edən hərbi terminlərin çoxu müasir ədəbi dil üçün tam şəkildə arxaikləşmişdir. Xüsusilə, orta əsrlərə aid bədii nümunələrin üzərinə daha çox ağırlıq düşür. Belə əsərlərdən biri XVI əsr mütərcimi Məhəmməd bin Hüseyn Katib Nişati tərəfindən yazılmış "Şühədanamə" tərcümə abidəsidir. Əlyazma haqqında ilkin qısa məlumat verən akademik Həmid Araslı başlıca olaraq dilinin sadəliyi ilə seçildiyini və "Dədə Qorqud" dastanlarının dilini xatırlatdığını irəli sürmüşdür. Doğrudan da, tərcümə abidəsi ana dilimizə məxsus sözlərin üstünlüyü ilə seçilir.

"Şühədanamə"nin türkmənşəli leksik vahidlərlə zənginliyi başlıca olaraq həyatın bütün sahələrinə aid sözlərin onun dilində öz əksini tapmasıyla əlaqədardır. Tərcümənin dili bütövlükdə XVI əsrin həm ədəbi-bədii dilinin, həm də xalq danışıq dilinin leksik-semantik mənzərəsini təsəvvür etməyə imkan verir. Bu dövrdə hərbi döyüşlərin tez-tez baş verdiyindən uyğun leksik vahidlərin də yaranması və yazılı abidələrə sirayət etməsi təbii bir haldır. Lüğət tərkibinin özünəməxsusluğu ilə seçilən "Şühədanamə" hərbi anlayış bildirən leksikası ilə də fərqlənir. Tərcümə dilində işlənən hərbi terminlər işlənmə məqamları, mənaları, sonrakı dövrlərdə ədəbi dildə yaşamalarına görə fərqlənir. Bu arxaizmlərin bir qismi müasir şivələrdə, bir qismi digər türk dillərində fəal işlənməkdədir. Habelə "qəytul", "təvağçı", "ulca" kimi spesifik leksik vahidlər vardır ki, anadilli digər yazılı abidələrimizdə təsadüf olunmur.

Açar sözlər: hərbi termin, Şühədanamə, arxaizm, yazılı abidə, leksik vahidlər.

Türk dünyasının bədii söz xəzinəsi "Kitabi_Dədə Qorqud"da geniş yer alan döyüş səhnələri ilə bağlı anlayış və məfhumları ifadə edən leksik vahidlərin əksəriyyəti sonrakı dövr klassik ədəbi nümunələrdə ənənəvi şəkildə davam etdirilmişdir. Düzdür, XIII-XVII əsrlərdə ərəb-fars dillərinin təzyiqinə məruz qalmış, lakin xarici təsirlərə baxmayaraq, türk hərbi terminlərin üstünlüyü özünü göstərmişdir. Hətta başqa dillərə keçdiyi də müşahidə olunur. XVI əsrdə hərb mənalı leksik vahidlər haqqında müəyyən təəssüratın yaradılmasında dövrün görkəmli mütərcimi Məhəmməd bin Hüseyn Katib Nişatinin qələmə aldığı "Şühədanamə" tərcümə əsəri müəyyən köməklik edir. Tərcümə abidəsinin dili türkmənşəli leksikasının spesifikliyi, rəngarəngliyi ilə seçildiyi kimi, hərbi terminoloji qatındada orta əsrlər üçün xarakterik sözlərlə yanaşı, nadir hallarda rast gəlinən leksik vahidlər də yer almışdır. Abidənin dilində lüğəvi mənalı sözləri semantik baxımından təsnif edən akademik Möhsün Nağısoylu hərbi leksikaya aşağıdakı leksik vahidləri daxil etmişdir: "Hərbi leksikologiyaya aid arxaizmlər: bəglərbəgi - baş komandir, çalış - çarpışma, əlbəyaxa döyüş; çəri - qoşun, ordu; qol - ordunun yan tərəfi; tip - ordunun mərkəzi; tuqçı - bayraqçı, bayraqdar; uğraş - çarpışma; döyüş və s. Əyğağ - casus, qəytul - hərbi düşərgə, təvacı - əsgəri dəstə başçısı, ulca - əsir sözlərini də bu qrupa aid etmək olar"(28). Bunlar içərisində "çəri" və "tip" arxaizmlərindən əvvəlki məqalələrdə söz açdıq. Digər leksik vahidlərin bəzilərini nəzərdən keçirək.

Dutsaq – *dustaq.*"Bu dutsaqların çevrəsində iraq ol "(118a). Azərbaycan alimi Həsən Zərinəzadə qeyd edir ki, dustaq "tutsaq" sözünün dəyişilmiş formasıdır və "tutsamaq" feilindən yaranmışdır(25, s.305). Buna görə də tədqiqatçı professor Əbdüləzəl Dəmirçizadənin "tut saxla" söz birləşməsi sadələşərək "dutsaq" formasını alması fikri ilə razılaşmır(25, s.305). Professor Bəkir Çobanzadə isə *tut* və *-saq* hissələrindən ibarət olduğunu irəli sürmüşdür. Arxaik şəkilçi *-saq, -sək* "bağırsaq", "sarımsaq", "qursaq", "yüksək" kimi sözlərin tərkibində qalmışdır(6, s.130). Dilimizdə sözün şəkilçiləşməyə doğru inkişaf edərək söz yaradıcılığında iştirakını nəzərə alsaq, *-saq* şəkilçisinin də saxlamaq feilindən yarandığını düşünmək olar. Ancaq fonetik arxaizmin daha əski mətnlərdə fərqli səs tərkibi ilə işlənməsi yuxarıdakı fikirləri şühbə altına qoyur. Professor Əlisa Şükürlü "tutsık" kəlməsinin "tutuş, tutduğu, saxlanmış, mühafizə" mənalarını qeyd etmişdir(23, s.322). Bununla yanaşı, müəllif "il tutsıkı (KT 10) el birliyi, el mühafizəsi" anlamını da göstərir(23, s.172). "Divanü lüğat-it-türk"də də demək olar ki, eyni fonetik variantla qarşılaşırıq: "Tutsukdı: ər yağıka tutsıkdı = adam düşmənə əsir düşdü, tutuldu, yaxalandı"(11, II, s.231). Buradan belə nəticəyə gəlmək olur ki, "dustaq" sözü vaxtilə mürəkkəb söz və ya söz birləşməsi olub, "tutmaq" və "sıxmaq" feillərinin birləşməsindən yaranmış, səs tərkibinin dəyişməsi ilə əlaqədar olaraq sadə sözə çevrilmişdir. Həmçinin *bağırsaq, yüksək, sarımsaq, qursaq* kimi sözlərinin yaranma yollarına diqqət yetirdikdə "bağır" ismindən "bağırsuk" (11, IV, s.64), "yüksəmək"(11,IV, s.712) feilindən "yüksək" sözü yaranmış, "kuruğsak" (11,IV, s.347), "sarmusak", "samursak"(11,IV, s.440) isə "qursaq" və "sarımsaq" isimlərinin qədim şəkli

olduğunu görürük. Bir sözlə, bu leksiklərin bəziləri arasında uyğunluq olsa da, "tutsaq" sözünün kökü feil olduğundan onlarla eyni cərgəyə daxil etmək düzgün deyil.

Qəytul – *hərbi düşərgə.* "İmam Hüseynün, xidmətindən dişxarı çıxub, öz qəytulinə qayıtdı"(205a). Rus türkoloqu Lazar Budaqovun lüğətində qeyd edilir ki, cağatayca *qiytul* düşərgə mənasını verir(5, II, s.102). Tarama sözlüyündə "kuytul" *ikametgâh, karargâh* kimi izah edilir(24, IV, s.2762). "Derleme sözlüğü"ndə isə "kuytul" *çukur, kuytu yer* anlamına təsadüf edilir(7, VIII, s.3021). Sözün birinci hecası olan "kuy" *dərə, dib, tənha yer*(11, IV, s.351) kimi ayrıca semantikaya malikdir. Bu sözdən dilimizdə *quyu, quyuçu, quytul* kimi leksik vahidlər yaranmışdır. Bundan başqa, "Taramadan dərləmə sözləri" adlı izahlı lüğətdə "qoytul" *kuytul(tarama), qoyuq, oturağ* ilə yanaşı, "qoytulmaq" *quylanmaq, bir yerə girib sığınmaq* feili də verilmişdir(27, s.129).Akademik Möhsün Nağısoylu və Mədət Məmmədov "qəytul" sözünün izahında "düşərgə, hərbi düşərgə" qeyd edir. Əlavə olaraq, akademik Möhsün Nağısoylu göstərir ki, bu sözün qarşılığı əsərin orijinalında mövcud deyil(17, II, s.94). "Qəytul" müasir Azərbaycan ədəbi dilində işlənməməsinə və dialetlərimizdə təsadüf edilməsə də, bəzi yer adlarında qalmışdır. "Qərbi Azərbaycanın türk mənşəli toponimləri"ndə İrəvan quberniyasının Əştərək rayonunun Qoytul kəndindən bəhs edilərək yazılır: "Toponim Azərbaycan dilində «çuxur, çökək, dərin yer» mənasında işlənən quytul sözü (253, s.123) əsasında əmələ gəlmişdir. Qoytul quytul sözünün fonetik variantıdır"(4, s.111). Habelə Şərur-Dərələyəz qəzasında da "Qoytul" adlı kənd olmuşdur ki, sonralar bu ərazidə ermənilər məskunlaşdırılaraq "Qetabi" adlandırılmışdır(29) "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə isə Daşkəsən rayonuna məxsus Quytul kəndin adının "qiytul"(düşərgə) sözü ilə əlaqədar olduğu bildirilir: "Oykonim türk dillərindəki *qiytul*(düşərgə) sözü ilə əlaqədardır. Yerli tələffüz forması Qotuldur. Keçmişdə maldar elatların yaylaq yeri olduğuna görə belə adlandırılmışdır"(2, s.78)."Словарь Тюркизмов в Русском Языке" kitabında "koytul" *əsas iqamətgah* kimi mənalandırılır(22, s.182). Başqa bir mənbədə isə "ordu" sözünə bərabər hesab edilərək *xan və ya əmirin qərargahı, yerləşməsi* olaraq izah edilmişdir(13, s.423). "Qəytul" sözünün "Şühədanamə"dən başqa digər bədii örnəklərdə rast gəlinməmişdir. Bunu iki nöqteyi-nəzərdən izah etmək olar. Birincisi, arxaizmin xalq həyatı ilə bağlı olması və toponimlərin adlandırılmasında istifadə olunması göstərir ki, sırf dialekt söz olmuş, ədəbi dil səviyyəsinə qalxa bilməmişdir. Digər tərəfdən isə hərbi sahədə işləndiyindən, yəni peşə leksikası olduğundan geniş əhatə dairəsinə malik olmamışdır.

Sadaq – *ox qabı.* "Bir yay belində bir münəqqəş sadaq dobtalu ox gəldi"(250a). "Sadaqda oxum kişin dələr"(12, s.141) Tarama sözlüyündə "ok və yay çantası" kimi izah olunmuşdur(24, V, s.3219). "Taramadan dərləmə sözlər"də isə belə göstərilmişdir: "Sadaq 1)cəvlək, ox qabı 2) ox yay çantası, belik yanında olan ox qabı"(27,s.156). Türk alimi Tuncer Gülensoyun lüğətində "Sadak ok kılıfı, okluk"

olaraq qeyd edilmişdir(10, II s.107). “Moğolca-Türkçe Sözlük”də monqol dilindən “sagadag” sözündən alındığı göstərilərək *kubur, ok kuburu, tirkeş* şəklində mənalandırılır.(16, s.92). Türk dilində “kubur” boru şəklində qabdır. Rus alimi Lazar Budaqov *verкожаная сумка, в которую кладут лук и стрелы, ножны сабли* kimi izahlarını vermişdir (5, I, s.622). Türk dillərinə aid tədqiqat işi yazmış Şipova *саадак, саґадак, саґайдак, сайдак* fonetik variantlarını və müxtəlif mənbələrdə işlənməsini göstərmişdir(22, s.245). Vasili Radlov lüğətində “садак” sözü ilə əlaqədar 1)Kir лукъ со всеми принадлежностями 2) лукъ и футляръ для лука 3) колчанъ 4) ножны şəklində yuxarıda deyilənlərə uyğun, habelə geniş şərhini vermişdir (20, IV, s.383). Göründüyü kimi, “sadaq” arxaik sözünün göstərilən mənaları və verilən izahları az və ya çox dərəcədə bir-birinə uyğundur.

Təvağçı/tavaqçı – *hərbi dəstə başçısı.*“Ol Şam ləşgərinün, təvağçısı idi”(270a). Müharibə gözlənilən təqdirdə tabeliyindəki əyalətlərə gedərək, hərbi qüvvə toplayan və ayrı-ayrı qoşun dəstələri arasında əlaqə yaradan əmirlər belə adlanmışlar(9, s.47). Vasili Radlovun lüğətində bu söz “təvaçi” şəklində qeyd olunmuş və onun aşağıdakı mənaları göstərilmişdir: 1)hərbi inspektor, 2) qulluqçu, 3)dəvəotaran (135, III, 1127)”(17, II s.97).Təvaçıların başçısı isə “təvaçıbaşı” adlandırılmışdır(21, s.41). “Təvaçı”nın əvəzinə “tuğaçı” (s.456), “tuqaçi” (s.48 şahin) sözləri də işlənmişdir. Habelə “tuğaçı” isminin *bayraqdar, bayrağı tutan şəxs* olaraq izahları verilmişdir (21, s.261, 31). Həsən Zərinəzadə “təvaçı” sözünün mənalarından biri kimi “carçı”nı göstərir(25,s.229) ki, bu da *xəbər aparan* mənası verən “tuğaçı”ya bir daha yaxınlaşdırır. Bundan başqa, tədqiqatçı *qıvraqlıq, cəldlik* anlamlarında olan *tavraqçını* “təvaçı”nın qədim forması hesab edir(25, s.229). “Tavraq” sözünün kökü olan “tav” və “tavra” sözləri arasında uyğunluq aşkar özünü göstərsə də, “təvaçı” ilə yaxınlığını tam şəkildə görmək olmur(“**Taw** sıçramak , zıplamak”, “**tawra** acele etmek”(10, II s.267), “**taw**-qənaət etməmək”(11,IV, s.516), “**tawra**-davranmaq; böyümək; qüvvətlənmək”(11,IV, s.518)). Fikrimizcə, “təvaçı” sözü “tuğ” ismindən yaranmış və *tuğçu, tuğaçı* sözlərinin fonetik dəyişikliyə uğramış formasıdır.

Tuq – *bayraq.* “Tuq ilə ələmləri durğuzdular”(64a).“Kitabi-Dədə Qorqud”da eyni mənada, lakin “tuğ” şəklindədir: “Boyı uzun Burla xatun qara tuğın kafiriñ qılıcladı, yerə saldı”(12, s.93). “Tuğ” hal-hazırda dilimizdə işlətdiyimiz “bayraq” sözü ilə tam şəkildə eyni məzmunu ifadə etmir, bayrak sözünün qədim şəkli “batrak” ucuna ipək parça bağlanmış nizə, mızraq hesab edilmişdir(11, IV, s.78). “Tuğ” leksik vahidi isə birdən çox məna və funksiya ifadə etmişdir. “Türk əfsanə lüğəti”ndə “tuğ” haqqında belə qeyd verilir: “Tarixi bilgilərə görə tuğ başında at və ya çöl öküzü quyruğu bağlanan nizədir. Tuğ bayraq və sancaqdan fərqli bir bəlgə idi. Bu bəlgə ordu, qoşun başçılarına təqdim olunurdu”(14, s.205). “Lehçe-i Osmani”də də oxşar izaha rast gəlinir : “Tuğ aslında kuyruk ve tüy mânâsına kutas kuyruğundan yapılan alem”(26, s.863). Keçmişdə igidlər vurduqları heyvanların şəklini bayraqlara həkk edirmişlər. Hökmdarların mal-qara quyruğundan hazırlanmış tuğu olardı(8,

s.122) "Qutadqu bilik"də tuğ xaqanlıq rübtəsi hesab edilmişdir(8, s.155). "Xanın vilayəti nə qədər çox, dərəcəsi nə qədər yüksək olursa-olsun, tuğu doqquzdan artıq ola bilməz. Çünki bu, uğurlu rəqəmdir. Bu tuğlar turuncu rəngli ipəkdən və ya qumaşdan tikilir, bu rəng uğurlu rəng sayılır"(11, III, s.135). Həmçinin "Divanü lüğat-it-türk"də ikinci mənası kimi "tuğ" *xaqanın yanında çalınan nağara (kös) və davul* kimi göstərilir (11, III , s.135). Digər mənbədə isə davula bağlı olduğu və ya onunla bərabər tikildiyi qeyd edilir(30, s.130). "Azərbaycan dilinin izahlı lüğəti"ndə "bayraq" ilə yanaşı, "qədimdə padşahların, vəzirlərin və ya yüksək rütbəli şəxslərin baş geyimlərinə taxdıqları tük və ya saçaq şəklində bəzək" və "keçmişdə məhərrəmlik mərasimində güzgülər və s. ilə bəzədilmiş cürbəcür şəbih və dəstə əlaməti" anlamları verilmişdir(1, IV s.373). Hətta türklərdə matəm əlaməti kimi atın quyruğu kəsilərək tuğ şəklində məzara basdırlmışdır(18, s.332). Göründüyü kimi, "tuğ"un xarici görünüşü "tük" şəklində olmuşdur. Bu da "tük" leksik vahidi ilə kökdaş olması fikrini təsdiqləyir. Tüncer Gülensoy "tū" tıkamak, kapamak feilindən yarandığını qeyd etmişdir(10,II, s.326). Sözün kökü həm "tuğ, həm də "tük" sözünə uyğundur. "Sancağın tepesine takılan at kuyruğu, kıldan yapılan flama, uğur ve kut işareti olaraq kullanılır olmasına karşın, bundan daha çok da savaş isteği, başkaldırı ve isyan sembolü olaraq kullanılmıştır"(31, s.261). Arxaizmin real varlığı bildirməsi ilə yanaşı, yüksək mənəvi istəklə bağlı olmasının nəticəsidir ki, qədim türklərdə hökmdarların adlarının birinci hissəsi üçün "tuq" sözü səciyyəvi olmuşdur. "Orta Türkçe Sözlük"də "tov" və "totu" fonetik variantlarına da təsadüf edirik(3, s.329). Həsən Zərinəzadə həm "tuq", həm də "tuğ" sözünü vermiş və "tuq" sözünü "müharibədə qoşun hissələrinin önündə aparılan bayraq", "tuğ"u isə sadəcə "bayraq" olaraq izah etmişdir(25, s.241). Semantikanın genişliyi artıq fars dilində leksik vahidin orfoqrafik baxımından ikiləşməsinə, konkretləməyə doğru getməsinə gətirib çıxarmışdır.Tədqiqatçı Təbriz dialektində bir idiomun tərkibində işləndiyini də göstərmişdir: "Quyruq deyil, tuğdu, tuğ"(25, s.241).

Ulca–*əsir.*"Əhli-beytin məhəzzərati ulcalar kimi şəhrə-şəhrə gəzdürdilər"(328b). Bu cümlələrdəki ulcalar sözünün farsca mətndəki qarşılığı əsiran və əsari(əsirlər) sözləridir(17, s.98). Tuncer Gülensoy müxtəlif mənbələrdə olan "olca"/"olcai" qənimət, "olca" döyüş qəniməti, "old'o" əsir, dustaq fonetik variantlarını göstərir(10, II , s.18). Monqol dilində "olca"/"olcai" sözlərinin "ol" *bulmaq, sahib olmaq* feillərindən törəndiyi qeyd edilir(19, s.146). Türklərin dilində yalnız bir mənasına təsadüf olunan "olca"nın monqolca semantik dairəsi olduqca genişdir: "bulma , bulus; bulgu , buluntu; gelir, edinim, kazanç; kêr, kazanma; saves esiri; ganimet, yagma, çapul"(16, s.954). Bu dildə *ol, olci, olcala* feillərini sinonim feillər hesab etmək olar, çünki hər üçü eyni sözlə bağlı olaraq *ele geçirmek, elde etmek, zaptetmek, esir almak* mənalarını ifadə edir(16, s.949, s.954).

Azərbaycan dilinə, ədəbiyyatına, həmçinin tərcümə və dinşünaslığına böyük töhfə verən əsər gizlində qalmış xəzinə təsiri bağışlayır. Abidənin dilinin hərbi leksik qatının qısa təhlili və müşahidəsi göstərir ki, lüğət tərkibini təşkil edən hər bir sözün

sturukturu və tərkib elementlərinin etimologiyası olduqca maraqlı və mənaca dərin məlumatlarla zəngindir. İki və artıq hecalı hərbi terminləri bu gün tərkibinə görə parçalamaq mümkün olmasa da, onlar üzərində araşdırma nəticəsində aydın olur ki, belə sözlər sadə söz köklərindən və ya kök və şəkilçidən ibarət olmuşdur. Bəzilərinin şəkilçi hissəsi aydın müşahidə olunsa da, kökünün ilkin mənasını bərpa etmək o qədər də asan deyil.

XVI əsrdən dövrümüzə yadigar qalan dəyərli abidənin hərbi terminoloji leksikası "Dədə Qorqud" dastanlarındakı leksik vahidlərin bu və ya başqa şəkildə təkrarı olmaqla öz dövrünün inkişaf səviyyəsinə uyğun əlavələr, yeni yaranan terminlər hesabına zənginləşmələrlə müşayiət olunur. Bu da ənənələrə sadiqliklə yanaşı, xalq dili əsasında yeni yaranan terminlərin ədəbi dilə daxil edilməsi səyinin nəticəsidir.

ƏDƏBİYYAT SİYAHISI

1.Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. S-Z. Bakı, Şərq-Qərb, 2006, 712s.

2.Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə.II cild. Bakı, Şərq-Qərb, 2007, 304s 3.Bayat F. Orta Türkçe Sözlük: 11. - 17. Yüzyıllar. İstanbul, Yalın Yayıncılık, 2008, 386s.

4.Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, "Elm", 2002, 346s.

5. Будагов. Л.Сравнительный словарь турецко-татарских наречий: 2 тома. Санкт-Петербург, типография Императорской Академии наук, 1869-1971.

6.Çobanzadə B.V. Seçilmiş əsərləri. Beş cilddə. V cild.Bakı, Şərq-Qərb, 2007, 261s.

7.Derleme sözlüğü. 12 cilddə.VIII cild. Ankara , Ankara Üniversitesi Basımevi, 1993, 246s.

8.Esin E.Türk kozmolojisine giriş. İstanbul, Kabalcı yayınevi, 2001, 188s.

9.Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə). Bakı, Elm nəşriyyatı, 1983, 152s.

10.Gülensoy T. Türkiye Türkcesindeki Türkce Sozcüqlerin Köken Bilgisi Sözlüğü. İki cilddə. II cild. Ankara, Türk Dili Kurumu Yayınları, 2007, 595s.

11. Kaşğari M. "Divanü Lüğat-it-Türk". Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər. IV cilddə. Bakı, Ozan, 2006.

12.Kitabi-Dədə Qorqud.Əsli və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər" nəşriyyat, 2004, 376s.

13.Книга хожений. Записки русских путешественников XI-XV вв. / Сост., подгот. текста, пер., вступ. статья и коммент. Н. И. Прокофьева. Москве, "Советская Россия", 1984, 448 с.

14.Qaraqurd D. Türk əfsanə lüğəti. Türkiyə, E-kitab, 2012, 250s.

15.Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərnəşr. 1994. 248 s.

16.Lessing F. D. Moğolca-Türkçe Sözlük. İki cilddə. II cild. Çevirmen: Günay Karaağaç. Ankara, Türk Dil Kurumu Yayınları, 2003, 835s.

17.Nağısoylu M. Z. Seçilmiş əsərləri (2 cilddə). II cild. Bakı, Elm, 2017, 652s.

18.Orkun H.N. Eski türk yazıtları.Ankara, Yükseköğretim Kurulu Matbaası, 1994 962s.

19.Ögel B. Türk Mitolojisi. İki cilddə. I cild. Ankara, Türk Tarih Kurumu Basımevi, 2010, 644s.

20. Радлов В. В. Опыт словаря тюркских наречий. Санкт-Петербург, Тип. Имп. акад. Наук, 1911, 1227с.

21.Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Kastamonu: Uzanlar, 2017, 661 s.

22.Шипова Е. Н. Словарь Тюркизмов в Русском Языке. Алма-Ата, "Наука" КазССР, 1976, 392с.

23.Şükürlü Ə.Ç. Qədim türk yazılı abidələrinin dili. Azərbaycan Dövlət Pedaqoji Universiteti və pedaqoji institutlar üçün dərslik. Bakı, Maarif, 1993, 336s.

24.Tarama sözlüğü. I-VIII cilt. Ankara, Ankara Üniversitesi Basımevi, 1965-1977.

25.Zərinəzadə H. H. Fars dilində Azərbaycan sözləri. Bakı, AzSSR EA, 1962, 435s.

Elektron resurslar:

26.https://dokumen.tips/documents/ahmet-vefik-pasa-lehce-i-osmanipdf.html

27.https://turuz.com/book/title/Taramadan+Dərləmə+Sözlər+Bəy+Hadi

28.http://www.xalqcebhesi.az/news/culture/3592.html

29.https://turuz.com/book/title/ermenistanda-azerbaycan-mensheli-toponimlerin-izahli-lughati-iv

30.https://www.academia.edu/34202298/_Kotuz_İkinci_Kök_Türk_Sülâlesinin_Tamga_sı_Prof_Dr_Emel _Esin

31https://turuz.com/az/book/title/Turkce+Insan+Adlari+Ve+Anlam-Kokenleri-Orxan+Gudul+Qutalmish

Гусейнова У.

ВОЕННО-ТЕРМИНОЛОГИЧЕСКИЙ СЛОВАРЬ В ПЕРЕВОДНОМ ПАМЯТНИКЕ XVI ВЕКА "ШУХАДА-НАМЕ"

Резюме

Появление любого слова в языке это процесс необходимости. С течением времени обогащение словарного запаса языка за счет этих слов является показателем развития в различных областях. Военная область одна из таких областей, которая постоянно меняется. Понятие война имеет историю уходящую корнями в древние времена и постоянно осуществляется

совершенствующимися методами. Раньше для борьбы с врагом воины использовали стрелы, но позже эти инструменты были заменены различным оружием. Конечно, есть некоторые лексические единицы (армия и т. д.), которые давно были разработаны в языке, несмотря на то, что они подвержены тому или иному фонетическому изменению они все еще поддерживают свою деятельность. Однако многие военные термины, составляющие лексику письменных памятников разных веков, стали совершенно архаичными для современного литературного языка. Особенно слишком большой вес падает на художественные примеры которые относятся средневековому искусству. Одним из таких произведений является «Шухада-наме» написанный переводчиком XVI века Мухаммадом бин Хусейном Катибом Нишати. Академик Хамид Араслы давая краткую информацию о рукописи утверждал, что его язык отличается простотой и напоминает язык эпоса «Дада Горгуд».Действительно, «Шухада-наме» отличается преобладанием слов, принадлежащих нашему родному языку.

Богатство «Шухада-наме» лексическими единицами турецкая происхождения в основном связано с тем, что в его языке отражены слова относящиеся ко всем сферам жизни. Язык перевода в целом позволяет представить лексико-семантическую картину как литературно художественного языка XVI века, а также народного разговорного языка. Поскольку в этот период часто происходили военные сражения, заражение письменных памятников появлениями соответствующих лексических единиц является естественным . Отличающееся своеобразием составления словаря «Шухада-наме», также отличается лексикой обозначающей военные понятия. Военные термины используемые в языке перевода отличается в зависимости от значения ,точки развития в литературным языке в более поздние периоды. Некоторые из этих архаизмов активно используется в современных диалектах, а некоторые в других тюркских языках. Существуют также специфические лексические единицы, такие как «кайтул», «тавагчи», «улджа», которые не встречаются в других письменных памятниках на нашем родном языке.

Ключевые слова: военный термин, Шухада-наме, архаизм, письменный памятник, лексические единицы.

Huseynova U.

MILITARY TERMINOLOGICAL VOCABULARY IN THE 16TH CENTURY TRANSLATION MONUMENT "SHUHADA-NAME"

Summary

The creation or entry of any word into a language is a process of necessity and need. The enrichment of the vocabulary of the language over time due to these words is an indicator of development in various fields. One such area that is constantly changing is the military. The concept of battle, fight, war has a history dating back to

ancient times and is implemented in a constantly evolving way. In the past, fighters used bows and arrows to fight the enemy, but later they were replaced by various weapons. Of course, there are some lexical units (army, etc.) that have been used in the language for a long time, and despite the fact that they have undergone some phonetic changes, they still retain their functionality. However, many of the military terms that make up the lexicon of written monuments from different centuries have become completely archaic for modern literary language. Particularly, the emphasis is on the samples of medieval art. One of such works is the translation monument "Shuhada-name" written by the 16th century translator Muhammad bin Hussein Katib Nishati. Giving initial information about the manuscript, academician Hamid Arasli said that it was mainly distinguished by the simplicity of its language and reminded of the language of "Dada Gorgud" epics. Indeed, the monument of translation is distinguished by the predominance of words belonging to our native language.

The richness of "Shuhada-name" with lexical units of Turkish origin is mainly due to the fact that words related to all spheres of life are reflected in its language. The language of translation as a whole allows us to imagine the lexical-semantic picture of both the literary and artistic language of the XVI century. Due to the frequent military battles during this period, it is natural for appropriate lexical units to appear and infect written monuments. "Shuhada-name", distinguished by the peculiarity of its vocabulary, is also distinguished by its lexicon of military meaning. Military terms used in the language of translation differ in the points of development, their meanings, and their later existence in the literary language. Some of these archaisms are actively used in modern dialects, some in other Turkic languages. There are also specific lexical units such as "kaytul", "tavagchi", "ulca", which are not found in other written monuments in our native language.

Keywords: military term, Shuhada-name, archaism, written monument, lexical units.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: filologiya üzrə fəslsəfə doktoru Təyyub Quliyev tərəfindən çapa tövsiyə olunmuşdur

TÜNZALƏ MANAFOVA
Lənkəran Dövlət Universiteti
tunzala.manafova@mail.ru

AZƏRBAYCAN DİLİNDƏ "ALLAH" KOMPONENTLİ FRAZEOLOJİ VAHİDLƏRİN STRUKTUR-QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Xulasə

Məqalədə Azərbaycan dilçiliyində frazeoloji birləşmələrin qrammatik aspektdən təsnifi məsələsinə münasibət nəzərdən keçirilir. Tədqiqatlar Azərbaycan dilinin frazeoloji birləşmələrin ismi və feili olmaqla iki əsas qrupa bölündüyü göstərilir. Frazeoloji vahidlərin bu prinsip üzrə təsnifi başqa dillərdə də özünü göstərir. Tədqiqat işlərində ismi, feili birləşmələrlə yanaşı, substantiv, adyektiv, adverbial kimi qruplara bölgü də qeydə alınır. "Allah" komponentli ismi frazeoloji vahidlər yanaşma əlaqəsi üzrə formalaşan birinci növ təyini söz birləşməsi şəklində işlənməsələr də, N+N modeli əsasında formalaşan bəzi vahidlər həm ikinci növ, həm də üçüncü növ təyini söz birləşmələri kimi işlənə bilir. Azərbaycan dilində "Allah" komponentli frazeoloji vahidlərin feili birləşmələr şəklində formalaşması da geniş yayılmışdır. Bu qrupa daxil olan frazeoloji vahidlərdə hal, hərəkət mənasının yaranması tərkibdəki feillə müəyyənləşir. Belə frazeoloji vahidlərin müəyyən qismi subyektin obyektə, müxtəlif predmet və hadisələrə münasibətini bildirir.

"Allah" komponentli frazeoloji birləşmələrin tərkibindəki komponentlərin sayına görə ikikomponentli, üçkomponentli və çoxkomponentli şəklində struktur bölgüsü də aparıla bilər. Məqalədə tərkibində "Allah" sözü olan frazeoloji birləşmələrin struktur-qrammatik xüsusiyyətləri ikikomponentli və üçkomponentli birləşmələr üzrə tədqiq olunur. Araşdırmalar göstərir ki, tərkibində "Allah" komponenti olan frazeologizmlərdə "Allah" sözü əsasən birinci mövqedə durur. İki və üçkomponentli frazeologizmlər komponentlərin nitq hissəsinə aidliyi meyarı əsasında modelləşdirilir.

Açar sözlər: Azərbaycan dili, frazeologiya, frazeologizm, "Allah" komponentli frazeoloji vahid, struktur-qrammatik xüsusiyyətlər

Hər bir dilin frazeoloji vahidləri qrammatik xüsusiyyətləri ilə fərqlənərək müxtəlif qruplara ayrılır. Frazeoloji vahidlər cümlədə onun konkret üzvünün vəzifəsini daşıyır. Bu, ondan irəli gəlir ki, frazeoloji vahidlər müəyyən bir sözün ekvivalenti funksiyasını yerinə yetirir. Nominativlik xüsusiyyəti qrammatik kateqoriyalara aidlik əmələ gətirir. Frazeoloqlar bu cəhətə əsaslanaraq frazeoloji vahidləri nitq hissələri üzrə qruplaşdırırlar. Azərbaycan dilçiliyində frazeoloji vahidləri ismi və feili olmaqla iki qrupa ayırırlar. Bu təsnifat Azərbaycan frazeologiyasında, demək olar ki, bütün tədqiqatçılar tərəfindən qeyd olunur [Bax: 1,

s.62; 2, s.101; 3, s.90; 4, s.100; 5, s.157 və s.]. Başqa dillərin frazeoloji vahidlərinin də bu prinsip üzrə təsnifi özünü göstərir. Tədqiqat işlərində ismi, feili birləşmələrlə yanaşı, substantiv, adyektiv, adverbal feili kimi qruplara bölgü də qeydə alınır [Bax: 6; 7].

İsmi frazeoloji birləşmələr feil istisna olmaqla, digər nitq hissələrinə ekvivalent ola bilir. İsmi frazeoloji birləşmələr daha çox yanaşma əlaqəsi əsasında formalaşır. M.Mirzəliyeva göstərir ki, Oğuz qrupu türk dillərində ismi frazeoloji vahidlər müxtəlif modellər üzrə yaranır, onları səciyyələndirən ayrı-ayrı qrammatik kateqoriyalar da bu modellərdə əksini tapır. Müəllif bütövlükdə altı modeli qeyd etmişdir: 1) sifət+isim; 2) isim+isim; 3) isim+zərf; 4) isim+sifət; 5) say+ isim; 6) cümlə formasında olanlar [5, s.158-159]. Bu modellər Azərbaycan dilinin frazeologiya fonduna daxil olan bütün frazeoloji birləşmələri əhatə edir. "Allah" komponentli frazeoloji vahidlər, təbii ki, bu fondun çox kiçik bir hissəsini təşkil edir və "Allah" komponentinin özü modellərə müəyyən məhdudiyyət əlavə edir. *Allah kainatın və insanın yaradıcısıdır, gözə görünməz ilahi varlıqdır. İnsan Allahın qadirliyi, böyüklüyü, qüdrəti haqqında yalnız ümumi təsəvvürlərə malikdir. Hər şey allahın əlindədir, hər şey Allahla başlanır. Uca Allah, böyük Allah, rəhmdil Allah kimi birləşmələr* istisna edilərsə, Azərbaycan dilinin təyini söz birləşmələri modelində "Allah" komponentinin ikinci mövqedə olduğu vahidlər azdır. Tərkibində "Allah" komponenti olan frazeoloji birləşmələrin əksəriyyəti məhz "Allah" sözü ilə başlanılır. Leksikoqrafik və başqa mənbələrdən seçdiyimiz frazeoloji vahidlərin çoxunda "Allah" birinci komponentdir. Bu da Azərbaycan dilindəki "Allah" komponentli frazeoloji vahidlərin birinci komponentinin isim olduğunu göstərir. Tərkibində "Allah" sözü olan ikikomponentli birləşmələr üçün Azərbaycan dilində isim+isim modeli əsasdır.

Azərbaycan dili materialı əsasında "Allah" komponentli frazeoloji vahidlər arasında yanaşma əlaqəsi üzrə formalaşan birinci növ təyini söz birləşməsi şəklində vahidlər qeydə alınmır. İkinci və üçüncü növ təyini söz birləşməsi şəklində olan frazeoloji vahidlər isə çoxluq təşkil edir.

İkinci növ təyini söz birləşməsi şəklində olanlar: *Allah vergisi, Allah divanı, Allah dərgahı, Allah adamı, Allah qonağı, Allah neməti, Allah ruzisi* və s.

Üçüncü növ təyini söz birləşməsi şəklində olanlar: *Allahın qəzəbi, Allahın qulu, Allahın nökəri, Allahın zülmü, Allahın heyvanı, Allahın fağırı, Allahın yazığı* və s.

Verilmiş nümunələr isimlərin isimlərlə əlaqəsi yolu ilə yaranmış frazeoloji vahidlərdir. Q.Kazımov belə əlaqə yolu ilə düzəlmiş, obrazların dini dünyagörüşünə uyğun qurulmuş sabit birləşmələrə nümunələr arasında *Allah divanı*, *Allahın odu*, *tanrı bəndəsi* frazeoloji vahidlərini də qeyd etmişdir [4, s.101].

Azərbaycan dili materialı əsasında "Allah" komponentli frazeoloji vahidlər arasında yanaşma əlaqəsi üzrə formalaşan birinci növ təyini söz birləşməsi şəklində vahidlər qeydə alınmasa da, türk dillərində buna rast gəlmək olur. Q.Mahmudova

qıpçaq qrupu türk dillərində birinci növ təyini söz birləşməsi tipində olan N+N modelli frazeoloji vahidlərin çoxluq təşkil etdiyini, onları Azərbaycan dilinə tərcümə etdikdə II növ təyini söz birləşməsi alındığını göstərmişdir. Müəllifin fikrini təsdiq etmək üçün gətirdiyi nümunələr arasında qara-qalpaq dilindən olan iki frazeoloji vahid diqqəti cəlb edir: *kuday konak, tənri səlem* [Bax: 8, s.239].

Bu birləşmələrdə tərəflərdən heç biri şəkilçi qəbul etməmişdir. Onların Azərbaycan dilindəki qarşılıqları *Allah qonağı* və *Allah salamı* olacaqdır. Azərbaycan dilində *Allah, tanrı, xuda* dubletlər olsa da, "Allah" teonimi müsəlman dininə mənsub, müxtəlif dillərin daşıyıcıları tərəfindən qəbul edilmiş və əsas dini termin olaraq işlədilməkdədir. "Allah" komponentli frazeoloji birləşmələrin əsas qismində sabitləşmə "Allah" leksemi üzrə getmişdir. Qeyd edək ki, dilin mənşəcə özünə aid olan qədim söz "tanrı" olmuş, İslamdan əvvəl də dilin lüğət fondunda yer almışdır. Bununla belə "Allah" komponentli frazeoloji birləşmələrin əsas qismində sabitləşmə "Allah" leksemi üzrə getmişdir. Azərbaycan dilində "Allah salamı", "tanrı salamı", "xuda salamı" ilə əvəz olunmadığı kimi, "Allah qonağı" əvəzinə "tanrı qonağı", "xuda qonağı" birləşmələri də işlənmir. "Kitabi-Dədə Qorqud"da "tanrı" və "Allah" sözləri paralel işlənmişdir.

"Allah-allah diməyincə işlər onmaz,
Qadir tənri verməyincə ər bayılmaz" [9, s.31]
"Ağız açub ögər olsam, üstümüzdə tənri görkli!
Tənri dostı, din sərvəri Məhəmməd görkli" [9, s.32]

Dastanlarda bu iki leksemin qoşa söz şəklində işlənməsi də müşahidə olunur: *"Qamusına bənzəmədi cümlə aləmləri yaradan allah-tənri görkli"* [9, s.33].

"Kitabi-Dədə Qorqud" dastanlarının frazeologiyasında "Allah-allah demək", "qadir tanrı", "tanrı dostu" kimi frazeoloji vahidlər vardır. Kitabdakı "tanrı görklü" birləşməsi də frazeoloji vahid kimi götürülür. Əgər bu birləşməyə "frazeoloji sıra" mövqeyindən yanaşsaq, dastanda "tanrı görklü" ilə bərabər "Məhəmməd görklü", "Əmmə görklü", "Yasin görklü", "Əli görklü", "Quran görklü", "Məkkə görklü", "ayna görklü", "qütbə görklü", "ümmət görklü" və s. sıra vahidlərini də görürük. Sıra vahidlərində ikinci komponent olan "görklü" sabit qalır, birinci komponent isə sıranın dəyişən elementi olur, nəticədə frazeoloji sıranın dəyişən komponentləri kontekstual şərtlənmiş sinonimlər əmələ gətirir [10, s.6]. Yəni burada adi birləşmə, yaxud sərbəst birləşmə xüsusiyyəti aşkar çıxır. Bundan əlavə daha bir maraqlı cəhət diqqəti cəlb edir. Frazeoloji sıranın dəyişən elementləri və ya komponentləri sinonim, yaxud yaxın mənalı müəyyən əlamət üzrə cərgə əmələ gətirən leksik vahidlər olmalıdır. Söhbət "Allah" komponentli ismi birləşmədən getdikdə və sabit komponent də bu söz olduqda frazeoloji vahid sıraları da qurmaq mümkündür. Məsələn, *Allah dərgahı* frazeoloji vahidinin ikinci komponentini dəyişən element kimi qəbul edərək frazeoloji sıra yaradaq: *Allah evi, Allah hüzuru, Allah divanı, Allah həyəti, Allah sahəsi, Allah iqamətgahı* və s. Bu sıranın bəzi elementləri sünidir, dildə işlənməyən, yaxud "Allah" sabit komponenti ilə birləşmə əmələ gətirməsində

məhdudiyyət olan sözlə əmələ gəldiyinə görə onları sıradan kənarlaşdırmaq mümkündür. Əlbəttə, sırf nəzəri və qrammatik baxımdan *Allah sarayı, Allah həyəti, Allah iqamətgahı, Allah sahəsi, Allah ərazisi* birləşmələri mümkündür. Lakin dildə belə sərbəst söz birləşmələri nadir halda müəyyən nitq situasiyasında işlənə bilər. Qeyd olunduğu kimi, Allah yeri-göyü, insanı xəlq edən gözəgörünməz olduğuna görə ona münasibətdə insan özünün nitqinə fikir verir, müəyyən qaydalara əməl edir. Allah adı ilə yanaşı işlənə biləcək, yaxud işlədilən sözlərin seçiminə diqqət yetirilir.

Qeyd edilən sıranın bəzi elementlərinin süni olduğu aşkar görünür və onları sıradan kənarlaşdırmaq mümkündür. Qurulmuş sıranın süni, ya mümkün olmayan elementlərini kənarlaşdırsaq, *Allah evi, Allah hüzuru, Allah divanı, Allah dərgahı* frazeoloji sırası qalır ki, onun da son iki vahidi frazeologizm kimi qeydə alınmışdır [4, s.101]. "Allah dərgahı" frazeologizmi M.Mirzəliyevanın monoqrafiyasında da frazeologizm nümunələri arasında yer almışdır. Yuxarıda frazeoloji sıranı qurarkən Azərbaycan dilində işlənən və təkrar nominasiya vahidi olan, daha çox *Allahın evi* şəklində işlənən frazeoloji birləşməni də ona daxil etmişik. Məlumdur ki, məscid – Allahın evidir. Burada ismi birləşmənin (Allahın evi) ismə (məscid) ekvivalentliyi də göz qabağındadır. Deməli, Ş.Ballinin frazeologizmləri "frazeoloji vəhdət" və "frazeoloji sıra" kimi iki qrupa ayırması, ikinci anlayışın yalnız frazeoloji vahidlərdən ibarət sıra deyil, tərkibində sərbəst birləşmə (adi birləşmə) də yer ala biləcəyi, yaxud bütün elementləri sərbəst birləşmə ola biləcək sıra kimi izahında həqiqət vardır.

"Allah" komponentli frazeoloji vahidlərin N+N modeli əsasında formalaşan bəzi vahidləri həm ikinci növ, həm də üçüncü növ təyini söz birləşmələri kimi işlənə bilir. Məsələn, *Allah kəlamı, Allahın kəlamı, Allah evi, Allahın evi, Allah dərgahı, Allahın dərgahı* və s. frazeoloji vahidin bir komponentə görə qrammatik variantları şəklində aşkara çıxan cəhəti, fikrimizcə, Azərbaycan dilinin mənsubiyyət kateqoriyası əsasında izah etmək olar. Məsələn, *Allahın evi* birləşməsi düzgün varianta, yaxud işlək varianta aiddir. Allah sözünə artırılmış yiyəlik hal şəkilçisi mənsubluq dərəcəsini gücləndirir. Həyatda hər şey Allaha məxsusdur. Lakin *Allah vergisi, Allah bəlası, Allah adamı* kimi birləşmələrdə mənsubluğu gücləndirmək yerinə düşmür. Frazeoloji vahiddə bir növ qeyri-müəyyən yiyəlik hal şəkilçili komponentə meyillilik güclüdür.

"Allah" komponentli frazeoloji vahidlər arasında sifət+isim modelinə uyğun az da olsa, nümunələr vardır. Məsələn, *uca Allah, qadir Allah, böyük Allah* və s. M.Mirzəliyeva frazeoloji vahidlərin sifət + isim (A+N) modelinin dörd yarımqrupunu fərqləndirmişdir: 1) sadə sifət+adlıq halda olan isim; 2) düzəltmə sifət+adlıq halda olan isim; 3) sifət (sadə, düzəltmə)+düzəltmə sifət; 4) feili sifət+adlıq halda olan isim [5, s.158-159]. Azərbaycan dilində "Allah" komponentli A+N modelli frazeoloji vahidlər "sadə sifət+adlıq halda olan isim" formasında daha çox qeydə alınır. Bununla belə, birinci komponentin düzəltmə sifət olma halları da müşahidə edilir. Məsələn, *qüdrətli Allah, şəfqətli Allah* və s. Danışıq dilində, dua

mətnlərində, dini ədəbiyyatda işlənən bu cür söz birləşmələrinin tam sabitləşməsi, fikrimizcə, mübahisə doğurur. Söz birləşməsinin birinci komponenti funksiyasını yerinə yetirən sifət epitet və ya Allah sözünü müəyyən keyfiyyətə görə təyin etmək məqsədi ilə işlənir. Söz birləşməsi ismə ekvivalentlik nümayiş etdirir.

"Qadir Allah budur səndən diləyim,
Sən mərdi namərdə möhtac eyləmə!" [Xəstə Qasım]

Topladığımız nümunələr arasında frazeoloji vahid kimi qeyd olunan *sən Allah* birləşməsi vardır ki, onun birinci komponenti nitq hissəsi kimi əvəzlikdir. Birləşmə bir tam kimi xahiş, yalvarış mənasında işlənir, situativ və kontekstual səciyyə daşıyır. Xahiş, yalvarış mənasında işlənən bəzi söz birləşmələri vardır ki, onlar sabitləşmişdir: *Allah eşqinə, Allah rizasına, Allah xatirinə.* [11] Struktur-qrammatik baxımdan bu frazeoloji vahidlər N+N modeli üzrə formalaşmışdır. Lakin onlar ikinci komponentin qrammatik formasına görə fərqlənirlər. İkinci komponent mənsubiyyət və yönlük hal şəkilçisi qəbul edərək birinci komponentlə birləşmə əmələ gətirmişdir.

N+N modeli əsasında formalaşan frazeoloji vahidlər semantikasına görə hərəkətin səbəbini bildirənlərdə ikinci komponentin qrammatik formasının fərqliliyi müşahidə edilir. Məsələn, *Allah yolunda.* Bu birləşmədə ikinci komponent funksiyasında çıxış edən isim mənsubiyyət şəkilçisindən sonra ismin yerlik hal şəkilçisini də qəbul etmişdir. *Allah amanında* frazeoloji vahidi də eyni struktur-qrammatik modeldə qurulmuşdur. N.Seyidəliyev *Allah amanında* frazeoloji vahidinin *Allah köməyin olsun!*, *Allaha tapşırıram!* frazeoloji birləşmələri ilə eyni mənanı daşıdığını qeyd edir və bu vahidin cümlədə işlənməsinə aid *Oğul, get, Allah amanında olasan* cümləsini vermişdir [Bax: 11, s.27].

Azərbaycan dilinin "Allah" komponentli frazeoloji vahidlərinin feili birləşmələr şəklində formalaşması da geniş yayılmışdır. Bu qrupa daxil olan frazeoloji vahidlərdə hal, hərəkət mənasının yaranması tərkibdəki feillə müəyyənləşir.

Q.Kazımov feili frazeoloji birləşmələrdən bəhs edərkən göstərir ki, belə frazeoloji vahidlərin müəyyən qismi subyektin obyektə, müxtəlif predmet və hadisələrə münasibətini bildirir. Tədqiqatçı belə frazeoloji vahidlərin alqış, qarğış, and, dua, yalvarış, çağırış və s. məna çalarlarına malik olduğunu qeyd etmiş, onları nidayi frazeologizmlər də adlandırmışdır. Q.Kazımov bu cür nidayi frazeologizmlərin altı qrupunu ayırmışdır: 1) and və xahiş çalarlığına malik olanlar (*and olsun Allaha; səni Allaha and verirəm, sən Allah*); 2) qarğış və söyüş çalarlığına malik olanlar (*Allah səbəbin evini yıxsın*); 3) arzu, xahiş, ümid çalarlığına malik olanlar (*Allah göstərməsin, Allah kərimdir*); 4) əzizləmə və razılıq çalarlığına malik olanlar (*Allah saxlasın, Allah rəhmət eləsin*); 5) təşəkkür çalarlığına malik olanlar (*şükr olsun Allaha*); 6) narazılıq və ya qorxu çalarlığına malik olanlar [Bax: 4, s.107].

Dildə feili frazeoloji birləşmələr çoxluq təşkil edir, struktur cəhətdən çoxaspektli və çoxformalıdır. M.Mirzəliyeva feili frazeoloji vahidlərin strukturunu

öyrənməkdə çərçivə konstruksiyası məsələsinin nəzərə alınmasını vacib sayır [5, s.162-163]. Feili frazeoloji vahidlərin strukturunu öyrənən tədqiqatçılar çox zaman ad komponentindəki dəyişməyə görə təsnifat aparmağa üstünlük verirlər. Frazeoloji vahidin tərkibindəki ismin hansı halda olması əsasında qruplaşdırma aparılır [Bax: 5, s.105-106; 12, s.108-117 və s.].

Azərbaycan dilində tərkibində "Allah" komponenti olan feili frazeoloji vahidləri də bu istiqamətdə strukturca alt qruplara ayırmaq olar:

a) "Allah" sözünün adlıq halda olduğu feili frazeoloji vahidlər: *Allah eləməsin, Allah versin, Allah eləməmiş, Allah kəsib, Allah qarğıyıb, Allah yetirib, Allah qoruyub, Allah saxlayıb, Allah istəyib* və s. Üç komponent formasında təzahür edən *Allah kömək eləsin, Allah xoşbəxt eləsin, Allah qüvvət versin, Allah xeyir versin, Allah ruzi versin* kimi frazeoloji birləşmələri vardır.

b) "Allah" sözünün yiyəlik halda işləndiyi feili birləşmələr: *Allahın qəzəbi, Allahın qulu*

c) "Allah" sözünün yönlük halda işləndiyi frazeoloji vahidlər: *Allaha yalvarmaq, Allaha bax, Allaha bağışlamaq.*

ç) "Allah" sözünün təsirlik halda işləndiyi feili birləşmələr *Allahı çağırmaq, Allahı sevmək, Allahı gətirmək, Allahı tanımaq*

d) "Allah" sözünün çıxışlıq halda işləndiyi frazeoloji vahidlər: *Allahdan qorxmaq, Allahdan ummaq/istəmək/diləmək.*

"Allah" komponentli frazeoloji vahidlərin bəzilərində kontaminasiya hadisəsi özünü göstərir. Frazeologizmlərdə kontaminasiya məsələsinə diqqəti Azərbaycan dilçiliyində ilk dəfə Q.Kazımov çəksə də, kontaminasiya məsələsini frazeologizmlərdə daha geniş planda tədqiq edən F.Əhmədov olmuşdur. Onun fikrincə, *"Frazeoloji kontaminasiya iki və daha artıq frazeoloji ifadənin birləşərək həm mənaca, həm də quruluşca vahid mənanın daha dolğun ifadəsinə xidmət etməsinə deyilir"* [13 s.105]. Kontaminasiya iki frazeoloji vahidin birləşməsi nəticəsi olduğuna görə, belə frazeoloji vahidlərin komponent sayı ikidən artıq olur. *Əmanət olmaq → Allaha əmanət olmaq; Allah bəndəsi → Allah bəndəsi olmaq; nəzərində olmaq → Allah nəzərində olmaq* və s.

"Allah" komponentli frazeoloji vahidlər arasında modal frazeologizmlər də aşkara çıxır: *Allah qoysa*. Bu frazeoloji vahiddə feil şərt şəklinin şəkilçisini qəbul etmiş və hərəkətin icrasını gələcək zamana aid edir [Bax: 14, s.210]. Üçüncü şəxsin təki şəxs şəkilçisiz düzəlir. Ümumiyyətlə, Azərbaycan dilində *"üçüncü şəxsi ifadə etmək üçün yalnız feilin əmr şəklində xüsusi şəkli əlamətlərə təsadüf edilir ki, bu da əmr şəklini feilin başqa şəkillərindən fərqləndirir"* [14, s.211]. Azərbaycan dilində feilin əmr şəklinin üçüncü şəxsin təki üçün *–sın*[4] şəkilçisindən istifadə olunur. Qeyd edək ki, əmr şəklinin üçüncü şəxs formasının işləndiyi frazeoloji vahidlərdə də modallıq özünü göstərir. Məsələn, *Allah köməyi olsun!, Allah şəfa versin!, Allah saxlasın* və s. Feilin əmr şəkli yalnız əmri ifadə etmir, danışanın arzusunu, istəyini,

xahişini bildirir. *Allah saxlasın, Allah köməyi olsun* və s. frazeoloji vahidlərdə danışanın xahişi, arzusu ifadəsini tapır. İnsan Allaha əmr edə bilməz, yalvara bilər, arzusunu ona çatdırmaq istəyə bilər.

Ədəbiyyat

1. Murtuzayev, S.N. M.F.Axundovun komediyalarının dil və üslub xüsusiyyətləri (frazeoloji materiallar əsasında). – Bakı: Azərnəşr, –1962. – 114 s.
2. Bayramov, H. Azərbaycan dili frazeologiyasının əsasları.– Bakı: Maarif, – 1978. – 176 s.
3. Məhərrəmova, R.D. Sabirin dili.– Bakı: Maarif, – 1976. – 108 s.
4. Kazımov, Q.Ş. Dildən xüsusi seminar. Yazıçı və dil.– Bakı: APİ nəşri, – 1975. – 228 s.
5. Mirzəliyeva, M. Türk dillərinin frazeologiyası. – Bakı: Nurlan, –c.1. – 2009. – 220 s.
6. Арсентьева, Е.Ф. Сопоставительный анализ фразеологических единиц – Казань. 1989. – 130 с.
7. Кунин А. В. Курс фразеологии современного английского языка. – М.: Изд- во «Феникс», 1996. – 381 с.
8. Mahmudova, Q. Türk dillərinin frazeologiyası. – Bakı: Nurlan, –c. 2. – 2009. – 296
9. “Kitabi-Dədə Qorqud” dastanları. – Bakı: Yazıçı, – 1982,
10. Амосова, Н.Н. Основы английского фразеология. –Ленинград: Изд-во ЛУ, – 1983. – 208 с.
11. Seyidəliyev N. Frazeologiya lüğəti. – Bakı: Araz, –2000.
12. Seyidəliyev, N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası.– Bakı: Araz, – 2006. – 326 s.
13. Əhmədov F. Molla Vəli Vidadinin dili. – Bakı: Mütərcim, –2005.
14. Hüseynzadə M. Müasir Azərbaycan dili. – Bakı: Maarif, –1973 .

ТУНЗАЛА МАНАФОВА

СТРУКТУРНО-ГРАММАТИЧЕСКИЕ ОСОБЕННОСТИ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ С КОМПОНЕНТОМ «АЛЛАХ» В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассматривается вопрос грамматической классификации фразеологизмов в азербайджанском языкознании. Исследования показывают, что фразеологизмы азербайджанского языка делятся на две основные группы: субстантивные и глагольные. Классификация фразеологизмов по этому принципу отражена и в других языках. Помимо субстантивных и глагольных,

фразеологизмы делятся на такие группы, как адъективные и адвербиальные. Хотя фразеологизмы с компонентом «Аллах» не употребляются в виде определительных словосочетании первого типа, образованного по связи примыкание, некоторые единицы, сформированные на основе модели N + N, могут использоваться как в качестве второго, так и третьего типа определительных словосочетании. В азербайджанском языке также широко распространено образование фразеологизмов с компонентом «Аллах» в виде глагольных соединений. Во фразеологизмах, относящихся к этой группе, формирование значения действия определяется глаголом. Некоторые из таких фразеологизмов выражают отношение субъекта к объекту, различным предметам и событиям.

В зависимости от количества компонентов, фразеологизмы с компонентом «Аллах» можно разделить на двухкомпонентные, трехкомпонентные и многокомпонентные. Исследования показывают, что слово «Аллах» стоит на первом месте во фразеологизмах. Двух- и трехкомпонентные фразеологизмы моделируются на основе критерия релевантности компонентов по части речи.

Ключевые слова: азербайджанский язык, фразеология, фразеологизм с компонентом «Аллах», структурно-грамматические особенности.

TUNZALA MANAFOVA

THE STRUCTURAL AND GRAMMATICAL FEATURES OF THE PHRASEOLOGICAL UNITS WITH THE COMPONENT "ALLAH" IN THE AZERBAIJANI LANGUAGE

SUMMARY

The article deals with the issue of structural and grammatical classification of phraseological units in Azerbaijani linguistics. Researches show that the phraseological units of the Azerbaijani language are divided into two main groups: substantive and verbal.

The classification of phraseological units according to this principle is reflected in other languages as well. In addition to the substantive and verbal, phraseological units are divided into such groups as adjective and adverbial ones. Although phraseological units with the component "Allah" are not used in the form of the first type of attributive word-combinations formed by the adjoining connection, some phraseological units formed on the basis of the N + N model can be used both as the second and third types of attributive word-combinations.

In the Azerbaijani language, the formation of phraseological units with the component "Allah" in the form of verbal combination is also widespread. In phraseological units belonging to this group, the formation of the meaning of an

action is determined by the verb. Some of these phraseological units express the attitude of the subject to the object, various objects, and events.

Depending on the number of components, phraseological units with the component “Allah” can be divided into two-component, three-component, and multicomponent. Research shows that the word "Allah" is in the first place in phraseological units. Two- and three-component phraseological units are modeled based on criterion for the relevance of components in terms of part of speech.

Keywords: Azerbaijani language, phraseology, phraseological unit, “Allah” component, structural-grammatical features.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: fil.ü.e.d., prof. İlham Tahirov
tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR MIRƏLI QIZI RZAYEVA
dissertant
Qərbi Kaspi Universiteti
aynur.rzayeva.m.l@teacher.edu.az

NƏSİMİ YARADICILIĞINDA MƏTNYARATMA VASİTƏLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ

Xülasə

Məqalədə bədii mətn nümunəsi kimi İmadəddin Nəsiminin qəzəlləri linqvistik təhlil olunmuş, onların mətnyaratma vasitələri tədqiq olunmuşdur. Nəsimi qəzəlləri koheziya vasitələri ilə işlənmə xüsusiyyətinə, habelə informativlik və ekspresivliyinə görə fərqlənmişdir. Məqalədə mətnyaratma vasitəsi kimi əsasən leksik təkrarlar və onların növləri, ellips (burada təkrarın əks prosesi olaraq təqdim olunmuşdur), prosodik vasitələr, habelə fonetik üslubi vasitələrin işlənmə xüsusiyyətlərindən bəhs olunmuşdur. Nəsimi qəzəllərində leksik təkrarların növləri olan anafora, epifora (qəzəldə rədif), eyni zamanda bütün misra boyu sözlərin təkrarı zəngin şəkildə istifadə olunmuşdur. Koheziya vasitələri kimi leksik təkrarlar güclü mətnyaratma vasitəsi kimi qiymətləndirilmişdir. Nəzmlə yazılan əsərlərdə informativlik xüsusiyyətləri də vurğulanmışdır. Nəsrdən fərqli olaraq nəzm əsərlərində informativlik daha zəif olur və fikirlər adətən beytlər üzrə paylanılır. Lakin, Nəsiminin qəzəllərində geniş təbliğ olunan "ənəlhəq" ideyaları güclü informativlik xüsusiyyətinə malikdir. Sadalanan fikirlərdən əlavə Nəsiminin nəzmində həm linqvistik, həm də fəlsəfi fikirlərin qarşılıqlı vəhdəti araşdırılmışdır. Belə nəticəyə gəlmək olar ki, Nəsimi yaradıcılığı həm linqvistik, həm də fəlsəfi tədqiqat obyekti kimi araşdırılmalıdır.

Açar sözlər: qəzəl, mətnyaratma vasitələri, koheziya, leksik təkrarlar, informativlik

Dahi Azərbaycan şairi İmadəddin Nəsimi öz yaradıcılığında əsasən poeziyaya müraciət etmiş, lakin qeyd etmək lazımdır ki, onun yazdıqları arasında qəzəllər xüsusi yer tutmuşdur. Nəzm əsərləri nəsr əsərlərindən fərqli olaraq, məhdud çərçivədə ideyanı çatdırmaq şərtilə həm fonetik, həm leksik, həm frazeoloji, həm də qrammatik prinsiplərin bir-birilə vəhdətindən yaranır. Nəsimi yaradıcılığı isə ümumilikdə, leksik ifadə vasitələri ilə zəngin olduğundan, araşdırma əsasən leksik istiqamətdə aparılmışdır. Qeyd etmək lazımdır ki, linqvistik təhlil bədii mətn nümunələrindən təşkil olunmuş və sadalanan nəzəri fikirlər parçalar şəklində verilmiş nümunələrlə əsaslandırılmışdır. Üslubi müşahidə vasitəsilə şairin yaradıcılığı linqvistik təhlilə cəlb olunmuşdur. Bədii mətn nümunələri hesab olunan qəzəllərin linqvistik təhlili zamanı Nəsiminin beytlərində mətnyaratma vasitəsi kimi

ən çox koheziya vasitələri, habelə leksik təkrarlar özünəməxsus ahəngə sahibdir. Bədii mətn nümunələri əsasən mətnyaratma funksiyasına xidmət edir. Məlum olduğu kimi mətnlər arasında formal-sturuktur bağlılığı olan cümlələrdən təşkil olunmuşdur. Bu struktur-semantik əlaqələr isə mətnin parametrləri hesab olunur. [5]

Biz bədii mətnlərin nəzm formasında olan qəzəlləri təhlil edərkən qəzələ bütövlükdə makromətn, onun beytlərində bitkin fikirlərə isə mikromətnlər kimi yanaşmışıq. Əsasən formal-struktur bazasında aparılan araşdırmada mətndaxili əlaqəlilik və onu formalaşdıran struktur vasitələr təhlil edilmişdir. Əvvəlcə qeyd etmək lazımdır ki, qəzəl kimi mürəkkəb bir janrı linqvistik təhlil edərkən bəzi prinsiplər gözlənilməlidir. İlk öncə, əsərin fonetik xüsusiyyətlərinə diqqət yetirmək lazımdır, yəni ahəng qanunu, alliterasiya, assonans kimi dil hadisələri diqqətlə izlənilməlidir. Daha sonra qrammatik kateqoriyalar, əsasən də predikativliyin formalaşmasında əsas rola sahib olan feillər təhlil olunmalıdır. Daha sonra isə, əsərin daxilinə enməklə bədii ifadə vasitələrini seçib izah etmək lazımdır. Eyni zamanda isə frazeoloji vahidərin də semantikası araşdırılmalıdır. Bu prinsiplərlə yanaşı sözlərin mənşəyi və morfoloji xüsusiyyətləri də diqqətdə saxlanılmalıdır. Nəsimi qəzəllərini linqvistik təhlil edərkən, bəzi məqamlar izlənilmişdir. Məsələn, dahi sənətkar, azərbaycandilli qəzəl yazarkən, dilin qrammatik prinsiplərinə riayət etmişdir, ədəbi dil normalarına əməl etmişdir, ideya və məzmun baxımından insan və onun taleyindən bəhs etmişdir. Lakin, onun eşq və ilahi eşq mövzusunda yazdığı əsərlər isə, kifayət qədər ərəb və fars mənşəlli hürufilik terminləri ilə zənginləşdirilmişdir. Müşahidələr göstərir ki, Nəsiminin dili sadə olduğu qədər, əsərlərində fəlsəfi məzmun daha dərindir. Mənanın açılması prosesində bəzi sözlərin sanki şifrəli olduğunu hiss edə bilərik. Bu da öz növbəsində şairin əsərlərindəki praqmatikanın dərinliyinə dəlalət edir. Bədii ifadə vasitələrinə gəlincə isə, bədii təkrarlardan (təkrir) yerində və özünəməxsus şəkildə istifadə edilmişdir. Özünəməxsus dedikdə isə, məlum anafora və epiforadan başqa növ cümlə boyunca təşəkkül tapan təkrarlardan da məharətlə istifadə etmişdir. Ümumiyyətlə, Nəsimi kimi klassik şairimiz müasir azərbaycan dilinin leksikonunun formalaşmasında xüsusi rola sahibdir.

Nəsimi qəzəlləri burada həm semantik-struktur, həm informativlik baxımından, həm də formal struktur kateqoriyalar baxımından, yəni koheziya, predikativlik və s. xüsusiyyətlərinə görə təhlil olunmuşdur.[1] Aşağıda göstərilən qəzəl nümunəsində leksik təkrarlar güclü mətnyaratma vasitəsi hesab oluna bilər.

Mərhəba, xoş gəldin, ey ruhi-rəvanım, mərhəba!
Ey şəkərləb yari-şirin, ləməkanım, mərhəba!
Çün ləbin cami-Cəm oldu nəfxeyi-Ruhülqüdüs,
Ey cəmilim, ey cəmalim, bəhrü kanım, mərhəba!

Nümunədə ilk beytdə göstərilmiş *mərhəba* sözünün təkrarı epifora formasında formal-struktur və semantik vəhdət təşkil edir. Bundan əlavə *ey* sözü də ekspresivliyi artırmaq məqsədilə leksik təkrar vasitəsi kimi istifadə olunmuşdur. Burada şair bədii mətnə məxsus olan komunikativlik funksiyasından da məharətlə

istifadə etmişdir. Şair öz qəzəllərində nəzm üçün xarakterik olan qafiyəni formalaşdırmaq üçün leksik təkrarlardan geniş istifadə etmişdir. Ümumilikdə isə leksik təkrarlar sintaktik bütövlüyü yaradan əsas amillərdən biri kimi qiymətləndirilir. Qəzəl beytlərində leksik təkrarlardan əlavə olaraq alliterasiyadan da ustalıqla istifadə olunmuşdur. Beytdə təkrarlanan r,m,c,ç samitləri ahəng və rəvanlıq yaradır. Alliterasiya ilə yanaşı sait səslərin ahəngi və ya bir-birini izləməsi hadisəsi olan assonansın da məharətlə istifadə olunması diqqət çəkir. Buradakı a,ə və i sait səslərinin harmoniyası qəzəli daha xoşagəlimli və avazlı edir. Deməli, nəzmin formalaşmasında Nəsimi nəinki leksik təkrarlara, həmçinin fonetik təkrarlara da üstünlük vermişdir. Nəsimi qəzəllərini oxuyarkən, habelə Azərbaycan qəzəllərində əruz vəzninin yaranmasında alliterasiya özünəməxsus yer tutur. Sənətkarın qəzəllərində təkrarı yaradan əsas vasitələrdən biri də cinas sözlərdir.

Düşdü yenə dəli könül gözlərinin xəyalinə,
Kim nə bilir bu könlümün fikri nədir, xəyali nə?
Al ilə ala gözlərin aldadı aldı könlümü,
Alını gör nə al edər, kimsə irişməz alinə

Beytlərdəki "xəyalınə" və "xəyali nə" cinas sözlərin mikromətnin formalaşmasına xidmət edir. Bundan əlavə a və ı saitləri assonans təşkil edərək, mətndə poetikliyi artırır. Bir beyt (yəni iki misra) öz özlüyündə ümumi mətndə çatdırılması lazım olan fikirlərdən birini çatdırır və sanki, hər beytdə bir və ya bir neçə məlumat, yaxud informasiya ötürülmüşdür.

Onu da qeyd etmək yerinə düşər ki, Nəsimi əsərlərində göstərilən leksik təkrarların sosiopsixoloji xüsusiyyətlərinə görə prosodiya tələb edir. Yəni şairin qəzəllərinin hansı əhval-ruhiyyə altında yazıldığını və deyildiyini oxucuya çatdırmaqdan ötrü prosodik komponentlərə fikir vermək lazımdır. Misal üçün, mətn daxilində verilmiş ironiyanı tapmaq üçün yalnız onun intonasiyasına fikir vermək lazımdır. Həmçinin də intonasiya əhval ruhiyyənin çatdırılmasında oxucuya kömək funksiyasını daşıyır.

Şair əsasən cümlə daxilində olan leksik təkrarlardan istifadə etmişdir. İşlənmə yerindən asılı olmayaraq leksik təkrarlar müəyyən bir komponenti üzə çıxarmağa, mətndə bütün diqqəti təkrara yönəltməklə emfatikliyi artırmağa xidmət edir. Leksik təkrarların işlənmə yeri və tezliyindən çox şey asılıdır, belə ki, bəzi qəzəllərində Nəsimi eyni misrada iki dəfədən daha çox təkrar etmişdir. Həmçinin şair qəzəldə təhkiyəçi rolunda özü çıxış edir. Onu da qeyd etmək lazımdır ki, linqvistik ədəbiyyatda təkrarlanma yolu ilə yaranan bədii parçalara maraq daha da artmışdır. Poetik mətnlərdə leksik təkrarlar mətnin poetik çalarını formalaşdırmaqdan əlavə, onun ekspresivliyini artırmağa da xidmət edir.[4]

Bundan əlavə onu da vurğulamaq lazımdır ki, epiforalar poetik mətn üçün olduqca spesifikdir və qəzəldə sonda təkrarlanan bu hissə *rədif* adlanır. Rədif anlayışı əsasən şərq poeziyası üçün xarakterik hesab oluna bilər. Hətta qəzəllərin adları da

adətən rədifə uyğun seçilir. Beləliklə, o qənaətə gələ bilərik ki, sırf nəzmin hesabına baş verən mətnyaratma xüsusiyyəti milli poeziyamız üçün xarakterikdir.[3]

Bədii mətnlərdə informativlik komunikativ səciyyə daşıyır və estetik funksiyaya malik olur. Mətn hər hansı bir informasiyanı formalaşdırmaq üçün tərtib olunur və kommunikativ funksiya daşıyır. Nəsrdən fərqli olaraq şeir janrında yazılmış bədii mətnlərdə informativlik əsasən bəndlər üzrə paylanılır və nəzərdə tutulan fikirlər müxtəlif bəndlərdə öz əksini taparaq mətnin informativliyini təmin edir. Qəzəllərdə də verilmiş bir beyt bir fikri çatdırmağa xidmət edir. Artıq məlumdur ki, mətn sözlər, frazalar və cümlələrdən təşkil olunur. Ümumilikdə, Nəsimi lirikasında informativlik qabarıq şəkildə əks olunmuşdur. Onun sufilik təriqəti ilə əlaqədar "ənəlhəq" ideaları oxucuda güclü impresivlik və informativliyə malikdir. Qəzəllərin poetik janr olaraq müəllif tərəfindən seçilməsi onun əsərlərində güclü implisit vasitələrlə tərənnüm olunur. Lakin, bu xüsusiyyətlərlə yanaşı onun əsərlərində implisit formalardan izafi şəkildə istifadə olunması əsərin informativlik xüsusiyyətini çətinləşdirir və linqvistik və fəlsəfi şərhə ehtiyac yaranır. Bundan əlavə Nəsimi qəzəllərinin implisit vasitələrlə zənginləşdirilməsi onların həm praqmatik, həm də semiotik anlamda şərhinə ehtiyac duyulur. Semiotika və ya simvollar sistemi barədə çox danışdıqda dil linqvistik tədqiqatların çərçivəsindən çıxıb linqvokulturoloji tədqiqat obyektinə çevrilir. Nəsimi əsərlərində praqmatikanın müxtəlif cür şərhi Nəsimi şəxsiyyəti ilə bağlı fikirlərin də müxtəlif və birmənal olmamasına gətirib çıxarmışdır. Məsələn,

Dünya duracaq yer deyil, ey can, səfər eylə!
Aldanma anın alına, andan həzər eylə!
Bir halə qərar eyləməz əyyam, keçər ömr,
Ey əhli-nəzər, baxma bu halə, nəzər eylə(42)

Verilmiş beytlərdə açıq aşkar dünyadan bezdiyi və köç etmək istəyi vurğulanmışdır. Əsas ideyanın ətrafında isə "Dünya evinin səltənəti beş gün imiş çün, Bünyadını yıx, ər kimi, zirü zəbər eylə!" kimi fikirlərlə dəstəklənmişdir. Bu kimi və buna bənzər ideyaların mövcudluğu onu aqresiv kimi qəbul olunmasına da gətirib çıxarmışdır.

Digər tərəfdən Nəsimi qəzəllərində mətnyaratma vasitəsi olan koheziya vasitələri də linqvistik fonda xüsusi əhəmiyyət kəsb edir. Adətən şeirdə nəsrlə müqayisədə zəif hiss olunan koheziya əlaqələri Nəsimi yaradıcılığında qabarıq nəzərə çarpır. Şəxs bildirən deyktik vasitələrin (xüsusən də *mən* əvəzliyi) şair tərəfindən tez-tez işlədilməsi onun sufizm ideaları ilə tamamilə səsləşir. Onun ən məhşur qəzəllərindən olan "Sığmazam" qəzəli bu baxımdan səciyyəvidir.

Gənci-nihan mənəm mən uş, eyni-əyan mənəm, mən uş,
Gövhəri-kan mənəm mən uş, bəhrəvu kanə sığmazam.

Verilmiş qəzəldən seçilmiş beytdə ən çox təkrarlanan *mən* və *mənəm, uş* sözləri mətnin kombinatorluğunu yaradır. Nəsimi yaradıcılığına daxil olan qəzəlləri linqvistik təhlil edərkən mətndaxilində koheziya vasitələri kimi ən çox bağlayıcı,

əvəzetmə, referens, ellipsin işlənildiyini görmək mümkündür. Ən geniş yayılmış koheziya vasitələrindən olan ellipsin istifadəsi mətndə fikrin yarımçıqlığına gətirib çıxarmır, əksinə çatdırılması lazım olan fikir konkretləşir və cümlədə yüngüllük və sərbəstlik olur. Yəni cümlədə struktur yarımçıqlıq heç də məna yarımçıqlığına gətirib çıxarmır. Ümumiyyətlə, nominal ellipslərin bədii mətnlərdə istifadəsi azərbaycan dili üçün olduqca səciyyəvi haldır. Mətnlərdə nominal ellipsin mətni xüsusilə oxunaqlı etdiyini deye bilərik.[2]

Koheziya əlaqələrindən başqa qəzəllərdə koherentlik xüsusiyyətləri də qeyd olunmalıdır. Mətndə məntiqi ardıcılığı və tamlığı yaradan koherensiya nəzmdə nisbətən zəiflik təşkil edir. Qəzəllərdə hər bir beyt digəri ilə əlaqələnərkən burada ardıcıllıq qismən də olsa pozulur. Nəsimi qəzəllərini linqvistik təhlil edərkən həm prosodik elementlərin rəngarəngliyini, leksik təkrarların mətnyaratma xüsusiyyətlərini və üslubi baxımdan bədii təsvir vasitələri ilə zəngin olduğunu müşahidə edirik.Ümumilikdə isə leksik təkrarlar ekspresivlik və emosionallığı təmin edən üslubi mətnyaratma vasitəsi hesab olunur. Nəsimi qəzəllərində təkrarın həm anafora, həm də epifora növündən məharətlə istifadə etmişdir. Məlumdur ki, başlanğıc sözlərin təkrar olunduğu üslubi fiqur anafora adlanır. Verilmiş nümunəyə fikir verək.[4]

Şol ləbi şirinə, yarəb, gər şəkər dersəm, nola?
Şol günəş təl'ətli ayə gər qəmər dersəm, nola?

Qəzəldə misranın önündə duran "şol" sözü təkrar formasında mətnyaratma vasitəsi kimi iştirak edir. Yaxud da epiforanın-yəni sətrin sonluğunda təkrarlanan sözlərin işlənmə xüsusiyyətinə fikir verək.[3,s.14]

Nuri-təcəlli şö'ləsi düşdü əzəldən alına,
Gözlərimin bu rəng ilə yaşı boyandı alına.

Nümunədən göründüyü kimi, "alına" sözü təkrarlanaraq qəzəldə rədif yaradır.[3,s.15] Nəsimi yaradıcılığında təkririn digər bir növü olan misra boyu təkrarlanma hadisəsi məhz Nəsimi poeziyası üçün xarakterik idi.

Üzün bərgi-güli-tər
Boyun sərvi-sənubərdir, sənubər
Xuraman qamətinbər çeşməyi-çeşm
Səmənbərdir, səmənbərdir, səmənbər
Sənin şəm'i-camanlından vücudum
Münəvvərdir, münəvvərdir, münəvvər
Bəninlə zülfü rüxsarın həmişə
Müənbərdir, müənbərdir, müənbər [3, s. 290]

Nadir rast gəlinən bu növ təkrarlar onun qəzəllərinin özünəməxsusluğunu sübut edir. İstər nəzm, istərsə də nəsr əsərlərində sintaktik bütövlüyü təmin etmək üçün də təkrarlardan istifadə olunur. Bu zaman ayrı-ayrı sözlər mətnin müxtəlif hissələrində təkrarlanmaqla mətyaradici vasitə rolunda çıxış edir. Məslən:

Xəstə Nəsimi, yarın əhvalını heç sormaz,
Sormağına çün gəlməz, barı gələ yasına.[3, s.17]

Verilmiş nümunədə "sormaq" sözü təkrarlanaraq mətndə mənanın bütövləşməsinə zəmin yaradır. Sadalanan keyfiyyətlərin mövcudluğu linqvistik zənginliyi tərənnüm etdiyi halda, Nəsimi yaradıcılığında əsərlərin dərin fəlsəfi və psixoloji xüsusiyyətlərə malik olduğunu görə bilərik. Şairin yaradıcılığı istər dilçilər, istərsə də filosoflar tərəfindən müxtəlif formalarda şərh olunur. Sonda qeyd etmək lazımdır ki, Nəsimi yaradıcılığı hələ də mətaltı şifrələrlə zəngindir və tədqiqatçılar tərəfindən öz tədqiqini gözləyir.

Ədəbiyyat siyahısı

1. G.F.İsrafilova, "Leksik təkrarlar mətnyaratma vasitəsi kimi" dissertasiya, Bakı 2013.
2. Halliday, M. A. K. & Hasan, R. (1976). Cohesion in English London: Longman.
3. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2004, 336 səh.
4. N.Məmmədli. Nitqdə mətnlərin məntiqi-semantik bütövlüyü. Filologiya Məsələləri 5 "Elm və Təhsil" Bakı-2018 (s.6)
5. Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Nurlan", 2008, s.447-448.

AYNOUR RZAYEVAH

LINGUISTIC ANALYSIS OF TEXT FORMATION MEANS OF NASIMI'S CREATIVITY

SUMMARY

The article provides a linguistic analysis of Imadeddin Nasimi's ghazals as an example of a literary text and explores their text formation means. Nasimi's ghazals were distinguished by the nature of their use of cohesive means, as well as their informativity and expressiveness. The article deals mainly with the development of lexical repetitions and their types, ellipses (presented here as the reverse process of repetition), prosodic means, as well as the development of phonetic stylistic means as a means of text formation. In Nasimi's ghazals, the types of lexical repetitions, anaphora, epiphora (radiff in ghazal), as well as the repetition of words throughout the whole verse were used richly. Lexical repetition as a means of cohesion has been valued as a powerful means of text creation. The informative features are also emphasized in the works written in verse. Unlike prose, poetry is less informative and ideas are usually distributed in verses. However, the "analhag" ideas widely propagated in Nasimi's ghazals have a strong informative character. In addition to the above-mentioned ideas, Nasimi's poem explores the mutual unity of both linguistic

and philosophical ideas. It can be concluded that Nasimi's works should be studied as an object of both linguistic and philosophical research.

Keywords: ghazal, text formation means, cohesion, lexical repetitions, informativity

АЙНУР РЗАЕВА

ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ТЕКСТОФОРМИРУЮЩИХ СРЕДСТВ ТВОРЧЕСТВА НАСИМИ

РЕЗЮМЕ

Ключевые слова: газель, текстоформирующие средства, когезия, лексические повторы, информативность.

В статье дан лингвистический анализ газелей Имадеддина Насими как примера художественного текста и исследуются их способы создания. Газели Насими отличались характером использования связных средств, а также информативностью и выразительностью. Статья посвящена, в основном, развитию лексических повторов и их типов, эллипсов (представленных здесь как обратный процесс повторения), просодических средств, а также развитию фонетических стилистических средств как средств создания текста. В газелях Насими широко использованы типы лексических повторов, анафора, эпифора (радиф в газели), а также повторение слов на протяжении всего стиха. Лексическое повторение, как средство когерентности, ценится как мощное средство создания текста. Информативные особенности также подчеркнуты в произведениях, написанных в стихах. В отличие от прозы, поэзия менее информативна, и идеи обычно распространяются в частях газелей. Однако идеи «аналхака», широко пропагандируемые в газелях Насими, носят ярко выраженный информативный характер. Помимо вышеупомянутых идей, стихотворение Насими исследует взаимное единство языковых и философских идей. Можно сделать вывод, что творчество Насими следует изучать как объект как лингвистических, так и философских исследований.

Redaksiyaya qəbul olunma tarixi: 25.02.2021
Çapa qəbul olunma tarixi:05.032021
Filologiya üzrə elmlər doktoru, professor Əfqan Əli oğlu Abdullayev tərəfindən çapa tövsiyə olunmuşdur.

ƏLƏKBƏROVA NƏRGIZ ŞAKIR
AMEA Nəsimi adına Dilçilik İnstitu
Azərbaycan Universiteti
Bakı, Azərbaycan.

AZƏRBAYCANDA MAŞIN TƏRCÜMƏSI

Açar sözlər : maşın tərcüməsi, lingvo-statistik təhlil , bədii tərcümə, Dilmanc programı, frazeoloji birləşmələr

Azərbaycan komputer dilçiliyində maşın tərcüməsi (MT) probleminin tədqiqi 60-cı illərin sonundan başlamışdır. Sistemin ən mühüm mərhələlərindən biri sözün sintezi, avtomatik lüğətin tərtibi kimi məsələlərə baxılmış, iltisaqi dillərə xas olan qanunauyğunluqlar, ahəng qanunu, morfemlərin söz formasında sıra düzümü , kök ilə morfemlərin sərhəddində morfonoloji dəyişmələrin formal təsviri verilmiş və qurulmuş alqoritmə əsasən tərtib edilmiş proqram komputerdə yoxlanılmış, istənilən nəticələr əldə edilmişdir. Daha aydın desək , sintez prosesi zamanı kök və şəkilçi birləşərkən ahəng qanunu gözlənilmişdir. Bundan əlavə, morfemlərin sıralanması zamanı morfoloji dəyişikliyə riayət olunmuş və düzgün söz formalar yaranmışdır.

70- ci illərin sonunda Azərbaycanda MT qarşısında duran başlıca vəzifə morfoloji təhlil məsələsinə toxunmaq idi. Sintez prosesindən fərqli xüsusiyyətlərə malik olaraq, bu proses söz formalarının müxtəlif differensial hissələrə ayırmaqla fərqlənirdi. Daha aydın desək, lingvistik baza olaraq morfemlərin siyahısı, əsasların qaramamtik səciyyələri avtomatik yolla sistemin yaddaşına daxil edilirdi.

Bundan başqa MT sistemlərində nəzərə çarpacaq səmərə verən tezaruslar ayrı-ayrı söz formalarının analizi və tərcüməsi ilə deyil , həm də mətndə sabit söz birləşmələrinin analizi və tərcüməsinin düzgünlüyünü yoxlayan semantik komponent kimi tədqiqata cəlb olunmuşdur.(1, s.63) Burada mətnin mənaca formal analizi , yəni mətnin avtomatik başa düşülməsinin təmin olunması iki əsas əməliyyatın yerinə yetirilməsini nəzərdə tutur. Sözlər arasında semantik əlaqələrin aşkar edilməsi və onların bu və ya digər formada təsvirləri, məlumat axtarış tezarusları da həmin funksiyaları yerinə yetirir, belə ki, tezarus ilk növbədə predmet sahəsini təsvir edən malumat axtanş dilinin semantik vahidləri arasında münasibəti aşkarlamaq üçün nəzərdə tutulmuşdur. (2, s.38-39)

XX əsrin 90-cı illəri Azərbaycanda MT sistemi tarixində mürəkkəb mərhələ kimi hesab edilə bilər. Belə ki, bu mərhələdə cümlənin sintaktik təhlili və sintezi prosesi ən önəmli məsələlərdən biri kimi qarşıya qoyulmuşdur. Aparılan araşdırmalarda müxtəlif səviyyələrdə dilin formal modellərinin hazırlanması əsas məqsədlərdən biri idi. Tədqiqatlar morfoloji və sintaktik səviyyələrdə dilin formal

modellərinin, həmçinin cümlə tiplərinin formal modellərinin hazırlanması ilə nəticələndi.
MT dən danışarkən ilk öncə düşüncəmizdə elektron lüğətlər canlanır. Bu qrupdan olan lüğətlər internetdə yerləşdirilməzdən öncə işlənmiş və istifadəçinin ünvanladığı sorğuya əsasən məlumatvermə imkanına malikdirlər. Bu qəbil lüğətlər həm müstəqil fəaliyyət göstərir , həm də tərcümə sistemlərinin bir komponenti kimi elektron məkana daxil edilmişdirlər. AzerDict – Azərbaycanda böyük rəğbət qazanmış pulsuz onlayn lüğətidir. Lüğətdə tərcümə Azərbaycanc-ingili və ya ingilis - Azərbaycan dillərində həyata keçirilir. (http://azerdict.com);
Intelsoft – eyni adlı şirkət ətrəfindən yaradılmış hər hansı bir mətni avtomatik olaraq Rus dilindən Azərbaycan dilinə çevirən bir sistemdir. (http://translate .intelsoft.az);
Linqvosoft – ingiliscə-azərbaycanca, azərbaycanca-ingiliscə, rusca-azərbaycanca, azərbaycanca-rusca lüğətlər sistemi (http://www.linqvozone.com/ LinqvosoftOnline-English-Azeri-Dictionary).

Google Translate – 109 dünya dillərini ehtiva edir. ingiliscə-azərbaycanca, azərbaycanca-ingiliscə maşın tərcüməsi. (https://translate.google.com/)

Poliqlot Azərbaycan Lüğətləri

Bu program Azərbaycanda bir çox istifadəçi kütləsinin geniş rəğbətini qazanmış sistemlərdən biri olub leksik bazası 200000-dən çox söz və söz-formanı əhatə edir. Sistemdə alman-azərbaycan, ingilis -azərbaycan, fransız - azərbaycan , rus - azərbaycan , və ya əksinə azərbaycan-alman, azərbaycan – ingilis, azərbaycan-fransız , ingilis-rus və rus-ingilis dillərində lüğətlər yerləşdirilmişdir. Bu program dil müxtəlifliyi baxımından Dilmancdan daha zəngin olsa da, Dilmanc kimi birbaşa cümlə deyil yalnız sözbəsöz tərcüməyə əsaslanır. Bundan əlavə program yeni söz mənimsənilməsini həm böyüklərə, həm də uşaqlara əyləncəli bir formada aşılayacaq pazl tipli söz oyunu ilə təhciz olunmuşdur. Pazlda təsvir olunan hər hansı bir rəsmi tamamlamaq üçün təsvirin təşkil olunduğu xırda pazlları tapmaq lazım, həmin xırda pazlları tapmaq üçün isə azərbaycan dilində verilmiş sözün ingilis dilində tərcüməsini yazmaq lazımdır.

Lüğətin elektron variantının bazasının ərsəyə gəlməsi prosesində 8-9 dan çox kitab lüğətlərdən istifadə olunmuşdur.

Onu da vurğulamaq lazımdır ki, 12.02.2013 cü ildə bəhs etdiyimiz elektron lüğət sistemi “Kitab Az.” saytında 10 ən çox istifadə olunan kitablar siyahısında 5 - ci yeri tutmuşdur.(3, s.86)

Dilmanc programı

Azərbayacan maşın tərcüməsi sistemində ilk işlənmiş elektron lüğət Dilmanc programıdır. (http://dilmanc.az/)

Azərbaycanda ana dilindən digər əcnəbi dillərə və ya əksinə tərcümə prosesinin avtomatlaşdırılması sahəsində ilk ciddi atılan addımlar 2003-cü ildə

akademik Ə.M.Abbasovun rəhbərliyi ilə həyata keçirilmişdir. Həmin bu dövr ərzində mətnlərin Azərbaycan dilindən digər dillərə və ya əksinə tərcümə prosesi xüsusi modelləşdirmə metodu olan rəqəmsal modelləşdirmə metodu əsasında həyata keçirilmiş və ilkin baza olaraq Azərbaycan –ingilis maşın tərcüməsi sisteminin əsası qoyulmuşdur.

Layihənin ciddi şəkildə həyat keçirilməsinə Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin təşəbbüsü ilə 2005-ci ildə start verildi.

Layihənin ərsəyə gəlməsində elmi məsləhətçi- akademik Əli Abbasov, direktor - texnika üzrə fəlsəfə doktoru dos. Əbülfət Fətullayev, sahə üzrə məsləhətçilər- filologiya elmləri doktoru , professor Məsud Mahmudov (Dilçilik), texnika elmləri doktoru, professor Bayram İbrahimovun əvəzsiz rolu olmuşdur. Sistemin leksik bazasına 250000-dən çox ümumişlək söz və söz-forma daxildir və böyük mətnlərin tərcüməsində istifadəçiyə çox böyük yardımçı olur.

Sözügedən lüğət Azərbaycan maşın tərcüməsi tarixində ən önəmli və sanballı layihələrdən biri olub ödənişsiz olaraq kütlənin istifadəsinə təqdim edilmişdir. Layihə çərçivəsində nəzərdə tutulmuş elmi araşdırmalardan müsbət nəticə əldə edilmiş , aşağıdakı texnoloji yeniliklər əldə edilmişdir.

Layihə çərçivəsində növbəti yarımbölmələr işlənib hazırlanmışdır:

Avtomatik tərcümə və lüğət sistemləri- onlayn servis olaraq istifadəyə verilmiş bu sistem , Azərbaycan, İngilis, Rus dillərində tərcümə prosesini həyata keçirir və hər üç dildə lüğət bazasına malikdir. Sözügedən sistemləri dilmanc.az saytına daxil olmaqla yükləmək olar.

Nitqin tanınması sistemi-Azərbaycan dilində olan şifahi nitqi avtomatik olaraq birbaşa yazılı nitqə çevirir, Windows və Android əməliyyat sistemləri tərəfindən dəstəklənir.

Mətnin səsləndirilməsi sistemi-Azərbaycan dilində komputerə daxil edilmiş mətni düzgün tələffüzlə, insan səsi ilə oxuya bilir. Komputerler daxil olmaqla, istifadəçilər mobil telefonlarda da bu sistemdən yararlana bilərlər.

Mobil tərcüməçi- yuxarıdakı sistemləri özündə birləşdirərək, şifahi nitqi Azərbaycan, İngilis və Rus dillərinə avtomatik olaraq tərcümə edir. Bu programdan istifadəçilər ödənişsiz olaraq yararlana bilərlər. Programın ən böyük üstünlüyü xaricdə dillə bağlı problemlə üzləşən vətəndaşlarımızın, və ya əksinə Azərbaycana gələn turistlərin bu kimi problemini aradan qaldırmaqdır. Bir milyondan çox söz bazası olan həmin programın hazırlanmasına 1 ildən çox vaxt gedib. Programın yalnız 2015-ci ildə 70000 dın çox istifadəçisi olmuşdur.

Səslə idarə olunan kompüter - bu görmə əngəlli insanlar üçün çox gözəl düşünülmüş sistemdir. Belə ki, bu mobil kompüter səslə idarə olunub, istifadəçiyə də səsli cavab verir. Bəhs olunan sistem , Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Heydər Əliyev fondunun birgə layihəsi ilə həyata keçirilmişdir. Yuxarıdakı texnologiyaların yaradılması sahəsində aparılmış tədqiqatların nəticəsində layihə qrupu bir çox elmi nailiyyətlərə imza atmış, bu nailiyyətlər bir çox

beynəlxalq elmi konfranslarda təqdim edilmiş və nüfuzlu elmi jurnallarda çap edilmişdir. Avropa Maşın Tərcüməsi Assosasiyası da Dilmanc layihəsini Avropa tədqiqat qrupları siyahısına daxil etmişdir. Layihə qrupu üzvlərinin elmi məqalələri nüfuzlu IEEE təşkilatının elektron kitabxanasına, mt-archive.info saytına və digər kitabxanalara daxil edilmişdir." (4)

Sözügedən elektron lüğətin hazırlanması yuxarıda sadaladıqlarımız xüsusiyyətlər də daxil olmaqla, bir çox üstünlüklərə malikdir. Belə ki, tez bir zamanda iri həcmli mətnləri vaxta qənaət etməklə ana dilindən azərbaycan, ingilis, rus dillərinə tərcümə etmək, bu prosesin həm də şifahi nitqlə həyata keçirilməsi programın tədqirə layiq cəhətlərindəndir. Bununla yanaşı , dünyada bir çox böyük istifadəçi kütləsinin də yararlandığı Google translate tərcümə programının da üzləşdiyi problem məhz Dilmanc programında da hələ də həll olunmamış qalır. Belə ki problemi təfsilatı ilə izah etsək, ilkin olaraq daha çox bu problemlə bədii tərcümə zamanı qarşılaşdığımızın şahidi olarıq. Ümumiyyətlə, bədii üslub hər bir xalqın milli, bədii təfəkkürünü əks etdirdiyindən tərcüməni həyata keçirən obyektin canlı insan deyil, cansız maşın olduğunu nəzərə alsaq bu kimi halla qarşılaşmağımız çox da təəcüb doğurmamalıdır. Çünki bədii üslub ən çox hər bir xalqa məxsus dilin bədii çalarlarını ifadə edir ki, bunu da həmin xalqın adət - ənənəsinə bələd olmaqla və həmin xalqın arasında yaşamaqla anlamaq və duymaq olar. Fikrimizi daha aydın çatdırmaq üçün bir neçə misal gətirmək daha məqsədəuyğun olardı. Amerika yazıçısı Teodor Roetkenin kiçik bir şeirinin Şəhla Nağıyeva tərəfindən tərcüməsi zamanı maraqlı məqamla qarşılaşırıq. Belə ki,

"Wish for a Young Wife" şeirindəki

My lizard, my lively writher,

May your limbs never wither

sətirlərinin tərcüməsi zamanı " my lizard" birləşməsini hərfi olaraq ingilis dilindən azərbaycan dilinə sözbəsöz tərcümə zamanı maşın tərəfindən "Mənim kərtənkələm" kimi tərcümə olunur. Amma bu cür tərcümə azərbaycandilli oxucu üçün anlaşılmazlıq yaradacaq və bu kəlimə ilə yazıçının nəyi ifadə etmək istədiyi ona qaranlıq qalacaqdır. Lakin, Amerika mədəniyyəti və xalqın folkloru ilə tanış olan bir şəxs kimi professor, tərcüməçi, filoloq Şəhla Nağıyeva tərəfindən tərəfindən bu birləşmə " Mənim quzum" kimi tərcümə olunmuş və oxucuya yazıçının bu kəliməni təhqir deyil , əksinə əzizləmə mənasında işlətdiyi aydın olmuşdur. (5, s.84) Bu kimi hallara atalar sözləri və ya frazeoloji birləşmələrin tərcüməsində rast gəlirik. "A bird in the hand is worth two in the bush." – ingilis dilindəki atalar sözləri maşın tərəfindən "Əlindəki bir quş, koldakı iki quşdan daha dəyərlidir" kimi tərcümə olunur. Halbuki, bu atalar sözünün azərbaycandilli oxucu üçün " Soğan olsun, nəğd olsun" kimi tərcümə olunsa, daha aydın olar. " I fear Greeks even when bringing gifts " ingilis atalar sözü program tərəfindən – " Mən Yunanlardan hətta mənə hədiyyə gətirəndə də qorxuram" kimi tərcümə olunur , halbuki " İtlə dostluq edən çomağını yerə qoymaz " kimi ifadə olunması daha düzgün olardı. "First catch your

hare, then cook him!" – ingilis dilindəki atalar sözləri isə program tərəfindən " Əvvəlcə dovşanı tut , sonra bişir" kimi tərcümə olunur. Halbuki, o da " Arxı tullanmamış hop demə ! " kimi tərcümə olunsa daha məqsədəuyğun olardı. Digər bir atalar sözü " Walls have ears" ingilis dilindən azərbaycan dilinə " Divaraların qulağı var " kimi, Google translate tərcümə programında isə nisbətən daha təmilləşərək azərbaycan dilinə daha uyğun variant kimi "Yerin də qulağı var" tərcüməsini əlavə olaraq təqdim edir.

Bundan əlavə, belə bir hallara daha çox bir dildə məfhum olaraq mövcud olub, digər bil dildə mövcud olmayan sözlərin - realiyaların tərcüməsində də qarşılaşırıq. Məsələn , azərbaycan dilində mövcud olan dolma, qatıq, dovğa kimi bizim xalqa məxsus milli kolorit daşıyan sözləri Dilmanc programında müəyyən bir izahla və ya ekvivalentlə vermək yaxşı olar ki, əcnəbi turistdə bu məfhumlar barəsində təsəvvür yaransın. Məsələn, "Google translate" də ingilis xalqının məişətində mövcud olmayan "qatıq" kəliməsini həm " yogurt" həm də "sour clotted milk"- (turş laxtalanmış süd), o cümlədən " Caucasian milk "- (Qafqaz südü) kimi verilmişdir. Zənnimcə , bu qəbildən olan sözlər Azərbaycan lüğət bazasının çox böyük hissəsini təşkil etmədiyindən onları Dilmanc programının lüğət bazasına yerləşdirmək olar. Bu cür yanaşmanı yuxarıda misal çəkdiyim atalar sözlərinin və ya frazeoloji birləşmələrin tərcüməsi zamanı qarşıya çıxan problemin həlli üçün tətbiq etmək olar.

Frazeoloji vahidlərin semantik aspektdən tədqiqi mənsub olduğu xalqın təfəkkür tərzini, onun inkşaf mərhələlərini ,bu xalqın tarixi-mədəni ənənələrinin , dil özəlliklərinin öyrənilməsində mühüm rol oynayır.[1,s.72]

Frazeoloji vahidlərin dilin milli simasını əks etdirdiyini nəzərə alsaq, onun tərcümə prosesində , xüsusilə maşın tərcüməsi sistemində yaratdığı çətinlikləri görməmək və ya təsəvvür etməmək olmaz. [6,s.37]

Frazeoloji və ya sabit söz birləşmələrinin tərcüməsi zamanı qarşımıza çıxan bir neçə maraqlı halları sizinlə bölüşmək istərdik. Belə ki, "skeleton in the cupboard" - sabit söz birləşməsi Dilmanc tərəfindən " şkafdakı sklet " kimi tərcümə olunur, amma "möhkəm qorunacaq ailə sirri" kimi tərcümə olunsaydı düzgün olardı. Bundan əlavə, "fall on one's feet" birləşməsi sözbəsöz "birinin ayağına düşmək" kimi tərcümə olunub. Halbuki, "sudan quru çıxmaq" kimi tam ona uyğun ekvivalent kimi verilsə daha doğru olardı.

Bir sözlə, bu qəbildən olan sözlərin, birləşmələrin tərcüməsi zamanı problemlə üzləşməmək üçün sistemin biliklər bazasına onların uyğun tərcümə variantlarını, ekvivalentlərini daxil etmək lazımdır. Sözsüz ki, bu proses müəyyən zaman və böyük zəhmət tələb edir. Son dövrdə düşünürəm ki, Azərbaycanda da böyük kütlənin rəğbətini qazanmış "Google translate" tərcümə programından bir çox bəhrələnə biləcəyimiz və milli tərcümə proqramımız olan Dilmanc proqramına da tətbiq edə biləcəyimiz bir neçə ünsürlər var. Bunlardan biri həmin programda " tərcüməni təkmilləşdir " bəndidir (və ya düyməsi). Belə ki, hər hansı frazeoloji

birləşmənin , və ya sözün düzgün tərcümə olunmadığına əmin olan istifadəçiyə digər istifadəçilərin xeyrinə, düzgün bildiyi tərcümə variantını sistemə daxil etmək imkanı verilir. Belə bir halla "tezlik lüğətləri" birləşməsinin tərcüməsi zamanı qarşılaşmışdım. Belə ki, elektron Google tərcümə programında "tezlik" -"speed" kimi verilmişdir, amma bu söz maşın və ya hər hansı mexanizm deyil, sözlərin tezliyi ilə bağlı olduğundan mən düzgün bildiyim variant olan " frequency " sözünü həmin sözün başqa ekvivalenti olaraq sistemin bazasına daxil etdim. Fikrimi belə ifadə etmək istərdim ki, əgər bu kimi texniki imkanlar programmistlər tərəfindən Dilmanc tərcümə sistemində yaradılsa idi, və hər bir istifadəçi əmin olduğu variantı sistemin biliklər bazasına daxil edə bilsəydi, o zaman sistemin lüğət bazasını yeniləmək üçün əlavə vaxt və işçi qüvvəsi tələb olunmazdı. Amma nəzərə alsaq ki, belə bir texniki imkan olmasa, birdəfəlik Dilmanc Tərcümə programının bazasına məhdud sayda zəngin milli kolorit daşıyan, mədəniyyətimizi əks etdirən birləşmələri yerləşdirsək, nəinki istifadəçilərə xeyir vermiş olarıq, hətta milli mədəniyyətimizi düzgün aşılayıb və ifadə etmək baxımından çox böyük uğura imza atmış olarıq. O zaman düşünürəm ki, bu faydalı işə qoşulan hər bir əməkdaş bundan yalnız zövq alacaqdır.

Bəzi hallar isə tərcüməyə insan tərcüməçinin müdaxiləsini labüd edir. Bu ən çox cins kateqoriyası ilə bağlı məsələlərə gəldikdə ortaya çıxır. Belə ki, Azərbaycan dilində "O" əvəzliyi həm kişi , həm də qadın cinsinə aid edilə bilir. İngilis dilində isə qadın cinsi birmənalı olaraq "she", kişi cinsi isə "he" əvəzliyi ilə ifadə olunur. Rus dilində isə kişi cinsi "он", qadın "она" , orta cins isə (çox vaxt cansızlara aid edilir) " оно" kimi ifadə olunur. Müxtəlifsistemli dillərdə belə cins müxtəlifliyi maşında çaşqınlıq yaradır və çox vaxt cinslər səhv tərcümə olunur. Məsələn , " Əsnad nə edəcəyini və hara gedəcəyini bilmirdi. O, bu hadisələrdən çox təsirlənmişdi və buna görə də, şəhəri tez tərk etmək istəyirdi." Bu cümlədə o əvəzliyinin hansı şəxsə aid olduğu yalnız kontekstlə tanış olan və Azərbaycan dilində adların hansı cinsə mənsub olduğunu bilən tərcüməçiyə bəlli ola bilər. Bu kimi biliklər bazası ilə tanış olamayan maşın isə "Asnad didn't know what to do and where to go. He was deeply affected by these events and wanted to leave the city as soon as possible." kimi tərcümə edir. Halbuki, "he" qadın deyil, kişi cinsinə istinad edir. Bu kimi hallar tərcüməçinin tərcüməyə müdaxiləsini zəruriləşdirir.

Fikrimi son olaraq belə yekunlaşdırmaq istərdim ki, bir sıra qüsurlarla yanaşı maşın tərcüməsi çox böyük üstünlüklərə malikdir. Bu üstünlüklərdən biri də onun çoxşaxəli olmasıdır və bu xüsusiyyəti sayəsində o, bütün sahələrlə bağlı tərcümələri həyata keçirməyə qabildir. İnsan tərcüməçi isə çox vaxt müəyyən sahə üzrə ixtisaslaşır və o sahənin terminologiyasına yaxından bələd olur. Bununla yanaşı, maşın tərcüməsinin qarşısında onu insan tərcüməçidən geri qoyan bəzi ünsürlər də var ki, hal -hazırda dünyada bu sahədə çalışan mütəxxəsislər məhz həmin məsələlərin tez bir zamanda həllinə maraqlıdırlar. Maşın tərcüməsi çox vaxt rəsmi-işguzar sənədlərin , elmi mətnlərin tərcüməsini daha uğurla həyata keçirir. Məsələ

bədii tərcüməyə gəldikdə isə nisbətən qəlizləşir. Belə ki, bədii tərcümədə çox zaman çoxmənalı sözlər, frazeoloji birləşmələr , idiomlar , atalar sözləri işləndiyindən maşın tərəfindən onu anlayıb tərcümə etmək çətinləşir. Bunları realiyaların da tərcüməsinə aid etmək olar. Çünki bu kimi birləşmələri tərcümə etmək üçün , birləşmənin mənsub olduğu xalqın adət-ənənəsini, düşüncə tərzini , milli ruhunu duymaq və bilmək lazım. Bu da hələ ki, maşın tərcüməsinin qarşısında duran ən başlıca problem olsa da, düşünürəm ki, gələcək 5-10 il ərzində bu sahədə çox böyük uğurlar əldə ediləcək. Buna maşın tərcümə sisteminin biliklər bazasına həmin birləşmələri yerləşdirməklə nail olmaq olar. Amma fikrimcə, tərcümə işi maşın tərəfindən səmərəli həyata keçirilsə də, insan tərəfindən nəzər yetirilməsi vacib olan faktorlar qaçılmaz olacaq. Məsələn, yuxarıda qeyd etdiyim müxtəlifsistemli dillərdə cins kateqoriyası kimi .

Ədəbiyyat

1. Vəliyeva K. Komputer dilçiliyinə giriş, Elm və Təhsil , Bakı, 2018, 380s.
2. Мамедова М.Г. О создании банка терминологических данных азербайджанского языка -Советская тюркология, 1990, №2, s.84-89
3. Mahmudov M. Kompüter Dilçiliyi , Elm və təhsil, Bakı-2013, 356 p.
4 . URL: http://dilmanc.az/en/project/about (13.03.2019)
5 . Nağıyeva Ş.Poeziya tərcüməsinin bəzi məsələləri , Bakı 2011 , 215s.
6 . Mirzəliyeva M.M, Vəliyeva K.Maşın tərcüməsinin nəzəri problemləri , Bakı 2016, 120 s.

Xülasə

Məqalədə son dövrdə ən aktual mövzulardan biri olan maşın tərcüməsinin Azərbaycanda meydana gəlmə mərhələsi və inkşaf ardıcıllığı, həyatımızdakı əhəmiyyəti öz əksini tapmışdır. Bundan əlavə məqalədə, həmçinin bu sahənin inkşaf perspektivlərindən söz açılmış və gələcəkdə bununla bağlı meydana çıxacaq bəzi məsələlərin həlli yolları təklif olaraq irəli sürülmüşdür. Bununla yanaşı , Azərbaycanda gündəmdə olan bir neçə tərcümə proqramları araşdırılmış və onların müxtəlif mənfi və müsbət keyfiyyətləri aşılanmışdır. Həmin keyfiyyətlər müəyyən dərəcədə maşın tərcüməsi sahəsində ixtisaslaşmış mütəxxəssislər tərəfindən gözdən keçirilə və və praktik məqsədlərlə tətbiq oluna bilər. Sözügedən proqramlar arasında məxsusi olaraq “Dilmanc” proqramı böyük istifadəçi kütləsinin rəğbətini qazanmış və Azərbaycanın maşın tərcüməsi sahəsindəki ən böyük uğurlardan biri hesab oluna bilər.

Bildiyimiz kimi maşın tərcüməsi insan tərcüməçi ilə müqayisədə bir sıra fərqli üstünlüklərə malikdir. Belə ki, maşın tərcüməsinin köməyi ilə bir çox iri həcmli mətnləri qısa vaxt ərzində tərcümə etmək mümkündür. Lakin bununla yanaşı, belə tərcümə zamanı , xüsusilə bədii mətnləri orijinal dildən hədəf dilə köçürərkən tərcümə prosesində müxtəlif problemlərlə qarşılaşırıq. Belə hallar daha çox idiomların, frazeoloji vahidlərin, realiyaların bir dildən digər dilə köçürülməsi prosesində meydana çıxır. Aparılan araşdırmalarda, həmçinin bu hallarla

qarşılaşdığımız zaman məslənin həlli yolları işıqlandırılmış və müəyyən praktiki təkliflər irəli sürülmüşdür. Bununla yanaşı, fikrimizcə Azərbaycanda yeni sahələrdən biri olan maşın tərcüməsinin meydana gəlməsi və keçdiyi tarixi inkşaf yolunu araşdırmaqla, hal-hazırda Azərbaycandakı bu sahənin müasir vəziyyəti yenidən gözdən keçirilməli, təhlil olunmalı və qiymətləndirilməlidir.

АЛАКПЕРОВА НАРГИЗ

РЕЗЮМЕ
МАШИННЫЙ ПЕРЕВОД В АЗЕРБАЙДЖАНЕ

В статье отражены этап и последовательность развития машинного перевода в Азербайджане, который является одной из самых актуальных проблем в последние годы, и его значение в нашей жизни. Кроме того, в статье также рассматриваются перспективы развития данного направления и предлагаются решения некоторых вопросов, которые могут возникнуть в связи с этим в будущем. В то же время были изучены несколько программ перевода, стоящих на повестке дня в Азербайджане, и выявлены их различные отрицательные и положительные качества. В определенной степени эти качества могут быть проанализированы и применены в практических целях специалистами в области машинного перевода. Среди этих программ программа «Dilmanc» завоевала симпатию большого количества пользователей и может считаться одним из величайших достижений в области машинного перевода в Азербайджане.

Как мы знаем, машинный перевод имеет ряд преимуществ перед переводом, выполняемым человеком. Таким образом, с помощью машинного перевода можно в короткие сроки перевести много больших текстов. Однако в то же время мы сталкиваемся с различными проблемами в процессе перевода, особенно при переводе художественных текстов с исходного языка на целевой язык. Такие случаи чаще возникают в процессе перевода идиом, фразеологизмов, реалий с одного языка на другой. В исследовании также выделяются способы решения проблемы в подобных ситуациях и даются некоторые практические предложения. В то же время, на наш взгляд, нынешнее состояние этой области в Азербайджане следует пересмотреть, проанализировать и оценить, изучив возникновение и историческое развитие машинного перевода, одной из новых областей в Азербайджане.

Ключевые слова: машинный перевод, лингво-статистический анализ, художественный перевод, программа Dilmanc, фразеологические сочетания.

NARGIZ ALAKPEROVA

RESUME

MACHINE TRANSLATION IN AZERBAIJAN

The article reflects the stage of development and sequence of development of machine translation in Azerbaijan, which is one of the most topical issues in recent years, and its importance in our lives. In addition, the article also discusses the prospects for the development of this area and suggests solutions to some issues that may arise in this regard in the future. At the same time, several translation programs on the agenda in Azerbaijan were studied and their various negative and positive qualities were instilled. To some extent, these qualities can be reviewed and applied for practical purposes by specialists in the field of machine translation. Among these programs, the Dilmanc program has won the sympathy of a large number of users and can be considered one of the greatest successes in the field of machine translation in Azerbaijan.

As we know, machine translation has a number of different advantages over human translation. Thus, with the help of machine translation, it is possible to translate many large texts in a short time. However, at the same time, we face various problems in the translation process, especially when translating literary texts from the original language to the target language. Such cases occur more often in the process of translating idioms, phraseological units, realities from one language to another. The research also highlights ways to solve the problem when faced with these situations and makes some practical suggestions. At the same time, in our opinion, the current state of this field in Azerbaijan should be reconsidered, analyzed and evaluated by studying the emergence and historical development of machine translation, one of the new fields in Azerbaijan.

Keywords: machine translation, lingvo-statistical analysis, literary translation, Dilmanc program, phraseological combinations

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Məsud Mahmudov tərəfindən çapa tövsiyə olunmuşdur

SƏLIMOVA ÜLKƏR BAHADIR QIZI
Bakı Dövlət Universiteti
ulker-salimova@mail.ru

MİR CƏLAL DİLİNİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: yazıçı, əsər, söz, leksik, qrammatika, dialekt söz , sinonim, antonim
Ключевые слова: писатель, произведение, слово, лексика, грамматика, диалектное слово, синоним, антоним
Key words: writer, work, word, lexicon, grammar, dialect word, synonym, antonym

Bədii mühitdə sözün işlənmə dairəsi və leksikası semantik üslubi kateqoriya funksiyasında çıxış edir. Belə kateqoriyalara sinonimlər, antonimlər, omonimlər , dialekt sözlər və s. daxildir. Mir Cəlalın həmin leksik kateqoriyalardan istifadə tərzi, eyni zamanda omonim, sinonim, antonim yaratma üsulları olduqca zəngindir. Yazıçını əsərlərinin dili canlı xalq danışıq dilidir. Xalq dilini dərindən bilməsi və zəngin söz ehtiyatının olması onun əsərlərinə siraət etmişdir.

Ədibin bədii əsərlərinin özünəməxsus leksikası var. Bu leksikada həm məişət, həm adət-ənənə, həm milli psixologiyas, həm loru sözlər, alınma söz və terminlər xüsusi bir dəqiqliklə öz əksini tapmışdır. Yazıçının nəsr əsərlərində obrazlar xalq içərisindən çıxmış sadə insanlar olduğundan onların dilində dialektlər geniş işlənir.

Bədii əsərlərdə dialektlərin yəni dialektizmlərin işlənməsi haqqında müxtəlif fikirlər olmuşdur. Bəzi tədqiqatçılar dialektlərin işlənməsini məqbul, bir qismi isə qeyri-məqbul qəbul edir. "Bədii əsələrin dilində dialektizmlərin heç bir xeyri yoxdu. Bunlar əsərlərin dilini korlayır." (1, səh.12)

Əslində dialektizmlərin bədii ədəbiyyatda işlənməsi çox aktual olmasa da labüd olan haldır. Çünki əsərlərdə obrazların daxili aləmin açılmasında və hadisənin baş verdiyi ərazilərinin xüsusiyyətlərinin ortaya çıxmasında dialektlər xüsusi bir rol oynayır.

Yazıçı əsərlərini nə qədər dövrünün ədəbi dil normalarına uyğun yazsa da, yenə də onun əsərlərində yerli dialektə meyiletmə, məhəlli xüsusiyyətlər özünü göstərir.

Mir Cəlalın bədii əsərləri dialekt materialları ilə çox yüklənməmiş, yeri gəldikcə istifadə olunmuşdur. Yazıçının əsərləri ilə tanışlıqdan sonra onun dialektlərini fonetik, leksik, qrammatik dialektizmlər kimi qruplaşdırmaq olar.

Canlı xalq danışıq dilinə əsaslanmaq hər bir əsərin dilinin sadəliyini, xəlqiliyini təmin edir. Bu cəhətləri M.Cəlal özü də yüksək qiymətləndirmiş və əsərlərində tətbiq etmişdir. Bədii şəraitin bütün tələblərinə uyğun şəkildə dialektizmlərin işlədilməsi yazıçının əsas meyarlarından olmuşdur. Bu tələblər mütənasiblik, mətndə yerinə düşmə və anlaşılma cəhətləri ilə bağlıdır.

Mir Cəlal əsərlərində məhəlli mənsubluğu canlandırmaq, personajların dilini təbii və canlı alınması üçün dialektizmlərə müraciət etmişdir.

Yazıçı personajlarının dilində elə sözlər yazıb işlətmişdir ki, həmin sözlər obrazı fərdiləşdirməyə, tipikləşdirməyə xidmət etmiş, prsonajların nitqi bir-birindən, ümumillikdə isə müəllifin təhkiyəsindən fərqlənmişdir.

M.Cəlalın işlətmiş olduğu dialektizmlər özünü fonetik, leksik, qrammatik dialektizmlər formasında, gerçək kənd həyatın təsviri məqamında işlənmişdir.

Fonetik dialektizmlər səslənir tələffüzündə yaranan fəqlərdə özünü göstərir. " Fonetik dialektizmlər şivəyə məxsus fonetik dəyişikliyə uğradılmış sözlərlə, şəkilçilərlə, və bəzi səslənmələrlə ifadə olunur. "(2, s.58)

Fonetik dialektizmlərdən M.Cəlal bədii əsərlərində obrazın dilində tipikləşdirmə məqsədi ilə istifadə etmişdir**.** ***Məsələn,*** *Qız bir az dayandı, sonra içəriyə dönüb səsləndi: - Məmə, ay məmə!Qapıya çıx! (3, s.329). Necə deyərlər: "Mən gəlmişəm istəkana qənd salmağa, gəlməmişəm ürəyimə dərd salmağa" (3, s.55). Kənddən həmişəlik qurtulub dağlara, meşələrə doğru qaşan ceyranın dalıncamı, amasının yanınamı getsin, daldey bir yerdə oturub dincəlsin, yorğun ayaqlarının ovsunmu, çütçülərə yanaşıb iş istəsinmi, yoxsa köç yolunu qabağına qatıb uzaqlara, insaflı bir xozeyin axtarmağamı getsin... (4, s. 86).*

Birinci nümunədə Şərq qrupu dialektinə uyğun olarasq "məmə" variamntının işlənilməsi, ikinci nümunədə sözün əvvəəlində iki samitin yanaşı işlənməsi məqamında "i" saitinin artırılması, üçüncü nümunədə "dalda" sözünün daldey kimi işlənilməsi fonetik dialektizm hesab edilir.

M.Cəlalın fonetik hadisələrdən daha çox Qərb qrupu dialekti ünsürlərindən istifadə etmişdir. Söz ortasında b-v, c-j əvəzlənməsi, dodaq ahənginin möhkəmliyi, qalınlaşma fonetik hadisəsi aktiv formada Qərb qrupu dialektinə xas olan xüsusiyyətdir.

Bu və ya başqa dialekt və şivəyə mənsub olub, ədəbi dildə işlənməyən sözlər leksik dialektizmlərdir. Leksik dialektizmlərin ədəbi dildə qarşılığı olur. Onlar ədəbi dildəki sözlərə semantik cəhətdən uyğun gəlir. Lakin bədii ədəbiyyatda leksik dialektizmlərdən yerli-milli kolariti yaratmaq, obrazların dilindəki təbiiliyi qoruyub saxlamaq üçün istifadə olunur. Leksik dialektizmlər yazıçının əsərləində obrazların dilin də aktiv formada işlənir. *Məsələn, Qumrunun anasından qalma bir yadigar var idi. Mərmər zıvınça. Yorğanın məxmər üzü ilə zıvınça satılmalı oldu.* (3,s. 22). Zıvınça- Qərb zonasında keçmişdə dəbdə olan qısa boylu, qolsuz qaın paltarıdır. *Şəhərdən qayıdanlar kisib aparırlar. (3, s. 76).* Kisib-kisif variantında işlənən, qənimət, qazanc mənasında işlənir.

Müxtəlif qrammatik kateqoriyaların dialekt və şivədə qarşılığı kimi meydana çıxması morfoloji dialektizmlər kimi özünü göstərir. *Məsələn, Haçaq gələcəksən?* (4,s. 254). Haçaq- nə vaxt mənasında işlənmişdir. *Bəbir bəy: - Hüriyyətlik dediyin nədi? Özümüzük, lap loru deyək: özümüzük dana! (3,s. 17).* Dana- da[2] ədatı mənasında işlədilir.

Yazıçının dilinin leksik xüsusiyyətlərini təhlil edərkən onun əsərlərində işlənən alınma sözlərə toxunmaq lazımdır. Sözlərin mənşə müxtəlifliyi Mir Cəlalın bədii əsərlərində diqqəti cəlb edən əsas məsələlərdən biridir. Yazıçının bədii əsarlərinin leksikasının əsas qismini Azərbaycan -türk sözləri təşkil etsə də, ərəb, fars, rus, Avropa sözlərinə də rast gəlinir.

Məlumdur ki, hər bir dilin lüğət tərkibinin zənginləşməsində alınma sözlərin rolu böyükdür. Alınma sözlərin dilə gəlməsi və mövqe qazanması uzunmüddətli bir prosesdir. Alınma sözlər dilə keçən kimi dərhal qəbul edilmir. Ümumişlək söz qrupuna daxil alınma sözlər daha tez qəbul edilir.

" Bədii dilin leksikasını öyrənərkən əsərin yarandığı mühiti, ictimai-siyasi şəraiti nəzərə alaraq yazıçının əcnəbi sözlərə münasibətini müəyyənləşdirmək ədəbi-ictimai mühitin qohum və qonşu dillərlə təmasının dərəcə və istiqamətini aydınlaşdırmaq lazım gəlir. "(1, s. 59)

Mir Cəlalın romanlarında təsvir olunan hadisələr, əsasən, XIX-XX əsrin əvvələrinə təsadüf edir. Bu dövrdə dilə təsir edən amillər yazıçının əsərlərinin dil xüsusiyyətlərinə də təsir edir. Əsərlərin leksik sistemində ərəb, fars, osmanlı-türk dili, rus və Avropa dilllərinin sözlərindən istifadə olunmuşdur.

Yazıçı bədii əsərlərində alınma sözlərdən müxtəlif məqsədlərlə, müxtəlif formalarda istifadə etmişdir. Bədii əsərlərin dilində işlənən alınma sözlərin bir hissəsi zərurət nəticəsində, bir qismi isə tipikləşdirmə məqsədi ilə obrazların dilində işlənən sözlərdir. Azərbaycan dilinin lüğət tərkibində olduğu kimi Mir Cəlalın bədii əsərlərində işlənmiş alınmaları iki qrupda ümumiləşdirmək olar:

1. Ərəb-fars mənşəli sözlər
2. Rus- Avropa mənşəli sözlər

Ərəb-fars mənşəli sözlər ziyalı obrazların dilində, dini terminlərdə, din xadimlərinin- axundların, mollaların dilində daha çox istifadə olunmuşdur. Məsələn, *İnsaf eləyin!Əhli-insan nə günahın sahibidir, bəradər! (3,s. 18). Məşədi İslamın yaxın adamı Mələknisa bu toyda məşşatə idi.* Məsələn Nümunələrdə işlənmiş alınmalar mənbə dilində olduğu kimi saxlanılıb. Nitqin təbii olması məqsədi ilə insanların danışığında işlədilən və ümumişləklik qazanan sözlər aktiv formada həm müəllif təhkiyəsində, həm də, obrazların dilində işlənir. Məsələn, *Bağır oğlu Əlini dəftərxana qabağında dirəyə bağlamışdılar. (3,s. 18). Ancaq həmişə vahimə, intizar, nigaranlıq onun zehnini gəmirirdi. (3,s. 36). - Nə olar soruşanda, a Qədir, qiyamət olmadı ki?Nə əl-ayağa düşürsən, ay evini Allah yıxmasın!... . (3,s. 14).*

Rus-Avropa mənşəli sözlərin işlənilməsində rus mənşəli sözlərin təhrif olunmuş formada işlədilməsi özünü göstərir. Təhrif olunmuş şəkildə rus sözlərinin işlənilməsi həm rus dilinin Azərbaycan dilinə təsirini, həm də əsərlərdə surətlərin mədəni geriliyini göstərməyə xidmət edib. Məsələn, *Bu surətdə heç səni uşqol uşaqlarının yanına qoymazlar! Uşqolun geyinib-keçindiyini görmürsənmi?*
(1,s. 53). Onverset qurtarmasam da ... elə bir şeyəm. (1,s.207). Balşavet köpək uşağı, bura da sizə Ərsəy-zad deyil ha, onu bilin . (3,s. 207).

Bədii əsərlərin dilində məcazlaşma ön planda dayanır. Məcazlaşma əsasında isə sinonimlər üstünlük təşkil edir. Sinonimlik üslubiyyatla əlaqədar araşdırmanın mərkəzində özünü göstərir.

Mir Cəlal sinonimlərdən bədii əsərlərində üslubi vasitə kimi ən incə məqamları çatırmaq üçün istifadə etmişdir. Yazıçı həm öz təhkiyəsində, həm də obrazların nitqində ifadəni gücləndirmək, müəyyən üslubi-ekspressivlik çalarları vermək üçün sinonimlərə müraciət etmişdir. Mir Cəlal bəzən özü də sözlərin yeni sinonim variantlarını yaratmışdır. Yazıçı tərəfindən düşünülmüş şəkildə, yerinə, məqamına uyğun olaraq seçilib işlədilən sinonimlər əsərin bədiiliyinin artırılmasına, fikrin daha dəqiq, canlı verilməsinə səbəb olur. Bir cəhəti də qeyd etmək lazımdır ki, yazışı yalnız ehtiyac olduqda sinonimlərə müraciət edir.

Sinonimlik bədii əsərin ümumi ideya məzmununu daha ifadəli vermək üçün yazışıya kömək edən vasitədir.

"Sinonim əsas mənasına görə mütləq və ya nisbi eyniyyət təşkil edən, lakin formasına və əlavə mənasına görə fəqlənən sözlərtdir" *(2,s. 72).*

Mir Cəlalın bədii əsərlərində sinonimlərin məna yükü üslubi imkanları və vəziyyətindən asılı olaraq dəyişir. Bəzən adi sözlər belə müəllifin üslubundan, konteksindəki şəraitdən asılı olaraq sinonimə çevrilə bilir. Ona görə də sinonomləri bu əsərlərdə çox böyük ekspresivlik ifadə edən üslubi kateqoriya adlandırmaq olar.

Yazıçının bədii əsərlərində işlətdiyi sinonimlərin məna çalarları çox müxtəlifdi. Bəzən onlar, ayrılıqda götürüldükdə, eyni sinonimlik cərgəsinə daxil ola bilmir, yalnız mətn daxilində konkretləşir, məcazlaşır, sinonimləşir. Məsələn, *Qumru razı olmadı. Evin işığını södürməmək üçün alçaq və qaralnıq daxmada yaşamağı məsləhət gördü (3,s.67). Çıx get ,ayrı adamın evində qal. Ayrı yerdə mənzil tapım sənə Yoxsa şəhərdə nə çoxdur yurdsuz-yuvasız uşaq, üzünə baxan kimdi? (6,s.60).* Nümunələrdəki sinonimlər Mir Cəlal canlı xalq dilindən götürülmüş olsa da, həmin sözləri müxtəlif şəraitdə, obrazların vəziyyəti, təsvir olunan hadisəyə münasibəti ilə əlaqədar olaraq müxtəlif üslubi məqamlarda, müxtəlif məna çalarlarını bildirmək üçün istifadə etmişdir. Ev-daxma- mənzil-yurd-yuva sözləri eyni məfhunmun məna şalarlarını bildirməyə xidmət edir.

Sinonimlərin ən mühüm cəhəti ondan ibarətdir ki, onlar məfhumun müxtəlif məna incəliklərini ifadə edir. Mir Cəlalın işlətdiyi məfhumun məna incəliklərini incəliklərini rəngarəng şəkildə, dəqiqliklə əks etdir. Belə sinonimlərdə ümumilikdə görünür.

Mir Cəlalın üslubunda sinonimliyin bir sıra xüsusi cəhətləri var. Yazıçı personajın daxili və daxili aləmin oxucuya tam incəliyi ilə oxucuya çatdırmaq üçün cümlə daxilində sinonimləri həmcins olaraq işlətmişdir. Yəni sözün sinonim variantlarından birinin ifadə edə bilmədiyi məna, ikinci, bəzən üçüncü, dördüncü sinonim variantı ilə tamamlanır. Məsələn, *Qədir hamıdan artıq* ***iztirab çəkirdi.*** *O* ***təcrübəsiz, aciz, məzlum*** *bir insan idi (3,s. 7). Qədir arxadan öz həyəcanını, tələşını söndürmək üçün öz həyəcanını gizlədirdi. (3,s. 11). Qumrunun ayrılıq sözü onu*

daha da kədərləndirdi, ağır və bitməz, tükənməz xatirələrdən ayrılacaq, çətinliklə dilləndi. (3,s. 25).

Göstərilən nümunələrdə Mir Cəlal eyni cümlə daxilində bir-birinə sinonim olan sözlərdən məharətlə, xüsusi bir üslubi priyom kimi istifadə etmiş, sinonim sözlər arasında məna yükünü bölüdürə bilmişdir. Belə bölüşdürmə personaj haqqında hərtərəfli məlumat çardırmağa xidmət edir.

Bəzi hallarda əsərin məzmununa uyğun olaraq eyni cümlədə sözün müxtəlif sinonim variantlarına müraciət etmişdir. Məsələn, ***Müsafirin*** *sevinci burda olan* ***qonaqların*** *hamısında var idi. (IV,s. 148).*

Yazıçı eyni mənanın müxtəlif çalarlarını ifadə edən sinonimlərinelə variantını seçib işlədib ki, o söz yerində deyilmiş olur, digəri ilə əvəz edildikdə sinonim vasitəsilə ifadə edilən fikir obrazlılığını, ekspresivliyini itirmiş olur.

Mir Cəlalın əsərləri ilə yaxından tanış olduqdan sonra belə bir qənaətə gəlmək olur ki, sinonimlərin müxtəlif nitq hissələrindən, daha çox isim və feillərdən düzəlməsi özünü göstərir.

Sinonimlik cərgəyə daxil olan sözlər mənbə etibarilə biur-birində fərqlənir. Yəni yazıçı sinonimləri həm milli sözlər, həm dialektlər, həm də alınma sözlər hesabına yaratmışdır. Milli dil vahidlərindən ibarət olan sinonim sözlərdə ekspressivlik, emosionallıq daha güclü olur.

Mir Cəlalın bədii əsərlərində ekspressivlik-emosionallıq yaratmaq məqsədi ilə feili sinonimlərə geniş yer verilmişdir. Yazıçının nəsr əsərlərində işlənmiş feli sinonimlər, frazeoloji feili birləşmələr ədəbi dildə ekvivalenti olan, sadə danışıq variantlarıdır.

1) Sevinmək mənasında:

Barxudar əhvalatı ona danışanda Qələndərin ***rəngi açıldı****. (3,s.357).*

Tahirzadənin məyus gözlərində qığılcım oyandı, ***çöhrəsi açıldı****. (6, s.35)*

2) Kədərlənmək mənasında

Qədirin ürəyi ***xarab oldu.*** *(3,s. 45).*

Qədirin ürəyi sıxıldı, yüzbaşını o indi başa düşmüşdü. (3,s. 21).

3)Gülmək mənasınada

Mən heç nə danışmadım,sözüm də yoxdu. Bəli, xeyr ilə ya daheç nə demədən dişlərimi ağartmaqla başımı girləyir, məclisimizin bitməsinə tələsirdim (3,s. 63).

Mirzə Cəlilin dodağı qaçdı, təzəcə dən düşmüş bığları kənara çəkildi, gözləri kiçildi. (6 ,s. 206).

Göründüyü kimi, feili sinonimlərin çox böyük bir qismi yazıçının yaratdığı mürəkkəb quruluşlu fərdi-üslubi sinonimlərdir. Feili sinonimlərdə, əsasən, hərəkət və proses bildirən sözün ədəbi dil variantı danışıq variantı ilə birləşir və sinonimlik yaradır.

Mir Cəlalın dili canlı xalq danışıq dilinə əsaslandığı üçün əsərlərinin dilində də xalq danışıq dilindən, xalq leksikonundan gələn sinonimlərdən geniş şəkildə və

müvəfəqiyyətlə istifadə edilmiş, bu cəhət onun əsərlərinin bədiiliyini, xəlqiliyini, sadəliyini artıran əsas keyfiyyətlərdən birinə çevrilmişdir.

Əsərlərdə sinonim sözlərdən istifadə, müəllifin özü tərəfindən sözlərin yeni sinonim variantlarının yaradılması incə və dərin məna fərqlərini aşkara çıxarmağa, nəsr dilinin bədiiliyini, ekspresivliyini gücləndirməyə səbəb olmuşdur.

Mir Cəlal əsərlərində sinonimlərlə yanaşı, antonimlərdən də böyük məharətlə istifadə etmişdir. Müəllif həm öz təhkiyə dilində, həm də obrazların dilində antonimlərdən bəhrələnmişdir. Antonimlər obrazların dilinə təbiilik verir, hadisələrin daha cox inandırıcı ifadəsinə yardımçı olur.

Yazıçı antonim sözlərlə əsərlərinin lüğət tərkibini zənginləşdirir, yeni ifadə tərzləri yaradır, obrazları, hadisələri müqayisə edərək daha dolğun şəkildə vermək üçün onları qarşılaşdır və qarşılaşdırma zamanı antonimlərdəmn üslubi vasitə kimi istifadə edir. Bunun üçün həm xalq danışıq dilindən nümunələr götürür, həm də özü, yeri gəldikcə, müxtəlif üslubi məqamlardan antonimik vahidlər yaradır.

T.Hacıyevin fikrincə, mətndə çətin sözlərin aydınlaşdırılmasında antonimlərin xüsusi bir əhəmiyyəti var. Hadisələrin təzadı prosesində antonim sözlər işlənərkən antonimlərdən biri aydındırsa, dərhal o biri də andınlaşır. Oxucu fikirlərin qarşı-qarşıya olduğunu başa düşür.

Mir Cəlalın bədii əsərlərin işlətdiyi antonimlər işləndiyi əsərin obrazlılığını, estetik təsir gücünü, emosionallığını artıran ifadə vasitələrindən biridir. Əsərləri oxuyan zaman belə bir cəhətin şahidi oluruq ki, müəllif antonimlərdən istifadə etməklə, həm öz təhkiyə dilinin, həm də obrazlarındilinin zənginliyinə nail olmuşdur.

Mir Cəlalın bədii əsərlərində işlətdiyi antonimləri istifadə etdiyi üslubi funksiyasına görə aşağıdakı kimi təsnif etmək olar:

1. Təbiət lövhələrinin təsvirində istifadə olunanlar*: Bəlkə, bir daha qayıtmayacaq. Bir də buranın səhərinə göz açmayacaq, axşamlarını dinləməyəcək (3, s.25). Bakıda belə günlər- qışda yazı, yazda qışı, payızı andıran günlər çox olur (4, s.289).*

2. Personajların psixoloji vəziyyətinin təsvirində istifadə olunanlar: *Sətənət oğlundan aldığı məktubdan həm sevinmiş, həm qüssələnmişdir. (5, s.281) Kimi sevinir, kimi peşman olurdu. (VI, s.35)*

3. Siniflər, təbəqələr arasında ziddiyyətləri, fərqli münasibəti göstərmək məqsədilə istifadə ediləmlər: *Hamı biridi ki, qeyrət vaxtıdır. Hökümətin də dostu var, düşməni var. (I, s.14)*
Dünyadır, ay Sayalı xala! Biri varlı olar, biri kasıb. (3, s.109)

4. Portret yaradarkən antonimlərdən istifadə olunanlar: Dəyirmi, mütənasib üzü vardı, aızı balaca, boyalı dodaqları nazik, gözü yekə, qara qaşları qalın idi *(I, s.162).*

Antonimlərin qarşılaşdırılması ilə düzələn söz və ifadələrdə yaranan məcazilik oksimaron adlanır. Mir Cəlalın bədii əsərlərində hadisələri qarşılaşdırarkən, oksimaron yaradarkən istifadə etdiyi əsas vasitələrdən biri

antonimlərdir ki, onlar da mətn daxilində poetizmə yol açır. *Məs. Mən bu canlı meyidin əlindən tezliklə qurtarmaq istədim (3, s.168)*

Mir Cəlalın bədii əsərlərində antonimlər obrazlılıq, estetik təsvir yaradan linqvopoetik vasitələrdən biridir. Yazıçı antonimlərin üslubi imkanlarından istifadə edərək həm əsərlərinin dilini gözəl, rəvan olmasına, həm də obrazların, hadisələrin xarakterininin açılmasına nail olmuşdur.

Mir Cəlalın leksik kateqoriyalardan istifadəsi olduqca zəngin və rəngarəngdir. Yazıçı əsərlərinə xüsusi bir gözəllik qatan sözlərin düzgün seçilməsini bacarmışdır.

Ədəbiyyat siyahısı

1. Axundov A. Dil və üslub məsələləri. Bakı. "Gənclik". 1970.
2. Dəmirçizadə Ə.Azərbaycan dilinin üslubiyyatı. Bakı. "Azərtədris nəşriyyat". 1962.
3. Mir Cəlal. Seçilmiş əsərləri. I cild. Bakı. Azərbaycan DöVlət Nəşriyyatı. 1967.
` 4. Mir Cəlal. Seçilmiş əsərləri. II cild. Bakı. "Gənclik". 1967
5. Mir Cəlal. Seçilmiş əsərləri. III cild. Bakı. "Gənclik". 1968.
6. Mir Cəlal. Seçilmiş əsərləri. IV cild. Bakı. "Gənclik". 1968.

XÜLASƏ

Məqalədə Mir Cəlalın leksikasında bəhs edilir. Dilin leksik vahidi olan sözlərin müxtəlif məqamlarda işlənməsi və rəngarəng olması böyük yazıçımızın yaradıcılığında öz əksini tapıb. Mir Cəlalın leksik kateqoriyalardan istifadə tərzi, eyni zamanda omonim, sinonim, antonim yaratma üsulları olduqca zəngindir. Yazıçını əsərlərinin dili canlı xalq danışıq dilidir. Xalq dilini dərindən bilməsi və zəngin söz ehtiyatının olması onun əsərlərinə siraət etmişdir.

Yazıçının nəsr əsərlərində obrazlar xalq içərisindən çıxmış sadə insanlar olduğundan onların dilində dialektlər geniş işlənir. Mir Cəlalın bədii əsərləri dialekt materialları ilə çox yüklənməmiş, yeri gəldikcə istifadə olunmuşdur. Yazıçı bədii əsərlərində alınma sözlərdən müxtəlif məqsədlərlə, müxtəlif formalarda istifadə etmişdir. Bədii əsərlərin dilində işlənən alınma sözlərin bir hissəsi zərurət nəticəsində, bir qismi isə tipikləşdirmə məqsədi ilə obrazların dilində işlənən sözlərdir. Mir Cəlal sinonimlərdən bədii əsərlərində üslubi vasitə kimi ən incə məqamları çatırmaq üçün istifadə etmişdir. Yazıçı personajın daxili və daxili aləmin oxucuya tam incəliyi ilə oxucuya çatdırmaq üçün cümlə daxilində sinonimləri

həmcins olaraq işlətmişdir. Mir Cəlal əsərlərində sinonimlərlə yanaşı, antonimlərdən də böyük məharətlə istifadə etmişdir. Müəllif həm öz təhkiyə dilində, həm də obrazların dilində antonimlərdən bəhrələnmişdir.

Салимова Улкер Бахадир г.

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ЯЗЫКА МИР ДЖАЛАЛА

РЕЗЮМЕ

В статье рассматривается лексика Мир Джалала. То, что слова, являющиеся лексической единицей языка, употребляются в разное время и красочны, отражено в произведениях нашего великого писателя. Очень богата методика использования лексических категорий Мир Джалала, а также приемы создания омонимов, синонимов и антонимов. Язык произведений автора - живой просторечный. Его глубокие познания в разговорной речи и богатый словарный запас пронизывают его произведения.

В авторской прозе широко используются диалекты своего языка, так как герои - обычные люди из народа. Произведения Мир Джалала не были перегружены диалектным материалом и использовались по мере необходимости. В своих произведениях писатель использовал производные слова для разных целей и в разных формах. Некоторые производные слова, используемые в языке произведений искусства, являются словами, используемыми в результате необходимости, а некоторые из них используются в языке изображений с целью типизации. Мир Джалал использовал синонимы как стилистический инструмент в своих работах, чтобы передать самые тонкие моменты. Писатель использовал синонимы внутри предложения таким же образом, чтобы передать читателю всю тонкость внутреннего и внутреннего мира персонажа. Мир Джалал в своих произведениях умело использовал как синонимы, так и антонимы. Автор использовал антонимы как в языке своей прозы, так и в языке образов.

Salimova Ulkar Bahadır g.

VOCABULARY-SEMANTIC FEATURES OF MIR JALAL LANGUAGE

SUMMARY

The article deals with Mir Jalal's lexicon. The fact that words, which are the lexical unit of the language, are used at different times and are colorful is reflected in the works of our great writer. Mir Jalal's method of using lexical categories, as well as methods of creating homonyms, synonyms and antonyms is very rich. The language of the author's works is a living vernacular. His deep knowledge of the vernacular and rich vocabulary permeated his works.

In the author's prose, dialects are widely used in their language, as the characters are ordinary people from the people. Mir Jalal's works of art were not overloaded with dialect materials and were used as appropriate. In his works of art, the writer used derived words for different purposes and in different forms. Some of the derived words used in the language of works of art are words used as a result of necessity, and some of them are used in the language of images for the purpose of typification. Mir Jalal used synonyms as a stylistic tool in his works to convey the most subtle points. The writer used synonyms within the sentence in the same way to convey to the reader the full subtlety of the character's inner and inner world. In his works, Mir Jalal used synonyms as well as antonyms with great skill. The author used antonyms both in the language of his prose and in the language of images.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Prof. Sənubər Abdullayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

QARA MƏŞƏDIYEV
filologiya elmləri doktoru, professor

AZƏRBAYCAN DILININ DIALEKT LEKSIKASINDA MƏIŞƏT ƏŞYALARININ ADLARI ILƏ BAĞLI SÖZLƏR VƏ ONLARIN ÜMUMTÜRK DILLƏRINƏ QARŞILIQLI INTEQRASIYASI

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant № EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/07/5-M-23

Xülasə

Azərbaycan dilinin dialekt və şivələrində işlənən məişət əşyalarının adları ilə bağlı çoxlu sayda leksik vahidlərlə ümumtürk dillərində işlənən bu qəbildən olan sözlər arasında əsaslı uyğunluqlar vardır. Bu əsaslı uyğunluqlar hər şeydən əvvəl, bu doillərin sıx qohumluq əlaqələrindən irəli gəlir. Fonetik və semantik dəyişikliklər də az deyildir.

Azərbaycan dilinin dialekt leksikasında məişət adları ilə bağlı sözlər mühüm yer tutur və onların bəziləri dilin tarixi inkişafı ilə əlaqədar olaraq müəyyən dəyişikliklərə uğramış, bəziləri isə demək olar ki, semantikasını dəyişmişdir. Məişət əşyalarının adlarını bildirən bəzi sözlər həm Azərbaycan ədəbi dilində, həm də bu dilin dialekt və şivələrində hazırda işlənməkdədir. Ədəbi dildə işlənənləri, fikrimizcə, dialekt və şivələrdə işlənənlərdən daha çoxdur. Azərbaycan dilinin dialekt və şivələrində mövcud olan məişət əşyalarının adları ilə bağlı leksik vahidlərin bəziləri, ümumiyyətlə, qohum türk dilləri üçün də səciyyəvidir.

Digər leksik vahidlər kimi Azərbaycan dilinin dialekt leksikasında işlənən məişət əşyalarının adlarını bildirən sözlərin ümumtürk dillərinə qarşılıqlı inteqrasiya vəziyyətinin öyrənilməsi, oxşar və fərqli cəhətlərin üzə çıxarılması olduqca vacib məsələlərdəndir. Məişət əşyalarının adları ilə bağlı leksik vahidlər gündəlik həyatımızda işlənən sözlərdir. Bir növ ümumişlək səciyyə daşıyır. Neçə əsrlərdir ki, bu sözləri qohum türk xalqları məişətlərində işlədirlər, ümumtürk dillərində və ya dialektlərində onların bəzilərinin işlənmə tarixi nisbətən yeni, bəziləri isə olduqca qədimdir ki, məqalədə bütün bu məsələlər linqvistik aspektdə təhlil edilir, həmin leksik qatın yayılma arealları da diqqət mərkəzində saxlanılır.

Ayrı-ayrılıqda götürdükdə hər bir türk xalqının məişət əşyalarının adlarını bildirən sözlərlə bağlı zəngin leksikası var və bu zənginlik birdən-birə yaranmamış, uzun sürən tarixi inkişaf nəticəsində meydana çıxmışdır. Azərbaycan dilinin dialekt və şivələrində mövcud olan məişət əşyalarının adları ilə bağlı leksik vahidlərin inteqrativlik əlamətlərinə nəzər salmaq, qohum dillərlə müqayisə aparmaq, ümumiyyətlə, ümumtürk dillərinin keçdiyi inkişaf yoluna işıq salmaq deməkdir. Azərbaycan dilinin dialekt və şivələrində məişət əşyalarının adları ilə bağlı çoxlu

sayda sözlər var ki, onlara başqa türkcələrdə və onların dialektlərində rast gəlmək mümkündür. Başqa sözlə desək, bu qəbildən olan leksik vahidlər qohum türkcələr üçün də səciyyəvidir ki, bu səciyyəviliyi linqvistik aspektdə aşkara çıxarmaq bu mövzunu kifayət qədər aktual edir.

Bütün bu müqayisə və qarşılaşdırmalar göstərir ki, Azərbaycan dilinin dialekt və şivələrində məişət əşyalarının adları ilə bağlı işlənən leksik vahidlərin əksəriyyəti istər oğuz, istərsə də qıpçaq dilləri üçün də xarakterikdir.

Açar sözlər: ***məişət, əşya, leksik qat, inteqrasiya, türk xalqları***

ГАРА МАШАДИЕВ
доктор филологических наук, профессор

СЛОВА, СВЯЗАННЫЕ С НАЗВАНИЯМИ ПРЕДМЕТОВ БЫТА В ДИАЛЕКТНОЙ ЛЕКСИКЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА И ИХ ВЗАИМНАЯ ИНТЕГРАЦИЯ В ОБЩЕТЮРКСКИЕ ЯЗЫКИ

Работа выполнена при финансовой поддержке Фонда развития науки при Президенте Азербайджанской Республики - Грант № EIF / MQM / Наука и образование-1-2016-1 (26) -71 / 07/5-M-23.

РЕЗЮМЕ

Имеются существенные соответствия между большим количеством лексических единиц, связанных с названиями предметов быта, используемых в диалектах и диалектах азербайджанского языка, и словами этого типа, употребляемыми в общетюркских языках. Эти фундаментальные сходства проистекают прежде всего из близкого родства этих дойлов. Фонетические и семантические изменения не незначительны.

Слова, относящиеся к нарицательным именам, занимают важное место в диалектной лексике азербайджанского языка, причем некоторые из них претерпели определенные изменения в связи с историческим развитием языка, а некоторые практически изменили свою семантику.

Некоторые слова, обозначающие названия предметов быта, в настоящее время используются как в азербайджанском литературном языке, так и в диалектах и говорах этого языка. Некоторые из лексических единиц, связанных с названиями предметов быта в диалектах и говорах азербайджанского языка, типичны и для родственных тюркских языков в целом.

Как и другие лексические единицы, очень важно изучить состояние взаимной интеграции слов, обозначающих названия предметов быта, используемых в диалектной лексике азербайджанского языка, в общетюркские языки, для выявления сходств и различий.

Лексические единицы, связанные с названиями предметов домашнего обихода, - это слова, используемые в нашей повседневной жизни. Это своего

рода общность. Эти слова веками использовались в повседневной жизни родственных тюркских народов, некоторые из них относительно новые в общетюркских языках или диалектах, а некоторые очень старые.

В отдельности каждый тюркский народ имеет богатый словарный запас слов, обозначающих названия предметов быта, и это богатство появилось не внезапно, а в результате длительного исторического развития.

Рассмотреть признаки интеграции лексических единиц, связанных с названиями предметов быта в диалектах и диалектах азербайджанского языка, сравнить их с родственными языками в целом, пролить свет на развитие общетюркских языков. В диалектах и диалектах азербайджанского языка много слов, связанных с названиями предметов быта, которые встречаются в других тюркских языках и их диалектах.

Другими словами, такие лексические единицы характерны и для родственных тюркских языков, и лингвистический аспект выявления этой характеристики делает данную тему весьма актуальной.

Все эти сравнения и сравнения показывают, что большинство лексических единиц, используемых в диалектах и диалектах азербайджанского языка в связи с названиями предметов быта, характерны как для огузского, так и для кипчакского языков.

Ключевые слова: ***быт, вещи, лексический пласт, интеграция, тюркские народы***

GARA MASHADIEV
Doctor of Philology, Professor

WORDS RELATED TO THE NAMES OF HOUSEHOLD ITEMS IN THE DIALECTAL VOCABULARY OF THE AZERBAIJANI LANGUAGE AND THEIR MUTUAL INTEGRATION INTO COMMON TURKIC LANGUAGES

This work was supported by the Science Development Foundation under the President of the Republic of Azerbaijan - Grant No. EIF / MQM / Science and Education-1-2016-1 (26) -71 / 07/5-M-23.

SUMMARY

There are fundamental similarities between the large number of lexical units related to the names of household items used in the dialects and dialects of the Azerbaijani language and such words used in all-Turkic languages.

These fundamental similarities stem primarily from the close kinship of these doils. Phonetic and semantic changes are not insignificant.Words related to common nouns occupy an important place in the dialectal vocabulary of the Azerbaijani language, and some of them have undergone certain changes in connection with the historical development of the language, and some have practically changed their

semantics. Some words denoting the names of everyday objects are currently used both in the Azerbaijani literary language and in the dialects and accents of this language. Some of the lexical units associated with the names of household items in the dialects and accents of the Azerbaijani language are also typical for related Turkic languages in general. Like other lexical units, it is very important to study the state of mutual integration of words denoting the names of household items used in the dialectal vocabulary of the Azerbaijani language into common Turkic languages in order to identify similarities and differences.

The lexical units associated with the names of household items are words used in our daily life. This is a kind of community. These words have been used for centuries in the daily life of kindred Turkic peoples, some of them are relatively new in common Turkic languages or dialects, and some are very old.

Separately, each Turkic people has a rich vocabulary of words denoting the names of household items, and this richness did not appear suddenly, but as a result of a long historical development. To look at the signs of integrative lexical units related to the names of household items in the dialects and dialects of the Azerbaijani language, to compare them with related languages, in general, to shed light on the development of all-Turkic languages.

There are many words related to the names of household items in the dialects and dialects of the Azerbaijani language, which can be found in other Turkic languages and their dialects. In other words, such lexical units are also characteristic of related Turkic languages, and the linguistic aspect of revealing this characteristic makes this topic quite relevant.

All these comparisons and comparisons show that most of the lexical units used in the dialects and dialects of the Azerbaijani language in connection with the names of household items are characteristic of both Oghuz and Kipchak languages.

Key words: ***everyday life, things, lexical layer, integration, turkic peoples***

Annotasiya. Xalqın həyatında məişət əşyalarının adlarını bildirən sözlər dialekt leksikasında da əks olunur. Məqalədə Azərbaycan dilinin dialekt və şivələrində əks olunan sözlər qohum türkcələrin ədəbi dilləri, dialektləri ilə müqayisə olunur, inteqrasiya əlamətləri üzə çıxarılır.

Aktuallıq. Qədim sözlər və sözlərin mənaları konservləşmiş şəkildə qohum xalqların məişəti ilə əlaqədar olan leksikada, qədim abidələrin dilində daha yaxşı qorunub saxlanmışdır və bu baxımdan məişət əşyalarının adlarını bildirən sözlərin dialekt və şivələrdə mühafizə olunaraq günümüzə qədər gəlib çıxmasında dilin dialekt və şivələri də istisna deyildir.

Ayrı-ayrılıqda götürdükdə hər bir türk xalqının məişət əşyalarının adlarını bildirən sözlərlə bağlı zəngin leksikası var və bu zənginlik birdən-birə yaranmamış, uzun sürən tarixi inkişaf nəticəsində meydana çıxmışdır. Azərbaycan dilinin dialekt və şivələrində mövcud olan məişət əşyalarının adları ilə bağlı leksik vahidlərin inteqrativlik əlamətlərinə nəzər salmaq, qohum dillərlə müqayisə aparmaq,

ümumiyyətlə, ümumtürk dillərinin keçdiyi inkişaf yoluna işıq salmaq deməkdir. Azərbaycan dilinin dialekt və şivələrində məişət əşyalarının adları ilə bağlı çoxlu sayda sözlər var ki, onlara başqa türkcələrdə və onların dialektlərində rast gəlmək mümkündür. Başqa sözlə desək, bu qəbildən olan leksik vahidlər qohum türkcələr üçün də səciyyəvidir ki, bu səciyyəviliyi linqvistik aspektdə aşkara çıxarmaq bu mövzunu kifayət qədər aktual edir.

Giriş. Azərbaycan dilinin dialekt və şivələrində işlənən məişət əşyalarının adları ilə bağlı çoxlu sayda leksik vahidlərlə ümumtürk dillərində işlənən bu qəbildən olan sözlər arasında əsaslı uyğunluqlar vardır. Bu əsaslı uyğunluqlar hər şeydən əvvəl, bu doillərin sıx qohumluq əlaqələrindən irəli gəlir. Fonetik və semantik dəyişikliklər də az deyildir.

"Xalqın həyatında, məişətində özünü göstərən dəyişikliklər dialekt leksikasında əks olunur. Cəmiyyətin və dilin inkişafı ilə əlaqədar olaraq müəyyən sözlər dialekt leksikasına daxil olur, sonradan bunların bir hissəsi işləkliyini saxlayır, bir hissəsi isə, ümumiyyətlə, ünsiyyətdən çıxır.

Ədəbi dilin lüğət tərkibi ilə müqayisədə dialekt leksikası daha mühafizəkardır. Dilin qədim leksik qatına aid olan sözlər şivələrin lüğət tərkibində daha çox qorunub saxlanılır" (1, 203).

Apardığımız araşdırmalar göstərir ki, Azərbaycan dilinin dialekt leksikasında məişət əşyalarının adları ilə bağlı sözlər mühüm yer tutduğu kimi, həmin sözlər bəzi türkcələr üçün də səciyyəvidir. Azərbaycan dilinin dialekt leksikasına aid olan məişət əşyaları ilə bağlı leksik vahidlərin bəziləri oğuzların, bəziləri isə qıpçaqların dili üçün səciyyəvidir ki, bunları aşağıdakı kimi təhlil süzgəcindən keçirməyi məqsədəmüvafiq hesab edirik.

Tava. Azərbaycan dilinin Çəmbərək şivəsində ***"kiçik qazan"*** mənasında işlənir (2, 361).

Bu leksik vahid eyni mənada Beyləqan, Gədəbəy, Goranboy, Mingəçevir, Şuşa, Tərtər şivələrində, Şəki dialektində ***"xörək növü",*** Bakı dialektində ***"sal daş"*** mənalarında işlənir (3, 483).

Tava sözü Türkiyə, özbək, uyğur türkcələrində ***"qazan"*** mənasında və heç bir fonetik dəyişikliyə məruz qalmadan işlənir. Başqırd, qazax, qırğız, tatar, türkmən dillərində də həmin mənada və ***taba*** fonetik tərkibində çıxış edir (4, 856-857).

Təknə. Bu söz Azərbaycan dilinin Zaqatala, Qax şivələrində ***təncə*** fonetik variantında "balaca qazan" mənasında işlənir: -Get təncəni gəti (Zaqatala); -Təncədə uşağa yemək pişirdim (Qax) (4, 378). ***Təknə*** sözü Dərələyəz şivəsində ***"təhnə" (k-h samit əvəzlənməsi ilə)*** fonetik tərkibində işlənir və ***"ağacdan hazırlanmış qab, çörək qabı"*** mənasını bildirir (2, 365).

Türkiyə türkcəsində ***təknə*** sözü ***tekne*** şəklində xamır hazırlamaq üçün qab mənasında işlənir. Türkmən dilində bu söz ***"xamır ləyən (legen)"*** mənasını bildirir. Qırğız türkcəsində ***"kamır tesisi" (xamır teşti)*** mənasında işlənir (4, 866-867).

Tulum. Azərbaycan dilinin Qafan və Qarakilsə şivələrində məişət əşyasının adı ilə bağlı olan bu leksik vahid ***"dəridən hazırlanmış nehrə, tuluq"*** mənasında işlənir (2, 383).

Tulum sözü Türkiyə, türkmən, uyğur türkcələrində ədəbi dil sözü hesab olunur və Azərbaycan dilinin şivələrində işlənən fonetik tərkibdə çıxış edir. Azərbaycan türkcəsində ***tuluq*** sözü ədəbi dil norması hesab olunur. Özbək dilində ***tulum*** sözü ***"dəri torba"*** mənasını bildirir (5, 202-203).

Çanax. Bu söz Azərbaycan dilinin şivələrində 3 mənada işlənir: 1) "böyük kasa, saxsı kasa" mənasında İrəvan, Vedi, Zəngibasar şivələrində; 2) "qab" (pendir düzəltmək üçün istifadə olunan əşya) mənasında Kalinino şivəsində; 3) "ölçü qabı" (16 kq-ya bərabər) mənasında Dərələyəz, Vedi, Zəngibasar şivələrində işlənir (2, 95). ***Çanax*** sözü ***"tuluq"*** mənasında ***şanaş*** fonetik tərkibdə qazax türkcəsində və ***çanaç*** şəklində qırğız türkcəsində çıxış edir (5, 902-903).

Çini. Bu söz Azərbaycan dilinin Çəmbərək şivəsində ***"boşqab",*** Dərələyəz mənasında isə ***"büzmə"*** mənasında işlənir (2, 107). Türkiyə türkcəsində bu söz ***çini,*** uyğur türkcəsində ***çinä*** fonetik tərkiblərində işlənir və ***kasa*** mənasını bildirir. Azərbaycan ədəbi dilinin sözü olan ***kası,*** özbək və uyğur dillərində ***kasin*** fonetik variantlarında işlənir (5, 134-135).

Güyüm. Bu söz Azərbaycan dilinin şivələrində 3 mənada işlənərək omonimlik təşkil edir. ***Güyüm*** sözü Çəmbərək şivəsində həm ***"dərin",*** həm də ***"sərnic, mis qab"*** mənalarında, Meğri şivəsində isə ***"içərisi ilə su aparmaq üçün qısa saxsı turba"*** mənalarında işlənir (2, 167).

Türkiyə türkcəsində ***güyüm*** sözü ***gügüm*** fonetik variantında və ***sərnic, mis qab*** mənasında işlənir. Azərbaycan türkcəsində bu sözün ədəbi dildəki qarşılığı ***"səhəng"*** sözüdür. ***Güyüm*** sözü digər türkcələrə inteqrasiya olunmuşdur. Bu sözün yerinə başqırd dilində ***kufsin,*** qazax dilində ***mis kumıra,*** qırğız dilində ***kumura, közä,*** özbək dilində ***küvä,*** tatar dilində ***kuvsin,*** türkmən dilində ***küyze,*** uyğur dilində ***kımran, köyza,*** kölzak sözlərindən istifadə olunur (5, 290-291).

Çölməx. Azərbaycan dilinin Vedi, Zəngibasar şivələrində bu leksik dialektizm həm ***xörək bişirilən saxsı qab,*** həm də ***kiçik küp*** mənasında işlənir (2, 109). ***Çölməx*** sözü Zəngibasar şivəsində ***piti*** mənasını da bildirir (2, 110). Bu sözün ümumtürk dillərinə qarşılıqlı uyğunlaşması çox da aktiv deyildir. Belə ki, həmin leksik vahid ***"kiçik küp"*** mənasında və cülmäk şəklində tatar, hunça formasında özbək, ***humzä, humça*** şəkillərində uyğur türkcəsində işlənir (5, 294-295).

Həvəngdəstə. Mürəkkəb quruluşa malik bu şivə sözü ***həvəng*** və ***dəstə*** sözləri əsasında formalaşmışdır. Mürəkkəb sözün birinci komponentindəki söz əslində ***həvə*** şəklində olmalıdır və ***ng*** ünsürü sözə dialekt və şivənin və eyni zamanda danışıq dilinin qanunlarına əsasən artırılmışdır. Bu ünsürə Azərbaycan dilində az miqdarda sözlərin tərkibində də rast gəlmək olur. Məsələn, ***turşəng, turpəng, tüfəng*** və s. ***Həvə*** sözü Azərbaycan dilinin dialekt və şivələrində çoxmənalı söz qismində çıxış edir. Belə ki, bu leksik vahid Zərdab, Şamaxı, Laçın, Şahbuz dialekt və şivələrində ***"palaz***

toxumaq üçün istifadə olunan alət" mənasında işləndiyi halda, Basarkeçər, Çəmbərək, Dərələyəz, Vedi şivələrində ***"xalça toxumaq üçün ağacdan hazırlanan alət"*** mənasında çıxış edir (4, 122; 2, 176). Hətta Sabirabad şivəsində ***həvə*** sözü ***"oyun zamanı uşaqların tez-tez toplaşdığı yer"*** mənasında da işlənir (4, 122). ***Həvəngdəstədən*** Azərbaycan mətbəxtində bor sıra ədviyyatları (istiot, darçın, hil və s.) əzmək üçün istifadə olunur. Bu sözün həm sadə, həm də mürəkkəb formalarına bəzi türkcələrdə rast gəlinir. Türkiyə türkcəsində ***həvəng*** sözü ***heven*** fonetik variantında çıxış edir. Bu söz özbək, uyğur türkcələrində ***hävänçä//havança*** fonetik tərkiblərində işlənir, məişət əşyasının adını bildirir. Türkiyə türkcəsində bu sözün mürəkkəb formasına ***havaneli*** şəklində rast gəlinir (5, 322-323).

Silgi. Azərbaycan dilinin Ağbaba şivəsində bu söz ***əl-üz dəsmalı,*** Çəmbərək şivəsində isə ***yazı taxtasını (lövhəsini) təmizləmək üçün kiçik yastıq"*** mənalarında işlənir (2, 331). ***Silgi*** sözü kök + şəkilçi modeli əsasında formalaşmışdır. ***-gi*** şəkilçisi feildən isim düzəltmə funksiyasını yerinə yetirir. ***-gi, -gü*** şəkilçisinin funksiyasından bəhs edən Ə.Tanrıverdi göstərir ki, bu şəkilçiyə yazılı abidələrimizdə az təsadüf olunur: ***Qadın anamın sevgisi (Dədə Qorqud); Dünyənün sevgisin, ağır yük imiş, bəndən eşit (Nəsimi); Güzgütək üzün dilər müqabil, İrməz çu rəqib pəncə qabil, Ah sevgi nigar, sən qal imdi (Xətai).*** Bu şəkilçi müasir ədəbi dilimizdə bir neçə fonetik variantda sabitləşmişdir: ***-qı, (-qu, -ğu, -ki, -kü, -gi, -gü) – pusqu, çalğı, sorğu, seçki, sevgi...*** Müasir ədəbi dilimizdəki süpürgə sözü M.Kaşğarinin "Divan"ında süpürgü şəklindədir. Deməli, ***-gə*** şəkilçisi ***-gi***-nin fonetik dəyişikliyə uğramış variantı kimi götürülə bilər. Bir cəhəti də əlavə edək ki, ***güzgü*** sözü qədim türk mətnlərində ***közünü//közünük*** şəklində müşahidə edilir (6, 220-221).

Azərbaycan dilinin bəzi şivələrində işlənən ***silgi*** sözü qazax türkcəsində ***silgi,*** başqırd türkcəsində ***hölgö,*** tatar türkcəsində ***sölgi*** fonetik tərkiblərində işlənir və Azərbaycan dilinin şivələrində ifadə etdiyi mənanı bildirir. Məişətimizdə ***əl-üz dəsmalı,*** silgi sözlərinə nisbətən dəsmal, ***məhrəba*** sözləri daha çox işləkdir. ***Məhrəba*** sözü ilə müqayisədə ***dəsmal*** sözü bəzi türkcələrə uyğunlaşmış vəziyyətdədir. Azərbaycan ədəbi dilində ***dəsmal*** sözü başqırd türkcəsində ***tastamal,*** tatar türkcəsində ***tastımal*** fonetik tərkiblərində çıxış edir (5, 322-323).

Metod. Məqalədə linqvistik-təsvir metodu tətbiq edilmişdir.

Nəticə. Bütün bu müqayisə və qarşılaşdırmalar göstərir ki, Azərbaycan dilinin dialekt və şivələrində məişət əşyalarının adları ilə bağlı işlənən leksik vahidlərin əksəriyyəti istər oğuz, istərsə də qıpçaq dilləri üçün də xarakterikdir.

Ədəbiyyat

1. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı, Elm və təhsil, 2016
2. Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı, Elm və təhsil, 2011
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Şərq-Qərb, 2007
4. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964
5. Karşılaştırmalı türk lehçeleri sözlüğü. Ankara, 1993
6. Tanrıverdi Ə.Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, Elm və təhsil, 2012

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Prof.Mahirə Hüseynova
tərəfindən çapa tövsiyə olunmuşdur

PƏRVİZ XOSROV OĞLU XASPOLADLI
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA, Nəsimi adına Dilçilik İnstitutu

AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ DÜZƏLTMƏ İSİMLƏRİN MORFOLOJİ GÖSTƏRİCİLƏRİNİN ÜMUMTÜRK DİLLƏRİNƏ QARŞILIQLI İNTEQRASIYASI

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant № EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/07/5-M-23

Xülasə

Azərbaycan dilində olduğu kimi, digər türkcələrdə də söz yaradıcılığında da həmin dillərin dialekt və şivələri mühüm rol oynayır. Ümumtürk dillərində söz yaradıcılığının qrammatik baxımdan tədqiqində əsas fikir düzəltmə sözün formal təhlilinə verilir və bu baxımdan düzəltmə isimlər də istisna deyildir. Təhlil prosesində düzəltmə isimlərin formalaşması, onların quruluşu və tərkibi ğn plana çəkilir. Azərbaycan dilinin dialekt və şivələrində morfoloji üsulla düzələn isimlər kəmiyyətcə çoxluq təşkil edir və bu üsulla isimlər müstəqil söz köklərinə müxtəlif morfoloji göstəricilərin artırılması ilə əmələ gəlir və Azərbaycan ədəbi dilində də vəziyyət bu cürdür. Azərbaycan ədəbi dilində və ya dialekt və şivələrində olduğu kimi, qohum türkcələrdə də, bir qayda olaraq, isim düzəldən şəkilçilər müstəqil sözün kökünə artırılır. Azərbaycan dilinin dialekt və şivələrində adlardan və feillərdən düzəltmə isim əmələ gətirmək üçün müxtəlif morfoloji göstəricilərdən istifadə olunur ki, məqalədə həmin şəkilçilərin bəziləri türkcələrin ədəbi dilləri və ya dialekt və şivələri ilə tutuşdurulur, oxşar və fərqli xüsusiyyətlər aşkara çıxarılır.

Ümumtürk dilləri isimlərinin əsas bir hissəsini düzəltmə isimlər təşkil edir. Ayrı-ayrı türkcələrin ədəbi dillərində və eyni zamanda dialekt və şivələrində düzəltmə isimlərin yaranması söz yaradıcılığı prosesi ilə sıx şəkildə bağlı olub, onun ayrılmaz hissəsini təşkil edir. Qohum türkcələrdə olduğu kimi, Azərbaycan ədəbi dilində və dialekt və şivələrində düzəltmə isimlər 3 üsulla əmələ gətirilir: 1) morfoloji üsul; 2) sintaktik üsul; 3) leksik-sintaktik morfoloji üsul. Morfoloji üsulla isim yaratma prosesində adlarla yanaşı feil əsaslları da fəal rol oynayır. Bu cəhətdən isim düzəldən şəkilçilər əsaslı şəkildə differensiallaşmışdır. Yəni bir qrup şəkilçilər yalnız adlardan, bir qrup şəkilçilər isə yalnız feillərdən isim düzəltməyə xidmət edir.

Azərbaycan dilinin dialekt və şivələrində mövcud olan düzəltmə ismin morfoloji göstəricilərinin modifikasiyaları ümumtürk dilləri üçün olduqca gedişdir. Bu modifikasiyaların bəziləri qohum türkcələrdə ədəbi dil norması kimi nəzərə alındığı halda, bəziləri ayrı-ayrı qohum dillərdə bir dialekt xüsusiyyəti kəsb edir ki,

bunları hərtərəfli şəkildə araşdırmaq müasir türkologiya elminin qarşısında duran mühüm vəzifələrdən biridir.

Açar sözlər: ***isim, düzəltmə, türkcələr, dialekt və şivə, morfoloji üsul***

Работа выполнена при финансовой поддержке Фонда развития науки при Президенте Азербайджанской Республики - Грант № EIF / MQM / Наука и образование-1-2016-1 (26) -71 / 07/5-M-23.

Парвиз Хосров оглу Хасполадлы
Доктор философских наук, доцент
НАНА, Институт языкознания имени Насими

ВЗАИМНАЯ ИНТЕГРАЦИЯ МОРФОЛОГИЧЕСКИХ ПОКАЗАТЕЛЕЙ ПРОИЗВОДНЫХ СУЩЕСТВИТЕЛЬНЫХ ДИАЛЕКТОВ И ГОВОРОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В ОБЩЕТЮРКСКИЕ ЯЗЫКИ

Резюме

Как и в азербайджанском языке, диалекты и говоры этих языков играют важную роль в словообразовании в других тюркских языках. При грамматическом изучении словообразования в общетюркских языках основная идея отводится формальному анализу производных слов, и в этой связи не исключены производные существительные. В процессе анализа на первый план выходит образование производных существительных, их строение и состав. В диалектах и говорах азербайджанского языка морфологически производные существительные образуют множественное число, и, таким образом, существительные образуются путем добавления различных морфологических индикаторов к независимым корням слов, и в азербайджанском литературном языке ситуация аналогична. Как и в азербайджанском литературном языке или диалектах и говорах, в родственных тюркских языках, как правило, к корню самостоятельного слова добавляются суффиксы, образующие существительные. В диалектах и говорах азербайджанского языка различные морфологические индикаторы используются для образования существительных и глаголов, и некоторые из этих суффиксов сравниваются с литературными языками или диалектами и говорами тюркских языков, выявляя сходства и различия.

Основная часть названий всех тюркских языков - исправительные существительные. Образование исправительных существительных в литературных языках и диалектах разных тюркских языков тесно связано с процессом словообразования и является его неотъемлемой частью. Как и в родственных тюркских языках, исправительные существительные в азербайджанском литературном языке и диалектах и диалектах образуются 3

способами: 1) морфологическим способом; 2) синтаксический метод; 3) лексико-синтаксический морфологический метод. «Наряду с существительными, основы глагола также играют активную роль в процессе морфологического образования существительных. В этом отношении суффиксы, образующие существительное, принципиально различаются. То есть группа суффиксов служит для образования существительных только из существительных, а группа суффиксов - только из глаголов.

Модификации морфологических признаков исправительного существительного в диалектах и диалектах азербайджанского языка достаточно развиты для общетюркских языков. В то время как некоторые из этих модификаций рассматриваются как нормы литературного языка в родственных тюркских языках, другие имеют диалектную особенность в отдельных родственных языках, всестороннее изучение которых является одной из важных задач современной тюркологии.

Ключевые слова: ***существительное, производное, тюркские языки, диалект и говор, морфологический метод***

Parviz Khosrov Haspoladli
Doctor of Philosophy, Associate Professor
ANAS, Institute of Linguistics named after Nasimi

MUTUAL INTEGRATION OF MORPHOLOGICAL INDICATORS OF DERIVATIVE NOUNS OF DIALECTS AND ACCENTS OF THE AZERBAIJANI LANGUAGE INTO COMMON TURKIC LANGUAGES

This work was supported by the Science Development Foundation under the President of the Republic of Azerbaijan - Grant No. EIF / MQM / Science and Education-1-2016-1 (26) -71 / 07/5-M-23.

Summary

As in the Azerbaijani language, dialects and accents of these languages play an important role in word formation in other Turkic languages. In the grammatical study of word formation in common Turkic languages, the main idea is assigned to the formal analysis of derivative words, and in this regard, derivative nouns are not excluded. In the process of analysis, the formation of derivative nouns, their structure and composition come to the fore. In dialects and accents of the Azerbaijani language, morphologically derived nouns form a plural, and thus, nouns are formed by adding various morphological indicators to the independent roots of words, and the situation is similar in the Azerbaijani literary language. As in the Azerbaijani literary language or dialects and accents, in related Turkic languages, as a rule, suffixes are added to the root of an independent word, forming nouns. In dialects and accents of the Azerbaijani language, various morphological indicators are used to form nouns and verbs, and some of these suffixes are compared with literary

languages or dialects and accents of Turkic languages, revealing similarities and differences.

The main part of the names of all Turkic languages are corrective nouns. The formation of corrective nouns in the literary languages and dialects of different Turkic languages is closely connected with the process of word formation and is an integral part of it. As in related Turkic languages, corrective nouns in the Azerbaijani literary language and dialects and dialects are formed in 3 ways: 1) morphological method; 2) syntactic method; 3) lexical-syntactic morphological method. Along with nouns, verb bases also play an active role in the process of morphological noun formation. In this respect, noun-forming suffixes are fundamentally differentiated. That is, a group of suffixes serves to form nouns only from nouns, and a group of suffixes only from verbs.

Modifications of the morphological features of the corrective noun in the dialects and dialects of the Azerbaijani language are quite advanced for all-Turkic languages. While some of these modifications are considered as norms of literary language in related Turkic languages, others have a dialectal feature in separate related languages, the comprehensive study of which is one of the important tasks of modern Turkology.

Key words: ***noun, derivative, Turkic languages, dialect and accent, morphological method***

Aktuallıq. Ümumtürk dillərində və eyni zamanda onların dialekt və şivələrində adlardan və feillərdən isim düzəldən morfoloji göstəricilər qohum dillərin lüğət tərkibini zənginləşdirmək üçün söz yaratma prosesində fəal iştirak edir, lakin onların fəalları ilə bərabər passivlərinə, qeyri-məhsuldarlarına da rast gəlmək olur. Azərbaycan dilinin dialekt və şivələrində də mövcud olan isim düzəldən şəkilçilərin (istər adlardan, istərsə də feillərdən – P.X.) bəziləri ayrı-ayrı türkcələrin bəzilərində fəal, bəzilərində isə passiv şəkildə çıxış edir ki, türk xalqlarının bir-birinə daha da yaxınlaşdıqları müasir dövrdə bunları müqayisəli şəkildə araşdırıb, dəyərli nəticələr əldə etmək aktuallıq kəsb edir.

Annotasiya. Azərbaycan dilinin dialekt və şivələrində isim düzəldən morfoloji göstəricilərin ümumtürk dillərinə qarşılıqlı inteqrasiyasından danışılır.

Giriş. Ümumtürk dilləri isimlərinin əsas bir hissəsini düzəltmə isimlər təşkil edir. Ayrı-ayrı türkcələrin ədəbi dillərində və eyni zamanda dialekt və şivələrində düzəltmə isimlərin yaranması söz yaradıcılığı prosesi ilə sıx şəkildə bağlı olub, onun ayrılmaz hissəsini təşkil edir. Qohum türkcələrdə olduğu kimi, Azərbaycan ədəbi dilində və dialekt və şivələrində düzəltmə isimlər 3 üsulla əmələ gətirilir: 1) morfoloji üsul; 2) sintaktik üsul; 3) leksik-sintaktik morfoloji üsul. “Morfoloji üsulla isim yaratma prosesində adlarla yanaşı feil əsaslları da fəal rol oynayır. Bu cəhətdən isim düzəldən şəkilçilər əsaslı şəkildə differensiallaşmışdır. Yəni bir qrup şəkilçilər

yalnız adlardan, bir qrup şəkilçilər isə yalnız feillərdən isim düzəltməyə xidmət edir (1, 71; 2, 104).

Azərbaycan dilinin dialekt və şivələrində düzəltmə isimləri əmələ gətirmək üçün çoxlu sayda morfoloji göstəricilərdən istifadə olunur və morfoloji göstəricilərin bəziləri feilin demək olar ki, ümumtürk dillərinə və ya onların dialektlərinə qarşılıqlı inteqrasiya olunmuş vəziyyətdədir. Düzəltmə isimləri əmələ gətirən morfoloji göstəricilərin bəziləri türkcələrdə məhsuldar, bəziləri isə passiv şəkildə fəaliyyət göstərirlər. Azərbaycan dilinin müəyyən dialekt qruplarında məhsuldar işlənən və düzəltmə isim əmələ gətirən morfoloji göstəricilərdən biri ***-lıx, -lik, -lux, -lix, -lüh*** şəkilçiləri hesab olunur. "İsim və sifət düzəldən bu şəkilçilər bir sıra fonetik hadisələrlə əlaqədar olaraq (əsasən sözdəki yerindən asılı olaraq) müxtəlif variantlarda özünü göstərir. Türkcələrdə vəziyyət bu cürdür. Məs.: qazax türkcəsində ***-lık***[4] isimdən isim düzəldən morfoloji göstəricisinin ***-dık, -dik, -tik*** şəkilləri də vardır və bunlar ədəbi dil norması sayılır. Qazax türkcəsində ***-lık***[2] şəkilçisinin bu cür şəkillər alması mənbələrdə aşağıdakı kimi izah olunur: "Ünlülerden (seslilerden) ve ***r, v, y*** seslerinden sonra ***l, z, m, ɟ, n, c-***den sonra ***d'***li, ***p, t, s, ş, k'***den sonra ***t'***lidir: ***balalık (çoçukluk), analık, eginsilik (ikincilik). Barlık (varlık, bütün), suluvluk (güzellik), baylık (zenginlik), yamandık (yamanlık, kötülük), azdık (azlık), azattık (azatlık), bastık (başlık), actık (aclık) (2, 1048).***

Azərbaycan dilinin dialekt və şivələrində də qazax türkcəsində işlənən ***-dık, -dik, -tık, -tik*** formalarını müşahidə edirik: ***başlık//baştık (Qərb qrupu dialekt və şuivələri); azatlık (azattık) (Cənub qrupu dialekt və şivələri); azlık (azdık) (Təbriz şivəsi); qızdıx//qızlıq (Göyçay şivəsi); döztük//dösdük (Zərdab şivəsi) və s.***

Qırğız türkcəsində də ***-lık*** şəkilçisinin ***-dık***[4]***, -tık***[4] variantları işlənir. Məs.: ***tardık (darlık), borborduk (merkez), mümkündük (imkän), mayramdık (bayramlık)*** və s. (3, 1063).

Azərbaycan dilinin dialekt və şivələrində ***-lıq***[4] şəkilçisinin ***-nıx***[4] variantına da rast gəlinir. ***-lıq***[4] şəkilçisinin həm ədəbi dillərində, həm dialekt və şivələrində işlənmə formalarından bəhs edən A.Vəliyev yazır ki, bu şəkilçi medifikasiyaları Azərbaycan dili üçün bir variant kimi (dialekt və şivələrində çoxvariant kimi – P.X.) nəzərə alındığı halda, bunlardan bəziləri ayrı-ayrı qohum dillərdə bir dialekt xüsusiyyəti olmaqla qalmayıb, ədəbi dil norması kimi qəbul olunur. Bu vəziyyəti başqırd, türkmən və başqa müasir türk dillərində və dialektlərində görmək mümkündür. Məs.: Müasir qaqauz dilində ***-lık (dialektlərdə -lik/ikilik/, -luk//doruluk, -luk/qozluk, -nık/adannık, -nik/zenginnik/, -nuk//onnuk;*** qazax dilinin Aral şivəsində ***-lık//maylık "balık ovlanan yer)/ -lik/inelik "tor toxumaq üçün ağc iynə"/, -dık/auldık (aul).***

Azərbaycan dilinin keçid şivəsində digər dialekt qruplarına nisbətən bu formalar geniş yayılmışdır və bunların aşağıdakı variantlarına təsadüf edilir: ***-nıx/-nığ (səhkənıx, avadannıx, biyabannıx); -nik (səmənnik); -nux (yoğunnux); -dıx (qızdıx); -dığ (tarazdığ); -dik (nəmişdik); -dix (hürriyyətdix); -zik (dizzik); -rıx (əsgərrıx); -rix (torix)*** (3, 8; 4, 85; 5, 13). Misallardan aydın olur ki, tam və yarımçıq

assimilyasiya hadisəsi ilə əlaqədar olaraq həmin şəkilçilər daha artıq dəyişikliyə məruz qalır və nəticədə yuxarıda göstərilən şəkilçi variantları əmələ gəlir. Lakin bu variantlarla yanaşı olaraq şərq qrupu xüsusiyyəti olan karlaşmanı ***-lıx, -lik, -lux, -lix', -lih*** özündə əks etdirmiş şəkilçi variantları nisbətən daha geniş şəkildə (xüsusən Ağdaş şivəsində) yayılmışdır. Həmin vəziyyəti bu tip düzəltmə isimlərin çox olmasında görmək mümkündür. Məs.: ***incıxlıx, xırdalıx, qulaxlıx, suralıx, quraxlıx, fızıllıx, kollux, yemlik, şitilcəlik, ellih, enlik*** və s. (3, 8).

Azərbaycan dilinin keçid şivələrində -çax şəkilçisinin isim və feil köklərinə artırılması ilə əşya adlarının və başqa anlayışları bildirən düzəltmə isimlər yaranır. Məs.: qolçax (Cəbrayıl), qapçax (Ağdaş) (3, 9). Uyğur türkcəsində -çak, -çäk şəkilçisi isimdən isim düzəltmə funksiyasını yerinə yetirir. Məs.: kızçak, tayçak, tölçak və s. (6, 1111).

Türkmən türkcəsində -çak, -çek şəkilçisi feildən isim düzəldən morfoloji göstərici kimi çıxış edir. Məs.: sallançak (sallancak), gizlençak (gizlenecek yer) (6, 1101).

Özbək dilində ***-çak, -çäk*** morfemi isimdən isim düzəldən şəkilçilərdən biri hesab olunur. Məs.: ***tayçak (küçük tay), kelincak (gelin) (6, 1075).***

Azərbaycan ədəbi dilində və eyni zamanda dialekt və şivələrində dörd variantlı ***-çı*** şəkilçisi sözdüzəltmə prosesində əsas rol oynamışdır. Azərbaycan dilinin bəzi şivələrində bu morfem bir variantda, bəzilərində iki varianta, qərb və keçid şivələrində isə dörd variantda işlənir. Məs.: ***ilxıçı, qoruqçu, güdükçü, cərgöçi*** və s. Bəzən bu şivələrdə dörd variantlı ***-lı*** şəkilçisi vəzifəsində ***-çı***^{4} şəkilçisi çıxış edir və bu şəkilçinin məkan mənasını ifadə etməsi hadisəsini bəzi türk dilləri və dialektlərində görmək mümkündür. Qırğız dilinin Cergetal şivəsində ***-çı***^{4} şəkilçisinin həmin vəzifədə işləndiyini ***(jerqe-talçı, alayçı)*** (7, 15) müşahidə etmək olar.

-çı^4 şəkilçisinin yayılma arealları da genişdir. Belə ki, müasir türk dillərinin hər birində məhsuldarlığı ilə fərqlənən ***-çı***^{4} şəkilçisi Türkiyə türkcəsində də işlənir. ***-çı***^{4} şəkilçisi qazax türkcəsində ***s*** samiti ilə çıxış edir, yəni ***-sı, -si*** fonetik tərkibində. Məs.: avsı (avçı), temirsi (dəmirçi), cazuvsı (yazıçı), okuvsı (okuyucu) (6, 1049).

Türkcələrdə və onların dialektlərində müxtəlif forma və şəkillərdə işlənən ***-çı***^{4} şəkilçisinin ifadə etdiyi mənalar da maraqlıdır. "Türkologiyada bu şəkilçinin ifadə etdiyi mənalar, həm də "adam", "insan" mənasını verən sözlərlə bağlı olduğu müəyyənləşdirilib. Məs.: A.N.Kononovun fikrincə, fəaliyyət göstərənin adı ***-çı*** şəkilçisi vasitəsilə yaranır. Bu fikir N.K.Dimitriyev tərəfindən qüvvətləndirilib. Müəllif başqırd dilindəki ***balıkşı + sı – balıqçı, -eş*** + se – işçi kimi sözlərə istinad edərək göstərir ki, ***-sı, -so, -se, -sə (yəni -çı***^{4}***)*** vasitəsilə isim kökündən işgörənin və ixtisas sahibinin adı əmələ gəlir. Ə.Dəmirçizadəyə görə, ***-çı***^{4} şəkilçisi ***"adam"*** mənasını verən ***-çe/-zi, -si//-si*** ilə əlaqədardır. Səlim Cəfərov ***-çı*** şəkilçisinin qədim türk dilində ***adam, insan*** mənasında işlənən ***kişi*** sözündən yarandığını ehtimal edir (8, 212).

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan dilinin şivələrində və Qırğız dilinin Çerqe-tal şivəsində ***-lı***[4] şəkilçisinin funksiyasını yerinə yetirən ***-çı*** şəkilçisi qırğız ədəbi dilində ***uçu (-üçü, öçu, öçü)*** şəkillərində işlənir. Məs.: ***cazuçu (yazıçı), öküçu (okuyucu), satüçu (satıcı), suröçu (soran), közdöçu (gözleyen)*** (6, 1064).

İsim və feil köklərinə artırılan və yer, əşya adları əmələ gətirən ***-cax'// -cək, -cağ, -acax'//-əcək*** şəkilçiləri Azərbaycan dilinin Cəbrayıl, Zərdab, Ağdaş, Göyçay şivələrində az məhsuldardır. Məs.: ***oturacak (stul), ərincək (tənbəl), sucax (sulu yer), yatacax, kərkincək, sirkəncək*** və s.

Müasir özbək ədəbi dilində də morfoloji göstərici ***-çak*** şəklində işlənir: ***tartinçak (çekingen), maktançäk (öküngen)*** (6, 1076) və göründüyü kimi, özbək ədəbi dilində bu şəkilçi feildən isim düzəltmə funksiyasını yerinə yetirir. A.N.Kononov da qeyd edir ki, müasir özbək ədəbi dilində ***-çik//-çuk//-çok//-çak*** qeyri-məhsuldar şəkilçidir: ***kabarçik//kavarçik (döyənək), irçuk, ərinçok "tənbəl"*** kimi bir neçə sörün tərkibində işlənir (8, 194).

Azərbaycan dilinin Füzuli şivəsində bəzi sözlərin tərkibində ***-gi, -gu*** şəkilçiləri müşahidə olunur: silgi, ötərgi, tüngü (cöngə) və s.

"Bu şəkilçiyə yazılı abidələrimizdə az təsadüf olunur: Qadın anamın sevgisi (Dədə Qorqud); Dünyənün sevgüsü, ağır yük imiş, benden eşit (Nəsimi); Göüzgü tək üzin dilər müqabil, İrməz çü rəqib pəncə qabil. Ah sevgi nigar, sən qal imdi (Xətai). Bu şəkilçi müasir ədəbi dilimizdə bir neçə fonetik variantda sabitləşmişdir: -qı (-qu, -ğı, -ğu, -ki, -kü, -gi, -gü) – pusqu, çalğı, sorğu, seçki, sevgi... Qərb qrupu dialekt və şivələrində süpürgə (süpürmək üçün əşya) sözü süpürgü fonetik variantında işlənir. Müasir ədəbi dilimizdəki "süpürgə" sözü M.Kaşğarinin "Divan"ında "süpürgü" şəklindədir. Deməli, -gə şəkilçisi "-gü" morfeminin dəyişikliyə uğramış variantı kimi götürülə bilər. Bir cəhəti də əlavə edək ki, "güzgü" sözü qədim türk mənbələrində "közünu//közünük"şəklində müşahidə olunur (9, 221).

-ğı (-gi, -kı, -ki) şəkilçiləri həm Türkiyə, həm də qazax dillərində də işlənir. Türkiyə türkcəsində altı, qazax türkcəsində isə dörd variantı mövcuddur. Türkoloji ədəbiyyatlarda bu göstəricilərin Türkiyə türkcəsindəki altilikleri kazaxçada büyük ünlü uyumuna bağlıdır: ünlülerden ve tonlulardan (yumşak sessizlerden) sonra ***ğ-g:*** tonsuzlardan (sert sessizlerden) sonra ***k*** ile başlar: ***kesegi (dünkü), bügingi (bugünkü), ertengi (yarınki), tüngi (geceki), keşki (akşamki), kıskı (kıştaki), tışkı (dıştaki) (6, 1049).***

-kı eki de qırğız türkcesinde de ünlü uyumlarına bağlıdır. Ayrıca ekin başıntakı ***k*** ünlülerden sonra ***g-ğ*** olur: ***keçigi (dünkü), ertangi (yarınki), ölködögü (ölkedeki), cönündögü (yönündeki), kiyinki (sonraki) (6, 1063).***

Metod. Məqalədə müqayisəli-təhlil metodu tətbiq olunmuşdur.

Nəticə. Azərbaycan dilinin dialekt və şivələrində mövcud olan düzəltmə ismin morfoloji göstəricilərinin modifikasiyaları ümumtürk dilləri üçün olduqca gedişdir. Bu modifikasiyaların bəziləri qohum türkcələrdə ədəbi dil norması kimi nəzərə alındığı halda, bəziləri ayrı-ayrı qohum dillərdə bir dialekt xüsusiyyəti kəsb

edir ki, bunları hərtərəfli şəkildə araşdırmaq müasir türkologiya elminin qarşısında duran mühüm vəzifələrdən biridir.

Ədəbiyyat

1. Müasir Azərbaycan dili. II c. Morfologiya. Bakı, Elm, 1980
2. Смирницкий А.И. Лексикология английского языка. М., 1956
3. Vəliyev A. Azərbaycan dialektologiyası (Keçid şivələrinin morfologiyası və sintaksisi). ADU nəşri, Bakı, 1975
4. Покровская Л.А. Грамматика гагаузского языка. М., 1964
5. Колнев Г. Некоторое особенность аральского турецкого литературного языка. Алма-Ате, 1954
6. Karşılaştırmalı türk lehçeleri sözlüğü. Ankara, 1993
7. Мукамбаев Ж. Джерге-Тальский говор Киргизского языка Фрунзе,1955
8. Кононов А.Н. Грамматика современного узбекского литературного языка. М-Л., 1960
9. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, Elm və təhsil, 2012

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Prof.Mahirə Hüseynova
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

ELŞAD SƏFƏRLI
Fil.e.n, dosent
Lənkəran Dövlət Universiteti
General Həzi Aslanov xiyabanı – 50

"TÜRKANƏ SÖZ"ÜN MİSİLSİZ USTADI

Annotasiya: Məqalədə böyük söz ustadı, mütəfəkkir şair Nizami Gəncəvinin humanist, bəşəri lirikası və ölməz "Xəmsə"sinin ideya-məzmun, sənətkarlıq xüsusiyyətlərindən elmi-nəzəri aspektdə söhbət açılır, şərh edilir və haqqında mövcud mülahizələrə münasibət bildirilir. Tədqiq-təhlildə daha çox dünya intibahına, sivil ölkələrin mütərəqqi ədəbiyyat xəzinələrinə əvəzsiz töhfələr bəxş edən bu irsin nəzəri problemlərinə diqqət yetirilir. Geniş araşdırma müstəvisində bu novator yaradıcılıq tipinin bəzi mübahisə doğuran məsələlərinə xüsusi baxış nümayiş etdirilir, müəyyən mənbələrdə, tərcümə nəşrlərində, dərslik və dərs vəsaitlərində yol verilən bəzi araşdırma, tərcümə səhvlərinə, məna – məzmun təhriflərinə müqayisə kontekstində yeni təhlil bucağında izah verilir, əsaslandırmalar aparılır.

Burjua təmayüllü bəzi Avropa şərqşünaslarının, xüsusən də bunların sırasında V.Baxerin və başqalarının Nizami yaradıcılığı haqqında qeyri - elmi, əsassız fikirlərinə, olduqca ziyanlı baxışlarına nəzər yetirilir, bu cür yalnışlıqların aradan qaldırılmasında Azərbaycan nizamişünaslarının rolu göstərilmiş, həm də bu mütərəqqi irsin təhriflərdən qorunması vacibliyi vurğulanmışdır.

Məqalədə dil məsələsinə xüsusi yer verilmiş, "türkanə söz"ün Nizami irsinin dünya şöhrəti qazanmasında, bütün sənət sirlərinin, bədii fikrin bütün laylar üzrə açılmasında alternativsiz imkanlara sahib olması bu yaradıcılığın mühüm uğur şərti kimi əsaslandırılmışdır.

Açar sözlər: intibah, monoqrafiya, müləmmə, "türkanə söz", skeptik, akrostix, sonet.
Key words: renaissance, monograph, symbiosis, "Turkic word", skeptic, acrostic, sonnet.
Ключевые слова: ренессанс, монография, симбиоз, "тюркское слово", скептик, акростих, сонет.

Torki sofəti vəfaye ma nist
Torkane soxən səzaye ma nist.
Onkəz nəsəbe bolənd zayəd,
Ura soxəne bolənd bayəd.... [1,10]

Nizami bəlkə də "Leyli və Məcnun" poemasının yazılması üçün Şirvanşah I Axsitanın göndərdiyi sifariş məktubundakı yuxarıda əksini tapan fikirlər qədər onu əsəbləşdirən ikinci belə bir halla heç vaxt üzləşməmişdi. Çünki şairin ana dilinə bu cür təhqiramiz münasibət onu hövsələdən çıxartmış, təmkinini pozmuşdu.

Türk dili yaramaz şah nəslimizə,
Əskiklik gətirər türk dili bizə. [1,47]

Görəsən, həqiqətənmi Axsitanın sifarişində "türkanə soxən"ə münasibət tərcümədə verildiyi kimi olmuşdur. Bir sıra mənbələrdə, həmçinin yazıçı akademik M.İbrahimovun "İskəndərnamə" kitabına poema ilə əlaqədar yazdığı "Günəş kimi parlaq" geniş "ön söz"ündə gördüyümüz mənzərə fərqli tərcümələrdə fərqli yanaşmaların da mövcudluğunu ortaya çəkir. Y.E.Bertelslə, prof. R.Əliyevin həmin bəndin ruscaya tərcümələrində bizcə, cüzi fərq yalnız birinci misra ilə bağlıdır. Belə ki, prof. M. Əlizadənin sətri tərcüməsində birinci sətrin sətri tərcüməsi S. Vurğunun, Y. E. Bertelsin, R. Əliyevin tərcüməsindən tam fərqli - "Türkcəlik bizə vəfalı olmağın sifəri (əlaməti) deyil" şəklindədir. Bizcə, bu misranın digər tərcüməçilər tərəfindən fərqli çevrilmələri əsas məğzi, mənanı qavramaqda müəyyən dolaşıqlıq yaratmışdır. M. İbrahimovun qeyd etdiyi kimi, "bəzi tədqiqatçıları məhz bu tərcümə fərqləri Nizami fikrindən uzaqlaşdırır" [1,10].

Tədqiqatçı X.Yusifli "Şərq intibahı və Nizami Gəncəvi" monoqrafiyasında "türklük (yəni əhdinə sadiq olmamaq) bizim vəfamızın sifəti deyildir, türksayağı sözlər bizə yaraşmaz" sözləri Azərbaycan dilinə " türk dili yaraşmaz şah nəslimizə" şəklində yanlış tərcümə edilmişdir" [2,116] — deyə qeyd etmişdir. Bu fikirlə tam şərikik. Amma "türklük" bizim vəfamızın sifəti deyildir nə deməkdir ? Axı misranın bu şəkildə tərcüməsində fikir kifayət qədər alınmır. Və yaxud, "türklük" sözünü "əhdinə sadiq olmamaq" kimi vurğulamaq — " türklər əhdinə sadiq olmurlar" fikrini doğurmurmu? Düşünürük ki, X. Yusiflinin birinci misra ilə bağlı izahı ağlabatan deyildir.

Bizə elə gəlir ki, fərqli tərcümələr sırasında misranın ən doğru çevrilməsi M. Əlizadəyə məxsusdur. Onun tərcüməsində "Türkcəlik bizə vəfalı olmağın sifəti (əlaməti) deyil" misrasında fikir kifayət qədər aydındır. Tərcümədə diqqəti çəkən cəhət daha çox digərlərindən fərqli olaraq "türklük" sözünün "türkcəlik" şəklində çevrilməsidir və bu ifadə doğru məzmunun bəlkə də açar sözüdür. Artıq burda söhbət "türk" dən, "türklük" dən yox, "türkcəlik"dən, yəni dildən — türk dilləri "axınına" əsassız (Axsitanın düşüncəsinə görə) qoşulmadan gedir.

Biz ehtimal edirik ki, əslində Axsitan "türkcəlik" deyəndə bir sıra müsəlman xalqlarının öz mənşə mənsubiyyətini "türk" anlayışına bağlamasını təhlükəli hesab edirdi. Buna görə də türk (Azərbaycan) dilinə həqarətlə baxırdı. Bəlkə də o, Nizamiyə azərbaycanlı olmasına işarə vurmaqla, özünüzü türkə bağlayır, "türkcəlik" (dil baxımından) etməyiniz heç də sizin bir xalq kimi bizə sadiqliyinizin, əhdinizə vəfanızın əlaməti, sifəti deyil — demək istəmişdi. Və açıq -aşkar "türkanə söz" bizə layiq deyil, yüksək nəsəbdən (nəsildən) doğulanlara, yüksək, yəni "ona- on" söz lazımdır söyləmişdi.

Həqiqət naminə bunu da qeyd edək ki, böyük xalq şairimiz S. Vurğun bu əsəri yüksək səviyyədə tərcümə etsə də bəzi məqamlarda, xüsusən də şahlara, hökmdarlara münasibətdə romantik tendensiyalı pafosuna uyğun olaraq rəngləri müəyyən qədər tündləşdirməkdə qələminə sərbəstlik vermişdi. Bu da bəzi hallarda yanlışlığa gətirib çıxarırdı. Onun bu cəhətdən Axsitana münasibəti də "Vaqif" pyesində Ağa Məhəmməd Şah Qacara yanaşması ilə ekvivalentlik təşkil edir. Çünki Qacarın kəskin ifşasında S.Vurğun qələminə həddini aşan bir sərbəstlik vermişdi. Axsitanın dilində "türkanə söz"lə bağlı məlum beyti tərcümədə daha sərt formada, özünün istədiyi şəklə salması dediklərimizin sübutudur.

Sifariş məktubunda ana dilinə həqarət bəslədiyi Nizamiyə Axsitanın bir sənətkar kimi yanaşması isə olduqca yüksəkdir.Lakin sənətinə verilən yüksək qiymətdə nəyisə ustad, dahi bir şairə necə, nə təhər etməyi öyrətmək cəhdi yersiz idi. Bəlkə də Nizamini ana dilinə rişlxənd edilməsilə yanaşı daha çox hiddətləndirən, əsəbləşdirən amil Axsitanın yuxarıda qeyd etdiyimiz kimi ustada dərs vermək cəhdində bulunması idi.

Sözün sərrafıyam, sən ki bilirsən,
Təzəni köhnədən tez seçənəm mən.
Qüdrətin böyükdür, ona-on yarat,
Onda beş verməyi birdəfəlik at. [1,47]

Axsitan "ona-on" deyəndə **-** qızılı, "onda beş" deyəndə isə qatışıq qızılı nəzərdə tuturdu. Yəni yazdıqların saf kimi bakir və qiymətli olsun, onda beş kimi qızıl qarışığı,qatışıq, qəlp olmasın.

Nizamini, əlbəttə, bu sözlərin əsəbləşdiməməsi mümkünsüz idi. Çünki böyük şair heç vaxt sözə xəyanət etməmiş, sözə vicdanla yanaşmışdı. Bu, əslində məşhur Dağıstan şairi Rəsul Həmzətovun vaxtilə bir şeirində dediyi kimi, "məşhur ustaya küzəyə hardan qulp qoymağı öyrətmək" kimi yersiz, artıq bir məsləhət idi.

Axsitanın Nizamiyə dahi qüdrətli bir şair kimi yanaşması isə diqqətəlayiq idi, çünki o, şairin "onda-on" yaratmaq qüdrətindən çoxdan agah idi. Və belə bir şairin öz xalqına mənsub olmasını kim istəməzdi ki,? Elə bunun nəticəsi idi özünü Kəyan taxt-tacının varisi hesab edən Axsitanın çox-çox sonralar nəsil davamçıları onu farslaşdırmağa, fars şairi kimi təqdim etməkdən çəkinmirdilər. Bunların sırasında İranpərəst, fars təəssübünü çəkən alimlər buna çox cəhd edirdilər. Təəssüflər olsun

ki, bir neçə Azərbaycan ədəbiyyatşünas alimləri, ədibləri də özlərinin Nizamiyə münasibətdə əsassız, ehtiyatsız söylədikləri mülahizələri ilə belələrinin dəyirmanına su tökür, əllərinə bəhanə verirdilər. Belə ki, Azərbaycanın ilk ədəbiyyatşünas alimi, tənqidçisi hesab edilən Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixini sistemləşdirməyə ilk təşəbbüs göstərdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" (1903) kitabında yazılı ədəbiyyatımızın başlanğıc mərhələsi üçün bu cahanşümul şairin heç adını belə xatırlamır və ədəbiyyatımızın başlanğıc tarixini Vaqiflə əlaqələndirir, ədəbi dilimizin də banisi onu elan edir.

1919-cu ildə İstanbulda nəşr etdiyi "Azərbaycan ədəbiyyatına bir nəzər" monoqrafik tədiqatında görkəmli yazıçı, tədqiqatçı Yusif Vəzir Çəmənəzəminli Xaqani Şirvani kimi, Nizami Gəncəvini də fars dilində yazdığına görə ədəbiyyat tariximizin başlanğıc mərhələsinin bu şairlərlə başlanmasını mümkünsüz hesab edirdi. Buna sübut kimi Henrix Heynenin milliyətcə yəhudi olmasına baxmayaraq, bütün ömrü boyu alman dilində yazdığı üçün onu heç kimin yəhudi şairi yox, alman şairi hesab etməsi faktına əsaslanmışdı.

Düzdür, Nizamiyə bu cür münasibətin formalaşmasında keçən əsrin əvvəllərində sovet ideolojisinin, vulqar sosiologizminin də dırnaqarası" xidmətləri" heç də az deyildi.

Ancaq bir sıra köklü ədəbiyyatşünaslar sırasında Adilxan Ziyadxana alqış düşürdü ki, o, Yusif Vəzir Çəmənzəminlidən, həm də F.Köçərlidən fərqli olaraq "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" (1919) əsərində "Azərbaycan ədəbiyyatının mənşəyini ana dilli ədəbiyyatla başlamamış azərbaycanlı müəlliflərin ərəb və fars dillərində yaratmış olduğu ədəbi irsi də milli ədəbiyyatmızın ayrılmaz tərkib hissəsi kimi tədqiqata cəlb etmişdir" [3, 28].

Düzdür, M.F.Axundzadənin Nizamiyə münasibəti Füzuliyə bəslədiyi qədər sərt olmasa da, qeydlərində milli zəmində ona heç təəssübkeşliyi də o qədər hiss olunmur. Baxmayaraq ki, "Əsərlərində xalqın ruhu, onun milli xüsusiyyətləri, əsrin məna və koloriti əksini tapmış... "—deyə qeyd edir, ancaq Homer, Firdovsidən sonra sıralamada Nizamiyə də yer verir və ardınca növbəti sıralamada Firdovsinin "Şahnamə"sindən sonra onun "Xəmsə"sini həm məzmun, həm ifadə gözəlliyinə malik olan nəzmə misal çəkərək müasirlərini onlardan öyrənməyə və nədənsə "Nizami manənd" yox, "Firdovsi manənd" şeir yazmağa çağırırdı [4,359]. "Nəzm və nəsr haqında" məqaləsində Firdovsi, Nizami, Cami, Sədi, C.Rumi və Hafiz kimi şairləri "çox nadir vücuda gələn" şairlər kimi qiymətləndirdikdən sonra — Azərbaycan dilində başa düşülməsi mümkün olmayan bir cümlə işlədir və bunun ardınca, — "Belə məqamlarda onların xəyalatına da şeir demək caiz deyil, ancaq mənzumati-məqbulə və pəsəndidə demək olur" [4,359] — yazmaqla bu dəfə isə təsəvvüründə yəqin Nizamini başda birinci nəzərdə tutmaqla hamısına bir növ "qulp" qoymuş olur. Özgə N.İ.Konradın " Orta Şərq intibahı və Əlişir Nəvai" məqaləsində Şərqin ən böyük korifey şairləri sırasında Nizamini mərkəzdə təsvir etməsi və bir növ həmin şairlər arasında bu qüdrətli söz dühasının birincilik mövqeyini nümayiş

etdirmək faktı ilə azərbaycanlı Axundzadənin Nizamiyə münasibətindəki tərs mütənasiblik, həqiqətən də düşündürücüdür.

İş o yerə çatmışdı ki, keçən yüzilliyin 80-ci illərində tanınmış filosof-tənqidçi Asif Əfəndiyev Nizamini "Azərbaycan ədəbiyyatının faciəsi " adlandırırdı. Bu cür yanaşmalar Nizamiyə münasibətdə bəsit mövqe nümayişindən başqa bir şey deyildi.

Lakin nizamişünasların ciddi elmi axtarışları — bu sırada H.Araslı, M.Cəfər, M.İbrahimov, M.Rəfili, R.Əliyev, Q.Əliyev, X.Yusifli, Ə.Ağayev, R.Azadə və digərlərinin səyləri nəticəsində Nizami və onun irsi ilə bağlı qeyri-elim, əsassız mülahizələr rədd edildi və o, Azərbaycan xalqına qaytarıldı. Bu xüsusda M.Cəfər Nizamiylə bağlı 1947-ci ildə yazdığı "Klassik şeirimizdə Nizami yaradıcılığı motivləri" məqaləsini bu cür ekspressiv tərzdə bitirirdi: — "Nizamini biz heç bir zaman və heç vəclə özümüzdən ayrı təsəvvür edə bilmərik. Öz görüşləri və dahiyanə fikirləri etibarilə bizə bu qədər yaxın olan Nizami bizim olmayıb kimin olmalıdır?

Nizamini gizli, qanlı əllər uzun müddət öz xalqından ayırmışdı. Nizamini böyük Stalin (**?**) öz xalqına qaytarmışdır. — Nizami bizimdir !" [5, 15-17].

Rusiyada Nizami irsinin görkəmli tədqiqatçısı A.Krımiski isə elə bil ki, böyük şairin hansı ədəbiyyata məxsusluğu məsələsinə aşağıdakı əhəmiyyətli qeydi ilə son qoymaqla mənsub olduğu xalqı və ədəbiyyatşünaslarını birdəfəlik arxayın salırdı: "Nizami doğma Azərbaycan şairidir və Azərbaycan qanuni olaraq onunla fəxr edə bilər;..ancaq o həm də dünya ədəbiyyatının iftixarı və bəzəyidir" [6, 3].

Axsitanın sifarişində çox maraqlı görünən bir məqamın da şahidi oluruq ki, nədənsə bu, düşünürük ki, ədəbiyyatşünas nizamisevərlərin diqqətindən yayınmışdır. Halbuki bu fakt, Nizaminin Azərbaycan dilində şeirlər yazması, hətta həmin şeirlərin öz dövründə tanınması və Axsitanın da bu barədə məlumatlı olması kimi məsələlərə də kifayət qədə aydınlıq gətirir.

Sual oluna bilər ki, Axsitan hardan bilirdi ki, Nizami "Leyli və Məcnun" poemasını fars dilində yox, məhz türk (Azərbaycan) dilində yazacaqdır ki, o, bu qədər sifarişində təkidlə əsərin fars, yaxud, ərəb dilində yazılmağını tələb edirdi?

"Od yanmasa tüstü çıxmaz". Deməli, sağlığında elə Nizaminin Azərbaycan dilində şeirləri tanınırdı, şöhrətlənmişdi ki, Axsitan bundan xəbərdar idi, bəlkə də həmin şeirlərdən oxumuşdu və həmin əsərlərin yazıldığı dilin əsil şeir dili kimi şirinliyini, gözəlliyini duymuşdu, yeri gəlmişkən bu dilin — "əsil poeziya dili" kimi beyinlərə yeridilən fars dilinə qarşı rəqabətli olduğunu hiss etmişdi. Bəlkə, elə buna görə idi ki, Azərbaycan dilinə qarşı bu qədər həqarətli, kinli görünürdü. Digər tərəfdən Axsitanın sifarişdəki üstüörtülü eyhamı, əslində paniranist təəssübkeş və Nizamini farslaşdırıb, özüननküləşdirmək istəyənlərə özünün də bilmədən endirdiyi sarsıdıcı zərbə təsirində idi.

Eyni zamanda , bu fakt Nizami qəzəllərinin bəzi mənbələrdə qeyd olunduğu kimi toylarda oxunması, tanınması fikrinin ehtimal yox, həqiqət olduğunun əyani sübutudur.

Maraq kəsb edən cəhətlərdən biri budur ki, Nizaminin heç bir əsərində farsa meyil, yaxud təəssübkeşliyindən zərrə qədər də əlamət müşahidə olunmadığı halda onu İran ədəbiyyatına zorla pərçim etməyə əsassız cəhdlər edilirdi. Fars dilində yazmasına gəldikdə isə bu, əlbəttə ki, abbasilərin hökmranlığının nəticəsi idi və bundan müvəqqəti olaraq qaçmaq mümkün deyildi.

Nizaminin Firdovsidən təsirlənməsinə gəldikdə isə yenə də məqsədli olaraq paniranistlər bunu həddindən artıq çox şişirdilər, hətta bəzən belə fikirlərə də təsadüf olunurdu ki, guya Nizami fars şairinin " Şahnamə"sindən bir-iki motiv çıxmaqla əksəriyyətini "İskəndərnamə" də təkrarlamışdır.

Qeyd edək ki, bu cür yanlış mülahizələri haqlı olaraq bir çox sovet və digər Avropa alimləri həmişə inkar etmişlər. Nizami özü də bu xüsusda "Şərəfnamə" də yazırdı:

Köhnə söz ustası, o tuslu şair
Söz gəlinlərini bəzədi bir- bir.
Düzdü dastanlara çox inci, gövhər,
Yenə də qaldı çox bakirə sözlər.
Dostlara o paydan ayırdı bir az,
Halvanı təklikdə yemək yaramaz.
Nizami bu sapa düzərkən gövhər,
Qələmdən silindi qələm görənlər. [7,43]

Açıq-aşkar Nizami qeyd edir ki, mən "Şərəfnamə"ni yazarkən Firdovsini təkrarlamadım, onun yazdıqlarını yazmadım, yan ötdüm, çünki "özgə süfrəsinin qırıntılarına əl atmağı" əsil şairlər üçün həqarət sayırdı. Yalnız əl dəyməmiş, deyilməmiş,yazılmamışları nəzmə çəkdim, tuslu şairin "dostlar üçün ayırdığı paydan" və çoxu əl dəyməmiş "qalan bakirə sözlərdən" istifadə etdim. "Qələmdən silindi qələm görənlər" misrasıyla bu qənaətini bir az da qətiləşdirir.

Nizaminin əgər Firdovsidən təsirlənməsi cüzi qədərindən hədsiz dərəcədə artıq olsaydı, şübhəsiz bu hal onda gəncəli ustadda fars şairinə qarşı böyük pərəstiş və ən azından qibtə doğurmalı idi. Lakin Nizaminin gövhər sözləri, ehtiram bəsləməsi istisna olmaqla onun tuslu şairə pərəstiş və qibtədən uzaq olduğunu göstərir. Hətta ona "Şahnamə" ilə bağlı bəzi mübahisəli məqamları da güzəştə getmir. Belə ki, Nizami tuslu şairin İskəndərə qarşı qərəzli mövqeyini heç də bölüşmür, əksinə iranpərəstlərin rumlu qəhrəmanın Kəyan taxt-tacının varisi olması kimi fərziyyələri yersiz hesab edir, hansı ki, Firdovsi də həmin iddialara tərəfdar idi. Nizami isə tarixi həqiqətləri tarixə uyğun təsvir edir və İskəndəri Feyləqusun oğlu kimi təsvir etməklə digər elmi görünməyən ehtimalları inkar edir. Və bu yolla şair, İskəndərin qeyd etdiyimiz kimi əsas verə biləcək atasının kimliyinə aydınlıq gətirir, onu Daranın oğlu olması qurama faktı ilə İranla bağlamaq cəhdlərinin qarşısını almaqla tarixi həqiqəti bir növ bərpa etmiş olur.

Şairin guya ki, "Şahnamə"ni bəzi motivlər istisna olmaqla bütövlükdə təkrarlamasına — bu cür əsassız iradların olacağını elə bil qabaqcadan duymuş kimi "İskəndərnamə"də "bir dürrdə iki deşik açmağın" mümkünsüzlüyünü yazır və kiminsə "süfrə qırıntılarına" ehtiyaclı olmadığını bədxahlarına üstüörtülü eyham vurur.

Arif Ərdəbilinin də ədəbi görüşlərində Nizamiyə münasibətin bir az müəmmalı sirləri var. Və düşünürük ki, bu məsələdə suala əsas verə biləcək, mübahisə üçün müəyyən qədər zəmin doğuracaq hallar az deyildir. Bəzi sənət və Nizaminin Firdovsi ilə əlaqəli mülahizələrində onun baxışları heç də birmənalı qarşılanmır və müəyyən qədər ziddiyyətli xarakter daşıyır. Demək olar ki, təəssübkeş İran alimlərinin skeptik mövqelərindən heç də seçilmir. Məsələn: O, Nizaminin Firdovsidən təsirlənməsi məsələsini hədindən artıq şişirdənlərlə bir növ şərik kimi görünür, tuslu şairin bəzi sənət görüşlərinə davamçısı olduğu şairin etirazlarını qəbul etmək istəmir, hətta buna qarşı çıxır. Nizamini təqlidçilikdə qınadığı halda maraqlıdır ki, Dəqiqinin min beytini Firdovsinin guya qulu tərəfindən zəhərləndirildiyi üçün onun xatirəsinə ehtiram əlaməti olaraq öz əsərinə əlavə etməsinə isə heç iradını bildirmir.

Əksinə, "Xosrov və Şirin" poemasında Nizaminin əksini tapan sənət prinsipləri ilə əlaqəli "doğru", "yalan" anlayışlarını və "qoca şair" (Firdovsi ilə bağlı) müraciətlərini Firdovsinin əleyhinə işləndiyi qənaətinə gəlir. Düzdür, A.Ərdəbilinin Firdovsiyə böyük ehtiramı qarşısında onun Nizamiyə qətiyyən təəssübkeşliyi görünmür. Görünür, Azərbaycan ədəbiyyatşünaslığının Nizami — Arif Ərdəbili münasibətlərindəki bu ziddiyyətlərin səbəblərini açmaqla, izahını verməkdə hələ müəyyən problemləri durmaqdadır.

Nizami dühasına milli zəmində soyuqluq tendensiyası... A.Ərdəbilidən üzü bəri - XX əsrin birinci rübünün sonuna qədərki müddət ərzində də bu tendensiyanın davamını bir xətt boyunca görməkdəyik. Nizami irsinin, xüsusən də lirikası sahəsində tədqiqatlar, axtarış aparanların sırasına diqqət etsək çox maraqlı bir mənzərənin — daha çox digər ölkə alimlərinin bu sahədə çalışdıqlarının şahidi oluruq. Diqqət edək: V.Baxer, Ş.Nümani, Xacə Əxtər Miyan, Y.N.Marr, Y.Rıpka, A.Krımski, Y.E.Bertels, A.Boldırev, V.Dəstgirdi, S.Nəfisi, Ə.Əkbər Şəhabi, Ş. Rzazadə, Z.Mötəmən və s. Bu sıranı daha da genişləndirmək olar. Bunlar Hindistan, Macarıstan, Çexoslovakiya, İran və Rusiya alimləridir. Hamısının da Nizami irsinin tədqiqində, nəşrində, tərcümə edib təbliğində az-çox ölçüdə xidməti olan alimlərdir. Bu irsin Avropada tanınmasında da ilkin təşəbbüs onlara məxsusdur. Hansı ki, bu barədə X.Yusiflinin də bir qeydində təsadüf edirik: "Bu müəlliflərə qədər A.Krımskinin yazdığı kimi, "Avropada Nizaminin ancaq quru adı məlum idi" [8,45]. Yuxarıda adları sadalananların sırasına XIX əsr alimləri — S.de.Sasi, H.Purqştal, Şarmua, Erdman və digərlərini də əlavə etmək olar, çünki onlarında bu təşəbbüsdə fəaliyyəti qabarıqdır.

Bu statistik sıralamada Azərbaycanlı alimlərin adına təsadüf edilməməsi, şübhəsiz təəssüf doğurur. XX əsrin birinci rübündə üzdə olan ədəbiyyatşünas-tədqiqatçılar: F.Köçərli, Y.V.Çəmənzəminli isə Azərbaycan ədəbiyyatı tarixinin sistemə salınmasında ilk təşəbbüslərində Nizamiyə farsca yazdığına görə ədəbiyyat tariximizin başlanğıc mərhələsində yer verilməsini nəsləhət bilməmişdilər.

Müəyyən qədər yazımızda bu məsələlərə də yer ayırmaqda məqsədimiz hələ çox-çox əvəllər Nizami irsinin bir sıra xarici ölkə təzkirəçiləri, alimləri tərəfindən araşdırılmasına, tədqiqinə başlanmasına baxmayaraq, Azərbaycan ədəbiyyat-şünaslığının XX əsrin əvvəllərində bu prosesdən kənarda qalması, susqunluğu təəssüf doğuran faktdır.

Buna görə də Azərbaycan Respublikasında sonrakı illərdə Dövlət səviyyəsində Nizmai irsinin öyrənilməsi, toplanması, nəşri, tərcüməsi, tədqiqi və təbliği işinin daha da yaxşılaşdırılması, yubiley tədbirlərinin keçirilməsi istiqamətində verilən qərarların həyata keçirilməsi olduqca təqdirəlayiq və əhəmiyyətlidir.

Mənbələrdən də bəllidir ki, XIII əsr Azərbaycan alimi Zəkəriyyə Qəzvini Nizami lirikası haqqında ilkin məlumat vermiş, onun "Xəmsə" ilə yanaşı divana sahib olduğunu bildirmişdir.Və bu məlumat alimin coğrafi mövzuda yazdığı "Asarül-bilad..." əsərində əksini tapmışdır. Bu barədə X.Yusifli də "Nizaminin lirikası" monoqrafiyasında məlumat vermişdir.

Z.Qəzvininin Nizami divanının mövzu dairəsi ilə bağlı məlumatından aydın olur ki, divanda ənənəvi, normativ(kanonik) şeir parçaları ilə yanaşı, dini-ilahi və əsas da ictima-fəlsəfi motivlər dominantlıq təşkil etmişdir.

Düzdür, Z.Qəzvini bu barədə ilkin məlumat versə də — dərsliklərdə və digər mənbələrdə daha çox XV əsr təzkirəçisi Dövlətşah Səmərqəndinin adı hallanmqadadır. Və əgər D.Səmərqəndi Nizaminin 20 min beytlik lirik şeirlər divanını şəxsən gördüyünü bəyan edirsə, Qəzvininin qeydlərində isə divanla əyani tanış olması, görməsi, yaxud digər mənbələrdə oxuması, kimdənsə eşitməsi haqqında bunu müəyyənləşdirmək olmur. Buna görə də D.Səmərqəndinin, baxmayaraq ki, onun müddəaları Qəzvininin fikirlərini tamamlamış təsiri bağışlayır, amma cəsarətlə Nizami divanını görməsini qeyd etməsi bu faktın həqiqiliyinə şübhə yeri saxlamır. Bizim üçün Səmərqəndi məlumatının səhihlik baxımından böyük əhəmiyyəti də bundan ibarətdir. Lakin Z.Qəzvini məlumatının ilkin mənbə əhəmiyyətini də unutmaq doğru olmaz.

D.Səmərqəndi divanda Nizaminin müqayisədə qəzəllərinin qəsidə və qitələrinə həmçinin digər şeirlərinə nisbətən daha çox diqqət çəkən olmasını da nəzərə çatdırmışdır. Burada şairin müvəşşəhlərinin də olmasını vurğulayır. Qəsidə və qitələrini isə "məsnu""şeirlər kimi qələmə verir.

Prof.X.Yusiflinin kitabında açıqladığı kimi D.Səmərqəndinin şairin qəsidə və qitələrini "məsnu" şeirlər adlandırması fikri, xüsusilə "məsnu"sözü diqqətimizi çəkdi. Şübhəsiz ki, tədqiqatçının da qeyd etdiyi kimi "məsnu" sözü poetik termin, yaxud istilah sayıla bilməz. Alimin D.Səmərqəndinin "məsnu" sözünü guya şairin

qəsidə və qitələrinin poetik fiqurlar və sənətkarlıq cəhətdən zənginliyini nəzərə alaraq işlətməsi fikri açığı, bizə o qədər də ağlabatn görünmür. "Məsnu" ərəb sözüdür və dilimizdə mənası — süni, texniki yolla düzəldilmiş deməkdir [9,142]. Baxmayaraq ki, Y.E.Bertelsin "məsnu"nu çox haqlı olaraq "süni" kimi tərcümə etməsini tədqiqatçı X..Yusifli doğru hesab etmir, əslində biz Bertelsi haqlı sayır, tədqiqatçının fikrində isə dəqiqlik görmürük.

Düşünürük ki, "məsnu" (süni) sözünü D.Səmərqəndi şairin qəsidə və qitələri haqqında işlədə bilməz və bunun heç bir elmi əsası yoxdur, çünki söhbət sıradan ikinci dərəcəli şairdən yox, dahi Nizamidən və onun novator sənətkarlığından gedir.

Bizcə, kələfin ucu — həqiqət yuxarıda adını qeyd etdiyimiz "müvəşşəhlə" bağlıdır.Kitabının istinad yerində X.Yusifli bu şeir şəkli ilə bağlı yazır: "Müvəşşəh o şeirlərə deyilir ki, onların misralarının əvvəl və ya axır hərflərini bir yerə cəm edəndə ya bir ad, ya bir məsəl, yaxud kiçik bir şeir parçası alınır. Hələlik Nizamidə belə bir qayda ilə yazılmış şeirə rast gəlməmişik" [8,44].

Qədim və orta əsrlər dövrü Azərbaycan ədəbiyyatı tarixi üzrə mütəxəssis, mərhum professor Əliyar Səfərli də müvəşşəh haqqında belə yazır: "Müvəşşəh şeir şəklidir, ona musiqi bəslənir. Hərfi mənası kəmərlənmiş, dolanmış deməkdir.Əsasən eşq mövzusunda yazılır. Müvəşşəh şeirinin bəndləri qitələrdən ibarətdir. Bu ədəbi şeir şəkli ərəb poeziyasına aiddir. Onun həcmi 4-10 misradan ibarətdir [10,474].

Müqayisə üçün bu iki sitatın əhəmiyyəti var. Birinci sitatda X.Yusifli tərəfindən "müvəşşəhlə" bağlı verilən əlamətlər əsasən Avropa şeir janrı olan sonetə aiddir və bu şeir janrının "akrostix" deyilən şəkli ilə analoq təşkil edir. Çünki şeirin hər misrasının birinci hərfləri yuxarıdan aşağıya oxuyanda ya şeirin məmduhunun adı, ya da hansısa məqsədlə bir ifadə alınır.

X.Yusifli doğru olaraq yazır ki, "Nizamidə belə bir qayda ilə yazılmış şeirə rast gəlməmişik". Aydın məsələdir ki, Nizami heç vaxt sonet yazmıyıb və bu onda ola da bilməzdi. Çünki Avropada ilk sonet nümunələrinin yaranma tarixi Nizamidən çox-çox sonrakı dövrlərə—XIII əsrə aiddir.O ki, qaldı Ə.Səfərlidən gətirdiyimiz sitata—burada məsələnin maraqlı tərəfi həmin sitatın—"Müvəşşəh şeirinin bəndləri qitələrdən ibarətdir. Bu şeir şəkli ərəb poeziyasına aiddir, onun həcmi 4-10 misradan ibarətdir" komponenti ilə bağlıdır. Bəli, Nizami qitələr yazmışdır. Amma Nizami qitə çərçivəsində heç vaxt "akrostix" prinsipini tətbiq etməmişdir. Qitədə bu prinsipin tətbiqi hər sətrin həm əvvəlində, həm də sonunda tətbiqi mümkündür.Çox vaxt belə şeirlərdə şair sevgilisinin, yaxud həsr etdiyi şairin adını həkk edirdi. Bu cür nümunələr çox vaxt əyləncə mahiyyəti, söz oyunu xarakteri daşıyırdı və həmin şeirlər sırf formalist mövqedən yazıldığı üçün süni təsir bağışlayırdı. Bu cür şeirləri ədəbiyyatşünaslıqda çox vaxt süni, anomal, yaxud da kvazi (yalan, yalançı) epitetləri ilə də adlandırırdılar. Buna görə də Bertels "məsnu" sözünü məziyyət, keyfiyyət göstəricisi kimi yox, süni məzmunda tərcümə etmişdir.

Elə bu əsasla da X.Yusiflinin — "Buna görə də Y.E.Bertelsin "məsnu" sözünü "süni" kimi tərcümə etməsini doğru hesab etmirik" qənaətinin əsassızlığını görmək

çox da çətin deyildir. Həmçinin qitə tipli müvəşşəhlərdə Nizmainin "akrostix" modelini tətbiq etməsi və belə müvəşşəhlərin onun lirikasında mövcudluğu haqqında fikirləri də şübhəli, mübahisəli görünməkdədir.

N.Gəncəvi əsərlərinin öz oxucusuna yetərincə çatdırılması işi ədalət naminə qeyd edək ki, dövrün, günün tələbləri səviyyəsində olduğunu qeyd etmək mümkündür. Lakin bu məsələnin bir tərəfidir. Əsas məsələ, bəlkə də ən mühüm vəzifə bu irsin təkcə ədəbi prosesə, elmi mühitə, tələbə və şagird kontingentinə çatdırılmasında yox, həm də layiq olduğu səviyyədə ümumxalq tərəfindən dərkinə, mənimsənilməsinə nail olmaqdan ibarətdir. Bunsuz Nizami irsinin geniş təbliğindən, xalq arasında yayılması vüsətindən söhbət açmağa dəyməz. Lakin bu problemin vüsətli həlli qarşısında müəyyən qədər çətinliklər hələ də durmaqdadır. Bildiyimiz kimi, Nizaminin əsərləri davamlı olaraq katiblərin, səriştəsiz naşirlərin, məqsədli mətnlərdə təhriflərə yol verən, haqı çatmadan əlavələr edən kəslərin və hətta oxucuların müdaxiləsinə məruz qalmışdır. Nəticədə dünya əhəmiyyətli ədəbi-bədii və mədəni bir irsin gələcək nəsillərə orijinala uyğun çatdırılmasında sadalanan amillərin mənfi, zərərli təsiri qabarıq olmuşdur. Bu, həmçinin mətnlərdə böyük təhriflərə gətirib çıxartmış, onların dərki işini xeyli çətinləşdirmişdir.

Lakin Nizami irsinin dərki məsələsindəki müəyyən çətinliklər, yalnız əsərlərə edilən müdaxilələrlə əlaqəli olmamışdır. Bunun bir səbəbi həm də şairin əsərləri ilə bağlı araşdırma aparanların bəzən təhlil-tədqiq işində səhvlərə və müəyyən mətnlərin izahında tələskənliyə yol vermələri ilə bağlıdır. Şagird-tələbə kontingenti üçün bu cür nöqsanlara yol vermə halları bəlkə də bağışlanmazdır, çünki alınan mənfi informasiya onların şüurunda həqiqət kimi yer almış olur və həmin nəslin içində yetişən müəllim heyəti tərəfindən də digərlərinə o şəkildə ötürülmüş olur. Buna görə də, ümumtəhsil və ali məktəb dərsliklərində, dərs vəsaitlərində, xüsusən də Nizami irsi ilə əlaqəli yazılmış monoqrafiyalarda şairin əsərlərinin təhlili ilə bağlı çoxsaylı səhvlərlə, təhriflərlə rastlaşmaq mümkündür. Xüsusilə də klassik irs ilə bağlı təhlillərdə bu nöqsanlar daha qabarıq görünür.Bəzən təhlili mükəmməl görünən bədii mətnin özündə də müəyyən qüsurların mövcudluğu müşahidə olunmaqdadır.

Nizami bildiyimiz kimi, əfqan şairi Sənayi Qəznəvinin "hədiqətül-həqayiq" əsərindən təsirlənərək möhtəşəm "Sirlər Xəzinəsi"ni yaratdı və iki əsərin müqayisəsində öz əsərini daha üstün tutaraq yazırdı: "... İki namus əhli Bəhram şahın adına əsər yazdı. O, köhnə mədəndən qızıl çıxardı, bu isə yeni dürr. O, Qəznədə bayraq qaldırdı, bu isə rumlu adına sikkə yaratdı.Hərçənd, onun söz sikkəsi qızıl kimidir, ancaq mənim qızılımın sikkəsi ondan yaxşıdır. Hərçənd mənim yüküm ondan azdır, ancaq mənim alıcım onun alıcısından daha üstündür" [11,11]. Sitatı çəkməkdə məqsədimiz budur ki, bu zəngin əsil sənət irsinin möhtəşəmliyini bütün laylarına qədər dərk etməli, mənimsəməli və bu ictimai-fəlsəfi, mənəvi-estetik xəzinənin, ensiklopediyanın hərtərəfli, savadlı, zəngin iç aləminə malik—alıcısı (yəni oxucusu) digər korifey şairlərinkindən daha üstün olan Nizami alıcılarına zədələnməmiş, təhrif edilməmiş şəkildə çatdırılması işini təmin etməyə borcluyuq.

Nizami poemasının Sənainin əsərindən orijinal, üstün olduğuna obyektiv müqayisə aspektində işarə edir. Lakin bəzi tədqiqatçılar təəssübkeş subyektivizmə qapılaraq şairin "Sirlər xəzinə"sini Sənaidən təsirlənmə yolu ilə sufiyanə yazılmış bir əsər kimi qələmə verməklə onun əhəmiyyətini və sənətkarlığını aşağılamağa, hətta orijinallığını inkar etməyə çalışmışlar. Halbuki, bu iki əsər arasında fərq kifayət qədər nəzərəçarpandır. Nizaminin əsəri intibah ideyalarının, zəhmətkeş, sadə insanlara ehtiram, azad, bərabərhüquqlu cəmiyyət və s. demokratik düşüncə prinsiplərinin ifadə kürsüsünə çevrildiyi halda Sənai əsəri isə dumanlı, mücərrəd ədalət konsepsiyasının, təriqət mistisizminin ifadəsindən irəli gedə bilmir.

Nizaminin təkcə "Sirlər Xəzinəsi"ni yox, digər əsərlərini də burjua düşüncəsi ilə yanlış, birtərəfli mənalandıranlar heç də az olmamışdır. Bunların sırasında V.Baxer, Ş.Nümani, Ə.Ə.Şəhabi, A.N.Boldırev, A.Krımski və digərlərinin adlarını qeyd etmək olar. Lakin bu sıralamada A.Krımski, A.N.Boldırevin Nizami irsi ilə bağlı xidmətlərini heç də inkar etmək fikrimiz yoxdur, sadəcə, bu alimlərin də, xüsusən Nizami lirikası ilə bağlı məhdud baxış bucağına söykənmiş mülahizələri olmuşdur. Hətta "Azərbaycan şairi Nizami" monoqrafiyasını yazmış M.Ə.Rəsulzadənin də bəzi baxışları nöqsan və səhvlərdən xali olmamışdır. Ancaq bu sıralamada Vilhelm Baxerin mülahizələri müəyyən dövr üçün Nizami irsinin humanist, bəşəri, demokratik mahiyyətinin düzgün qavranılması işində olduqca ziyanlı təsirə malik olmuşdur. Böyük şairi hətta müəyyən məqamlarda tərki-dünya, asket kimi qələmə verməklə onun əsərlərinin mahiyyətini idealistcəsinə təhrif etmişdir. Onun bu baxışları daha çox 1871-ci ildə elmi dərəcə almaq üçün yazdığı "Nizaminin həyatı və əsərləri" kitabında cəmlənmişdir. Və M.İbrahimovun da qeyd etdiyi kimi, V.Baxerin bu kitabında əksini tapmış heç də az olmayan "qeyri-elimi, əsassız mülahizələri" Nizami yaradıcılığının əyri güzgüzdə təsvirinə hesablanmış təhriflərdən başqa bir şey deyildir. Təəssüflər olsun ki, Nizami irsinin həqiqətlərini çılpaqlığına qədər XIX əsrin son və XX əsrin ilk rüblərində Avropa hüdudlarına çıxartmaqda Azərbaycan ədəbiyyatşünaslığı yetərincə perspektivli olmamışdır. Və bu dövrdə ədəbi-nəzəri fikir hələ təkamül fazasına yenicə qədəm qoymaqda idi. Buna görə də burjua alimlərinin, xüsusən də Baxerin reallıqla uzlaşmayan ziyanlı müddəaları öz ətrafında müəyyən qədər təsir dairəsi yarada bilmişdi və bu dairədən Nizami irsinə münasibət bucağı çox bəsit, ziddiyyətli və məhdud idi. Hətta Nizami yaradıcılığının tədqiqi, təbliği yönündə diqqətəlayiq xidmətləri olan A.Krımskinin sonradan bəzi nəzəri-metodoloji səhvləri bəlkə də Baxer subyektivizminin fəsadlarının nəticəsi idi.

Yaxşı ki,Y.E.Bertels, A.Krımski, H.Araslı, M.İbrahimov, M.Cəfər, Ə.Ağayev, Q.Beqdeli,R.Əliyev,Q.Əliyev, A.Hacıyev və ümumən Azərbaycan ədəbiyyatşünaslığı toparlanaraq Nizami irsi üzərində sıxlaşan qara buludları dağıtmaq yönündə səmərəli, effektiv nəticələrə yol açan araşdırmaları ilə bu yaradıcılıqla bağlı əsil həqiqətlərə aydınlıq gətirməyi bacardılar.

Nizami əsərlərinin müəyyən məqamları üzrə hələ də mübahisəli təhlil və təhrifə şübhə yaradan halların mövcudluğunu yuxarıda qeyd etmişdik. Bu cür hallar şairin əsərlərində bəzi parça, beyt və misraların məzmunu haqqında indi də bəsit, düzgün aparılmayan təhlil, şərh və izahlara görə yanlış təsəvvür yaratmış olur. Buna görə də uzun müddətdir dərsliklərdə və digər elmi mənbələrdə yer almış təhlili mübahisəli görünən bir məqama diqqət çəkmək istəyirik.

Bu yöndə bəzi fikirlərimizin davamı kimi, müəyyən qədər mübahisələrə zəmin yaradan Axsitanın "Leyli və Məcnun" poemasının sifarişi ilə əlaqədar məktubuna təkrar qayıtmağımız zəruri görünür. Buna görə məlum parçanın bir beytinə orijinalda olduğu dildə nəzər salmağı və uyğun parçaya verilən izahlara müqayisə kontekstində münasibət bildirməyi münasib bilirik:

Torki sofəti vəfaye ma nist,
Torkane soxən səzaye ma nist. [1, 10]

Beytin S.Vurğunun və M.Əlizadənin sətri-filoloji tərcüməsi haqqında yuxarıda məlumat verildiyi üçün təkrarən təfərrüata varmaq istəmirik. "Azərbaycan ədəbiyyatı tarixi"nin "Elm" nəşriyyatı tərəfindən 1960-ci ildə çap edilən I cildində yazılır: "Paniranistlər son illərdə bu beytə xüsusi əhəmiyyət verir və bunlardan belə bir nəticə çıxartmağa çalışırlar ki, guya Axsitan məktubunda türk və türklük məsələsini irəli sürərkən əsərin dilini deyil, Firdovsini aldadan...Sultan Mahmudu nəzərdə tutmuşdur. Bu kimi mühakimələrin saxtalığını şairin öz sözləri ifşa edir" [12,149].

Biz düşünürük ki, burda verilən izah birtərəflidir. Əslində Axsitan həm dildən danışır, həm də həmin beytdə "torki sifət"in vəfa məsələsini irəli sürür." "Torki sifət"in vəfa məsələsində Sultan Mahmudu və onun timsalında "əhdə sadiq olmamaq" əlamətini türklərə aid etməsi ehtimalı mümkün sayıla bilər — və niyə də yox! Qayıdaq beytdə həm dil, həm də S.Mahmudun nəzərdə tutulması məsələsinə. Kimə bəlli fakt deyil ki, "dil millətin, xalqın varlıq göstəricisidir". Dildən söhbət gedirsə, demək, millət, xalq—konkret olaraq insan nəzərdə tutulur. Yeri gəlmişkən, birinci misranı Nizami metonimik məzmunda işlətməsi fərqindəyik, çünki metonimiyada olduğu kimi sətirdə ad çəkilmir, ancaq burda Firdovsiyə "Şahnamə"nin müqabilində boyun aldığı qızılı verməyən kəslə bağlı təsəvvürdə canlanan əhvalat Axsitanın tənəsində məhz Sultan Mahmuda işarə edilməsinin ehtimal yox, həqiqət olduğunu aydınlaşdırır. Həqiqətdə də burda söhbət Sultan Mahmudun verdiyi sözə sadiq olmamasından gedir. Əks təqdirdə "torki sofət"in əhdə sadiq olmaması məsələsinin ayrılıqda "torkane soxən"lə nə bağlılığı ola bilər ? Nəticədə, yuxarıda qeyd etdiyimiz tezisə qayıdırıq ki, — beytdə dildən, "torkane sofət" və bu sofətin (sifət) daşıyıcı – Sultan Mahmuddan üstüörtülü söhbət getməsi şübhəsizdir.

Yuxarıda adıçəkilən mənbədə absurd görünən və etiraz doğuran şərhə diqqət edək: "...Buradakı misralar daha aydın bir şəkildə göstərir ki, Nizami iki dildə əsər yazarmış, öz ana dili olan türk (Azərbaycan) dilində və o zaman rəsmi dövlət və

ədəbi dil sayılan fars dilində...” [12,149]. Sitatın gülünc görünən tərəfi isə onun ikinci cümlə - komponenti ilə bağlıdır: — “Əks təqdirdə Axsitan “bu təzə gəlini fars və ərəb bəzəyi ilə bəzə” tapşırığını şairə vermək ehtiyacını hiss etməzdi”...

Nizaminin müləmmə (simbioz) şeir yazması mümkündür — buna ədəbi təcrübədə ortaçağ ədəbiyyatda və xüsusən də, aşıq yaradıcılığında təsadüf etmişik. Baxmayaraq ki, Nizami lirikasında belə bir nümunəyə rast gəlinmir. Amma poemada belə bir poestrukturun tətbiqi məsələsi ağlasığmaz məsələdir — və əminliklə Nizamidə belə bir cəhdin mümkünlüyünü iddia etmək, həmçinin deyilənə özünəbəraət kimi — əks təqdirdə Axsitan “bu təzə gəlini fars və ərəb bəzəyi ilə bəzə” tapşırığını şairə vermək ehtiyacını hiss etməzdi “ fikrini irəli sürmək nə dərəcədə doğrudur. Bu, əslində, Axsitanın “fars, ərəb dili ilə vur ona zinət...” misrasını düzgün qavramamağın nəticəsidir desək, heç də yanılmarıq. Çünki burda söhbət ikidillilikdən getmir. Tezisimizin davamını gətiririk ki, — Nizami heç müləmmə şeir, yaxud poema yazmamışdır. Çünki adi şeir üçün bu mümkün görünsə də, poema üçün mümkünsüzdür.

Şərq intibahı və bu intibahda Nizaminin möhtəşəm mövqeyi məsələlərini yüksək səviyyədə tədqiq edən prof. X.Yusiflinin də bu barədə bəzi mülahizələri bizə o qədər də dəqiq görünmür. Müəllif yazır: “Burada söhbət qətiyyən dildən getmir” [2, 116]. Onda bəs —

Torkanə soxən səzaye ma nist

misrasındakı “torkanə soxən”i hansı məzmunda başa düşək?

Müəllifin — “Axsitan fars, ərəb bəzəyi dedikdə bu mövzu ilə əlaqədar farslarda və ərəblərdə yayılan əfsanə və rəvayətləri nəzərdə tutmuşdur” mühakiməsi də əsaslı görünmür. Çünki Axsitan “fars, ərəb dililə ver ona zinət” – deyəndə heç də fars, ərəb rəvayət və əfsanələrini nəzərdə tutmamışdır. O, açıq-aşkar həmin misrada şairə bu poemanı ya fars, ya da ərəb dilində yaz deyir və heç də müləmmə poema yazmağı ondan xahiş etmir. Ədəbi təcrübədə belə bir şey yoxdur və olmayanı da Axsitan Nizamidən tələb edə bilməzdi. Və həm də, bu əfsanə ərəblərdə mövcud olub yayıldığı üçün Axsitanın fars rəvayətlərindən də bu “təzə gəlinə” bəzək vurulması istəyi sadəcə, inanılası səslənmir. Amma Axsitanın fars təəssübkeşliyini də fars rəvayəti məsələsində unutmaq olmaz. Onun milli mənsubiyyəti ilə də bağlı bəzi məqamlar belə fikirləşməyə əsas verir. Buna görə də “fars, ərəb dililə vur ona zinət” misrasının məzmunu sırf dillə — iki dildən biri — dilemması ilə bağlıdır, heç də əfsanə, rəvayət məsələsi deyildir. Başqa cür düşünmək sadəlövlük olar.

Əlbəttə, X.Yusiflidən gətirdiyimiz sitatdakı yanlışlığı biz yuxarıda istinad etdiyimiz birinci mənbədən gələn qeyri-dürüstlüklə əlaqələndiririk. Bunun nəticəsidir ki, bəzən əvvəlki mənbələrdə yer almış hansısa səhih olmayan məlumat eynən başqa qaynaq və dərsliklərdə davamını tapmış, yanlışlığa səbəb olmuşdur. Buna görə də Nizami irsi ilə bağlı istər çağdaş, istərsə də hansısa ortaçağ mənbələrə ehkam kimi yanaşmaq ənənəsindən uzaqlaşmaq daha məntiqidir.

"Leyli və Məcnun" poeması möhtəşəm poetik potensialın yeni mövzu istiqamətində özünəxas təzə biçimdə, üslubda təcəssüm nümunəsi idi.Avropa ədəbiyyatşünaslığının bəzi burjua təmayullu nümayəndələri adətən Nizamini özünə qədər mövcud əsərlərin təqlidçisi kimi qələmə verirdilər. Lakin "Leyli və Məcnun" mövzusunda Nizamiyə qədər mükəmməl yazılan, tanınan, şöhrətlənən poema olmamışdır. Baxmayaraq ki, mənbələrin verdiyi məlumata görə Nizamiyə qədər əlliyə yaxın bu mövzuda poeama yazılması faktı mövcuddur. Lakin bunların sırasında böyük uğur qazanan poema nümunəsinə təsadüf edilmir. Belə kədərli, üzüntülü — "ilham atını dördnala çapmaq üçün ərazisi geniş olmayan" mövzuda məhz Azərbaycan dühası Nizami bu xalqın təfəkkür, təxəyyül qüdrətinin nəyə qadir olduğunu bir daha göstərdi, bu mövzuya öz möhürünü vurmuş oldu. Nəticədə, Nizami əsəri özündən sonra bir təsir tilsimi yaratdı ki, bu tilsimin cazibəsindən yayınmaq bir çox korifey şairlərə müəssər olmadı. Lakin ondan sonra bu mövzuda qaynaqların verdiyi məlumata görə iki yüzə yaxın poema yazılsa da Füzulidən başqa elə bir böyük uğur qazananı olmadı.Yenə də türk — Azərbaycan təfəkkürünün dominantlığı dünya ədəbiyyat cameəsini heyrətdə qoydu. Həqiqətən də, Füzulinin "qəlb poeziyasının" zirvəsi sayılan "Leyli və Məcnun" poeması bu mövzulu digər poemaları "kölgədə" qoydu. Amma, ədalət naminə onu da qeyd edək ki, əgər Nizaminin poeması mükəmməl, bütün yüksək ölçüləri açan səviyyədə yaranmasaydı, düşünürük ki, Füzuli "Leyli və Məcnun"u mövcud mükəmməllikdə bəlkə də alınmazdı. Füzulinin özünün də poemasında buna işarə etməsini duymaq mümkündür:

Billah ki, nə xoş demiş Nizami,
Bu babdə xətm edib kəlami... [13,26]

Və məsnəvinin davamında Nizaminin bu mövzuda yazmaq istəmədiyinin səbəbləri açıqlanır. Füzulinin də bu mövzuda yazmağın onun üçün çətinlik yarada biləcəyi haqqında fikirləri Nizami düşüncələri ilə eyni motivlidir.

Füzuli yazır:

Gəncineyi- nəzm gizli qalmaz
Sanma günəş olsa nur salmaz.
Kam necə kim nihan tutar daş,
Eylər onu bu ləl aləmə faş. [13, 26]

Bəli, Füzulinin ləl sözü mədənin gözünü gizlində daş tutsa da, ürəyindən nəzm xəzinəsinin gizli qalmasına rəvac vermədiyi kimi — "Leyli və Məcnun" mövzusunu da bütün kədər, üzüntü laylarına, dövr, mühit və fərd problemlərinin incəliklərinə qədər aləmə faş etməyi bacardı və sözün zirvəsində Nizamidən sonra öz bayrağını sanca bildi.

Nizami bildiyimiz kimi nədən yazırsa – yazsın mövzusunu ətraflı, dürüst öyrənib araştırırdı. Və "Leyli və Məcnun" mövzusuna, qəhrəmanlarının taleyinə bələdliyi ətraflı idi. Xüsusən də, Məcnunun tarixi şəxsiyyət olub – olmaması məsələsi də, düşünürük ki, ona bəlli idi. Nizamiyə Məcnunla bağlı "bəlli" olanın oxucu üçün də maraq kəsb edəcəyini düşünərək bu barədə müəyyən qədər mənbələrə istinad edək.

Məcnunun tarixi şəxsiyyət olub – olmaması məsələsi ilə ilkin olaraq bu əfsanənin yarandığı ölkə – ərəb alimləri məşğul olmuşlar. Əbülfərəc İsvahani, Əbubəkr əl-Valibi, İbn Küteybə, İbn Sərrac, Məhəmməd ibn Davud əz-Zahiri və digərlərinin istər bu əfasanə, istərsə də Məcnun və Leylinin tarixi şəxsiyyət olmasını araşdırmaq istiqamətində müəyyən işlər görməsi haqqında mənbələrdə məlumatlar mövcuddur. Onların bu barədə kitab və məcmuələri ilkin mənbələr kimi əhəmiyyət daşıyır. Bunların sırasında İ.Y.Kraçkovskinin "ərəb ədəbiyyatında Məcnun və Leyli haqqında povestin ilkin tarixi" əsəri isə digər mənbələrə nisbətən ciddi elmi araşdırmaq sanbalına görə bu əfsanə və qəhrəmanlar haqqında bir çox qaranlıq mətləblərə daha dolğun aydınlıq gətirə bilir. İnandırıcı fakt və dəlillər hər iki əfsanə qəhrəmanlarının tarixi şəxsiyyətlər olmasına şübhə yeri qoymur.

Rus tədqiqatçısı İ.Filştinskinin Moskvanın "Xudojestvennaя literatura" nəşriyyatında 1975-ci ildə nəşr edilən "Orta əsrlər ərəb poeziyası" antologiyasına "son söz" qismində yazdığı geniş məqalə və izahlardakı qeydlərdə verdiyi məlumatlar da bu yöndə aparılan araşdırmaları bir daha tamamlanmış olur. Müəllif salnamələrdə əksini tapan məlumatlara əsasən kədərli məhəbbət mövzusunda şeirlər yazanlar sırasında Uzra qəbiləsinin Hicaz şairlərinin daha çox şöhrətləndiklərini qeyd edir. Bu sahadə yaradıcılıq nümunələri "Uzra lirikası" kimi tanındığını vurğulayır. Və onların ardıcıllarının isə "Uzra məktəbi"nin nümayəndələri kimi tanındığını bildirir. İ. Filiştinskinin qeydlərində bəlli olur ki, orta əsrlər antologiyalarında Uzra şairlərinin bəzilərinin uğursuz kədərli sevgiləri, acı taleləri haqqında elə hekayələrə rast gəlinir ki, onların bu faciəli həyatları sevgililərinin həyatından ayrı deyil. Bu haqda müəllif yazır: "Belə sevgili cütlərdən biri: Məcnun ləqəbli Qeys ibn əl-Müləvvah və Leyladır. Qeys Leyla ilə evlənə bilmədiyi üçün ağlını itirmiş, səhralara qaçmış, sərsəri həyat keçirmişdir. Yalnız vəhşi heyvanlarla dostluq etmiş, Leylini xatırlamaqla uğursuz sevgiləri haqqında qüssəli şeirlər yazmışdır" [14, 702].

Bizim üçün tədqiqatçının qeydlərində ən əhəmiyyətli fakt Məcnunun adının Qeys ibn əl-Müləvvah, sevgilisinin yazılan poemalarda Leyli kimi tanıdılan – Leyla olması və hər ikisinin də şair kimi qələmə verilməsidir. Biz Nizami poemasında da Məcnun və Leylini şair kimi görürük.

Əbəs deyildir ki, yuxarıda adıçəkilən antologiyada Qeys ibn əl-Müləvvahın S.Lipkinanın tərcüməsində yetmiş iki şeiri məhz Məcnun ləqəbi ilə təqdim edilmişdir. Və bu kədərli, üzüntülü şeirlərin hamısında Leylaya dərin, bəlkə də o dövrlər üçün analoqu olmayan məhəbbət hissləri bəslənilmiş, onun gözəlliyi kifayət

qədər yüksək poetik biçimdə vəsf edilmişdir. Məcnunla Leylanın VII əsrin sonlarına qədər yaşamaları haqqında mənbələrdə məlumatlara da təsadüf edilməkdədir.

Məcnunun şeirləri ayrıca geniş tədqiqatın mövzusudur. Bu şeirlərdə Məcnunun səhra həyatının, Leylanı dəlicəsinə sevməsi, lakin başqa – Sakif qəbiləsindən sevmədiyi varlı kəsə ərə verilməsi, uğursuz, faciəli eşq hekayəsinin və digər hadisələrin təsviri ilə əlaqəli yazılmış məhz bu şeirlərin, bu sevən iki cütlükdən bəhs edən əfsanələrin, sonralar poemaların meydana gəlməsinə səbəb olduğu haqqında söylənilən fikirlərə şərik çıxmağa müəyyən qədər əsaslar yaradır.

Bu cür bəlli faktlar istər Məcnunun, istərsə də Leylinin (Leyla) tarixi şəxsiyyət olduğunu bir daha sübut edir. Bu amil həm də "Leyli və Məcnun" mövzusunun üzərindən onun fantastik təfəkkür məhsulu, uydurma, " yalanın ən gözəli" olması kimi deyimləri götürür və bu mövzunu özünün faciəvi tematikası, problemləri ilə reallıqla bağlayır. Biz Nizami poemasında zaman – fərd qarşıdurmasını, feodal – klerikal düşüncə tərzinin insanı uçuruma yuvarlatması, azad sevgini boğması, onun taleyindən fatalistcəsinə, müticəsinə asılı salmasının ürəkağrıdıcı ifadəsini görürük. Və bunu heç də "gözəl bədii yalan" kimi yox – əsil reallıq hadisəsi kimi qəbul edirik. Məcnunun çöllərə, səhralara düşməsi, heyvanlarla dostluq etməsini isə Nizami qələminin hiperbolik şişirtmə, yaxud "yalana bənzəyən doğru" amili kimi yox, cəmiyyətdən qaçma, ona etiraz, xoşbəxtliyi, asudəliyi təbiətin qoynunda tapma, vəhşi heyvanların insanlardan insaflı, daha rəhmli və ədalətli olması faktı kimi baxırıq. Və mühit, zaman – fərd qarşıdırmasında fərdin, Məcnunun faciəsinin əsil səbəblərini Nizami qələmində realistcəsinə anlaya bilirik. Nizaminin təbirincə zamanından tez doğulan, zamanın fövqünə yüksələn, ancaq fatalist dindar qədər də dərk edilməyən Məcnunun qalxdığı zirvədən feodal düşüncənin əlilə aşağıya yuvarlanmasından aldığı zərbənin gücü də əlbəttə ki, qalxdığı zirvənin hündürlüyü ilə mütənasib olmalı idi. Zaman Məcnunu qəbul etmirdi və qəbul edə də bilməzdi, o zaman üçün hamının gözü qarşısında böyük təhlükə idi. Çünki, böyük alman şairi, mütəfəkkiri Hötenin 2010-cu ildə Bakıda çap edilmiş "Seçilmiş əsərləri"ndə [15, 43] Məcnun surəti ilə əlaqəli qeyd edildiyi kimi: "Məcnun gül üçün büllur güldan idi, Nizami isə onda palıd tumu əkmişdi": Şübhəsiz ki, palıd tumu vazanı boy verib sındıracağı kimi, Məcnunun da zamanın, mühitin sığındığı çərçivəni artıq sındırmaqda olduğunu hiss edən feodalların təşvişi başadüşülən idi...Və belə bir ciddi təhlükəyə qarşı müqavimətsiz qalmaq sadəlövhlük olardı.

Həmçinin, vurğulamağa dəyər ki, "Hötenin Şərq, o cümlədən Azərbaycan mədəniyyətinə yaxınlığı, onu mütərəqqi bəşəriyyətin digər dühaları ilə yanaşı bizə çox sevdirir. Onun Gəncənin adını çəkməsi (şübhəsiz ki, Nizami ilə bağlı)..tariximizə aid bəzi fikirləri, Şimali və Cənubi Azərbaycanın coğrafi mövqeyini gözəl bilməsi, nəhayət, böyük Azərbaycan şairi Nizamiyə hətta ayrıca şeir həsr edib, "Ey Nizami, yaxşı ki, çirmələyib qolunu, doğru – dürüst göstərdin böyük sənət yolunu", – deyə [15,17] onun özündən sonra gələn sənətkarlara böyük sənətin yolunu göstərməsinə, gələcək həqiqi ədəbiyyatın yaradılmasında onlar üçün yardımçı, örnək ola biləcək

möhtəşəm əsərlər yaratmasına işarə etməsi və Nizamini "Şairlər şahı" adlandırıb verdiyi misilsiz qiymət ədibin xalqımıza bəslədiyi dərin hörmət hissinin ifadəsidir".

İ.Filiştinski yazırdı: "Şərqdə Leyla və Məcnunun faciəli sevgi tarixi, Avropada "Tristana və İzolda", "Romeo və Cülyetta"nın sevgi tarixlərindən heç də az məşhur deyildi"[14,72]. Müəllifin bu qeydi bizə Nizaminin "Leyli və Məcnun" poemasının Avropada da tanınması barədə müəyyən qədər əsas verir. Belə ki şairin poemasındakı bəzi motivlərin Şekspirin yuxarıda adı çəkilən faciəsindəki motivlərlə səsləşməsi bu haqda söykəndiyimiz əsası daha da gücləndirir. Ümumdünya ədəbiyyatına, o cümlədən Azərbaycan ədəbiyyatına Nizaminin timsalında müraciət edib, onun təsiri ilə müəyyən əsərlər yazmasının Höte üçün mümkünlüyü Şekspir, yaxud digər Avropa korifeyləri üçün niyə də olmasın?

Əlbəttə, Höte kimi bir Avropa və Qərb təəssübkeşinin Nizami haqqında olduqca yüksək fikir söyləməsi, üstəlik şeir həsr etməsi, onu "Şairlərin şahı" adlandırması sıradan bir tərif deyildir. Bu, Avropa, Qərb düşüncəsinin Nizami dühası qarşısında böyük heyranlığının göstəricisi idi.

Gəncəli "Şairlər şahı"nın dili türk (Azərbaycan) dili, yaradıcılığı da möhtəşəm "türkanə söz"ün ölməz sənət nümunələridir. Axsitan sifarişində "Torkane soxən səzaye ma nist" yazmaqla onun doğma dilinə kinayəli, rəzil münasibət bəsləmişdi. Lakin böyük söz xəzinəsinə sahib şair ruhdan düşmədi, farsca yazsa da yazdığını öncədən türkcə düşündü və misilsiz "Leyli və Məcnun" poeması ilə bir daha "torkane soxən"in varlıq, şeir-sənət qüdrətini bütün dünyaya sübut etdi. Məhz, "türkanə söz"lə Nizami sivil dünya ədəbiyyatlarının diqqətini özündən başqa digər Azərbaycan korifey sənətkarlarının söz məxəzlərinə istiqamətləndirə bildi. Onun əsərləri böyük bir xalqın ədəbiyyatını, incəsənətini, mədəniyyətini, humanizmini, demokratizmini Avropaya, Qərbə tanıtdırmaqla ölkələrarası mənəvi körpü rolunu oynamış oldu. Bütün bu uğurların, əlaqələrin fövqündə duran isə böyük hərflərlə yazılası və Nizaminin "bayraqlaşan qələm"inin ucunda ildırımtək səslənən, ətrafı-cahanı işıqlandıran həmin – "Türkanə söz" idi:

Nəfəsimin ildırımı uca səsli zəngə bənzər,
Bayraqlaşan qələmimin sancıldığı yer- cahandır. [16,61]

"Türkanə söz"ün misilsiz ustadı Nizami bu beytdə öz qüdrətli poeziyası ilə bütün dünyanı fəth etdiyini bildirir. Heç bir fateh bütünlüklə dünyanı fəth edə bilmədi. Nizami isə bir söz fatehi kimi bunu bacardı. Əslində – "bayraqlaşan qələminin sancıldığı yer – cahan" üzərində bu, Nizaminin yox, "Türkanə söz"ün fatehliyi idi...

İstifadə edilmiş ədəbiyyat

1. N.Gəncəvi.Leyli və Məcnun. Yazıçı, Bakı, 1982, 303 s.
2. X.Yusifli. Şərqdə intibah və Nizami Gəncəvi.Yazıçı, Bakı, 1982, 200 s.
3. Müasir Azərbaycan ədəbiyyatı.Bakı Universiteti nəşriyyatı, Bakı, 2007,504 s.
4. F.Qasımzadə.XIX əsr Azərbaycan ədəbiyyatı tarixi.Maarif, Bakı, 1974,488 s.
5. M.Cəfər. Klassiklərimiz haqqında. Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı, Bakı, 1948, 94 s.
6. Azadə R. Nizami Gəncəvi. "Elm" nəşriyyatı, Bakı, 1980, 74 s.
7. N.Gəncəvi.İskəndərnamə. Yazıçı, Bakı, 1982, 688 s.
8. X.Yusifli. Nizaminin lirikası.Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, Bakı, 1968, 274 s.
9. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti. Maarif, Bakı, 1981, 280 s.
10. Ə.Səfərli. Divan ədəbiyyatı sözlüyü. Elm və təhsil, Bakı, 2015, 704 s.
11. H.Araslı. N.Gəncəvi.Sirlər xəzinəsi. Filoloji tərcümə. "Elm" nəşriyyatı, Bakı, 1981, 248 s.
12. Azərbaycan ədəbiyyatı tarixi. I cild, "Elm" nəşriyyatı, Bakı, 1960, 572 s.
13. M.Füzuli. Leyli və Məcnun. Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı, Bakı, 1958, 294 s.
14. Arabskaya poeziya srednix vekov. "Xudojestvennaya literatura", Moskva, 1975, 768 s.
15. E.Səfərli. Sonet janrı və Azərbaycan soneti. Elm və təhsil, Bakı, 2014, 380 s.
16. Nizami. Lirika. Sirlər xəzinəsi. Şərəfnamə.Yazıçı, Bakı, 1988, 621 s.

ELSHAD SAFARLI

THE INCOMPARABLE MASTER OF "TORKANE SOKHAN"

SUMMARY

The article examines the humanistic, human lyricism and ideological and content, artistic features of the immortal "Khamsa" of the great master of words, thinker and poet Nizami Ganjavi in the scientific and theoretical aspect and comments on existing opinions. In research and analytical work, attention is drawn to the theoretical problems of this heritage, which makes an invaluable contribution to the world revival and progressive literary treasures of civilized countries. In the context of extensive research, a special view is shown on some controversial issues of this type of innovative creativity, some errors in research, translation, distortion of

semantic content in certain sources, translated publications, textbooks and teaching aids are explained and justified in the context of comparison.

Translations made by a number of poets and translators at different times have re-analyzed the subject, differences in explanations, inappropriate deviations from the original, and raised the issue of the quality advantage of some modern translation publications.

The reasons for the negligence in the study, publication and promotion of Nizami's legacy in Azerbaijani literary criticism have long been clarified, and it was noted that some of our researchers of the twentieth century demonstrated a biased, superficial approach to this legacy.

The unscientific, unsubstantiated views of some European bourgeois orientalists, especially V. Bacher and others, on the work of Nizami are examined.
The inconsistency of the views of the Panirans on the introduction of the tendency of appropriating Nizami by separating it from the national context in relation to the linguistic factor is confirmed by objective facts that such attempts are ridiculous and artificial.

The article pays special attention to the linguistic problem and argues that the "Turkic word" has irreplaceable opportunities for gaining world fame for the heritage of Nizami, to reveal all the secrets of art, artistic thought in all layers as an important condition for the success of this work.

ЭЛШАД САФАРЛИ

РЕЗЮМЕ

НЕСРАВНЕННЫЙ МАСТЕР "ТОРКАНЕ СОХАН"

В статье рассматриваются гуманистический, человеческий лиризм и идейно-содержательный, художественные особенности бессмертной «Хамсы» великого мастера слова, мыслителя и поэта Низами Гянджеви в научно-теоретическом аспекте и комментируются существующие мнения. В исследовательски-аналитической работе обращается внимание на теоретические проблемы этого наследия, которое вносит неоценимый вклад в мировое возрождение и прогрессивные литературные сокровища цивилизованных стран. В контексте обширных исследований демонстрируются особый взгляд на некоторые спорные вопросы этого типа инновационного творчества, некоторые ошибки исследования, перевода, искажения семантического содержания в определенных источниках, переводческих публикациях, учебниках и учебных пособиях объясняются и обосновываются в контексте сравнения.

Переводы, выполненные рядом поэтов и переводчиков в разное время, повторно проанализировали предмет, различия в объяснениях, несоответствующие отклонения от оригинала и затронули проблему качественного преимущества некоторых современных переводческих публикаций.

Причины небрежного отношения к изучению, публикации и продвижению наследия Низами в азербайджанской литературной критике давно выяснены, и было отмечено, что некоторые из наших исследователей XX века продемонстрировали необъективный, поверхностный подход к этому наследию.

Рассмотрены ненаучные, необоснованные взгляды некоторых европейских буржуазных востоковедов, особенно В. Бахера и др., на творчество Низами.

Несостоятельность взглядов паниранцев на введение тенденции присвоения Низами путем отделения его от национального контекста по отношению к языковому фактору подтверждается объективными фактами, что такие попытки смехотворны и искусственны.

В статье уделяется особое внимание языковой проблеме и утверждается, что «тюркское слово» имеет незаменимые возможности для снискания мировой известности наследию Низами, раскрыть все секреты искусства, художественной мысли во всех слоях как важное условие успеха этой работы.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Tərlan Novruzov tərəfindən çapa tövsiyə olunmuşdur

SƏBİNƏ ƏHMƏDOVA
Əlyazmalar İnstitutu Farsdilli əlyazmalar şöbəsi
filologiya üzrə fəlsəfə doktoru, böyük elmi işçi
ehmedova3@mail.ru
İSTİQLALİYYAT KÜÇ., 26

AZƏRBAYCAN ƏDƏBİ MÜHİTİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ:ƏNƏNƏ VƏ NOVATORLUQ (XIX əsrin sonu, XX əsrin əvvəlləri)

XÜLASƏ

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində qabaqcıl ziyalılarımızın mətbuatdakı çıxışları nə qədər güclü olsa da, xalqın əksəriyyəti savadsız olduğu üçün dostları ilə düşmənlərini tanımaqda, ağla-qaranı seçməkdə çətinlik çəkir, bəzən ətraflarında baş verən hadisələr haqqında düzgün təsəvvürə gələ bilmirdilər. Lakin xalq arasında sevilən, məşhur bir şairin baş verən hadisələr haqqında və onların baş verdiyi barədə düzgün təsəvvür oyatmaqdan ötrü yeni yazdığı şeiri, hətta oxuyub yazmağı bacarmayan insanın gözünü açır, ona ağı-qaradan, dostu-düşməndən seçməyi öyrədir, bir sözlə onu maarifləndirirdi.

Həmin dövrlərdə tək Bakı ədəbi mühitinin deyil, Azərbayctanın bütün bölgələrində toplanan ədəbi məclislərin iştirakçılarının qarşılarına qoyduqları məqsəd başda Mövlanə Füzuli olmaqla sələflərinin ənənələrini davam etdirməklə yanaşı xalqa gerçəkləri, həqiqətləri anlatmaq, onu riyakar düşmənlərin fellərindən xilas olmaq üçün ayıq olmağa çağırmaq, eyni zamanda xalqı hürriyyətə, istiqlala, azadlığa səsləmək idi. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühitinin yeni təmayüllərlə formalaşmasında ədəbi məclislərin rolu böyükdür. Bu ədəbi birliklərdə təmsil olunan şair və yazıçılar Azərbaycan ədəbiyyatını orijinal üslub, yeni məzmun və ideya ilə zənginləşdirirdilər. Bu dövrdə Azərbaycan ictimai fikrinin yeni meyar və ənənələrlə inkişafına böyük töhfə verən "Füyuzat ədəbi məktəbi"nin görkəmli nümayəndələri Ə. Hüseynzadə, F.B.Köçərli, H.Cavid, C.Cabbarlı, Ə.Cavad, Ü.Hacıbəyli, S.Hüseyn, Y.V.Çəmənzəminli, Ə.Müznib, Əmin Abid, Məşədi Azər Haşım bəy Saqib, Səməd Mənsur, M.Ə.Rəsulzadə, Mirzə Əbdülxalıq Cənnəti türkçülük, islamçılıq, müasirlik ideologiyalarını təbliğ edirdilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində fəaliyyət göstərən "Məcməüs-şüəra", "Yaşıl qələmlər" cəmiyyəti "Türk ocağı"nda dövrün mətbuat orqanları "Füyuzat","Molla Nəsrəddin", "Bəsirət", "İqbal" kimi qəzet və jurnallarında çoxsaylı nümunələr dərc edilmiş, Azərbaycan ədəbi prosesinin inkişafı ardıcıl izlənmişdir.

Açar sözlər: poema, şeir, poeziya, ədəbi məclis, türkçülük, vətənpərvərlik

Giriş: Yaxşı şeir xalqı maarifləndirmək üçün ən güclü vasitədir. Çünki şeir rəvan, axıcıdırsa, dərin mənalarla, canlı mənzərələrlə əhatə olunarsa, oxucunun dərhal yaddaşına həkk olur, eyni zamanda ruhuna, psixologiyasına müsbət təsirini göstərir və bununla yanaşı, onu maarifləndirir.

XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində qabaqcıl ziyalılarımızın mətbuatdakı çıxışları nə qədər güclü olsa da, xalqın əksəriyyəti savadsız olduğu üçün dostları ilə düşmənlərini tanımaqda, ağla-qaranı seçməkdə çətinlik çəkir, bəzən ətraflarında baş verən hadisələr haqqında düzgün təsəvvürə gələ bilmirdilər. Lakin xalq arasında sevilən, bir şairin baş verən hadisələr, bu hadisələrin hansı səbəbdən baş verdiyi barədə düzgün təsəvvür oyatmaqdan ötrü yeni yazdığı şeir, hətta oxuyub yazmağı bacarmayan insanın gözünü açır, ona ağı-qaradan, dostu-düşməndən seçməyi öyrədir, bir sözlə onu maarifləndirirdi. Həmin dövrlərdə tək Bakı ədəbi mühitinin deyil, Azərbaycanın bütün bölgələrində toplanan ədəbi məclislərin iştirakçılarının qarşılarına qoyduqları məqsəd başda Mövlanə Füzuli olmaqla, sələflərinin ənənələrini davam etdirməklə yanaşı xalqa gerçəkləri, həqiqətləri anlatmaq, onu riyakar düşmənlərin fellərindən xilas olmaq üçün ayıq olmağa çağırmaq, eyni zamanda xalqı hürriyyətə, istiqlala, azadlığa səsləmək idi.

Əlyazmalar İnstitutunda Fraqment-795 şifri altında Əlabbas Müznibin əlyazmaları saxlanır. Bu əlyazmalarda "Məcməüş-Şüəra"nın iştirakçılarından biri Mirzə Mikayıl Seydi haqqında geniş məqalə və şairin müxtəlif mətbuat orqanlarından toplanmış şeirləri vardır.

Mikayıl Seydi dövrünün əksər şairləri kimi xalqı maarifləndirən əsərlər yazırdı və onun yaradıcılığının böyük bir qolunu istiqlal şeirləri təşkil edirdi:

Qaşın kimi qələmim işkbarə and olsun,
O lövhi-hüsndə xətti əyyarə and olsun.

Nə zar olubdu dilim cövri-müstəbidərdən,
Düşübdü bəstərə cismi-nəzarə and olsun.

Kəmalın olmasa, açmaz cəmali-hüriyyət,
Kəmalı-Həzrəti-Pərvərdigara and olsun.

Urulsa-tiri-cəfa, üzmərəm vətəndən əlim,
Vətən yolunda dili-dağdarə and olsun.

Ənusi-münisin olmuş vətən və hüriyyət,
Olarladır dirilik həşri-çarə and olsun.

Vətəndi rövzeyi-rizvan, vətəndi huriyi-qılman,
Vətən çölündə təni-laləzarə and olsun.

Vətənpərəst kibi bir Seydiyi-fələkzadəyəm,
Vətən yolunda çəkən ah-zarə and olsun.

Təvəkkülət Əli elmə ilə Seydi, sanma naqis kim,
Olar bir gün kamalilə tapar ikmal hürriyyət. (1.səh.43-44)

"Məcməüş-şüəra"nın iştirakçılarının hamısı təbii ki, füyuzatçı mətbuat orqanlarının ictimai-siyasi mövqeyi ədəbi məktəbi təmsil edən orqanları "İrşad", "Təzə həyat", "Yeni həyat" "Yeni füyuzat", "Tərəqqi", "Həqiqət", "İttifaq", "Şəlalə", "Dirilik", "İqbal", "Açıq söz", "Bəsirət", "Qurtuluş" və başqaları da iştirak etmirdilər, lakin onlar məslək, əqidəcə xalqı rus istilasından, erməni zəhərindən xilas eləyib İslam-türk bayrağı altında birləşdirmək istəyən böyük mütəfəkkir, tənqidçi, yazıçı, publisist, şair, rəssam, ictimai və siyasi xadim Əli bəy Hüseynzadə ilə bir idilər və çox gözəl anlayırdılar ki, xalqı yalnız İslam ehkamlarını, İslam dəyərlərini, İslam əxlaqını əziz tutmaq, yeddi-arxa dönənini tanımaq irəli apara bilər. Odur ki, yaradıcılıqlarının böyük bir hissəsini məhz bu mövzuya aid edirdilər. Bu səbəbdən, türkçülük ideyalarının təbliği də ön planda idi və Bakı şairləri türkçülüyü bədii nidalarla əlvan naxışlarla lövhələndirirdilər:

Gəldi livayi-səltənətilə cəhanə türk,
Verdi nişan bəlalı qaşın asimanə türk.

Etdi rəvaqi-noh fələki səltənətnişin,
Əsgərligə nücumu çəkib mahiranə türk.

Bir gün Müniri Əhriməni surə döndərir,
Təng eyləyir bu mülki-Süleymani anə türk.(2.səh.35)

Şairin böyük türk haqqındakı yüksək fikirləri, ifadələri təkcə yaşadığı dövrdə deyil, indiki zamanla da çox uzlaşır. Türkiyə mehmedciklərinin və Azərbaycan əsgərlərinin öz şücaətləri, rəşadətləri, qəhrəmanlıqları ilə bütün dünyanı heyrətə salması Münirinin bədii tutumu çox inandırıcı olan şeirinin sanki elə indiki zaman aid olduğu özünü parlaq şəkildə göstərir. Sanki şair "Türk olmaq zor, çünki dünya ilə savaşır, türk olmamaq daha zor, çünki türklə savaşır",-misilsiz zərb-misalını poetik lövhələrlə oxucuya təqdim edir. Bu da Bakı şairlərinin xalq təfəkküründə formalaşan milli istiqlal ideyasının bir sıra elementlərlə zənginləşmiş füyuzatçıların ideya-estetik mövqelərini dəstəklədiyini, onlarla bir sinifdən, bir firqədən oplduğunu açıq-aşkar sübuta yetirir.

Cəfər Cabbarlı Bakıda doğulmamışdı, lakin az yaşlı bir çocuq, daha doğrusu, üç yaşında valideynləri ilə Bakıya köçmüş və ömrünün sonuna qədər Bakıda yaşamışdır. Ədib "Məcməüş-şüəra"nın üzvü deyildi, lakin onun "Məcməüş-

şüəra”nın gənc nəsli ilə dostluğu, yaşlı nəslinin dövri mətbuatdakı şeirlərini mütaliə eləməsi, hələ çox gənc ikən Məhəmməd Əmin Rəsulzadənin 1915-ci ildən buraxdığı türkçülüyü təbliğ edən “Açıq söz” qəzetində M.B.Məmmədzadə, S.Hüseyn, Ə.Cavad kimi vətənpərvər ziyalılarla birlikdə çıxışlarına, eyni zamanda cəmisi on yeddi-on səkkiz yaşlarında ikən türkçülük ideyalarına dərin məhəbbətinin ifadə nümunəsi olaraq “Trablis müharibəsi” və “Ədirnənin fəthi” kimi sanballı dram əsərləri yazmasına səbəb olmuşdu. Təsadüfi deyildi ki, 1920-ci ildə 11-cı qırmızı ordu Bakını işğal edərək “Azərbaycan Xalq Demokratik Cümhuriyyəti”ni devirən günü C.Cabbarlı M.B.Məmmədzadə ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin tapşırığı ilə “Gənc müsavatçılar” hərəkatını yaratdılar və qeyri-leqal olaraq “İstiqlal” qəzetini nəşr etdirməyə başladılar. Lakin 1923-cü ildə təşkilatın bir sıra üzvüləri ilə birlikdə C.Cabbarlı da həbs edilib “Рaлaч» ləqəbli Pankratovun “Gizli şöbə”sinə gətirib iki ay işcəncələr veriləndən sonra azad edildi. Ədib “Al bayraq” şeirini Azərbaycanın üç rəngli bayrağını türkçülüyün, İslamın, azadlığın rəmzi kimi heyrətamiz bədii təsvir vasitələri ilə qələmə almışdır:

“Bu ay, yıldız boyaların qurultayı nə demək?
Bircə böylə söyləmək:
Bu göy boya, göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya İslamlığın sarsılmayan imanı.
Ürəklərə dolmalı!
Şu al boya azadlığın sarsılmayan fərmanı,
Mədəniyyət bulmalı!
Səkkiz uclu şu yıldız da səkkiz hərfli Od yurdu.
Əsarətin gecəsindən fürsət bulmuş quş kimi
Səhralara uçmuşdur.
Şu hilal da türk bilgisi, türkün sevgi nişanı,
Yurdumuzu qucmuşdur.”(3.səh.151-152)

Çox əfsuslar olsun ki, C.Cabbarlının bu müəzzəm şeirdə göstərdiyi intəhasız sevinci bir neçə ildən sonra intəhasız pərişanlıqla əvəz olundu. Lakin, yuxarıda qeyd olunduğu kimi ədib öz pərişanlığını, məyusluğunu, qəddar Şura hökumətinə qarşı narazılığını bildirə bilmədi, əksinə totalitar rejimin zəhərli qılıncı altında Şura hökumətini tərifləməli oldu, Azərbaycan xalqının kökünü kəsmək istəyən mənfur ermənilərlə xalqının dostluğundan bəhs edən dram əsərləri yazmağa məcbur oldu.

Əmin Abidi (Gültəkin) isə qəddar quruluş əyə bilməmişdi və o bu üzdəniraq quruluşa, onun törətdiyi ylırtıcılığlara narazıçılığını hüzünlü lövhələrlə, gövrək mənzərələrlə bəyan edirdi:

Ağla güzəl gelin, güneşin soldu,
Gurubun hüznüne karışsın rengin.
Yarının kabrine şimdi tac oldu,
Düşünde başına konan çelengin.

Göz yaşlarınla in hər gün sahile,
Bağrı kanla dolan Hazerle derddeş,
Dalğalar üzgündür min iniltiyle,
Ağlayan denize sen de ol bhir eş.

Ey güzəl elleri kınalı gelin,
O taze yüregi yaralı gelin.(4.səh.54)

Yuxarıda qeyd olunduğu kimi, "Füyuzat ədəbi məktəbi" xalqın xilasını türkçülükdə, turançılıqda görür və rus, fars və başqa təcavüzkar xalqların buxovlarından azad olmaqdan ötrü türkçülük ideyalarının təbliğini, eyni zamanda tarixi gerçəkləri olduğu kimi göstərməyi vacib sayırdı. Tədqiqatçı alim Şamil Vəliyev (Körpülü) haqlı olaraq, ədəbiyyatımızın bir sıra unudulmuş və qaranlıq səhifələrini araşdırmaqdan ötrü məhz "Füyuzat ədəbi məktəbi"ni öyrənməyi vacib sayır:

"Füyuzat"çı müəlliflər sırasına H.Vəzirov, S.E.İbrahimov, Əhməd Midhət Rüfətov, M.Ə.Rəsulzadə, Ə.Müznib, X.X.Səbribəyzadə, A.Səfvət, Ə.Səbur, Ə.Cənnəti, S.Zərgər, M.Azər, H.S.Səyyah, S.Mənsur, R.Zaki və başqalarını mətbuat orqanları sırasına isə "Qurtuluş", Yeni qurtuluş", "Lisan", "Səda", "Sədayi-Həqq", "Sədayi-Vətən", "Övraqi-nəfisə", "Açıq söz", "İqbal" və başqalarını artırsaq füyuzatçı ədəbi-estetik platformasını tanıdan qüvvələri təxminən müəyyənləşdirmək olar."(5.səh.117)

Yuxarıda deyildiyi kimi "Məcməüş-şüəra"nın üzvlərinin füyuzatçılarla, füyuzatçıların isə tək Türkiyənin deyil, bütün türk xalqlarının, o cümlədən Azərbaycanın bənzərsiz istiqlal şairi "Sıratıl-müstəqim"çi (Allahın hidayət etdiyi yolla gedən) Mehmed Akif Ərsoyun ümumtürk hissiyyatı, ümumtürk düşüncəsi ilə sədalanan nəfis şeirlərinin ədəbi-estetik ideyaları ilə çox uyğun gəlir və şairin Çanaqqala şəhidlərinə aid etdiyi poemadan bir hissəyə nəzər yetirmək füyuzatçılarla qırılmaz tellərlə bağlı olduğunu açıq-aşkar göstərir:

Şühəda gövdəsi bir baksana dağlar, taşlar,
O ruku olmasa dünyada əyilməz başlar.
Yaralanmış temiz alnından uzanmış yatıyor,
Bir hilal uğruna ya Rəbb, ne günəşlər batıyor.
Ey bu topraqlar için toprağa düşmüş asger,
Gökdən ecdad inərək öpse o pak alnı deyər.
Ne böyüksün kü, kanın kurtarıyor Tevhidi,

Bədrin asalanları ancak bu kadar şanlı idi.
Sana dar gəlməyəcək makbəri kimlər qazsın?
"Gömərim gəl seni tarihə!" desəm, sığmazsın.
Ey şehid oğlu şehid, isteme bəndən makbər,
Sana ağuşunu açmış duruyor Peyğəmbər. (6.səh.5)

Mehmed Akif Ərsoy bu poemanı 1915-ci ildə Çanaqqala uğrunda gedən döyüşlərdə şəhid olan 250 min əsgərin əziz ruhlarına həsr etmişdir. Onu da qeyd edək bu 250 min türk əsgərinin arasında Türkiyə torpaqlarının düşmən caynağından xilas olmağı uğrunda türk qardaşlarının köməyinə gedən xeyli azərbaycanlı əsgərlər də olmuşdur. Misilsiz istiqlal şairi bu heyrətamiz əsərdə şəhidlərin Uca Allah yanında nə qədər böyük məqamda olduğunu oxucunu həyəcanlandıran, ruhunu ehtizaza gətirən, həm hüznləndirən, kövrəldən, həm də qürurlandıran valehedici təşbihlərlə, olduqca canlı poetik mənzərələrlə bir sinema lenti kimi göz önünə gətirir. Burada şair şəhidlərin yüksək məqamda, peyğəmbərlərin yanında olduğunu cəzbedici, məftunedici olduqca güclü bədii ifadə vasitələri ilə göstərməklə yanaşı, həm də özünün bir sənətkar kimi hansı yüksəklikdə dayandığını bəyan edir.

"Məcməüş-şüəra"nın fəal üzvlərindən Əlipaşa Səbur həm də füyuzatçı idi və tez-tez "Yeni füyuzat" jurnalında vətən haqqında romantik şeirlərlə çıxış edirdi:

"Ah! İstibdad ilə məhv oldu əbnayi-vətən,
Soldu badi-zülm ilə kaşəndə-şövqi yasəmən!
...Tarmar oldu yazıq! Axır müqəddəs əncümən,
Ah! İstibdad ilə məhv oldu əbnayi-vətən!
...Könlümü yıxdı fəna mülkündə mövqeyi-iztirab,
Ay közüm qan ağla! Şurayi-vətən oldu xərab.
Nasiri qəm mülkünə aləmdə sultan intixab
Etdilər... Əfsus! Olmaz bir rdəm azadi-məhən
Ah! İstibdad ilə məhv oldu əbnayi-vətən." (7.səh.7)

Bilavasitə artıq əsrlərdir fars şovinizminin riyakarlığı nəticəsində Azərbaycan türklərinin məngənəyə salınmış ədəbiyyatını xilas edərək azad bir ədəbiyyata çevirmək uğrunda da füyuzatçılar mübarizə aparırdılar və bu barədə hələ 1913-cü ildə Məhəmməd Əmin Rəsulzadə Türkiyədə olarkən "Türk yurdu" qəzetindəki silsilə məqalələrində bu mövqedə çıxış edirdi:

"Hər nə qədər İran tərbiyəsi alan türk ürəfa və üdəbası və yazıb-oxumaq bilən sinfin "xəvvas" təbir edilən qismi məhdudi fars ədəbiyyatının qədim mənəviyyatından hissiyatı-zövq alsalar da, xəvvasın bu təmayülü, əvamən kəndi bükuindən doğma bir ədəbiyyata olan ehtiyacını təskin edəməmişdir. Lisani-farsidən rumuzati-əmiqəyi-ədəbiyyəsinə əql irdirəcək qədər kəsbi-səvad edəmiyən bir əksəriyyət vardır ki, nə Ömər Xəyyamı, nə Firdovsiyi, nə Hafizi, nə də Sədiyi anlaya bilərdi. Sonra İran məmaliki-şərqiyyədəndir: Demək ki, əhalinin əksəriyyəti cahildir,

oxuyub-yazmaq bilməz. İranda bir kəlmə farsi bj ilməyən kilitli türklər vardır. Təbii bunların da kəndilərinə məxsus ədəbiyyatı olacaqdır. Əlhasil farsi ədəbiyyatı hər nə qədər İran türklərinin xəvvasını bədi etmişsə və əvam qismini milli bir ədəbiyyat edilmək ehtiyaci-təbiisindən müstəqni edəməmişdir. İştə İran türk demokrasinin bu ehtiyacı, İran türk ədəbiyyatını meydana gətirmiş və milli şairlərin zuhurana səbəbiyyət v ermişdir."(8.səh.671)

Yuxarıda qeyd edildiyi kimi, "Məcməüş-şüəra"nın bir sıra üzvləri "Füyuzat ədəbi məktəbi"nin mətbu orqanlarında vətənpərvərlik, türkçülük, həmrəylik ideyaları altında çıxışlar edir, məqalələr, şeirlər yazırdılar.

Sovetlər dönəmində Azərbaycan xalqının türk olmadığını sübuta yetirməkdən ötrü yalançı tarixlər uydurur, ələlxüsus da ədəbiyyat tarixmizi təhrif edərək başqa şəklə salırdılar. Lakin sosializm ideologiyası yanıb külə dönəndən, qəddar rejim parçalanandan sonra bir çox gerçəklər, həqiqətlər üzə çıxdı ki, onlardan biri və ən əsası Azərbaycan xalqının bir türk xalqı olduğu, ədəbiyyatının da ümumtürk ədəbiyyatının bir qolu olduğu bəyan edildi.

Məsələ buraslındadır ki, türkçülük və islamçılıq ideyaları hələ 1300 ildən yuxarı bir müddətdə təkcə Azərbaycan türklərinin deyil, ümumtürk ədəbiyyatının ana kitabı sayılan Dədə Qorqud eposunun yaranması ilə meydana çıxmışdı. Dədə Qorqud eposu türk xalqlarının əsrlər boyu yaratdıqları zəngin dünyagörüşünün aynası idi. Bu möhtəşəm abidə eyni zamanda ümumdünya dini olan İslam dininin ideologiyasına əsaslanırdı və ideya-estetik dəyərlərə dayanaraq türk millətinin nəcib sifətlərini, yüksək mənəvi keyfiyyətini bəyan edirdi.

Azərbaycan poeziyası başqa türk xalqlarının poeziyası kimi müqəddəs Qurani-Kərimdən qaynaqlanaraq əsasən "Bəlağət" elminin bədii-ədəbi dil üslubuna, poetik və təxəyyül kateqoriyalarına, fəsahətinə, məna və söz gözəlliklərinə, eyni zamanda bədii ifadə vasitələrinə əsaslanırdı.

Məlumdur ki, müqəddəs Qurani-Kərimin mübarək ayələrində məna içində məna vardır. Klassik şairlərimizin hər biri müqəddəs Qurani-Kərimi öz həyat kitabı etdikləri üçün mütəşabih ayələri oxuyub dərk eləyir, zaman-zaman bir hafizə çevrilir və və Quran hikmətlərinin, Quran möcüzələrinin işığında öz bədii irslərinin sütunlarını qururdular.

XIX əsrin ikinci yarısındakı iqtisadi yüksəliş ədəbiyyatımızda yeni mərhələ yaratdısa, XX əsrin əvvəllərində bu mərhələ günəş kimi şəfəqlər saçıb Azərbaycan xalqının istiqlalına işıqlı yollar açdı. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının ideya mənbələri bütün aydınlığı ilə meydana çıxdı. Lakin romantizm nümayəndələri haqlı olaraq türkçülüyə, islamçılığa meyl etsələr də, sinfi mübarizə adı ilə xalqı çar əsarətindən qurtarıb bolşevizm zəncirləri ilə bağlamaq istəyənlər yalnız küfrdən və Allaha üsyandan ibarət bir ədəbiyyat yaratdılar.

Məsələ burasında idi ki, xalqı bolşevizm uçurumuna sürükləyənlər ateizmə, materializmə, marksizmə, darvinizmə əsaslansalar da, Leninin könüllü kölələri olmasına baxmayaraq rus ədəbiyyatının bədii ideyalarını qəbul eləmir, rus dahiləri

Puşkinə, Lermantova, Dostoyevskiyə, Tolstoya rişxəndlə baxıb məsxərəyə qoyurdular. Türkçülüyə, islamçılığa meyil göstərən romantiklərimiz isə, o cümlədən Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cavad, Məhəmməd Hadi, Abbas Səhhət, Əlabbas Müznib, Gültəkin, C.Cabbarlı və başqaları yaradıcıqlarında Şərq ənənələrini daşımaqla, həm rus ədəbiyyatının, həm qərb ədəbiyyatının ideyalarını, mövzularını, janrlarını milli ədəbi-bədii ideyalar, mövzular, janrlarla birlikdə həmahəng istifadə edirdilər. Təbii ki, bu da öz növbəsində Azərbaycan ədəbiyyatının inkişafına güclü təkan verirdi.

1915-ci ildən etibarən Azərbaycanda təlatümlü hadisələr əvvəlkilərdən daha çox baş verməyə başladı. Osmanlı dövlətinə xəyanət etmiş erməni Andronik Ozanyan türk əsgərlətinin qabağından qaçarkən 25 minlik erməni ordusuyla Anadoluda 600 köyü, Naxçıvan və Zəngəzur ərazisində 500 kəndi yandırıb viran etdi və Naxçıvan, Zəngəzur ərazisində 35 min insanımızı vəhşicəsinə, insanlığa sığmayan üsullarla qətlə yetirdi. Həmin il təzə başlarkən rus-erməni hərbi birləşmələri Ərzurum, Qars, Ərdəhan və Sarıqamışda yüz min insan öldürdülər və yüz min insanı da əsir edib, türklərə dəhşətli dərəcədə nifrət və kin bəslədikləri üçün, o ərazilərdə yaşayan mülkü əhalinin o cümlədən qadınları, qız-gəlinləri, körpə və yeniyetmə uşaqları, qocaları əsir edərək türk əsgərləri ilə birlikdə heyvanlara məxsus vaqonlara doldurub Qori, Aleksandropola, Tiflis, Rostov, Tamburq, Krosnayarosk, İrkutsk, Sibirin Otlaq, Çoxluma, Noryevski, Açinski, Skotov, Stovropol, Moykov, Moskva, Nijni-Novqorod, Petroqrad və Riç adasına, bir sözlə Rusiyanın müxtəlif bölgələrinə, ölüm düşərgələrinə, bir hissəsini isə Bakınınon kilometrliyində Zığ kəndinin təxminən on iki kilometrliyində yerləşən Nargin adasına gətirdilər. Nargin adasına təxminən on min əsir gətirilmişdi ki, bunların yarısından çoxu qadınlar, çocuqlar və yaşlı insanlar idi. Çar çinovnikləri və erməni cəlladları bu əsirləri sınıq-salxaq soyuq baraklarda ac-susuz saxlayır, onlara tükürpədən işgəncələr verirdilər. Bura guya əsirlərə tibbi yardım göstərmək üçün məhz erməni həkimlər dəstəsi göndərilmişdi ki, onlar əsirlərə tibbi yardım etmək əvəzinə insanlığa sığmayan işgəncələr verir, onları soyuq suda saxlayır, dəmir çilinglə döyür, başlarına mismar çalır, sinələrinə dağ basırdılar. Hərbi düşərgənin böyüyü polkovnik Poltarapski isə bütün bunlara nəinki göz yumur, əksinə böyük ləzzət alıb erməni həkimlərə buna görə xoş sözlər deyirdi. Bundan xəbər tutan Bakının müsəlman əhalisi buna etiraz əlaməti olaraq nümayişlər keçirən zaman çar məmurları tərəfindən döyülür, həbsə salınırdı. 1917-ci ilin oktyabrında bolşeviklər hakimiyyətə gəldi. "Bakı Soveti"ndə məsul vəzifədə çalışan Nəriman Nərimanov qətiyyət və əzmkarlıq göstərib Nargin adasında sağ qalmış əsirləri dərhal ordan xilas eləyib Hacı Zeynalabdin Tağıyevin yeni inşa etdirdiyi beşmərtəbəli iri binaya yerləşdirdi və burada onların sağalıb şəfa tapması üçün Bakının müsəlman əhalisinin köməyilə hər cür şərait yaratdı. N.Nərimanov bundan sonra da Azərbaycanın müsəlman əhalisinin xoşbəxliyi, rifahı, səadəti üçün əlindən gələni eləməyə başladı. Lakin o, tək idi, onun ətrafında olan "müəslman bolşeviklər" onun kimi xalqın qayğısına qalmaq fikrində deyildilər. 1918-ci ildən Bakı Xalq

Soveti Komissarları adlanan təşkilatda Nərimanovdan başqa bir neçə müəslman olsa da, onlar vətənpərvərlik ruhunda deyil, ermənipərəslik ruhunda fəaliyyət göstərirdilər və bu da 1918-ci ilin martında Azərbaycan xalqının daşnak-bolşevik neofaşist hərbi birləşmələri tərəfindən vəhşicəsinə qətliamına səbəb oldu. Bu dəfə N.Nərimanovla əks cəbhədə dayanan M.Ə.Rəsulzadə heyrətamiz əzmkarlıq göstərib Tiflisə gedərək dörd müsəlman partiyasının iştirakı ilə qurultay çağırdı və may ayının 28-də Azərbaycan Xalq Demokratik Cümhuriyyəti elan etdi. Lakin Azərbaycan işğal altında idi və Məhəmməd Əmin bəy Anadoluya gedərək Osmanlı hökümətindən bunun qarşısını almaqdan ötrü hərbi yardım istədi. Osmanlı dövləti onun istəyini nəzərə alıb təlim görmüş səksən faiz Anadolu türklərindən, iyirmi faiz Azərbaycan türklərindən ibarət güclü bir heyət toplayaraq başlarında Nuru paşa və Qarabəkir paşa olmaqla "Qafqaz İslam Ordusu" yaradıb Azərbaycanı işğaldan xilas eləməkdən ötrü göndərdi. Qafqaz İslam Ordusunun qəhrəman əsgərləri üç ay ərzində Azərbaycanı bütünlüklə kafir birləşmələrindən, erməni daşnaklardan, erməni bolşeviklərdən, erməni emissarlardan, ruslardan, ingilislərdən, ingilis kölələri hindlilərdən, satqın cənublulardan, kazaklardan xilas elədi.

Təbii ki, bütün bunlar ədəbiyyatdan, mətbuatdan kənarda qala bilməzdi və xalqın qeyrətli oğulları bütün bu hadisələri əsərlərində, məqalələrində, çıxışlarında ayna kimi əks etdirirdilər. Bu illər ərzində Azərbaycanda ədəbiyyatın vəzifəsi əsasən vətənpərvərliyi, türkçülüyü, cümhuriyyətçiliyi tərənnüm etmək, eyni zamanda baş verən hadisələrin səbəblərini, Azərbaycan və türk xalqına düşmən kəsilmiş dəstələrin, qrupların, birləşmələrin, siniflərin, millətlərin başında dayanan insanları və neqativ qüvvələri tanıtmaqdan ibarət idi.

Bu ərəfədə F.B.Köçərli, H.Cavid, C.Cabbarlı, Ə.Cavad, Ü.Hacıbəyli, S.Hüseyn, Y.V.Çəmənzəminli, Ə.Müznib, Əmin Abid, Məşədi Azər Haşım bəy Saqib, Səməd Mənsur, M.Ə.Rəsulzadə, Mirzə Əbdülxalıq Cənnəti, Mizrəəbdül Xalıq Yusif, Seyid Zərgər, Ağadadaş Münitri və s. kimi mütəffəkkirlərin əsərlərində Azərbaycanın təqdisi uğrunda mübarizə ön plana çıxmışdı. Azərbaycan Demokratik Xalq Cümhuriyyəti dövründə "Yaşıl qələm", "Qırmızı qələmlər" adlı yaradıcılıq cəmiyyətləri yarandı. Həmin dövrdə "Füyuzat ədəbi məktəbi"nin bir orqanı olan "Bəsirət" qəzetinin bir elanında belə bir yazı var idi:

"Pəncşənbə günü iyul ayının 6-da ədib və mühərrir cəmiyyətinin iclası vaqe oldu. Cəmiyyətin sədri Hacı İbrahim Qasımov cənabları təzə demokratik üsulu üzərinə təşkil ediləcək milli təşkilat komitəsində altı nəfər mühərrirlərə yer verildiyini bəyan olunan altı nəfərin intixabını məcalisə təklif edir. Bu barədə bir qədər danışdıqdan sonra örtülü səs ilə zildəki şəxslər intixab edildilər; Məhəmməd Əmin Rəsulzadə, Oruc Orucov, Hacı İbrahim Qasımov, Seyid Hüseyn Sadiq, Ceyhun bəy Hacıbəyov, Əli Paşa Hüseynzadə."(9.)

"Yaşıl qələm" cəmiyyətinin "yaşıl" adı ilə bağlılığı, ilk növbədə yaşıl rəngin İslam dininin rəngi olması, İslam bayrağının yaşıl rəngdə olması, eyni zamanda yaşıl rəngin bir bahar ruhunda torpağın oyanaraq hər tərəfin yaşaıl libasa bürünməsi, hər

tərəfə yeni bir həyat, yeni bir abi-həyat gəlməsi ilə bağlı idi. Çünki bu cəmiyyətin bütün üzvləri Azərbaycan xalqının düşmənlərinə, erməni daşnaklara, Leninin köləsinə çevrilən bolşeviklərə və başqa düşmənlərə qarşı mübarizə aparır, xalqın başının üstündə maarif məşəlləri yandırırdı. O ərəfədə Azərbaycanın ən tanınmış, ən məşhur mühərrirləri Əli bəy Hüseynzadə, Qarabəy Qarabəyov, Əhmədbəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə və onlar kimi qabaqcıl ziyalılar Azərbaycan xalqının milli-mənəvi intihabının yüksəlişi üçün əllərindən gələni edirdilər. "Yaşıl qələm" cəmiyyətinin üzvüləri xalqın bütün problemlərini bir-birinə xəbər verməkdən və imkan daxilində həll eləməkdən ötrü 1920-ci ilin martında bazar ertəsi səhər saat yeddidə "Türk ocağı"nda (Haşımovun mülkündə) möhtəşəm bir iclas təşkil eləmişdilər. İclasa bu mühərrirlər və ədiblər dəvət olunmuşdu:

1.Məhəmməd Əmin R:əsulzadə. 2.Maarif naziri Həmid bəy Şaxtaxtlı. 3.Nurməhəmməd Şahsuvarov. 4.Doktor Həsən bəy Ağayev. 5.Şəfi bəy Rüstəmbəyov. 6.Əhməd Cövdət Pepinov. 7.Ömər Faiq Nemənzadə. 8.Hadi Atlasi. 9.Hüseyn Sadiq. 10.Əhməd Həmdi. 11.Üzeyirbəy Hacıbəyov. 12.Şəfiqə xanım Əfəndizadə. 13.Şəfiqə xanım Qasprinskaya. 14.Səlimə xanım Yaqubova. 15.Xəlil İbrahim. 16.Qədir Heydərov. 17.Məhəmmədbəyli Hüseyn Rza. 19.Mirzə Sadıq Axundzadə. 20.Əbdülvahab Məhəmmədzadə. 21.Fərhad Ağayev. 22.Bəhri Mürsəlzadə. 23.Xudadad Əzizbəyli. 24.Hacı İbrahim Qasımov. 25.Mirzə Məhəmməd Axundzadə. 26.Əli Əjdər. 27.Osman Qantəmir. 28.Rəhim Vəkilov. 29.Məhəmməd ağa Şaxtaxtlı. 30.Məhəmmədəli Rəsulzadə. 31.Mustafa bəy Əlibəyov. 32.Mirabbas Mirbağırzadə. 33.Hüseyn Mirzə Camalov. 34.Məhəmməd Ağaoğlu. 35.Əbdürrəhim bəy Haqverdiyev. 36. Nəcəf bəy Vəzirov. 37.Həbib Babazadə. 38.Hacıağa Nuruzadə. 39.Qafur Rəşad. 40.Ağa Əli Qasımov. 41.Mahmudbəy Mahmudbəyov. 42.Əhməd Bədii. 43.Əli Rza. 44.Rza Zaki. 45.Rza Təhmasib. 46.Mircəfər Mircavadov.

Şairlər;

1.Salman Mümtaz. 2.Hüseyn Cavid. 3.Abdulla Şaiq. 4.Mirzə Əbdülxalıq Yusif. 5.Mirzə Əbdülxalıq cənnəti. 6.Cavad Axundzadə (Əhməd Cavad) 7.Əli Abbas Müznib. 8.Feyzulla Sacid. 9.Doktor Pəşid Sərpa. 10.İsabəy Aşurbəyli Həqqi. 11.Syid Zərgər. 12.Cəfər Cabbarlı. 13.Əli Şövqi. 14.Moirhəsən Münsif. 15.Əlipaşa Hüseynzadə. 16.Miridvaldin. 17.Ağadadaş Müniri. 18.Mirzə Əbndülxalıq Ziya. 19.Məşədi Azər. 20.Əli Məhzun. 21.Niyazi. 22.Əli Dai. 23.Ricai. 24.Mürşid. 25.Əli Razi. 26.Mehdi bəy Hüsni. 27.Səməd Mənsur. 28.Abdulla bəy Əfəndizadə Zövqi. 29.Nemət Bəsir. 30.İbrahim Tahir Musazadə. 31.Yusif Kənan. 32.Bəhram bəy Fədai. 33.Mirzə İbrahim Fəna. 34.Haşım bəy Saqib və sair."(10.)

Əli bəy Hüseynzadə tərəfindən meydana atılmış vətənpərvərlik, türkçülük, islamçılıq ideyalarının estetik prinsipləri, eyni zamanda türklük dəyərlərinin araşdırılması prinsipləri türk ədəbiyyatı və mənəviyyatının tarixi spesifikasının yenidən şərh olunması tələbi 1910-cu ildən etibarən Azərbaycanın bütün mədəni-ədəbi hərəkatında özünü göstərməyə başladı və yuxarıda adları çəkilən mühərrirlərin

və şairlərin də bu hərəkatda əzmkar fəaliyyəti bu inkişafa işıq sürətilə təkan verdi ki, bu mühərrirlərin, şairlərin əksəriyyəti məhz Bakı ədəbi mühitinin yetişdirməsi, yarıdan çoxu isə "Məcməüş-şüəra"nın üzvləri idi.

Çox əfsuslar olsun ki, xalqa yağlı vədlər verən bolşeviklər ikinci dəfə hakimiyyətə gələn ərəfədə, daha doğrusu, Leninin tapşırığı ilə 11-ci qırmızı ordu Azərbaycanı işğal eləyən gündən tarixi abidələrimizi, səcdəgahlarımızı, ibadətgahlarımızı dağıtmağa başladığı kimi, milli məfkurəmizə qarşı mübarizə aparmağa başladı. Azərbaycan xalqı bir türk milləti olmasına baxmayaraq milli dəyərləri məhv eləməkdən ötrü türkçülük millətçilik hesab olunmağa, zatən ədəbiyyatımızda milli mövzulara, ideyalara yer vermək qadağan olunmağa, islamçılıq inkar edilməyə, onun mənəvi-əxlaqi imkanlarından imtina edilməyə güclü kompaniyalar başladı. Məsələ burasında idi ki, cumhuriyyət zamanında ruslara, ermənilərə yaltaq mövqeydə olduqları üçün ədəbiyyat meydanından kənarlaşdırılan vətən xainləri üzdəniraq Şura hökuməti hakimiyyəti ələ alandan sonra bu kompaniyalarda canla-başla iştirak etməyə, eyni zamanda Azərbaycana istiqlal bəxş eləyən insanlardan qisas almağa başladılar.

Bundan sonra isə ədəbiyyatımız ateizm ideologiyasının öldürücü zəhərinin təsiri ilə rəngdən-rəngə, şəkildən-şəklə düşməyə başladı. "Məcməüş-şüəra"nın ən fəal üzvlərindən biri Səməd Mənsur 1926-cı ildə qələmə aldığı "Həpsi rəngidir" şeiri bolşevik donuna girmiş şeytanların iç üzünü zəngin poetik lövhələrlə, sözaltı ifadələrlə, mətnaltı gedişlərlə, olduqca peşəkarcasına vücuda gətirir:

"Uyma ey rədil, xəlqdə yoxdur sədaqət, rəngdir,
Məscidi-meyxanə rəng, eyşü-ibadət rəngdir.
Mey riya, məşuqə gəş, hüsnü-vəcahət rəngdir,
Rəngdir hər dürlü matəm, hər məsərrət rəngdir,
Anla ey əbnayi-xilqət, cümlə-xilqət rəngdir.
Görmədim bir zərri-xalis büteyi-nasütdə,
Bigərəz insan olur görmək tabutdə,
Bilməzəm varmı sədaqət aləmi-lahutdə,
Azma fikrim, cümlə-ecazü kəramət rəngdir. (11.səh.111-112)

Nəticə:XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühitinin yeni təmayüllərlə formalaşmasında ədəbi məclislərin rolu böyükdür. Bu ədəbi birliklərdə təmsil olunan şair və yazıçılar Azərbaycan ədəbiyyatını orijinal üslub, yeni məzmun və ideya ilə zənginləşdirirdilər. Bu dövrdə Azərbaycan ictimai fikrinin yeni meyar və ənənələrlə inkişafına böyük töhfə verən "Füyuzat ədəbi məktəbi"nin görkəmli nümayəndələri Ə. Hüseynzadə, F.B.Köçərli, H.Cavid, C.Cabbarlı, Ə.Cavad, Ü.Hacıbəyli, S.Hüseyn, Y.V.Çəmənzəminli, Ə.Müznib, Əmin Abid, Məşədi Azər Haşım bəy Saqib, Səməd Mənsur, M.Ə.Rəsulzadə, Mirzə Əbdülxalıq Cənnəti türkçülük, islamçılıq, müasirlik ideologiyalarını təbliğ edirdilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində fəaliyyət göstərən "Məcməüs-şüəra", "Yaşıl qələmlər" cəmiyyəti "Türk ocağı"nda dövrün mətbuat orqanları "Füyuzat","Molla Nəsrəddin", "Bəsirət", "İqbal" kimi qəzet və jurnallarında çoxsaylı nümunələr dərc edilmiş, Azərbaycan ədəbi prosesinin inkişafı ardıcıl izlənmişdir.

Ədəbiyyat:

1.Sona Xəyal "Əlaiabbas Müznib Bakı və bakılı şairlər haqqında" Elmi redaktor: f.e.d.prof Azadə Musayeva. Bakı,"Nurlan"-2003,səh. 43-44.
2.Mirzə Ağadadaş Müniri "Əsərlər" AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnsitutu. Nəşrə hazırlayanı və ön söz müəllifi Sona Xəyal. Bakı-2018.səh 35.
3. Cəfər Cabbarlı. "Ədirnə fəthi" (Toplayanı, tərtib edəni, ön sözün və şərhlərin müəllifi filologiya elmləri namizədi Asif Rüstəmli) Bakı,"Elm",1998. səh 151-152.
4. Gültekin Əmin Abid. "Buzlu cəhənnəm" Tərtib edəni və ön söz müəllifi Əli Şamil. Bakı,"Günəş" nəşriyyatı, 1999. səh.54
5. Şamil Vəliyev (Körpülü) "Füyuzat Ədəbi Məktəbi" Bakı-"Elm"-1999. səh 117.
6. Mehmet Akif Ersoy. "Osmanlı ədəbiyyatı cədidəsindən" "Şəlalə" 2 noyabr 1993. №39. səh 5.
7. Əlipaşa Səbur. "Ah Vətən" //"Yeni Füyuzat" jurnalı 1910-cu il №2, səh 7.
8. M.Ə.Rəsulzadə. "İran türkləri" //"Türk yurdu" jurnalı II cild. RƏİ. DM. 2650. İnventar №247, səh.671.
9. Ədib və mühərrirlər cəmiyyətində "Bəsirət" qəzeti № 157 8 iyul. 1917-ci il.
10. Yaşıl qələm "Azərbaycan" qəzeti № 54. 15 mart, 1920-ci il).
11. Səməd Mənsur "Əsərlər" AMEA Məhəmməd Füzuli adına Əlyzamalar İnstitutu. Nəşrə hazırlayanı və ön sözün müəllifi: Sona Xəyal. Bakı,"Nurlan",-2008. səh 111-112. (835 şifrəli, 284 şifrəli, 293 şifrəli qovluqlarda, B3552 şifrəli üç şagird dəftəri həcmində avtoqraf, C348 şifrəli qovluqda Ə.Müznibin xətti ilə yazılmış əsərlər və S.Mənsur haqqında qısa məlumat vardır).

САБИНА АХМЕДОВА

СПЕЦИФИКА АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЫ: ТРАДИЦИЯ И НОВАТОРСТВО.
(конец XIX , начало XX века)
РЕЗЮМЕ

Во второй половине XIX - начале XX века, выступления наших ведущих интеллектуалов в прессе какими бы сильными были , большинство людей были неграмотными и с трудом узнавали своих друзей и врагов,испытывает трудности с выбором между правильным и неправильным,иногда они не могли получить четкого представления о том, что происходило вокруг них. Однако

новое стихотворение, написанное популярным поэтом, чтобы дать правильное представление о событиях и их причинах, открывает глаза человеку, который даже не умеет читать и писать, учит его выбирать между черным и белым, другом и врагом, одним словом просветили его. В то время не только литературная общественность Баку, но и участники литературных сборищ во всех регионах Азербайджана, поставили перед собой цель продолжить традиции своих предшественников, особенно Мевланы Физули, рассказать людям факты, призвать их к бдительности, чтобы избавиться от действий лицемерных врагов , в то же время он должен был призвать людей к свободе и независимости .

Велика роль литературных партий в формировании азербайджанской литературной среды с новыми веяниями в конце XIX, начале XX веков. Поэты и писатели, представленные в этих литературных объединениях, обогатили азербайджанскую литературу своим оригинальным стилем, новым содержанием и идеями. В этот период видные представители «литературной школы Фуюзат» внесли большой вклад в формирование общественного мнения в Азербайджане по новым критериям и традициям. А.Гусейнзаде, Ф. Кочарлы, Г. Джавид, Дж. Джаббарлы, А. Джавад, У. Гаджибейли, С. Гусейн, Ю. Чаманзаминли, А. Музниб, Амин Абид, Мешади Азер Хашим бек Сахиб, Самед Мансур, М.А. идеологии тюркизма, исламизма и современности.

В конце XIX - начале XX века «Маджмаус- щуара », общество «Зеленые ручки», «Турецкий очаг» публиковали многочисленные примеры в газетах и журналах, таких как «Фуюзат», «Молла Насреддин», «Басират», «Икбал» , последовательно отслеживалось развитие азербайджанского литературного процесса.

Ключевые слова: поэма, стихотворение, поэзия, литературное вечеринка, тюркизм, патриотизм.

SABINA AKHMEDOVA

SPECIFICITY OF AZERBAIJANI LITERARY ENVIRONMENT: TRADITION AND INNOVATION
(the end of XIX , beginig of XX century)

SUMMARY

In the second half of XIX , begining of XX century, performances by our leading intellectuals in the press no matter how strong , the most people were illiterate and hardly recognized their friends and enemies, had difficulty choosing between right and wrong, sometimes they couldn't get a clear idea of what was happening around them. However, a new poem, written by a popular poet in order to give a correct idea of events , and their causes, opens eyes of person , who doesn't even know, how to read and write, teaches him to choose between black and white, friend and enemy, in one word , was enlightened . At that time, not only the literary

community of Baku, but also the participants of literary gatherings in all regions of Azerbaijan, set themselves the goal of continuing the traditions of their predecessors, especially Mevlana Fizuli, telling people the facts, calling them to be vigilant in order to get rid of the actions of hypocritical enemies, while at the same time he had to call people to freedom , independence and liberty .

Role of literary parties on formation of Azerbaijani literary environment with new trends at the end of XIX , the begining XX centuries is great. Poets and writers represented in these literary associations have enriched Azerbaijani literature with their original style, new content and ideas. During this period, prominent representatives of the "Fuyuzat literary school" made a great contribution to the developing of public opinion in Azerbaijan with new criteria and traditions. A.Huseynzade, F.B. Kocharli, G. Javid, J. Jabbarli, A. Javad, U. Hajibeyli, S. Huseyn, Y. Chamanzaminli, A. Muznib, Amin Abid, Mashadi Azer Hashim bey Sahib, Samed Mansur, M.A.Rasulzade, Mirza Abdulhalig Jannati promoted the ideologies of Turkism, Islamism and modernity.

At the end of XIX - in the begining XX century, "Majmaus-shuara", the society "Green Pens", "Turkish Ochag" published numerous examples in newspapers and magazines such as "Fuyuzat", "Molla Nasreddin", "Basirat", "Iqbal ", developing of Azerbaijani literary process was consistently monitored.

Key words: poem, poecy , poetry, literary party, Turkism, patriotism

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: akademik Teymur Kərimli
tərəfindən çapa tövsiyə olunmuşdur

RASİM SALMAN OĞLU HÜSEYNOV
Fil.ü.f.d.
AMEA Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutu
Beynəlxalq Əlaqələr Şöbəsi
r.huseynov.80@mail.ru

ANADOLU TÜRK TƏSƏVVÜF ƏDƏBİYYATI (XIII-XIV ƏSRLƏR)

Anadoluda təsəvvüf ədəbiyyatının tarixi ilə məşğul olan bütün tədqiqatçılar belə bir yekdil fikrə gəlmişlər ki, sözügedən ədəbiyyatın sözügedən coğrafiyada təşəkkülü Səlcuqluların hakimiyyəti illərinə təsadüf edir. Bunun səbəbi kimi isə bir yandan Səlcuqlu hökmdarlarının öz siyasətlərində sufi şeyx və dərvişlərinə verdikləri önəm, o biri yandan isə çox sayda sufi şeyx və dərvişinin tatar hücumlarından xilas ola bilmək üçün Orta Asiya, Xorasan və Azərbaycanı tərk edərək Anadoluya yerləşmək məcburiyyətində qalması göstərilir. Bu səbəbdən də Anadoluda Türk təsəvvüf ədəbiyyatının ilk böyük nümayəndələrinin məhz XIII əsrdə ortaya çıxdıqları xüsusi olaraq vurğulanır (Köprülü F., 1976, s. 339-340; Banarlı, 1971, s. 307).

Beləcə Anadoluda yerli türk və türkmən xalqı arasında təkkələr vasitəsiylə özünəməxsus bir "sufi hayatı" başlamış, bu hayatın ədəbi məhsulları istər dil, istərsə də vəzn, forma və söyləniş tərzi baxımından daha çox milli olan dini-təsəvvüfi Türk ədəbiyyatının doğmasına təkan vermişdir. Bu ədəbiyyatın şirin xalq dilində qələmə alınmış olması onun sadə xalq tərəfindən sevilərək yayğınlaşmasını təmin etmiş, bu da öz növbəsində Anadoluda ədəbi dilin formalaşmasında önəmli rol oynamışdır.

Bütün bu deyilənlərlə yanaşı qeyd edilməlidir ki, həmin əsrdə "sirr-i hikmət" mənzuməsi çərçivəsində yeni bir fəlsəfi-ədəbi cərəyan da ortaya çıxmış və Mövlanə Cəlaləddin Rumi, Əhməd Fəqih, Şəyyad Həmzə, Sultan Vələd, Hacı Bektaş Vəli, Yunus Əmrə həmin cərəyanın Anadoludakı ən parlaq təmsilçiləri olmuşlar. Onlar olduqları bütün bölgələrdə öz düşüncə və duyğularıyla Anadolu xalqına fikir, ədəb-ərkan və əxlaq baxımından böyük təsir edmişlər (Şapolyo E., 1964, s. 64).

Qaynağını "Yəsəvilik" təriqətindən alan bu cərəyan və ədəbiyyat ədəbiyyatşünaslıq tarixinə "dini-təsəvvüfi Türk ədəbiyyatı" kimi düşüb. Onun Anadoludakı ən qüvvətli təmsilçisi Yunus Əmrədir. O, Anadoluda türkcə şeirin banilərindən biri (Yunus Emre.., 2015) hesab edilir. 1991-ci ildə UNESCO tərəfindən 750 illik yubileyi qeyd olunan (UNESCO.., 2015) bu böyük ədibin özündən sonra bir şerlər divanı yadigar qoyub getdiyi məlumdur (Yunus Emre Divanı, 1998). Divanının dövrümüzədək Fateh, Nuruosmaniyə, Yəhya Əfəndi, Qəhraman (Qaraman?), Balıkəsir, Niyazi Misri və Bursa nüsxələri yetişib. Ora daxil edilmiş şerlər heca və əruz vəznlərindədir (İbrahim Agah Çubukçu, 1996).

Bir sıra alimlər Yunus Əmrənin şerlərindən birinə sonradan əlavə edildiyi sanılan aşağıdakı mialara istinadən onun hicri 707-ci ildə (1307-1308) vəfat etdiyi qənaətindədirlər:

Sözə tarix yeddi yüz yeddi idi,

Yunus canı bu yolda fidiidi (Ospanova G., 2016, s. 139).

Şairin həmin il məsnəvi tərzində "Risalət ün-Nüshiyyə" adlı bir nəsihətnamə də yazdığı bilinməkdədir. Əsərin ən kamil nüsxəsi hesab edilən Fateh nüsxəsi 563 beytdən ibarətdir.

Yunus Əmrə və ailəsinin Anadoluya nə zaman və haradan gəlib yerleştiyi barədə heç bir məlumat yoxdur. Bununla belə, ailəsinin Anadoluya Orta Asiyadan gəldiyi, əkinçiliklə məşğul olduğu fikri qəbul edilməkdədir (Köprülü F., 1976, s. 226; Tekindağ M., 1971, s. 59; Banarlı, 1971, s. 328). Belə hesab edilir ki, şair Anadoluda təfsir, hədis, kəlam, təsəvvüf kimi İslami elmlər sahəsində yaxşı bir təhsil almış, əruzla şeir yaza biləcək qədər ədəbi bilgilərə vaqif olmuş, fars dilini Sədi Şirazinin qəzəlini türk dilinə çevirə biləcək qədər dərindən bilmişdir. Onun ərəb, fars və yunan əsatirlərinə də bələd olduğu söylənilir (Köprülü F., 1976, s. 231; Gölpınarlı A., 1948, s. 389; Abdurrahman Güzel, 1981, s. 18-19).

Yunus Əmrə ənənəsinin davamçılarından söz açan alimlər XIV əsrdə yaşayıb-yaratmış şairlərdən Səid Əmrə və Kayğusuz Abdalın adlarını ilk sıralarda çəkirlər. Bununla belə, Gülşəhri, Aşıq Paşa, Əflaki Dədə və Əlvan Çələbi kimi təsəvvüf şairlərinin də eyni dövrdə yaşayıb-yaratdıqları və eyni bulaqdan su içdikləri bilinməkdədir.

Adı çəkilən ədiblərdən Qayğusuz Abdal (?-1444) özündən sonra zəngin bir irs qoyub getmişdir ki, dövrümüzədək onun on yeddi min beytə çatan şeirləri və daha on yeddi əsəri yetişmişdir. Həmin əsərlərdən ən məşhurları aşağıdakılardır:

1. Divan
2. Saraynamə
3. Minbərnamə
4. Dilgüsa
5. Gövhərnamə
6. Budalanamə
7. Məsnəvi
8. Muqlatanamə
9. Əsrar-i Hüruf
10. Vücudnamə (Abdurrahman Güzel, 1981, s. 20-21).

Adını tarixə XIV əsr Anadolu təsəvvüf ədəbiyyatının ən görkəmli simalarından biri kimi həkk etdirməyi bacarmış Qayğusuz Abdalın həyatı haqqındakı biliklər ölümündən təxminən 150 il sonra qələmə alınan, müəllifi məlum olmayan "Mənaqibnamə"yə və şairin öz əsərlərindən əldə edilən bəzi nəticələrə əsaslanır. "Mənaqibnamə"də bildirilənlərdən Alanya sancağı bəyinin oğlu olduğu və əsil adının Əlaəddin olduğu aydınlaşır (İslam Ansiklopedisi, 2015, s. 74).

Didaktik janrda qələmə aldığı əsərlərində sadə və aydın bir dildən istifadə edən, incə və iynəli bir üsluba sahib olan, bəzi şeirlərində Yunus Əmrənin təsiri açıq-aydın hiss edilən Qayğusuz Abdal ömrünü sonlarına yaxın Misirə gedərək, orada Bektaşiliyi yaymaqla məşğul olmuş və ömrünü də elə həmin ölkədə başa vurmuşdur.

"Mənaqibnamə"yə görə, şair çox gözəl təhsil almış, zamanının maddi və mənəvi elmlərini öyrənmiş, bir ov sırasında, gözlərinə maral surətində görünən Abdal Musanın izinə düşmüş və sonunda Abdal Musa dərgahına çataraq, ona mürid olmuşdur. "Mənaqibnamə"də onun ailəsi, doğumu və uşaqlıq illəri haqqında dəqiq məlumatlara rast gəlmirik.

Abdal Musanın doğum və ölüm illəri məlum deyil. Elmi ədəbiyyatda möhkəmlənmiş fikrə görə, Anadolunun ünlü ərənlərindən və ermişlərindən sayılan Abdal Musa sultan, eyni zamanda tanınmış bir ozan və filosofdur. Əslən Xorasandan olduğu, oradan Güney Azərbaycanın Xoy şəhərinə gəldiyi və bir müddət orada yaşamış olması səbəbindən, "Xoylu" kimi tanındığı deyilir. Qayğusuz Musa mənqibəsinə görə, "Kösrə Musa" adıyla da anılmaqda olan bu şair Hacı Bəktaş Vəlinin əmisi Heydər Atanın oğlu, Həsən qazinin nəvəsidir, Xorasan ərənlərindən və Peygambər soyundandır. XIV yüzildə yaşadığı və Osmanlıların Bursanı fəthi illərində Orxan bəyin əskərləriylə savaşlara qatıldığı və böyük şücaət göstərdiyi məlumdur. O da məlumdur ki, Hacı Bəktaş Vəlinin öndə gələn xəlifələrindən olub. Payəsi sultanlıq, mərtəbəsi abdallıqdır. Pir evindəki xidmət postu (dərisi) isə, "Ayaqçı postudur. Bu post Bəktaşi təriqətindəki on iki postdan on birincisi olub, diğər adı Abdal Musa sultan postu"dur ki, bu da ayaqçılıq, abdallıq mərtəbəsi hesab olunur (Abdal Musa, 1988).

Abdal Musanın Almalı kəndindəki dərgahı, ilk Bəktaşilərin dörd böyük "Asitaneyi-Bəktaşiyan"ından biri idi. Onun Almalı ətrafında qurduğu təkkəsində saysız adamlar irşad etmiş və bunlar arasında böyük ozanlar yetişmişdir. Bunların ən məşhuru Qaygusuz Abdaldır.

Qayğusuz Abdalın aşağıdakı şeri sufilər arasında çox məşhurdur:

Bülbül isən gülşənə gəl,
Tavus isən bostanə gəl,
Bayquş isən virana var,
Murğab isən əmmanə gəl (Kaygusuz Abdal, 1989, s. 377).

XIV əsrdə yaşayıb-yaradan, yaradıcılığında Yunus Əmrə ənənələrinin izi hiss edilən sufi şairlərdən biri də Səid Əmrədir. Onun XIII əsrin sonları – XIV əsrin əvvəllərində yaşadığı, Hacı Bəktaş Vəlinin müridlərindən olduğu qəbul edilir. Həyatı haqqında bilgilər geniş ölçüdə "Mənaqıb-i Hacı Bektaş-i Vəli"dən qaynaqlanır. "Mənnaqib"ə görə əsil adı Molla Sadeddin olan Səid Əmrə, Hacı Bektaşi Vəli və Yunus Əmrənin yaşadığı dönəmdə yaşamış, əslən Aksaraylı olmuşdur. O, Hacı Bektaş Veli ilə tanış olmamışdan öncə Aksarayda 400 tələbəyə dərs deyər, hər il bu tələbələrindən bəzilərilə Qayseridə bir ərəni ziyarətə gedərdi. Bu səyahətlərdən birində Hacı Bektaş Vəlî ilə tanış olmuş, öncə onun fikirlərinə qarşı

çıxmış, lakin daha sonra kəramətlərindən təsirlənib ona könül vermiş və on səkkiz il xidmətində olmuşdur. Həmin dövrdə Hacı Bektaşın "Məqalət"ini türkcəyə tərcümə etmişdir (Manakıb-ı Hacı Bektâş-ı Velî, 1958, s. 55-63).

XIV əsrdə Anadoluda yaşayıb-yaradan şairlərdən biri də Gülşehri idi. Dövrünün ən önəmli şairlərindən biri olan Gülşəhrinin haqqında da əldə yetərincə məlumat yoxdur. Bilinən tək şey odur ki, dini elmlərlə yanaşı riyaziyyat və fəlsəfə ilə də maraqlanıb və bu sahələrdə də dərin bilgi sahibi olub. Onun qırşəhirdə mövləviliyi yaydığı və zaviyədə yaşadığı, ləqəbini də həmin döbradə adı Gülşıhir olan Qırşəhirdən aldığı bilinməkdədir. Əsərlərindən mütəsəvvif olduğu, Fəridəddin Əttar, Mövlanə Cəlaləddin Rumi və Sənai kimi tanınmış sufilərin təsiri altında olduğu anlaşılır. Ən çox da Əttarın təsirində olmuşdur. Bu onun öz əsas əsərini eynən sözügedən şairin əsərinin adı kimi Məntiq üt-Tayr" adlandırmasından da görünür. Bəziləri həmin əsəri Əttarın əsərinin tərcüməsi olduğunu iddia etsə də, mətnlərin müqayisəsi bunun belə olmadığını göstərir. Yəni bu halda söhbət tamamilə orijinal bir əsərdən gedir. Onun digər məşhur əsəri "Fələknamə" adlanır və Elxanlı hökmdarı Qazan xana ithaf edilib (Abdullah Özkan, 2014).

XIV əsrdə Anadoluda yaşayıb-yaradan şairlərdən Aşıq Paşa da Gülşəhri kimi kimi Qırşəhirdə doğulmuş və orada da vəfat etmişdir. Əsərlərini türk dilində yazmışdır. Təsəvvüf fəlsəfəsini yaymaq, dərvişliyi öyrətmək məqsədilə yazdığı "Qəribnamə"si on iki min beytdən ibarətdir. Əruzla yazılmış bu əsər didaktik mahiyyətdədir. Əsərində türk dilinin əhəmiyyətini xüsusi olaraq vurğulayan Aşıq Paşa Yunus İmrənin təsiri ilə bəzən heca, bəzən də əruzla ilahilər və qəzəllər də qələmə almışdır.

Aşıq Paşa türk dilinin inkişafında və yayılmasında böyük xidmətləri olan və türkcə şeirlər yazan ilk şairlərdəndir. 1272-ci ildə dünyaya gələn Aşıq Paşa tanınmış mütəsəvvüf Baba İlyasın nəvəsidir. Baba İlyas XIII əsrin əvvəllərində Orta Asiyadakı Xorasan bölgəsindən Anadoluya köçmüş, Qırşəhir və ətrafındakı türkmən oymaqlarının şeyxi olmuş, onlarla birlikdə Səlcuqlu sultanı II Keyxosrova qarşı təşkil olunan Babayi üsyanında iştirak etmişdir. Oğlu Müxlis Paşa Osman Qazinin güvəndiyi adamlardan idi. Qırşəhərdə yaşayan Müxlis Paşanın üç oğlundan ən böyüyü Əlaəddin Əli idi. Buna görə də Əlaəddin Əli "Baş ağa", yəni "ən böyük qardaş" olaraq tanınmışdır. Baş "ağa" adı zamanla "Beşə", sonra da Paşa şəklində söylənmiş, şeirlərində də "Paşa" təxəllüsündən istifadə etdiyi üçün əsl adı unudularaq Aşıq Paşa kimi tanınmışdır (Resimli Şairler.., 2003, s. 35-36).

Əldə olan məlumatlara görə, Aşıq Paşa din və təsəvvüfü Qırşəhirli Şeyx Süleymandan öyrənmiş, Osmanlı dövləti yeni qurulduğu illərdə atası ilə birlikdə Osman Qazinin yanında xidmət etmişdir. Sultan Orxan Osmanlı bəyliyində hakimiyyətdə olduğu illərdə Qırşəhirə geri qayıdaraq ata-baba yurdunda yaşamışdır. O, Qırşəhirdə Əxilik təriqətinin mürşidi olmuş, ətrafına toplanan Oğuz boylarına dostluq və qardaşlıq hisslərini aşılamış, onlarla türk dilində ünsiyyət qurmuş, şeirlərini birmənalı olaraq türkcə yazmışdır. Aşıq Paşa ətrafındakılarla türkcə

danışmaq, əsərlərini türkcə yazmaqla kifayətlənməmiş, eyni zamanda o vaxt dəbdə olan ərəb və fars dilləri qarşında türk dilinin qızğın müdafiəçisi olmuşdur.

Aşıq Paşanın ən məşhur əsəri türkcə yazdığı 12 000 beytlik "Qəribnamə"dir. Məsnəvi olaraq yazılan on fəsilli bu əsər dini nəsihətlərlə zəngin əxlaq kitabıdır. Onun əruz və heca vəznində yazılmış şeirləri, qəzəlləri, ilahiləri də vardır (Yavuz Kemal, 1999. s. 259-261).

Aşıq Paşa özü "Qəribnamə"də təxəllüsü barədə yazır ki, ledün elmində xocası olan Xızır peyğəmbər ona Aşıq adını vermişdir:

Ol kıgırdı bana Aşık adını

Ol biraktı canuma işk dadını (Aşık Paşa, 2000, s. 107).

Buradan aydın olur ki, Aşıq Paşa ilahi eşq şairidir. Onun həyatı, dünyagörüşü və əsərləri haqqında bizə qədər gəlib çatan əsas məlumatı oğlu Əlvan Çələbi şeirlə yazdığı "Mənaqib ül-Qüdsiyyə fi mənasıbii-ünsiyyə" adlı əsərində vermişdir. Əlvan Çələbi əsərində atası haqqında, onun təxəllüsü haqqında maraqlı məlumatlar verərək yazır ki, o, əxlaqı ilə könülləri ovlayan, yaxşılıq etməkdə hər zaman öndə olan biri idi. Allah eşqi (ilahi eşq) ilə yandığına görə Xızır peyğəmbər ona Aşıq adını vermişdi.

Əlvan Çələbiyə görə Aşıq Paşa ağıl, kəşif, seyr və kəramət sahibi idi. Hər zaman dilindən hikmət tökülürdü, ilahi elmlərlə aydınlandığından elm, əməl, ağıl və fərasət kimi dörd fəzilətə sahib idi (Erkoç Ethem, 2006, s. 262-267).

Təsəvvüf ədəbiyyatının böyük nümayəndələrindən biri də Əlvan Çələbidir. O, 1240-cı ildə Səlcuqlulara qarşı üsyan çıxaran Xorasan ərənlərindən Baba İlyasın soyundan olub Aşıq Əlaəddin Əli Paşanın oğludur. Qırşehirdə doğduğu məlum olsa da hansı ildə anadan olduğu bilinməz. Yüksək təsəvvüf təhsili almış, ərəbcə və farsca öyrənmiş, öz dövrünün məşhur mütəsəvvüfü kimi yetişmişdir. Daha sonralar Əlvan Çələbi atası Aşıq Paşanın icazəsi ilə Çoruma Tanunözü bəldəsinə (indiki Məcitözü ilşəsi Əlvançələbi bəldəsi) gəlmiş, orada yaşamış, fəaliyyət göstərmiş, təkkəsini qurmuş, insanları irşad etmiş və vəfat etdikdən sonra orada da dəfn olunmuşdur. Məzarı bu gün də insanların ziyarət yeridir (İsmayılzadə N., 2017, s. 46-47).

Əhməd Kabaklının yazdığına görə, Əlvan Çələbi böyük ehtimalla ulu babasının qurduğu vəfaiyyə təriqətinə mənsub olmuşdur. Əlvan Çələbi öz təkkəsində ilahi eşq, təsəvvüf, seyri süluk haqqında söhbətlər aparmış, fikirlərini əsərlərinə yansıtmışdır. Əlvan Çələbinin əsas əsəri "Mənakıbül kudsiyyə fi mənasıbii-ünsiyyə" olsa da ətvarı-süluka aid bir əsəri, bir neçə lirik şeiri də vardır. Ancaq bütün əsərlərində eşq mövzusu hər zaman aparıcı olmuşdur. Tədqiqatçı onun əsərlərində ilahi eşqin əsas mövzu olduğunu xüsusi olaraq qeyd etməkdədir (Kabaklı A., 2002, s. 357).

Əlvan Çələbinin ən məşhur əsərinin 1358-ci ildə tamamladığı "Mənaqib ül-Qüdsiyyə fi mənasıbii-Ünsiyyə" adlı türkcə yazdığı məsnəvisi olduğunu söyləyən N. İsmayılzadə yazır ki, "bu əsər məşhur ələvi şeyxi Dədə Qarkından başlamış Baba İlyas, Muhlis Paşa və başqaları haqqında da geniş məlumat verən mənkabədir. Ancaq

bu əsərdə şair daha çox atası Aşıq Paşa və onun müasirləri haqqında məlumat vermişdir. Əsər qəzəllərlə, qəsidələrlə, ilahilərlə bəzədilmiş, ilahi eşqin tərənnümü lirik ricətlərlə təqdim edilmişdir. Onun ilahi eşqə həsr edilmiş ayrıca şeirləri də vardır" (İsmayılzadə N., 2017, s. 47).

Əlvan Çələbi bir qəzəlində ilahi eşqi belə tərənnüm edir:

Bu cümlə nəsnəyə eşqdir bəhanə,
Bəhanə eşq u həm eşqdir bəhanə.
Bu eşq içində birdür cam u saqi,
Bu eşq içində birdür dəm u dəhanə.
Bu eşqdir qaili ləfzi Ənəl-Haqq,
Bu eşqdir qaili Mənsuriyanə (Kabaklı A., 2002, s. 357).

Bu misralardan da göründüyü kimi, ilahi eşq bir vəhdət vadisidir və o vadidə hər şey birdir və hər şeyin yaranma səbəbi eşq olduğu kimi hər şeyin nəticəsi də eşqdir. Bunu bir az fərqli şəkildə eşqin həm ilk aşiq, həm də ilk məşuq olduğu fikrində də görmək mümkündür. İlahi eşq həm də küll halında bütün varlıq aləminin özüdür. Eşq Zatın bir sifətidirsə demək var olmanın da əsas səbəbidir, Əlvan Çələbinin ifadəsi ilə bəhanəsidir.

N. İsmayılzadə bildirir ki, Əlvan Çələbiyə görə ilahi eşq təsəvvüfün təməli, əsas fikir sistemidir. Təsəvvüfdə qul Allaha yaxınlaşdıqca ilahi eşqin cazibəsinə qapılır, ilahi eşqin içində fəna-fillah olub yenidən bəqa-billah mərtəbəsində canlanır. Eşq aşiqi özünə elə bağlayır ki, eşq aşiqin özü, özü də eşq olur. "Əlvan Çələbi şeirlərində belə bir sual qoyur əgər eşq varsa aşiq hardadır, yox aşiq varsa bəs onda eşq hardadır. Demək ki, eşq də, aşiq də bir olmuş, o da, bu da və ya mənlik sənlik ortadan qalxmışdır, çünki Allah onu eşqin surətində, içini və çölünü də eşqin işığında aydınlatmışdır. Kamil insan bütövlükdə eşqlə yoğrulmuş varlığa çevrilmişdir. Bu eynilə Məcnunun səhrada olarkən anidən qolundan axan qanı görüb təəcüblənən atasına Məcnunun Leylanın qolundan neştərlə qan alındığını bildirmək üçün dediyi "Biz bir ruhuz iki bədəndə" fikrinə tam uyğun gəlir. Məcnun ikiliyin ortadan qalxdığını belə ifadə edir" (İsmayılzadə N., 2017, s. 48):

Gər mən mən isəm, nəsən sən ey yar?
Vər sən sən isən, nəyəm mən-i zar?
Eşq anı şöylə kəndüyə almış,
Kim bu eşq kəndü kəndü eşq olmuş?
Eşq isə, qanı aşiki-muxtar,
Aşiq isə, qanı bu eşqi-yar?
Eşq u məşuq u aşiq ol olmuş,
Ol u bu şol ortada ölmüş.
Qılmış anı Çalap müsəvvəri-eşq,
Zahirin batinin münəvvəri-eşq (Erkoç Ethem, 2006, s. 272).

Dövrün tanınmış şair və astronomlarından olan, daha çox "Əflaki Dədəd" adı ilə məşhur olan Əhməd Əflakinin həyatı haqqında da əlimizdə yetərli məlumat

yoxdur. Onun Qaramanoğulları dövründə yaşadığı, əslən Xorasanlı olduğu, Konyada Cəlaləddin Ruminin oğlu Sultan Vələdlə görüşdüyü, onun oğlu Arif Çələbidən dərs aldığı, 1360-cı ildə vəfat etdiyi, özünün vəsiyyətinə əsasən Mövləvi türbəsinin yaxınında dəfn edildiyi bilinməkdədir. Dövrümüzədək farsca qələmə aldığı "Mənaqib ül-Arifin" adlı əsəri yetişmişdir.

1318-ci ildə qələmə alınan və "Mənaqib ül-Arifîn və məratib ül-kaşifîn" adıyla şöhrət tapan, daha sonra, yəni 1353-cü ildə müəllif tərəfindən genişləndirilən bu əsər Cəlaləddin Rumiyə və mövləviliyə həsr edilmişdir. Əflaki Dədə bu əsərini yazarkən "Risale-i Fəridun Sipəhsalar", Sultan Vələdin "Vələdnamə"si, "Rəbabnamə", "İntihanamə və Maarif", Bahəddin Vələdin "Maarif"i , Şəms Təbrizinin "Məqalət" və Mövlanə Cəlaləddin Ruminin "Fihi mə fîh və Məktubat"ı kimi əsərlərdən ilham almışdır (Tahsin Yazıcı, 2004, s. 114).

Bütün bu deyilənləri ümumiləşdirsək, deyə bilərik ki, XII əsrdən Xoca Əhməd Yəsəvi ilə başlayan təsəvvüf ədəbiyyatı, Fuad Köprülünün də yazdığı kimi, tatarların hücumundan sonra Anadoluya köç edən Xorasan ərənlərinin fəaliyyətləri ilə XIII-XIV əsrlərdə böyük bir inkişaf yoluna qədəm qoydu. Anadoluda bu ədəbiyyatın ilk nümunələrini Orta Asiyadan gələn təsəvvüf əhli yazmış, daha sonralar Aşıq Paşa, Gülşehri, Abdal Musa, Qayğusuz Abdal, Səid Əmrə kimi sufi şairləri bu ədəbiyyatın əsas prinsiplərini işləyib hazırlamışlardır (Köprülü F.,2011,s.150-151).

Təsəvvüf fikir həyatımızı, düşüncə həyatımızı meydana gətirən bir məktəbdir.O, İslami bir hadisə olub bu və ya digər dərəcədə sosial ədalətsizliyə, dini fanatizmə qarşı çevrilmiş, həmçinin tərkidünyalığa əsaslanmaqla real həyatla zahirən bağlı olan fəlsəfi hərəkatdır.

Təsəvvüfün təfəkkür sisteminin ən mühüm ifadə vasitəsi ədəbiyyat olmuşdur.

Müsəlmanlar arasında təsəvvüf hərəkatı inkişaf edib yayıldıqdan sonra bunun ədəbiyatda da əks olması qaçınılmaz hal idi. İslamiyyət hər şey kimi, ədəbiyyat üzərində də şübhəsiz dərin bir təsir yaratmalıydı. İslam dininin qəbul etdiyi ədəbiyyat ilə təsəvvüf ədəbiyyatı eyni pillədədirlər. Təsəvvüf mənəvi, hiss, fikir və həyəcanları bəlli bir üslub və ədəb daxilində sətirlərə, misralara, sözə çevirmişdir.

Qaynaqça

1. Abdal Musa. TDV İslâm Ansiklopedisi, cilt 1, sayfa 64-65. 1988. 25 Ekim 2019 tarihinde kaynağından arşivlendi. Erişim tarihi: 7 Eylül 2019.
2. Abdullah Özkan. Cumhuriyetten Günümüze Türk Şiiri Antolojisi (5 Cilt). Ankara, 2014.
3. Abdurrahman Güzel, Kaygusuz Abdal, Ankara 1981, Kültür Bakanlıgı, Dogumunun 100. yılında Atatürk yayınları no: 29, XVI-343 s.
4. Aşık Paşa. Garib-name. Hazırlayan K.Yavuz. İstanbul, TDV Yayınları, 2000.
5. Banarlı N. Resimli Türk Edebiyatı Tarihi, İstanbul: Milli Eğitim Bakanlığı, Ankara, 1971. 754 s.

6. Erkoç Ethem. Aşık Paşa ve oğlu Elvan Çelebi, Çorum, 2006.
7. Gölpınarlı A. Yunus Emre Divanı, III, 1948.
8. İbrahim Agah Çubukçu. Yunus Emre ve Din Felsefesi. Ankara Üniversitesi Dergisi. 1996. Erişim tarihi: 11 Ocak 2014.
9. İslam Ansiklopedisi, Türkiye Diyanet Vakfı. Cilt: 25. 2015.
10. İsmayılzadə N. XIV əsrin dini-təsəvvüfi ədəbiyyatının nümayəndələri – Aşıq Paşa və oğlu Əlvan Çələbi – İslam mədəniyyəti kontekstində // Bakı Dövlət Universiteti İlahiyyat Fakultəsinin Elmi Məcmuəsi, 28 dekabr 2017, s. 43-50.
11. Kabaklı A. Türk Edebiyatı, C.2, İstanbul, Türk Edebiyatı Vakfı Yayınları, 2002.
12. Kaygusuz Abdal. Sarayname. Ankara, 1989.
13. Köprülü F. Türk Edebiyatında İlk Mutasavvıflar. Türk Tarih Kurumu Basım Evi, Ankara, 1976. 470 s.
14. Köprülü F. Türk Edebiyatı. Ankara, 2011.
15. Manakıb-ı Hacı Bektâş-ı Velî: Vilâyet-nâme (haz. Abdülbâki Gölpınarlı), İstanbul 1958, s. 55-64; ayrıca bk. hazırlayanın açıklamaları, s. 124-125.
16. Ospanova G. Yunus Emre Divanı'nda Ölümü Güzelleştiren İfadeler. Türk Dünyası 41. Sayı. Mayıs, 2016, s. 131-149.
17. Şapolyo E. Mezhepler ve Tarikatlar tarihi. Türkiye Yayın Evi, 1964. 497 s.
18. Resimli Şairler ve Yazarlar Sözlüğü. İstanbul: Erdem Yayınları. 2003.
19. Tahsin Yazıcı "Menâkıbü'l-Arifîn", DİA, c. 29, Ankara 2004.
20. Tekindağ M. Memlûk Sultanlığı Tarihine Toplu Bir Bakış // Dergi Park, 10 Haziran 2011.
21. UNESCO Genel Konferansları Tarafından İlan Edilen Anma ve Kutlama Yıldönümleri. unesco.org.tr. 2015-05-10 tarixində arxivləşdirilib (PDF). İstifadə tarixi: 05.10. 2015.
22. Yunus Emre Divanı, Ankara 1998, 790 s.
23. Yavuz Kemal. Âşık Paşa. Yaşamları ve Yapıtlarıyla Osmanlılar Ansiklopedisi. C. 1. İstanbul: Yapi Kredi Kültür Sanat Yayıncılık. 1999.
24. Yunus Emre Kimdir? meb.gov.tr. 2012.12. 05. 05. 10. 2015 tarixində arxivləşdirilib. İstifadə tarixi: 05. 10. 2015.

XÜLASƏ

Anadoluda təsəvvüf ədəbiyyatının təşəkkülü Səlcuqluların hakimiyyəti illərinə təsadüf edir. Həmin dövrdə Anadoluda yerli türk və türkmən xalqı arasında təkkələr vasitəsiylə özünəməxsus bir "sufi hayatı" başlamış, bu hayatın ədəbi məhsulları istər dil, istərsə də vəzn, forma və söyləniş tərzi baxımından daha çox milli olan dini-təsəvvüfi Türk ədəbiyyatının doğmasına təkan vermişdir. Mövlanə Cəlaləddin Rumi, Əhməd Fəqih, Şəyyad Həmzə, Sultan Vələd, Hacı Bektaş Vəli,

Yunus Əmrə həmin təsəvvüf ədəbiyyatının Anadoludakı ən parlaq təmsilçiləri olmuşlar.

Qaynağını "Yəsəvilik" təriqətindən alan türkdilli təsəvvüf ədəbiyyatının Anadoludakı ən qüvvətli təmsilçisi Yunus Əmrədir. Yunus Əmrə ənənəsinin davaçılarından söz açan alimlər XIV əsrdə yaşayıb-yaratmış şairlərdən Səid Əmrə və Kayğusuz Abdalın adlarını ilk sıralarda çəkirlər. Bununla belə, Gülşəhri, Aşıq Paşa, Əflaki Dədə və Əlvan Çələbi kimi təsəvvüf şairlərinin də eyni dövrdə yaşayıb-yaratdıqları və eyni bulaqdan su içdikləri bilinməkdədir.

Adını tarixə XIV əsr Anadolu təsəvvüf ədəbiyyatının ən görkəmli simalarından biri kimi həkk etdirməyi bacarmış Qayğusuz Abdalın həyatı haqqındakı biliklər ölümündən təxminən 150 il sonra qələmə alınan, müəllifi məlum olmayan "Mənaqibnamə"yə və şairin öz əsərlərindən əldə edilən bəzi nəticələrə əsaslanır.

XIV əsrdə yaşayıb-yaradan, yaradıcılığında Yunus Əmrə ənənələrinin izi hiss edilən sufi şairlərdən biri də Səid Əmrədir. Onun XIII əsrin sonları – XIV əsrin əvvəllərində yaşadığı, Hacı Bəktaş Vəlinin müridlərindən olduğu qəbul edilir.

Açar sözlər: Təsəvvüf ədəbiyyatı, Səlcuqlular, Yunus Əmrə, sufi şeri.

RASİM HUSEYNOV

ANATOLIAN TURKIC MYSTERY LITERATURE
(the 13th-14th centuries)

Summary

The formation of mystic (Sufism) literature in Anatolia begins from the years of Seljuks' rule. At that period a peculiar "Sufi life" began in Anatolia through the dervishes among the local Turkic and Turkmen people and the literary products of this life gave stimulus to the birth of religious-Sufi Turkish literature, which is more national in terms of language, rhythm, form and style of telling. Movlana Jalaladdin Rumi, Ahmed Fagih, Shayyad Hamza, Sultan Veled, Haji Bektash Veli, Yunus Emre were the bright representatives of that Sufi literature in Anatolia.

Yunus Emre is the strongest representative of Turkish Mystic literature taking origin from the sect "Yesevilik" in Anatolia. Speaking about the followers of the tradition of Yunus Emre the scholars first mention the poet names such as Said Emre and Kaygusuz Abdal, who lived and created in the 14th century. At the same time, it is known that mystic poets such as Gulshahri, Ashug Pasha, Aflaki Dede and Alvan Chalabi lived and created in the same period.

The knowledge about the life of Gaygusuz Abdal, whose name was in history as one of the most prominent figures of the 14th century Anatolian mystic literature, is based on the work "Managibname", that author is unknown, written about 150 years after his death and some results obtained from the poet's own works.

One of the mystic poets is Said Amre, who lived in the 14th century and followed Yunus Emre's traditions. It is accepted that he lived at the end of the 13th – beginning of the 14th centuries and was one of the followers of Haji Bektash Veli.

Key words: Mystic literature, the Seljuks, Yunus Emre, mystic poem

РАСИМ ГУСЕЙНОВ

АНАТОЛИЙСКАЯ ТЮРКСКАЯ СУФИЙСКАЯ ЛИТЕРАТУРА (XIII-XIV ВВ.)

РЕЗЮМЕ

Формирование суфийской литературы в Анатолии приходится на шоды правления сельджукидов. В тот период среди мпестного туркского и туцркменского народа посредством Текке (суфийский монастырь) началась своеобразная «суфийская жизнь», литературные произведения которой побудила рождение тюркской религиозно-мистической литературы, которая была более национальной как по языку, размеру, форме и так и по стилю говора. Мевлана Джалаладдин Руми, Ахмед Факих, Шайад Хамза, Султан Валад, Гаджи Бекташ Вели, Юнус Эмре являлись самыми яркими представителями этой суфийской литературы в Анатолии. Самым влиятельным представителем тюркоязычной суфийской литературы в Анатолии, источником которой является секта «Ясевизм», является Юнус Эмре. Говоря о продолжителях традиции Юнуса Эмре, ученые в первую очередь называют поэтов Саида Эмре и Кайгусуза Абдала, которые жили и творили в XIV веке. Тем не менее, в тот же период жили и творили такие суфийские поэты, как Гюльшахри, Ашыг Паша, Афлаки Деде и Алван Челеби. Познания о жизни Кайгусуза Абдала, вошедшего в историю как одного из самых выдающихся деятелей анатолийской суфийской литературы XIV века, основаны на «Менагибнамэ» неизвестного автора, написанном почти через 150 лет после его смерти, некоторые выводы из собственных произведений поэта.

Саид Эмре – один из суфийских поэтов, живших и твориших в XIV веке, в творчестве которого чувствуются следы традиций Юнуса Эмре. Считается, что он жил в конце XIII – начале XIV веков и являлся одним из мюридов Гаджи Бекташ-Вели.

Ключевые слова: Суфийская литература, Сельджукиды, Юнус Эмре, суфийское стихотворение.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Filologiya üzrə elmlər doktoru, professor Azadə Musayeva tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRMİN SADƏDDİNLİ
Bakı Avrasiya Universiteti
Ak. Həsən Əliyev küçəsi, 135 A
sadeddinlinermin@gmail.com

BOZQURD XİLASKAR MİFOLOGEMİ

Xülasə

Məqalədə Bozqurd obrazı xilaskar mifologemi olaraq araşdırılmışdır. İlk əcdad eyni zamanda ilk qəhrəmandır. Onun əsas funksiyası öz xalqını qorumaq və təhlükələrdən xilas etməkdir. "Oğuznamə"nin uyğur versiyasında Bozqurd Oğuz kağana hərbi qələbələrin yolunu öyrədir. Bozqurd ən çətin zamanlarda peyda olur, türkləri düşdükləri çətin vəziyyətdən xilas edir. Tanrının türklərə əmanət etdiyi yurdu qoruyur. Hər bir xalq azadlıq əldə etdikdən sonra tarixi keçmişinə üz tutaraq oradan bir örnək üzə çıxardır. Türklər bu örnəyin Bozqurd olduğuna inanırlar. Ona görə qurdu müqəddəsləşdirmişlər. Xalq baş totemə uzun müddət sitayiş edəndə həmin totem gen yaddaşına keçir. Buna görə də insanlar ona birmənalı olaraq münasibət bəsləyirlər. Bəzi miflərdə qurd mübarək üzlü, müqəddəs sayılsa da , bəzilərində nəslin kökünü kəsən varlıq kimi göstərilir. Qurdun dərisinə girən analar öz övladlarını yeyirlər. Ancaq gerçəkdə qurd öz balasından ötrü canını fəda edir. Özlərindən qat-qat güclü heyvanlarla vuruşurlar. Türklər bozqurdun onları qiyamət günü gəlib xilas edəcəyinə inanırlar. Qurdun xilasediciliyi onun adında da özünü göstərir. Qurd yəni qurtar, xilas edən anlamına gəlir.Bu gündə qurda inam böyükdür. Bu özünü qurdla bağlı toponimlərdə, atalar sözlərində və s. göstərməkdədir.

Açar sözlər*:* xilaskar, azadlıq, mədəni qəhrəman, qədim türk dastanları, Göy Tanrı, işıq(şüa) , yol göstərən

Məsələnin qoyuluşu: Türk mifologiyasının ən məşhur obrazlarından olan Bozqurd ilk əcdad kompleksi ilə əlaqədardır. İlk əcdad eyni zamanda ilk qəhrəmandır. Onun əsas funksiyası öz xalqını qorumaq və təhlükələrdən xilas etməkdir.

Tədqiqatın məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd Bozqurd obrazını mifik xilaskar paradiqmasında təhlil etməkdir.

"Oğuznamə"nin uyğur versiyasında Bozqurd ilk əcdad Oğuz kağana hərbi qələbələrin yolunu öyrədir. Bozqurd ən çətin zamanlarda peyda olur, türkləri düşdükləri çətin vəziyyətdən xilas edir. Tanrının türklərə əmanət etdiyi yurdu qoruyur. Hər bir xalq azadlıq əldə etdikdən sonra tarixi keçmişinə üz tutaraq oradan bir örnək üzə çıxardır. Türklər bu örnəyin Bozqurd olduğuna inanmış, onu müqəddəsləşdirmişlər. Bu inam müasir günlərimizə qədər davam etmişdir.AZərbaycan şairi , publisist M.Araz yazır:

Dur, içindən qorxunu boğ,
Ölümünlə, qalımını ayırd elə.
Dur, içindən qorxağı qov,
Dur, özünü Bozqurd elə! [2, s.132]

Bozqurd Ulu Tanrı tərəfindən türklərə göndərilmiş bir ərməğandır. Həm Türkün canını, həm də yurdunu qoruyan bir varlıqdır. Onları düşmənlərdən xilas edir və intiqam alır. Bəzi mənbələrdə Turan taktikasının qurdların döyüş üsullarından götürüldüyü bildirilir. Buna görə də Bozqurdda igidlik, şücaət, fədailik ruhu mövcuddur.

Türk yazar Necati Gültepe yazır: "Qurd həm türkləri xilas edən, həm də Tanrı yurdunu qoruyandır. Buna görə də qurd nəinki tək bir fərdi, həmçinin bütöv bir millətin xilaskarıdır. Qurd ayrı-ayrı torpaqları deyil, Tanrı yurdunun qoruyucusudur. Qurd bütün xalqların yox, Oğuzlara yol göstərəndir. Qurdun Türk şüurunda xalqı xilas edəcəyi haqqındakı fikir sonralar onun yeni xarakterdə təzahürünü şərtləndirən əsas amil oldu. "Ak Toycı" dastanında qurd yeni doğulmuş qəhrəmanı Erlikdən gizlədib qoruyur. Qəhrəmanın pis ruhlardan və ya düşməndən qorunması xalqın qurtarılmasına şərait yaradır. Zamanla fəlakət anında bozqurdun köməyə gələcəyi fikri formalaşmağa başladı. Təbiidir ki, Türk dastanları da bu düşüncəyə tərənnüm edir" [4, s. 519-520].

Beləliklə, türklər başlarına gələsi hər hansı bir çətin məqamda qurdun onların köməyinə gələcəyinə inanırlar. Tanrı tərəfindən yer üzünə göndərildiyi üçün də onu müqəddəsləşdirirdilər.

"Oğuz Kağan" dastanında qurd döyüşdən öncə Oğuz Xaqanın gözünə görünür. Ordusunu zəfərə doğru aparır. Bu səbəbdən də qurd əbədi xilaskar mövqeyindədir. Belə bir atalar sözümüz vardır: "Qurdla qiyamətə qalmaq". Xristian dinində xilaskar mövqeyində İsa Məsih əsas götürülürsə, bu xilaskar qədim türklərdə Bozqurddur. Xristianlar Məsihin Qiyamət günü gəlib onları xilas edəcəyinə inanırlar. Həmçinin bizim folklorumuzdakı Xızır (Xıdır) obrazı da çətin məqamda insanların gözünə görünür, onlara məsləhətlər verir, köməklik göstərir.

Dastanlarda Oğuzun qurdla bütünləşməsi qurdun xilasediciliyinə olan inancla bağlıdır. Qurd göy oğludur, buna görə də bütün xilasedici qəhrəmanlar göy oğlu kimi təsvir edilir. Türklər nəinki öz hökmdarlarını, həm də onları xilas edən sərkərdələri, əsgərləri də qurda bənzədərmişlər. Çin qaynaqlarında göstərilir ki, Türklərin ən yaxşı döyüşçülərinin bir qisminə " böri" deyirmişlər. Eyni zamanda Xaqanın ən seçilmiş mühafizəkarlarına da "Bozqurdlar-Kök börü" adı veribmişlər. Həmçinin yazılı qaynaqlarda da türk əsgərləri qurd olaraq adlandırılır. Bu özünü "Orxan"Yenisey" yazılarında da göstərir: "Atam xaqanın ordusu qurd kimidir" [4, s. 519-520].

Qıpçaqlar da Bozqurdu özlərinə xilaskar kimi seçmişlər. Bu barədə rus tədqiqatçılarının da əsərlərindən məlumat ala bilərik. Necati Gültəpə rusdilli tədqiqatçıların əsərlərinə söykənərək yazır: "Rus hökmdarının Uqorlara qarşı qazandığı zəfər qıpçaq hökmdarı Bonyakın köməyi ilə olmuşdur. Bonyak gecə

yarısından xeyli keçmiş qərargahdan uzaqlaşıb qurd kimi ulayır. Qurd da ona cavab olaraq ulayır. Və qurdun ona ulayaraq cavab verməsini qıpçaqların hökmdarı zəfər müjdəsi olaraq qəbul edir. Buradan belə aydın olur ki, Bonyak, əslində, qurdu köməyə çağırmaqla özünün də qurd olduğunu bəyan edir. Qurdla birgə ulamaq qurd-insan paralelliyinin göstərgəsidir" [4, s. 519-520].

Mifoloji fikirdə Bozqurdun xilaskar mifologizmi ilə bağlı müxtəlif mülahizələr vardır. Bu fikirlərdə qurdun əcdad olmaqla yanaşı, həm də mədəni qəhrəman olması diqqəti cəlb edir. Türk tədqiqatçı M.Uraz "qurdu müqəddəs və uğur gətirən" hesab edir. O, göstərir ki, "qurd totem qəbul edildiyi, ana, ata olduğu kimi, xilaskar, yol göstərici, qəhrəmanlara köməkçi, şəfqətli, cəsarətli, yaxşılıq edən bir varlıq olaraq tanınmışdır" [12, s. 105-106].

Görkəmli folklorşünas F.Bayat qurdu xarakterizə edərək göstərir ki, boz qurd mədəni qəhrəman, əcdad-xilaskar, iki dünyanı birləşdirən mediator, ritual-mifoloji səciyyəli hami ruh, nəhayət, döyüşkənlik, qəhrəmanlıq simvoludur [3, s. 48].

Müəllif həmçinin Bozqurdu əsas iki xüsusiyyətinə görə xarakterizə edir: O, qeyd edir ki, "türk tayfalarında boz qurd, əsasən:

1) əcdaddır (məsələn, çiğil, yağma, karluq tayfalarında). Göytürklərdə əcdadlıq xilaskarlıq funksiyası ilə birləşib əcdad-xilaskar şəklində rəsmiləşdirilib.

2) Oğuzlarda, qıpçaqlarda qurd xilaskardır" [3, s. 47].

V.Həbiboğlunun araşdırmalarına görə isə, bozqurdla bağlı əfsanələrin iki tendensiyası var:

1) Qurd xilaskardır;

2) Qurd yeni nəslin törədicisidir. Qurd müqəddəs tutulmalıdır [5, s. 165].

Qurd, əfsanələrdə həm nəslin yaradıcısı, Asena soyunu davam etdirən, həm də göy işıq içərisində Tanrı tərəfindən yer üzünə göndərilən varlıqdır. Bozqurd əcdad, xilaskar, hami və s. xüsusiyyətləri özünə daşıyır.

V.Vəliyev qeyd edir ki, "türkdilli xalqların qədim dastanlarında qurd və ya Boz Qurd xilaskar, türkdilli tayfaların hamisi və onların əcdadı kimi təlqin olunur" [13, s. 41].

İngilis tədqiqatçısı L.Kinross Osmanlı dövlətinin 600 illiyi münasibətilə yazdığı kitabda oğuzların göytürk əsarətinə qarşı uğursuz üsyanından danışarkən qeyd edir ki, VIII əsrin əvvəllərində ümumi "oğuz" adı altında qərbə doğru hərəkət edən tayfalar əfsanəvi boz qurdun bələdçiliyi ilə Səmərqəndə çatdılar [8, s. 5].

Oğuz, Dədə Qorqud, Koroğlu, Xızır, Qurd və s. haqqında miflərdə mədəni qəhrəman cizgilərinə malik olan personajlardır. Qədim türk dastanlarında Bozqurdun mədəni qəhrəman funksiyasında çıxış etməsi qabarıq şəkildə göstərilir. Qurdu mədəni qəhrəman kimi səciyyələndirən onun xilaskar olmasıdır. Bozqurd mədəni qəhrəman kimi bir nəslin əsasını qoyandır.

Qurdun xilaskarlığına bəzi miflərdə rast gəlirik. Bu miflərdən birində deyilir ki, "Allahdan Nuh peyğəmbərə bütün dünyanı su basacağı xəbəri gəlir. O, tez bir gəmi düzəltdirib, hər bir canlıdan bir cüt bu gəmiyə qoyur. Nuhun yeddi oğlu var imiş.

Oğlanlardan altısı gəmiyə minir, biri minmir. Deyir ki, su gələndə çıxaram dağın başına, mənə heç nə olmaz.

Çox keçmir ki, dünyanın üzünü su alır. İnsanlar boğulub ölür. Nuh peyğəmbər baxır ki, dağa çıxan oğlu da boğulhaboğuldadır. İstəyir ki, gəmini ona sarı sürsün. Allahdan səs gəlir ki, ya Nuh, çıx get, bu oğlan sizlərdən deyil.

Nuh gəmini sürüb gedir. Çox çəkmir ki, tufan dayanır, su yatır. Nuh peyğəmbər oğlanlarına deyir ki, istədiyiniz canlardan götürüb düşün quruya, yaşayın, nəslinizi artırın.

Nuhun oğlanlarından birinin adı Türk idi. Bu Türk qoyunla qoçu götürüb torpağa düşdü. Gəmi çıxıb getdi. Sən demə, Türkün düşdüyü torpaq cəzirə imiş. Hər tərəfi su olduğuna görə bu cəzirədən çıxmaq olmazmış.

Türk dörd yüz əlli il bu cəzirədə yaşayır. Onun heyvanları o qədər çoxalır ki, bütün cəzirəni tutur. Ot-ələf, kol-kos qalmır, heyvanlar hamısını yeyib qurtarır. Elə gün gəlib çatır ki, heyvanlar yeməyə heç nə tapmayıb, qırılmağa başlayırlar. Nuh oğlu Türk baxır ki, belə getsə, heyvanlar da ölüb qurtaracaq, özü də. Ha fikirləşir, bir nicat yolu tapa bilmir.

Günlərin bir günü Türk görür ki, bir heyvan parçalanıb yeyilib. Öz-özünə deyir ki, axı bu cəzirədə qoyundan başqa heç bir heyvan yoxdur. Bəs bu qoyunu nə yeyib? Türk çox təəccüblənir. Gecəni yatmayıb güdür. Bir də baxır ki, uzaqdan suyun içi ilə bir qaraltı gəlir. Bu qaraltı gəlib cəzirəyə çatanda tanıyır ki, gələn boz rəngli qurddur. Boz qurd cəzirəyə çıxan kimi cumur bir heyvanın üstünə. Bir tərəfdən də Türk gəlib çıxır bura. Boz qurd Türkü görüb gəldiyi yol ilə geri qaçır. Türk də düşür bunun arxasınca. Xeyli gedirlər. Türk baxır ki, qurdun getdiyi yerlərdə su heç topuğa qalxmır. Bir qədər gedəndən sonra quruya çıxırlar. Qurunu görən Türk qayıdıb həmin yolla heyvanlarını da buraya gətirir. Sonra Türk fikirləşir ki, məni bu cəzirədən boz qurd xilas elədi. Gərək onun şəklini öz bayrağıma çəkəm.

Belə də edir. Sonralar Türkün nəsli çoxalanda hamısına deyir ki, boz qurd bizim xilaskarımızdır. Əgər o, yol göstərməsəydi, nə mən olardım, nə də siz olardınız. Ona görə də gərək həmişə boz qurda inanasınız. Boz qurdun şəklini öz bayrağınıza çəkib, bu bayrağın arxasınca gedərsiniz.

Türkün övladları bu nəsihətə həmişə əməl etməyə başladılar" [1, s 218].

Bozqurd qurd ailəsinin bir növüdür. Bozqurdlarda da türk gələnəklərinə bağlı xüsusiyyətlər vardır. Onların da bir lideri vardır, qrup halında yaşayırlar və anaya bağlıdırlar. Döyüş zamanı türklər kimi yarım aypara şəklində sıralanaraq hücum edirlər.

Qədim türk dastanlarında göstərilir ki, qəhrəman doğularkən xilaskar olan qurdun xüsusiyyətlərini və Göy Tanrının əlamətlərini daşıyır [7, s. 129]. "Oğuz Kağan" dastanında Oğuzun belinin qurd belinə oxşaması, ağzının qırmızı olması buna misaldır [12, s. 13-14]. Dastanda deyilir:

Bu oğlanın üzü göy idi,
Ağzı atəş kimi qırmızı, gözləri ala,

Saçları, qaşları qara idi...
Onun ayağı öküz ayağına, beli qurd belinə,
Kürəyi samur kürəyinə,
Köksü ayı köksünə bənzəyirdi [3, s. 124].

Dastanda Oğuzla qurdu qarşılaşdıran Göy Tanrı idi. Ona görə də Oğuzun çadırına qurd göy işıq (şüa) içində gəlir [7, s 129]. Dastanda deyilir:

Dan yeri söküləndə Oğuz kağanın alaçığına
Gün kimi bir işıq düşdü.
Bu işıqdan göy tüklü, göy yelkəli, böyük,
Erkək bir qurd çıxdı.
Bu qurd Oğuz xaqana söz deyib durdu,
Ta belə dedi: "Oğuz, ay Oğuz,
Sən Urum üstünə getmək dilərsən,
Oğuz, ay Oğuz, mən səndən irəlidə gedəcəyəm.
Bundan sonra Oğuz xaqan
Alaçıqları yığdırdı, yola düşdü.
Gördü ki, ordunun önündə
Göy tüklü, göy yelkəli, böyük,
Erkək bir qurd gedir.
Bu qurdun arxasınca düşüb, ardınca getdilər.
Bir neçə gündən sonra göy tüklü,
göy yelkəkli bu böyük,
Erkək qurd dayanıb durdu [3, s. 129].

Dastanda bəhs edilən qurd göy tüklü, göy yələkli erkək qurddur. Bu qurd Oğuz Xaqanın ordusunun önündə gedir və onu zəfərə doğru aparır. Oğuz Xaqan sanki bu qurddan güc alır, döyüşlərdə qələbə çalır. Deməli, Bozqurd Oğuz xaqanın qələbə nişanıdır:

Bundan sonra yenə bu göy tüklü,
Göy yeləkli erkək qurdla Sındu,
Tanğut, Şağam tərəflərə yola düşdü [3, s. 134].

Dastanda Oğuz Xaqanın ordusunun keçdiyi yerlərin də adı çəkilir. İtil Müren dənizi, Tanğut, Şağam və s kimi əraziləri buna nümunə göstərə bilərik.

Qurdun məhz göy işıq içərisindən çıxaraq peyda olması, Oğuzun gözünə görünməsi onun işıqla arasındakı yaxınlığa işarə edir. Bununla bağlı aşağıdakı əfsanəyə diqqət yetirək.

Qədim əfsanələrin birində boz qurd qaranlıq mağaraya yığılmış türkləri xilas edir, onlara işıq göstərir. Eyni hadisə özünü "Oğuz Kağan" dastanında da göstərir. Oğuzun gözünə qurd görünür, onun ordusunun önündə işıq peyda olur, daha sonra qurdun onlara rəhbərlik edərək, onları zəfərə götürdüyün görürük. Bozqurd Göy Tanrı tərəfindən yerə işığın içərisindən peyda olaraq gedir. Bu isə Bozqurdu sehrkar

bir qüvvəyə malik varlıq edir. O, çətin zamanlarda Oğuzun gözünə görünür, ordusuna rəhbərlik edir.

Göy qurdun xilasedici motivdə olmasını "Ergenekon" dastanında da görürük. Dastanda göstərilir ki, düşmənlərdən qaçıb gizlənən iki nəfər türk igidi və onların arvadları dağlar arxasında insan ayağı dəyməyən bir yer axtarıb tapırlar. Burada onlar 400 il məskən salırlar. Bir vaxt o qədər artıb , çoxalırlar ki, artıq qaldıqları yerə sığmırlar. Ancaq hər tərəf sıldırım qayalıqlar olduğu üçün heç bir yerə gedə bilmirlər. Günlərin bir günü bir qoyun sürüsü otaran çoban sürüdən boz qurdun bir heyvan apardığını görür , onun arxasınca düşür. Boz qurd gəlib dağlarda bir deşikdən kənara çıxır. Çoban buna sevinir, tez gəlib bu xəbəri başçılarına çatdırır. Qurdun keçdiyi deşiyi genəltmək üçün tonqal qalayırlar, daşları isidib parçalayırlar. Bununla da əhali oradan çıxır. Elə bu səbəbdən də, türklər boz qurdu özlərinin xilaskarı hesab edir. Dastanın digər adı da "Qurtuluş" adlanır. Buradan da belə bir nəticəyə gəlirik ki, türx xalqlarının əcdadı, xilaskarı, yol göstərəni hesab edilən qurdun tarixi çox çox qədimdir.

Bir çox xalqların əfsanələrində qurd göy böri kimi qeyd olunur. Məsələn qırğız xalq dastanı olan, bəşəriyyətin ən böyük dastanı hesab edilən "Manas" dastanında "Mənim göy böri sultanım" ifadəsinə rast gəlirik. Bundan əlavə, Manas xanın arvadı yatıb gözəl yuxu gördükdə, yuxu yozanlar onu belə yozurlar ki, təzə doğacağı uşaq göy qurd kimi qorxmaz olacaqdır [10, s. 49].

Manas xanın oğlu olduğu zaman Xızır peyğəmbər peyda olur, və oğlana "Göytüklü" adını verir. Qırğız əfsanələrinə görə "Göytüklü" adını ancaq ən qorxmaz, ən mərd qəhrəmanlara verərmişlər. Buradan belə aydın olur ki, qədim türk xalqları hələ əski çağlardan bəri öz övladlarını xilaskar, totem, hami hesab etdikləri qurda bənzəməsini istəmiş, onu məhz elə görmək istəyirmişlər.

"Kitabi Dədə Qorqud" dastanında da qurdun insanların həyatında əhəmiyyətli rol oynamasını görürük. "Salur Qazanın evinin yağmalanması" boyunda Salur Qazan "Qurd üzü mübarək olar, qurdla bir xəbərləşəyim" deyir [9, s. 35].

"Manas" dastanına nəzər saldığımız zaman qurdla bağlı bir əfsanə yada düşür. Pənah Xəlilov bu məsələyə toxunaraq qeyd edir ki, Manas çoban uşaqları ilə birlikdə quzu otaranda qurdun quzu apardığını görür. Qurd dağlar aşdıqca Manas da ardınca qaçır və qurda çatanda çiltən şəklinə düşdüyünü görür. Qırğızlarda qırx nəfər gözəgörünməz xeyirxahlar haqqında əsatir var. Bu qırx çiltən Manası qoruyan qüvvə olur,ağır sınaqlarda onun köməyinə gəlir, qabağa düşüb yol göstərir. Dastanda qırx Çiltənin Manasa qurd şəklində görünməsi Göy Qurd haqqında türk əsatir sujetindən yaranmasına şübhə ola bilməz [6, s. 138].

İşin elmi nəticəsi və yeniliyi: Tədqiqat nəticəsində aydın oldu ki, türk mədəniyyətində geniş məna cərgələrinə malik olan Bozqurd obrazının funksiyalarından biri xilaskarlıqdır. Bu funksiya obrazın totem əcdad, mədəni qəhrəman funksiyaları ilə sıx bağlıdır. Bütün bunların əsasında Bozqurdun ilk əcdad mifi ilə bağlılığı durur. İlk əcdad həm ata, həm də qoruyucu, xilaskardır.

İşin nəzəri və prakiti əhəmiyyəti: Məqalənin nəzəri əhəmiyyəti onun nəticələrindən mövzu ilə bağlı digər tədqiqatlarda istafadə imkanları, praktiki əhəmiyyəti isə ondan ali məktəblərdə mifologiyanın tədris zamanı əlavə vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

Ədəbiyyat

1. Abdulla B. Azərbaycan folkloru. Bakı: Şərq-Qərb, 2005, 360 s.
2. Araz M. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı: Lider nəşriyyatı, 2004, 232 s.
3. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı. Bakı: Sabah, 1993, 194 s.
4. Gültepe N. Türk mitolojisi. İstanbul: Kapı yayınları, 2015, 665 s.
5. Həbiboğlu V. Qədim türklərin dünya görüşləri. Bakı: Qartal, 1996, 223 s.
6. Xəlilov P. Türk xalqlarının və şərqi slavyanların ədəbiyyatı. Bakı: Maarif, 1994, 432 s.
7. İsmayıl Rüstəm qızı M. Naxçıvan əfsanələri. Naxçıvan: Elm, 2008, 190 s.
8. Kinross L. The Ottoman Centuries: The Rise and Fall of the Turkish Empire. 1979, New American Library, 638 p.
9. Kitabi Dədə Qorqud. Bakı: Elm, 1999, 172 s
10. Манас. Киргизский эпос. Великий поход. Москва: Перзая, 1946, s 49
11. Tuncay B. Etnoqonik miflər. Bakı: Nurlan, 2013, 308 s.
12. Uraz M. Türk mitolojisi. İstanbul: Hüsnütabiat,1967, 244 s.
13. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 414 s.

NARMIN MAMMADRASUL SADADDINLI

BOZKURT SAVIOR MYTHOLOGY

SUMMARY

The article examines the image of Bozkurt as a savior mythology. The first ancestor is also the first hero. Its main function is to protect its people and save them from dangers. In the Uyghur version of the Oguzname, Bozkurt teaches Oguz Kagan the way to military victories. Bozkurt appears in the most difficult times, saves the Turks from their difficult situation. He protects the land that God has entrusted to the Turks. After gaining freedom, each nation turns to its historical past and sets an example. The Turks believe that this example is Bozkurt. That is why the worm was sanctified. When people worship the main totem for a long time, the totem is passed on to genetic memory. Therefore, people treat it unequivocally. In some myths, the wolf is considered a blessed, holy-faced creature, but in others it is portrayed as a creature that destroys the offspring. Mothers who get into the wolf's skin eat their children. But in reality, the wolf sacrifices his life for his young. They fight with animals that are much stronger than themselves. The Turks believe that the wolf will come and save them on the Day of Judgment. The wolf's salvation is also reflected in

his name. The wolf means the savior. Today, the wolf has great faith. It finds itself in toponyms, proverbs, etc. related to the wolf shows.

Key words: savior, freedom, cultural hero, ancient Turkish epics, God of Heaven, light (beam), guide.

НАРМИН МАМЕДРАСУЛ КЫЗЫ САДАДДИНЛИ

МИФОЛОГИЯ СПАСИТЕЛЯ БОЗКУРТА

РЕЗЮМЕ

В статье исследуется образ Бозкурта в мифологии спасителя. Первый предок - тоже первый герой. Его основная функция - защищать своих людей и спасать их от опасностей. В уйгурской версии Огузнаме Бозкурт учит Огуз-каган путь к военным победам. Бозкурт появляется в самые тяжелые времена, спасает турок от тяжелого положения. Он защищает землю, которую Бог доверил туркам. Обретя свободу, каждый народ обращается к своему историческому прошлому и подает пример. Турки считают, что это Бозкурт. Вот почему червь освятили. Когда люди долгое время поклоняются главному тотему, тотем передается в генетическую память. Поэтому люди относятся к нему однозначно. В некоторых мифах волк считается благословенным существом со святым лицом, но в других он изображается как существо, уничтожающее потомство. Матери, попавшие в шкуру волка, съедают своих детей. Но на самом деле волк жертвует жизнью за своих детенышей. Они сражаются с животными, которые намного сильнее их самих. Турки верят, что волк придет и спасет их в Судный день. Спасение волка также отражено в его имени. Волк означает спасителя. Сегодня у волка великая вера. Он встречается в топонимах, пословицах и т. с волком показывает.

Ключевые слова: спаситель, свобода, культурный герой, древнетюркский эпос, бог неба, свет (луч), проводник.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Filologiya elmlər doktoru, professor Seyfəddin Rzayev tərəfindən çapa tövsiyə olunmuşdur

İLHAM QAZIZADƏ
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent,
AMEA Memarlıq və İncəsənət İnstitutu
nigarqazizade@gmail.com
Hüseyn Cavid prospekti, 3 1

XX ƏSRİN İKİNCİ YARISINDA AZƏRBAYCAN DRAMATURGİYASINDA YARANAN KOMEDİYALARIN SƏHNƏ TƏCƏSSÜMÜ
(2-ci məqalə)

XÜLASƏ

Ötən əsrin ikinci yarısında komediya yazarların əsərlərində bir sıra sağlam ideya və fikrin janr və forma baxımından rəngarəngliklə təqdimi özün göstərirdi. Onlarda dövrün insan xarakterinə göstərdiyi təsir nəticəsində mənəviyyatda yeni xüsusiyyətlərin yaranma meyli satira və gülüşün ölçü dərəcəsində verilir və bu cəhətlərin müasir mövzulu pyeslərdə aydın tərzdə əksini tapması daim yaradıcılıq axtarışlarında olan yazarlarla teatr kollektivləri arasındakı qarşılıqlı işin məhsulu kimi qiymətləndirilməlidir. Bu müsbət əməkdaşlığın bəhrəsini S.Rəhmanın «Yalan», «Küləklər», S.Dağlının «Mənziliniz mübarək», İ.Əfəndiyevin «Qəribə oğlan», Anarın «Adamın adamı», P.Ağayevin «Yeddi oğlan və bir qız», M.Axundzadənin «Xırs quldurbasan» pyesinin səhnə şərhində köhnə adət-ənənələrin tənqidinin müasirlik nöqteyi-nəzərindən yozumunda, həmçinin A.Məmmədovun klassik və şifahi ədəbiyyat nümunələrindən etdiyi interpretasiyalarda («Aldanmış kəvakib» və «Dəli Domrul») görürük.

Lakin bu uğurlarla bərabər hələ də bəzi əyalət teatrlarında tamaşaçı zövqünü korlayan, əsas mətləbə dəxli olmayan, yamaq təsiri bağışlayan epizodlu pyeslərin repertuara salınması teatr sənətinin ümumi inkişafını ləngidirdi.

Açar sözlər: dramaturgiya, komediya janrı, rejissor, yaradıcı heyət, tamaşa

Sabit Rəhman komediya yazmaq sahəsində artıq ustalaşmış bir sənətkar olduğunu sübuta yetirmişdi. Lakin bəzi hallarda pyeslərindəki məna dərinliyi, hadisələrin hərtərəfli təqdimi əvəzinə, tamaşaçını çox güldürmək naminə meyli təəssüf doğururdu. Müəllif "Yalan" pyesində isə yaradıcılığındakı bu çatışmamazlığı bir qədər aradan qaldırmağa çalışmışdır. Quruluşun premyerası Azərbaycan Akademik Teatrda 1965-ci ilin 18 dekabrında olub.

Komediyadakı Tərlan xanım öz ömrünü sürmüş, əldən düşmüş bir tipdir. Aktrisa S.Bəsirzadə obrazı qrotesk ünsürləri ilə aşılanmış bir səpkidə yaradırdı. O real qüvvədən daha çox kölgədir. Lakin bu kölgənin törəmələri indi də mövcud olanların simalarında öz çirkin əməllərini davam etdirirlər. Rejissor T.Kazımov

tamaşaya sinəsində saat gəzdirən rəqqasə qız daxil etməklə hal-hazırkı mühitlə vaxtı ötmüş zaman arasındakı görünməz məqamları açmaq məqsədini güdmüşdür. Əlbəttə, fikir özü-özlüyündə yaxşıdır, lakin onun ifadə vasitəsi professor C.Cəfərovun qeyd etdiyi kimi "plakatvaridir" [2]. Tərlan xanımın Şəlalə kimi cavan, yaraşıqlı davamçısı var. O, bu günkü yalanın yaradıcısıdır.

Bəzi səhnələrdə və aktyor oyunlarındakı nöqsanlarla bərabər, professor C.Cəfərovun qeyd etdiyi kimi "…tamaşa maraqlıdır, yenidir, müasirdir, hətta demək olar ki, sadəcə istedad məhsulu deyil, inkişaf və tərəqqi nişanəsidir".

Klassik əsərlərdə qoyulan problemlər bu və ya digər dərəcədə müasir dövrümüzün müəyyən məsələləri ilə səslənir. Azərbaycan Akademik Dram Teatrında M.F.Axundzadənin **«Xırs quldurbasan»** komediyasında təəssüf ki, müasir həyatımızda üzləşdiyimiz vacib məsələlərdən biri ilə səsləşən əhvalat qoyulub. Rejissor Məmmədkamal Kazımov qədim xalq tamaşalarında gördüyümüz ünsürləri quruluşda canlandırmağa çalışıb. Şübhəsiz tamaşada "Qodu-qodu", "Kosa-kosa", "Qaravəllilər" ünsürlərinin səhnə əksinin tapılmasında rəssam Elçin Məmmədovun da xidməti böyük idi. Tamaşanın tərtibatı seyrçini əsərdə təsvir olunan zamana aparır. Səhnədə asılmış qurama pərdədən məlum olur ki, xalq tamaşalarımızda mövcud əhvalatlar təqdim olunacaq. Hər bir personaj geyiminin rəng əlvanlığı baxımından mənsub olduğu sosial mövqeyi barədə təsəvvür yaradırdı.

Tamaşanın gedişi boyu süjet xətti açıldıqca əsil xalq nümayəndələrinin həyata baxışları aydınlaşır. Məlum olur ki, kənd camaatı Pərzadı onun sevdiyi Bayrama deyil, Tariverdiyə ərə getməsini məsləhət görürlər. Buna da səbəb Tariverdinin var-dövlət sahibi olan ailəsidir. Zalxa arvad Tariverdiyə məsləhət görür ki, arzusuna çatmaq üçün quldurluğa gedib, özünün qoçaqlığını göstərməlisən, qızlar da belə oğlanlara ərə getməyi üstün tuturlar.

Aktyor H.Məmmədovun Bayramı nağıllarda gördüyümüz lirik qəhrəmanları xatırladırdı. Bayram Zalxanın qurduğu fırıldağın əsasını qoyur, lakin sonda onun mənəvi baxımdan sağlam təbiəti üstün gəlir, bu qurama əhvalatın xoş sonluqla bitməsinə səbəb olur. Bununla da obrazın simasında xalq nağıllarımızdakı xeyirxah xarakterin şahidi oluruq. O Tariverdini ayının caynağından qurtarır.

Aktyor ansamblı arasında məşhur gülüş ustası Ə.Ağayevin Divanbəyisi təbii, tipin xarakterinə uyğun cizgilərlə aşılanmış obraz idi. Quruluşun bu yönlü tiplərindən biri də kəlməbaşı "pojalustə" sözünü özünəməxsus tərzdə işlədən M.Avşarovun sadəlövh kəndli obrazı tamaşanın ümumi ahənginə oyunu ilə xoş təsir bağışlayırdı.

Pyesin məzmununa diqqət yetirdikdə görürük ki, XIX əsrdə evlənmə zamanı gənclərin rastlaşdıqları problemlərin hal-hazırda da təkrarının şahidi oluruq. Rəyçi F.Kərimzadə məqaləsinin adını "Toydan sonra tamaşa" qoymasının əsas səbəbi quruluşdakı belə eybəcər halın, əsr yarım keçməsinə baxmayaraq, təkrarlanmasına bir növ təəssüf hissi ilə etirazını ifadə edib.

Sabit Rəhman Azərbaycan sovet dramaturgiyasında özünəməxsus ədəbi siması olan bir sənətkardır. Görkəmli ədib hələ keçən əsrin 30-cu illərinin

ortalarından etibarən səhnəmizdə Cəfər Cabbarlıdan sonra gülüşü insanı saflaşdırıcı qüvvəyə çevirən estetik ideal saydığından **"Küləklər"** pyesində də mühitin eybəcər hallarına gülməklə müasir insanların qəlbində pərvəriş tapan humanist fikirlərin əsas təbliğedici vasitəsi hesab etmişdir [4].

Pyesdə iki mühit qarşı-qarşıya qoyulur. Onlardan bir qrupu insanları aldadır, soyğunçuluqla məşğul olur, məqsədlərinə çatıb aradan çıxırlar. İkinci qrupun nümayəndələri isə inqilabçılardır. Onlar xalqın səadəti uğrunda çalışırlar. Sonda inqilabçıların nəcib əməllərinin tərənnümü vəsf edilir. Dramaturq bu iki xətt arasındakı daxili rabitə quraraq yeni quruluş uğrunda mübarizədə hər kəsin fəal olmasını vacib bilir, yalnız bu yolla arzuya çatmağın mümkün olduğunu hesab edib.

Quruluşçu T.Kazımov əsərin əsas qayəsi olan gülüşün məna yükünü aydınlaşdırmağa çalışmışdır. Rejissorun bütün səylərinə baxmayaraq, tamaşada ikinci xətt olan inqilabçıların eskiz formasında təqdimi əsas məsələnin tam bədii həllinin aydın tərzdə verilməsinə nail olunmayıb. Buna da səbəb hadisələrin axarının son həddinə yaradıcı münasibət göstərilməməsi idi.

Tamaşada iştirak edən aktyorların sənətkarlıq imkanları yeni səpkidə aşkarlanmışdır. Bu mənada Əli Zeynalov və Səməndər Rzayev tamamilə yeni yönəmli oyun nümayiş etdirirdilər. Aktyor Ə.Zeynalov Rəşid Məğruru iki planlı ifa tərzində təqdim edirdi. İfaçı obrazın satirik hüdudlarını açarkən əsasən xarakterin çirkin simasını göstərən amillərə üstünlük verirdi. Sonda Rəşid Məğrurun pərdə arxasındakı ziyalılığından heç bir əlamət qalmır.

S.Rzayev oyununda şərti ifadə vasitələrinə önəm verərək, obrazını janrın tələblərinə münasib tərzdə canlandırmışdı.

Pyesdə əxlaq və ləyaqət normalarını itirmiş ailənin nümayəndələri Kəblə Muxtar və onun arvadı Firuzə xanımdır. Onların hər ikisi mənəviyyatca şikəstdirlər. Aktyor M.Dadaşov öz ifa tərzinə məxsus gərgin, emosional və coşğun enerji ilə obrazının daxili cizgilərini aşkarlamağı bacarırdı. Onun xanımı Firuzənin obrazını aktrisa N.Məlikova pulunun oğurlanması, qızının isə qoşulub qaçma səhnəsini inandırıcı boyalarla oynayırdı. Odur ki, bu mənəviyyatca düşkün ailənin final səhnəsindəki faciəli aqibəti tamaşaçıda onların həyat tərzinə nifrət oyadırdı.

Əsərdə Nəsir bəy, Əhməd bəy tüfeyli və dələduzlar əməllər doğrultmaq üçün dəridən-qabıqdan çıxırlar. Lakin teatrın təcrübəli aktyorları Ə.Ağayev (Nəsir bəy) və İ.Osmanlı (Əhməd bəy) obrazları barədə tamaşaçıda mənfi rəy oyadırdılar. Ə.Ağayevin Nəsir bəyi fırıldaqçı, özünü ətrafdakılara nəzakətli göstərməyə çalışır. Aktyor oyunu ilə təbiətindəki çürük keyfiyyətləri müxtəlif qiyafəyə girərək, özünü "ləyaqətli" ticarətçi olduğunu göstərmək qeydinə qalır. Lakin ifaçının oyununda daxili narahatlıq hissi az duyulur. Rəyçi A.Mahmud haqlı olaraq yazırdı ki, Ə.Ağayev obrazı "…satirik ruhunu qüvvətləndirmək üçün boyaların əlvanlığını daha çox axtarmalıdır" [4]. Aktyor İ.Osmanlının Əhməd bəyi saxtakarlıqla pul qazanmağı özünün həyat amalı seçmişdir. İfaçının satirik ifadə tərzi tamaşaçıya təbii təsir hissi bağışlayırdı.

Tamaşada saf niyyətli, dar düşüncəli Rəcəbi aktyor M.Avşarov təbii cizgilərlə yaradırdı. Müsbət obraz kimi təqdim olunan obrazı nəzərə çatdırmaq üçün bəzi hallarda lazımsız hərəkətlərə yol verməsi surətin xoş niyyətinə xələl gətirirdi.

Quruluşun finalında biz Nəsir bəy Otaylinskini və Əhməd bəy Butaylinskini görmürük. Həyatın surətli, dinamik dəyişikliyi nəticəsində əsən külək bu yaramazlar aləmini süpürüb aparmış, təhlükəsiz etmişdir [5].

Azərbaycan sovet hakimiyyətinin qələbəsinə həsr olunmuş tamaşanın premyerası 1970-ci ilin 30 oktyabrında oldu. İlk tamaşanın seyrçiləri vaxtsız vəfat etmiş Sabit Rəhmanın xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra salonda uzunmüddətli gurultulu alqışlar səsləndi. Bu alqışlar səhnəmizin heç vaxt Sabitsiz qalmayacağını, onu daim xatırlayacağını bildirirdi.

Artıq XX əsrin 60-cı illərində Azərbaycan teatrlarında bir-birinin ardınca yeni komediyalar səhnəyə qoyuldu. S.Dağlı 1972-ci ildə Azərbaycan Akademik Dram Teatrına **«Mənziliniz mübarək»** komediyasını təqdim etdi [7].

Akademik teatrda bir sıra maraqlı quruluşları ilə nəzəri cəlb edən rejissor Ə.Şərifov bu dəfə də özünü sənətinə məsuliyyətlə yanaşan sənətkar kimi göstərdi. Rejissorun bacarığı əsasən rolların ifaçılarını düzgün seçimində büruzə verdi. Rəssam H.Fətullayevin quruluşa verdiyi tərtibat, bəstəkar T.Quliyevin musiqisi də səhnədə cərəyan edən hadisələrin əhval-ruhiyyəsinin seyrçilərə çatdırılmasında xeyli yaradıcılıq səyi göstərirdi.

Tamaşa yeni binanın layihəsini hazırlayan memarlarla bir müddətdən sonra bu binada yaşayacaq sakinlərin görüş səhnəsi ilə başlayırdı. Lahiyə İnstitutunun direktoru Böyükkişi Qənbəroviç obrazını yaratmaq aktyor A.Gəraybəyliyə həvalə olunmuşdur. Səhnəmizdə bir-birinə bənzəməyən obrazlar qalereyası yaradan aktyor bu obrazın da keyfiyyətlərini açıqlamaq sahəsində maraqlı oyun tərzi nümayiş etdirdi.

Quruluşda H.Turabov Elgün obrazını seçdiyi memarlıq sənətinə böyük həvəs göstərən, hazırladığı hər bir layihənin üzərində prinsipial məsuliyyət hissi ilə işləyən mütəxəssisdir. Ailə daxili konflikt də məhz bu zəmində baş verir. Dilavər xanımın ifaçısı H.Məlikova obrazın xarakterindəki əsas xüsusiyyətlərə istinad edərək, rolunun ərinə qarşı qısqanclığını bacarıqlı aktyor incəliyi ilə açmağa nail olmuşdu.

Teatrda məsuliyyətli rolları ilə tamaşaçıların hörmətini qazanan S.Bəsirzadə memar Kəklik obrazını da məharətlə oynayırdı. Kəklik üzərində çalışdığı layihənin xoşagəlimli çıxması üçün işə başdansovma yanaşan iş yoldaşlarına, hətta ərinə də barışmaz mövqe tutur. İlk vaxtlar sadəlövhlüyü sayəsində əri Ağadayının kələklərinə, hiylələrinə aldanır. Lakin bir müddət keçəndən sonra Kəklik ərinin işə can yandırmayan, layihənin müzakirəsində yersiz təkliflər irəli sürdüyünün şahidi olur. Aktyor Ə.Ağayevin Ağadayısı işdə olduğu kimi, məişətdə də yüngül davranışlara yol verən adam təsiri bağışlayırdı. Mətnin deyilişindəki sözləri ədaları ilə pərdələyən bir tipi canlandırırdı. Ağadayının hərəkətləri, tamaşanın şən keçməsinə yardım göstərdiyi kimi, eyni zamanda rolun təbiətinə görə nifrət də oyadırdı.

Tamaşaya rəy yazan şair S.Rüstəm Əliquli, Elşən obrazlarının bədii baxımdan tam işlənməməsini, dam səhnəsinin əsas məsələlərlə əsaslı şəkildə bağlanmaması, quruluşun üçüncü pərdəsində hadisələrin ləng getməsini qeyd edirdi [7].

Azərbaycan Akademik Dram Teatrı 1973-cü ildə İ.Əfəndiyevin **«Qəribə oğlan»** pyesinin ilk tamaşasını aprel ayının 8-də oynadı [1]. Dramaturqun əvvəlki pyeslərinin hamısı dram olmuşdur. Onun yaradıcılığına bələd olanlar yaxşı bilirlər ki, ədibin hekayə, povest və romanlarında da ümumiyyətlə yumor, komik situasiyaları əks etdirmək istedadı bir xüsusiyyət kimi qələmindən çıxan əsərlərdə həmişə müşahidə olunub. Dramaturqun bu pyesini komediya yox, lirik komediya adlandırması heç də təsadüfi hal daşımırdı. Pyesdə təsvir edilən qəribəlik xarakterlərin təbiətlərindəki sadəlikdir, onların daxili keyfiyyətlərinin xüsusiyyətləridir.

Quruluşun rejissoru A.Kazımov əsərin lirik komediya ruhuna müvafiq xarakterlərin tamaşa daxilindəki mövqelərini düzgün qiymətləndirdiyinə görə situasiyalara uyğun mizanlar qura bilmişdir.

Rəssam H.Fətullayev də tamaşanın yığcamlığına, əlvanlığına xidmət göstərən tərtibat vermiş, lazımi nüansları ön plana çəkməyi bacarmışdı. Bəstəkar E.Sabitoğlu da tamaşaya sadəcə olaraq cərəyan edən hadisələri müşayiət eləyən musiqi parçaları yazmaqla kifayətlənməmişdi. Lirik komediyada musiqinin mərkəzi, aparıcı mövqedə verilməsi tamaşanın musiqili komediyaya tərəf meyllənmə qorxusunu yarada bilərdi. Bəstəkar pyesin xarakterindən çıxış edərək, musiqi parçalarını tamaşanın psixoloji yönəminə istiqamətləndirmiş, rəqs elementlərini müşahidə edən gözəl melodiyalar bəstələmişdir [1, s. 61; 337].

Məlumdur ki, hər bir tamaşanı şöhrətləndirən aktyor ifasıdır. «**Qəribə oğlan**»ın on iştirakçısı arasında A.Pənahovanın Kəmaləsi öz fərdiliyi ilə seçilirdi. Onun tərbiyə aldığı ailə gəncin təbiətində bəzi xoşagəlməz xüsusiyyətlərin yaranmasına səbəb olmuşdur. İfaçı obrazının xarakterindəki qəribəlikləri tədricən aradan qaldırmağa çalışır.

Tamaşa boyu Kamilənin kamilləşməsində Valehin də rol oynadığının şahidi oluruq. Valeh və Kəmalə xəttində bir-birinə oxşar cəhətlər çoxdur. Aktyor F.Poladovun Valehi təbiətən sadəliyi, ətrafdakılara xoş, təmiz qəlblə yanaşması Kamilənin də onun həssaslığına eyni səviyyədə cavab verməsinə səbəb olur. Hər iki ifaçının ustalığı sayəsində onların arasındakı nəcib hisslər aşkarlanır [8].

Valehin Otar, Batı, Muradov, Əhmədcan kimi dostları sayəsində qəribəliklər aləmindən həyata inam mövqeyinə tədricən keçməsi F.Poladovun oyununda aydın səpkidə nəzərə çarpırdı. K.Xudaverdiyevin Otarı, P.Məlikovun Batısı, S.Rzayevin Muradovu, R.Əzimovun Əhmədcanı tamaşada Valehin haqq roluna qətiyyətlə dönməsinə təsirləri aydın sezilirdi. Bu beş gəncin dostluğu tamaşaya xoş əhval-ruhiyyə qatır, hadisələrin incə hisslər axarında tamamlanmasına zəmin yaradırdı.

Lakin baş qəhrəmanın təbiətindəki «qəribəlik» sadə və ürəyi saf duyğulu insanın əsas həyat amalı olduğu halda, maşınla, büllur qab-qacaqla fəxr edən dadaşların, barsutların, məlahətlərin, ümidlərin əxlaq normalarıdır. Şübhəsiz,

quruluşdan alınan ümumi təəssürat tamaşaçıda belə bir rəy oyadırdı ki, Kəmalə və Valeh meşşanlığa uyan bu yönlü dostların həyat amalları ilə ayaqlaşmaqdan uzaqdırlar [8].

M.F.Axundzadənin **"Aldanmış kəvakib"** povesti daim Azərbaycan teatrının diqqətini özünə cəlb edib. Onu da qeyd etmək lazımdır ki, bu ilk milli nəsr nümunəmizə hər dəfə müraciət olunarkən, ona dövrün, zamanın tələbi baxımından yanaşılmışdır. Povestin fabulasından məlumdur ki, əsərin qəhrəmanı Yusif Sərracın hakimiyyət başına gəlməsi təsadüfü deyil, saray əyanları tərəfindən düşünülmüş bir aktdır. Əgər əsərin əvvəlki səhnələşdirilmiş variantlarında müəlliflər povestin orijinalına əsaslı bir müdaxilə etməmişlərsə, Altay Məmmədov isə əsərə daha çox müasir nöqteyi-nəzərindən yanaşaraq, qəhrəmanını ictimai ədalətsizliyin düşməni kimi təqdim edir. Yusif Sərrac hakimiyyət başına gələndən sonra keçirdiyi islahatlara onun xalq qəhrəmanı kimi təqdim olunmasına əsas verirdi. Məhz ona görə də Altay Məmmədov pyesini **qəhrəmanlıq komediyası** adlandırmışdı.

Qaragüruhçular Yusifi taxtdan salanda da özünü əsil mübarizkar, xalq nümayəndəsi kimi aparır, keçirdiyi islahatlara haqq qazandırır. Onun sözü ilə əməli arasında heç bir uyğunsuzluq yoxdur. Müəllif "Ulduzlar sönmür" pyesində sənətkarlıq baxımından əsaslı şəkildə satiradan bəzən hiperboliyadan da istifadə etmişdir. Quruluşun ilk tamaşası Gəncə teatrında 1974-cü ilin 31 martında olub [1, s. 61; 337].

Ədalətsizlik yolu ilə toplanan xəzinənin var-dövlətini məktəb tikintisinə və yolların çəkilməsinə, vətənini yadelli işğalçılardan qorumaq üçün silah ehtiyatı yaratmağa yönəldilməsi qəhrəmanın təmiz niyyətini sübuta yetirən hərəkətdir. Quruluşçu rejissor Y.Bağırov daş-qaşla bəzədilmiş taxtını satıb əldə olunan pulu xalqın rifahına sərf edən bu "taxtsız hökmdar" obrazını ilk plana çəkən bir tamaşa yaratmağa nail olmuşdur.

Keçən əsrin 70-ci illərində S.Rəhman adına Şəki Dövlət Dram Teatrının uğurlu tamaşaları keçmiş SSRİ-nin qabaqcıl səhnə xadimlərinin diqqətindən kənarda qalmamışdır. Şübhəsiz, bu kollektivin müvəffəqiyyətində həmin dövrdə yetişən gənc yazarların da xidməti az olmamışdır. Yeni yaranmış əsərlər arasında Anarın **«Adamın adamı»** komediyası həmin illərdə Şəkidə məhsuldar fəaliyyət göstərən Vaqif Həsənov və Hüseynağa Atakişiyev kimi rejissorların nəzərini cəlb etmişdir.

Məlum bir həqiqətdir ki, əsərdə ictimai-əxlaqi problemlərin əsas götürülməsi ilə bərabər həmin məsələyə müvafiq forma da tanılmalıdır. Əks halda ideya nə qədər sağlam olsa da, onun bədii dillə çatdırılması sahəsində əsər müəllifinin fikrini çatdırmaq mümkün deyil. Məhz Anarın "Adamın adamı" pyesinin üslubunu yaxşı duymuş yaradıcı heyət xalq məzhəkələrində başlıca prinsip olan obrazın maska xüsusiyyətlərini dəqiqliklə tətbiq etməklə tamaşanın müvəffəqiyyətini təmin etmişlər.

Quruluşun rəssamı T.Məmmədov və bəstəkarı E.Sabitoğlu hər bir obrazın təbiətinə uyğun geyim və musiqi melodiyaları tapmağa müvəffəq olmuşlar [10].

Misal üçün, rəssam personajların adlarının mənasından çıxış edərək, Xəbərçi Xədicənin əyninə üstü yazılı parçadan paltar geydirmiş, bununla da tipin xəbərdağardıcısı olduğu anlaşılırdı. Digər iştirakçı Fənd Fərəci sirk təlimçisi – illüziyaçısının kostyumu da xarakterin mənsub olduğu təbəqəni aydın göstərirdi. Bu tərzli geyim tipin təbiətən sabit olmadığını, idarə müdiri İbişlinin onu istədiyi yönə istiqamətləndirmək bacarığına işarə idi. Aktyorlar da ifa etdikləri personajların xarakterlərinə münasib oyun materiallarından istifadə edərək, yaratdıqları obrazların ümumiləşdirici simasını aşkarlamağa nail olurdular. Bu yöndə E.Sabitoğlunun bəstələdiyi hər tipin mənliyini aşkarlayan musiqi parçaları da uğurlu alınmışdı. Odur ki, personaj səhnəyə çıxarkən tipin geyimi və onu müşayiət edən musiqi xarakter haqda konkret təsəvvür yaradırdı.

Keçən əsrin 70-80-ci illərində Sovet teatrı və kinosunda istehsalat mövzusuna həsr olunan əsərlərə diqqət böyük idi. Məhz həmin dövrdə Gəncə Dövlət Dram Teatrında Rövşən Ağayevin **"Yeddi oğlan və bir qız"** pyesinin tamaşası [11] teatrsevənlərin marağına səbəb oldu. Pyesdə hadisə tikinti sahəsində briqadanın üzvləri arasında baş verən münasibətlər zəminində baş verir. Tikintidə materialların və nizam-intizamın olmaması briqada üzvlərində işə laqeydlik yaradır, vaxtlarını müxtəlif oyunlara sərf etməklə günü başa vururlar. Tezliklə tikintiyə Nərgiz adlı yeni prorab göndərilir. Hiss olunur ki, Nərgiz işə məsuliyyətlə yanaşmaqda qətiyyətlidir. Briqada üzvləri onu qorxudub, qaçırmaq fikrinə də düşürlər.

Lakin Nərgizin (Laləzar Ocaqquliyeva) özünü təmkinli, oğlanların bəzən xoşagəlməz hərəkətlərinə qız xarakterinə məxsus yumorla, səmimiyyətlə yanaşmağı oğlanların məqsədlərini heçə endirir. Bu niyyətlərinin baş tutmamasını anlayan oğlanlar qızı "sevgi" macəraları ilə yumşaltmaq qərarına gəlirlər. Bu fikir ortaya atıldıqdan sonra məlum olur ki, briqada üzvlərindən Elmanın, Elyarın, hətta "balacanın" Nərgizi sevdiyi aydın olur. Belə olan halda briqadirdə qıza sevgi hissi oyanır. Nəhayət, oğlanların hər biri ayrı-ayrılıqda gecə gizlində tikintiyə gəlib işin sürətlənməsinə, binanın xeyli qalxmasına səbəb olurlar. Tədricən Nərgiz briqada üzvləri arasında səmimi münasibət yaratmağı bacarır.

Quruluşçu rejissor V.Şərifov aktyor seçimində uğurlu heyət yaratmağa nail olmuşdur. Onların arasında Alim Məmmədov özünün təcrübəliyi ilə fərqlənirdi. Aktyorun ifasında briqadir Ələkbər Nərgizdən əvvəl işə laqeyd, biganə münasibət göstərirdi. O briqada üzvlərini özünə tabe etdirməyi, onları təsiri altına almağı xoşlayırdı. Lakin Nərgizin briqadaya daxil olmasıyla oğlanlar Ələkbərin nüfuzu altından çıxırlar. Hər birinin özünün sərbəstliyini, cəsarətliyini göstərməyə cəsarəti çatır və məqsədlərinə nail olurlar.

Rövşən Ağayevin komediyasında yeddi oğlanın hər biri özünəməxsus xarakterə malikdir. Aktyorlar da obrazların səciyyəvi cəhətlərini büruzə çıxarmaq sahəsində xeyli əmək sərf etmişdilər. Onların arasında Məmmədin ifaçısı Akif Səfərov gənc olduğuna baxmayaraq, nisbətən yaşlı, təcrübəli A.Məmmədovdan

(Ələkbər), F.Qasımovdan (Eldar), Əhmədovdan (Balaca) heç də geri qalmırdı. A.Səfərovda komediya artistinə xas olan yumor, səhnədə tərəf müqabilləri ilə dil tapmaq ustalığı özün göstərirdi.

Rəssam Asif Məmmədovun tamaşaya verdiyi sadə, lakonik tərtibatı, bəstəkar Cahangir Quliyevin pyesin məzmununa uyuşan, gənclərin əhval-ruhiyyəsini özündə əks etdirən musiqi parçaları tamaşaya xoş ovqat qatırdı [11].

Teatrın yazıçı-dramaturq A.Məmmədov ilə səmərəli yaradıcılığının bəhrələrindən biri olan **"Dəli Domrul"** dramaturqun satirik səpkidə yazdığı **fəlsəfi komediyadır,** O, şifahi ədəbiyyatımızın "Kitabi-Dədə Qorqud" boylarından birinin qəhrəmanı Dəli Domrulun həyatından bəhs edən maraqlı səhnə əsəri yaratmışdır. İnsan ləyaqəti, qeyrət qərəzsizlik haqqında məsələlər xalq qəhrəmanının simasında ön plana çəkilir. Komediyanın əsas süjetində dramaturq Dəli Domrulla Əzrayılın hər bir görüşündə müxtəlif həyati məsələlərə toxunur. Biz pyesdəki Domrulla döyüş meydanında çaldığı qələbələrdən sonra xalqın rifahı naminə çalışarkən görüşürük. Bu mərd, qorxmaz, xeyirxah hisslərlə yaşayan insan dinc quruculuq işləri ilə məşğul olmağı vacib sayır.

O körpü salmağı özünün insani borcu hesab edir. Quruluşçu rejissor V.Şərifov Dəli Domrulun Əzrayılla hər bir görüşünə yeni məna verir, materialdan çıxış edərək, dialoqlarla xarakterlərin daxili aləmlərinin açılmasına səy göstərib, pyesdəki hadisələrini məkanda cərəyan etdirir.

Səhnə mizanları, epizodlar elə bir tərzdə qurulmuşdur ki, hadisələrin təqdimində yeknəsəklik duyulmur. Rejissor işində xorla bağlı səhnələrin quruluşu da maraqlıdır. Xor rəmzi məna kəsb edərək, bəzən kənd qızlarını, bəzən isə yas tutan anaları xatırladır. Bununla da səhnədə xalqımızın tarixi keçmişini canlandıran epizodlar əksini tapırdı.

Dəli Domrulu teatrın əsasən qəhrəmanlıq obrazlarını yaradan Ə.Abbasov oynayırdı. Aktyor qəhrəmanı nəciblik, insanpərvərlik, igidlik, əməksevərliklə aşılamışdır. Domrul həyatının mənasını yalnız döyüşlərdə deyil, həm də xoş niyyətlərə sərf etməkdə görür. Ətrafdakılar Domrulu əvvəlki kimi mübarizə aparmağa dəvət edirlər, onun tutduğu yolu dəlilik kimi qiymətləndirirlər, Allahın onun bu hərəkətinə qəzəbi tutacağını söyləyirlər. Odur ki, Əzrayıl onun canını almağa gəlir.

Bu sahədə xalq yumorundan, incə ştrixlərdən yerli-yerində istifadə etdiyindən Dəli Domrulun həm Əzrayılla, həm arvadı Banı ilə, həm də onu döyüş meydanlarına səsləyən Dondarla olan epizodlarda Ə.Abbasovun Dəli Domrulu tədbirli, məntiqi mühakimələri ilə qalib çıxmış görünür. Aktyor yaradıcılığına məxsus yumor, bəzi hallarda isə qətiyyətli danışığı ilə tərəf-müqabillərinin hücumlarını heçə endirir.

Teatrın yaşlı nəsil aktyorlarının ənənələrini davam etdirən Faiq Qasımov Əzrayıl rolunda bacarıqlı oyun tərzi nümayiş etdirirdi. Aktyor Əzrayılı cavan qız, qoca və aşıq görümündə təqdim edir.

F.Qasımovun hər bir görümdə səhnəyə çıxışı onun müxtəlif ifaçılıq texnikasına malik olmasını təsdiqləyirdi. O belə oyun üslubu ilə obrazına "..-sanki kənardan baxır, onun niyyətlərini, hərəkətlərini ələ salır, öz ifası ilə onu ifşa edir"di [12].

Tamaşada irad doğuran əsas cəhət Domrulun ata-anasının yanına gəlib, onlardan öz əvəzinə canlarını vermək istəyib-istəmədiklərini sorması Dəli Domrulun yüksək ideallarına uyğun gəlmir. Rəyçi A.Kazımovun bu iradı ilə razılaşmaq müəyyən dərəcədə mümkündür.

Ötən əsrin ikinci yarısında Azərbaycan dramaturgiyasında keyfiyyətcə irəliləyişin şahidi oluruq. Şübhəsiz bu səbəbə görə də teatr sənətimiz komediya janrının səhnə təcəssümü sahəsində xeyli uğurlar qazanmışdır.

İstifadə olunan ədəbiyyat

1. Azərbaycan teatr antologiyası. İki cilddə, ikinci cild. B., 2013, səh. 61; 334.
2. Cəfər Cəfərov. «Yalansız», «Kommunist» qəzeti, 1966, 3 mart, № 52.
3. Fərman Kərimzadə. «Toydan sonra tamaşa», «Ədəbiyyat və incəsənət» qəzeti, 1971, 13 noyabr, № 46.
4. A.Mahmud. «Küləklər», «Ədəbiyyat və incəsənət» qəzeti, 1970, 24 oktyabr, № 43.
5. T.Yaşar. «Küləklər gülür». «Kommunist» qəzeti, 1970, 28 oktyabr, № 245.
6. «Kommunist» qəzeti, 6 sentyabr, 1970, № 233.
7. Süleyman Rüstəm. «Mənziliniz mübarək», «Kommunist» qəzeti, 1972, 22 yanvar, № 18.
8. Ənvər Ağayev. «Qəribə oğlan», «Kommunist» qəzeti, 1973, 17 may, № 144.
9. Əsəd Məmmədov. «Ulduzlar görüşəndə». «Ədəbiyyat və incəsənət» qəzeti, 1976, 14 fevral, № 7.
10. Əsəd Məmmədov. «Uğurlu tamaşalar». «Ədəbiyyat və incəsənət» qəzeti, 1977, 5 fevral, № 6.
11. M.Rzayeva "Yeddi oğlan və bir qız", "Kirovabad kommunisti" qəzeti, 1982, 28 iyul, № 147.
12. Ağakişi Kazımov. "Dəli Domrul". "Bakı" qəzeti, 1982, 10 iyul, № 162

Ильхам Газизаде

СЦЕНИЧЕСКОЕ ВОПЛОЩЕНИЕ КОМЕДИЙ, СОЗДАННЫХ В АЗЕРБАЙДЖАНСКОЙ ДРАМАТУРГИИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XX ВЕКА
(2-я статья)

РЕЗЮМЕ

Второй половины прошлого века в произведениях комедиантов представление ряда здоровых идей и мыслей проявлялось в красочном разнообразии с точки зрения жанра и формы. В них склонность возникновения новых особенностей в нравственности в результате влияния эпохи на характер человека представляется в меру степени сатиры и юмора, и ясное отражение этих качеств в пьесах на современную тему следует оценивать как продукт совместной работы коллективов театров с авторами, находящимися в постоянном творческом поиске.

Результат такого положительного сотрудничества мы видим в оценке критики старых обычаев - традиций с точки зрения современности в сценической постановке таких пьес, как «Ложь», «Ветры» С. Рахмана, «С новосельем» С. Даглы, «Странный парень» И. Эфендиева, «Опора человека» Анара, «Семь парней и одна девочка» Р.Агаева, «Разбойник» М.Ф.Ахундзаде, а также в интерпретациях А.Мамедова примеров из классической и устной литературы («Обманутые звезды» и «Отважный Домрул»).

Но наряду с этим успехом, включение в репертуар некоторых провинциальных театров все еще пьес с такими эпизодами, которые портят вкус зрителя, не соответствуют основной сути, создают впечатление заплатки, замедляло общее развитие искусство театра.

Ключевые слова: ***драматургия, жанр комедии, режиссер, творческий*** коллектив, спектакль.

ILHAM QAZIZADEH

STAGE EMBODIMENT OF COMEDIES IN AZERBAIJANI DRAMATURGY IN THE SECOND HALF OF THE XX CENTURY
(article 2)

SUMMARY

After the second half of the last century, the diverse presentation of a number of healthy ideas and thoughts in terms of genre and form was reflected in the works of comedy writers.

In the works, the tendency of the emergence of new features in spirituality as a result of the influence of time on human character is given in the measure of satire and laughter and the fact that these aspects are clearly reflected in contemporary plays should be evaluated as a product of the interaction between theater groups and writers who are always in search of creativity.

We see the fruits of this positive cooperation in the modem interpretation of the critique of old traditions in the stage interpretation of S.Rahman's play of "Yalan" (Yalan), "Kulekler" (Winds), S.Dagli's "Eviniz Mubarak" ("Happy home"), I.Afandiyev's "Qeribe oghlan" (Strange boy), Anar's "Adamin adami (Man's man), P.Agayev's "Yeddi oghlan ve bir giz" (Seven boys and a girl), M.Akhundzadeh's "Khirs Guldurbasan", as well as in A.Mammadov's interpretations ("Aldanmish Kevakib" (Deceived Stars), "Deli Domrul" (Crazy Domrul)) from the examples of classical and oral literature.

However, despite this success, the inclusion in the repertoire of episodic plays in some provincial theaters, which still spoil the taste of the audience, are irrelevant to the main point, and give a patchwork effect, slows down the overall development of theatrical art.

Keywords: Dramaturgy, comedy genre, producer, creative staff, performance

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov tərəfindən çapa tövsiyə olunmuşdur

AYTAC KƏRİMLİ
Lənkəran Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru, dosent

aykakerimli2316@gmail.com

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ SÖZÜN MƏCAZİ MƏNASININ TƏDRİSİ YOLLARI

Açar söz: ədəbiyyat, söz, məcazi, metod, tədris
Ключевые слова: литература, слова, образные, метод, обучение
Key words: literature, word, figuratively, method, teaching,

Müasir təhsil sistemində tədris məsələləri xüsusi diqqətdə olan sahələrdən biridir. Təhsil sistemində qabaqcıl texnologiyaların tətbiqi, müasir təhsilə yeni baxış, bu sahədə yeni konsepsiyaların hazırlanması bilik və bacarıqların aşılanmasında xüsusi əhəmiyyət kəsb edir. Ümumtəhsil məktəblərinin ədəbiyyat dərslərində sözün məcaz mənasının tədrisi xüsusi əhəmiyyət kəsb edir. Ədəbiyyat dərslərində müəllim sözün məcazi mənasını tədris edərkən ilk növbədə sözün qüdrəti haqqında şagirdləri məlumatlandıraraq dahi şəxsiyyətlərin söz haqqında fikirlərini, söylədiyi kəlamları şagirdlərin diqqətinə çatdırmalıdır. Bu zaman dərsi daha da maraqlı şəkildə tədris edərək şagirdlərin fikrini mövzuya cəmləşdirə bilər. Bildiyimiz kimi, insanlar fikirlərini sözlər vasitəsilə ifadə edirlər. Hələ qədim dövrlərdən başlayaraq əcdadlarımız sözə yüksək qiymət vermiş, şairlər, yazarlar, alimlər, filosoflar öz duyğu və düşüncələrini sözlə çatdırmış, onun qüdrətini həmişə diqqətdə saxlamış, bəşəriyyətin elmi və mədəni uğurları da sözlə nəsildən-nəslə ötürülmüşdür. Bədii sözün dəyəri isə hər şeydən öncə onun məcazlaşmış gizli qatlarında ifadə olunur. Qüdrətli söz ustası, görkəmli şairimiz, M. Füzuli mənalı deyilmiş sözü bir gözəllə müqayisə edərək qeyd edirdi ki, "mənalı və yerində deyilmiş söz könüllər alan gözəl kimi ürəkləri şad edir".

"Bədii dildə ümumxalq dilindən fərqli olaraq emosionallığın və ekspressivliyin ifadə imkanları daha geniş və rəngarəngdir. Çünki burada həm ümumxalq dilinə xas olan emosional-ekspressiv kəlmələr ifadə gücünə malikdir, həm də ən adi neytral sözlər xüsusi üslubi üsulların sayəsində emosional və ekspressiv mənalar qazana bilir"[4,19].

Ümumiyyətlə, ədəbiyyatın tədrisi zamanı şair və yazıçının əsas vəsaiti olan sözün mənasını şagirdlərə çatdırmaq olduqca zəruri məsələdir. Müəllim sözün həqiq və məcazi mənasını tədris edərkən ilk növbədə sözlərin cümlə daxilində leksik vahid kimi müxtəlif mənalarda işləndiyini şagirdlərin nəzərinə çatdırmalıdır. Hər bir sözün leksik və qrammatik mənaları olduğu kimi, sözlərin həqiqi və məcazi mənalarda işlədildiyini də qeyd etməlidir.

Məlum olduğu üzrə, sözlər həm həqiqi, həm də məcazi mənada işlənir. Sözün ilkin mənası onun həqiqi mənası adlanır, buna dominant məna da deyilir. Həqiqi mənada işlənən söz konkret olaraq əşyanı, hadisəni, prosesləri və s. adlandırır. Bəzən isə sözlər tarixi inkişaf prosesi keçərək həqiqi mənasından başqa yeni törəmə məna da ifadə edir. Bu isə sözün məcazi mənası adlanır. Bütün bunları müəllim praktik şəkildə nümunələrlə şagirdlərin diqqətinə çatdıraraq bilikləri daha da möhkəmləndirmiş olar. Məsələn, "isti" sifətini götürsək həm *"isti çay",* həm də "*isti xəbər"* birləşməsi şəklində işlətmək olar. Burada isti çay deyərkən isti sifəti çayın hərarətini bildirmək üçün işlədilərək həqiqi məna ifadə etmişdir. Lakin, isti xəbər birləşməsində isə məcazilik vardır. Burada isti sözü xəbər sözü ilə birləşərək yeni, təzə çıxan xəbər mənasını ifadə etmişdir. Nümunədən də aydın olur ki, məcazi məna sözün hərfi mənası başqa bir obyektə köçürüldükdə yaranan sözün ikinci dərəcəli mənasıdır. Həqiqi məna sabit, mətndən asılı olmadığı halda, məcazi məna daha mücərrəddir, mətndən asılıdır. Onu da qeyd etmək lazımdır ki, gündəlik danışığımızda da məcazi mənalı sözlər işlətmiş oluruq. Lakin məcazi məna, əsasən, bədii üslubda işlədilir. Bədii dildə məcazların işlədilməsi əsasdır. Əsl ədəbiyyatda sözlərin məcazi mənada işlədilməsinə şair və yazıçılar xüsusi diqqət yetirirlər. Bədii ədəbiyyatda müxtəlif söz qruplarına müraciət olunur və oradan müəyyən sözlər seçilib işlədilir. Hər bir sözü yerli-yerində işlətmək, onu ideya xətti ilə bağlamaq şair və yazıçının ustalığının, onun dilə yaradıcı münasibətinin göstəricisidir. Söz əsərdə şair və yazıçının əsas silahı və aləti olduğundan öz fikir və məqsədini söz vasitəsilə oxucuya təqdim edir. Görkəmli dilçi alim Ağamusa Axundovun təbirincə desək, "Bəstəkarın ifadə vasitəsi səs tonlarıdırsa, rəssam fikir və duyğularını rənglərlə nəqş edirsə, şairin imkanında olan sözlərdir, onlara verilən yeni mənalardır: şeiri qanadlandıran, şairi və şeiri sevdirən sözlərdir"[2, 184].

Şairin fərdi üslubundan, onun sözə necə yanaşmasından, sözün imkanlarından necə faydalanmasından asılı olaraq oxunulan şeir və yaxud bədii əsər oxucuya təsr edə bilər, onunçün maraqlı ola bilər. Yerli yerində işlədilmiş sözlər həmin əsərin bədii təsr gücünü artırır. Görkəmli dilçi alim Müseyib Məmmədovun qeyd etdiyi kimi, "şairlik müqəddəs sənətlərdən biridir. Şair sözü hikmətlər tacıdır. Şair sözü insan aləmini danışdıran, onu dilə gətirən, ona hərtərəfli təsir göstərən ən sehrkar qüvvədir"[5, 37].

"Məcazlar obrazlı təfəkkürün məhsuludur. Sözün məcazi məna kəsb etməsi mətn daxilində onun başqa sözlərlə əlaqəsi zəmnində meydana çıxır. Deməli, məcaz ifadənin obrazlılığı zərurəti ilə bağlıdır. Beləki, bədii dildə söz fikir ifadə etməklə kifayətlənməyib, obyektiv varlığın obrazlı təsvirinə də xidmət edir"[1,77].

Müəllim şagirdlərə məcazi mənalı sözləri izah edərkən həm ədəbiyyatşünaslıq, həm də dilçiliyə aid tədqiqat əsərlərinə müraciət etməlidir. Çünki, həmin tədqiqat əsərlərində dildə obrazlılıq yaradan əsas vasitə kimi məcazlar və onların təsnifatı məsələsinə xüsusi diqqət yetirilibdir. Ədəbiyyatşünaslıqda ədəbiyyat nəzəriyyəsinin bədii təsvir və ifadə vasitələri bölümündə, dilçilikdə isə əsasən leksika

və üslubiyyat araşdırmalarında dilimizdə məcazlar, onların növləri, işlənmə məqamları və bədii funksiyaları kifayət qədər geniş və əhatəli tədqiq olunmuşdur.

Ədəbiyyatşünaslıqda məcazlıq hadisəsi ilk növbədə, ədəbiyyat nəzəriyyəsi mövqeyindən qiymətləndirilir. Professor Əziz Mirəhmədov "Ədəbiyyatşünaslıq ensiklopedik lüğəti" kitabında məcaz anlayışını belə mənalandırır: "Məcaz-söz və ya ifadənin başqa, qeyri-müstəqim mənada işlənməsi yolu ilə yaradılan bədii ifadə, hər hansı əlamətinə görə bir-birinə oxşayan iki hadisənin qarşı-qarşıya qoyulması üsulu ilə yaradılır. Bir hadisə haqqında parlaq təsəvvür vermək üçün yazıçı onu başqa hadisəyə məxsus əlamətlə səciyyələndirir"[6, 33].

Sözün məcazi mənaları-epitetlər, təşbehlər, metaforalar, metonimiyalar, simvollar və s. bütövlükdə bədii təsvir vasitələri sistemini yaradır. Ədəbiyyatımızda məcazlar sistemindən zərgər dəqiqliyi ilə istifadə edən və onların köməyi ilə obrazlı ifadələr, ecazkar bədii təsvirlər, bənzərsiz poetik lövhələr, bədii portretlər yaradan şairlər az deyil. Şair və yazıçıların yaradıcılığında çox,sayda təsadüf olunan bədii təsvir vasitələrində sözlər həqiqi mənada yox, məcazi mənada işlənir. Deməli, sözdə mənanın daha təsirli, daha düşündürücü, daha emosional alınması üçün məcazlara, məcazi mənalı sözlərə müraciət etmək lazımdır. Əsl bədii sözdə məcazilik vacibdir. Sözün məcazi mənası daha çox məcazlar sistemində özünü göstərir. Müəllim məcazi mənalı sözləri izah edərkən bədii təsvir vasitələrini diqqət mərkəzinə gətirməlidir. Bədii təsvir vasitələri eyni zamanda məcazlar sistemi adlanır. "Məcazlar obrazlı təfəkkürün məhsulu olduğu üçün məcazın yaranması ifadənin obrazlı olması zərurəti ilə bağlıdır. Bədii dildə söz fikir ifadə etməklə kifayətlənmir, obyektiv varlığın obrazlı təsvirinə də xidmət edir"[3, 75].

Məlumdur ki, məcazlar sistemi aşağı siniflərdən başlayaraq ümumtəhsil məktəblərində tədris olunur. Aşağı siniflərdə məcazın sadə növlərindən başlayaraq şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmaqla tədris olunduğu halda, yuxarı siniflərdə sistemli şəkildə bədii təsvir vasitələrinin daha da mürəkkəb növlərinə müraciət olunur. Məcazi mənalar cümlə və yaxud da mətn daxilində yaranır. Sadə danışıq dilində, bədii ədəbiyyatda heyvan adlarının məcazi mənada işlənməsi böyük rol oynayır. Tülkü, çaqqal, aslan, pələng, maral, ceyran və s. kimi heyvan adları dilimizdə məcazlaşaraq heyvan adları deyil, müəyyən anlayışı, keyfiyyəti bildirərək əsas sözün sinoniminə çevrilir. Beləki, *tülkü-bic,hiyləgər; çaqqal-qorxaq; şir-qoçaq, igid, cəsur; pələng-igid, qorxmaz; ilan-xain, məkirli; maral-gözəl* və s. Məsələn:

Bura bax, qardaşım, indi şah Qacar-
O sizi talayan dişi canavar.
İndi də göz dikib Azərbaycana[7 ,84].

Sözün məcazi mənası çox vaxt insanlara məxsus müəyyən hərəkətləri cansız əşyalara aid etmək nəticəsində meydana çıxır. Məs.: *Təbiət oyandı. Günəş dağların arasından boylandı*. Bu cümlələrdə *oyanmaq, boylanmaq* feilləri insanlara məxsus hərəkəti bildirir. Cümlələrdə metaforadan istifadə olunaraq insana məxsus hərəkət *təbiətin* və *günəşin* üzərinə köçürülmüşdü.

Bənzətmə vasitəsi kimi də bədii əsərlədə sözün məcazi mənalarından geniş istifadə olunur. Məs.: *ağır yük-ağır xasiyyət, dumanlı dağ-dumanlı fikir, gözəl mənzərə-gözəl düşüncə, daş bina-daş ürək, şirin meyvə-şirin söz və s.*

Mövzu ilə əlaqədar S. Vurğunun 9-cu sinif ədəbiyyat dərsliyində tədris olunan "Ananın öyüdü" şerində işlənmiş məcazi mənalı sözlərə diqqət yetirək:

Bunun üçün ilk növbədə əsərin oxusu həyata keçirilir. Tanış olmayan sözlərin mənasını şagirdlər müstəqil aydınlaşdırır, müəllim sualların köməyi ilə onları istiqamətləndirir. Daha sonra şeirdə işlənən bədii təsvir və ifadə vasitələri əsasında müzakirə aparılır. Bir daha şeirin aram-aram oxusu həyata keçirilir.

Geyib əsgər paltarını silahlandı qəhrəman,
Onun polad sinəsinə sığışmadı ürəyi.

Müəllim bu parçada işlənmiş *"polad sinə"* birləşməsini şagirdlərin diqqətinə çatdıraraq məcazi mənada olduğunu qeyd edir. Çünki polad bir metal olduğundan ondan hər hansısa bir alət, texnika hazırlana bilər. Sinə poladdan olmur. Burada polad sinə deyərkən şair qəhrəmanın gücünü göstərir.

-Dayan! - deyib yaxın gəldi, öpdü onun alnından
Yay gününün xoş səhəri, bir də dağlar küləyi.

Burada şair köçürmədən istifadə edərək metafora yaratmışdır. Bildiyimiz kimi, öpmək insana məxsus bir xüsusiyyətdir, onu səhərin, küləyin üzərinə köçürərək köçürmə əsasında məcazi məna yaradıb.

İgid balam! Hərçənd ki öz ananam mən sənin,
Çörəyilə böyümüsən bizim ana Vətənin.

Müəllim burda "*Vətən"* sözünün xüsusi isim kimi işlənərək Azərbaycanı ifadə etdiyini bildirməli, addəyişmə əsasında metonimiyanın işlədilməsini şagirdlərin nəzərinə çatdırmalıdır. Beləliklə, məcazi məna yaratmış olur.

Bütün bu izahlardan sonra şagirdlərdə məcazlar sistemi haqqında daha da əhatəli məlumat yaranır və onlar sözlərin məcazi mənada işlənməsini daha da dərindən öyrənmiş olurlar. Belə bir nəticəyə gəlmək olar ki, bu mövzunun tədrisində əsas məqsəd bədii əsərin düzgün dərk olunmasında, düzgün təhlil olunmasında sözün məcazi mənasının rolunu şagirdlərə başa salmaq, məcazlar sisteminin xüsusiyyətlərini düzgün izah etmək və mənimsətməkdir.

Ədəbiyyat:

1. Abdullayev C. Səməd Vurğun poetikası. Bakı. "Gənclik", 1976.
2. Axundov A. A. Dilin estetikası. Bakı. "Yazıçı", 1985.
3. Əfəndiyev T. Ə. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı. "Elm", 1980
4. Əfəndiyev T. Ə. Azərbaycan dilinin leksik üslubiyyatı. "Nurlan", 2001
5. Məmmədov M. Filoloji düşüncələr. Bakı. "Nurlan", 2005
6. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq. Ensklopedik lüğət. Bakı, 1998
7. S. Vurğun. Seçilmiş əsərləri. 4 cild."Şərq-Qərb". Bakı, 2005, səh. 400.

Керимли Айтач

СПОСОБЫ ОБУЧЕНИЯ СИМВОЛИЧЕСКОМУ ЗНАЧЕНИЮ СЛОВА НА УРОКАХ ЛИТЕРАТУРЫ В СРЕДНЕЙ ШКОЛЕ

Резуме

Обучение переносному значению слова - одна из важнейших тем в средней школе. Это связано с тем, что можно вызвать эстетический эффект как у читателя, так и у слушателя, выразив идею более эмоционально с помощью образных слов. Многие стилистические образы или литературные тропы, то есть метафоры, основаны на переносном значении слова. Учитель литературы несет большую ответственность за обучение образным словам. Учитель литературы должен объяснять образные слова на практике, объяснять ученикам метафоры, приводя примеры из художественной литературы. В общем, человек не должен использовать неуместные слова при выражении своего мнения, а должен выражать свое мнение кратко.

Создаваемые нашим языком выразительные возможности отражаются в выборе слов, умении употреблять слово в том или ином переносном смысле. Использование этого слова в переносном смысле, как в литературном языке, так и в разговоре, позволяет творческой личности и персонажу прояснить свою точку зрения и передать ее читателю и слушателю. Образные слова - одно из средств определения богатства языка. В то же время эта работа играет важную роль в формировании творческого мышления.

Таким образом, школьникам известно, что образные слова в основном используются в художественном стиле, в произведениях поэтов и писателей. На уроках литературы переносное значение слов преподается как часть средств художественного описания и выражения, которые являются неотъемлемой частью теории литературы. Фактически, более уместно посвятить преподаванию этого предмета отдельные часы на уроках литературы. Потому что в общеобразовательных школах все метафоры даются не отдельно, а в связи с каким-либо произведением искусства.

В результате образных слов расширяется способность выражать язык, конкретизируются идеи. Обучение переносному значению слова и изучение этого предмета всегда должны отвечать интересам учителей, учеников и студентов. Мы должны сделать все возможное, чтобы продолжить исследования в этой области и в будущем.

Kerimli Aytac

WAYS TO TEACH THE FIGURATIVE MEANING OF THE WORD IN HIGH SCHOOL LITERATURE CLASSES

SUMMARY

The teaching of the figurative meaning of the word is one of the most important topics in secondary schools. This is because it is possible to evoke an aesthetic effect in both the reader and the listener by expressing the idea in a more emotional way as a result of figurative words. Many stylistic figures or literary tropes, that is, metaphors are based on the figurative meaning of the word. A teacher of literature has a great responsibility to teach figurative words. The literature teacher should explain figurative words in a practical way, explain metaphors to students by giving examples from fiction. In general, a person should not use inappropriate words when expressing his opinion, but should express his opinion concisely. The expressive possibilities created by our language are reflected in the choice of words, the ability to use the word in one or another figurative sense. The use of the word in a figurative sense, both in literary language and in conversation, allows the creative person and the character to clarify their point and convey it to the reader and listener. Figurative words are one of the means of determining the richness of a language. At the same time, these studies play an important role in the formation of creative thinking. Thus, it is known to the students that figurative words are used mainly in the artistic style, in the works of poets and writers. In literature classes, the figurative meaning of words is taught as part of the means of artistic description and expression, which are an integral part of literary theory. In fact, it is more expedient to devote separate hours to the teaching of this subject in literature classes. Because in secondary schools, all the metaphors are not given separately, but in connection with any work of art. As a result of figurative words, the expressiveness of the language expands, the idea is given concretely. The teaching of the figurative meaning of the word and the study of this subject should always be in the interest of teachers, pupils and students. We must do our best to continue research in this area in the future.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Mirhüseyn Abbas tərəfindən çapa tövsiyə olunmuşdur

CABBARZADƏ TURANƏ FAİQ QIZI
Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
turana.cabbarova@mail.ru

İNTERTEKSTUALLIQ BƏDİİ MƏTNİN TƏRKİB HİSSƏSİ KİMİ (ANARIN "AĞ QOÇ, QARA QOÇ" ROMANI ƏSASINDA)

XÜLASƏ

Müasir ədəbiyyatşünaslıq hər bir bədii mətnin onlarla başqa mətnin hesabına yaranması fikri üzərində dayanır. İntertekstuallıq termini ədəbiyyatşünaslığa fransız alimi Y.Kristyeva tərəfindən gətirilmişdir. Y. Kristyeva intertekstuallığı mətnlərarası dialoq kimi qəbul edir. İntertekstuallığa iki aspektdə baxmaq mümkündür: həm bədii priyom kimi, həm də mətnin oxunması və ya dərk olunması metodu kimi. XX əsrin postmodernist romanında intertekstuallıq bütün xüsusiyyətləri ilə üzə çıxır. Əsərlərdə yer alan ironiya, parodiya, pastiş, kollaj, metafora və simvolun gətirdiyi çoxqatlılıq mətnin bəlli bir oxucu tipini müəyyənləşdirir.

Müasir Azərbaycan ədəbiyyatında Anarın "Ağ qoç, qara qoç" , Elçinin "Baş", Kamal Abdullanın " Yarımçıq əlyazma", Ş.Ağayarın "Kərpic kəsən kişinin dastanı", "Ağ göl", Fəxri Uğurlunun "Fərhadın Xosrovu öldürməsi" nəsr əsərlərində intertekstuallıq implisiv və eksplisiv şəkildə, bir-birindən keçərək ornamental mətn yaradır. Anarın "Ağ qoç, qara qoç" romanında intertekstual əlaqələr üst qatda "Dədə Qorqud" dastanı və "Məlik Məmməd" nağılı üzərindədirsə, alt qatda Y.Zamyatinin və C.Oruellin məlum əsərlərinin də eskizlərini daşıyır.

Açar sözlər: Postmodernizm, İntertekstuallıq, roman, mətn

M.Baxtin mətnə açıq strukur kimi baxmağı məsləhət görürdü. Bədii mətində allyuziyalar, mövcud mətinlərdən sitatlar verilir. Müasir ədəbiyyatşünaslıq hər bir bədii mətnin onlarla başqa mətnin hesabına yaranması fikri üzərində dayanır. İntertekstuallıq termini ədəbiyyatşünaslığa fransız alimi Y.Kristyeva tərəfindən gətirilmişdir. Y. Kristyeva intertekstuallığı mətnlərarası dialoq kimi qəbul edir. Y.Kristyeva 1967-ci ildə çap olunan "Baxtin, söz, dialoq və roman" məqaləsində intertekstuallıq terminindən istifadə edir. Termin mətnlərarası əlaqədən bəhs edir ki, bu əlaqə obraz, süjet, element, motiv , janrlararası yaxınlaşma üzərində qurulur.

İntertekstuallığa iki aspektdə baxmaq mümkündür: həm bədii priyom kimi, həm də mətnin oxunması və ya dərk olunması metodu kimi. Postmodernist ədəbiyyatda intertekstuallıq diskursun əsasında dayanır və ən əsas bədii priyomlardan biridir. Dünya ədəbiyyatında diqqət etsək, C.Coys, V.Nabokov, C.Faulz və X.Kortasarın yaradıcılığında istifadə etdikləri əsas bədii üsullardan biri də intertekstuallıqdır. Bəzi hallarda bədii mətn bütünlüklə sitatlardan ibarət olur, dəyişən forma mövcud məzmunu saxlayır. İntertekstuallıq özünün və özgənin mətni

arasında variasiya etməkdir. Burada müxtəlif mədəniyyətlər və ənənələrin uzlaşmasının şahidi oluruq. Bədii mətni oxumaq (dərk etmək) oxucudan (tədqiqatçıdan) təkcə ədəbiyyatşünaslıq deyil, həmçinin fənlərarası əlaqəni yarada biləcək potensial (təfəkkür) də tələb edir. Mətnin içərisində şəbəkə kimi yığılan və bir məcraya gətirilən mövcud mətnlər bir-biri ilə sinxron və diaxron şəkildə bağlanır.

XX əsrin postmodernist romanında intertekstuallıq bütün xüsusiyyətləri ilə üzə çıxır. Əsərlərdə yer alan ironiya, parodiya, pastiş, kollaj, metafora və simvolun gətirdiyi çoxqatlılıq mətnin bəlli bir oxucu tipini müəyyənləşdirir. İntertekstuallığın hakim olduğu əsərlər köhnə mətnin yeninin hesabına təzələnməsi deyil, mətnin inkişafının təminatı kimi çıxış edir. Məlum mətnlərin müasir yazarlar tərəfindən əsərə daxil edilməsi əslində mexaniki təsir bağışlamamalı, yeni bədii əsərin ümumi məzmunu, strukturu ilə üzvü şəkildə bağlı olmalıdır. Süni şəkildə mətnə bir başqa məlum mətnin daxil edilməsi bədii əsərinin məzmunu ilə bağlılıq təşkil etmir, mətnə süni müdaxilə kimi dəyərləndirilə bilər. İntertekstuallıq mahiyyəti etibarı ilə çoxşaxəlidir və özündə fəlsəfi, psixoloji, linqvistik konteksti birləşdirə bilir. Bədii mətnin daxilində mətnlərarası əlaqə implisit (gizli) və eksplisit (açıq) şəkildə özünü biruzə verir. Bu bəzən əsərin adından başlayaraq açıq şəkildə özünü göstərir, bəzən də mətnin içərisində sitat, ironiya, işarət edilərək varlığını bəlli edir. Müasir Azərbaycan ədəbiyyatında Anarın "Ağ qoç, qara qoç", Elçinin "Baş", Kamal Abdullanın " Yarımçıq əlyazma", Ş.Ağayarın "Kərpic kəsən kişinin dastanı", "Ağ göl", Fəxri Uğurlunun "Fərhadın Xosrovu öldürməsi" nəsr əsərlərində intertekstuallıq implisiv və eksplisiv şəkildə, bir-birindən keçərək ornamental mətn yaradır. Müasir Azərbaycan ədəbiyyatında folklor və klassik ədəbiyyatdan alınan mövzu və obrazlar sistemi ilə tez-tez rastlaşırıq. İmplisit və eksplisit formada varlığından söz edən məlum mətnlər yeni ədəbiyyatın tərkibində insanlığın əzəli problemləri ilə yanaşı yenilənən, qloballaşan dünyanın kataklizmalarına da işıq salır.

Anarın "Ağ qoç, qara qoç" romanında mətnlərası əlaqə "Məlik Məmməd" nağılı, "Dədə Qorqud" dastanı, müəllifin öncəki əsərləri arasında qurulur. Əsərin adıyla qarşımıza çıxan ağ qoç, qara qoç qaranlığın və işığın əksi kimi verilir, burada nağıl strukturu qorunmasa da, mövzu qatı özünü qoruyur. Akademik İsa Həbibbəyli əsəri belə dəyərləndirir: "Ağ qoç, qara qoç" povesti (2004) Azərbaycan ədəbiyyatının müstəqillik dərsi kimi səslənir. Ağ qoçun belində gəlib çatdığı "Xoşbəxtlər ölkəsi" yazıçının "Utopik cəmiyyət" kimi təsvir etdiyi yenicə müstəqillik qazanmış və çətinlikləri olan müstəqil Azərbaycandır. "Qara qoç" mifi isə Anarın işıqla qaranlığın müqayisəsinə diqqəti çəkməklə, oxucusunu düşündürmək, ayıq olmağa çağırmaq qayəsini ifadə edir. Bu əsərdə azərbaycançı müəllifin əldə olunmuş dövlət müstəqilliyini şər qüvvələrdən qorumaq, azadlığın keşiyində dayanmaq arzuları diqqətə çatdırılır" (1).

Müəllif tərəfindən utopik və antiutopik janrda müəyyənləşən romanın epiqrafı "Məlik Məmməd" nağılından götürülür: "O vaxt döyüşə-döyüşə iki qoç

gələcək: Biri ağ, biri qara. Ağ qoç qara qoçu qovacaq. Onda atıl min ağ qoçun belinə. Ağ qoçun belinə minən kimi işıqlı dünyaya çıxacaqsan. Qara qoçu minsən qaranlıq dünyaya düşəcəksən”(2. s.325). “Müəllifin məlum arxetipik struktur üzərində qurduğu yeni təhkiyə üsulu konstruktivizm və dekonstruktivizmə əsaslanır. Azərbaycan xalq nağılının qəhrəmanı Məlikməmmədin adından başlanaraq hər bir detal bölmə, parçalama prinsipinə əsaslanır. Bu bölgüdə işıqlı dünyanı «Birinci nağıl», qaranlıq dünyanı «İkinci nağıl» əks etdirir. Birinci hissə üçün sürət və sadalama nə qədər xarakterikdirsə, ikinci hissədə hadisələrin gedişatındakı lənglik və fraqmentarlıq səciyyəvidir” (3. s.50).

“Ağ qoç, qara qoç” romanın epiqrafı hadisələrin əsas xəttini müəyyənləşdirmiş olur. Müasir ədəbiyyatda U.Ekonun “Fukonun rəqqası” romanında da belə epiqraflarla rastlaşırıq. U. Eko epiqraflarda elmi , fəlsəfi və dini mətnlərdən istifadə edir. Romanın adında və hər iki hissənin epiqrafında “Məlik Məmməd” nağılı arasındakı mətnlərarası əlaqənin yeni interpretasiyasını yaradır. Müəllif məlum obrazlar, süjetlər arasında variasiya edir, yeni mətn və epiqraf dominant mətnlərlə eksplesiv şəkildə bütünləşir. Müasir ədəbiyyatda intertekstuallıq epiqrafda, obrazların adı və presedent mətnlərdə təcəssüm edir. “Ağ qoç, qara qoç” da presedent mətn kimi “Məlik Məmməd” nağılı, “Dədə Qorqud” dastanı çıxış edir. Yazıçı romanı iki nağıla bölür, birinci nağıl gələcək hadisələrdən bəhs edir və müəllif bu hissədə artıq izahata ehtiyac duymur, ikinci nağılın epiqrafı isə artıq hadisələrin gərginliyinə işarə edir: “Bir də gördü ki, ağ qoçnan, qara qoç budu döyüşə-döyüşə gəlir. Məlikməmməd o saat sıçrayıb ağ qoçun belinə mindi. Amma ağ qoç bunu qara qoçun belinə tulladı. Qara qoç da Məlikməmmədi götürüb qaranlıq dünyaya apardı” (2. s.357). İkinci nağılın məzmunu haqqında məlumat vermək istəyi müəllif obrazını önə çıxarır: “ Qeyd: İkinci nağılda cərəyan edən hadisələr xronoloji zaman etibarı etibarılə Birinci nağılın davamı deyil. Bu iki bir-birinə alternativ olan olaylar eyni vaxt kəsiyində təsəvvür edilir” (2. s.35). Romanın iki hissəyə bölünməsi və hər hissənin əvvəlində verilən epiqraflar təhkiyənin çoxsəsliliyindən xəbər verir. Hadisələrin verilmə tezliyi və ya yeni mətnə trasformasiya edən nağıl, dastan süjeti yeni dövrün bütün müstəvilərdəki məsələlərini qədim dünyanın nağıl dili ilə qarşımıza çıxarır. İntertekstuallığın fəallıq qazandığı əsərlərdə epiqraf mətnlə dialoqda çıxış edir, təhkiyənin ikinci planını yaradır. “Ağ qoç, qara qoç” romanında epiqraf kimi verilir. Romandakı mətnlərarası əlaqə sadəcə fon deyil, müəllif düşüncəsinin aparıcı xəttidir.

İntertekstuallıq mətnin sərhədlərini genişləndirir, onun qapalılığını və sonluğunu sıradan çıxarır. Romanda mətnlərarası əlaqəni vizual olaraq kursivlər vasitəsi ilə verən müəllif bunu epiqraflarda, başqasına aid məktub mətnlərində (Burlanın Kərküktən yazdığı məktub.2. s.328), Pir Sultan Abdal, Qaracaoğlan, Aşıq Alıdan gətirilən misallarda, Birləşmiş Azərbaycan Respublikasının Ana Yasanın mətnində (utopik cəmiyyət modeli, 2. s.343) istifadə edir. M.M.Baxtinin təbirincə desək, kursiv “özgənin sözünü” aktiv tip olaraq qarşımıza çıxarır. Kursivin qarafik

olaraq fərqləndirilməsi "özgənin sözünü" mühafizəyə də xidmət edir. Romanda belə kursivlər daha çox birinci nağılda verilir. Utopiyanın üstünlük təşkil etdiyi bu hissədə geniş bir coğrafiya (Dərbənddən Həmədanacan, Qazaxdan Qəzvinəcən), Məlik Məmmədlinin Novruz bayramını Şuşada, Təbrizdə və Kərkükdə keçirən ailəsi mövzunun sərhədlərini nağıl süjetinin çərçivəsindən çıxarıb daha geniş bir topikanın içərisinə alır.

"Ağ qoç, qara qoç" romanında mətnin intertekstual mövqeyi özünü açıqca biruzə verir, nağıl süjeti ilə yanaşı "Kitabi Dədə Qorqud" dastanından alınan obrazların yeni trasformasiyası Məlikin oğlu Beyrəyin, qızı Burlanın, şəhərdəki Qorqud dağı, Ağ çadırdakı Dastan teatrı, Təpəgöz mağarası, Dədə Qorqud abidələr kompleksinin timsalında verilir. Əsərin aparıcı qəhrəmanlarının bir ailənin timsalında verilməsi həm də bəhs edilən coğrafiyada min illərlə yol gələn etnosa işarə kimi də qəbul oluna bilər. Birinci nağılda intertekstuallıq gizli deyil, açıq şəkildə verilir. Romanda təhkiyəçi statusda Məlik Məmmədli çıxış edir. İlk hissədə nağıl dili və yüyrəkliyi öndədir. Məlik Məmmədlinin daxili monoloqu kimi verilən bu hissədə obraz həm özü, həm ailəsi və yaşadığı cəmiyyət haqqında məlumatları dilə gətirir. Daxili nitq psixoloqiyada səssiz, düşüncə nitqi kimi qəbul edilir və insanın özü-özüylə danışması, nələrisə sadalaması aktı sayılır. Bu təbii ki, ətrafda baş verənlərin təsiri və transformasiyası şəklində özünü göstərir ki, burada situasiyadan şıxış etmə, ümumiləşdirmələr və fraqmentarlıq aparıcı xətt təşkil edir. Məlik Məmmədlinin daxili monoloqu kimi verilən birinci nağıl onun və yaşadığı şəhərin insanlarının taleyinindən, keşmişdə baş verən kədərli hadisələrdən (Qarabağ müharibəsi), həmçinin nikbin bir indiki zamandan, daha doğrusu utopik bir cəmiyyətdən bəhs edir. Daxili monoloq həm Məlik Məmmədlini, həm onun ailəsinin həyatından, hər birinin yaradıcı insan kimi cəmiyyətdəki fəaliyyətindən bəhs edir, həm də tarixi torpaqlarımızın bir sərhəd işərisindəki əzəmətini göstərir. Bu həmçinin gizli verbalizasiyadır. Müasir ədəbiyyatda daxili nitq şərti xarakter daşıyır. "Ağ qoç, qara qoç" romanında daxili monoloq obrazın daxili aləminin açılmasına deyil, böyük idealların utopik reallaşmasının təsvirinə yönəlir, bu baxımdan mətndəki şərtilik qapalı deyil, aşkar xarakteri ilə seçilir. Romanın ilk hissəsində, utopik nağılda intertekstuallıq daha geniş yer alır. Məlik Məmmədlinin təsvir etdiyi Dərbənddən Həmədanacan, Qazaxdan Qəzvinəcən eyni himni dinləyən xalqın uzaq tarixi ilə bu günü təsvir edərkən xalq ruhunda yazıb yaradan Pir Sultan Abdal, Aşıq Qurbani, Abbas Tufarqanlı, Qaracaoğlan, Dadaloğlu, Aşıq Veyseldən və ya "hər aşığın öz çeşməsi var" deyə romana gətirdiyi nümunələr intertekstuallığın eksplessiv şəklindən istifadə edir. Roman mətninin üzərində qurulduğu "Məlik Məmməd" nağılından "Ağ qoç, qara qoç"a gələn əsas obrazlar döyüşən qoçlar, Məlik Məmmədlinin (və ya Məlik Məmmədin) qaranlıq dünyanın timsalına çevrilən üç zona arasındakı axtarışları (yeni mətndə Məlik Məmmədlinin arxasınca getdiyi qızıl almalar deyil, üç müxtəlif zonaya düşən ailəsidir), hər iki nağılda varlığını qoruyan Ərxan və ya funksiyası etibarı ilə Zümrüd quşu. Yeni mətnə tranformasiya edərək daxil olan

obrazlar funksiya etibarı ilə eynilik göstərirsə də, yeni məzmun çaları qazanmış olur. Nağıl dünyasında yeni dünyaya transfer olunanlar bu nizam və ya nizamsızlıq içərisində dövr edənlərin ağ və ya qara qoçun üzərinə atlaması məsələsi də əsərdə açıq sonluqda çoxsaylı interpretasiyalara imkan yaradır. Birinci nağılda hər bir obraz - həm Məlik Məmmədli, həm də Ərxan (Zümrüd quşu) öz invariantına sadiq qalır. Məlik Məmmədlinin daxili monoloqu kimi verilən təhkiyəsi, Ərxanın ona hər bir müşkülündə yardım göstərməsi mətnlərarası əlaqının mükəmməl formasını yaradır.

"Ağ qoç, qara qoç"un ikinci hissəsini müəllif birinci hissənin davamı kimi deyil, bir –birinə alternativ olan eyni vaxt kəsiyində təsəvvür edilməsini qeyd edir. Bu hissənin "Dədə Qorqud" dastanı arasındakı əlaqəsi Məlik Məmmədlinin qızı Burla və oğlu Beyrək üzərindən qurulur. Burada dekonstruksiya və intertekstuallıq bir arada verilir. Birinci nağıldakı Kərkükdə ədəbiyyat dərsləri verən Burlanın adında və fəaliyyətində ciddi bir dönüş var. Bakı Sitidə Bura kimi tanınan və açıq-saçıq rəqsləri ilə tanınan bu gənc qadın arasında yerlə-göy qədər fərq var. "Dədə Qorqud" dastanında Bayandır xanın qızı, Qazan xanın xanımı kimi düşmən əsirliyində də kimliyini qoruyan Burla xatunun dekonstruksiyaya uğrayan yeni modeli zamana uyğunlaşmağı bacarır. Dastan qəhrəmanı Beyrəyin adını daşıyan, ilk nağılda haqqında eşitdiyimiz mühəndis Beyrək yeni zonada və ya rejimdə Boris Mamedov olaraq qarşımıza çıxır. Dəyişən dünya dəyişən qəhrəmanları ilə ata Məlik Məmmədlini dilema qarşısında qoyur. Romanda dəyişimə məruz qalmayan, öz funksiyalarını sona qədər yerinə yetirən obrazlar kimi Məlik Məmmədlinin və Ərxanın (Zümrüd quşu) adlarını çəkə bilərik. Hər iki qəhrəman ən qədim çağın, şifahi xalq yaradıcılığının nümunəsi olan nağıllardan gələn obrazlardır. Müəllifin onların üzərində hər hansı bir dekonstruksiya aparmaması, sadəcə mətnlərarası əlaqə kimi istifadə etməsi əsərin ümumi ideyası və ana mətinin ("Məlik Məmməd" nağılı) bütün qatlarının romanda yer alması faktoru ilə bağlıdır.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının öyrənilməsi istiqamətində aparılan tədqiqatlarda Anarın "Ağ qoç, qara qoç" romanı və C.Məmmədquluzadənin "Anamın kitabı" arasında paralellər aparılmışdır: "Anarın 2003-cü ildə qələmə aldığı "Ağ qoç, qara qoç" əsərində müasir Azərbaycan obrazını 1918-1920-ci illərdə C.Məmmədquluzadənin "Anamın kitabı" pyesində təsvir etdiyi situasiyaya adekvat qabartması, həmin təcrübəni dəyərləndirməyin faktı kimi alına bilər. "Ağ qoç, qara qoç" əsərinin predmetini bilavasitə çağdaş Azərbaycanın taleyi üzərində düşüncələr təşkil edir" (4. s.147.) . Bizim qarşıya qoyduğumuz problem çərçivəsindən baxanda da hər iki mətn arasında intertekstual əlaqədən bəhs etmək mümkündür. Romanda üç zonaya bölünən Bakıyla bir ananın övladlarının (üç oğlunun) arasındakı düşüncə ayrılıqları eynilik təşkil edir. C.Məmmədquluzadənin ana obrazı elə Vətən obrazıdır, Anarın romanında üç zonaya ayrılan Bakı isə həmin vətənin paytaxtıdıdır. Hər iki əsərdə intertekstuallıq müəllif ideyaları arasında qurulur. Fikir ayrılıqları içərisində vurnuxan cəmiyyət modelinin bu şəkildə təqdimini professor Tehran Əlişanoğlu belə dəyərləndirir: "Anarın "Ağ qoç, qara qoç" (2004) antiutopiyasında hadisələr üç

zaman çərçivəsində inkişaf edir. Bu antiutopiyanın fəlsəfi mühakiməsi üç «ideal» cəmiyyətin kinayəli müqayisə edilməsidir ki, üç əsas ideologiyalar əsasında yaradılmışdır: ənənəvi-islam, kommunist və burjua. Vurğulamaq lazımdır ki, postmodern əsərlərdə zamanların montajı özünü qabarıq göstərmişdir. «İdeal» ictimai quruluş formalarının nöqsanlarını qabartmaqla, Anar insanda irrasional başlanğıcın əhəmiyyətini tarixdən kənar ümuminsan dəyərləri ilə üç zaman kəsiyində, keçmiş, indiki və gələcək zamanda açıqlayır" (4. S.326).

Dünya ədəbiyyatı kontekstində baxsaq, "Ağ qoç, qara qoç" romanı ilə Corc Oruellin "1984" (5) romanı arasında da intertekstual əlaqədən bəhs etmək olar. "Ağ qoç, qara qoç"da zonalara ayrılan şəhər "1984" romanında Nazirliklərə və departamentlərə ayrılır. Məlik Məmmədlinin müxtəlif zonalarda yaşayan həyat yoldaşı, oğlu və qızı arasında gedən dialoqlarda fərd və ya xalq obrazı deyil daha çox kütləviləşən toplumun siması aydın görünür. Corc Oruellin "1984" romanında Fikir polisi tərəfindən ən sərt şəkildə izlənən fikir cinayəti "Ağ qoç, qara qoç"un bütün zonalarında daha ciddi təqib olunur. Məlik Məmmədlinin Bakı Kommunasında yaşamağa məcbur olan oğlu Beyrəyin (Boris) dilindən bu cəmiyyət belə təsvir edilir: "Bilirsən neçə oğul atasından, neçə ata oğlundan PP-yə (Proletar Patrulu) danos yerib, qanına bais olub" (2. S.387). Maraqlıdır ki, eyni paralelləri Yevqeniy Zamyatinin "Biz" (6) romanı arasında da aparmaq olar. Adlarını çəkdiyimiz romanların janrı müəllifləri tərəfindən antiutopiya kimi müəyyənləşdirilir. "Ağ qoç, qara qoç"un müəllif tərəfindən utopik və antiutopik nağıllar kimi müəyyənləşdirilməsi və "Antiutopiya üçün xarakterik olan kvazinominasiya hadisəsi – proseslərin, əşyaların, qəhrəmanların adlarının dəyişdirilməsi hadisəsi əsərdə ümumi qanunauyğunluq kimi qəbul edilməsi" (3. s.51) bədii əsərin həm Y.Zamyatinin " Biz" , həm də C. Oruellin "1984" romanı ilə intertekstual əlaqəsini önə çıxarır. Adlarını çəkdiyimiz əsərlərdə utopiyaya əks olan antiutopiya antijanr kimi meydana çıxır. Əgər utopiyada öndə olan ideal cəmiyyət və münasibətlərin həqiqət, xoşbəxtlik və harmoniya üzərində qurulmasıdırsa, antiutopiya gələcəyə, mövcud cəmiyyətə və insanlığa tənqidi münasibəti ilə seçilir, gələcəyə inamsızlıq və ümidsizlik bu janrın xarakterik cizgilərini müəyyənləşdirir. Antiutopik konflikt totalitar cəmiyyət və qəhrəman arasında cərəyan edir. Y.Zamyatin, C.Oruell və Anarın yaratdığı antiutopik cəmiyyətdə insan fərd olmaqdan çıxıb, kütlə funksiyasının daşıyıcısına çevrilir. Bu əsərlərdə "mən" yoxdur, toplum var. Lakin antiutopiya nizamsızlıq deyil, vahid ritmə uygunlaşmadır. "Ağ qoç, qara qoç"da hər üç zonada bəlli bir rituala uyğunlaşma var. Bakı Kommunasında hər gün məktəblərdə dərslər Marat yoldaşın şərəfinə şüarlarla başlayır, ikinci ritual kommunanın və Maratın düşmənlərinə qarğışla davam edir. Anar romanda konflikt yaratmır, çünki heç bir zonada qərarlar müzakirə olunmur. Yalnız bu zonalara kənardan daxil olan Məlik Məmmədlinin həm Vətəni, həm də parçalanan ailəsi üçün qorxusu var.

Anarın "Ağ qoç, qara qoç" romanında intertekstual əlaqələr üst qatda "Dədə Qorqud" dastanı və "Məlik Məmməd" nağılı üzərindədirsə, alt qatda Y.Zamyatinin və C.Oruellin məlum əsərlərinin də eskizlərini daşıyır.

ƏDƏBİYYAT:

1. İsa Həbibbəyli. Vətəndaşlıq mövqeyi və müasirlik. Azərbaycan qəzeti. 14 fevral 2018.
2. Anar.Seçilmiş əsərləri. Bakı, "Lider" nəş.2004,416 səh.
3. Pərvanə İsayeva. XX əsr Azərbaycan ədəbiyyatıının bədii strukturu və mifopoetik təfəkkür(nəsr və dramaturgiya əsasında.) Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı. 2016.
4. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, II cild. Bakı, "Elm və təhsil", 2016, 1090 səh.
5. Corc Oruell. 1984.Bakı, Qanun Nəşriyyatı. 2016. 384 səh.
6. Yevqeniy Zamyatin. Biz. İstanbul.İthaki Yayınları. 2015. 250 səh.

Джаббарзаде Турана

РЕЗЮМЕ

ИНТЕРТЕКСТУАЛЬНОСТЬ КАК ЧАСТЬ ХУДОЖЕСТВЕННОГО ТЕКСТА (НА ОСНОВЕ РОМАНА «БЕЛЫЙ БАРАН, ЧЕРНЫЙ БАРАН» АНАРА)

Современное литературоведение склоняется к идее, заключающейся в том, что любой художественный текст рождается благодаря десяткам другим, уже существующим. Надо отметить, что термин «интертекстуальность» своим появлением обязан французскому литературоведу Ю.Кристевой. По мнению ученого, интертекстуальность является диалогом между текстами. Ее можно рассматривать с двух точек зрения: как художественный прием, так и метод прочтения или познания текста. В романах XX века, относящихся к постмодернизму, интертекстуальность предстает со всеми специфическими особенностями. Ирония, пародия, пастиш, коллаж, метафора и символ, способствующие многогранности произведений, формируют определенный тип читателя.

В прозаических произведениях современной азербайджанской литературы, таких как «Белый баран, черный баран» Анара, «Голова» Эльчина, «Неполная рукопись» Камала Абдуллы, «Дастан кирпичника», «Белое озеро» Ш.Агаяра, «Убийство Хосрова Фархадом» Фахри Угурлу интертекстуальность проявляется как в форме имплисита, так и эксплисита. Они, как бы, пересекаясь, создают орнаментальный текст. Если оболочку

интертекстуальных отношений в романе «Белый баран, черный баран» Анара составляют элементы из дастана «Деде Горгуд» и сказки «Мелик Маммед», то более глубинный слой произведения заключает в себе эскизы из некоторых сочинений Ю.Замятина и Дж.Оруэлла.

Ключевые слова: Постмодернизм, Интертекстуальность, роман, текст

SUMMARY

Jabbarzada Turana

INTERTEXTUALITY AS A COMPONENT PART OF THE LITERARY TEXT (BASED ON THE NOVEL "WHITE RAM, BLACK RAM" BY ANAR)

The modern philology considers that each literary text is generated at the expenses of tens of other texts. The idea of "intertextuality" was used firstly by the French philologist Julia Kristeva. To the mind of J.Kristeva, the intertextuality means the dialogue amongst texts. We can consider the intertextuality both as an artistic method and as a method of reading and understanding the text. The intertextuality in the post-modern novel of the 20-th century becomes apparent with all aspects. The versatility formed as a result of irony, parody, pastiche, collage, metaphor and symbol contained in the literary texts identifies the concrete type of reader too.

In the prose texts, such as, "White ram, black ram" by Anar, "The Head" by Elchin, "The Incomplete manuscript" by Kamal Abdulla, "The Epic of brick moulder", "White Lake" by Sh.Aghayar, "Murder of Khosrow by Farhad" by Fakhri Ugurlu, the intertextuality creates ornamental text, passing through texts in an implicit and explicit manner. In the novel "White Ram, Black Ram" by Anar, the intertextual relations is read in two forms: in the surface layer they are based on the epic "Dada Gorgud" and the tale "Malik Mammad", and in the bottom layer – on sketches of the known novels of Y.Zamyatin and J.Oruell.

Key words: postmodernism,intertextuality, novel, text

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: fil.f.d. dosent Pərvanə Bəkir qızı İsayeva tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLİZADƏ FATMA ABBAS QIZI
Baki Slavyan Universiteti
Süleyman Rüstəm küç.
alizade_fatma@hotmail.com

"HƏYAT" QƏZETİ DÖVRÜNÜN İCTİMAİ DÜŞÜNCƏ SALNAMƏSİDİR

Xülasə

Elmi-tədqiqat işində XX əsrin əvvllərində çap olunmuş "Həyat" qəzetinin fəaliyyəti ilə bağlı elmi araşdırmalar aparılıb. Dövrünün ictimai-siyasi prosesləri qəzetin nəşri dövründə, onun səhifələrində publisistik əksini tapmışdır. Bu da müəyyən faktlara əsaslanaraq müəyyən fikir bildirməyə əsas verir. XX əsrin əvvəllərində mövcud olan erməni-müsəlman münaqişəsi tarixin qanlı səhifələrindən olmuşdur. Məsələnin həlli yolları ilə bağlı "Həyat" qəzeti böyük diqqət ayırır və dövrünün yaradıcı şəxslərinin publisistik məqalələrini çap etdirirdi.

XX əsrin əvvəllərində baş verən ictimai-siyasi proseslər, xüsusilə də 1905-ci ildə çar Rusiyası tərəfindən manifestin imzalanması böyük əks-səda doğurdu. Bununla bağlı hadisələrin hansı formada cərəyan etməsi "Həyat" qəzetində gündəlik olaraq məlumatlandırılırdı. Dumaya seçki məsələsi də dövrün aktual problemlərindən biri idi. "Həyat" qəzetinin redaktoru olan Əlibəy Hüseynzadə qəzetin fəaliyyəti boyu hansı vəzifələri həyata keçirməsi haqda ilk nömrəsində çap etdirdiyi "Qəzetin məsləki" adlı məqalədə göstərmişdir. "Müəllifin fikirlərinə görə hər bir millət öz dili haqqında, dini haqqında, tarixi haqqında, adət-ənənələri haqqında məlumatlı olmalıdır. "Həyat" qəzeti fəaliyyəti boyu bu vəzifəni həyata keçirəcəyini qarşısına məqsəd qoymuşdur. Ə.Hüseynzadə həmçinin mühərrirlərin savadlı olmasının vacibliyini vurğulayırdı. Onun fikirlərinə görə, əgər mühərrirlər özlərinin milli varlıqlarından, milli dəyərlərindən xəbərsizdirlərsə, xalqı necə maarifləndirə bilərlər.

"Həyat" qəzetinin səhifələrində məşhur "Türklər kimdir və kimlərdən ibarətdir" adlı silsilə məqalə dərc olunmuşdur. Məqalədə Əlibəy Hüseynzadə türklərin səhvən tatar adlandırılmasını vurğulayırdı. Sonda müəllif türklərin üç səhvən tatar adlandırılan türklərin üç şöbəyə bölündüyünü vurğulayırdı. 1. Sibirdə müxtəlif adlar altında yaşayan qəbilələr. 2. Rusiya-avropa türkləridir ki, mənşəcə bulqarlardan, qıpcaqlardan olan türkdilli tayfalardır. 3. Qafqazın qonşu tayfaları tərəfindən səhvən tatar adlandırılan türklərdir.

Çarizmin XX əsrin əvvəllərində müstəmləkəçilik və rüslaşdırma siyasəti də gündəmdə idi ki, "Həyat" qəzetində aktual bir mövzu kimi əks olunurdu. "Həyat" qəzetinin əməkdaşları dövrün hadisələrini yalnız olduğu kimi təsvir edərək auditoriyaya çatdırmır, həm də ona analitik münasibət bildirirdilər.

Açar sözlər: *Ə.Hüseynzadə, "Həyat" qəzeti, türklər kimdir, hikməti-təbii, hikməti-ilahi, Axund Əbu Turab.*

Bir əsrdən artlq tarixi olan Azərbaycan mətbuatı çox tələtümlü, mürəkkəb, ziddiyyətlərlə dolu inkişaf yolu keçmişdir. Bu inkişaf keçidlərində qələbələr də olub, məğlubiyyətlər də, qazanılanlar da, itirənlər də. Əlbəttə ki, nə qədər məğlubiyyət və bu məğlubiyyətin içindən gələn itirənlər olsa da, hər bir məğlubiyyətin daxilində bir örnək olmuş və hər bir məğlubiyyətin daxilindən bir qələbə işığı, bir qələbə nuru sızılmışdır.

"Həyat"da dövrünün qələbə və məğlubiyyət çalarlarının qarışığından doğan bir mətbuat orqanı olmuşdur. XX əsrin əvvəllərində Azərbaycanda nəşr olunan ilk anadilli qəzet sayılan "Həyat" siyasi, iqtisadi, ticari və ədəbi türkcə islam qəzetəsi olaraq dövrünün ictimai-mədəni həyatında baş verən hadisələri səhifələrində canlandırmış, " ... dünya və həyat bir meydani-cəngdir" deyərək bu meydani-cəngdə, yəni döyüş meydanında millətini qələmlə müdafiə etməyi bir vəzifə borcu kimi qarşısına qoymuşdur. "Həyat" üçün "millət", "dil", "din", məfhumları böyük bir fəlsəfi anlam kimi qəbul edilir, millət kimi varlığını möhkəmləndirmək üçün hər şeydən əvvəl geriləməyin səbəblərini aydınlaşdırmağı zəruri hesab edirdi: "Filhəqiqə səbəb nədir ki, bütün ətrak, bütün aləmi-islam bu gün sair əqvami-mutəməddinəyə nisbətən bu qədər geri qalmişdır. Bu məsələ barəsində gələcəkdə bitərəfanə və biqərəzanə bilaxof sözü aşkar söyləməyi özümüzə borc biləciyik. Ancaq doğru irareyi-təriq xüsusunda əsla etidali-lisan və etidalı əfkardan ayrilmayacağız" [1, №1, 1905]. Yəni, islam dünyasının digər millətlərin fəaliyyəti boyu oxucuların nəzərinə çatdıracağı və bu xüsusda dil və fikir birliyindən ayrılmayacağını qeyd edirdi. Millətinin tərəqqisinə xidməti bir məslək kimi qarşısına qoymuşdu.

Qəzetin məsləkinə görə hər bir millət dili, dini, tarixi, adət-ənənələri, keçmişi haqda bilgi əldə etməlidir və bu fikir "Türklər kimdir və kimlərdən ibarətdir" adlı silsilə məqalədə bir qədər tamamlanır. Araşdırmalar zamanı Əlibəy Hüseynzadə bir məsələni diqqət mərkəzində saxlayır ki, bəzi türk mühərrirləri türklərin kim və kimlərdən ibarət olmaqlarını anlamırlar. Əlbəttə ki, bu millətin dünya sivilizasiyandan geri qalmağına bir işarə idi. Xalqın maariflənməsi sahəsində çalişan mühərrirlər milli varlıqlarından, milli dəyərlərindən xəbərsizdirlərsə, bu mədəni geriliyə bir işarədir və müəllif bunun səbəbini elmin zəif inkşafında görürdü. Əlibəy qeyd edirdi ki, nə keçmişə dönmək, nə də gələcəyə ümid bağlamaq lazımdır. Darülfünlər, yəni universitetlər, məscidlər, cəmiyyətlər mövcud olmalı, alimlər yetişməli, digər məmləkətlərə tədqiqatla məşğul olmaq üçün elm adamları göndərmək lazımdır.

Türklərin kimlərdən ibarət olması məsələsinə gəldikdə isə Əlibəy onların səhvən tatar adlandırılmasını qeyd edirdi. Tatarlar moğol cinsinə mənsub olub, onların bir hissəsini təşkil edirlər və məhz bu səbəbdən moğollara məxsus dil, cins və cöhrələri vardır. Türklərin bir qismi səhvən tatar adlandırılır. Bu da bəzi türklərin

xarici görünüşünün moğollara bənzəməsindən irəli gəlir. Bəziləri türkləşmiş moğollar və ya moğol qanı ilə qarışmış türklərdir. Tatarların bir qisminin Hind-İran tayfalarına, bəzilərinin isə moğollara aid edildiyi göstərilir.

"Madam ki, hər iki cöhrə mövcuddur, o halda elmi-qəvam və elmi bəşər nöqteyi-nəzirindən hansı çöhrəni ədd etməliyiz? Moğollarımı, yoxsa hind və avropalılara müşabeh olanlarımı (oxşayanlarımı); məsələ qayət müşküldür.... Ola bilər ki, ən qədim zamanlarda dəxi hər iki cöhrə mövcud idi... Lakin cöhrə məsələsin mücərrəd, özbaşına o qədər əhəmiyyəti yoxdur" [6,213] fikrini ifadə edən Əlibəy Hüseynzadə bəzi türklərin türk ola-ola öz lisanlarını unudub digər dildə danışmalarını və bəzi qeyri-türk qövmdən olanların türkcə təkəllümə edərək bu millətin daxilində qaynayıb qarışdığını nəzərə çatdırırdı.

"Tatar" termini ilə əlaqədar tədqiqatçılar müxtəlif yanlış fikirlər yürütmüşlər. Bəziləri moğol, tunğuz, tibeti, türk və s eyni şöbədən olaraq tatar adlandırılmış, bəziləri hər iki ifadəni (türk və tatar sözlərini) eyni mənalı kimi qəbul etmişlər və bu yanlışdır, digərləri isə tatar qövmlərini türklərin bir şöbəsi kimi qəbul etmələri idi. Məqalədə görkəmli türk leksikoqrafı Şəmsəddin Samibəyin fikrinə əsasən tatar türk millətinin qövmü olub, moğollara tatar deyilmişdir.

Məqalənin sonunda Əlibəy səhvən tatar adlandırılan türklərin üç şöbəyə bölündüyünü qeyd edir. 1. Sibiryanın geniş səhralarında yüzlərcə müxtəlif adlar altında yaşayan qəbilələr. XIII əsrin birinci yarısında əsası Batıxan trəfindən qoyulan Qızıl Orda hökuməti daxilində etnik mənşəli xalqlar yaşayırdı: bulqarlar, tatarlar, qıpçaqlar və s. Qızıl Ordanın dili qıpçaq dili və burada yaşayan qəbilələr əsasən qıpçaq nəslindən idi. 2. Rusiya-avropa türkləri. Bunlar ya mənşəcə bulqarladan, qıpçaqlardan olan türkdilli tayfalardır, ya da türk tayfalarının qıpçaq dilinə daxil olan kumlılardır. 3. Qafqaziyanın qonşu tayfaları tərəfindən səhvən tatar adandırılan türkləri. Qafqaz silsilə dağlarının cənub tərəfində yaşayan Azərbaycan türkləri və həmin dağların şimal tərəfində sakinləşmiş noğay, bulqar, ləzgilərə qarışan kumik, kabarda və digərləri.

"Həyat" qəzetində yer alan digər aktual mövzu oxucuların diqqətini cəlb etmiş və sonradan ziyalılar arasında disskusiyalı mövzuya çevrilmişdir. Bu, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşamış dini xadim Axund Əbu Turabın "Həyat" qəzetinin 106-cı nömrəsində verilmiş "Bizə hansı elmlər lazımdır?" ünvanlı məqaləsi idi. Məqalədə deyilirdi: "Hikməti-təbii bilməklə insan olmaq olmaz, hikməti-ilahi ilə kamil olmaq insanı insan edər... Əgər insan dəyanəti-islamiyyəyə alim və arif ola və ülumə cahil (elmə savadsız), əlbəttə insaniyyətə zərər yetirməyəcəkdir. Əgər bir şəxs tamam ömrünü ülumi-riyazi (ruyazi elmi) və hikməti-təbii təhsilində sərf edə, müəllimi əvvəl Aristotalis məqamını dərk edə, əlbəttə təriqi-übudiyyətə, həqqa aliyə, alim və arif olmayacaq və insaniyyət şəhrinə daxil olmayacaqdır". Göründüyü kimi, Axund Əbu Turab fərdin insani dəyərlərə malik olması üçün dini əsas götürür, elmi isə ikinci dərəcəli amil kimi hesab edir. Əgər belə isə "Peyğəmbər (s) və Əhli_Beyt(ə) gülüstanından bir dəstə gül" əsərinə müraciət

etcək, qeyd olunur ki, "Elm öyrənən şəxs gündüzləri oruc tutan, gecələri isə səhərə kimi ibadətlə keçirən şəxs kimidir. İnsanın öyrəndiyi bir elm toplusu Əbu Qubeys dağı qədər qızılı, malı olub onu Allah yolunda ehsan etməsindən daha fəzilətlidir" [2, 74]. Təbii ki, nə din elmi inkar edir, nə də elm dini. Fənni elmlər fərdin kamilləşməsinə, formalaşmasına təkan verirsə, dini elmlər insanın mənəvi zənginliyinə, təmizliyinə, saflığına və insan varlığına məxsus olan ən zərif, incə hisslərin, duyğuların oyanmasına təsir edir. Həmin fəzilətlərdən digər bir nümunə: "Əgər insanlar elm kəsb etməyin necə böyük dəyərli olduğunu bilsəydilər, onu hətta qanlarını axıtmaqla və tufanlı, dalğalı dənizləri yarmaqla belə kəzb edərdilər" [2, 74-75].

Əlbəttə ki, "Həyat" qəzetinin redaktoru olan Əlibəy Hüseynzadə bu yazını qəzetin məsləkinə uyğun gəlmədiyini, lakin bununla belə müəyyən rol oynadığını "Axund Əbu Turab Həzrətləri "Elmi-əbdan" sərlövhəli məqaləsində açıqlamışdır. XX əsrin əvvəllərində ölkədə baş verən ictimai-siyasi proseslər və bu proseslərin axınında müsəlmanların qarşılarına çıxacaq hər hansı maneələri dəf etmək üçün və gedəcəkləri hər hansı bir yolda hansını seçəcəkləri təqdirdə "Bizə hansı elmlər lazımdır?" məqaləsi müəyyən əhəmiyyət kəsb edir. Əlibəy Hüseynzadəyə görə nə həqq və aydın olan din elmdən qorxur, nə də elm din və məshəbə düşməndir. İxtilafin elm və din arasında deyil, özlərini din adamı bilən mollalarla dini elmlərdən xəbərdar olmayan elm və maarif adamları arasındadır. Axund Əbu Turab yazır: "Kişi bilmədiyi elmə düşməni olur, şəxs özgələrini öz düşməninə tərəf dəvət etmək qeyri-məquldur!" [1, № 106, 1906] Buna cavab olaraq Əlibəy Hüseynzadə bütün elmlərin: dini və fənni elmlərin insan üçün vacibliyini açıqlayır və hətta Rəsuli-əkrəmin buyurduğu kəlamı qeyd edir: "Elm oxumaq bütün müsəlman kişi və qadınlarına vacibdir. Beşikdən qəbrə qədər elm öyrən, Çində olsa da, elmi ara" [1, №106, 1906].

Fikirlərə aydınlıq gətirmək üçün Mövlanə Cəlaləddin Ruminin fəlsəfəsinə müraciət edək: "Zahiri elmlər, yəni xarici, maddi aləmi öyrənən elmlər yalnız o zaman əhəmiyyətli olur ki, bədəndən çox qəlbə qulluq edir, ruhdan qida alır, surətdən mənaya keçir" [7, 154].

Qeyd olunan mövzu "Əkinçi" qəzetində də öz yerini almış, Heydəri, Əhsənül Qəvaid, Zaqafqaziyanın Şüyxülislami axund Əhməd Hüseynzadə və digərləri tərəfindən müxtəlif, bir-birinə zidd xarakterli fikirlər qəzetin məktubat bölməsində verilmişdir.

Əhsənül-Qəvaidin fikirlərinin məzmununa diqqət yetirdikdə insan təfəkkürünün inkişafında elmin nə dərəcədə əhəmiyyətli olduğunun dinin də təsdiq etdiyi və bu təsdiqin "Ağıl o şeydir ki, ona allahın özü də itaət edər" [4, 109] ifadəsində əksini tapdığı aydın görünür. Əhsənül Qəvaid yazır: "İnsan ömrünün ibtidaisindən intəhasına qədər möhtacdır təhsili-üluma. Ütlübül-elmə min əl məhdi-ilallahdi (Elmi tələb elə beşikdən qəbrə kimi) [4, 109]. "İnsana lazımdır ki, özün və əhlin elmi-din və məad ilə atəşi-duzəxdən (duzəx – cəhənnəm) saxlasın, həmçinin gərək tərbiyyəti-ülum ilə özün və əhlin cəhalət odundan hifz etsin" [4, 116].

Lakin etiraf etməliyik ki, hər bir elmə sahib olan şəxs ağıl və hikmətə sahib olmur. İbtidaisindən intəhasına qədər elm ilə məşğul olan fərd insaniyyət anlayışından kənar və hətta deyərdim ki, daxilən mənəvi təmizliyə ehtiyacı olur. Bəzən həddindən artıq elmə qapanma onu ətrafında insanlarla ünsiyyətdən təcrid edir və cəmiyyətdə elmdə topladığı fikir və ideyaları öz təfəkkür baxımından qəbul etdirməyə çalışır.

Bu formada elmə qapanma bəzi hallarda şəxsi məhvə doğru aparır. Məhz bu baxımdan insanın həm fənni elmlərə, həm də dini elmlərə ehtiyacı vardır və hər bir elm cəmiyyət üçün yaşamalı və inkişafına xidmət etməlidir.

"Axund Əbu Turab həzrətləri" başlıqlı məqalədə Əlibəy Hüseynzadə mübahisə xarakterli bu mövzunun qədimliyini qeyd edərək yazır ki, "Bu mübahisəyə müsəlman üləmasından Əbu Əli Sina, Fərabi, İbn Rüşd kibi dahilər girişmişlərdi..." [1, №106, 1906]. Həqiqətən, Şərq filosoflarının yaradıcılığına müraciət etcək, avropalılar tərəfindən Avisenna kimi məşhurlaşan Əbu Əli Hüseyn İbn Sina "İnsan ağlının vəhdəti nəzəriyyəsi"nin yaradıcısı idi. Əbu Nəsr Əl-Fərabi "Etiqad qarşısında ağılın prioritetinə əsaslanan sosial utopiya konsepsiyası"nda "İnsan yalnız ağlın sayəsində insan olmuşdur", "Ancaq ağlının gücü ilə insan elmə, incəsənətə yiyələnir, əxlaq və əməllərində yaxşını pisdən ayıra bilir" kimi fikirlərini əxz edərək bildirir ki, ədalətli bir şəxs olmaq üçün nəzəri müdrikliyə malik olmalı və həmin nəzəri biliyin daşıyıcısı elm və fəlsəfənin sayəsində bir insan kimi fərdiləşməlidir.

XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələri "Həyat" da yaşayır və cərəyan edən prosesləri səhifələrində canlandırırdı. Çarizmin müstəmləkəçilik siyasəti müxtəlif istiqamətlərdə aparılır və bu siyasətdən doğan ruslaşdırma siyasəti də həyata keçirilməyə başlayırdı. Azərbaycanda kəndlilərin torpaqlarının az olmasına baxmayaraq Rusiyadan vaqonlarla buraya gətirilən rus və erməni millətləri yerli əhalinin torpaqlarında qovulması nəticəsində torpaqla təmin olunur, hətta Azərbaycanın ən münbit torpaqları olan Muğan və Mil düzlərində yerləşdirilirdi. Əlbət ki, çarizmin bu köçürmə siyasəti Azərbaycanda baş verən sonrakı proseslərə öz təsirini göstərməyə bilməzdi. Belə ki, əsrin əvvəllərində baş verən iqtisadi böhranla əlaqədar işsizliyin sayının artması fəhlə tətillərinə səbəb olurdu. Sənayedə çalışan və Rusiyadan gəlmiş fəhlələr Rusiyada baş vermiş tətillərdən müəyyən təcrübə toplamış və tətillərdə əsas aparıcı rolu onlar oynayırdılar. Azərbaycanda milli-azadlıq hərəkatı geniş vüsət almışdı. Çarizm sakitliyi bərpa etmək üçün millətlər arasında münaqişə yaratmağın zəruri olduğunu hesab edir və buna nail olur. 1905-1906-cı illərdə ermənilərlə azərbaycanlılar arasında milli qırğın başlayır.

"Həyat" baş vermiş hadisələrlə əlaqədar vəziyyəti "Bundan sonra nə etməli?" məqaləsində belə təsvir edirdi: "Şəhər iki qismə, erməni və müsəlman məhəllələri namilə iki qismə ayrılmış idi. Canını, həyatını təhlükəyə qoymadan nə bir müsəlman erməni məhəlləsinə gedə biliyor, nə bir erməni bəri tərəfə ayaq basıyor

idi. Gecə, ya gündüz kimsə əsgərsiz, mühafizəsiz bir yana hərəkət edəmiyor idi" [1, № 68, 1905].

"Böyük Ermənistan" yaratmaq arzusu ermənilər illər boyu ən mənfur əməllərə əl atmağa sövq etmiş və rusların köməyi ilə bu niyyətlərini həyata keçirməyə çalışmışlar. Əlibəy Hüseynzadə "Nə etməli?" sualına cavab olaraq millətçilik xarakterindən uzaq olmağı, insaniyyət baxımından irəli gələrək humanistlik göstərməyi məsləhət görürdü. Əlbəttə ki, illər boyu xalqımızın bu səmimiyyətinə görə XXI əsrin əvvəllərində torpaqlarımızın 20 faizi ermənilər tərəfindən işğal olunmuşdur.

"Erməni vətəndaşlarımıza tövsiyyə və ixtaratımız" məqaləsində nəzəri cəlb edən bir məqam diqqətdən yayınmır: "...ermənilər haqlı, insaniyyətli, bigünah və məsum bir quzu kibi göstərməyə, bizi isə bütün bunun əksi – övsaf ilə tövsif etməyə qeyrət ediyorlar, qəzetlərlə, teleqraflarla, ajanslarla Avropanın bir ucundan o biri ucuna, bəlkə ta Amerika və Avstraliyaya qədər o yolda fəryadlar ediyorlar" [1, № 21, 1905]. Nə qədər tanış səhnə?! Tarix təkrar olunur. Bir əsr sonra, XXI əsrin əvvəllərində də ermənilər eyni siyasəti davam etdirir və törətdikləri vəhşiliklərdən sonra dünya "səhnəsində" özlərini "bir quzu kibi" təqdim edirdilər. Əlibəy çox gözəl bir ifadə verərək bildirirdi ki, ermənilər öz mənfur əməllərini söz tufanı içində boğurdular.

Hadisələrin gedişatında ermənilərin "Mşak" qəzetəsi Azərbaycanın qabaqcıl ziyalılarından olan, Bakı şəhər dumasının üzvü Fürrux bəy və Əhməd bəy Ağaoğlunun Qarabağa qarışıqlıq, nifaq salmaq üçün yollandıqları haqda yanlış məlumat vermişdi. Əlibəy göstərirdi ki, Fərrux bəy və Əhməd bəy həmin məqamda Baknı tərk etməmiş, tərəfləri barışdırmaq üçün çıxışlar, məqalələrlə mövqelərini bildirmişlər və əgər getmişlərsə, öz vətənləri Qarabağa getmişlər. Məqalədə digər xarakterik cəhət özünü büruzə verir ki, bu da ermənilərin türk dünyasının ittihadından, xalqın qəflət yuxusundan ayılıb maarif və mədəniyyətə doğru yol açmalarından qorxmaları idi.

Tarix boyi millətimizin başına gələn bəlaları çox zaman başqalarında axtarır, daxilimizdə olan səbəbləri görmür və görmək istəmirik. Nəcəf bəy Vəzirovun yaratdığı Əşrəf bəy obrazının dili ilə desək, "Bu saat yer üzündə nə qədər müsəlman var, cəmən zəlalətdədir... Səbəb? Ehkami-şəriət bilmərrə yaddan çıxıb... Elm yox, tərbiyə yox, ədəb yox... Tamaşa edin, divanxanalar qapısında qoyun sürüsü kimi boyun-boyuna büzülüb yığılan kimdir? Müsəlman! Bir-birinin canına-malına düşmən kimdir? Müsəlman! Sərgərdan, əli qoynunda neyləyim deyən kimdir? Ah? Yazıq, bədbəxt, biçarə müsəlman!.. [3, 85].

Yuxarıda qeyd olunan fikirlər Azərbaycanın möhtəşəm ziyalısı Əhməd bəy Ağaoğlunun H.Zərdabinin dəfnində söylədiyi nitqində də ifadə olunur. Bu fikirlər bəlkə də nəsil-nəsil insanların öz əcdadlarına verdiyi sualdan irəli gəlir və hardasa biz, bu günki nəslin nümayəndələri də bu məsuliyyəti öz üzərimizdə hiss edəcəyik. "Ey ali ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadlarımızın

hüzuruna! Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: Ey əcdad, ey babalar! Bizə nə gün qoydunuz?! Bizə nə növ irs qoydunuz, getdiniz?! Stanlarımız xərabə, vilayətlərimiz viranə! Günü-gündən tənəzzül edib, günü-gündən puç və zay olmaqdayız! Əlan işimz, sənətimiz oğurluq, quldurluq, bir-birinin canına, malına, irzi-namusuna qəsd etmək imiş! Ey kaş nə biz olaydıq, nə böylə irs" [8, 97].

Azərbaycan ictimai fikri mətbuat tarixində əhəmiyyətli yer tutan "Həyat" qəzeti materiallarının araşdırılmasından aydın olur ki, burada çıxış edən müəlliflər yalnız dövrün problem, fakt və hadisələrini təsvir etmir, həm də gerçəkliyə analitik münasibət bildirir, onun islah olunması və dəyişdirilməsinə çalışırdılar. Milli- mədəni dəyərlər, ictimai-siyasi yeniliklər və s. dair aydın, obrazlı və elmi obyektivlik əsasında yazılan publisistik materiallar belə bir fikri birmənalı şəkildə söyləməyə əsas verir ki, "Həyat" qəzeti XX əsrin əvvəllərini tam mənzərəsi ilə əks etdirən mətbuat orqanı, dövrünü ictimai düşüncə salnaməsidir.

ƏDƏBİYYAT

1. "Həyat" qəzeti. 1905 – 1906-cı illər.
2. Peyğəmbər (s) və Əhli-Beyt (ə) gülüstanından bir dəstə gül. 2005.
3. "Əkinçi" 1875-1877. (Tam mətni). Bakı,Azərnəşr. 1979. 463 səh.
4. Vəliyev Ş.Q. Füyuzat ədəbi məktəbi. Bakı. "Elm" nəşriyyatı. 1999. 443 səh.
5. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir. Tərtib edəni, transliterasiyası Ofelya Bayramlı. Bakı. "Mütərcim". 1997. 292 səh.
6. Rüstəmov Y. Mövlana Cəlaləddin Ruminin sufilik fəlsəfəsi. Təkrar nəşr. Bakı. "Nurlan" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2006. 240 səh.
7. Hənifə xanım Məlikova-Abayevanın xatirələri. Bakı. 2005.
8. Məmmədov İ.M., Məmmədov Ç.İ. Siyasi tarix. XX əsr. Bakı. "Çıraq " nəşriyyatı. 2006. 352 səh.

Ф.А.АЛИЗАДЕ

ГАЗЕТА «ХАЯТ» КАК ЛЕТОПИСЬ ОБЩЕСТВЕННОЙ МЫСЛИ СВОЕГО ВРЕМНИ

РЕЗЮМЕ

В научно-исследовательской работу проведены научные исследования, связанные с деятельностью газеты «Хаят», опубликованной в начале XX века. Публицистические отражения общественно-политических процессов в период печати газеты нашли место на страницах газеты. Это создает возможность обоснования мнений в необходимыми фактами. Армянский – мусульманский конфликт, возникший в начале XX века являются кровавыми страницами нашей истории. Решению вопросов в связи с этим газета «Хаят» уделял большое внимание и печатал публицистические статьи отражающие мнения творческих лиц того времени.

Общественно – политические процессы, происходившие в начале XX века, особенно подписание манифеста царской Россией, вызывали большой

резонанс. О форме событий, происходивших в связи с этим, ежедневно информировали в газете «Хаят». Одной из актуальных проблем того периода было избрание в Думу. Редактор газеты «Хаят» Алибек Гусейнзаде в статье «Цель газеты», опубликованной в первом номере, указал на задачи газеты на протяжении своей деятельности. По мнению автора, каждая нация должна знать о своем языке, о своей религии, о своей истории, о своих традициях и обычаях. Газета «Хаят» поставила перед собой цель осуществления этой задачи в своей деятельности. А. Гусейнзаде также подчеркивал важность грамотности журналистов. По его мнению, если журналисты не знают о своей национальной сущности, о своих национальных ценностях, каким образом они смогут просветить народ.

На страницах газеты «Хаят» был опубликован цикл статей «Кто такие тюрки и из кого они состоят». Алибек Гусейнзаде в статье подчеркивал ошибочное название тюрков «татарами». Далее автор подчеркивал разделение на три отделение тюрков, которых ошибочно назвали «татарами». 1. Племена, живущие в Сибири под различными названиями. 2. Российско – европейские тюрки, которые по происхождению являются тюрко-язычными племенами из булгаров и гыпчагов. 3. Тюрки, которых соседние племена Кавказа ошибочно назвали «татарами».

В начале XX века политика царизма по колонизации и русификации также была актуальна, которая в газете «Хаят» отражалась как актуальная тема. Сотрудники газеты «Хаят», описывая реальности, не только доводили до аудитории события эпохи, но и выражали свое аналитическое отношение.

Ключевые слова: *А.Гусейнзаде, газета «Хаят», кто такие тюрки, природная мудрость, божественный, Ахунд Абу Тураб.*

F.A.ALIZADE

“HAYAT” NEWSPAPER IS A PUBLIC THOUGHT CHRONICLE OF ITS PERIOD

SUMMARY

Scientific researches were carried out related to the activity of “Hayat” newspaper published in early 20th century in the scientific research work. Publicist reflection of the public and political processes occured in the period of newspaper publication have been issued on the pages of the newspaper that, this allows to base thoughts with necessary facts. Armenian and Muslim conflict happened in early 20th century is one of the bloody pages of our history that, “Hayat” newspaper gave much importance to the settlement of the issue on this and published publicist writings in which the thoughts of creative persons of its period have been reflected.

The socio-political processes that took place in the early twentieth century, especially the signing of the manifesto by Tsarist Russia in 1905, caused a great stir. The “Hayat” newspaper was informed on a daily basis about the form of events in

this regard. The issue of Duma elections was also one of the urgent problems of the time. Alibay Huseynzada, the editor of the “Hayat” newspaper, wrote an article in the first issue entitled "The newspaper's profession" about the newspaper's responsibilities throughout its existence. According to the author, every nation should be aware of its language, religion, history and traditions. “Hayat” newspaper has stated that it will fulfill this task throughout its existence. A. Huseynzada also stressed the importance of literacy of editors. Therefore, if editors are unaware of their national existence and national values, how can they enlighten the people.

The “Hayat” newspaper published a series of articles entitled “Who are the Turks and who they consist of”. In the article, Alibay Huseynzada stressed that the Turks were mistakenly called Tatars. In the end, the author emphasized that the Turks were divided into three sections, the Turks, who were mistakenly called Tatars. 1. Tribes living in Siberia under different names. 2. Russian-European Turks are Turkic-speaking tribes of Bulgarian and Kipchak origin. 3. The Turks are mistakenly called Tatars by the neighboring tribes of the Caucasus.

Tsarist policy of colonization and Russification in the early twentieth century was also on the agenda, which was reflected in the newspaper “Hayat” as a topical issue. Employees of the “Hayat” newspaper not only described the events of the period as they were, but also gave them an analytical attitude.

Key words: *A.Huseinzadeh, “Hayat” newspaper, who are the Turks, natural wisdom, natural divine, Akhund Abu Turab.*

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Şamil Vəliyev
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞÜKÜROVA MƏHBUBƏ
Lənkəran Dövlət Universiteti
mehbube.sukurova@bk.ru

BƏDİİ ƏSƏRLƏRİN KOMPOZİSİYASININ TƏDRİSİ YOLLARI

XÜLASƏ

Açar sözlər: Ədəbiyyat, kompozisiya, əsər, metod, tədris

Şagirdlərin həyata baxışlarının formalaşmasında bədii əsərlərin çox böyük rolu vardır. Amma təbii ki, bu əsərlər şagirdlərə pərakəndə formada deyil, müəyyən ardıcıllıqla və sistemli şəkildə öyrədilməlidir. Bədii əsərlərin öyrədilməsində sənətkarlığın çox vacib amili olan kompozisiya və süjet xüsusiyyətlərinin öyrədilməsi ədəbiyyat dərslərinin tədrisində mühüm məsələlərdən biridir. Tədris zamanı əsərin kompozisiya və süjet xüsusiyyətlərinin təhlili üçün ilk növbədə şagirdlərə bu anlayışların mahiyyəti izah olunmalıdır. Biz bu məqalədə əsasən kompozisiya xüsusiyyətlərinin izahına diqqət yetirəcəyik. Kompozisiya – (komposite latın sözü olub – mənası tərtib etmək, qurmaq) deməkdir.

Ədəbiyyatşünaslıq elmindən bizə məlumdur ki, sənətkarın müşahidə etdiyi, seçdiyi həyat hadisələrinin bir – biri ilə əlaqələndirilməsinə, müəyyən ardıcıllıqla və sistemlə qurulmasına kompozisiya deyilir. Ümumtəhsil məktəblərində ədəbiyyat nəzəriyyəsi fənnində kompozisiya mövzusunu tədris edərkən şagirdlərə mövzunu tam mənimsətmək üçün aşağıdakı aspektləri izah etmək lazımdır ki, bədii əsərlərin təhlilində çətinliklər yaranmasın. Ədəbiyyatşünaslıqda bədii əsərin kompozisiyasına yazıçı sənətkarlığının mühüm göstəricisi kimi yanaşılır.

Fəxrəddin Yusifov "Ədəbiyyatın tədrisi metodiksı" kitabında kompozisiya haqqında belə qeyd edir. O, sənətkarlığın bariz ifadəsidir. Onun əsas vəzifəsi təsvir olunan əhvalat, hadisə və ya hisslərin təbii, canlı, bədii, və qanunauyğun formada yerləşdirilməsinə xidmət etməkdir. [1.,s.131]

Yazıçı əsərin məzmununu, obrazları, hiss və həyəcanları, əşya, təbiət təsvirlərini necə gəldi deyil, bir – biri ilə əlaqədə, müəyyən bir tərtibdə, sistemdə təsvir edir. Məhz yazılan əsərin quruluşu, orada təsvir olunan hadisələrin bir – birilə əlaqəsi müəllifin məramından, əsəri yazarkən qarşıya qoyduğu niyyətindən asılı olaraq müəyyənləşdirilir. Görkəmli ədəbiyyatşünas alim M. Rəfili yazır ki, bədii əsərin mürəkkəb ünsürlərinin və cüzlərinin təşkili və tərtibinə, hadisələrin və məzmunun quruluşuna kompozisiya deyilir. [7.,s.171]

Tədris zamanı kompozisiya şagirdlərə iki mərhələdə öyrədilir.

1) V – IX siniflərdə bədii əsərin kompozisiyasının təhlili
2) X – XI siniflərdə bədii əsərin kompozisiyasının təhlili

Hər iki məqamda məqsəd əsərin quruluşunun bir – biri ilə necə əlaqələndirilməsinin şagirdlər tərəfindən tam mənimsənilməsidir. Bunu orta ümumtəhsil məktəblərində

tədris olunan bir nümunə əsasında izah edək. Məsələn, X sinifin ədəbiyyat dərslərində tədris olunan Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsəri üçün dörd saat vaxt ayırılmışdır. Təcrübəli ədəbiyyat müəllimi bu dərs prosesini elə qurmalıdır ki, bu dörd saat müddətində əsərin məzmun və formasını, süjet və kompozisiyasını şagirdlərə tam öyrədə bilsin. Burada əsərin kompozisiyasında verilir: Əhvalatı – qəhrəmanların başına gələni danışır, sonra onun daxili aləmini ifadə edən qəzəl nümunələri verir. Daha doğrusu hadisə ilə əhval – ruhiyyə, təhkiyə ilə lirikanın vəhdəti əsərin kompozisiyasına spesifik bir xüsusiyyət gətirir. Müəllim həmçinin kompozisiya ilə yanaşı kompozisiya ünsürlərinidə şagirdlərə izah etməlidir. Çünki məhz bu vasitələr əsasında şagirdlər tədris olunan bədii əsəri, onun ayrı – ayrı hissələrini hər hansısa əsərin əvvəlində və sonunda verilən hissələri başa düşüb qavraya bilər.

Təhlil zamanı kompozisiya elementləri olan epiqraf, proloq, epiloq, lirik ricət anlayışları ətraflı izah edilir, müəllif niyyətinin açılmasında onların rolu aydınlaşdırılır. Təcrübəli müəllim tədris zamanı məhz kompozisiya ünsürlərini müəyyən əsərlər üzərində izah etməlidir ki, şagirdlər bunu tam, əhatəli mənimsəyə bilsinlər.

R.Yusifoğlu yazır ki,əsərdə epiqrafdan, proloqdan tutmuş epiloqa qədər bütün element və komponentlər hamısı küll halında kompozisiyaya daxildir. Bədii əsərin strukturunda iriliyindən, kiçikliyindən asılı olmayaraq hər bir detalın, poetik fiqurun, hətta söz və ifadənin belə özünəməxsus yeri və rolu vardır.[2.,s.172]

Epiqraf – yazıçının əsərin əvvəlində və yaxud da fəsillərinin başlanğıcında başqa sənətkarlardan, görkəmli şəxsiyyətlərdən müəyyən hikmətli fikir və sitat verməsinə deyilir. Epiqraf əsasən bu və ya başqa şəkildə oxucunu bir növ əsərlə tanış edir. Məsələn, Mir Cəlal Paşayev "Bir gəncin manifesti" əsərinə böyük rus yazıçısı Lev Tolstoyun məşhur "Anna Karenina" əsərindən belə bir epiqraf verir: "Bütün xoşbəxt ailələr bir – birinə bənzəyirlər, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir".[3.,s.143]

Proloq – bədii əsərin əvvəlində verilir. Proloq vasitəsilə yazıçı oxucunu bir növ əsərdə danışılacaq hadisə ilə tanış edir. Məsələn, X sinifin ədəbiyyat dərslərində tədris olunan Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində oxucunu əsərlə tanış etmək üçün poemanı məzmunu kitabın əvvəlində "Dastanın xülasəsi və İsgəndərin cahangirlik tarixi" başlığı altında:

"...Şeirimdən atsaydım bəzəkli donu,
Azacıq zəhmətlə yazsaydım onu,
Bu böyük fatehin sərgüzəştindən,
Bir vərəq yazmaqla bitirərdim mən..." –

deyərək İsgəndərin tarixi xidmətlərini ümumi şəkildə oxucuya çatdırır.[3.,s.143]

Epiloq isə proloqun əksinə olaraq bədii əsərin sonunda verilir. Sənətkar əsər boyu qaldırdığı məsələləri epiloqda yekunlaşdırır. Məsələn, Məhəmməd Füzulinin

"Leyli və Məcnun" poemasında danışılan əhvalatı əsərin sonunda "Təmamiye – Süxən" başlığı ilə yekunlaşdırır.[3.,s.144]
Əgər V sinifdən başlayaraq tədris edilən əsərlər düzgün metodik əsaslarla tədris edilərsə, bu bir növ yuxarı siniflərdə də bədii əsərlərin öyrədilməsi üçün zəmin olar. Belə bir zəmin əsaında öyrədilən əsərlər də şagirdlərdə güclü və emosional hisslər yaradır.

Təhlil şagirdlərin bədii əsəri ilkin qavraması nəzərə alınaraq aparılır. Bədii əsərin kompozisiya quruluşunun düzgün öyrədilməsi üçün sualların tərtibi zamanı aşağdakı məsələlərə diqqət yetirilir.
1.Əsərin kompozisiya quruluşu;
2.Əsərdə istifadə olunan kompozisiya elementləri;
3.Əsərin strukturu zamanı hadisələrin bir-biri ilə əlaqələndirilməsi;
4.Əsərdə sənətkar niyyəti (əsərin ideyası) ;
5.Əsərin janr, dil, kompozisiya, üslub xüsusiyyətləri;

Məhz bu suallar və cavablar əsasında mövzunun əhatəli şəkildə şagirdlərə öyrətmək və başa salmaq məqsədə uyğun olar.

Həmçinin şagirdlərə onu da izah etmək lazımdır ki, əsərin kompozisiya düzümü onun bədii bütövlüyünü yaradan vasitələrdən biridir. Kompozisiya hissi yazıçıya nəinki maraq yaratmaq üçün, həm də əsərin obraz kimi bütövlüyünü və görümlü olmasını təmin etmək üçün vacibdir. Görkəmli yazıçılarda heç vaxt süjeti ağırlaşdıran və onu gərəksiz epizodlarla yükləyən kompozisiya quruluşuna təsadüf edilmir. Gərəksiz epizodlar məhz kompozisiya tərtibi zamanı hiss edilir və atılır. Ona görə də kompozisiya ədəbi əsərin bədii bütövlüyünün əsas əlamətlərindən biridir.

Rəhim Əliyev "Ədəbiyyat Nəzəriyyəsi''kitabında qeyd edir ki "Ədəbi əsər kiçik olduqca onun kompozisiya quruluşunu tərtib etmək daha çətin olur və daha artıq peşəkarlıq tələb edir.

Bu mənada, hekayə və novella janrlarında bəzən kompozisiya ustaliğı ilk plana keçir. Yığcam hekayədə fabula, süjet və kompozisiya yazıçının xüsusi forma hissində, xüsusi ədəbi bütövlük hissində birləşirlər.Ona görədə dünya ədəbiyyatında hekayə ustaları barmaqla sayılacaq dərəcədə azdır". [6.,s.267]

Məlumdur ki, bədii ədəbiyyat yüksək tərbiyəvi təsir gücünə malik olub, şagirdlərə sağlam əxlaqi – estetik düşüncə, mənəvi saflıq, nitq zənginliyi və başqa bu kimi keyiyyətlər aşılayır. Buna görədə müəllim tədris zamanı şagirdlərin təlim – tərbiyəsinə mühüm təsir göstərən əsərlərin məzmun formasına, süjet və kompozisiyaının tədrisinə xüsusi əhəmiyyət verməlidir. V sinifdən başlayaraq bədii əsərlər elmi – nəzəri əsaslarla öyrədilir. Təbii ki, əsərlərin tədrisi zamanı onun təhlili məsələsi vacib amildir.

Müasir texniki tərəqqi ilə əlaqədar olaraq bədii əsərlərin təhlilini köhnə, ancaq ənənəvi qaydada aparmaq məqbul hesab edilmir. Elə buna görə də təhlil müasir dərs tələblərinə uyğun formada aparılır. Pedaqoq Fəxrəddin Yusifov yazır ki,

Təlim üsulu – müəllimin şagirdlərə müvafiq bilik, bacarıq, vərdiş və keyfiyyətləri aşılamaq, çatdırmaq vasitəsidir [5.,s.126].

Yəni, dərs zamanı müəllim kurikulum standartlarına uyğun olaraq fəal – interaktiv təlim metodları olan – BİBO, Ziqzaq, Venn diaqramı, diskusiya formlalarından istifadə etməlidir. Amma ədəbi əsərlərin süjet və kompozisiyasının öyrənilməsində ən effektli üsul müsahibə üsuludur. Yəni bu deyilənləri belə izah etmək olar ki, ən vacib məsələlərdən biri də bu metodlarla kompozisiyanın tədrisidir. Müəllim yeni təlim metodlarından istifadə edərək əsərlərin süjet və kompozisiyasını şagirdlərə elə izah etməlidir ki, hər bir şagird əsərdə baş verən hadisələri, obrazların bir – birilə qarşılıqlı əlaqəsini tam mənimsəsin və yadda saxlasın. Bu mövzu elə tədris olunmalıdır ki, şagirdlər artıq digər əsərləri keçərkən əsərin kompozisiyasını, burada istifadə olunan kompozisiya ünsürlərini müəyyənləşdirməyi bacarsınlar.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, ədəbiyyat dərslərində bu mövzunun tədrisinin əsas prinsipi məhz şagirdlərə bədii əsərin quruluşunu, strukturunu, obrazların və baş verən hadisələrin bir – birilə əlaqəsini və kompozisiya xüsusiyyətlərini düzgün başa salmaq və mənimsətməkdir.Çünki məhz bu mövzunun düzgün tədrisi əsasında şagirdlər bundan sonrakı keçiriləcək ədəbi-bədii əsərləri doğru şəkildə qavrayıb və oradan düzgün nəticə çıxara bilərlər.

МАХБУБА ШУКУРОВА

СПОСОБЫ ОБУЦЕНИЯ КОМПОЗИЦИИ ПРОИЗВЕДИЙ ИСКУССТВА

РЕЗЮМЕ

Произведения искусства играют большую роль в формировании взглядов учеников на жизнь. Но, конечно, преподавать эти произведения ученикам нужно не в розничной форме, а в определенной последовательности и системе. Изучение особенностей композиции и сюжета, которые являются очень важными факторами при изучении произведений искусства, является одним из важных вопросов в преподавании уроков литературы.

Чтобы проанализировать состав и сюжетные особенности произведения во время обучения, в первую очередь следует разъяснить ученикам суть этих понятий. В этой статье мы сосредоточимся в основном на объяснении композиционных особенностей. Композиция - (составное - латинское слово - означает компилировать, строить).

Ключевые слова: литература, композиция, произведение, метод, обучение.

MAHBUBA SHUKUROVA

WAYS OF TEACHING THE COMPOSITION OF WORKS OF ART

SUMMARY

Is the teaching of composition by methods.Teacher works using new teaching metods exlpain the plot and composition to the the students in such a way that each student is aware of that is happening in the work to fully master and remember the events,the interactions of images.This is it. The topic should be taught in such a way that students arleady know the composition of the work. Be able to identify the compositional elements used here. From all this we can conclude that this is the case in literature lessons. The main principle of is the teaching the subject is to teach students the structure of the work of art correct the relationship between the images and events and the composition to the students in such a way that each student is aware of what is happening in the work to fully master and remember the events, the interactions of images. This is it.The topic should be taught in such a way that students arleady know the composition of the work. Be able to identify the composition elements used here. From all this we can conclude that this is the case in literature lessons. The main principle of is the teaching the subject is to teach students the structure of the work of art correct the relationship between the images and events and the compositional features to understand and master. Because it is the students who teach this subject correctly.Correctly understood the literary and artistic works to be held in the future. And from there the correct result can produce.

Keywords: Literature, composition, work, method, education.

Ədəbiyyat

1. Yusifov. F "Ədəbiyyatın tədrisi metodikası" Bakı – 2008 səh 204
2. Həsənli. B "Ədəbiyyatın tədrisi metodikası" Bakı – 2011
3. Mikayılov. Ş. A "Ədəbiyyat nəzəriyyəsi" Bakı – 2003 səh 306
4. Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva "Ümümi təhsil məktəblərinin 10 – cu sinifi üçün ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti" Bakı – 2017 səh 208
5. Yusifov. F "Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarından istifadə, ali təhsilin bakalavriat təhsil səviyyəsi üzrə seçmə fənnin proqramı" Bakı – 2011 səh 304
6. Rəhim Əliyev "Ədəbiyyat nəzəriyyəsi" Bakı – 2008 səh 360
7. Rəfili Mikayıl "Ədəbiyyat nəzəriyyəsinə giriş'' Bakı 1958
8. www.kurikulum.az

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Dosent. Kazımov Kamran
tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRMİN VÜQAR QIZI HƏSƏNOVA
narminhasanova14@mail.ru
Lənkaran Dövlət Universiteti

C.MƏMMƏDQULUZADƏNİN HƏYATI VƏ MƏKTƏBDARLIQ FƏALIYYƏTİNİN TƏDRİSİ YOLLARI

XÜLASƏ

Bu məqalədə Cəlil Məmmədquluzadənin həyatına, pedaqoji fəaliyyətinə toxunulub və tədris edilməsinin əhəmiyyətindən danışılır. Məqalədə göstərilir ki, ən vacib məqam ilk olaraq şəxsiyyətin həyatının öyrədilməsidir. Yazıçının bioqrafiyasını öyrənməyin əsas məqsədi onun şəxsiyyətini üzə çıxarmaq, həmçinin onun şəxsiyyətinin, xarakterinin formalaşmasına və əsərlərinin ideya xəttinə təsir göstərən faktları aydınlaşdırmaqdır.

Yazıçının ədəbiyyat tarixində yeri və mövqeyi məsələsinə də toxunulub. Onun ənənələrə sadiqliyi, novatorluğu, özündən sonra gələn ədəbi nəsillərə təsiri və s. kimi məsələlərə yer verilmişdir. Verilən məlumatlar təhsilalanlarda Cəlil Məmmədquluzadənin pedaqoji fəaliyyəti haqqında təsəvvürləri daha da genişləndirir, dahi ədəbi simanı publistik yaradıcılıq sahəsini göz önündə canlandırır. Həmçinin müəllimlik fəaliyyətində və digər məsələlərdədə xalqa xidmətindən bəhs olunmuşdur. Cəlil Məmmədquluzadənin həyatı və pedaqoji fəaliyyətinin tədrisi nəticəsində onun parlaq səxsiyyəti üzə çıxdı.

Açar sözlər: həyatı və yaradıcılığı, məktəblərdə tədrisi, pedaqoji fəaliyyəti, ədəbiyyat tarixində yer və mövqeyi

Annotasiya: Bu məqalədə Cəlil Məmmədquluzadənin həyatına, pedaqoji fəaliyyətinə toxunulub və tədris edilməsinin əhəmiyyətindən danışılır. Məqalədə göstərilir ki, ən vacib məqam ilk olaraq şəxsiyyətin həyatının öyrədilməsidir. Yazıçının bioqrafiyasını öyrənməyin əsas məqsədi onun şəxsiyyətini üzə çıxarmaq, həmçinin onun şəxsiyyətinin, xarakterinin formalaşmasına və əsərlərinin ideya xəttinə təsir göstərən faktları aydınlaşdırmaqdır. Yazıçının ədəbiyyat tarixində yeri və mövqeyi məsələsinə də toxunulub. Onun ənənələrə sadiqliyi, novatorluğu, özündən sonra gələn ədəbi nəsillərə təsiri və s. kimi məsələlərə yer verilmişdir.

Neçə-neçə nəsillər tərəfindən qələmə alınmış Azərbaycan ədəbiyyatının dəyərli nümunələri xalqımızın mənəvi mədəniyyəti, incəsənəti, ana dili, tarixi, coğrafiyası barədə biliklərin mənimsənilməsində xüsusi əhəmiyyətə malik olmuşdir. Ədəbiyyat xalqa xidmət etdiyi üçün bir çox Azərbaycan ziyalıları, görkəmli şəxsiyyətlər də xalqa xidmət etməyin ən səmərəli üsulunu pedaqoji fəaliyətdə görmüş, müəllimliklə yanaşı ədəbiyyatın tədrisi metodikasına da töfhələr vermiş, öz

təcrübəsini sonrakı nəsillərə ötürmüşlər. Həm ədib, həm də müəllim kimi fəaliyyət göstərən bu şəxsiyyətlər daim xalqla təmasda olmuş, həmvətənlərinin problemləri ilə yaşamış, onların üzləşdiyi maddi və mənəvi çətinliklərin aradan qalxmasına hərtərəfli – həm maddi, həm də qələmin gücü ilə kömək etməyə can atmışlar. M.Ş.Vazeh, M.F.Axundzadə, S.Ə.Şirvani, S.M.Qənizadə, M.Ə.Sabir, C.Məmmədquluzadə, H.Cavid, S.S.Axundov, M.T.Sidqi, N.Nərimanov, M.Müşfiq, S.Vurğun, İ.Şıxlı, M.Təhmasib və digər ziyalıların ədəbiyyat müəllimi kimi fəaliyyəti xalqa təmənnasız xidmət nümunəsi olaraq bu gün də gənc müəllimlər üçün örnək sayılır.

Cəlil Məmmədquluzadə də belə böyük ədəbi simalardandır. Onun qəhrəmanları ilk baxışda oxucuya və tamaşaçıya kiçik görünürlər. Amma onların humanizmi, mənəvi aləmi, demokratik düşüncələri, məişəti o qədər ustalıqla açılır ki, bu "kiçik" obrazlar və onların konkret milli duyğuları ümumbəşəri və dərin fəlsəfi məna kəsb edir. Bu sadə və adi insanların idealları, faciəsi həmin dövrdə və hətta indinin özündə də hüququ tapdanan bütün xalqların idealları, faciəsi ilə bir səsləşir.

Cəlil Məmmədquluzadə elə bir şəxsiyyətdir ki, onun nəinki yaradıcılığının, habelə həyatının öyrənilməsi şəxsiyyətyönümlü təlimdə xüsusi əhəmiyyətə malikdir. Yazıçının ədəbiyyat tarixində yeri və mövqeyi, ənənələrə sadiqliyi, novatorluğu, özündən sonra gələn ədəbi nəsillərə təsiri və s. kimi məsələlər şagirdlərə təkcə ədəbi-tarixi biliklər vermir, həm də onların milli qürur, ləyaqət və iftixar hissinin formalaşmasında fəal rol oynayır (6, 12). Bu məqsədlə müəllim müxtəlif mənbələrdən-bioqrafik materiallardan, monoqrafiyalardan, xatirələrdən sənətkarın həyatı barədə materiallar toplayıb onun həyat yolu barədə şagirdlərə məlumat verməlidir. Təkcə dərslikdə verilmiş materiallarla qane olan müəllim tələb olunan nəticəni əldə edə bilməz.

Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı orta ümumtəhsil məktəblərinin VIII və XI siniflərində tədris olunur. VIII sinif dərsliyində yazıçının "Qurbanəli bəy" hekayəsinin həm ədəbiyyatşünaslıq, həm də dilçilik təhlili həyata keçirilir (2, 92-109). Həmçinin Cəlil Məmmədquluzadənin "Poçt qutusu " hekayəsi də VIII sinif əbəbiyyat dərsliyinin "Sinifdənxaric oxu materialları" bölməsində yer almışdır (2, 178-182). Yazıçının həyatı, məktəbdarlıq fəaliyyətinin öyrənilməsi isə XI sinifdə həyata keçirilir. Eyni zamanda "Anamın kitabı" əsəri də tədris olunur (4,12-29).

Çox vaxt giriş dərsi yazıçının bioqrafiyası üzərində işi əhatə edir. Orta məktəbin yuxarı siniflərində yazıçının tərcümeyi-halının öyrənilməsi tarixi-ədəbi prosesin dərk edilməsinə, yazıçının bədii dünyasının mənimsədilməsinə yönəldilmişdir. Orta siniflərdə isə şagirdlər yazıçının həyatından yalnız öyrənilən əsərlə birbaşa əlaqəli olan müəyyən məlumatlar alırlar. Yazıçının bioqrafiyasını öyrənməyin əsas məqsədi onun şəxsiyyətini üzə çıxarmaq, həmçinin onun şəxsiyyətinin, xarakterinin formalaşmasına və əsərlərinin ideya xəttinə təsir göstərən faktları aydınlaşdırmaqdır (5, 84).

Cəlil Məmmədquluzadənin həyatının və fəaliyyətinin tədrisi VIII sinifdə nəzərdə tutulmasa da, müəllim bu barədə məlumat verməli, hekayəni yazan müəllifin şəxsiyyəti, həyatı, pedaqoji fəaliyyəti ilə şagirdləri məlumatlandırmalıdır. Lakin bununla yanaşı dərslikdə də kiçik bir məlumatın olması daha məqsədəuyğun olardı.

XI sinifdə Cəlil Məmmədquluzadənin həyatı və məktəbdarlıq fəaliyyəti barədə dərslikdə çox qısa bir məlumat verildiyindən şagirdlərin bu barədə məlumatlandırmaq məqsədilə müəllimin verdiyi əlavə şərhə ehtiyac vardır, həmçinin şagirdlərin fərdi araşdırmalarına da istiqamət vermək və disskusiya aparmaq məqsədəuyğundur. Müəllim bu məqsədlə Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətini araşdıran tədqiqatçıların əsərlərinə, internet resurslarına müraciət etməli, qısa və dolğun materiallar toplayıb şagirdləri məlumatlandırmalıdır. Orta məktəbin XI sinfində Cəlil Məmmədquluzadənin həyatı və məktəbdarlığı haqqında məlumat bundan ibarətdir: "Qədim Naxçıvan şəhərində dünyaya göz açan C.Məmmədquluzadənin ailəsi firavan yaşamasa da, atası Məşədi Məmmədqulu övladının təhsil almasına xüsusi diqqət yetirmiş, onu kiçik yaşlarından mollaxanaya qoymuşdur. Mollaxana təhsili səmərəsiz olmamışdır; xatirələrindən, eləcə də əsərlərindən məlum olur ki, onun burada oxuması fars və ərəb dillərini mənimsəməsinə, müsəlman Şərqi barədə təsəvvür qazanmasına əhəmiyyətli təsir etmişdir. O, təhsilini Naxçıvan şəhər üçsinifli məktəbində davam etdirmişdir. Lakin onun fikri inkişafında, dünyagörüşünün formalaşmasında Qori Müəllimlər Seminariyasında aldığı təhsil (1882–1887) mühüm rol oynamışdır. Seminariyanı uğurla bitirən C.Məmmədquluzadə təxminən on il (1887–1897) İrəvan quberniyasının və Naxçıvanın kəndlərində müəllim işləmişdir. Kənd həyatını, insanları dərindən müşahidə edən gənc müəllimdə bədii yaradıcılığa böyük həvəs yaranır və ilk qələm təcrübələri meydana çıxır" (4, 12-13).

Göründüyü kimi dərslikdə əks olunan məlumat böyük ədibin məktəbdarlıq fəaliyyəti haqqında çox az təsəvvür yaradır. Bu məqsədlə də müəllim tərəfindən aşağıdakı məlumatların şagirdlərin diqqətinə çatdırılması daha effektiv olar:" 15 yanvar 1890-cı ildən 1897-ci ilin iyun ayınadək Nehrəm məktəbinin nəzarətçisi vəzifəsini daşıyan böyük maarifçi bu illərdə Nehrəm ibtidai məktəbində şagirdlərin sayını 40 nəfərə çatdırıb. Mirzə Cəlilin səyi nəticəsində 1893-cü ildə məktəbdə qız sinfı təşkil olunub, bacısı Səkinə da daxil olmaqla, 8 nəfər azərbaycanlı qızı təhsilə cəlb edib. İrəvan-Yelizavetpol quberniyası Xalq Məktəbləri Direktorluğu müsəlman qızları arasında savadı yaymaq üçün göstərdiyi qayğıkeşliyə görə onu yazılı təşəkkürə layiq görüb. Bundan başqa, Mirzə Cəlil ərəb əlifbasını sadələşdirmək və ya latın qrafikasına keçmək üçün təşəbbüs göstərib, bu məqsədlə Peterburqa gedərək "Novoe vremya" qəzetinin redaktoru A.S.Suvorinlə görüşüb (1895). Mirzə Cəlil Nehrəm məktəbində diyarşünaslıq muzeyi yaratmağa nail olub (1896), həmçinin o, qonşuluqdakı Bulqan hərbi hissəsi həkiminin köməyi ilə "yerli iqlimi və təbiəti öyrənməyə" səy göstərib. 1893-cü il noyabrın 22-də Naxçıvan şəhərində çağırılmış

İrəvan quberniyası xalq müəllimlərinin sahə qurultayında iştirak və çıxış edib, əməli təkliflər irəli sürüb".

Göründüyü kimi, bu fakt şagirdlərdə Cəlil Məmmədquluzadənin pedaqoji fəaliyyəti haqqında təsəvvürləri daha da genişləndirər, dahi ədəbi simanın nəinki publisistika yaradıçılıq sahəsində, həmçinin müəllimlik fəaliyyətində və digər məsələlərdə də xalqa xidmətlərinin göz önündə canlandırar. Həmçinin, ev tapşırıqlarının verilməsi mərhələsində dərslikdə verilən tapşırıqlara Cəlil Məmmədquluzadənin pedaqoji fəaliyyəti barədə suallar da əlavə etmək olar ki, bu da şagirdlərin müxtəlif resurlslardan istifadə etmək və sərbəst şəkildə müşahidə, tədqiqatçılıq bacarığını fəallaşdırması baxımdan məqsədəuyğundir. Ədəbiyyat dərslərində qarşıya qoyulan tələblərdən biridə əyaniliklə bağlı olduğu üçün Cəlil Məmmədquluzadənin həyatının tədrisinə başlamazdan əvvəl onun şəxsiyyətini, məfkurəsini əks etdirən foto-slaydlar nümayiş etdirmək faydalıdır. Yaxşı olar ki, bu fotolar görkəmli mütəfəkkirin fikirlərini özündə əks etdirsin. Cəlil Məmmədquluzadənin pedaqoji fəaliyyətini göz önündə canlandırmaq məqsədilə dərsin motivasiya mərhələsində digər motivasiyaedici materiallarla yanaşı "Görkəmli pedaqoq sinif otağında", "Cəlil Məmmədquluzadə və şagirdləri" mövzusunda çəkilmiş rəsm əsərlərini əks etdirən slaydlardan istifadə də məqsədəuyğundur. Cəlil Məmmədquluzadənin həyatının və məktəbdarlıq fəaliyyətinin mənimsədilməsində "Ziqzaq" modelindən də istifadə etmək faydalıdır. Bu üsuldan "Təqdimatların aparılması " mərhələsində istifadə edilir. Bu iş üsulunda qrup iştirakçıları həm müəllim, həm də şagird rolunda çıxış edərək materialı müstəqil şəkildə öyrənirlər.

Cəlil Məmmədquluzadə şəxsiyyətinin tədrisi zamanı yazıçının ev muzeyinə ekskursiya etmək daha gözəl nəticə vermiş olardı. Bu ekskursiya olmasa da, ədibin ev muzeyindən çəkilmiş slaydlar da nümayiş etdirmək məqsədəuyğundur. Slayd göstərilməzdən əvvəl müəllim şagirdlərə məlumat verməlidir ki, Cəlil Məmmədquluzadənin ev-muzeyi onun Təbrizdən Şimali Azərbaycana Bakıya qayıtdıqdan sonra yaşayıb yaratdığı mənzildə (1920-1932-ci illər), Süleyman Tağızadə küçəsi, 56 (tarixi adı Köhnə poçt küçəsi, 64) Azərbaycan hökumətinin müvafiq qərarı ilə 1978-ci ildə yaradılmış və fəaliyyət göstərir. Muzeyin yerləşdiyi bina XIX əsrin axırları XX əsrin əvvəllərinə aid tarixi memarlıq və mədəniyyət abidəsidir. 1994-cü il dekabr ayının 28-də, Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illik yubileyinin təntənələri ərəfəsində ədibin ev-muzeyinin ekspozisiyasının açılışı olmuşdur. Ümumtəhsil məktəblərinin XI sinfində Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının tədrisinə cəmi 1 saat ayrıldığından ədəbiyyat fənnini tədris edən müəllimin göstərilən metodların hamısından istifadə etməyi çətindir. Belə ki, 45 dəqiqə ərzində həm yazıçının həyatı, həm də geniş yaradıcılığı və publistik fəaliyyəti tədris olunmalıdır. Orta məktəbdə ədəbiyyat müəllimini vaxt məhdudiyyəti baxımından elə iş formaları seçməlidir ki, az vaxtda-45 dəqiqə ərzində yüksək nəticə əldə etsin, yəni verilən tapşırıqlar "həyat +yaradıcılıq+pedaqoji fəaliyyət + publisistik fəaliyyət" modeli üzrə həyata keçirilsin.

Bu isə müəllimdən pedaqoji ustalıq tələb edir. Cəlil Məmmədquluzadənin fəaliyyətinin əsas və ən faydalı hissəsi onun publisistik fəaliyyəti hesab olunur. Cünki ədibin kəskin tənqidi realizmi, öldürücü satirası zülm və istibdada, ictimai bərabərsizlik və hüquqsuzluq, cəhalət, mövhumat, xurafat, nadanlıq və mənəviyyatsızlığa qarşı çevrilmişdir. O, xalqın həyat və məişətindəki, şüur və düşüncəsindəki bütün mənfi cəhətləri tənqid atəşinə tutur, qüsur və nöqsanlarımızdan danışarkən bizi düşündürür və güldürür, bu cür gülüş isə bizdə keçmişimizlə bağlı müəyyən duyğular oyadır. C.Məmmədquluzadə qələminin gücü də elə bundadır. Orta məktəbin XI sinfində ədibin publisistik fəaliyyətinin lazim olan əsas məqamları şagirdlərin diqqətinə çatdırılır. Bununla yanaşı, müəllim şagirdlərə "Molla Nəsrəddin" jurnalının ərsəyə gəlməsində Cəlil Məmmədquluzadənin hansı çətinliklərlə üzləşdiyi barədə əlavə məlumat da verilməlidir. Şagirdlər bilməlidir ki, çar hökuməti ucqarlarda, xüsusilə Azərbaycanda mətbuatın yayılmasına həmişə ciddi yanaşmış, Azərbaycan dilində qəzet buraxılmasına müxtəlif bəhanələrlə maneələr yaratmışdır. Dərslikdə Cəlil Məmmədquluzadənin publisistikası 3 mərhələdə öyrədilir: Tiflis dövrü, Təbriz dövrü, Bakı dövrü. Bu bölgünü qrupların təşkilində istifadə etmək olar. Belə ki, yaradılan qruplara Tiflis, Təbriz, Bakı adları qoymaq məqsədəuyğundur. Tədqiqatların aparılması da qrurların adı ilə bağlı müəyyənləşə bilər, yəni hər bir qrup adını daşıdığı dövrdə Cəlil Məmmədquluzadənin publisistik fəaliyyəti ilə bağlı araşdırma apara bilər. Bu məqsədələ dərslikdəki verilmiş mətnkənarı suallardan istifadə etmək olar. XI sinif dərsliyində C.Məmmədquluzadənin çap etdirdiyi publisistik əsərlərin bir neçəsinin adı və məqalələrin umumi məzmunu qeyd olunmuşdur ki, şagirdlərin bunu bilməyi vacibdir. Bu məqsədlə də müəyyən iş üsullarından istifadə etmək mümkündür. Məsələn "Auksion" metodu ilə dərslikdə olan məqalələrə diqqəti artırmaq olar. Bu iş üsulu fərdi şəkildə aparılır. Bu məqsədlə şagirdlərə belə bir tapşırıq vermək olar: "Cəlil Məmmədquluzadənin dərslikdə adı çəkilən publisitik əsərlərinin adlarını deyin". Şagirdlərə 5 dəq vaxt verilir.Sonra isə "Auksion" metodu ilə iş aparılır. Bu iş üsulunun əsas məqsədi bir məsələ haqqında mümkün qədər çoxlu informasiyanın verilməsidir. Cəlil Məmmədquluzadənin publisistikasının tədrisi prosesində müəllim "Molla Nəsrəddinin düşmənləri və dostları" məsələsinə də toxunmalıdır. Şagirdlər bilməlidir ki, jurnalın ifşa obyektində özünü görən senzura nümayəndələri Qaraxanov, Kişmişov kimi qoçular, burjuaziya, mütləqiyyət hökuməti və digər istismarçı siniflər jurnalın redaksiyasına, onun mühərrirlərinə düşmən kəsilmiş və bağlanmasına çalışırdılar. Jurnalın redaksiyası polis tərəfindən dəfələrlə müsadirə olunmuş və nəşrinə qadağalar qoyulmuşdu. Jurnal və onun əməkdaşlarına müxtəlif qoluzorlular qənim kəsilmişdilər, hər tərəfdən onun məhvinə çalışırdılar. Bu məlumatın möhkəmlədirilməsi məqsədi ilə "İki hissəli gündəlik" metodundan istifadə etmək məqsədəuyğundur. Bu zaman birinci sütunda "Molla Nəsrəddinin dostları", ikinci sütunda "Molla Nəsrəddinin düşmənləri" sözlərini yazıb müzakirə aparmaq faydalı ola bilər.

Yazıçının publisistikasının öyrənilməsində müəllimin şərhi əhəmiyyətli yer tutur. Müəllim bildirməlidir ki, Cəlil Məmmədquluzadə əksəriyyəti satirik məzmunda olan bu yazılarda zəhmət adamının məişət çətinlikləri, cəmiyyətdə mövcud olan ciddi ictimai-siyasi problemlər, mühüm beynəlxalq məsələlər doğru-dürüst şəkildə, obyektiv mövqedən işıqlandırılmışdır. Məhz buna görə də yazıçının publisistikası ədəbi və ictimai fikrin inkişafında əhəmiyyətli rol oynamışdır.

Dərsin "Nəticə və ümumiləşdirmə" mərhələsində şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, C.Məmmədquluzadə xalqına, vətəninə misilsiz xidməti ilə seçilən şəxslərdəndir. O, kamil bədii əsərləri, kəsərli publisistikası, faydalı ictimai fəaliyyəti ilə ölkəmizin tarixində ləyaqətli yer tutmuşdur (3,44).

Dərsin "Ümumiləşdirmə " mərhələsində böyük ədibin xatirəsinin yaşaması məqsədilə respublikamızda görülən işləri də şagirdlərin diqqətinə çatdırmaq lazımdır. Bu zaman onlar həyatını, yaradıcılığını öyrəndikləri ədibə verilən qiyməti biləcək və xalqı, vətəni üçün xidmətləri olan şəxslərin xalq üçün necə dəyərli olduğunu dərk edəcək, xalq üçün yaşayanların xalq tərəfində yüksəklərə qaldığıldığını bir daha başa düşəcəklər. Ədəbiyyat müəllimi bu məqsədlə aşağıdakı məlumatları şagirdlərin diqqətinə çatdırmalıdır:

C.Məmmədquluzadənin əsərləri bir sıra dillərə tərcümə edilmişdir. Azərbaycan Respublikasında bir sıra küçə və mədəni-maarif müəssisəsinə (o cümlədən Naxçıvan Dövlət Musiqili Dram Teatrına, Naxçıvan Muxtar Respublika Dövlət Ədəbiyyat Muzeyinə) C.Məmmədquluzadənin adı verilmişdir. Keçmiş Astraxan rayonu və şəhəri 1967-ci ildə onun şərəfinə Cəlilabad, vaxtilə müəllimlik etdiyi Baş Noraşen kəndi isə Cəlilkənd adlandırılmışdır. Naxçıvanda və Cəlilabadda heykəli qoyulmuşdur. Bakıda və Naxçıvanda ev-muzeyləri, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeyləri açılmışdır. Anadan olmasının 100 və 125 illik yubileyləri geniş qeyd olunmuşdur.

Ədəbiyyat

1. Ədəbiyyat fənni üzrə dərslik. Ümumtəhsil məktəblərinin 8-ci sinifi üçün. Bakı- 2019, Bakı Nəşr,səh 208
2. Ədəbiyyat fənni üzrə dərslik. Ümumtəhsil məktəblərinin 9-ci sinifi üçün. Bakı-2018, Bakı Nəşr, səh 208
3. Ədəbiyyat fənni üzrə metodik vəsait. Ümumtəhsil məktəblərinin 11-ci sinifi üçün. Bakı-2018, Bakı Nəşr, ,səh 208
4. Hacıyeva A., Yusifov F. Məktəbdə ədəbiyyat dərslərinin təşkili (metodik göstəriş) Bakı-2003
5. Кудашева К., Магдиева С.Методика обучения литературе. Учебное пособие для учителей и студентов педагогических университетов и институтов. Т.Изд-во"ALOQACHİ", 2008, 264 с.
6. Mikayılov Ş. və b. Ümumtəhsil məktəblərinin 5-11-ci siniflərində ədəbiyyatşn tədrisi metodikası. Bakı – 2008

7. Yusifov F.A. Ədəbiyyatın tədrisi metodikası, ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsitələbələri üçün dərslik. Bakı – 2017, 304 səh.

ГАСАНОВА НАРМИН

ЖИЗНЬ ДЖ. МАМЕДГУЛУЗАДЕ И СПОСОБЫ ПРЕПОДАВАНИЯ В ШКОЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

РЕЗЮМЕ

В данной статье затрагивается жизнь и педагогическая деятельность Джалиля Мамедгулузаде и важность его изучения. В статье отмечается, что самое главное в первую очередь - изучить жизнь личности. Основная цель изучения биографии писателя - раскрыть его личность, а также выяснить факты, влияющие на формирование его личности, характера и линии идей его произведений. Также был затронут вопрос о месте и роли писателя в истории литературы. Также рассмотрены вопросы его преданность традициям, новаторство, влияние на литературные поколения, пришедшие после него. Основная и самая полезная часть деятельности Джалила Мамедгулузаде - его журналистская деятельность. Благодаря острому критическому реализму писателя смертельная сатира обратилась против угнетения и тирании, социального неравенства и беззакония, невежества, суеверий, суеверий, невежества и безнравственности. До сведения учащихся доведены основные моменты журналистской деятельности писателя в 11 классе общеобразовательной школы. В то же время учителя и ученики должны получить дополнительную информацию о трудностях, с которыми столкнулся Джалил Мамедгулузаде при публикации журнала «Молла Насреддин». В учебнике для 11 класса упоминались названия некоторых публицистических работ, опубликованных Дж. Мамедгулузаде, и общее содержание статей, что важно для учащихся. Данная информация расширяет представления студентов о педагогической деятельности Джалиля Мамедгулузаде, возрождает гениального литературного деятеля в области журналистского творчества.

Он занял достойное место в истории нашей страны своими совершенными произведениями искусства, эффективной публицистикой и полезной общественной деятельностью. Чтобы сохранить память о писателе, необходимо привлечь внимание студентов к работе, проделанной в нашей стране. В результате обучения жизни и педагогической деятельности Джалиля Мамедгулузаде раскрылась его яркая личность.

Ключевые слова: обучение жизни и деятельности, преподавание в школе, педагогическая деятельность, личностно-ориентированное обучение, место в истории литературы, жизнь и творчество

HASANOVA NARMIN

J. MAMMADGULUZADEH'S LIFE AND WAYS OF TEACHING SCHOOL ACTIVITIES

ABSTRACT

This article touches upon the life and teaching activities of Jalil Mammadguluzade and the importance of studying it. The article notes that the most important thing in the first place is to study the life of an individual. The main purpose of studying the biography of a writer is to reveal his personality, as well as to find out the facts that influence the formation of his personality, character and line of ideas in his works. The question of the place and role of the writer in the history of literature was also raised. Also discussed are the issues of his dedication to tradition, innovation, influence on the literary generations that came after him. The main and most useful part of Jalil Mammadguluzade's activity is his journalistic activity. Thanks to the writer's sharp critical realism, deadly satire turned against oppression and tyranny, social inequality and lawlessness, ignorance, superstition, superstition, ignorance and immorality. The main points of the writer's journalistic activities in the 11th grade of a comprehensive school were brought to the attention of the students. At the same time, teachers and students should receive additional information about the difficulties that Jalil Mammadguluzade faced when publishing the magazine "Molla Nasreddin". The textbook for grade 11 mentioned the titles of some of the journalistic works published by J. Mammadguluzade, and the general content of the articles, which is important for students. This information expands students' ideas about the teaching activities of Jalil Mammadguluzade, revives the genius literary figure in the field of journalistic creativity. He took a worthy place in the history of our country with his perfect works of art, effective journalism and useful social activities. To preserve the memory of the writer, it is necessary to draw the attention of students to the work done in our country. As a result of teaching the life and teaching activities of Jalil Mammadguluzadeh, his bright personality was revealed.

Key words: learning life and work, teaching at school, pedagogical activity, student-centered learning, place in the history of literature, life and work

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Qədim İgid oğlu Rufullayev tərəfindən çapa tövsiyə olunmuşdur

MƏRYƏM BAĞIRLI
BDU, Şərqşünaslıq fakültəsi
Meryam.bagirli@gmail.com

İBN HAMDİS YARADICILIĞININ JANR XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Ərəb dövləti yarandığı vaxtdan etibarən islam dini və fəthlər nəticəsində Çin sərhəddində tutmuş İspaniyaya kimi geniş əraziləri nəzarət altına alır.Beləliklə geniş ərazini əhatə edən ədəbiyyat həm ərəblərin həm də tabelikdəki xalqların mədəniyyətlərinin elementlərini özündə birləşdir. Hər bir xalq bu ədəbiyyata öz rəngini qatır. İspaniyanın fəthi və ərəb-ispan ədəbiyyatının yaranması buna nümunədir. Ərəblər Əndəlüsü fəth etdikləri zaman əvvəllər görmədikləri, ağacları , çayları, dağları olan bir təbiətlə qarşılaşmışdılar. Əndəlüsün bu gözqamaşdırıcı təbiəti onların təxəyyülünü inkişaf etdirmişdir.Əndəlüs şeiri şərqdəki ərəb şeirinin təqlid edilməsi ilə meydana gəlmişdir. Ərəblər Əndəlüs torpaqlarına öyrəşməsi nəticəsində Şərq təqlidçiliyindən yavaş-yavaş xilas olmuşdur. Hətta yeni bir şeir janrı olan Muvaşşah yaradılmışdır.

Yeniləşmə dövrünün şairlərindən olan İbn Hamdis yaradıcılığı bu baxımdan çox əhəmiyyətlidir.Siciliya adasının zəngin təbiətini şeirlərində təsvir etmişdir. Onun həmçinin qəhrəmanlıq, şərab, savaş gəmiləri haqqında əsərləri vardır.Şairin Mutəmid ibn Abbadla olan əlaqəsi həmin şairin yaradıcılığında tədqiq etməyə imkan verir.

Açar sözlər: Ərəb ədəbiyyatı, Əndəlüs, İbn Hamdis, Siciliya, divan, Muvaşşah

Giriş

Ərəb ədəbiyyatı dünyanın ən qədim və ən zəngin ədəbiyyatlarından biridir. Bizə məlum ilk nümunələri İslamdan öncə V-VI əsrlərdə Ərəbistan yarmadasında yaranan bu ədəbiyyat İslamın yaranmasından sonra İspaniyadan tutmuş Çin sərhədlərinə qədər böyük bir ərazidə yayılmış, inkişaf etmiş və öz mahiyyətini dəyişib ümummüsəlman ədəbiyyatı xarakteri kəsb etmişdir. Ərəb ədəbiyyatı həm digər dünya xalqlarının mədəniyyətlərindən təsirlənmiş,həm də özü başqa xalqların mədəniyyətinə təsir etmişdir. Bu təsirlənmədə İslam dinin yayılması və fəthlər önəmli rol oynamış,özündə həmiyyətli xüsusiyyətlər kəsb edən yeni ədəbiyyatların yaranmasına səbəb olmuşdur.Belə ədəbiyyatlrdan biri ərəb-ispan ədəbiyyatıdır.

Ərəblərin Əndəlüs adlandırdıqları bugünkü İspaniya İslam xilafətinin fəthlərindən sonra ərəblərin hakimiyyəti altına keçmişdir, 8 əsrlik muddətdə onların nəzarətində olmuşdur. Burada yaşayan fərqli etnik qrupların müştərək mədəniyyəti ərəb hakimiyyəti ilə islami rəng alaraq daha da zənginləşmişdir. Burada yaşayan müsəlman və qeyri-müsəlman xalqların elm və incəsənətin müxtəlif sahələrindəki iş

və səyləri nəticəsində Əndəlüsdə parlaq bir mədəniyyət yaranmış, dil, ədəbiyyat, təhsil, elm və incəsənətdə özünəməxsus bir üslub formalaşdırmışdır. Əndəlüs, ərazisində ərəb, ispan, bərbər, portuqal, fransız, katalan, latın kimi fərqli dillərə malik müştərək mədəniyyətin var olduğu ictimai mühit olmuşdur. Əndəlüsün özünəməxsus şeir növlərinin olması bu kosmopolitan cəmiyyətin ərəb ədəbiyyatına ən böyük töhfəsi muvaşşah və zəcəl şeirlərinin yaranmasına səbəb olmuş, buradakı ədiblərin nəsrə etdikləri əlavələr isə Ərəb nəsrində müstəsna yeniliklər kimi qeyd edilmişdir. Beləliklə Əndəlüsdə özünəməxsus ədəbiyyat olmuşdur. Buna paralel olaraq Əndəlüsdə Ərəb dilinin, Ərəb qrammatikasının formalaşma prosesi, Əndəlüs dil və Ərəb dil məktəblərinin qurulması, Əndəlüs Ərəb ədəbiyyatının inkişafına çox mühüm töhfələr vermişdir.

Əndəlüs mədəniyyətinin inkişaf səviyyəsi digər dövlətlərlə müqayisədə olduqca yüksək idi. Bu həqiqətəti Əndəlüsün təhsil, mədəniyyət, incəsənət sahələrindəki səviyyəsini əks etdirən şəxsiyyətlərin həyat və yaradıcılığını tədqiq edərək görmək mümkündür. Belə ədiblərdən biri də İbn Hamdisdir.Yeniləşmə dövrünün ən əhəmiyyətli şairlərindən olan İbn Hamdis Əndəlüsdə özünü bariz şəkildə büruzə verən təsvirçilik ənənəsinin ən əhəmiyyətli nümayəndələrindəndir.

1. İbn Hamdisin həyatı

İbn Hamdis, Siciliyada doğulan ən əhəmiyyətli ərəb şairi hesab olunur. Əbdül-Cabbar ibn Məhəmməd ibn Həmdis, Sirakuzada, 1055-ci ildə anadan olmuşdur. Onun varlı bir ailədən gəldiyini və yeniyetməlik və gəncliyinin qayğısız keçdiyini bilirik. Lakin, 1078, 1079-da Siciliyanı tərk etməli oldu. Normanlar artıq adanın fəthinə başlamışdılar və buna görə də çox sayda dinc ərəb sığınacaq axtarırdı. O, heç vaxt Siciliyaya qayıtmadı. O ömrünün bir neçə ilini Sevilyada, şairlərin hamisi, şəhər və sarayını ümumilikdə elm adamları və şairlərin təmiz və parlaq bir görüş mərkəzi halına gətirmiş Əl-Mu'tamid sarayında keçirmişdir. Xüsusən, bu illər İbn Həmdis üçün həyatının ikinci xoş bir dövrü idi. Bu dövr ərzində saray həyatında iştirak etmiş, şeirlər yazmış və yaşının yadda qalan hadisələrini, xüsusilə Əl-Mu'tamidin Alfonso VI-nin xristian qoşunları üzərində qələbəsini (az-Zallaqah döyüşündə, 1086) qeyd etmişdir. Lakin həyatının bu xoş hissəsi qısa olmuşdur. 1091-ci ildə Almoravid əmiri Yusuf İbn Təfşin Seviliyanı mühasirəyə aldı və əl-Mu'tamid ordusunu məğlub etdi. İbn Həmdis Andalusiyanı tərk etməli və Afrikanın şimal sahilinə doğru getməyə məcbur oldu.

Ömrünün üçüncü hissəsi əsasən iki şəhərin əmirləri tərəfindən təqdir olunduğu Mandiyah və Bijdyahda keçirildi, lakin burada o, bütün həyatı boyu keçirdiyi qızıl günlər üçün darıxırdı. O, Bijayada və ya daha çox ehtimal ki, Lajorca adasında, 1133-cü ilin iyul ayında vəfat etmişdir.

2. İbn Hamdisə qədərki ədəbi mühit

İbn Hamdis yeniləşmə dövrü şairi hesab edilir. Bu dövrü dərindən anlamaq üçün bu dövrə qədərki ədəbi mühiti nəzərdən keçirməliyik. Bu bizə İbn Hamdis yaradıcılığının dərindən tədqiq edilməsi üçün şərait yaradır. Əvvəlki dövlər ilə

yeniləşmə dövrü arasındakı fərqliliklər əsasında İbn Hamdis yaradıcılığının janr xüsusiyyətləri özünü daha aydın büruzə verəcəkdir.

Fəthdən sonrakı ilk 100 ilin içində Əndəlüsdə xüsusi bir mədəniyyətin olduğunu deyə bilmərik.İberiya yarımadasına müxtəlif zamanlarda və fərqli qruplar halında gələn Ərəblər şərqdə böyüyüb şərq ruhu və mədəniyyəti ilə yetişmiş insanlar olduqları üçün Əndəlüslü olmaları mümkün deyil.Bu dövrün ədəbiyyatçıları fəth ordusuyla birlikdə və ya dərhal ardınca Əndəlüsə gediblər. Şərqə sıx bağlılıqları olan Əndəlüs ərəbləri xüsusilədə əmirlər daha sonrakı dövrlərdə şərqdən elm adamlarını Əndəlüsə gətirdilər.Dilçi Əbu Əli əl Qali və məşhur müğənni Ziryab bu elmi köç daxilində Əndəlüsə gələn ən bariz şəxsiyyətlərdir.İlk dövrlərdə şərqə olan bu bağlılığın nəticəsi olaraq Əndəlüs və şərq ədəbi məhsulları arasında böyük oxşarlıqlar görülmüşdür. Zaman içərisində bu oxşarlıqlar hərbi səviyyəyə enərək Əndəlüsdə özünə məxsus şərqdəkindən bəzi fərqliliklər bir ədəbi çevrə meydana gətirmişdir.Bəzi tədqiqatçıların şərq və Əndəlüs ədəbiyyatları arasında görülən ortaq xüsusiyyətlərindən hərəkət edərək Əndəlüs ədəbiyyatının şərqin bir təqlidinin olduğunun deməkləri düz deyildir.Mövzuya etnik baxışdan baxdığımızdan Əndəlüslü ərəbləri buraya şərqdən gəldiklərini təbii olaraq da kökdən bağlı olduqları ədəbi fəaliyyət davam etdirmələrinin təqlid olaraq düşünülməsinin səhv olduğu qənaətindəyik. Dr.Şövqü Dayf bu mövzuya bizdən tamamilə fərqli bir tərzdə yaxınlaşaraq Əndəlüsün özünə məxsus bir elmi fəaliyyəti olmadığını və elmi çalışmaların şərq qaydaları üzərində qurulduğunu irəli çəkməkdədir. Zənnimizcə Şövqü Dayfı bu düşüncəyə itələyən faktor onu ərəb milliyətçiliyi görüşlərindən qaynaqlanır. İstər elmi istərsədə siyasi fəaliyyyətlərdə ərəb irqi istisna olmaqla etnik köklərə çox şans tanımayan Ş.Dayf Əndəlüsü Ərəb irqindən ayrı bir parça ayrı bir mədəniyyət və ayrı bir kültür olaraq deyil, şərqdəki ərəb kültürünün bir başqa məkanda davamı olaraq dəyərləndirilmişdir. Digər tərəfdən Əndəlüs şeirinin həmlə dövrü olaraq qəbul edilən Mulukut Tavaif və onu izləyən dövrlərdə Əndəlüslü şairlərin şərq şairlərə nəzirə olsun deyə bir baxımdan onlarla yarışmaq məqsədilə eyni vəzn eyni qafiyə və eyni üslub içərisində yazdıqları şeirlərdən dolayı da Əndəlüs şeirini şərq şeirinin davamı olaraq düşünmək isə Əndəlüslü şairlərə edilmiş bir başqa haqsızlıq olacağı qənaətindəyik. Şövqü Dayf Əndəlüslü şairlər şərq şairlərlə yarışmaq və onlara nazirə olsun deyə şairlər yazdılar ifadəsini istifadə etdikdən sonra aradakı oxşarlığı nümunə göstərərək Əndəlüslü şairlərin şeirlərini şərqi nümunə olaraq yazdıqlarını sübut etməkdədirlər. Nakaiz tipli şeirlərdə olduğu gibi şeirdə nazirənin təməl qaydası eyni vəzn eyni qafiyə hətta lafiz və eyni mənaların ələ alınmasıdır. Əndəlüsdəki elmi və ədəbi həyat özünə məxsus qaydaları məkanı şəxsiyyətləri və şərqdəkindən fərqli olaraq bir çox bariz fərqlilikləri olan xüsusiyyətlər üzərinə qurulmuşdur. Təbiidir ki Əndəlüsdəki elmi fəaliyyətlərin şərq ilə bir çox əlaqələri və ortaq tərəfləri olacaqdır. Daha öncə işarə etdiyimiz kimi başlanğıcdan etibarən Əndəlüsdəki elmi fəaliyyətlər Əndəlüs ana vətənindən şərqdən qaynaqlanmışdır.Bu baxımdan baxıldıqda Əndəlüslü ədib və şairlərin

əsərlərinin başlanğıcda şərq həmkarlarının minvalı ilə təltif etmələri də işarə etdiyimiz bu səbəblərlə əlaqədar qəbuledilməz bir vəziyyət deyil. Ədəbi elmlərin bundan əlavə digər elm qollarından şərqin effekti şübhəsiz vardır. Qaynaq əsərlərin hamısına yaxın bir qismi şərq mənşəli olub ya da şərqə ziyarət məqsədiylə gedənlər və ya Əndülüsə şərqdən gələn alimlər tərəfindən Əndəlüsə köç edirdi. Əndəlüsdəki İslamlaşma hərəkətlərini daha aktiv bir vəziyyətə gətirmədə ehtiyac olunan din alimləri də Bu elmi köç içində mövcud olmaqdadır. Bu meyarda hər nə qədər şərq şeir və nəsrin bağlı olduğu ümumi qaydalar Əndəlüsdə varlığını irəli sürmüşsədə zaman daxilində Əndəlüsə məxsus ədəbi nümunələr ortaya qoyulmuşdur.Əmirlik dövründə ortaya çıxan və zaman içərisində böyük rəğbət görən Muvaşşah və Zəcəl tipli şeirlər bu fərqliliyin ən fərqli nümunələridir. Xüsusilə II Abdurrahman və ardınca də ən Nasir ləqəbi ilə özünü xəlifə ifadə edən III Abdurrahman dövründə ədəbi fəaliyyətlər böyük bir irəliləyiş qeyd etdi. Elm və ədəbiyyat əhlindən olan kişilər Əndəlüslü olmanın haqlı qururunu duyaraq Əndülüsün fazilətlətlərini dilə gətirən ədəbi risalələr yazdılar.Eyni dövr içərisində əmirlərin elmi və ədəbi sahələrdəki bu canlılığı davam etdirmədə əsl üzərində durduqları mövzu Əndəlüsdə fasih ərəbcəni dirçəltmək olmuşdur.Başlanğıcda kiçik azlıq tərəfindən danışılan fasih ərəbcə zaman içərisində bərbəri ləhcələri və yerli xalqın danışdığı Latınca arasında itmə təhlükəsi ilə qarşı qarşıya görünülürdü. Əmir və idarəçilər bu təhlükəni ortadan qaldırmaq üçün təhsil fəaliyyətlərinə başlattdılar. Bu məqsədlə şərqdən alimləri Əndəlüsə, Əndəlüslü bir çox tələbəni müxtəlif elm qollarından təhsil almaqları məqsədilə şərqə göndərirlər Şərqdəki elmi və ədəbi sahələrdəki inkişaf və yeniliklərin Əndəlüsə çatdırılmasında şübhəsiz qarşılıqlı bu ziyarətlər böyük bir rol oynamışdır.Bu fəaliyyətlərin bir sonu olaraq Ərəbcə Əndəlüsdə yayğın bir şəkildə istifadə olunmağa başladı.X əsrin 2-ci yarısından etibarən ərəbcə əndəlüslülərin ortaq dili vəziyyətinə gəldi.Ərəbcənin belə sürətli bir şəkildə yayılması qarşısında həyəcana tutulan xristian papazlardan birisi öz camaatına etdiyi bir danışıqda narahat olduğunu dilə gətirmişdir. Çox din qardaşının ərəblərin şeir və hekayələrini oxumaqdan böyük zövq aldıqlarını görürük. Bu qardaşlarımın müsəlman alimlərin və filozofların dini görüşlərini də tədqiq etdiklərinə şahid oldum.Bu səylərini də müsəlmanları tənqid məqsədilə deyil əksinə zərif və axıcı bir ərəbcə danışmaq üçün sərf etməkdədirlər. Bu vəziyyətdə xristian din adamlarının xaricində Latınca olaraq yazılı müqəddəs incillər oxuyan və ya havarilərin əsərlərini incələyən bir kişi insan tapa bilmərik? Nə qədər acıdır ki, günümüzdə xristian gənclər ərəb dili və ədəbiyyatının xaricində başqa bir şey oxumurlar.Ərəbcənin istifadə edilməsinin bu şəkildə artması İslamlaşmanında surətli bir şəkildə yayılmasına yol açmışdır. Təhsilin yayılması xüsusunda alınan bu tədbirlər nəticəsində X əsrin sonlarına doğru Avropa ölkələrində din adamları xaricində oxum-yazma bilən yox deyiləcək qədər az olduğu vaxtda Əndəlüsdə xalqın böyük əksəriyyətinin oxum-yazma bildiyi rəvayət edilməkdədir. Bu nümunə Əndəlüslü idarəedicilərin təhsilinə nə qədər dəyər verdiklərini bizə anlatmağa yetər.III Abdurrahman tərəfindən açılan Kardova

universitetində din, dil və irq ayrı-seçkiliyi olmadan dünyanın dörd bir tərəfindən gələn tələbələrə xidmət verilməkdəydi. Təqribən 400 min nadir kitabın olduğu II Hakəm tərəfindən qurulan kitabxana ilə təlim və tədris xidmətlərində çalışan şəxslərə maaş verilməsi haqqında qanunu də Əndəlüsdəki təhsil fəaliyyətlətinin bir başqa uzantısdır.

Siyasi hadisələrin mənfi şəkildə böyüməsinə və ölkəni sürətli sona doğru götürən taxt davalarına daxili və xarici üsyanların və savaşlara baxmayaraq Əndəlüslülər elmin hər qolu ilə maraqlanmaqdan geri qalmamışdır.Xüsusilə əmir və yüksək rütbəli şəxslərin himayəsi altında qurulan elmi və ədəbi məclislər də elmi hərəkətlərin hər dövrdə canlı qalmasında vacib bir rol oyanmışdır. Bütün bu fəaliyyətlərin elmin və elm adamlarının Əndəlüsdə necə bir yer mövqe qazandığını başa düşməyimizə kömək edəcəyi qənaitindəyik.

Fəthdən əmirlik dövrünün sonuna qədərki dövrə şərq ədəbiyyatının dəyişdirilmədən Əndəlüsə nəqedilməai səhifəsini meydana gətirir. Bu dövr Əndəlüs şeirində Əndəlüsə xas və şərqdən fərqli bir xüsusiyyət görülməkdədir. Klassik ərəb şeirinin təməl qaydaları bu dövrün Əndəlüs şairləri tərəfindən də öncəliklə elə alınmışdır.

II Abdurrahman dövründən etibarən huzur və rifahın artması ilə şeirdə bəhs edilən mövzular da bu sosial mühitə mütənasib şəkildə dəyişirdi. Klassik Ərəb şeirinə bağlı qalan şairlərlə yanaşı Başşar bin Burd, Əbu Nuvas, Əbu Təmmam və Əbu Əhatiyə, Əl Mütənnəbi və Əbul əla əl Maari kimi şərqli şairlərdən hiss ediləcək bir şəkildə təsirlənən Əndəlüslü şairlərdə vardır. Bu qarşılıqlı təsirlənmənin bir nəticəsi olaraq şərab, təbiət təsviri kimi mövzular Əndəlüslü şairlər tərəfindən tez-tez ələ alınmışdır.Şeirə çağın gətirdiyi yeniliklərə uyğun bir üslub sadə başa düşülən və qulağa xoş gələn lafizlar hakim olmuşdur. Əsəbiyyətçilik fikirlərinin yayğınlaşması ilə I Hakəm dövründə özünü göstərməyə başlayan Muvəllədun hərəkatları bir silah olaraq istifadə edilməsini ehtiyacını doğurmuş və şairləri keçmiş şeirə daha da yaxınlaşdırmışdır. Ərəblərlə İspan kökənli müsəlman arasındakı bu üstünlük mücadələsində hər iki qismə aid şairlər öz atalarının soy,qəhrəmanlıq və comərdlik kimi gözəl məziyyətlər tərəfdən daha öndə olduğu isbata çalışdılar. Bu mücadələdə isə Əməvilər dövrünü həcv şairlərindən Cerir və Fərəzdəqdən birbirlərini həcv etdikləri nəqad tipli şeiri nümunə götürdülər. Əndəlüs şairi şərq şeirindən fərqlilikləri olan bir komanda xüsusiyyətləri daşıyır. Bu xüsusiyyətləri mövzularda yenilik mövzuların elə alışındakı fərqlilik duyğusallığın ön plana çıxması,ən vacibi də əmirlik dövrü sonunda görülməyə başlayan və zaman içərisində böyük rəğbət görən Muvaşşah və Zecel janrında şeirlər olaraq sıralaya bilərik

I Abdurrahman ər Rusafe adlı baxçada bir xurma ağacı gördüyündə söylədiyi şeir bu dövrün şeirindəki duyğusallığa çox gözəl bir nümunədir. Şair şeirində xurma ağacının boynunu rəngini və meyvəsini təsvir etmir. Xurmanı duyğusal bir yaxınlaşmasıyla təsvir edərkən onu canlı bir insan şəklində təsəvvür edərək qərib

qalmaları baxımından özü ilə xurma ağacı arasında böyük bir bənzərlik nümayiş etdirilmişdir.

3. İbn Hamdisin yaradıcılığı

İbn Hamdis Siciliyada yaşayırdı və bəlkə də onun taleyinin uğursuzluğu, hicri 447-ci ildən 471-ci ilə qədər Siciliyada baş verən müharibələr və nifaqlar dövrü, bir şəhərin süqut etməsi və ya sevgili vətəninin Normandların əlində əsir olmasıdır. Bütün bunlar onun yaradıcılığına təsir etmiş, əsərlərində vətən həsrəti mövzusuna geniş yer vermiş, poeziyası ilə tez-tez öz qürurundan daha çox ölkəsi ilə qürur duyduğunu söyləmişdir. Atası Əbu Bəkr bin Məhəmməd, babası Siciliyanın zənginlərindən olması, həmçinin bilikli və təqvalı olması İbn Hamdisin təlim tərbiyəsində öz təsirini qoymuşdur. Bunu gənc yaşlarında yazdığı şeirində görürük. Bu dövrdə əsərlərində sağlamlıq, xəstəlik, yemək, havanın təbiəti və biliyin və elmin genişlənməsi haqqında "Yaşıl adanın tarixi" adlı bir kitab yazana qədər danışmış, sonra isə ancaq təəssüf hissi ilə xülya və gənclik qürurunu dəf etmiş, əsərlərində başqa şeylərə tərəf yönəlmişdir.

Qohumları və dostları müharibələrdə ölmüş, digərləri isə Normanlar tərəfindən əsir götürülmüşdür, sonra ona ikinci bəla üz verdi, İbn Taşfin əl-Murabati Mu'tamid bin Abbad'ı məğlub etdi və onu qalaya həbs etdi. Əbdül Cabbar sahibinə sadiq qaldı, burada təhlükəyə baxmayaraq onu həbsxanada ziyarət etdi. Bu dəfə o, Məğribə, Tunisə öz tutur. Yolda gəmi fəlakəti nəticəsində şairin sevimli kənizi Cövhər faciəli şəkildə ölür. Sonradan ibn Hamdis Cövhərə bir neçə mərsiyə həsr edir.

İbn Hamdis bir çox janrlarda yazıb, amma daha çox vəsf şairi kimi tanınıb. İbn Həmdisin təxminən 6000 beytlik bir divanı var. Onun divanının təxminən 20 faizinin vəsf janrında olması Kudelinə ibn Həmdisi vəsf ustası kimi tədqiq etməyə əsas verir. İbn Hamdis bir sıra vəsflərində ənənəvi bədəvi tematikasından uzaqlaşıb Əndəlusun gözəl təbiətini, bağlarını və gül-çiçəkli çəmənlərini, çay və bulaqlarını təsvir edir. Onun divanında dəniz səyahətinin və gəminin, qılınc və dəbilqənin, bir sıra heyvan və həşəratların, atın, müharibə səhnələrinin təsvirini görürük. (Kudelin, s. 131) Onun poeziyasında qəzəl şeiri mühüm yer tutub.

İbn Həmdis şeirlərinə (altı mindən çox sətirdən) ilhamı əsasən həyatının xoş anlarından və sarayda baş verən hadisələrdən almışdır. Beləliklə, o, əmirləri, uğurlu əməlləri, bayramları və əyləncələri, möhtəşəm bağları, sarayları, çiçəkləri, heyvanları, çayları, susan ayı, dənizi təsvir etmişdir. Bu şeirlərdə onun üslubu mükəmməl, obrazlarla zəngin, formal, zərifdir. Ancaq şair itirilmiş gəncliyi və Siciliyası, atalarının yurdu, xoş yeniyetməlik dövrü, ərəblərin gözəl cəmiyyət, mədəniyyət və həyat tərzi haqqında da danışmışdır. İbn Həmdisin əsərlərinə nostalji duyğular xasdır.

***Qaynaqlar*:**

1. Qasımova A. Ərəb ədəbiyyatı. Bakı: Elm, 2019
2. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər.Bakı: Şərq-Qərb 2006
3. Aydın M. Endelüsten İspanyaya / / Türkiye, 2003
4. Öncel H. Endelüslü şair ibn Hamdis və şerlərindən örnekler. Türkiye, 2013

МАРЬЯМ БАГЫРЛЫ

ЖАНРОВЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА ИБН ХАМДИСА
РЕЗЮМЕ

С момента своего создания арабское государство контролировало большие территории, от ислама и завоеваний до Испании на границе с Китаем. Каждый народ придает этой литературе свой колорит. Завоевание Испании и появление арабско-испанской литературы – тому примеры. Когда арабы завоевали Андалусию, они столкнулись с природой, которую никогда раньше не видели, с деревьями, реками и горами. Эта ослепительная природа Андалусии развивала их воображение. Андалузская поэзия была создана путем имитации арабской поэзии на Востоке. По мере того, как арабы привыкали к землям Андалусии, они постепенно избавлялись от подражания Востоку. Был даже создан новый жанр поэзии – Мувашшах.

В этом отношении очень важно творчество Ибн Хамдиса, одного из поэтов эпохи Возрождения, который в своих стихах описал богатую природу острова Сицилия. Он также писал о героизме, вине и военных кораблях. Отношения поэта с Мутамидом ибн Аббадом позволяют нам изучить творчество поэта.

Ключевые слова: *арабская литература, Андалусия, Ибн Хамдис, Сицилия, диван, Мувашшах*

MARYAM BAGHIRLI

GENRE FEATURES OF IBN HAMDIS'S WORK
RESUME

Since its inception, the Arab state has controlled large areas, from Islam and conquests to Spain on the Chinese border. Every nation adds its own color to this literature. The conquest of Spain and the emergence of Arabic-Spanish literature are examples of this. When the Arabs conquered Andalusia, they encountered a nature they had never seen before, with trees, rivers and mountains. This dazzling nature of

Andalusia developed their imagination. Andalusian poetry was created by imitating Arabic poetry in the East. As the Arabs became accustomed to the Andalusian lands, they gradually got rid of Eastern imitation. Even a new genre of poetry, Muwashshah, was created.

The work of Ibn Hamdis, one of the poets of the Renaissance, is very important in this regard. He described the rich nature of the island of Sicily in his poems. He also wrote about heroism, wine, and warships. The poet's relationship with Mutamid ibn Abbad allows us to explore the poet's work.

Keywords: *Arabic literature, Andalusia, Ibn Hamdis, Sicily, divan, Muwashshah*

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Aida Qasımova Filologiya elmləri doktoru, professor tərəfindən çapa tövsiyə olunmuşdur

SELCAN QAFFARLI
Bakı Dövlət Universiteti, doktorant
s.gaffarli@landauschool.com

BABA BƏY ŞAKİR SATİRASININ TƏNQİD HƏDƏFLƏRİ

Açar sözlər: *Baba bəy Şakir, satira, mühit, ziyalı, mövqe, realist, humanist, cəmiyyət, maarifçi, xalq, problem, şair, həqiqət, poeziya tərbiyə*
Keywords: *Baba bay Shakir, environment, intellectual, position, society, enlightener, education, poet, the truth, poetry, problem, people,*
Ключевые слова: *Баба бек Шакир, поет, поэзия, среда, интеллигент, позиция, правда, народ, проблем, гуманист, общество, просветитель, воспитание*

XIX əsrin ilk yarısında Azərbaycan xalqının taleyində baş verən mühüm hadisə Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil edilməsi ilə bütövlükdə mədəniyyətdə olduğu kimi, ədəbiyyatda da qərbyönümlü meyllər olduqca güclənir. Bunun təsiri altında ədəbiyyatda milli və realist-dünyəvi motivlər aparıcı mövqeyə çıxır. Molla Pənah Vaqif yaradıcılığının bilavasitə təsiri altında Qarabağ ədəbi mühitində tənqidi-realist satiranın Qasım bəy Zakir (1784-1857), Baba bəy Şakir kimi nümayəndələri yetişərək uzun müddət poetik inkişafın istiqamətini müəyyənləşdirir.

Əksər mədəni dünya xalqlarında olduğu kimi, Azərbaycan ədəbiyyatında da XIX əsr görünməmiş sürətli inkişaf, humanist ideallara, maarifçiliyə doğru dönməz bir yürüş, ağılın hakimiyyətini əsaslandırmağa ilk ciddi cəhd dövrü kimi özünü büruzə verir. Xüsusən Azərbaycanın Şimal hissəsinin Rusiyaya birləşdirilməsindən sonra, bu tarixi prosesin bütövlükdə mürtəce, müstəmləkəçi mahiyyətinə baxmayaraq, ədəbi-mədəni inkişafda cənubla müqayisədə müəyyən irəliləyişlər müşahidə edilir. Bu irəliləyişlərin sübutu XIX əsr satirik poeziyanın geniş vüsət almasıdır. Çünki artıq şairlər ətarfında baş verən həqiqətləri görür, bu həqiqətləri açıq söyləyə bilmədikləri üçün satirada istifadə edirdilər.

Beləliklə, XIX əsr Azərbaycan poeziyasının əsas qollarından biri də realist satiradır. Ölkənin sosial-iqtisadi həyatında ictimai və milli zülmə, müstəmləkəçilik siyasətinə qarşı etiraz mövcud vəziyyətdən narazılıq əhvali-ruhiyyəsinin qüvvətlənməsi və xalq azadlıq hərəkatının genişlənməsi bədii ədəbiyyatda kəskin açıq tənqidi pafosun meydana gəlməsi ilə nəticələnir; əsrlər boyu gah dəhşətli faciələrlə ağlayan gahda azadlıq həsrəti ilə alışıb yanan gözəllik və məhəbbəti tərənnüm edən qəhramanlara və hökmdarlara mədhiyyə oxuyan təbiətə, bahara, gülə və bülbülə nəğmələrə qoşan bəşərriyət indi bədii təfəkküründə tənqidə geniş yer

verir, "həyat haqqında amansızcasın açıq danışan əsərlər yazırdılar. Şeirdə demokratizmin, həyatiliyin sosial məzmunun güclənməsi obrazlar sistemində təbiiliyin artması, mövcud cəmiyyətə, ictimai quruluşa maarifçi baxışın dərinləşməsi, ən başlıcası isə əsrin ortalarında dünya tarixinin "tam mənada komizm mərhələsinə qədəm qoyması" və "getdikcə daha artıq istehza doğurması" poeziyyada satira və realizmin yaranması üçün obyektiv şərait, zəmin idi. Tarixi şərait, ictimai mühütdə gördükləri mənəvi-əxlaqi eybəcərlik saf bəşəri duyğular haqqında nəğmələr qoşan Azərbaycan şairlərini məhəbbət və gözəlliyin tərənnümünə dair odlu lirika ilə kifayətlənməyə qoymur, onları kəskin tənqidi-satirik əsərlər yazmağa təhrik edirdi. B.Şakir, Q.Zakir, M.Nadim kimi sənətkarların yaradıcılığı Azərbaycan şeirində yeni ədəbi cəriyanın meydana gəlməsini göstərirdi. Bu cərəyanın tənqid obyekti narazı salan məsələr çox idi. Lakin onlar əməkçi xalqın həyatı, ağır güzaranı ilə hər şeydən artıq maraqlanırdılar. Yoxsul kəndlinin, rəiyyətinin çətin dolanışığı, rəncbərin insan yerinə qoyulmaması, bir tikə çörəkdən ötrü bütün günü bəylərin qapısında xidmət edən kəndlinin dözülməz vəziyyəti B.Şakirin, M.Nadimin şeirlərində dərin hüznlə, kədər hissi ilə onları incidən bəylər və ağalar isə hədsiz qəzəblə təsvir olunurdu. Kəndlilərin vəhşicəsinə istismar olunduqlarını bicincilərin haqqını kəsən camaatı susuz qoyan mülkədarların yırtıcı təbiətinin realist boyalarla təsvir edən Nadim "Mahmud" satirasında təhkimçi – feodal quruluşunun zülm və zorakılığını, rəncbərlərin kotana qoşulduqlarını ürək ağrısı ilə kəskin daxili etiraz ruhunda göstərirdi:

Mahmud! Əya rəncbərara mərdi-yeganə,
Nahaq yerə rəncidə olub gəlmə fəğanə,
Xaliq sizi rəncbər yaradıbdır bəyə, xanə.
Hərçənd gərəkdir qoşalar at bu kotanə,
At olmasa, heç incimə, insan da qoşarlar. (6, s. 155)

Hakim siniflərin tənqid, çarizmin qayda-qanunlarına, yerli feodalların özbaşınalığına etiraz, habelə ayrı-ayrı yaramaz sosial tipləri ifşa satirik şeirin başlıca motivləri idi. Doğrudur, satiriklərin əsərlərində cəmiyyətin siyasi-iqtisadi əsaslarına toxunulmur, eybəcərliklərin əsas kökləri göstərilmirdi: bununla belə onlar mənfiliklərin bilavasitə "sahibi-ixtiyarla" əlaqədar oldugunu, cəmiyyətin xəstə hal aldığını bildirirdilər. Məsələn, Baba bəy Şakir murovların oğrularla, yolkəsənlərlə dilbir olub, onlardan rüşvət almalarını,qubernator və sərdarın isə bu işə göz yummalarını çəkinmədən cəsarətlə deyirdi:

Bu nə qubernator, bu necə sərdar?!
Dağılıb vilayət, oldu tarımar;
Cəldlanibdi rüşvəto murovlar,
Xəlqin işi ahü əfğanə dönüb. (6, s. 156)

Başqa bir şeirində Şakir fitnəkar "bodzat" bəylərin komendant və canişinə rüşvət verməklə vəzifəyə keçib.əhaliyə divan tutduqlarını təsvir etmişdi. Ümumiyyətlə, Baba bəy Şakir XIX əsr Azərbaycan ədəbiyyatının ən güclü satiriklərindən biridir.

O, Şuşada Məhəmmədəli bəy oğlu Sarıcalı-Cavanşir adlı ziyalının ailəsində dünyaya gəlmişdir. Mükəmməl mədrəsə təhsili almış, ana dili ilə yanaşı bir neçə Şərq dillərini də bilirdi. O, Baba bəy Pənahəli xanın böyük qardaşı Fəzləli bəyin nəvəsidir. O, Mehribanlı Baba bəy kimi də tanınır. Qasım bəy Zakir ilə həm dost, həm də qohum idi. Baba bəy Şakir 1844-cü ildə vəfat edib. "Şakir" təxəllüsü ilə şeirlər yazan bab bəy Azərbaycan satirik ədəbiyyatının nümayəndələrindəndir. Onun satira hədəfləri dövrün azğın qubernatorları və dövlət məmurlarıdır. Şairin məşhur şeirləri bunlardır: "Bir parası mümtüz edib Camalı", "Dönüb", "Gəlməz", "Üstünə", "Yetmədi", "Ay mədəd".

Sağ olasan, ay İstepan yüzbaşı,
Yaxşı adam, yaxşıların yoldaşı.
Aşırarsan əgər ola qan işi,
Şənin üçün qəməndanlıq yaraşı…

Bu nə qubernator, bu nə sərdar?
Dağılıb vilayət oldu tar-mar!
Cəldələnibdir rüşvətə murovlar,
Xalqın işi ah-əfqanə dönübdür.(6, s. 157)

Baba bəy şakir bu kimi satirik şeirləri ilə təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün Yaxın Şərq ədəbiyyatında satirik düşüncənin daha da inkişafına xidmət etmişdir. Məhz Baba bəy kimi şairlərin sayəsində XIX əsr poeziyasında satirik şeirlər ədəbi prosesdə güclü qola çevrildi. Şakir həm də klassik poeziyamızda aşıq şerinin poetik ənənələrini davam etdirən şairlərdən biridir. Onun poeziyası həm də aşıq ədəbiyyatının nümunələri hesab edilir. Əslində Zakir ədəbi məktəbinin nümayəndəsi olan şair, həm də Zakirin qohumlarından olmuşdur. Zakir hətta onun ölümü ilə əlaqədar "Maddeyi-tarix " yazmışdır. Şairin Zakirlə olan müaşirəsi da məlumdur. Baba bəy Şakirin qoşmalarında ictimai motivlər güclüdür. Xüsusilə, Zakir ədəbi məktəbinə məxsus satira onun poeziyasında da yüksək səviyyədədir:

Az qalıbdır çıxsın əflakə nalə,
Rəiyyətmi dözər bu alhaalə,
Edənlər artırıb elə həvalə,
Çapar xana qızıl pulu təhmilat. (6, s. 154)

Onun Qasım bəy Zakirə və Gəncüm Ağaya yazdığı məktublarında XIX əsrin əvvəllərində Azərbaycan siyasi həyatında baş verən hadisələr, xalqın güzəranı, əhalinin maddi ehtiyacları təsvir edilmişdir:

Özün divanbəyi, tutduqca dilin,
Gərəkdir deyəsən dərdini elin,
Tutalım padşaha çatmayır əlin,
Qubernata, ya sərdara ərz elə! (6, s. 156)

Bu bəndə Şakir Zakirə daha böyüklərə əl çatmırsa, xalqın problemlərini qubernatora çatdırmağı məsləhət gorur. Halbuki, o yaxşı bilirdiki, qubernator, nə də başqaları xalqın hec bir dərdini dinləmir, problemlərini nəinki həll etmək istəmir, əksinə daha agır qanunlar çıxarırdılar.

Quberniya bina olandan bəri,
Oğrunun hər biri bir xanə dönüb;
Yox yetişən ərzə, divan eyləyən,
Dağılıb vilayət, viranə dönüb. (6, s. 156)

Bu satirasından da göründüyü kimi Şakir açıq şəkildə qubernatorların xalq üçün, kəndlilər üçün heç bir qeyd olunası işlər görmədiyini, vilayətin viran olduğunu dağıldıgını göz önünə gətitir.

Murovlar buyurur oğurlayın at,
Naçalnikdən eyləməyin ehtiyat,
Olmaz urusluqda eyləmək isbat,
Onunçün tülkülər aslanə dönüb.(6, s. 157)

Bu satirasında özbaşınalığın vüsət aldığını, oğurlugun adi bir hala çevrildiyini, qanunların ancaq qubernatorların işlərinə gəldikdə pozmaqlarını, adi kəndlinin isə bu sübuta yetirə bilmədiyi üçün əli-qolu bağlı olmasını 4 cümlə ilə çox gözəl ifadə etmişdir:

Var idi on atım, iyırmi malım,
Qərəz, bir tövr ilə keçirdi halım,
Yığıb bir hal ilə apardı zalım,
Qapımız sovrulmuş xırmanə dönüb.

Dəxi bizdə qalmayıbdır dana
Gedirik sərdarə yetişdik cana,
Olubdur ogrular sahibi-xana
O ki ev sahibi mehmana dönüb. (6, s. 156)

Kəndlilərin min bir zəhmətlə qazandıqlarını murovlar, qubernatorlar oğurlayır, talayır yazıq kəndli səsini çıxara bilmirdi. Səsini çıxaranın isə aqibəti bəlli idi. Qazamat! Şakir bu bəndlərlə dövrə sanki, güzgü tuturdu. Bu güzgüyə baxmaq isə cəsərət tələb edirdi. Nece eybəcər insan güzgüyə baxmaz, nifrət edərsə, elə də o dövrün zülmkarları öz əməllərini görməzdən gəlirdilər. Şakir isə bu eybəcərlyə dözə bilmir, fikirlərini satira yolu ilə ifadə edirdi. Onun güzgüsü isə satiraları idi.

Tamam oğurluqda olubdur pərgar,
Yatmayıb sübhədək dartar nə ki var,
Qarabağın malı bostanə dönüb.
Qalmışıq məəttəl sultanlı, xanlı, (6, s. 156)

Bu bəndə Şakir "Sultanlı, xanlı" ifadəsi ilə, əslində, yalnız adi kəndlilərin deyil, Qarabag bəylərinin də mal-dövlətlərinin əllərindən alındığına eyham vurur. Taraixdən də məlum oldugu kimi Çar Rusiyası Azərbaycana qarşı işgalcılıq planlarını yerinə yetirərkən, bəylərin mülkləri kimi statuslarını da əllərindən alırdı. Çünki nüfuzlu bəylərin xalqı istədiyi tərəfə yönləndirəcəkərindən qorxurdu.

Rəsuldan şərm yox, Allahdan da bim,
Allah rizasına danışmaz heç kim,
Qarabağ düzəlməz, mənim əzizim,
Çünki öz əhlimiz şeytanə dönüb. (6, s. 157)

Sonda isə bu satira ilə fikirlərimizi yekunlaşdırmaq istərdim. Baba bəy Şakir bu satirasında "Çünki öz əhlimiz şeytana dönüb" deməklə "sapı özümüzdən olan baltalar"I da unutmadığını bildirib. Həqiqətən Çar Rusiyasının uzun müddətli siyaətinin əsəs dayaqlarından biri də öz millətimizdən olan satqınlar idi. Çox təssüflər olsun ki, illər boyu belə ikiüzlü insanlar olub. Şakirin isə əsas məziyyəti öz satiralarında poetik, bədii bir dildə bütün bu fikirlərini ifadə etməsidir. Vulqarlığa qaçmadan,xalq dilində məntiq və ağılla doğru cümlələri qurmaqla, vacib məsələlərə diqqət çəkmişdir. O dövrü bilməyən bir insan təkcə Şakirin satiralarını oxumaqla o dövrün mənzərəsini beynində canlandıra bilər. Şakirin böyüklüyü budur. Poetik mənzərini satirik bir dildə ifadə etmək

Baba bəy Şakir aşıq deyildi, o klassik ədəbiyyatımızın istedadlı şairlərindən biridir. Şairin yazdığı müxəmməslərdə, məsnəvilərdə, qəsidələrdə də aşıq şerinin poetik ənənələri özünü büruzə verir. Belə ki, aşıq şerinə məxsus sadə danışıq dili, frazeoloji və idiomatik ifadələr onun klassik üslubda yazdığı şerlərində də var:

Eşşəyin gər axurun sim ilə təmir edəsən,
Qarnını kişmiş ilə şamü səhər sir edəsən,
Çulunu atlasü ya tirmeyi- Kəşmir edəsən,

Zəri-xalisdən ona noxtavü zəncir edəsən,
Qədrü qiymətdə yenə atdan olur ərzani.

Şairin müxəmməsindən olan bu misralarda adı danışıq dili, xalq təfəkkürü öz ifadəsini tapmışdır. Xalq danışıq dilində olan "Eşşək nə qanır zəfəran nədir" və ya "Təzək, bəzək götürməz" kimi atalar sözlərini şair məharətlə divan ədəbiyyatına gətirmişdir. Halbuki, divan ədəbiyyatında əsrlərdən bəri təsvirçilik ənənəsi, yüksək pafos, təmtəraqlı bənzətmələr prioritet olmuşdur. Şairlər adətən şəhər və saray mühiti ilə bağlı əlamətləri şerə gətirirdi. Aşıq şeri ilə bərabər divan ədəbiyyatının janrlarında şer yazmaq Vaqif, Zakir ədəbi məktəbinin poetik ənənəsi idi. Baba bəy Şakir də həmin ənənəni layiqincə davam etdirmiş və klassik janrlarda da əsərlər yazmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. II cild Bakı, Maarif, 1982, 428 s.
2. AMEA Əİ M. F. Axundzadənin arxivi. F-2 s.v.418.
3. Ənvər Çingizoğlu, Cavanşir eli: Sarıcalılar, Bakı, Mütərcim, 2015, 352 s.
4. Mir Cəlal, Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, Elm və təhsil, 2018, 560 s.
5. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi, (Dərslik). Bakı, Proqres nəşriyyatı, 2012, 434
6. Sənan İbrahimov. Vahid Şərq ədəbi prosesi (XVI-XX əsrlər). Bakı, "Ecoprint", 2020, 560 səh.
7. Şakir Baba bəy. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1985. 230 s.

QAFFARLI SELCAN

BABA BƏY ŞAKİR YARADICILIĞININ SATİRİK TƏNQİD HƏDƏFLƏRİ

XÜLASƏ

Baba bəy Şakir XIX əsr Azərbaycan satirik ədəbiyyatının ən böyük nümayəndələrindən biridir. Baba bəy Şakir satirik şeirləri ilə təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün Yaxın Şərq ədəbiyyatında satirik düşüncənin daha da inkişafına xidmət etmişdir. Məhz Baba bəy kimi şairlərin sayəsində XIX əsr poeziyasında satirik şeirlər ədəbi prosesdə güclü qola çevrildi.

Onun satiraları, poetik gücü, məntiqli eyhamları, düzgün və seçilmiş tənqid hədəfləri, bu tənqid hədəflərinin ifşası üçün secilmiş qüvvətli cümlələri satirlarına rəngli çalarlar qatır. Bu məqalədə də məhz onun ən güclü satiraları seçilmiş və təhlil edilmişdir. Təhlil zamanı satrirasında yer verdiyi mövzular vurğulanmış, Şakirin bu mövzulara baxış aspekti dərindən təhlil obyektinə çevrilmişdir. Şakir satiralarında özbaşınalığın vüsət aldığını, oğurlugun adi bir hala çevrildiyini, qanunların ancaq kəndlilər üçün olduğunun, qubernatorların işlərinə gəldikdə bu qanunlara məhəl qoymadıqlarını, adi kəndlilərin necə hüquqsuz olduğunu, təqsirləri olmadıqda belə

sübuta yetirə bilmədiyi üçün həbsə salındıqlarını poetik və satirik dillə verirdi. Məqaləmizdə onun güclü satiralarından olan nümunələrin mövzuları və ideyaları göz önünə gətirilir.

Nəyə görə bu mözulara müraciət etdiyi aydınlaşdırılır. Məqalə müəllifi bu satiraları doğuran şəxsi və ictimai meylləri də, yazıçının ziyalı mövqeyini də müxtəlif mövzular konteksində təhlil obyektinə çevirmişdir. Tədqiqatçıların araşdırılan problemlə bağlı fikir və mülahizələrinə nəzər salınmışdır.

GAFFARLİ SELJAN

OBJECT OF SATIRICAL CRITICISM IN BABA BEY SHAKIR'S WORK

SUMMARY

Baba Bek Shakir is one of the greatest Azerbaijani satirical literature representatives of the 19th century. Baba Bek Shakir, with his satirical poems, contributed to the further development of satirical thoughts in Azerbaijani literature, yet in addition in the entire literature of the Middle East.

By virtue of poets such as Baba Bek, satirical poetry in 19th century poetry turned into a powerful branch of the literary process. His satire, poetic power, logical allusions, correct and well-chosen objects of criticism, harsh sentences picked to uncover these objects of criticism add color to his satyrs. This article additionally chose and analyzed his most powerful satires. During the analysis, the topics of his satire were emphasized, and the perspective of Baba Bek Shakir on them became the object of more profound analysis. In his satires, Shakir wrote in poetic and satirical expressions that arbitrariness was an everyday occurrence and robbery was usual, the laws concerned only peasants, as the governors disregarded them, and the peasants did not have any rights, but were only imprisoned for the fact that they could not prove their innocence.

Our article explores topics and idea examples from his powerful satyrs. It clarifies why he did it. The author of the article turned these satires into objects of analysis with regards to various topics, both personal and social patterns, as well as the intellectual position of the writer.The perspectives and assessments of researchers on the issue under study were considered.

ГАФФАРЛИ СЕЛЬДЖАН

МИШЕНИ САТИРИЧЕСКОЙ КРИТИКИ ТВОРЧЕСТВА БАБА-БЕЯ ШАКИРА

РЕЗЮМЕ

Баба Бек Шакир является одним из величайших представителей азербайджанской сатирической литературы XIX века. Баба Бек Шакир своими сатирическими стихами способствовал дальнейшему развитию сатирических

мыслей не только в азербайджанской литературе, но и во всей литературе Ближнего Востока. Благодаря таким поэтам, как Баба Бек, сатирические стихи в поэзии XIX века стали сильной ветвью литературного процесса. Его сатиры, поэтическая сила, логические аллюзии, правильные и хорошо подобранные объекты критики, резкие предложения, выбранные для разоблачения этих объектов критики, добавляют красочности его сатирам. В этой статье также были отобраны и проанализированы его самые сильные сатиры. В ходе анализа были подчеркнуты темы его сатиры, и взгляд Баба Бек Шакира на эти темы стал объектом более глубокого анализа.

В своих сатирах Шакир писал в поэтических и сатирических выражениях, что произвол был обычным явлением и воровство было обычным делом, законы касались крестьян, а правители игнорировали их, и то, что обычные крестьяне не имели прав и были заключены в тюрьму за то, что не смогли доказать свою невиновность. В нашей статье рассматриваются темы и идеи примеров из его сильных сатир. Поясняется, зачем он это делал. Автор статьи превратил эти сатиры в объекты анализа в контексте различных тем, как личных, так и социальных тенденций, а также интеллектуальной позиции писателя. Учитывались взгляды и мнения исследователей по исследуемой проблеме.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: filologiya elmləri doktoru Sənan İbrahimov tərəfindən çapa tövsiyə olunmuşdur

FARİZ QASIMBƏYLİ
AMEA Hüseyn Cavidin Ev Muzeyi
fariz.qasimbeyli@yandex.com

MİRZƏ ƏLƏKBƏR SABİR YARADICILIĞINDA MƏHƏMMƏD PEYĞƏMBƏRƏ EHTİRAM

Xülasə

Dünyada ən geniş yayılmış səmavi dinlərdən biri olan islam dini VII əsrin sonu, VIII əsrin əvvəllərindən etibarən Azərbaycan xalqının dünyagörüşünə, həyat tərzinə, adət-ənənələrinə nüfuz etməyə başlamış, zaman ötdükcə islami dəyərlər onun mənəvi dünyasınınayrılmaz bir parçasına çevrilmişdir.

Azərbaycan xalqının qədim və zəngin ədəbi-bədii və fəlsəfi irsinə islam dininin, islam dünyagörüşünün çox böyük təsiri olmuş, bu təsir özünü şifahi xalq ədəbiyyatından XX əsrin əvvəllərinə qədərki yazılı ədəbiyyatda ən aydın şəkildə təzahür etdirmişdir. Türk dünyasının olduğu kimi, islam dünyasının da önəmli bir parçası olan Azərbaycan türkləri yaratmış olduqları dini ədəbiyyat, təriqət ədəbiyyatı və mərsiyə ədəbiyatının bir-birindən dəyərli nümunələri ilə ümumislam ədəbi-fəlsəfi irsinə qiymətli töhfələr bəxş etmişlər.

Sovet sabirşünaslığında ateist bir şair kimi qələmə verilməyə çalışılan Azərbaycanın böyük satirik şairi Mirzə Ələkbər Sabirin dəhəyat və yaradıcılığı obyektiv tədqiq olunduqda aydın olur ki, o, dindar bir müsəlman həyatı yaşamış, əsərlərində islam dininə, islami dəyərlərə hörmətlə yanaşaraq, bu dəyərləri ehtiramla tərənnüm və təbliğ etmişdir.

Sabir xüsusən böyük islam peyğəmbəri Məhəmməd peyğəmbərə yaradıcılığında dərin ehtiram nümayiş etdirmiş, müsəlman dünyasının birliyi, maariflənməsi, tərəqqisi uğrunda apardığı əzmkar mübarizəsində onun qiymətli hədislərindən dönə-dönə istifadə etmişdir.

Açar sözlər: Sabir, islam, din, Məhəmməd peyğəmbər, müsəlman, şeir

Mirzə Ələkbər Sabir misilsiz satiraları ilə böyük ədəbi məktəb yaratmış Azərbaycan ədəbiyyatının ən nurlu simalarından biri, əsl xalq şairidir. “Şairəm, əsrimin ayinəsiyəm” – deyən Sabirin yaradıcılığında, xüsusən satiralarında toxunduğu mövzular ən kiçik ailə-məişət hadisələrindən ümummillət, ümumdövlət, ümumşərq, ümümmüsəlman problemlərinə qədər çox geniş arealı əhatə edirdi. O, toxunduğu bu problemlərə ötəri yanaşmır, oxucunun bunlara diqqətini yönəldir, mahiyyəti və həlli yolları barədə düşünməyə məcbur edirdi. Xalqın tərəqqisinə mane olan, hüquq və dəyərlərini tapdalayan mürtəce ünsürləri öz satiralarında məharətlə ifşa edən, həmin ünsürləri cəhalət buxovlarında çırpınan xalqa göstərməyə,

anlatmağa və qarşı çıxmağa çağıran Sabirin bu böyük mübarizəsi sovet sabirşünaslığında bir çox hallarda öz mahiyyətindən kənar, məlum ideoloji sistemin tələblərinə uyğunizah edilməyə çalışılmışdır. Şairin mövhumat və xurafatın, riyakar mollaların tənqidinə həsr olunmuş əvəzsiz satiraları bu tədqiqatlarda dini dünyagörüşə, islam dininə, dini ayinlərə, ümumi din xadimlərinə qarşı yönəlmiş əsərlər, Sabirin özü də, "dinlə mübarizə aparan", ateist bir şair kimi qələmə verilməyə çalışılmışdır. Obyektivlik və elmilikdən uzaq olan bu qənaətlərlə həm islam dini, islami dəyərlər gözdən salınmağa, həm də, Sabir əsl sovet şairi kimi təqdim olunmağa çalışılırdı.

Lakin şairin həyat və yaradıcılığının obyektiv və əsaslı tədqiqi onu bariz şəkildə ortaya qoyur ki, *"şəxsiyyət etibarilə dindar bir müsəlman olan Sabir kiçik yaşlarından ömrünün sönunadək, islam dininin zəruri şərtlərini səmimiyyətlə icra etmiş – namaz qılmış, oruc tutmuş, islam dinində haram buyurulduğu üçün əsla şərab və spirtli içkilər içməmişdir. Yaradıcılığında islam dini əleyhinə bir misra belə yazmamış, islami dəyərlərə, o cümlədən, Allaha və Məhəmməd peyğəmbərə, şiəlikdə xüsusi ehtiram bəslənilən imam Hüseynə məhəbbəti əsərlərində dəfələrlə tərənnüm olunmuş Sabir Azərbaycan müsəlmanları arasındakı məzhəb ixtilaflarının aradan qaldırılması, bütöv, qardaş islam toplumu uğrunda da ardıcıl və qətiyyətli mübarizə aparmışdır"* [1, s.77].

Azərbaycan ədəbiyyatına islam dünyagörüşünün, islami dəyərlərin tərənnüm və təbliğ olunduğu bir-birindən qiymətli əsərlər bəxş etmiş Mirzə Ələkbər Sabir yaradıcılığında böyük islam peyğəmbəri Məhəmməd peyğəmbərə həsr olunmuş, onun müsəlmanlar və bəşəriyyət üçün yüksək mənəvi-əxlaqi, tərbiyəvi dəyərlər aşılayan hədislərinin əks olunduğu şeirləri spesifikliyi ilə diqqət cəlb etməkdədir.

İslam dinini beş əsas şərtindən birincisi və ən vacibi "Kəlmeyi-şəhadət" [Allahın birliyinə və Məhəmməd peyğəmbərin onun rəsulu olduğuna şəhadət verən sözlər] hesab olunur ki, "Kəlmeyi-şəhadət"i "gətirməklə" [deməklə, təsdiq etməklə] islamı, müsəlmanlığı qəbul edən şəxsin Allahın yeganə yaradıcı olmasına, ondan başqa bir ilahın, Yaradanın olmadığına, Məhəmməd peyğəmbərin də Onun rəsulu olmasına tərəddüdsüz inanması mənasına gəlməkdədir. Quranda Məhəmməd peyğəmbərin müqəddəs missiyası barədə bir sıra ayələrdə bəhs olunmaqdadır. Məsələn, əl-Furqan surəsində deyilir: *"[Ya Rəsulum!] Biz səni yalnız [möminlərə Cənnətlə]müjdə verən və [kafirləri cəhənnəm əzabı ilə]qorxudan bir peyğəmbər kimi göndərdik"* [2, 25/56]. Əl-Əhzab surəsində isə islam peyğəmbərinə müraciətlə belə deyilməkdədir:*"[Biz səni] Allahın izni ilə Ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik!"* [2, 33/46].

İslam dininə görə Məhəmməd peyğəmbər, həmçinin Allahın təyin etdiyi elçilərin sonuncusudur ki,ondan sonra yeni bir peyğəmbər, rəsul, nəbi gəlməyəcəkdir. Qurani-Kərimin əl-Əhzab surəsində bu barədə deyilir: *"Muhəmməd... Allahın Rəsulu [elçisi] və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir"* [2, 33/40].

Böyük islam peyğəmbəri Məhəmməd peyğəmbərin müsəlmanların birliyinə dair çağırışları, yaradıcılığında müsəlmanlar arasındakı məzhəb ixtilaflarına, bu ixtilafların aradan qaldırılması üçün mübarizəyə geniş yer vermişSabir poeziyası üçün də, xarakterikdir. "Təhəssür" adlı şeirində "peyğəmbəri-zişan"ın [şanlı, möhtərəm peyğəmbərin] birliyə əmr etməsini misal gətirən şair müsəlmanlar arasındakı təfriqədən ürək ağrısı ilə danışır, bu xüsusda onları ixtilaflara son qoymağa, birliyə səsləyirdi:

Dai bə üxuvvət olur ikən bizə Quran,
Əmr eylər ikən birliyə peyğəmbəri-zişan,
Tapmazsan iki müttəfiqürrəy müsəlman
Qafqazda olan bir neçə milyan arasında! [4,s.57].

"Növheyi-milli" şeirində də, islam peyğəmbərinə ehtiramla "peyğəmbəri-nikunam" – "yaxşı ad qazanmış peyğəmbər" deyə xitab edən şaironun tək Allahı, tək dini müsəlmanlara "elam qılmasını" – anlatmasını vurğulayaraqyenə milləti birliyə dəvət edirdi:

Təbliğə başladı çün peyğəmbəri-nikunam,
Əmri-rəsalətində ancaq gətirdi islam,
Bir dini, bir xudanı islama qıldı elam,
Ta bir tifaqə dair olsun vifaqı-millət! [4, s.56].

İslam dinində heç bir əsas, tutarlı səbəb olmadan hansısa bir şəxs və ya hadisə barədə pis fikrə düşmək, bədgümanlıq etmək – "sui-zənn"ə qapılmaq böyük günah hesab edilməkdədir. Səbəbsiz, əsassız ittihamlara, ədalətsiz hökmlərə səbəb olan "sui-zənn"in günah olması Quranda əl-Hücurat surəsində aşağıdakı kimi ifadə olunmaqdadır: *"Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi [heç bir əsası olmayan zənn] günahdır..."* [2, 49/12]

Sabirin başlıca tənqid hədəflərindən biri olan saxtakar mollaların cahil camaatı aldadaraq qızışdırıb yönəltməsi nəticəsində ona və əqidə dostlarınıa ağır təzyiqlər göstərilməsi üzündən qələmə aldığı"İltihabi-təəssüratımdan yenə bir şöleyi-cəhansuzum" adlı şeirindəşair həmin mövzuya işarə etmişdir:

Ələman, ey şahi-Yəsrib mədfənü Məkki vətən,
Ya nəbiyürrəhmə, ey məhbubi-rəbbi-zülminən,
Şəri-pakində həram olmaqda ikən sui-zənn,
Ümmətin salim deyil bu xisləti-məzmumədən,
Tiri-sui-zənnə salehlər nişan olmaqdadır!
Gül könüllər gönçələr tək bağrı qan olmaqdadır! [4, s.62].

Məhəmməd peyğəmbərə müraciətlə "ey Allahın sevimli dostu, pak şəriətində sui-zənnə qapılmaq haram olmaqda ikən, ümmətin bundan xəbərsizdir və bədgümanlıq oxlarına salehlər – təmiz şəxslər, dini tələbləri yerinə yetirən kəslər nişan olur" – deyən şair ondan kömək istəməkdədir.

Quranda islam peyğəmbərinə xitab olunaraq belə deyilir: *"Səni də [Ya Rəsulum!] aləmlərə ancaq bir rəhmət olaraq göndərdik"* [2, 21/107]. Yer üzündə

bitkilərin həyat tapmasına səbəb olan yağış necə ki, Allahın rəhməti hesab olunursa, insanların qəlbində öz bilik və nuru ilə mənəvi gözəlliklərin həyat tapmasına, çiçəklənməsinə səbəb olan, daim öz ümməti üçün, hətta onunözünə qarşı qəddarlıqlar, zülümlər etmiş kəslər üçün belə Yaradandan daim bağışlanma, mərhəmət, hidayət diləyən Məhəmməd peyğəmbər də müsəlmanlar tərəfindən Allahın rəhməti hesab olunmaqdadır. Sabir də bunu öz şeirində belə ifadə edirdi:

Ya nəbiyyəl-müslimin, ey həq-təala rəhməti,
Çox fənadır əmrimiz, dərk eylə hali-ümməti,
Getdi izzət, batdı şövkət, tutdu zillət milləti,
Ələman, sümmələman [ya mən ileykə hacəti],
Tiri-sui-zənnə salehlər nişan olmaqdadır!
Gül könüllər gönçələr tək bağrı qan olmaqdadır! [4,s.62].

Sabir "Eydi-mövludi-Nəbi" şeirini isə sirf Məhəmməd peyğəmbərin mövludu şərəfinə qələmə almışdır. İlk dəfə 13 aprel 1907-ci ildə "Tazə həyat" qəzetində [№18] "Əli Sabir Tahirzadə Şirvani" imzası ilə çap olunmuş bu şeir "Hophopnamə"nin yalnız ikinci – 1914-cü il nəşrinə, üçüncü – 1922-ci il nəşrinə və dördüncü – 1934-cü il nəşrinə daxil edilmiş, sovet dövründə məlum ideoloji təsir nəticəsində başqa nəşrlərdən çıxarılmışdır. Sabirin Füzulidən təzmin etdiyi [sitatlar gətirdiyi] bu şeirində islam peyğəmbərinin mövludu bayramı təsirli şəkildə təsvir edilir:

Həmdülillah ki, bizə şamil olub lütfi-xuda,
Bu mübarək günü dərk etməyə ömr etdi vəfa,
Eydi-mövludi-nəbidən gözümüz tapdı ziya,
Qılın, ey ümməti-mərhumə bu gün vəcdü səfa,
"Əşrəqət min fələkil-behcəti şəmsün və biha,
Mələəl-aləmə nurən və sürurən və bəha".

Aləmə zahir olub mərhəməti-xaliqi-küll,
Aşikar oldu bu gün batini-Qurani-müdill,
Doldu afaqə səfa, oldu cəhan gülşəni-gül,
Mülki-dünyayə qədəm basdı o hadiyyi-sübul.
"Çıxdı bir gün ki, ziyasında təmamiyyi-rüsul,
Oldu məhv öylə ki, xurşid şüaində Süha" [4, s.59].

"Hadiyyi-sübül" – "doğru yolu göstərən" peyğəmbərin doğum gününü müsəlmanlara, aləmə Allahın lütfünün, mərhəmətinin şamil olması, gözlərin nur tapması kimi qiymətləndirən şair, mərhumun ümmətinə bu günü "vəcü səfa qılın" deyə xitab edir. Bu şeirində Sabirin səmimi duyğularını görməmək mümkün deyil:

Çöhreyi-hur işıqlandı cəmalinə görə,
Taqi-kəsra yığılıb taqi-hilalinə görə,
Qızarıb rəngi-şəfəq arizi-alinə görə,
Bəzənib cənnəti-firdövs visalinə görə,

"Rütbeyi-hikməti-meraci-kəmalinə görə
Hükəma firqeyi-dun, fəlsəfə cəmi-süfəha"

Bu günün meymənətindən açılıb babi-nəim,
Bu günün hörmətinə bağlanıb ədvabi-cəhim,
Bu günün məsədətindən saçılıb dəhrə nəsim,
Bəzənib dürri-nübüvvətlə bu gün beyti-hərim.
"Oldu bazari-cəhan rövnəqi bir dürri-yetim
Ki, degil iki cəhan hasili ol dürrə bəha" [4, s.59].

Şairin ifadəsilə,"bu gün aləmdə bütün gözəlliklər, rəngarəngliklər,bu günün bərəkətindən nemət qapısının açılması" vüsalı üçün firdövs cənnətinin bəzəndiyi islam peyğəmbərin mövludu şərəfinədir. Quranda Məhəmməd peyğəmbərə müraciətlə: *"Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!"* [2, 68/4] deyilməkdədir. O, Allahın rəsulu, islam dininin peyğəmbəri olması ilə bərabər, yüksək mənəvi-əxlaqi keyfiyyətləri, dərin zəkası, sadəliyi ilə təkcə müsəlmanlar tərəfindən deyil, hətta obyektiv, həqiqətpərəst digər din, inanc nümayəndələri arasında da böyük ehtiramla anılmaqdadır.Bu mənada, "insanların ən yaxşısı", "insanların ən xeyirlisi" mənasına gələn "xeyrülbəşər" adı, təxəllüsü müsəlmanlar tərəfindən peyğəmbərə verilmiş, dini və bədii ədəbiyyatda geniş istifadə olunan anlamlı adlardan biridir ki, Məhəmməd peyğəmbərə bu adla müraciət edilməsinə Sabir yaradıcılığında da rast gəlməkdəyik:

Sabira! Tök fərəhindən üzünə əşki-tərin,
Sınsa bazarı nolur əşkinə nisbət gühərin,
Asitani-Şəhi-Bəthayə nisar eylə sərin.
Şidqlə tut ətəgin həzrəti-Xeyrülbəşərin.
"Ey Füzuli, rəhi-şərini tut ol rahibərin,
Bu təriqilə zəlalətdən özün eylə rəha" [4, s.59].

Bütün misralarından göründüyü kimi, salehlərəcənnəti müjdələyən, günahkarları cəhənnəmlə qorxudan, Allaha tərəf çağıran "nurlu çırağa" – Məhəmməd peyğəmbərəböyük məhəbbətini, ehtiramını səmimiyyətlə ifadə edənmilli şair,yaradıcılığında mənəvi-əxlaqi, milli və dini dəyərlərin uşaqlara, gənclərə aşılanmasında da onunibrət dolu hədislərindən önəmlə istifadə etmişdir. Sabirin məktəb uşaqları üçün yazdığı şeirlərində həssaslıqla yer ayırdığı ülvi dəyərlərdən biri ailədə valideynlərə hörmət, onlara qayğı məsələsi olmuşdur:

Pədərlə madərin nəshindən əsla təlxkam olma,
Səni təkdirü təzir etsə də, bir dadlı şərbətdir [4, s.79].

"Ata-ananın nəsihətindən əsla məyus olmayıb, məzəmmətlərini, danlaqlarını da bir dadlı şərbət kimi" qəbul etmək lazım olduğunu ifadə edən şair bu müqəddəs insanlara – valideynlərə daim hörmətlə yanaşmağı hər bir övladın ən ümdə borclarından biri kimi qiymətləndirərək, "Məktəb uşaqlarına töhfə" adlı şeirindəMəhəmməd Peyğəmbərin məşhur *"Cənnət anaların ayaqları altındadır"* [5,

s.238] hədisini də sitat gətirməklə uşaqları daim valideynlərinin hörmətini saxlamağa, onların itaətində durmağa çağırırdı:

"Payi altındadır behişt ananın" –
Bu hədisi-şərifdir, inanın!
Bizə lazımsa Həqqə qul olalım,
Valideynə müti oğul olalım [4, s.117].

Şair "Həqqə qul olmağın" – iman, ibadət və əməllərində örnək müsəlmanlığın yolunun valideynlərə itaət, hörmət etməkdən, qayğılarını çəkməkdən keçdiyinə diqqəti çəkir. Burada Məhəmməd peyğəmbərin başqa bir hədisini qeyd etməyi lazım bilirik: *"Hər kim ata-anasının razılığını qazanarsa, Allahın rizasını qazanmış olur. Hər kim ata-anasına asi olub onları əsəbləşdirərsə, Allah-təalanı qəzəbləndirmiş olur"* [5, s.207]. Yüksək mənəvi-əxlaqi dəyərlərin həm daşıyıcısı, həm də mübariz təbliğatçısı olan böyük mütəfəkkir Sabir öz yaradıcılığında valideynlərə hörmət etməyi, onların qiymətini bilməyi tövsiyə etməklə bərabər, valideynlərə qarşı çıxanların aqibətinin uğurlu olmadığını da bu hədisin işığında aşağıdakı kimi ifadə edirdi:

Ataya hörmət etməyən çocuğun,
Anaya xidmət etməyən çocuğun
Nə olur kəndi nəfsinə xeyri,
Nə də ondan vəfa görər qeyri!
Şübhəsiz, xüsrdən kənar olamaz,
İki dünyadə bəxtiyar olamaz [4, s.117].

Sabir uşaqlara həsr etdiyi bu şeirində onları valideynlərə hörmət və qayğı göstərməyə çağıraraq, anlatmağa çalışırdı ki, əks halda, insan "iki dünyada da bəxtiyar ola bilməz". Bu nəsihətlərin dindar, müsəlman bir şairin qələmindən süzülməsi obyektiv oxucuda şübhə doğurmayacaq qədər aydın ifadəsini tapmışdır.

Sabir və əqidə dostları millətin tərəqqisini ilk növbədə onun cəhalət buxovlarından qurtulmasında, yeni üsul təhsilə və elmə yiyələnməsində görür, bu uğurda əzmlə mübarizə aparırdı. Şair "Analar bəzəyi" adlı şeirində Məhəmməd peyğəmbərin məşhur *"Elm axtarışında olmaq müsəlman kişi və qadına fərzdir"* [5, s.60] hədisini sitat gətirməklə islam dinində elmə, təhsilə böyük önəm verilməsini vurğulayaraqelmə çağırış edirdi:

Elm ilə olur hüsuli-izzət,
Elm ilə olur nüfuzi millət.
Elmə çağırır bütün əvamı,
"Əl-elmü fərizətün" kəlamı [4, s.85].

Yuxarıda qeyd olunanlardan da göründüyü kimi, Azərbaycanın ölməz satirik şairi Mirzə Ələkbər Sabir yaradıcılığında böyük islam peyğəmbəri Məhəmməd peyğəmbərə məhəbbət və dərin ehtiram bariz şəkildə öz əksini tapmış, onun islami dəyərlər aşılayan bir-birindən qiymətli hədislərindən önəmlə istfadə edilmişdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Qasımbəyli, F. Mirzə Ələkbər Sabir yaradıcılığında təsəvvüf fəlsəfəsinin təzahürü // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, – 2020. №1, – s. 76-84.
2. Qurani-Kərimin Azərbaycan dilinə mənaca tərcüməsi / Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev. – Bakı: Şərq-Qərb, – 2012. – 568 s.
3. Müttefekun aleyh hadisler [Buhari ve Müslimin ittifak etdiği hadisler]/ Tert. ed. M.F.Abdülbaki / düz: A.F.Kocaer. – Konya: Hüner yayınları, – 2004. – 896 s.
4. Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir, tərt. ed., M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 2. – 2004. – 384 s. (69)
5. Həzrət Məhəmmədin hikmət xəzinəsindən örnəklər / tərt. ed. M. Qəmbərli. – Bakı: Şərq-Qərb, – 2012. – 248 s.

ФАРИЗ КАСУМБЕЙЛИ

ПОЧИТАНИЕ ПРОРОКА МУХАММЕДА В ТВОРЧЕСТВЕ МИРЗЫ АЛЕКПЕРА САБИРА

Резюме

Ислам, одна из самых распространенных в мире небесных религий, которая с конца VII – начала VIII веков начала проникать в мировоззрение, образ жизни, обычаи и традиции азербайджанского народа. Со временем исламские ценности стали неотъемлемой частью его духовного мира.

На древнее и богатое литературно-художественное и философское наследие азербайджанского народа большое влияние оказал Ислам. Исламское мировоззрение, наиболее ярко и это влияние проявилось в устной народной и в письменной литературе до начала XX века. Азербайджанские тюрки, являющиеся важной частью как тюркского, так и исламского мира, своими ценными образцами созданными ими религиозной, сектантской и элегийной литературой, внесли ценный вклад в общеисламское литературно-философское наследие.

При объективном изучении жизни и творчества великого азербайджанского поэта-сатирика Мирзы Алекпера Сабира, которого в Советском литературоведении пытались представить как поэта-атеиста, становится ясно, что он вел благочестивую мусульманскую жизнь, в своих произведениях с уважением относился к Исламу, исламским ценностям, с уважением воспевал и пропагандировал эти ценности.

Сабир, в частности, проявлял глубокое уважение к великому Исламскому Пророку Мухаммеду, использовал его драгоценные хадисы в своей упорной борьбе за единство, просвещение, прогресс мусульманского мира.

Ключевые слова: Сабир, ислам, религия, пророк Мухаммед, мусульманин, поэзия

FARIZ GASIMBAYLI

VENERATION OF THE PROPHET MUHAMMAD IN THE WORKS OF MIRZA ALAKBAR SABIR

Summary

Islam, one of the most widespread heavenly religions in the world, began to penetrate the worldview, lifestyle, customs and traditions of the Azerbaijani people from the end of the VII-beginning of the VIII centuries, and over time, Islamic values became an integral part of their spiritual world.

The ancient and rich literary, artistic and philosophical heritage of the Azerbaijani people was greatly influenced by the Islamic religion, the Islamic worldview, and this influence was most clearly manifested in oral folk literature and in written literature until the beginning of the XX century. The Azerbaijani Turks, who are an important part of both the Turkic and Islamic world, have made valuable examples of their religious literature, sectarian literature and elegy literature, and have made a valuable contribution to the general Islamic literary and philosophical heritage.

An objective study of the life and work of the great Azerbaijani poet-satirist Mirza Alakbar Sabir, whom Soviet literary studies tried to present as an atheist poet, makes it clear that he led a pious Muslim life, respected the Islamic religion and Islamic values in his works, and sang and promoted these values with respect.

Sabir, in particular, showed deep respect for the great Islamic Prophet Muhammad, used his precious hadiths in his persistent struggle for the unity, enlightenment, and progress of the Muslim world.

Keywords: Sabir, Islam, religion, Prophet Muhammad, Muslim, poetry

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Siracəddin Hacı tərəfindən çapa tövsiyə olunmuşdur

SƏDAQƏT ƏSGƏROVA,
AMEA-nın Nizami Gəncəvi adına
Ədəbiyyat Muzeyi
sedaqet_askerova.73@mail.ru
Bakı şəhəri, Həsən bəy Zərdabi küşəsi, 121

AŞIQ AĞALAR MIKAYILOVUN YARADICILIĞI RƏNGARƏNGDIR

Xülasə

Aşıq Ağalar Mikayılovun yaradıcılığı rəngarəngdir.Onun yaradıcılığında aşıq şeir növlərindən gəraylı,qoşma, bayatı və qəzəl mühüm yer tutur.

Gəraylı **a**şıq şerinin geniş yayılmış növlərindən biridir. Hər bəndi dörd misradan, hər misrası səkkiz hecadan ibarət olan 3–5 bəndlik şerə gəraylı deyilir. Son bəndin misralarının birində aşıq öz təxəllüsünü söyləyir.

Aşığın qoşmaları şox diqqəti cəlb edir. Çünki qoşma aşıq yaradıcılığında çox geniş yayılmış janrdır. Hər bəndi dörd misradan, hər misrası on bir hecadan ibarət şeir şəklinə qoşma deyilir. [Qoşma və gəraylının qafiyə sistemi eynidir. Üç, beş, yeddi bənddən ibarət olan qoşmaların birinci bəndinin I və III misraları sərbəst, II və IV misraları həmqafiyə olur. Digər bəndlərin ilk üç misrası bir-birilə, son misrası isə birinci bəndin son misrası ilə qafiyələnir. Möhürbənd adlanan son bənddə şair öz təxəllüsünü söyləyir.

Aşıq Ağalar Mikayılovun bayatıları mövzuca rəngarənkdir. Bayatılarda xalqın kədəri, ictimai quruluşa, zülmə qarşı etirazı, yadelli işğalçılara nifrəti, azadlıq və xoşbəxtlik arzuları ifadə edilmiş, məhəbbətə, ayrılığa, dostluğa aid təsirli bayatılar söylənmişdir.

Xalq ədəbiyyatının başqa janrları kimi, bayatılar da nəsildən-nəslə keçərək, müxtəlif variantlara düşmüşdür.

Aşığın qoşmaları şox diqqəti cəlb edir. Çünki qoşma aşıq yaradıcılığında çox geniş yayılmış janrdır. Hər bəndi dörd misradan, hər misrası on bir hecadan ibarət şeir şəklinə qoşma deyilir. [Qoşma və gəraylının qafiyə sistemi eynidir.

Xalq ədəbiyyatının başqa janrları kimi, bayatılar da nəsildən-nəslə keçərək, müxtəlif variantlara düşmüşdür

Tədqiqat işində aşıq şeir növlərindən danışarkən aşığın qəzəllərindən danışmamaq olmaz.Onun xeyli sayda qəzəlləri var. Onun içərisində "Vətən" mövzusunda yazdığı qəzəl digər qəzəllərdən öz dəyəri ilə fərqlənir.

Açar sözlər: gəraylı, qoşma, bayatı, qəzəl, qafiyə

Aşıq Ağalar yaşadığı ağır günlərə baxmayaraq, həmişə nikbinliyini qoruyub saxlamış, bir gözü gülüb, bir gözü ağlayaraq xalqına, vətəninə nəğmələr qoşmuş, onu tərənnüm etməkdən nə yorulmuş, nə də doymuşdur.

Dünyanın üzünə düşəndən bəri,
Yüklənib üstümə qəmin ləşkəri.
Mənə dəyən acı-acı sözləri
Bir cüt öküz nədir, kəl çəkə biməz **(Aşıq Ağalar Mikayılov."Söz mənimkidir", Bakı, Çaşıoğlu, 2014, 92 s.).**

Göründüyü kimi, represiya, yurd-yuvasından ayrılmaq, müharibə, aclıq və onlardan da betər "xalq düşməninin oğlu" damğası, tənəli söz onu kədərləndirsə də ruhdan düşmür, nikbindir, mübarizdir, inamlıdır:

İndi baxıb ellər bizdən dərs alır,
Xalqımız hər gündə min zəfər çalır.
Əməklə, cürətlə insan ucalır,
Azad vətənimdə, azad elimdə **(Aşıq Ağalar Mikayılov."Söz mənimkidir", Bakı, Çaşıoğlu, 2014, 92 s.)**

Aşıq Ağaların ömrünün son çağında, xəstə yatağında yazdığı şeirlər diqqətimi çəkdi. Bu yaşda, bu halda sevgi ilə, məhəbbətlə bağlı gənclik ruhunda yazılmış şeirlər oxucusunu, dinləyicisini təəccübləndirə bilər. Çünki bu şeirlərdə hissiz, həyəcansız bir misra belə yoxdur. İnsan nə qədər ki, sağdı onun eşqi, məhəbbəti, sevgisi yaşayır. Badə içsən gözəl yarın əlindən Kim can verər, əcəl gəlsə qəfildən, Gözəllər gözəli, səni görəndən, Könlüm cənnət kimi diyara düşdü. Aşıq Ağalar klassik şeirimizin xalq içində ən çox rəğbət qazanmış nümunəsi olan qəzəl janrında da qələmini sınamışdır. Onun qəzəllərində zahirən köhnə şeir üslubu nəzərə çarpsa da, məna və məzmun müasirdir, zamanla səsləşir.

Xalq şeirinin əksər formalarında yazıb-yaradan sənətkarın xeyli sayda qoşma, gəraylı, təcnis, deyişmə, qəzəl, bayatı, müxəmməsi vardır. Həmin şeirlərin bir çoxu toylarda, şənliklərdə oxunmaqla yanaşı müxtəlif mətbu orqanlarda, almanax və aşıqlara həsr olunan kitablarda çap olunmuşdur. Rafael Hüseynov müxtəlif illərdə Azərbaycan Milli radiosunun "Axşam görüşləri" proqramında Aşıq Ağalar Mikayılovun həm öz həyat və yaradıcılıq yolu, həm atası Mirzə Bilal, həm də digər saz ustadları haqqında xatirələri lentə alaraq tarix üçün əbədiləşdirmişdir. Eyni zamanda, aşıq Ağaların ömür yolu, yaradıcılığının müxtəlif məziyyətləri professor Ə.Cəfərzadə, professor Qara Namazov, R.Hüseynov, filologiya elmləri namizədi E.Məmmədli və başqalarının məqalələrində təhlil edilmişdir. Jurnalist T.Abdullayevin "Ata və oğullar" kitabında ustad aşıq Mirzə Bilalın və onun övladlarının yaradıcılığından seçmələr oxuculara təqdim olunmuşdur. Qocaman jurnalist R.Fərəcov "Kürdəmir salnaməsi" və "Şirvannamə" əsərində aşıq Ağaların həyat və yaradıcılığından bəhs etmiş, şeirlərindən nümunələr vermişdir. Ustad sənətkarın şəcərəsi, həyatı, yaradıcılığını daha dərindən araşdırmaq, təhlil etmək, şeirlərinin bir qismini toplayıb çap etdirmək zəhməti isə Şirvanın cəfakeş alimi

professor Seyfəddin Qəniyevin üzərinə düşüb. Onun 2011-ci ildə nəşr etdirdiyi "Şirvanlı Aşıq Ağalar" monoqrafiyası el aşığı haqqında oxuculara müfəssəl bilgi verməklə yanaşı, aşığın şeirlərinin böyük bir qismi, bağladığı dastanlardan biri, eləcə də sənətkar haqqında yazılanlar və xatirələr də dərc olunmuşdur.

Aşıq Ağalar Mikayılovun yaradıcılığı rəngarəngdir.Onun yaradıcılığında aşıq şeir növlərindən gəraylı,qoşma, bayatı və qəzəl mühüm yer tutur.

Gəraylı **a**şıq şerinin geniş yayılmış növlərindən biridir. Hər bəndi dörd misradan, hər misrası səkkiz hecadan ibarət olan 3–5 bəndlik şerə gəraylı deyilir. Son bəndin misralarının birində aşıq öz təxəllüsünü söyləyir. **Məsələn:**

Oturmuşdum çeşmə üstə
Gördüm bir qız belə gəldi.
Mən istədim dindirməyə,
Dodaq qaçdı, dilə gəldi.
Dedim: - Ay qız, nə gözəlsən?
Dedi: - Dağdan gəlmişəm mən.
Dedim: - Hərdən bizə gəlsən
Döndü, gülə-gülə gəldi.
Bürünmüşdü al-əlvana,
Məni qoydu yana-yana.
Dərdimi deməmiş ona,
Özü bilə-bilə gəldi

"(Aşıq Ağalar Mikayılov."Söz mənimkidir", Bakı, Çaşıoğlu, 2014, 92 s.)

Aşığın qoşmaları şox diqqəti cəlb edir. Çünki qoşma aşıq yaradıcılığında çox geniş yayılmış janrdır. Hər bəndi dörd misradan, hər misrası on bir hecadan ibarət şeir şəklinə qoşma deyilir. [Qoşma və gəraylının qafiyə sistemi eynidir. Üç, beş, yeddi bənddən ibarət olan qoşmaların birinci bəndinin I və III misraları sərbəst, II və IV misraları həmqafiyə olur. Digər bəndlərin ilk üç misrası bir-birilə, son misrası isə birinci bəndin son misrası ilə qafiyələnir. Möhürbənd adlanan son bənddə şair öz təxəllüsünü söyləyir. Məsələn:

Mənimlə düz dolan, ey cavan aşıq,
Girib bu meydana cəng edərəm mən.
Bir nərə çəkərəm, batar qulağın,
Nəfəsin kirtləşər, tənk edərəm mən.
Açaram qarşında sinə dəftərin,
Sınar qol-qanadın, pozular pərin.
Endirsəm bir zərbə, dolar gözlərin,
Yararam bağrını, süng edərəm mən.
Ağalaram, əbəs yerə söz atma,
Yan-yörövə yaltaqlanıb göz atma.
Tez-tez baxıb, gözlərini bozartma,

Sökərəm cismini, süng edərəm mən.

(Aşıq Ağalar Mikayılov.”Söz mənimkidir”, Bakı, Çaşıoğlu, 2014, 92 s.)

Aşıq Ağalar Mikayılovun bayatıları mövzuca rəngarənkdir. Bayatılarda xalqın kədəri, ictimai quruluşa, zülmə qarşı etirazı, yadelli işğalçılara nifrəti, azadlıq və xoşbəxtlik arzuları ifadə edilmiş, məhəbbətə, ayrılığa, dostluğa aid təsirli bayatılar söylənmişdir.

Xalq ədəbiyyatının başqa janrları kimi, bayatılar da nəsildən-nəslə keçərək, müxtəlif variantlara düşmüşdür.Məsələn:

Mən aşiqəm çəməndə,
Bülbül ötər çəməndə,
Bir mən, bir yar olaydı,
Biz gəzəndə çəməndə.
Mən aşiqəm otaqda,
Eyvanda yox, otaqda.
Hər şey hazır olardı,
Yar gələndə otaqda.
Mən aşiqəm ay qaçar,
Ulduz qovar, ay qaçar.
Mən yara can deyəndə,
Yarım məndən ay qaçar.
Mən aşiqəm yaz məni,
Bahar məni, yaz məni.
Yara əcəl yazanda,
Yar yerinə yaz məni.

(Aşıq Ağalar Mikayılov.”Söz mənimkidir”, Bakı, Çaşıoğlu, 2014, 92 s.)

Qəzəl ərəb ədəbiyyatında yaranıb. Yazılı ədəbiyyatda klassik janrlardan biridir. Lirik növdədir. Yaxın və Orta Şərq, Cənub-Şərqi Asiya, həmçinin Azərbaycan poeziyasının ən çox işlənən formasıdır. Əruz vəzninin müxtəlif bəhrlərində yazılır. Qəzəl, əsasən, 5-12 beytdən ibarət olur. Qəzəlin ilk beyti mətlə, son beyti məqtə adlanır. Qəzəl ərəb ədəbiyyatında yaranıb. Yazılı ədəbiyyatda klassik janrlardan biridir. Lirik növdədir. Yaxın və Orta Şərq, Cənub-Şərqi Asiya, həmçinin Azərbaycan poeziyasının ən çox işlənən formasıdır. Əruz vəzninin müxtəlif bəhrlərində yazılır. Qəzəl, əsasən, 5-12 beytdən ibarət olur. Qəzəlin ilk beyti mətlə, son beyti məqtə adlanır.

Tədqiqat işində aşıq şeir növlərindən danışarkən aşığın qəzəllərindən danışmamaq olmaz.Onun xeyli sayda qəzəlləri var. Onun içərisində

“Vətən” mövzusunda yazdığı qəzəl digər qəzəllərdən öz dəyəri ilə fərqlənir.

Məsələn:

Mən bir vətənin övladıyam, can ona qurban
Canım da, qanım da olsun hər an ona qurban.

Süd verdi mənə körpəliyimdə anam onda
Tapşırdı məni getdi o, Soltan, ona qurban.
Bildim mən onun qədrini on yaşa çatanda,
Min sevgili canan, zulfi-pərişan ona qurban.
Gəldi neçə şahlar, neçə min taxtı-Süleyman,
Axır elədi yurdumu viran, ona qurban.
Gəzdim və dolandım mən onun hər bucağında
Sandım onu cənnət nədi, Rizvan, ona qurban.
Bilsə Ağalar can verəcək ayrı Vətəndən,
Eylər gecələr naleyi-əfqan, ona qurban.

(Aşıq Ağalar Mikayılov."Söz mənimkidir ", Bakı, Çaşıoğlu, 2014, 92 s.)

Ədəbiyyat

1. Aşıq Ağalar Mikayılov. "Söz mənimkidir", Bakı, Çaşıoğlu, 2014, 92 s.
2. Aşıq ədəbiyyatı antologiyası: 3 cilddə, tərtibçi M.Qasımlı, M.Allahmanlı
3. Allahmanlı M. Aşıq yaradıcılığının inkişaf mərhələsi. Bakı,"Elm və təhsi", 2011, 292 s.

САДАГЕТ АСКЕРОВА

REZЮME

КРАСОЧНОСТЬ ТВОРЧЕСТВА АШИГ АГАЛАРА

Творчество Ашиг Агалар Микаилова красочно. Важную роль в его творчестве играют такие примеры ашигского творчества как герайлы, гошма, баяты и газель.

Герайлы – один из широко распространённых видов ашигского стиха. Герайлы называют стих из 3-5 куплетов, каждый куплет которого состоит из четырёх строк, а каждая строка из восьми слогов. В одном из строк последнего куплета ашиг называет свой псевдоним.

Гошма этого ашига привлекают особое внимание, так как широко распространены в ашигском творчестве. Гошма называется стих каждый куплет которого состоит из четырёх строк, а каждая строка из одиннадцати слогов. Система рифм гошма и герайлы одинаковы. Гошма состоят из трёх, пяти, семи куплетов; I и III строки написаны в свободном стиле, II и IV строки рифмованы. Первые три строки других куплетов рифмуются между собой, последняя строка же с последней строкой первого куплета. В последнем куплете, называемом мохурбенд, поэт называет свой псевдоним.

Баяты ашиг Агалар Микаилова красочны. В баяты находили своё отражение горе, протест народа против общественного строя, ненависть против

иноземных захватчиков, мечты о свободе и счастье, написано множество трогательных баяты о любви, расставании, дружбе.

Как и другие жанры устного народного творчества баяты, переходя из поколения в поколение приобретали разные варианты.

При исследовании виды ашигских стихов нельзя не отметить газели поэта. В его арсенале имеется множество газелей, среди которых “Vətən” (“Родина”) выделяется своей ценностью.

Rus dilində: герайлы, гошма, баяты, газель, рифма

SEDAGET ASKEROVA

RESUME

MULTIFARIOUS CREATIVE WORK OF ASHIG AGHALAR

The creative work of Ashig Aghalar Mikayilov is multifarious. Gerayli, goshma, bayati and ghazal forms of ashig poetry have an important place in his literary activities. Gerayli is one of the widespread forms of ashig poetry. A poem of 3-5 verses, each consisting of 4 lines of eight syllables is called gerayli. Ashig says his pen-name in one of the lines of the last verse. Goshmas of ashig is worth of attention, as it is widely spread genre of ashig art. A poem, where each verse consists of four lines and each line consists of eleven syllables is called goshma. Rhyming systems of goshma and gerayli are identical. I and III lines of the first verse of 3-5-7 versed goshmas are free measured, while II and IV lines rhyme between themselves. First three lines of other verses rhyms between themselves, the last line with the last line of the first verse. In last verse called mohurband poet always says his pen-name.

Ashig Aghalar’s bayatis are dedicated to multifarious topics. Bayatis express the grief of people, protests against the social system and oppression, the hatred against the foreign invaders, wishes for freedom and happiness. There are also many heart-warming bayatis written about love, break-up, and friendship. Like other genres of folklore poetry, bayatis have been modified by passing from generation to generation. When talking about the forms of ashig poetry in this research, it is necessary to mention the ghazals of ashig as well. There are a considerable number of ghazals written by him. Among others, the ghazal titled “Vatan” (“Homeland”) distinguishes by its value.

İngilis dilində: gerayli, goshma, bayati, ghazal, rhyme

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Akademik Rəfail Hüseynov tərəfindən çapa tövsiyə olunmuşdur

İBRAHİMOVA SƏLİQƏ VAQİF QIZI
BDU, Dünya ədəbiyyatı
madinaibraqimova@mail.ru

CON OSBORNUN "QƏZƏBLƏ GERİYƏ BAX" ƏSƏRINDƏ "KİÇİK ADAM"

Açar sözlər: ingilis ədəbiyyatı, Con Osborn, insan, cəmiyyət, Cimmi Poter
Key words: English literatury, Con Osborne, human, society, Jimmy Poter
Ключевые слова: английская литература, Джон Осборн, человек, общество, Джимми Потер

"Kiçik adam" – kimdir? Kiçik bir məmurdan tutmuş biznesmenə və ya hətta kasıb bir zadəgana qədər hər kəs "kiçik adam" ola bilər. Demokratik ədəbiyyat nə qədər çox olarsa, "balaca adam" o qədər aktual mövzu olan "kiçik adam" 1950-1970-ci illər ingilis nəsrində çox vacib və aktual mövzu idi. Çünki vəzifəsi sadə bir insanın həyatını bütün problemləri, narahatlıqları, uğursuzluqları, dərdləri və hətta kiçik zövqləri ilə göstərməkdir. Adi insanın həyatını izah etmək, göstərmək çox ağır bir işdir. Həyatının bütün incəliklərini, ruhunun bütün dərinliklərini oxucuya çatdırmaq heç də asan bir iş deyildir. Bu çətindir, çünki "kiçik adam" bütün millətin nümayəndəsidir.

Qərb dünyasında, o cümlədən bu gün dünyanın ən inkişaf etmiş ölkələrindən biri sayılan İngiltərə də öz movcudluğunun ilk dövrlərində analoji problemlərlə qarşılaşmışdır. Hələ ötən əsrin əvvəllərində İngiltərə həyatının mühüm ictimai dəyişiklik illərində nəhəng şəhərlərə kobud, sərt və müxaniki görkəm verən zənginlik və dilənçilik arasındakı ziddiyyətlər İngiltərə ədəbiyyatını da heyrətə gətirmişdir. Cəmiyyətin dibində çabalayan təbəqənin ağır həyat problemləri realist ədəbiyyatı daim narahat edir, İngiltərənin sadə adamlarının hüquqsuzluğu, onların əməyinin kapitalistlər tərəfindən istismar edilməsi, alçaldılmış və təhqir edilmiş təbəqənin miskin həyat tərzi o dövrün povest və romanlarında öz əksini tapırdı.

Biz ictimai nöqteyi-nəzərin mövqeyindən yanaşsaq, deyə bilərik ki, hər hansı əsrdə hər hansı bir cəmiyyətin varlığı üçün mütləq dəyəri olan və cəmiyyətin onlarsız yaşaması qeyri – mümkün olan mənəvi qanun və prinsiplər mövcuddur. Onların dəyərləri şübhə altına alınanda həmin cəmiyyət sürətli ölümə məhkumdur. ***(2, s.7)***

İyirminci əsrin ikinci yarısında dünyada baş verən textonik dəyişikliklər ədəbiyyata və ədəbi əlaqələrə də öz təsirini göstərmişdir. Bir tərəfdən siyasi iqtisadi böhranlar, bir tərəfdən etnik konfliktlər, bir tərəfdən də xalqların və millətlərin özünüdərkin, müstəqil yaşamaq arzuları tamamilə yeni şərait yaratdı.

İngiltərə cəmiyyəti indiki inkişaf səviyyəsinə birdən –birə çatmamışdır. Xüsusilə Birinci Dünya Müharibəsindən, eləcə də İkinci Dünya müharibəsindən sonrakı illər ölkə üçün ağrılı olmuşdur. Məlum olduğu kimi, cəmiyyətin həyatındakı

hər hansı bir çətinliyin ən müdhiş zərbəsi ilk növbədə aşağı zümrənin insanlarına dəyir. Keçən əsrin 50-ci illərindən başlayaraq ömürlərinin sonunadək məhsuldar yaradıcılıq illəri ərzində bir neçə ingilis yazıçısı məhz bu mövzuya sadiq qalmışdır. Onların yaradıcılığını aşağıdakı ümumi cəhətlər birləşdiri:

a) fərdin tənhalığı;
b) totalitar mühit və fərd;
c) fərdin ruh düşkünlüyü, vətəndaş hüquqlarından məhrum olması;
d) demokratik fərdin idealı

İkinci dünya müharibəsindən sonra bir çox ölkədə olduğu kimi İngiltərədə də müxtəlif iqtisadi, siyasi və mədəni dəyişikliklər yaşanmışdır. Dəyişimin gerçəkləşdiyi bu zaman dilimində ədəbiyyat da bir öncəki dönəmlə müqayisədə özünə məxsus bir xarakterə bürünməyə başlamışdır. Absurd ədəbiyyatın ilk örnəkləri "qəzəbli gənclər"in (Angry young men) yazdığı əsərlər, siyasi ədəbiyyatın yeni nümunələri və sosial gerçəklik (sosial-realizm) hərəkatı ilə dilə gətirilir.

Bu qədər müxtəlif nəsr üslubunda yazılmış əsərlərin eyni dönəmdə üzə çıxması, əsərlərdəki baş qəhrəmanların müharibə illərindən əvvəl yazılan əsərlərdən diqqət çəkəcək qədər fərqlilik göstərərək işçi sinfinə mənsub olması və əsərlərdə əsas qəhrəman olaraq üzə çıxması bu dövrü araşdırmağa əsas götürməyə icazə verir. Müharibə sonrasında meydana gələn dəyişimlər İngilis cəmiyyətində və təbii olaraq ədəbiyyatında da yeniliklərin qapısını aralamışdır. 1945-ci ildən 1960-cı ilə qədər, xüsusilə də 1950-ci illərdən sonra İngiltərənin bir çox təzadlarının mövcudluğunu söyləmək heç də səhv fikir olmazdı. İkinci Dünya Müharibəsindən sonra 1947-ci ildə ən önəmli müstəmləkələrdən olan Hindistan və Pakistan İmperatorluğunun ayrılaraq öz müstəqilliyini elan etməsi, "günəş batmayan ölkə" olaraq bilinən imperiyanın müharibədən qalib çıxmasına baxmayaraq müstəmləkələri üzərindəki gücünün azalmağa başladığını və İmperiyanın tənəzzülə uğradığını göstərdi. İngiltərə üçün siyasi sahədə yaşanan bu mənfi inkişaflar dünya dövlətlərinin gözündə ölkənin nüfuzunu sarsıtdığı kimi ölkənin içində də bu imperatorluğun vətəndaşı olmaqla öyünən, fəxr edən ingilislərə də öz əks təsirini göstərmişdir. Təbii ki, bu da vətəndaşının gözündə etibar, nüfuz itkisinin yaşanmasına səbəb olmuşdur. "Understanding Post-war British Society" başlıqlı "The arts, books, media and entertainments in Britain since 1945" adlı məqaləsində Britaniya mədəniyyətinə təsir edən faktorlardan danışan Artur Marvik (Arthur Marwick), Britaniyanın mədəniyyət içində "ən yaxşısını" əldə etmək üçün mübarizə apardığını və bu "yaxşının" Britaniya mədəniyyətində "qürur hissi" olduğunu söyləmişdir ***(4, s.179)***.

İkinci Dünya Müharibəsindən sonra ingilislər üçün torpaq və hakimiyyət itkisi, eyni zamanda öz ölkələri ilə əvvəlki kimi qürur duymamaqlarına səbəb olmuşdur. Con Ceyms Osbornun (John James Osborne) "Qəzəblə geriya bax" ("Lock back in anger", 1956) pyesində, ingilis olmaqla artıq öyünə bilməyən Jimmy Porter bunu dərindən yaşayan ingilis xalqının təmsilçilərindən biridir.

1950-ci illər həm İngiltərə, həm də digər dünya ölkələri üçün siyasi, ictimai, iqtisadi vəziyyətin çox hərəkətli və dəyişkən olduğu illər idi. Bu vəziyyət təbii olaraq ədəbiyyat dünyasına öz təsirini göstərərək Con Osborn və onun davamçıları üçün yaradacaqları əsərlərə mövzu qaynağı olmuşdur. İkinci Dünya Müharibəsi və bu müharibənin özü ilə bərabərində gətirdiyi dəhşətli şiddəti, qəddarlığı görən, eyni zamanda müharibə sonrasında yaranan ictimai dəyişiklikləri yaşamağa başlayan insanlar, əsasən də sənayeləşmə və kapitalizmin də təsiri ilə yüzillərdir inandıqları dəyərləri, siyasi və dini inanclarını itirib həyatın qeyri-müəyyənlik və anlamsızlığını sorğulamağa başladılar. 1950-ci illər Avropa üçün olduğu qədər İngiltərə üçün də böhranlı illər demək idi.

İkinci Dünya Müharibəsindən sonra İngiltərənin siyasi və ictimai quruluşundakı sürətli dəyişim özünü hər sahədə göstərdi. Məsələn, "Təhsil haqqında qanun" ilə işçi sinfinə mənsub olan təbəqənin gedəbiləcəkləri yeni universitetlər (red-brick universities) quruldu. Bu əslində keçmişi çox qədimə söykənən Oksford (Oxford) ilə Kembric (Cambridge) universitetlərindən yaranan "Oxbridge" deyə adlandırılan axına qarşı əks reaksiya idi. 1945-ci ildə fəhlə partiyası hakimiyyəti ələ alaraq hər kəsin sosial və səhiyyə xidmətlərindən faydalanmasını təmin etdi ***(5)***. 1951-ci ildə Mühafizəkar hökümətin hakimiyyəti ələ alması və fəhlə partiyası ilə arasında çox da böyük bir fərqin olmamasının ölkədə böyük bir xəyal qırıqlığına səbəb oldu.

Budur, Con Osborn ictimai-siyasi vəziyyətin bu qədər pis olduğu bir vaxtda "Qəzəblə geriya bax" adlı pyesini qələmə aldı. Əsər 1956-cı ilin 8 may tarixində yeni yaradılan "English Stage Company" şirkətinin üçüncü əsəri olaraq "Royal Court" teatrında səhnəyə qoyuldu. İlk səhnə çıxışından sonra əsərlə bağlı olduqca hiddətli müzakirələr ortaya çıxdı. Bəzi tənqidçilər əsərə çox müsbət yanaşarkən, bəziləri də həm əsərdən, həm də Osbornun onlar üçün qələmə aldığı dünyadan nifrətlə danışırdılar ***(3)***.

Con Osbornun və onun davamçılarının maraqları həyat uğrunda mübarizə içində olan fəhlə sinfinə ya da daha alt təbəqəyə aid olan insanlara yönəlmişdi. Çılpaq səhnə dekorlarını və alt təbəqədən gələnlərin səhnədə danışdıqları xalq dili, orta sinifin teatrdakı hegemonluğuna bir zərbə vurdu.

"Qəzəblə geriyə bax" əsəri yeni bir ictimai fikri səhnəyə gətirməklə yanaşı, "qəzəbli gənclər" ifadəsi olaraq ilk dəfə Leslie Paul tərəfindən 1951-ci ildə dərc etdirdiyi avtobioqrafik əsərinin əvvəllində işlənmişdir. Susan Rusinko adlı tənqidçi "Qəzəb ilə yeni dönəmin adını qoyan Osbornun qəhrəmanı Cimmi Porter, qəzəbi ilə qəzəbli teatrın əsasını qoydu" demişdir ***(7)***.

Şübhəsiz ki, yazıçının əsas mövzusunu ölkədəki ictimai sinif sistemini sorğulayan bu əsəri bu mövzuda yazılan əsərlərin ilki deyildir. Ondan əvvəl də Bernard Şou və Oskar Uayld kimi yazıçılar da İngiltərə ictimai quruluşuna qarşı etdikləri tənqidlər üçün əsərlərini bir vasitə olaraq istifadə etmişlər. Oskar Uayldın "Dürüst olmağın vacibliyi" ("The İmportance of Being Earnest") başlıqlı pyesi

materialist burjua dünyasına bir satiradır. Lakin nə Oskar Uayld, nə də Bernard Şounun yaratdığı xarakterlərdən heç biri İngiltərədə yaşayan və məhəllə bazarında şirniyyat sataraq dolanışığını təmin edən, universitet məzunu Cimmy Porterin ümidsiz həyatı və acılarını, qəzəblə bəzənmiş o duyğusal səmimiyyətini canlandıra bilməmişdir. Cimmy Porter əsərdə "kiçik adam"ı canlandırır. Əsərdə bədbəxt, ümidsiz və xəyal qırıqlığı yaşamış və burjua əxlaqına qarşı gələn gənc bir nəslin rəsmi çəkilir.

Cimmi aşağı təbəqədən olan, universitet məzunu, ağıllı, qəzəbli və çox danışmağı sevən iyirmi beş yaşlarında gəncdir. İngiltərənin iç tərəflərində bir ütü stolunun, stul və kresloların təsvir olunduğu bir binanın tək otaqlı çardağında yaşayır. Alison isə üst təbəqədən olan bir ailənin qızıdır. Atası İngiltərənin müstəmləkəçilik dövründə Hindistanda polkovnik idi. Cimmi universitet məzunu olmasına baxmayaraq, dolanışığını təhsilsiz və gününün çoxunu onlarla keçirdən qapıbir qonşusu Kliff ilə yaxınlıqdakı bazarda şirniyyat sataraq təmin edir. Bununla yanaşı o, bir tərəfdən də nə vaxtsa profesional bir caz qrupu yaratmağının xəyalı və ümidiylə yaşayır.

Əsər yaz ayında bir bazar günü günortadan sonranı təsvir etməklə başlayır. Cimminin dostu Kliff ilə bir neçə qəzetə göz gəzdirdikdən sonra "Niyə bunu hər bazar günü edirəm?" deyə başladığı söhbəti, "Necə iyrənirəm bu bazar günlərindən? Həmişə monoton, həmişə cansıxıcıdır. Heç qabağa getməyimiz də yoxdur. Hər dəfə eyni mərasim; qəzetləri oxu, çayını iç, ütü işlərini gör. Bir-iki saat da ötürəndən sonra, yenə bir həftə keçdi. Gənclik əldən gedir, bilirsənmi?" **(6, s.8)** cümlələri ilə sona çatar.

Pyes o dövrün ənənəvi pyes quruluşunda yazılsa da, özündən əvvəl gələn və orta sinifin yaşam tərzini səhnəyə daşıyan pyeslərdən ən diqqətçəkən fərqi sujet xətti və adi bir adam olaraq xarakterizə olunan Cimminin çıxışlarıdır. Obrazlar arasındakı dialoqların çoxu baş qəhrəman Cimminin, ritorikalar ilə zəngin monoloqlarından ibarətdir. Bu ritorik çıxışlar tamaşaçılar üçün səhnədə gördükləri şiddətdən daha təsirlidir.

Con Osborn bu pyesi sinif qarşıdurması yaşayan evli bir cütlüyün həyatını əks etdirir. Cimminin çıxışları yenidir, çünki ironiya və parodiya ehtiva edən bu çıxışlar həm kritik bir perspektivi əks etdirir, həm də daxilən çəkilən əzablara göndərmə xarakterini daşıyır. Cimmi içindəki dəhşətli qəzəbi İngiltərədə insanlar arasında mövcud olan sinif bərabərsizliyindən, ənənəvi cəmiyyətdən və ən əsası həyat yoldaşının üst sinifə mənsub olan ailəsindən çıxardır. İçinə düşdüyü dağıdıcı çarxın təsirindən xilas ola bilməməsinə səbəb olan bu qəzəbli basqılar şübhəsiz ki, Cimminin özünü, həyat yoldaşını və evliliyini məhv edir. Əsərdə Cimmi ilə tanış olduğumuz ilk andan etibarən pyesin sonuna qədər qəzəbini əldən buraxmır. Alison və Kliffi ətraflarındakı dünyayı olduğu kimi qəbul etdikləri və ittiham etmədikləri üçün tənqid edərək çox ağır bir dillə günahlandırır. Qəzəbi şiddət həddinə çatır və hirsinin çoxunu dostlarına və Alisonun ailəsinə yönəldir.

Osbornun demək olarkı bütün əsərlərinin mövzusu müharibədən sonrakı ingilis cəmiyyətidir. İngilis ədəbiyyatı yarım yüz ildir davam edən durğunluq və bəsitlikdən 1956-cı il 8 may tarixində "Qəzəblə geriyə bax" əsərinin "Royal Court" teatrında səhnə alması ilə yeni bir yola qədəm qoyur. Şübhəsiz ki, Con Osbornun daha sonrakı kariyerası üçün hər nə söylənirsə söylənsin, ilk pyesi olan "Qəzəblə geriyə bax" müharibə sonrası ingilis ədəbiyyatı üçün çox böyük həmlə hesab oluna bilərdi. Modern ingilis ədəbiyyatını incələyən hər kitab 8 may 1956-cı il tarixini "dönüm nöqtəsi" olaraq tarixcəsinə yazmışdır. Yazıçı ən vacib ilk həmlənı müvəffəqiyyətlə tamamlamasından sonra Con Arden (John Arden), Robert Bolt (Robert Bolt), Şela Delani (Sheila Delany), Harold Pinter, Arnold Uesker (Arnold Wesker) və digərləri bu hərəkatı davam etdirmişdir. Başqa bir deyimlə "Qəzəbli gənclər" hərəkatını tətikləyən və davam etməsini təmin edən Osborn olmuşdur. Siniflər arası uçurum ilə təpədən dırnağa bir-birindən qopmuş bir cəmiyyətdə, Con Osborn siniflərlə ən çox iç-içə olan və dəyişən sinfi quruluş ilə daha çox maraqlanan müəllif kimi görünür.

1950-ci illər ingilis cəmiyyətinin nə hər şeyi öz axarına buraxa bildiyi, nə də Cimmi Poter kimi problemlərin qarşısında dirənə bildiyi bir dövr idi. Yəni bu dövrdə İngiltərə xalqı nə şüurlu, nə də şüursuz olaraq vətəndaşlıq məsuliyyətlərini yerinə gətirə bilmirdi. Ölkənin hər keçən gün bir az daha pisə doğru gedən vəziyyətinə qarşı laqeyd qalmaq imkansızkən, içərisində yaşanan vəziyyət də şüurlu şəkildə heç bir şey etmək qeyri mümkün idi. Osbornun əsərlərinin qəhrəmanları öz dünyalarına çəkilmiş, yalnız və dahası bunun fərqində olan fərdlərdir. Cimminin ifadəsi ilə desək, yer üzündəki ən güclü canlılar ən yalnız görünənlərdir ***(6)*.** Fərdin bu çərçivədə özünü cəmiyyətdən kənarlaşdırması əsərin ən vacib sosial mövzularından biridir. Əsərlərdə xarakterlərin tez-tez istifadə etdikləri "yalnız qalmaq istəyirəm" cümləsi tək başına bu mövzunun önəmini vurğulamaq üçün yetərli olsa da əslində mövzunun önəmi, özümüzə sual verdiyimiz "yazıçının məqsədi nədir" sualının cavabında gizlidir. Cavab isə Osbornun oxucusunu insan varlığının təbiəti üzərində düşünməyə sövq etməsidir. Digərlərində fərqli olduğunun fərqində olduğu üçün Cimmi ətrafda gördüyü haqsızlığa qarşı qəzəblidir. Ancaq o, bunu dəyişdirə bilmir. Buna görə də çarəsiz, yalnız və məğlub edilmiş olaraq ümidsizlik içində sosial həyata duyduğu nifrətlə yalnızlığa təcrid olunmuşdur.

Cimmi savadlı və mədəni bir gənc olmasına baxmayaraq, inanılmaz dərəcədə çürümüş bir cəmiyyətlə qarşı-qarşıya qaldığından, nəsə etməyə çalışsa da heç cürə çıxış yolu tapa bilmir. Cimmi yaşadığı bu vəziyyətdən razı deyildir, ancaq onun başqa çarəsi də yoxdur. Qəzəbli olması isə əslində onun digərlərindən daha çox həssas və qayğıkeş bir fərd olduğunun göstərgəsidir. Cimmi Porter xarakteri ilə əslində Con Osborn cəmiyyətə qarşı yönələn qəzəbinin, hirsinin təbiətini ortaya qoyur.

Sinfi bərabərsizlik konsepsiyası Con Osbornun əsərlərinin ortaq özəlliyidir. Ancaq yazıçı bu məsələni daha çox "Qəzəblə geriyə bax" əsərində qabarıq şəkildə

vermişdirş 1957-ci ildə dahi Oxfordun yalnızca yüzdə on üçünü çalışan sinifdən gələn universitet tələbələri təşkil edərkən, Kembric universitetində bu vəziyyət yalnızca yüzdə doqquzdur. Onsuz da aldıqları təhsil də, aruladıqları mövqeyə gəlmələri üçün yetərli olmamaqdadır. Ənənəvi sinif zəkasına sahib bir cəmiyyətdə, Cimmi heç bir sinifə aid deyildir, yəni universitet təhsili almasına baxmayaraq üst sinif üzvü olan bir fərd ola bilməmişdir. Cimmi xarakterini nəslinin və sinfinin protesto simvolu olaraq Leslie Korinaya görə pyesdə "sinif anlayışı açar sözdür*"(1).*

Əsərin ilk pərdəsində hadisələr Cimmi və Alisonun İngiltərənin mərkəzində böyük bir qəsəbədə tək otaqdan ibarət evlərində cərəyan edir. Bu hissədə oxucular Cimmi Porter, üst təbəqədən olan həyat yoldaşı Alison və qonşuları Kliff ilə tanış olurlar. Sıxıcı bir bazar axşamında Cimmi ikiüzlü məmurlara, Alisonun təhsilinə, ailəsinə, dostlarına nəlayiq sözlərlə basqı edirdi. Bundan sonra Kliff ilə mübahisə apararkən Cimmi ütü stolunu aşırır və isti ütü Alisonun qolunu yandırır. Cimmi çıxıb getdikdən sonra, Alison Kliffə hamilə olduğunu, fəqət Cimmiyə bu haqda bəhs etməkdən qorxduğunu söyləyir. Cimmi geri qayıdan zaman, Alison aktrisa olan rəfiqəsi Helena Çarlzın işləri səbəbindən onlarla qalacağını öyrənir və yeni bir söz-söhbət daha yaranır.

İkinci pərdədə isə Helena orta sinif əxlaqına və Cimmiyə qarşı olan nifrəti ilə cütlük arasındakı münasibətləri daha da pisləşdirir. Bundan sonra Alisonu Cimmiyi tərk edib ailəsinə geri dönməyə ikna edir. Ancaq Helena özü Cimminin evində qalır və pyesin ikinci pərdəsinin sonunda Alisonun yerinə almış görünür.

Üçüncü pərdənin əvvəllində Helena Alisonun yerində ütü ütüləyərkən təsvir olunur. Lakin Cimminin həyatındakı bu yeni vəziyyət uzun sürmür. Çünki Helena və Kliff evdən ayrılacaqlarını söyləyərkən Alison uşağını itirmiş vəziyyətdə Cimmiyə geri dönür. Əsər Alison və Cimminin yenidən birləşmələri ilə sona çatır.

Əslində əsər boyu Cimminin qəzəbi ümumiyyətlə bir nəfərə yönələrək başlayır və daha sonra geniş vüsət alaraq başqa sahələrə sıçrayır. Əsər boyunca bu hal həmişə belə davam edir. Məsələn, Alisonun həm özünə, həm də içində yaşadığı cəmiyyətə qarşı reaksiyasız və laqeyd davranışlarında görə Cimmi onu mühakimə edərkən, əslində Cimmi qəzəbi hakim sinfin idarəçilik sisteminə qarşı olan qəzəbi idi. Cimmi hələ 10 yaşlarında olarkən "sevgi, pislik və ölümün", "qəzəb və çarəsizliyin" ***(6, s.47)*** nə demək olduğunu İspaniya Vətəndaş Müharibəsindən geri qayıdan və gözlərinin önündə yoxluq üçündə ölən atası ilə istəyib də yaşamadığı münasibətdən öyrənmişdir. Cimmi həm fiziki, həm də mənəvi aclığını təmin edə biləcək bir ata ocağından məhrum böyümüşdür. Anası oğluna və müharibədən qayıdan ərinə lazımi diqqəti göstərməmiş və zamanının çoxunu Cimminin dili ilə desək, orta sinifdən "dəbə uyan, şık və cəlbedici insanlarla" dost olmağa çalışmaqla keçirir. Cimminin uşaqlığında yaşadığı bu travma onun böyüyüb evləndiyi zaman ondan məhrum edilmiş bu mühiti, yəni sevgi və anlayış üstündə qurulu olan nizam-intizamı öz evində yaratmasına mane olacaqdır.

Cimminin qəzəbi və tənqidləri əsərdə səhnə arxasındakı iki xəyali səs ilə çox təsirli bir şəkildə əks olunmaqdadır. Bunlardan biri kilsənin zəngidir, digəri Cimminin xüsusən də axşamları işdən evə qayıtdığında truba ilə ifa etdiyi cazdır. Kilsənin zəngi bu ailənin yaşadığı kiçik bir yaşayış sahəsindəki tək otağı öz əsarəti altına alarkən, cəmiyyətdə mühüm bir yer tutan kilsənin əslində isə bu ailənin sıxıntılarına qarşı duyarsızlığı əks olunmuşdur. Caz isə Cimmi səhnədə deyilkən belə onun səhnə üstündəki hökmünə işarət edir. Caz musiqisinin illərcə Amerikada köləlik utancı içində yaşamaq məcburiyyətinə məhkum olunduğunu və əzilən bir irqin özünəməxsus cavab reaksiyası olduğunu gözlər önünə gətirsək, cazın Cimmi xarakteri üçün hakim quruluşa qarşı olan reaksiyasının konkret göstərcisi olduğunu deyə bilərik.

Con Osborn "Qəzəblə geriyə bax" əsərində öz mənliyində hiss etdiyi problemlərin təsviri olaraq Cimmi Porter kimi bir xarakter yaratdı. Cəmiyyətin və yeni nəslin problemlərinə qarşı diqqətsiz qala bilməyən dramaturq, sosial ziddiyyətlərə qarşı hiss edilən qəzəbin səbəb olduğu gərginliyi əsərlərinin bütün sətirlərində əks etdirə bilmişdir.

Ədəbiyyat

1. E. Dyson, "Look Back in Anger", Modern British Dramatists: A Collection of Critical Essays, Ed. John Russell Brown, (Englewood Cliffs, N. J.: Prentice-Hall, Inc, 1968), s. 60
2. BARNHART, J. E. (2005). Dostoevsky's Polyphonic Talent. Lanham: University Press of America
3. John Russell Taylor, Anger and After: A Guide to the New British Drama, (London: Penguin Books Ltd. Harmondsworth, Middlesex, 1963), s.153
4. HARRIS, C. (1994). "The Family in Post-war Britain". Understanding Post-war British Society. (eds. James Obelkevich ve Peter Catterall). London: Routledge.
5. Kenneth O. Morgan, Ed. The Oxford History of Britain, (Oxford: Oxford University Press, 1988), s. 641.
6. Osborne, John. Öfke: (Look Back In Anger) Oyun Üç Perde. Çevirenler: Ümit Tarakçı–Turgay Gönenç. İstanbul: Ataç Kitabevi, 1967
7. Taylor, John Rusell. Anger and After: A Guide to the New British Drama. London: Penguin Books Ltd. Harmondsworth, Middlesex, 1963. s. 15.

S.İbrahimova

CON OSBORNUN "QƏZƏBLƏ GERİYƏ BAX" ƏSƏRINDƏ "KİÇİK ADAM"

Xülasə

İngilis dramaturqu Con Osborn sosial tənqidçilər və yazıçılar qrupu olan "Qəzəbli gənclər"in Britaniyalı ilk nümayəndəsidir. Con Osbornun "Qəzəblə geriyə bax" adlı üç pərdəli pyesi 1956-cı ildə qələmə alınmış və 1957-ci ildə nəşr olunmuşdur. Pyes iyirminci əsr Britaniya dramaturgiyasındф inqilabın əvvəllərində əhəmiyyətli rol oynayır.

"Qəzəblə geriyı bax" əsəri Cimmi Porter və Alison Porterin çardaqda yerləşən bir otaqlı mənzillərində başlayır. Pyesdəki hadisələr 1950-ci illərdə İngiltərənin heç də böyük olmayan qəsəbələrindən birində cərəyan edir. Kliff və Cimmi hər ikisi işçi sinfindən olmaqlarına baxmayaraq, Cimminin təhsili Kliffdən daha yüksək idi. Onlar birlikdə şirniyyat dükanı işlədirlər. Alison isə daha tanınmış bir ailədəndir və Cimminin buna qəzəbli olduğu əsərin lap əvvəlindən hiss olunur. Daha çox monoloqlarının təşkil etdiyi danışıqlarının tonu əsasən tənqidlərdən ibarət olan Cimminin həyatında hər şey onu narazı salır və o, özünü müharibədən sonrakı narazı və məyus,ətrafına baxıb doğru şey tapmayan gənc nəslin sözçüsü kimi qiymətləndirir. Cimmi Porter üçün özünü göründüyü və ya daxilindəki kimi göstərə biləcək heç bir səbəb yoxdur. Düşünmək üçün belə heç bir konstruktiv bir şey görə bilməyən Cimmi qəzəbli bir şəkildə dönüb geriyə keçmişə baxır.

S.IBRAHIMOVA

"LITTLE MAN" IN JOHN OSBORN'S PLAY "LOOK BACK IN ANGER"

SUMMARY

The English playwright John Osborne was the first of Britain's "Angry young men" – a group of social critics and writers. "Look back in Anger", play in three acts by John Osborne, performed in 1956 and published in 1957. The play a significant role in the beginning of a revolution in twentieth century British drama.

"Lock back in Anger" begins in the attic flat apartment of Jimmy Porter and Alison Porter. The setting is mid -1950's small town England Jimmy and Alison share their apartment with Cliff. Cliff and Jimmy both come from a working class background, though Jimmy has had more education than Cliff. They are in business together running a sweet-stall. Alison comes from a more prominent family and it is clear from the beginning that Jimmy resent this fact. Everything in Jimmy's life makes him dissatisfied and the tone of his conversation, which is mainly monolugue

is always on of railing and complaint the regards himself as the spokesman for the younger post-wor generation, the mouthpiece of protest for a dissatisfied and frustrated generation which looks around at the world and finds nothing right with it. For Jimmy Porter there is no cause to which he can give himself genuinely and he, moreover, himself or within. He is looking back angrily as he cannot see anything construvtive to think about.

С.ИБРАГИМОВА

«МАЛЕНЬКИЙ ЧЕЛОВЕК» В ПЬЕСЕ ДЖОНА ОСБОРНА «ОГЛЯНИСЬ ВО ГНЕВЕ»

РЕЗЮМЕ

Английский драматург Джон Осборн был первым из британских «рассерженные молодые люди» группы социальных писателей. «Оглянись во гневе» пьеса в трех действиях написанная в 1956 году и опубликованная в 1957 году. Пьеса играют значительную роль в начале революции в британской драматург двадцатого века.

«Оглянись во гневе» начинается в мансардная квартира Джимми Портера и Элисон Портер. Действие пьесы происходит в небольшом городке Англии в середины 1950-х годов. Клифф и Джимми оба из рабочего класса, хотя у Джимми больше образования, чем у Клиффа. Они вместе занимаются бизнесом, управляя ларьком для сладостей. Элисон происходит из более известной семьи, и с самого начала было ясно, что Джимми возмущался этим фактом. Все в жизни Джимми делает его недовольным и тон его разговора, который в основном монолог, всегда на перилах и пожаловаться на самого себя как представитель для молодого послевоенного поколения, выразитель протеста для неудовлетворенных и расстроенного поколения который смотрит на мир и находит ничего правильного с этим. Для Джимми Портера нет причины, которой он мог бы искренне отдаться, а тем более - себе или внутреннему. Он сердито оглядывается, так как не видит ничего конструктивного, о чем можно было бы подумать.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Rəyçi: Filologiya elmləri doktoru, professor
Cəlil Nağıyev tərəfindən çapa tövsiyə olunmuşdur

RƏY

NAMİQ ƏHMƏDOV
Bakı Dövlət Universiteti,
Beynəlxalq Jurnalistika və informasiya siyasəti
kafedrası (Zahid Xəlilov küçəsi, 23).
E-mail: tuqay59 @ mail.ru

RÜFƏT RÜSTƏMOVUN BƏDİİ YARADICILIĞINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR VƏ HƏYATİ GERÇƏKLİKLƏRƏ SEVGİ
(“Köç” kitabı haqqında)

Xülasə

Məqalə Rüfət Rüstəmovun “Köç” adlı hekayələr toplusu haqqındadır. Müəllif kitabda toplanmış hekayələri həyat hekayələri adlandırır və yazır ki, bu əsərlər hər kəsin yaşadığı, şahidlik etdiyi həyatın bir parçası olmaqla, ömrümüzün və taleyimizin gerçəkliyi olmaqla bizim reallıqlarımızdır. İstər bir döyüş səhnəsi, istər hər hansı bir mərasim olsun, yaxud kiminsə bir səfərə hazırlığı, yaxud məhəbbət ya məişət səhnəsi olsun - bütün bunlar həyatımızın tam bir şəkildə özüdür. Ona görə də bu hekayələri oxuduqca hər kəs burada öz həyatının və taleyinin bir parçasını tapır. Sanki “Köç” müəllifi bunları yazmamışdan öncə məsləhətləşdiyi insanlar sırasında, yaxud onunla bir kəndə böyüyən uşaqlardan biri də mən olmuşam. Hətta bu hekayələri oxuduqca hərdən mənə elə gəlib ki, mən də oxuduqlarımın iştirakçısıyam. Gözümün qarşısına orta məktəb, kənd həyatı, ilk görüşlər, tələbəlik illəri... daha nələr, daha nələr gəlməyib.

“Köc”də toplanan hekayələr həm də daha yaxşı və xeyirxah insan ola bilməyimizin reseptləridir. Onları oxuyan hər bir insan sanki bu hekayələrdə özünü tapır və bundan sonra ona elə gəlir ki, o, özünün daxili mənəvi gücünü görə bildiyi üçün, bəşəri hisslərini hər kəslə paylaşa biləcək şəkildə çatdırmağa müvəffəq olduğu üçün özünə inamlıdır, azad və xoşbəxtdir.

Elmi ictimaiyyət filologiya elmləri doktoru, professor Rüfət Rüstəmovu yaxşı tanıyır.Onun zəhmətsevərliyi və yaradıcılıq enerjisi Türkologiya elminə bundan sonra da yeni-yeni töhvələr vəd edir. Amma vədlərdən fərqli olaraq, oxuculara təqdim olunan “Köç” hekayələr toplusu isə hər bir oxucusuna yaşamaq və xoşbəxt olmaq üçün böyük ümidlər bəxş etməkdədir.

Açar sözlər: Rüfət Rüstəmov, oxucu, elm, türkologiya, “Köç”, hekayə.

Bəzilərinin məşhur fransız şairi Şarl Bodlerin, bəzilərinin də məşhur Dostoyevskinin adına yazdıqları "gözəllik dünyanı xilas edəcək" ifadəsi artıq xeyli vaxtdır ki, nəinki öz aktuallığını itirmir, əksinə bəzi məqamlarda da bu böyük deyimin az qala əsiri olursan. Amma "gözəllik" təşbehinin yanında sevgi, qeyrət, Vətən məfumlarını da görəndə xeyli dərəcədə rahat olursan. Düzü, son vaxtlar həm də yazıçı və publisist kimi tanıdığım Rüfət Rüstəmovun "Köç" adlı hekayələr toplusunu (5, 160 s.) vərəqlədikcədə bir daha bu dahiyanə deyimlə anladığım qədər baş-başa oldum. Ümumiyyətlə, dəyərli alimimiz, türkologiya sahəsində böyük xidmətləri olan Rüfət müəllimlə həmsöhbət olanda və ya kiminləsə onun haqqında danışanda belə istər-istəməz bu müqəddəs ifadələri onun həm görkəmi, həm də çoxlarına, o cümlədən doğmalarına belə örnək ola bilən, olduqca səmimi, xeyirxah və sadə həyatı ilə əlaqələndirirsən. Sanki indi də bu dəyər növbəsi onun bədii yaradıcılığına gəlib.

Düzü, bu hekayələr toplusu ilə tanışlığım həyatımda ən münasib olmayan bir zamanla üst-üstə düşməkdə idi-həm işin çoxluğu, bir sıra səfərlərə hazırlıq, digər tərəfdən də geckmiş elmi işlə məşğul olmaq və imtahanlar... Yəni həyatdan, dünyadan, insanlardan tamamilə təcrid olunaraq özümü olduqca "ciddi" bildiyim bu işlərə sərf etdiyim bir zamanda. Və belə bir məqamda Rüfət müəllimin hekayələri ilə üzbəüz idim. Əslində mənə təqdim ediləndə də qarşımda hansısa bir öhdəlik-filan da olmamışdı-sadəcə vərəqləmək, nəyəsə diqqət ermək. Mən də bir az yorğunluqdan uzaqlaşmaq niyyəti ilə qeyri-ixtiyari onlara tərəf əl uzatdım. Maraqlıdır ki, elə ilk tanışlıqdanda bu hekayələr mənə qəribə hisslər yaşatdı. Düzü yaşadıqlarım, daha doğrusu mənə yaşatdırılanlar olduqca zəngin, həm də xeyrxah bir duyğunun inikası idi. Bir tərəfdən heyranlıq hissi, digər tərəfdən doğmalıq hissləri məni hansısa ağlasığmaz və çox şirin bir dunyanın sakini etmişdi.

Biz həyatdan, cəmiyyətdən geninə-boluna danışa bilərik, milli dəyərlərimizi, əxlaqi-mənəvi keyfiyyətlərimizi zamanın fövqünə də ucalda bilərik və nəhayət, Türkün böyüklüyü önündə milyon dəfə səcdə də edə bilərik. Amma Rüfət müəllimin hekayələrini oxuduqca bizi əhatə edənlərin böyüklüyünə və ululuğuna qəribə bir vurğunluq yarandı məndə. Digər tərəfdən başa düşə bilmirdim ki, necə ola bilər ki, hələ keçən əsrdən-tələbəlik illərindən tanıdığım Rüfət müəllimin bədii dünyasının zənginliklərini indiyə kimi niyə görə bilməmişəm?!

Beləcə bu hekayələrlə saat-saat, gün-gün yol getməyə--oxumağa başladım. Hər hekayə başladığım bu yolda sanki bir dayanacaq idi. Birinci, ikinci... onuncu dayanacaq...Hər dayanacaqdan sonra ürəyim çırpınmağa başlayır, sanki yeni bir həyat başlayırsan və anlayırsan ki, öz həyatı və yaradıcılığı ilə hər kəs bu dünyanın bir parçasıdır. Və bir az mücərrəd olsa da bu hekayələr bir daha göstərdi ki, hər birimizin istənilən an qarşılaşa biləcəyimiz həqiqətlər qədər də qanunauyğunluqlar var və hər birimiz bu diaqnozların əhatəsindəyik. İstər-istəməz yadıma unudulmaz müəllimimiz, böyük insan və milli yazıçı Mir Cəlalın tənqidci və ədəbiyyatşünas Elcin haqqında yazdığı "...bədii əsərin təhlilində çılpaq, sırf ictimai məzmun ilə

kifayətlənmək olmaz. Burda sənətkarlıq məsələlərinin təhlili öz ləyaqətli yerini tutmalıdır" (1, s.5) deyimi düşdü. O dəqiqə də anladım ki, məhz Rüfət müəllimin sənətkarlığı, peşəkarlıqla təqdim etdiyi yaşadığımız mühit və məkan eyniliyi bu hisslərin doğmalığını ortaya qoyur. Amma bir az qlobal baxanda uşaqlıq illərinin uzaq xatirəsi və bu kimi duyğular bir ingilis, fransız, italiyan üçün nə hisslər aşılayırsa, şübhəziz ki, bir azərbaycanlı üçün də bir o qədər doğma və əzizdir. Sadəcə həyat və yaşamaq qədər ülvi bu həqiqəti bəlkə də hər sətrində yaşadır bu hekayələr. Hekayələri oxuduğum zaman müəllifin onları necə sevərək və yaşayaraq yazdığını da anladım. Bu çox vacibdir. Əslində bu xüsusiyyət hekayələri doğmalaşdırır, daha asan və anlaşılan edir. Hekayələr tarixi aspektdə olsa belə müasir dünya ilə birbaşa əlaqəlidir və real həyati həqiqətlər üzərində qurulub. Ola bilsin ki, bu deyimi təsdiqləmək üçün "Çökə çüyü" (5, s.129-142), "Zarafat" (5, s.71-79), "Ruhlar da danışır"(5, s.64-70), "Ata heyfim gəldi"(5, s.106-111) və başqa hekayələrdən nümunələr də gətirim və bu barədə müəllifin verdiyi imkanlar o qədər genişdir ki, gətirəcəyim misallar da hər bir hekayəyə aid edilə bilər.

Hekayələrin məğzi və qayəsi haqqında danışmaq istərkən Rüfət muəllimin "Bu dağlardan bir Çahangir kecdi" kitabını xatırladım və həmin kitabın "Giriş" hissəsində diqqəti çəkən fəlsəfi amal yadıma düşdü: "İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarliqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir" (4, s.34) söyləyən müəllif bu fəlsəfi, həm də həyati çağrışı indi yazdığı hekayələrdə də tam təsdiqini tapır. Həm də bu barədə danışan müəllif "...vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq..." fəlsəfəsinə, "vətənpərvərlik həm də Vətənin naminə can vermək, həm də Vətən naminə ölməkdir!" həqiqətinə bir mənəvi inam yaradır, həyatın qayəsini inandırıcı bir şəkildə ortaya qoyur. İstər "Köc"- kitabdakı hekayə nəzərdə tutulur (5. s.27-45) olsun, istər "Ayı əhvalatı" (5, s.86-94), yaxud "Ananı yaşadan bulaq"(5, s.8-26)--hər bir hekayədə müəllif bu fəlsəfi ənənələrinə sadiqdir.

Ola bilsin ki, bu hekayələr ilk baxışdan bir-birinə çox bənzəyir. Çünki qəhrəmanların adları müxtəlif olsa da hamısı, eləcə də həmin qəhrəmanların yaşadıqları, şahidi olduqları, iştirak etdikləri hadisələr, mənzərələr demək olar ki, hər gün görüb eşitdiyimiz hadisələrin az qala təkrarı təsirini bağışlayır. Tənqidçi Əhəd Hüseynov şair Əli Kərimin «Üçüncü atlı» adlı poeması haqqında vaxtıilə yazırdı: "Müəllif təbiət qoynunda sakit görünən, xanəndənin, aşığın səsindən xəyala dalan, musiqinin bütün gözəlliklərinə daxilən məftun olan, azərbaycanlıların açıq ürəkliliyinə, qonaqpərəstliyinə, cəsurluğuna qəribə bir heyranlıqla baxan" Lermontovu ancaq müşahidəçi kimi göstərməmişdir (3, s.38). Yəni müəllifin özünün də vurğuladığı kimi, bu həyat hekayələri demək olar ki, hər kəsin yaşadığı, şahidlik etdiyi həyatın bir parçası olmaqla, ömrümüzün və taleyimizin gerçəkliyi olmaqla,

bizim reallıqlarımızdır. İstər bir döyüş səhnəsi, istər hər hansı bir mərasim olsun, yaxud kiminsə bir səfərə hazırlığı, yaxud məhəbbət ya məişət səhnəsi olsun- bütün bunlar həyatımızın tam bir şəkildə özüdür. Ona görə də bu hekayələri oxuduqca, əminliklə deyə bilərəm ki, hər kəs öz həyatının və taleyinin bir parçasını tapır burada, eləcə də mən. Sanki müəllif bunları yazmamışdan öncə məsləhətləşdiyi insanlar sırasında, yaxud onunla bir kəndə böyüyən uşaqlardan biri də mən olmuşam. Hətta bu hekayələri oxuduqca hərdən mənə elə gəlib ki, mən də oxuduqlarımın iştirakçısıyam... Gözümün qarşısına orta məktəb, kənd həyatı, ilk görüşlər, tələbəlik illəri, daha nələr, daha nələr gəlməyib.

Yazıçının böyük uğuru təkcə hadisələrin təsvirində yox, həm də xüsusi bir duyğu ilə təqdimat etmək məharətindədir. Əslində istənilən bir mənzərəni rəssam fırçasıyla və ya foto aparatla çəkib təqdim etmək olar. Amma peşəkarlıq onun kimin və necə çəkməyindədir. Hər kəsin qəbul edə biləcəyi təqdimatın bir adı var: peşəkarlıq! Təbii ki, indi haqqında danışdığım bu sənət nümunələrində də bu məqam, təkcə üstünlük təşkil etmir, həm də onun qayəsini peşəkarcasına ortaya qoyur. Bəlkə də buna görədir ki, söylənilənlərin həyatiliyini çox asanlıqla qəbul edirik.

Bir də hərdən mənə elə gəlir ki, Rüfət müəllimin bu hekayələri həm də, daha yaxşı insan ola bilməyimizin reseptləridir. Onları oxuduğum zaman mənə elə gəlib ki, daxili mənəvi gücünü görə bildiyi üçün, hisslərini hər kəslə paylaşa biləcək şəkildə çatdırmağa müvəffəq olduğu üçün o, xeyli azad və xoşbəxtdir. Baxın nəvənin xoş duyğularını bölüşən, onun sakit və xoşbəxt dünyasında yaşayan müəllif həm də məsum bir uşaqdır: “mən yaxınlaşdıqca səslər çoxalırdı. Cingizin yeganə nəvəsi Fidanın səsi məni məftun etdi” (5, s.48). Yaxud “...bu quzular analarının yan-yörəsində qaçışır, arada bir də qabaq ayaqlarının dizlərini yerə qoyaraq analarını əmirdilər. İlahi, nə gözəl mənzərədir! Dünyadan xəbərsiz bu varlıqların çıxardıqları oyunları insan seyr etdikcə bütün dərdi-qəmi unudur” (5, s.51). Bütün insanlar kimi onun da qəlbində qəm, kədər, nəşə, narahatlıq, nifrət və məhəbbət duyğuları vardır: “insan oğlu o gözəl günləri xatırlayanda kecmişini görür” (5, s.27). Yazdığı hər bir söz ona öz hisslərinin öhdəsindən gəlməklə yanaşı, eyni zamanda onları bölüşmək imkanı da yaradır. Bu hisslərin hər biri onun o anda nə söyləməyə çalışdığını və nələr hiss etdiyini göstərən fərqli və özünəməxsus keyfiyyətlərə malikdir: “Axıncı cayı elə bil gəlib-gedənlərə layla çalırdı. Onun çox möcüzəli səsi var idi” (5,s.43). Onun ehtiyac duyduğu şey heç də sadəcə hansısa bir yeni əsərinin müəllifi olmaq deyil, daha çox öz varlığının dərinliyindəki və ətrafındakı gözəlliyi, səmimiyyəti ortaya qoymaqdır: “Təbiətin kəndimizə verdiyi gözəllik məni məftun etmişdi. Hər tərəf bu qar kimi çox təmiz və pak idi” (s.48). Ruhun saflığından gələn bu gözəllik isə heç bir duruluqla müqayisə ediləsi deyil...

Azərbaycanın xalq yazıçısı Mirzə İbrahimov “Mənəvi saflığa çağırış” məqaləsində yazırdı: “hər fərdin xoşbəxt güzəranı, xoş əhval ruhiyyəsi, səmərəli fəaliyyəti mütləq həm özünün mənəvi saflığı ilə, həm də başqa insanlara, onların nə

cür insan və vətəndaş olması ilə bağlıdır" (2,s.5). Təbii ki, bu dəyərli mənəvi prizmadan baxanda elmi ictimaiyyət professor Rüfət Rüstəmovu yaxşı tanıyır. Onun zəhmətsevərliyi və yaradıcılıq enerjisi türkologiya elminə bundan sonra da yeni-yeni töhvələr vəd edir. Amma vədlərdən fərqli olaraq, oxuculara təqdim olunan bu hekayələr toplusu isə hər bir oxucusuna yaşamaq və xoşbəxt olmaq üçün böyük ümidlər bəxş edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Mir Cəlal. Tənqid və nəsr haqqında. Elçin.Tənqid və nəsr. Bakı, Günəş,1999, s.212
2. İbrahimov Mirzə. Mənəvi saflığa çağırış. Elçin. Povestlər. Bakı, Gənclik, 1979,s.5
3. Hüseynov Əhəd. Tənqid və ədəbi proses. Bakı, Nurlan, 2009, s.78
4. Rüstəmov Rüfət. Bu dağlardan bir Çahangir kecdi. Bakı,"Elm və təhsil", 2015, 240 s.
5. Rüstəmov Rüfət. Köç. Bakı,"Elm və təhsil", 2017 , 160 s.

Redaksiyaya daxil olma tarixi: 21.02.2021.
Çapa qəbul olunma tarixi: 05.03.2021
Filologiya elmləri doktoru, professor Nəsir Əhmədli tərəfindən çapa tövsiyə olunmuşdur

MÜNDƏRİCAT

DİLÇİLİK

NADİR MƏMMƏDLİ
ONLAYN İŞGÜZAR KOMMUNİKASİYA VƏ
KOMPÜTER-İNTERNET DİSKURSU 3
VÜQAR QARADAĞLI
HƏFS İLƏ VƏRŞ RƏVAYƏTLƏRİ ARASINDA LEKSİK-QRAMMATİK
SƏCİYYƏLİ FƏRQLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ (II HİSSƏ)..... 15
AFAQ RAMİZ qızı AĞAYEVA
VERBAL NİTQ VƏ ONUN PRİNSİPLƏRİ
(Texniki ali məktəblərdə "Azərbaycan dilində ışgüzar və akademik
kommunikasiya" fənni üçün nəzəri material)..... 82
GÜLŞƏN MEHDİYEVA
HƏRBİ MƏZMUNLU MƏTNLƏR MƏTNİN
NÖVLƏRİNDƏN BİRİ KİMİ 90
ŞAHNABAD CƏLİLOVA
DİLÇİLİKDƏ SİNTAQM ANLAYIŞI 98
АИДА МИРЗАЕВА
СЕМАНТИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ АНГЛИЙСКИХ
ЭТНОНИМОВ 107
МАХМУДОВА НИЛУФАР КАРАБЕКОВНА
ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ СВОЙСТВА АББРЕВИАТУР..... 113
АЛИЕВА ИРАДА
ОСОБЕННОСТИ ОБУЧЕНИЯ ЧТЕНИЮ
СТУДЕНТОВ-ИНОСТРАНЦЕВ НА НАЧАЛЬНОМ ЭТАПЕ 119
HÜSEYNOVA NILUFƏR MAARIF QIZI
XARICI DILLƏRIN TƏDRISINDƏ TƏTBIQ OLUNAN DIDAKTIK
OYUNLARIN MƏQSƏDI VƏ OYUN FƏALIYYƏTLƏRI 127
HƏSƏNOVA FİRUZƏ
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN X-XI SİNİFLƏRİNİN AZƏRBAYCAN
DİLİ DƏRSLƏRİNDƏ TƏTBİQİ DİLÇİLİK MƏSƏLƏLƏRİNİN
TƏDRİSİ 136
NƏRGİZ RƏCƏBOVA
AZƏRBAYCAN DİLİNDƏ "HƏYAT" KONSEPTİ
VƏ ONUN MİKROKONSEPTLƏRİ 142
ŞƏMSİ HÜSEYNOV
ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ SİNTAKSİS
TƏLİMİNİN TƏDRİSİNƏ DAİR ÜMUMİ MƏSƏLƏLƏR..... 148

VƏFA ABBASOVA
"KOMMUNİKASİYA" VƏ "ÜNSİYYƏT" ANLAYIŞLARI 156
ŞAHMALIYEVA NÜBAR ƏKRƏM QIZI
ЛЕКСИЧЕСКИЕ ЗАИМСТВОВАНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ 163
NİGAR RAFAEL QIZI BƏŞIROVA
PECULIARITIES OF THE INTERNATIONAL PHRASEOLOGICAL UNITS IN MODERN ENGLISH 171
AMİD İSMAYILOV
DİL TƏLİMİNDƏ ÜMUMİLƏŞDİRMƏDƏ İTEQRASİYA MÜHÜM VASİTƏ KİMİ 179
BUDAQOVA AYNUR MUXTAR QIZI
SƏLİMOVA SEVİNC QİSMƏT QIZI
TƏRCÜMƏ PROSESİ, BEYİN VƏ DİL 187
HÜSEYNOVA ÜLKƏR ELMAR
XVI ƏSR TƏRCÜMƏ ABİDƏSİ "ŞÜHƏDANAMƏ"DƏ HƏRBİ TERMİNOLOJİ LEKSİKA 195
TÜNZALƏ MANAFOVA
AZƏRBAYCAN DİLİNDƏ "ALLAH" KOMPONENTLİ FRAZEOLOJİ VAHİDLƏRİN STRUKTUR-QRAMMATİK XÜSUSİYYƏTLƏRİ 204
AYNUR MIRƏLI QIZI RZAYEVA
NƏSİMİ YARADICILIĞINDA MƏTNYARATMA VASİTƏLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ 213
ƏLƏKBƏROVA NƏRGIZ ŞAKIR
AZƏRBAYCANDA MAŞIN TƏRCÜMƏSI 220
SƏLIMOVA ÜLKƏR BAHADIR QIZI
MİR CƏLAL DİLİNİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 229
QARA MƏŞƏDIYEV
AZƏRBAYCAN DILININ DIALEKT LEKSIKASINDA MƏIŞƏT ƏŞYALARININ ADLARI ILƏ BAĞLI SÖZLƏR VƏ ONLARIN ÜMUMTÜRK DILLƏRINƏ QARŞILIQLI INTEQRASIYASI 238
PƏRVİZ XOSROV OĞLU XASPOLADLI
AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ DÜZƏLTMƏ İSİMLƏRİN MORFOLOJİ GÖSTƏRİCİLƏRİNİN ÜMUMTÜRK DİLLƏRİNƏ QARŞILIQLI İNTEQRASIYASI 246

ƏDƏBİYYATŞÜNASLIQ

ELŞAD SƏFƏRLI
"TÜRKANƏ SÖZ"ÜN MİSİLSİZ USTADI 254
SƏBİNƏ ƏHMƏDOVA
AZƏRBAYCAN ƏDƏBİ MÜHİTİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ:ƏNƏNƏ VƏ NOVATORLUQ 274

RASİM SALMAN OĞLU HÜSEYNOV
ANADOLU TÜRK TƏSƏVVÜF ƏDƏBİYYATI (XIII-XIV ƏSRLƏR) 288
NƏRMİN SADƏDDİNLİ
BOZQURD XİLASKAR MİFOLOGEMİ 298
İLHAM QAZIZADƏ
XX ƏSRİN İKİNCİ YARISINDA AZƏRBAYCAN DRAMATURGİYASINDA YARANAN KOMEDİYALARIN SƏHNƏ TƏCƏSSÜMÜ (2-ci məqalə) 306
AYTAC KƏRİMLİ
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ SÖZÜN MƏCAZİ MƏNASININ TƏDRİSİ YOLLAR 317
CABBARZADƏ TURANƏ FAİQ QIZI
İNTERTEKSTUALLIQ BƏDİİ MƏTNİN TƏRKİB HİSSƏSİ KİMİ (ANARIN "AĞ QOÇ, QARA QOÇ" ROMANI ƏSASINDA).....323
ƏLİZADƏ FATMA ABBAS QIZI
"HƏYAT" QƏZETİ DÖVRÜNÜN İCTİMAİ DÜŞÜNCƏ SALNAMƏSİDİR 331
ŞÜKÜROVA MƏHBUBƏ
BƏDİİ ƏSƏRLƏRİN KOMPOZİSİYASININ TƏDRİSİ YOLLARI.....340
NƏRMİN VÜQAR QIZI HƏSƏNOVA
C.MƏMMƏDQULUZADƏNİN HƏYATI VƏ MƏKTƏBDARLIQ FƏALIYYƏTİNİN TƏDRİSİ YOLLARI.....345
MƏRYƏM BAĞIRLI
İBN HAMDİS YARADICILIĞININ JANR XÜSUSİYYƏTLƏRİ.....353
SELCAN QAFFARLI
BABA BƏY ŞAKİR SATİRASININ TƏNQİD HƏDƏFLƏRİ.....361
FARİZ QASIMBƏYLİ
MİRZƏ ƏLƏKBƏR SABİR YARADICILIĞINDA MƏHƏMMƏD PEYĞƏMBƏRƏ EHTİRAM 369
SƏDAQƏT ƏSGƏROVA,
AŞIQ AĞALAR MIKAYILOVUN YARADICILIĞI RƏNGARƏNGDIR 377
İBRAHİMOVA SƏLİQƏ VAQİF QIZI
CON OSBORNUN "QƏZƏBLƏ GERİYƏ BAX" ƏSƏRINDƏ "KİÇİK ADAM" 383

RƏY

NAMİQ ƏHMƏDOV
RÜFƏT RÜSTƏMOVUN BƏDİİ YARADICILIĞINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR VƏ HƏYATİ GERÇƏKLİKLƏRƏ SEVGİ ("Köç" kitabı haqqında) 392

«Elm və təhsil» nəşriyyatının direktoru:
Filologiya elmləri doktoru, professor Nadir MƏMMƏDLİ

Dizayn: Kamran İbrahimov

Çapa imzalanmış 05. 03. 2021
Şərti çap vərəqi 25 Sifariş № 42
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində hazır elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 050 -41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.